ATAXAN PAŞAYEV

# AÇILMAMIŞ SƏHİFƏLƏRİN İZİ İLƏ



2001
829

T3 (2A)
P 26

ATAXAN PAŞAYEV

# AÇILMAMIŞ SƏHİFƏLƏRİN İZİ İLƏ

70480.

M. F. A...
Azərbayc...
KİTABXA...

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI - 2001

70009

+ Ш6(2-Аз)-49

P 38(01)

P 38(01)
**Paşayev Ataxan.** Açılmamış səhifələrin izi ilə. — Bakı, "Azərbaycan" nəşriyyatı, 2001. — 536 s.

P $\frac{4804000000 - 038 (01)}{M670(07)-01}$ Sifarişlə

© "Azərbaycan" nəşriyyatı, 2001.

# MÜƏLLİFDƏN

*Azərbaycan müstəqillik əldə etdikdən sonra tariximizin bir çox dövr və mərhələlərinə, xüsusilə Sovet hakimiyyəti illərində tariximizin daha çox xalqdan gizlədilmiş sahələrinin öyrənilməsinə maraq kəskin şəkildə artmışdı. Bu məsələlərə aid əsas mənbələr isə bilavasitə respublikamızın dövlət arxivlərində mühafizə edilir.*

*Azərbaycan müstəqillik əldə etdikdən sonra uzun illər əksinqilabi burjua-mülkədar damğası vurularaq illərlə yalnız tənqid hədəfinə çevrilmiş 1918-1920-ci illərdə cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq xalqımızın dövlətçilik tarixində əvəzsiz rolu olmuş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyətinin öyrənilməsinə maraq xüsusilə artmışdı. Adamlar 70 il xalqdan gizli saxlanılmış və yalnız tənqid hədəfi olmuş Cümhuriyyət hökuməti haqqında daha çox bilmək istəyirdi. Məhz o vaxtlardan başlayaraq bu sətrlərin müəllifi Azərbaycan Cümhuriyyəti hökumətinin tarixinə və onun yaradıcılarının həyat və fəaliyyətlərinə aid dövri mətbuatda bir sıra məqalələr çap etdirmişdi. Bu məqalələrdə arxiv sənədləri əsasında Cümhuriyyət hökumətinin fəaliyyətinin bu və ya digər sahələrinə aid ilk dəfə məlumat verilirdi. Həmin məqalələr arasında bu kitaba daxil edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti", "Azərbaycan Cümhuriyyətinin Parlamenti", "Azərbaycan Cümhuriyyəti və Xalq Maarifi", "Azərbaycanda ilk təhlükəsizlik orqanlarının yaranması haqqında", "Fövqəladə Təhqiqat Komissiyası", "Azərbaycan" qəzeti necə yarandı?", "Bakını necə qorudular?" və başqa məqalələr də var idi.*

*Digər tərəfdən Azərbaycan Cümhuriyyəti hökumətinin yaradıcılarından və fəal rəhbərlərindən Ə.M.Topçubaşov,*

*F.X.Xoyski, N.Yusifbəyli, S.Mehmandarov, Ə.Şıxlinski və başqaları haqqında da məqalələr dərc etdirmişik.*

*Bütün bu məqalələr uzun illər ədalətsizcəsinə tənqid olunmuş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin və onun yaradıcılarının fəaliyyəti respublikamızın dövlət arxivlərində saxlanılan sənədlər əsasında işıqlandırılmış, onların fəaliyyətinin həqiqi qiymətini verməyə yönəldilmişdir. Bu məqalələrdə xalqımıza öz millətinin azadlığı və dövlət quruculuğu işlərində fədakarlıq göstərmiş, bu sahədə bütün məhrumiyyətlərə mərdliklə sinə gərmiş şəxslərin fəaliyyəti haqqında məlumat verməyə çalışmışıq.*

*Digər tərəfdən 1988-ci ilin fevralında ermənilərin xalqımızın əzəli torpağı olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı əzəldən düşünülərək, keçmiş Sovetlər İttifaqının rəhbərliyi, xüsusilə avantürist M.Qorbaçovun xeyir-duası ilə Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq deputatları Sovetinin qəbul etdiyi qanunsuz qərar xalqımızın böyük etirazına səbəb oldu. Ermənilərin bu hərəkətlərinin yaranmasının tarixi kökləri və səbəblərinin araşdırılması məsələsi gündəmə gəldi. Əlbəttə, ermənilər bu aksiyaya çox-çox əvvəldən hazırlaşmışdılar. Yalnız əlverişli məqam gözləyirdilər. Sovet hakimiyyətinin 70 ili ərzində Sovet təbliğatı azərbaycanlılarla ermənilər dostdu, qardaşdı ideyasını sırıdığı bir vaxtda ermənilər həm Ermənistanda, həm də İttifaq miqyasında Türkiyə və türklərə qarşı açıq, Azərbaycana və azərbaycanlılara qarşı isə üstü örtülü şəkildə ərazi iddiası irəli sürür, təbliğat aparırdılar. Respublikamızda isə bu haqda nəinki yazmaq, hətta belə sözləri dilə gətirmək belə yasaq idi.*

*Kitabın "Ermənilərin xalqımıza qarşı deportasiya və soyqırımı tarixindən" adlanan bölməsində 1988-ci ilin fevralından Dağlıq Qarabağ ermənilərinin ölkəmizin bu dilbər guşəsini Ermənistana birləşdirmək uğrunda "Miasum" pərdəsi altında hərəkata başladıqları vaxtdan biz arxivlərimizdə*



*saxlanılan və ermənilərin xalqımıza qarşı uzun illər boyunca törətdikləri yaramazlıqları ifşa edən sənədlərin aşkar edilməsi və xalqa çatdırılmasında əlimizdən gələni əsirgəməmişik.*

*İ.Stalin 1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 №-li qərarı imzalayır. Həmin qərarın davamı olaraq 1948-ci il mart ayının 10-da İ.Stalin tərəfindən imzalanmış SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 №-li ikinci qərarı meydana gəlir. İkinci qərarın əvvəlində göstərilirdi ki, o "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 №-li qərarına əlavədir".*

***Bu iki qərarın və onların yerinə yetirilməsi ilə əlaqədar digər tədbirlər əks etdirən sənədləri əldə edərək biz ilk dəfə olaraq 1988-1990-cı illərdə onlar haqqında mətbuatda geniş məlumatlar vermiş, "Respublika", "Vətən səsi", "Bakinski raboçi" qəzetlərində azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistandan deportasiyası haqqında geniş həcmli məqalələr dərc etdirərək burada həmin köçürülmənin mahiyyətini izah etməyə çalışmış, bu illərdə xalqımızın başına gətirilmiş müsibətlərdən geniş bəhs etmişdik.***

***SSRİ-nin dağılması, keçmişdə Sovetlər birliyinə daxil olan dövlətlərin müstəqillik əldə etməsindən məharətlə yararlanan ermənilər özlərinin uzun illər cildinə girdikləri quzu dərilərini çıxararaq həqiqi canavar dişlərini göstərdilər. Öz havadarları olan rus şovinist rəhbərlərinin ən fəal köməyi ilə Dağlıq Qarabağı ələ keçirməklə kifayətlənməyib, vaxt və imkan var ikən onunla qonşu, əhalisi tamamilə azərbaycanlılardan ibarət 7 rayonu da işğal edərək respublikamızın ərazisinin 20 %-ni ələ keçirmiş, bir milyondan yuxarı soydaşlarımızı öz vətənində***

*qaçqına çevirmişlər. Ermənilər işğal etdikləri rayonlarda azərbaycanlılara qarşı dünya tarixində yalnız ermənilərə xas vəhşilikləri yenidən təkrar etmişlər.*

*Ermənilərin XIX əsrin əvvəllərindən, yəni rus istilasından sonra Güney Qafqazda əsasən azərbaycanlılar yaşayan yerlərə köçürülərək burada artıb törətdikləri vaxtlardan başlayaraq, xüsusilə 1905-1907-ci, 1918-1920-ci illərdə xalqımızın başına açdığı müsibətləri əks etdirən "Tarixi həqiqətlər və erməni uydurmaları", "Bakıda 1918-ci il mart faciəsi", "Şamaxı faciələri", "Zəngəzur faciələri", "Quba qırğınları", "Qarabağ bölgəsində erməni vəhşilikləri", "Deportasiya" və başqa məqalələr bilavasitə tam tarixi sənədlər və ilk mənbələr əsasında qələmə alınaraq ermənilərin müxtəlif bölgələrdə xalqımızın başına açdığı müsibətlər işıqlandırılmışdır.*

*Bu illərdə, 70 ildən yuxarı yeddi möhür altında saxlanılan və xalqdan gizlədilmiş ermənilərin xalqımızın başına açdığı müsibətləri özündə əks etdirən Mirzəbala Məmmədzadənin "Ermənilər və İran", Məhəmməd Muradzadənin Bakıdakı 1918-ci il mart hadisələrinə həsr edilmiş "Mart hadiseyi-Əliməsi" adlı kitabçalarını da yeni əlifbaya çevirib nəşr etdirmişik. Həmin nəşrlər üçün yazılmış ön sözlər bu gün üçün də öz aktuallığını itirmədiyindən onları da bu kitaba daxil etdik.*

*Ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək hərəkatına başlayandan həyasızcasına bütün dünyaya belə bir fikri sırımağa çalışırlar ki, guya Dağlıq Qarabağ əzəli erməni torpağı olub 1920-ci ilin iyulunda İ.Stalinin erməni xalqına xəyanəti nəticəsində Azərbaycana birləşdirilib. Ermənilərin bu yalanını ifşa etmək üçün biz sırf tarixi sənədlər və materiallar əsasında "Ermənilər Dağlıq Qarabağa müxtariyyəti necə verdiriblər?" məqaləsində bu yalanın mahiyyətini açmağa və izah etməyə çalışmışıq. Bu məqalədə tarixi sənədlər əsasında gətirilmiş faktlardan da göründüyü kimi ermənilər heç vaxt Dağlıq Qarabağın əzəli*



*sakinləri olmayıb, onların cüzi bir hissəsi sonralar zaman-zaman İran şahları tərəfindən buraya yerləşdirilmişlər. Köklü şəkildə isə onlar XIX əsrin əvvəllərində Çar Rusiyasının İran və Türkiyə ilə apardığı müharibələr zamanı Güney Qafqazın işğalı ilə əlaqədar ruslar özlərinə arxa olaraq erməniləri buraya yerləşdirmişlər. 1923-cü ildə isə muxtariyyəti onlar indi həmişə söydükləri İ.Stalin, habelə S.Orconikidze, S.Kirov kimi havadarlarının himayəsi və köməyi sayəsində almışlar.*

*Kitaba ermənilərin ərazi iddialarını ifşa edən "Ermənilərin ərazi iddiaları necə yaranmışdı" məqaləsində isə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Rusiya Dövlət Tarix Arxivində və Azərbaycan Dövlət Tarix Arxivində saxlanılan sənədlər əsasında ermənilərin Güney Qafqazda artıb-törəmələrinin səbəbləri və onların ərazi iddiaları ilə bağlı məsələlərə aydınlıq gətirməyə çalışmışıq. Sənədlərdən də göründüyü kimi ermənilər özlərinin "Böyük Ermənistan!" yaratmaq kimi sərsəm ideyalarını həyata keçirmək yolunda heç nədən, hətta insanlığa xas olmayan ən alçaq yaramazlıqlara belə əl atmaqdan çəkinməmişlər.*

*Kitabın tarixdən səhifələr adlanan üçüncü bölməsində toplanmış məqalələrdə son illərdə xalqımızın tarixinin bu və ya digər məsələlərinə aid qaranlıq səhifələrini sənədlər əsasında işıqlandırmağa, bu haqda oxuculara ilk dəfə məlumat verməyə çalışmışıq. "Xeyirxahlıq mücəssəməsi" (H.Z.Tağıyev haqqında), "Azərbaycan Xeyriyyə Cəmiyyətləri", "Azərbaycanda Sovet totalitar rejimi necə yarandı?", "Naxçıvan Muxtariyyəti necə yarandı?" və başqa məqalələr məhz indiyə qədər gizli saxlanılan və ya oxucuya məlum olmayan sənədlər əsasında xalqımızın tarixində yeri boş qalmış ağ ləkələri doldurmaq məqsədinə xidmət etmişdir.*

*"Mirzə Cəlil haqqında yeni sənədlər", "Üzeyir dühası" adlı məqalələrdə isə xalqımızın bu iki böyük şəxsiyyətinin tərcümeyi-halına işıq tutan yeni sənədlərdən söhbət açılır.*

*Uzun illər Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivində işlədiyim zaman bu arxivin yaranması və təşəkkülündə böyük köməklikləri olmuş müəllimlərim Əziz Şərif və Abbas Zamanov haqqında yazdığım və oxucuların rəğbətini qazanmış sənədli xatirələrimi də bu kitaba daxil etmişəm.*

*Ümidvaram ki, bu kitaba daxil edilmiş məqalələr xalqımızın tarixinin bu və ya başqa məsələlərinə və dövrlərinə aid oxuculara müəyyən qədər məlumat verəcək. Onlara qaranlıq olan bəzi məqamlara aydınlıq gətirəcək. Əgər belə olarsa biz qarşımıza qoyduğumuz məqsədə çatdığımıza inanmış olarıq.*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNDƏN

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

ŞƏRQDƏ ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısında ən böyük xidməti ondadır ki, o özünün qısamüddətli fəaliyyəti dövründə Azərbaycanın istiqlaliyyətini elan etmiş, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübuta yetirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti necə yaranmışdı?

Zaqafqaziyadan Rusiyanın Müəssislər məclisinə seçilmiş və Böyük Oktyabr sosialist inqilabının qələbəsi nəticəsində Petroqrada gedə bilməmiş nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşırlar. Onlar Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar. Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprelin 9-da Zaqafqaziyanın Suverenliyini və Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti yaradıldığını elan edir. Lakin Zaqafqaziya Cümhuriyyətinin yaranması daxili və xarici siyasət sahəsində heç bir dəyişiklik gətirmir. Seymdə iştirak edən nümayəndələr arasındakı daxili ziddiyyətlər və xarici orientasiya məsələlərindəki əksliklər onların nümayəndələrinin ümumi dil tapmasına imkan vermir. Zaqafqaziya Seymində və hökumətində fəaliyyət göstərən hər üç millətin nümayəndələrindən hər biri öz millətinin mənafeyini ümumzaqafqaziya mənafeyindən üstün tuturdu. Onların ümumi platforması yox idi. 1918-ci il may ayının 25-də Zaqafqaziya Seyminin son iclası keçirilir. Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da öz istiqlaliyyətini elan edir.

Gürcüstanın ardınca Ermənistan da öz istiqlaliyyətini elan etməyə hazırlaşır. Belə bir şəraitdə Zaqafqaziya Seyminin

müsəlman fraksiyası da hərtərəfli müzakirədən sonra belə bir qərara gəlir ki, "əgər Gürcüstan öz istiqlaliyyətini elan edərsə onda bizim tərəfimizdən də Azərbaycanın istiqlaliyyəti elan olunmalıdır".

Zaqafqaziya Seymi dağıdıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycan istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökumətini yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır. Hərtərəfli müzakirədən sonra onlar belə ağır bir zamanda Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan edirlər.

Bu iclasda Milli Şuranın rəyasət heyəti seçilir. Rəyasət Heyətinə Türk (Azərbaycan - A.P.) Demokratik Federalistlər Partiyasının müsavatçıların və partiyasızların demokratik qrupu tərəfindən M.Hacınski, N.Yusifbəyov, X.Xasməmmədov, M.Cəfərov, Müsəlman Sosialist Bloku partiyalarından X.Məlikaslanov, C.Hacınski, sosial demokrat (menşevik) "Hümmət" partiyasından Ə.Şeyxülislamov, Rusiya müsəlmanlarının "İttihad" partiyasından isə doktor X.Sultanov daxil olur. Görkəmli siyasi xadim və publisist Məmmədəmin Rəsulzadə gizli səsvermə yolu ilə Azərbaycan Milli Şurasının sədri seçilir.

Mayın 28-də keçmiş Qafqaz canişininin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının iclası keçirilir. Uzun və hərtərəfli müzakirədən sonra Milli Şura Azərbaycanın istiqlaliyyəti haqqında bəyannamə qəbul edir. Bəyannamədə deyilirdi:

"Böyük Rusiya inqilabının cərəyanı ilə, dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcub bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayisiyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət Hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənub-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən ərai-ümumiyyə ilə intixab olunan Azərbaycan şurai milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənub-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərə münasibəti-Həsənə təsisinə əzm edər.
4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.
5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.
6. Məclisi-Müəssan toplanılcaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai-Milli və Şurai milliyəyə qarşı məsul hökuməti-müvəqqəti durur".

Sonra Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etməyi Şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırır. Hərtərəfli müzakirədən sonra ilk Azərbaycan hökuməti aşağıdakı tərkibdə təsdiq olunur:

F.Xoyski - nazirlər şurasının sədri və daxili işlər naziri, X.Sultanov - hərbi nazir, M.H.Hacınski - xarici işlər naziri, N.Yusifbəyov - maliyyə və maarif naziri, X.Xasməmmədov - ədliyyə naziri, M.Y.Cəfərov - sənaye və ticarət naziri, Ə. Şeyxülislamov - əkinçilik və əmək naziri, X.Məlikaslanov - yollar, poçta və teleqram naziri, C.Hacınski - dövlət müfəttişi.

Azərbaycan Milli Şurasının və hökumətinin yaranmasını, onların məqsəd və vəzifələrini izah etmək məqsədi ilə Zaqafqaziyanın azərbaycanlılar yaşayan şəhər və qəzalarına nümayəndə heyətləri göndərmək qərara alınır. N.Yusifbəyov, M.Rüstəmbəyov və doktor X.Sultanovdan ibarət ilk nümayəndə heyəti Gəncəyə göndərilir.

May ayının 30-da radioteleqraf vasitəsilə Azərbaycanın istiqlaliyyəti barəsində dünyanın bütün siyasi mərkəzlərinə - London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stokholm və s. şəhərlərinə rəsmi bəyanat verilir.

Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb tarixi şəraitdə fəaliyyətə başlayır. Bu vaxt Bakıda S.Şaumyan başda olmaqla Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. 1918-ci il mart hadisələrindən sonra Bakı Kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu itirir. Buna görə də onun təsiri Azərbaycan qəzalarına yayıla bilmir və burada hərc-mərclik hökm sürürdü. Öz təsir dairəsini bütün Azərbaycan ərazisində genişləndirmək məqsədilə 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçür. Bu vaxt Gəncədə real hakimiyyət hələ may ayının axırlarında 300 nəfərlik hərbi təlimatçılarla Gəncəyə gəlmiş Türkiyənin Qafqaz ordusunun baş komandanı Nuru paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoymuş, şəhərdə qayda-qanun yaratmışdır. Azərbaycan Milli Şurası və hökumətinin həyata keçirməyə çalışdığı tədbirlərin "Həddindən çox demokratik istiqamətindən" narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən



dairələrinin təsiri ilə Gəncədə real hakimiyyətə malik olan Nuru paşa buraya gəlmiş Azərbaycan Milli Şurası və hökumətini şübhə ilə qarşılayır. Hətta o, Milli Şuranın üzvlərini qəbul etməkdən belə imtina edir. Nəticədə Azərbaycan müstəqilliyi məsələsi böyük təhlükə qarşısında qalır. Nuru paşanın müşaviri və onun yanında böyük nüfuza malik olan Əhmədbəy Ağayev qarşılıqlı güzəştlər əsasında ümumi razılığa gəlməyi təklif edir. Bu təklifə görə Milli Şura buraxılmalı və bütün hakimiyyət yeni yaradılacaq hökumətə həvalə olunmalı idi. Həmin məsələni müzakirə etmək üçün 1918-ci il iyunun 17-də keçmiş şəhər idarəsi binasında M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti iclası açılır. Hökumətin sədri F.Xoyski hökumətin istefası bəyanatı ilə çıxış edir. Uzun müzakirədən sonra hökumətin istefası qəbul olunur və F.Xoyskiyə yeni hökumət təşkil etmək tapşırılır. Özünün yeni hökumət proqramı ilə çıxış edən F.Xoyski bildirir ki, yeni hökumətin başlıca vəzifəsi Azərbaycanın azadlıq və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır.

40480

Azərbaycan Milli Şurası F.Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ikinci hökumətini təşkil edir. Buraya müxtəlif partiya fraksiyaları və bitərəf nümayəndələr - M.Hacınski, N.Yusifbəyov, Ə.Topçubaşov, E.Cavanşir, X.Xasməmmədov, X.Sultanov, X.Rəfibəyov, X.Məlikaslanov, A.Aşurov, Ə.Əmircanov, M.Rəfiyev daxil olur.

Həmin iclasda Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin Azərbaycan müvəqqəti hökumətinin əlində cəmləşdirilməsi haqqında iki mühüm qətnamə qəbul olunur.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili və həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq Azərbaycan Milli Şurası bütün hakimiyyəti F.Xoyskinin

2.-3510



M. F. Axundov adına
Azərbaycan Dövlət
KİTABXANASI

sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq müəssislər məclisindən başqa heç kimə güzəştə getməsin.

Müvəqqəti hökumətin hüquq və vəzifələri haqqında digər sənəddə isə qeyd olunurdu ki, Azərbaycan hökuməti Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunların dəyişməsinə hökumətə səlahiyyət verilmir. Azərbaycan hökuməti altı aydan gec olmayaraq müəssislər məclisi çağırmalıdır. Qalan məsələlərdə hökumətə bütün hüquqlardan istifadə üçün səlahiyyət verilir.

Müvəqqəti hökumət Gəncədə çox çətin bir dövrdə fəaliyyətə başlayır. Yaranmış mürəkkəb şəraitdə hökumətin ilk tədbiri iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyət elan edilməsi oldu. Avqustun 11-də qəbul olunmuş hərbi mükəlləfiyyət haqqında qanuna müvafiq olaraq 19 yaşına çatmış vətəndaşların ordu sıralarına səfərbər edilməsi elan edildi. Müstəqil Azərbaycan qoşun hissələri yaratmaq işinə başlanıldı. Azərbaycanın istiqlaliyyəti üçün müdafiə edəcək ordunun yaradılmasının mühüm əhəmiyyəti var idi. Çarizm əsarətinin yüz ildən yuxarı Azərbaycan xalqına vurduğu ən böyük zərbə, şübhəsiz ki, bu müddət ərzində azərbaycanlıların orduya cəlb edilməməsi idi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti yarandıqda onu müdafiə edə biləcək öz ordusu yox idi. Belə bir ordunu yaratmaq üçün isə hərbi işi bilən milli kadrlar çatışmırdı. Buna görə də ordu təşkili azərbaycanlılar üçün çox çətin bir iş idi. Lakin ordusuz da Azərbaycan Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlaya bilməzdi. Ona görə Azərbaycan ordusunda beynəlmiləl bir zabit heyəti yaradılır. Bu işin təşkilini görkəmli azərbaycanlı generallar Səmədbəy Mehmandarov və Əliağa Şıxlinski öz üzərlərinə götürürlər. Azərbaycan Cümhuriyyətinin parlamenti və hökuməti qarşısında duran bir nömrəli vəzifə müstəqil Azərbaycan Cümhuriyyətinin ordusunu yaratmaq idi.



Artıq 1919-cu ilin axırlarında 25 minlik Azərbaycan ordusu iki piyada və bir süvari diviziyadan ibarət idi. Hərbi nazirlik 1920-ci ildə ordunun şəxsi heyətini 40 minə çatdırmağı planlaşdırırdı. Ordunu müvafiq silahlarla təmin etmək hökumətin başlıca vəzifəsi idi. Azərbaycan hökuməti və hərbi nazirlik bunun üçün əlindən gələni edirdi.

Eyni zamanda Azərbaycan hökuməti dövlət aparatının təşkili işini də davam etdirir. Azərbaycan dili dövlət dili elan olunur. Lakin çar hakimiyyət orqanlarının təhsil sahəsindəki müstəmləkəçilik siyasətinin nəticəsi olaraq Azərbaycan dilini mükəmməl bilən kadrların olmaması işi çətinləşdirirdi. Buna görə də müvəqqəti olaraq inzibati, məhkəmə və başqa iş sahələrində Azərbaycan dili bilən mütəxəssislər hazırlanana qədər rus dilindən istifadəyə yol verilirdi.

F.Xoyski kabinəsinin mühüm tədbirlərindən biri də iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat Komissiyası idi. Bu komissiyanın qarşısında Birinci Dünya müharibəsi illərində Zaqafqaziya ərazisində yerli müsəlmanlara qarşı törədilən vəhşiliklər və onların əmlakına qəsd ilə bağlı məsələləri araşdırmaq, bu işdə günahkar olanları aşkar etmək və onları məhkəmə məsuliyyətinə cəlb etmək vəzifəsi qoyulmuşdur.

Gəncənin çarizm zamanı ləğv edilmiş adı Azərbaycan hökumətinin 30 avqust tarixli qərarı ilə özünə qaytarıldı. Elə həmin qərarla Qaryagin qəzası da Cəbrayıl qəzası adlandırıldı. İyunun 30-da Zaqatala dairəsi əhalisinin xahişi nəzərə alınaraq dairənin Azərbaycan Cümhuriyyətinə birləşdirilməsi haqqında qərar qəbul olunur. Ümumiyyətlə, paytaxt Bakıya köçürülənə qədər Azərbaycan hökuməti Gəncədə ölkənin iqtisadi həyatı, dəmiryolunun bərpası və sair ilə əlaqədar bir sıra digər mühüm tədbirlər də həyata keçirmişdir.

1918-ci il iyulun axırlarında S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunası süqut etdi. Bakı Sovetinin eser — menşevik - daşnak nümayəndələrindən ibarət "Sentrokaspi diktaturası" Bakıda hakimiyyəti ələ keçirdi. Onlar Bakıda cəmi bir ay

yarım ömür sürə bildilər. 1918-ci il sentyabrın 15-də Türkiyə və Azərbaycan hökumətinin qoşun hissələri Bakıya daxil oldu. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olundu.

Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti istər ictimai-siyasi, istərsə də təsərrüfat və mədəni həyat sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başlayır. Müəssislər məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili işlər naziri və xalq maarif nazirindən ibarət Komissiya yaradılır. 1918-ci il noyabrın 9-da Azərbaycan hökuməti Azərbaycanın milli bayrağını təsdiq edir. Azərbaycanın milli bayrağı mavi, qırmızı və yaşıl rəngli parçadan hazırlanaraq üzərində aypara və səkkiz guşəli ulduz təsvir edilir.

1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda öz işini yenidən bərpa edir. İclasda çıxış edən Azərbaycan hökumətinin sədri Fətəli xan Xoyski Milli Şura üzvlərinə müraciət edərək bildirir ki, hökumətin müəssislər məclisini çağırmaq üçün hazırlıq işinə vaxtı çatmadığından Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura bu təkliflə razılaşır. Noyabrın 19-da Milli Şuranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclası 120 nəfərdən ibarət Parlament yaratmaq haqqında Azərbaycan hökuməti tərəfindən təqdim olunmuş qanun layihəsini qəbul edir. Milli Şura adından onun sədri tərəfindən imzalanmış " Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi hazırlanır. Noyabrın 29-da dərc olunmuş həmin müraciətnamədə deyilirdi:

"Vətəndaşlar! Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurai-millisi iqtizai-zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurai-millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-millini milli bir şəkildən çıxarıb da dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurai-milli dekabrın 3-



nə qədər 120 əzalıq bir məclisi-məbusan (parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məclisi-məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan məclisi müəssanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeini mühafizə edəcəkdir.

Vətəndaşlar! Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı tərk edəlim. Müqəddəratı - tarixiyyə hamımızı bir yerdə yaşamaq məcburiyyətində bulundurur. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək və müşküli-mənzilələrini rahatlıqla keçmək və yeni həyata ləyaqət qazanmaq üçün yaşayışımızı ağıl və insani əsaslar üzərində quralım, bir-birimizi sevəlim, bir-birimizə ehtiram edəlim.

Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb, bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi - səadətlərini hazırlamaq üçün onlar bir-birinə əl uzatmalı və yardım etməlidirlər.

Bu xüsusda ən böyük məsuliyyət və ağır vəzifə bilatəbii Azərbaycan türklərinə, müsəlman camaatına düşəcəkdir.Onlar bu torpaq üzərində yaşayanların ən böyük əksəriyyətini təşkil etdiklərindən daha ziyada fədakar və daha ziyada mütəhəmmül bulunmalıdırlar.

Əvət, vətəndaşlar, zamanın əhəmiyyətini dərk edəlim, hər millətin həqqini təslim edəcək sülhi-ümumi konqresi uzaq deyildir, o zamana qədər vətənimizi iğtişaşlardan qoruyalım, Azərbaycan məclisi - məbusanını təsis, hökumətini yenidən təşkil edəlim və var qüvvə və mücahidəmizlə sülhüümumə məclisinə hazırlaşalım.

**Yaşasın Azərbaycan məclisi-məbusanı!**
**Yaşasın Azərbaycan Cümhuriyyəti !"**

Müraciətnamədən göründüyü kimi, Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları bu ərəfədə Bakıya gəlmiş general Tomsondan istifadə edərək Azərbaycan parlamentinin açılmasına hər vasitə ilə mane olmağa çalışırdılar. General Tomsonla aparılan danışıqlarla əlaqədar və qəzalardan bütün deputatların vaxtında Bakıya gələ bilməməsini nəzərə alaraq parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. Həmin gün gündüz saat 1-də H.Z.Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında Azərbaycan parlamentinin ilk iclası təntənəli şəraitdə açılır. Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə böyük təbrik nitqi söyləyir. O deyir: "Bizim qaldırdığımız bayrağın üç rəngi: türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur. Bir dəfə qalxan bayraq bir daha enməz!".

Parlamentin sədri, sədrin müavini və 3 nəfər katibdən ibarət rəhbər orqanları seçilir. Sonra Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski çıxış edir. O öz səlahiyyəti müddətində müvəqqəti hökumətin gördüyü işlər haqqında məlumat verir və öz hökumətinin istefasını qəbul etməyi xahiş edir.

Parlament müvəqqəti hökumətin istefasını qəbul edib, yeni hökumətə rəhbərlik və yeni hökumət heyətinin tərkibini müəyyən etməyi yenidən F.Xoyskiyə tapşırır. Dekabrın 26-da Fətəli xan hökumət proqramı və hökumətin tərkibi barədə parlamentdə çıxış edir. Geniş müzakirədən sonra parlament F.Xoyski hökumətinin proqramına və hökumətin tərkibinə etimad göstərir.

Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti özünün həyatiliyi və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. O göstərdi ki, Azərbaycan xalqı parlament idarəçiliyi səviyyəsinə



yüksəlmişdir. O vaxt Azərbaycan bütün müsəlman şərqində yeganə parlamentli respublika idi.

1919-cu ilin axırına yaxın Parlamentdə 11 müxtəlif partiya fraksiyası və qrupunu 96 deputat təmsil edirdi. Parlamentdə qüvvələr nisbətən aşağıdakı kimi bölünürdü: Müsavat və bitərəflər fraksiyası (38 nəfər), "İttihad" (13 nəfər), "Əhrar" (6 nəfər), sosialistlər bloku (13 nəfər), partiyasızlar (4 nəfər), müstəqillər (3 nəfər), sol müstəqillər (1 nəfər), "Slavyan Rus Cəmiyyəti" (3 nəfər), erməni fraksiyası (5 nəfər), daşnaksütyun fraksiyası (6 nəfər), azlıqda qalan millətlər fraksiyası (4 nəfər).

Öz fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti parlamentinin 140 iclası keçirilmişdi. Parlamentdə 11 müxtəlif komissiya fəaliyyət göstərirdi. 1919-cu il dekabrın 25-nə qədər parlamentə ölkə həyatının müxtəlif məsələlərinə dair 215 qanun layihəsi daxil olmuşdur ki, onların da əksəriyyəti parlament tərəfindən qəbul edilmişdir. Öz sosial mənşəyinə görə parlament üzvləri arasında milli burjuaziyanın nümayəndələri üstünlük təşkil edirdi. Buraya 43 nəfər neft sənayeçisi, 12 nəfər iri tacir, 8 nəfər din xadimi və b. daxil idi.

Azərbaycan parlamenti və parlament tərəfindən təsdiq olunmuş Azərbaycan hökuməti çox mürəkkəb bir şəraitdə fəaliyyət göstərirdi. Elə bu vaxtlar Fransada qalib dövlətlərin beynəlxalq Versal sülh konfransı işə başlayır. 1919-cu il yanvarın 8-də Azərbaycan Cümhuriyyəti Parisə - sülh konfransına xüsusi nümayəndə heyəti göndərir. Nümayəndə heyəti qarşısında böyük dövlətlər tərəfindən Azərbaycanın istiqlaliyyətinin tanınmasına nail olmaq vəzifəsi qoyulur. Nümayəndə heyətinə Ə.M.Topçubaşov rəhbərlik edirdi. Onun üzvləri M.Hacınski, Ə.Şeyxülislamov, Ə.Ağayev, müşavirləri isə M.Məhərrəmov, M.Mehdiyev, C.Hacıbəyov idi. 1918-ci il noyabrın 17-də general V.Tomson başda olmaqla ingilis qoşun hissələri Ənzəlidən Bakıya gəlir. Bakı dəniz limanında qarşılanarkən V.Tomson İngiltərə, Fransa və Amerika

qüvvələrinin komandanı kimi söz verir ki, ingilislər Azərbaycan ərazisini "qorumaq üçün" buraya gəlirlər. Onlar Azərbaycanın daxili işlərinə qarışmayacaqlar. Lakin onun bu sözləri vəd olaraq qalır. Elə ilk gündən onlar Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmağa başladılar. O, özünü Bakının hərbi qubernatoru elan edir. Gəncə, Şuşa və Naxçıvana qoşun hissələri göndərir. İngilis komandanlığı Azərbaycan neft sənayesi və nəqliyyatına nəzarəti öz əlinə alır. Hətta bunun üçün Britaniya Neft Müdiriyyəti və Nəqliyyatı İdarəsi də yaradılır. 1919-cu ilin avqustuna qədər isə onlar Azərbaycandan 30 milyon puddan çox neft daşıyıb aparmışlar. Azərbaycanın dəmiryolu və su yollarında ingilislərə xüsusi imtiyazlar verilir. Lakin Azərbaycan parlamenti və Fətəli xan Xoyski hökumətinin yeritdiyi ardıcıl təmkinli siyasət general Tomsonun Azərbaycana qarşı münasibətini dəyişir. Dekabrın 28-də o, Azərbaycan hökumətini tanıdığını və onu Azərbaycanda yeganə qanuni hökumət hesab etdiyini bildirir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir vaxtda gənc respublikanın daxili və xarici siyasət məsələləri ilə, dövlət quruculuğu, təsərrüfat və nəqliyyat məsələləri, cümhuriyyətin müdafiəsi, maarif və mədəniyyətin inkişaf etdirilməsi sahəsində bir çox işlər görə bildi. Özü də nəzərə almaq lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu işləri çox mürəkkəb tarixi şəraitdə, xarici hərbi müdaxiləçilərin təzyiqi altında həyata keçirməyə məcbur olmuşdu. Azərbaycanın beynəlxalq vəziyyətini Ermənistanla hərbi-siyasi və sərhəd münaqişələri də çətinləşdirirdi.

Arxiv sənədləri 1918-1920-ci illərdə erməni daşnak quldur dəstələrinin azərbaycanlılara qarşı təkcə Ermənistan ərazisində deyil, həm də Azərbaycanın öz ərazisində törətdikləri vəhşilikləri təkzib olunmaz faktlarla sübut edir. 1918-1919-cu illərdə keçmiş İrəvan quberniyasında azərbaycanlılar yaşayan 200-dən çox kənd talan edilmiş, yandırılmış, əhalisi isə qovulmuşdur. Bu illərdə yüz mindən yuxarı azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdı. Zəngəzur, Naxçıvan, Qarabağ, Ordubad və başqa yerlərdən Azərbaycan Cümhuriyyətinin parlamentinə və hökumətinə göndərilmiş yüzlərlə teleqram, məktub və ərizələrdə daşnak quldur dəstələrinin törətdikləri vəhşiliklər haqqında məlumat verilirdi. Qaçqınlar problemi o dövrdə də Azərbaycan xalqının tarixində başlıca problem idi. Qaçqınlar problemi ilə məşğul olmaq üçün Azərbaycan hökuməti tərkibində xüsusi himayə nazirliyi yaradılmışdı. Təkcə 1919-cu ildə qaçqınlara yardım üçün bu nazirliyə 3 milyon manatdan yuxarı vəsait ayrılmışdı. Mil düzündə - Gaur arxı ətrafında İrəvan quberniyasından qaçmış 50 minə yaxın azərbaycanlının məskunlaşdırılması problemi dururdu. Bu məqsədlə böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin və onun həyat yoldaşı Həmidə xanım Cavanşirin Azərbaycan parlamentinə və hökumətinə vurduqları teleqram olduqca maraqlıdır. Bu teleqramda onlar Həmidə xanımın atası Əhmədbəy Cavanşirin Gaur arxının çəkilməsi üçün hazırladığı texniki sənədləri hökumətin ixtiyarına verməyi təklif edirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Qarabağın ermənilərdən ibarət əhalisi Azərbaycan hökumətinə tabe olmaqdan imtina edir və Qarabağda erməni milli şurası yaradırlar. Digər tərəfdən Andranikin quldur dəstələri Zəngəzur tərəfindən azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törətməklə yanaşı Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə basqınlar edir, onları talayır, yandırıb dağıdırdılar.

Azərbaycan parlamentinin 1918-ci il 20 dekabr tarixli fövqəladə iclası Andranikin Zəngəzur, Şuşa və Cəbrayıl qəzalarında törətdikləri vəhşiliklərə qarşı mübarizəyə həsr olunur. Bu məqsədlə 1918-ci ilin axırında Şuşa, Zəngəzur, Cavad və Cəbrayıl qəzalarını əhatə edən müvəqqəti Qarabağ general-qubernatorluğu yaradılır. 1919-cu ilin yanvarında Xosrov bəy Sultanov Qarabağa general-qubernator təyin olunur. O, Qarabağda qayda-qanun yaratmağa başlayır. Həmin ilin

sentyabrında Qarabağ Erməni Milli Şurası ilə Azərbaycan hökuməti arasında bağlanan müqaviləyə görə yerli ermənilərə mədəniyyət sahəsində muxtariyyət verilir.

1919-cu ilin yayında Denikin ordularının Zaqafqaziya üzərinə hücumu gözlənilirdi. Burada Denikinə qarşı münasibət müxtəlif idi. Ermənistan respublikası Denikinlə hərbi ittifaq bağlamışdı. Azərbaycan və Gürcüstan Cümhuriyyətləri isə Denikin qüvvələrinin hücumu təhlükəsindən narahat idi. Buna görə də 1919-cu il iyunun 27-də Azərbaycanla Gürcüstan arasında Denikinə qarşı üç il müddətinə qarşılıqlı hərbi- müdafiə ittifaqı yaradıldı. Bu müqaviləyə görə saziş bağlayan hər iki tərəf öz öhdəsinə götürürdü ki, tərəflərdən birinin və ya hər ikisinin istiqlaliyyətinə və ərazi bütövlüyünə hər hansı üçüncü tərəfdən təcavüz olunarsa, onda onlar hücum edən tərəfə qarşı birlikdə çıxış edəcəklər. Bu müqavilə tam müdafiə mövqeyi daşıyırdı.

Azərbaycan hökuməti Zaqafqaziya respublikalarına aid məsələləri həmişə dinc yolla həll etməyə çalışırdı. 1919-cu il aprelin 25-də Tiflisdə siyasi, iqtisadi, maliyyə, habelə sərhəd məsələləri ilə əlaqədar mübahisələri həll etmək məqsədilə Qafqaz konfransı çağırılır. Lakin Denikin ordusunun Şimali Qafqaza hücumu, habelə bir tərəfdən Azərbaycan və Gürcüstan, digər tərəfdən isə Ermənistan arasında sərhəd məsələləri barədə fikir ayrılığı konfransın işini pozur.

Gürcüstanla geniş dostluq və əməkdaşlıq əlaqələri yaratmış Azərbaycan Ermənistanla da ümumi dil tapmağa çalışırdı. Azərbaycan hökumətinin təşəbbüsü ilə 1919-cu il noyabrın 23-də Tiflisdə hər iki respublika baş nazirlərinin görüşü olur. Bu görüşdə bir sıra məsələlər, başlıcası isə mübahisəli sərhəd məsələləri müzakirə olunur. Baş nazirlər tərəfindən razılaşdırılmış komissiya yarımçıq qalmış Zaqafqaziya konfransını davam etdirmək məsələsini müzakirə edir və onun gündəliyini bəyənir. Azərbaycan nümayəndə heyətinin Tiflisdəki görüşünün nəticələrini müzakirə edən Azərbaycan hökuməti bildirir ki, Zaqafqaziya xalqlarının möhkəm əlaqəsi



onların siyasi müstəqillikləri və iqtisadi müvəffəqiyyətləri üçün başlıca şərtdir.

Gürcüstan və Ermənistan respublikaları da bu təklifə razı olurlar, lakin 1920-ci ilin əvvəllərində baş verən hadisələr, Zaqafqaziyada vəziyyətin mürəkkəbləşməsi bu məsələnin həllinə mane olur.

Azərbaycan Cümhuriyyəti hökuməti bütün varlığı dövründə öz suverenliyinin tanınmasını birinci dünya müharibəsinin qalib ölkələri olan İngiltərə, Fransa və ABŞ-dan təkidlə tələb edir. Bu sahədə Ə.M.Topçubaşov başda olmaqla Azərbaycandan Paris sülh konfransına göndərilmiş nümayəndə heyəti yorulmadan çalışır. Bunu Ə.M.Topçubaşovun xaricdən məktubları da əyani şəkildə sübut edir. Yalnız 1920-ci il yanvarın 12-də Denikinin orduları məğlub olduqda və Qafqazda vəziyyət dəyişməyə başladıqda Antanta dövlətləri Azərbaycan Xalq Cümhuriyyətini de-fakto olaraq tanıyır. Sovet Rusiyası isə müstəqil Azərbaycanı rəsmən tanımır. Həmin ilin yanvarından aprelinə qədər F.X.Xoyski və RSFSR Xalq xarici işlər komissarı G.V.Çiçerin dəfələrlə nota mübadiləsi edirlər. Bu notalarda F.X.Xoyski Azərbaycan Cümhuriyyətinin istiqlaliyyətinin Sovet Rusiyası tərəfindən tanınmasına nail olmağa çalışır. G.V.Çiçerin isə Azərbaycan Cümhuriyyətini Denikin qüvvələri ilə mübarizə ittifaqına cəlb etmək istəyirdi. Onun bu tələbinə cavab olaraq F.X.Xoyski bildirirdi ki, Azərbaycan hökuməti Sovet Rusiyasının Denikin orduları ilə mübarizəsini rus xalqının daxili işi hesab edir və ona qarışmağa yolvermez sayır.

Azərbaycan Xalq Cümhuriyyəti hələ qalib ölkələr tərəfindən rəsmən tanınana qədər özünün müstəqil dövlət kimi suveren hüquqlarını həyata keçirməyə başlamışdı. Azərbaycan Cümhuriyyətinin İstanbulda, Tehranda, Tiflis, İrəvan, Kuban və Donda diplomatik nümayəndələri var idi. Batum və Ukraynada baş konsullar, Krım və Petrovskidə isə konsul agentləri fəaliyyət göstərirdi.

Bakıda isə Gürcüstan və Ermənistan respublikalarının diplomatik nümayəndəlikləri, İranın baş konsulu, Belçika, Hollandiya, Yunanıstan, İsveç və İsveçrə konsulları, İngiltərə, ABŞ və Ukraynanın vitse-konsulları, Litva, Polşa və Finlandiyanın konsul agentləri fəaliyyət göstərirdi.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan parlamenti işə başladıqdan sonra parlament tərəfindən təşkil edilmiş hökumətin həyata keçirdiyi tədbirlərdə demokratik meyllər daha çox nəzərə çarpırdı.

Ölkənin inzibati-ərazi quruluşunda dəyişikliklər edilir, maliyyə işi qaydaya salınır, Azərbaycan Dövlət Bankı yaradılırdı. Dağıdılmış iqtisadiyyatın bərpası üçün xeyli iş görülür. Bakı-Batum neft kəməri bərpa olunur. Bakı - Cülfa dəmir yolunun çəkilişi işi sürətləndirilir və s.

M.Ə.Rəsulzadə "İstiqlal" qəzetində yazırdı ki, Azərbaycan Cümhuriyyəti hökumətinin qarşısında duran başlıca vəzifə bütün qüvvələri xalqın rifahını yaxşılaşdırmaq tədbirlərinə yönəltmək idi. Xalqın maddi rifah halının yüksəldilməsi isə yalnız iqtisadi inkişaf sayəsində və kütlələrin işlə təmin edilməsi nəticəsində hasil ola bilərdi. Azərbaycan parlamenti və hökuməti cəmiyyətin müxtəlif sinifləri arasında razılığın əsasını qoya bilmək məqsədilə ilk növbədə torpaq məsələsini həll etmək üçün mühüm qərarlar qəbul etməli idi. Kəndlilərə torpaq vermək, əkin-biçin işlərini birlikdə yoluna qoymaq üçün 29 maddədən ibarət torpaq islahatı haqqında Qanun layihəsi hazırlanaraq 1920-ci il fevralın 21-də ümumxalq müzakirəsi üçün dərc olunur. Həmin Qanun layihəsinə görə torpaq üzərində mülkiyyət hüququ saxlanılmaqla torpaqları onların sahibləri tərəfindən istifadə olunmayan hissəsi hökumət tərəfindən pulla alınaraq kəndlilərə paylanmalı idi. Digər tərəfdən, kəndlilərə həmin torpaqları almaq üçün güzəştli şərtlərlə kredit verilməsi nəzərdə tutulurdu. Lakin məlum səbəblərə görə, bu qanunun qəbul edilməsinə vaxt çatmadı.



Azərbaycan Cümhuriyyəti hökuməti sənaye müəssisələrində çalışan fəhlələrin həyat şəraitini yaxşılaşdırmaq haqqında da düşünürdü. Lakin sənaye müəssisələri üzərində xüsusi mülkiyyət hüququnun saxlanması hökumətə bu sahədə az-çox köklü dəyişikliklər həyata keçirməyə imkan vermir. Hökumət yalnız fəhlələrin əmək haqqı və əmək şəraiti üzərində nəzarət işini öz üzərinə götürə bilir. Beləliklə, nə aqrar, nə də sənaye məsələsi həll edilmir.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət, ilk növbədə isə xalq təhsili sahəsində həyata keçirdiyi tədbirlər xüsusilə diqqəti cəlb edir. Hökumət Azərbaycanda olan məktəblərin çoxunu milliləşdirir,yeni-yeni məktəblər açır. Cümhuriyyətin müxtəlif şəhər və kəndlərində hökumət hesabına 637 ibtidai məktəb, 23 orta ixtisas müəssisəsi, o cümlədən 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 qadın tədris müəssisəsi var idi. Bu tədris müəssisələrinin hamısı dövlət hesabına saxlanırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ildə açdığı Bakı Dövlət Universiteti xalqımızın mədəni həyatında əlamətdar hadisə idi. Müxtəlif ixtisaslar üzrə ali təhsil almaq üçün 100 nəfərə yaxın azərbaycanlı gənc Avropanın müxtəlif ali məktəblərinə göndərilir və həmin tələbələrin bütün xərclərini hökumət öz üzərinə götürür. Savadsızlıqla mübarizə üçün müvəqqəti pedaqoji kurslar yaradılır. Kursları qurtaranların, demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. İbtidai və orta məktəblər üçün dərsliklərin hazırlanması və nəşri işinə başlanır.

Lakin 1920-ci ilin aprelində ölkədə vəziyyət gərginləşir. Bu vaxt XI Qızıl Ordu Denikin ordularının qalıqlarını məğlub edərək Azərbaycan Cümhuriyyətinin şimal sərhədlərinə yaxınlaşdı. F.X.Xoyski aprelin 15-də Sovet Rusiyası hökumətinə öz hökuməti adından nota verərək Azərbaycanın təhlükəsizliyindən narahat olduğunu bildirir. Onun notası cavabsız qalır. Aprelin 27-də XI Qızıl Ordu Azərbaycan

sərhədlərini keçərək Bakıya doğru hərəkət etdi. Bolşeviklərin real surətdə hakimiyyəti ələ almasına imkan yaranır. Elə həmin gün Azərbaycan parlamenti hakimiyyəti bolşeviklərə təslim etmək məsələsini müzakirə edir və hakimiyyəti qan tökülmədən vermək haqqında qərar qəbul edilir. Həmin qərarda deyilirdi ki, hakimiyyət bu şərtlə bolşeviklərə təslim edilir ki, Azərbaycanı idarə edəcək Sovet hakimiyyəti onun tam istiqlaliyyətini qoruyub saxlasın.

Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın ictimai fikir tarixində, Azərbaycan xalqının dövlət suverenliyinin bərpası yolunda layiqli yer tutur.

**"Azərbaycan kommunisti" jurnalı,**
**may 1991-ci il, № 5.**



## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENTİ

***(Azərbaycan Xalq Cümhuriyyəti - 80)***

Şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız qarşısındakı ən böyük xidməti ondadır ki, o, özünün qısamüddətli (cəmi 23 ay) fəaliyyəti dövründə xalqımızın istiqlaliyyətini elan etmiş, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübuta yetirmişdi.

"Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamında deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir".

Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdi. Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilab nəticəsində

əsrlərlə ömür sürmüş mütləqiyyət quruluşu devrilir. Zaqafqaziyada Dövlət dumasına seçilmiş deputatlardan ibarət Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, noyabrda isə Zaqafqaziya Komissariatı yaradılır. Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən sonra onda iştirak edə bilməyən nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşırlar və Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaradırlar. Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya Seymi aprelin 9-da Zaqafqaziyanın suverenliyini elan edir və Zaqafqaziya Qoşma Cümhuriyyətini yaradır. Lakin Zaqafqaziya Cümhuriyyətinin yaranması daxili və xarici siyasət sahəsində heç bir əsaslı yenilik həyata keçirə bilmir. Seymdə iştirak edən və müxtəlif millətlərdən olan nümayəndələr arasındakı daxili ziddiyyətlər və xarici orientasiya məsələlərindəki əskikliklər onların ümumi dil tapmasına imkan vermirdi.

Zaqafqaziya Seymində və hökumətində fəaliyyət göstərən hər üç millətin nümayəndələrindən hər biri öz millətinin mənafeyini ümumqafqaziya mənafeyindən üstün tuturdu. Onların ümumi platforması yox idi. 1918-ci il may ayının 25-də Zaqafqaziya Seyminin son iclası keçirilir. Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da öz istiqlaliyyətini elan edir.

Gürcüstanın ardınca Ermənistan da öz istiqlaliyyətini elan etməyə hazırlaşır. Belə bir şəraitdə Zaqafqaziya Seyminin müsəlman fraksiyası da hərtərəfli müzakirədən sonra belə bir qərara gəlir ki, "Əgər Gürcüstan öz istiqlaliyyətini elan edərsə, onda bizim tərəfimizdən də Azərbaycanın istiqlaliyyəti elan olunmalıdır".

Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Seymin bütün müsəlman nümayəndələri Tiflisdə toplanır. Hərtərəfli müzakirədən sonra onlar belə ağır bir zamanda Azərbaycanın idarə olunmasını öz



üzərlərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan edirlər.

Bu iclasda Milli Şuranın Rəyasət Heyəti seçilir. Rəyasət heyətinə "Müsavat" Partiyası və partiyasızların demokratik qrupu tərəfindən M.Hacınski, N. Yusifbəyov, X.Xasməmmədov, M.Y.Cəfərov, müsəlman sosialist partiyalarından X.Məlik Aslanov, C. Hacınski, sosial-demokrat (menşevik) "Hümmət" qrupundan Ə.Şeyxülislamov, Rusiya müsəlmanlarının "İttihad" partiyasından isə doktor X.Sultanov daxil olur. Gizli səsvermə yolu ilə M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçilir.

May ayının 28-də keçmiş Qafqaz canişinin iqamətgahında doktor Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının iclası keçirilir. Uzun və hərtərəfli müzakirədən sonra Milli Şura çox böyük ruh yüksəkliyi ilə, ayaq üstə və sevinc yaşları içərisində Azərbaycanın istiqlaliyyəti haqqında bəyannaməni qəbul edir. Bəyannamədə deyilir:

"Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcud bir vəziyyəti siyasiyə hasil oldu. Kəndi qəvai-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayi-siyasiyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb öz müstəqil gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənubi-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana, dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən aran-ümummiyə ilə intixab olunan Azərbaycan Şurai milliyeyi-islamiyyəsi bütün cəmaətə elan ediyor ki:



3.-3510

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti - həsənə təsisinə əzm edər.
4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin elər.
5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.
6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai-Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur".

Sonra Milli Şura bitərəf Fətəli xan Xoyski başda olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil edir.

Azərbaycan Milli Şurasının və hökumətinin yaranmasını onların məqsəd və vəzifələrini izah etmək məqsədilə Zaqafqaziyanın azərbaycanlılar yaşayan şəhər və qəzalarına nümayəndələr göndərmək qərara alınır. N.Yusifbəyov, Ş.Rüstəmbəyov və doktor X.Sultanovdan ibarət ilk nümayəndə heyəti Gəncəyə göndərilir.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan üçün çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayır. Bu vaxt Bakıda S.Şaumyan başda olmaqla Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan Bakı Xalq Komissarları Soveti fəaliyyət göstərirdi. S.Şaumyanın rəhbərliyi ilə 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada törədilən azərbaycanlı



qırğınlarından sonra Bakı kommunası azərbaycanlı əhali arasında öz nüfuzunu tamamilə itirmişdi. Onların hakimiyyəti Bakıdan kənara çıxa bilməmişdi. Azərbaycanın qəzalarında isə tam hakimiyyətsizlik idi və hərc-mərclik hökm sürürdü. Öz təhsil dairəsini bütün Azərbaycan ərazisində yaymaq məqsədi ilə 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçür. Bu vaxt Gəncədə real hakimiyyət hələ may ayının axırlarında 300 nəfərlik hərbi təlimatçılarla Gəncəyə gəlmiş Türkiyənin Qafqaz ordusunun baş komandanı Nuru paşanın əlində idi. O, tezliklə Gəncədə hərc-mərcliyə son qoymuş, şəhərdə ciddi qayda-qanun yarada bilmişdi. Azərbaycan Milli Şurası və hökumətinin həyata keçirməyə çalışdıqları tədbirlərin "həddindən artıq demokratik istiqamətindən" narazı qalan Azərbaycan burjuaziyası və mülkədarlarının müəyyən dairələrinin təsiri ilə Gəncədə real hakimiyyətə malik olan Nuru paşa buraya gəlmiş Azərbaycan Milli Şurası və hökumətini şübhə ilə qarşılayır. Hətta o, milli şura və hökumətin rəhbərlərini qəbul etməkdən belə imtina edir. Nəticədə Azərbaycanın müstəqilliyi məsələsi böyük təhlükə qarşısında qalır. Uzun danışıqlardan sonra Nuru paşanın müşaviri və onun yanında böyük nüfuz sahibi olan Əhməd bəy Ağayev qarşılıqlı güzəştlər əsasında ümumi razılığa gəlməyi təklif edir. Bu təklifə görə Milli Şura buraxılmalı və bütün hakimiyyət yeni yaradılacaq hökumətə həvalə olunmalı idi. Bu məsələlərin müzakirəsi üçün 1918-ci il iyunun 17-də keçmiş şəhər idarəsinin binasında M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti yeddinci iclası keçirilir.

Həmin iclasda Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin Azərbaycan müvəqqəti hökumətinə verilməsi haqqında iki mühüm qətnamə qəbul edilir.

Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili və həm də xarici siyasət sahəsində

Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq Azərbaycan Milli Şurasi bütün hakimiyyəti F.X.Xoyskinin sədrliyi ilə yaradılmış hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin.

Müvəqqəti hökumətin hüquq və səlahiyyətlərinə aid ikinci sənəddə isə qeyd olunurdu ki, Azərbaycan hökuməti Azərbaycanın dövlət istiqlaliyyətini və mövcud siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunların dəyişdirilməsinə hökumətə səlahiyyət verilmir. Azərbaycan hökuməti altı aydan gec olmayaraq Müəssislər-Məclisi çağırmalıdır. Qalan məsələlərdə hökumətə bütün hüquqlardan istifadə üçün səlahiyyət verilir.

İclasda çıxış edən F.X.Xoyski bildirir ki, onun yaratdığı yeni hökumətin başlıca vəzifəsi Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə olacaqdır. F.Xoyski hökuməti Gəncədə çox çətin bir şəraitdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə hökumətin ilk tədbiri iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyətin elan edilməsi haqqında qərar oldu. Avqustun 11-də isə hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Eyni zamanda Azərbaycan hökuməti Gəncədə dövlət aparatının təşkili işini də davam etdirir. Azərbaycan dili dövlət dili elan olunur. F.Xoyski hökumətinin mühüm tədbirlərindən biri də 1918-ci il iyul ayının15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqındakı qərarıdı. Bu qərarla komissiya qarşısında Birinci Dünya müharibəsi illərində Zaqafqaziya ərazisində yerli müsəlmanlara qarşı törədilən vəhşiliklər və onların əmlakına edilən qəsd ilə bağlı məsələləri araşdırmaq, bu işdə günahkar olanları aşkar etmək və onların məhkəmə məsuliyyətinə cəlb olunması vəzifəsi tapşırılmışdır.

Ümumiyyətlə, paytaxt Bakıya köçürülənə qədər Azərbaycan hökuməti Gəncədə ölkənin siyasi və iqtisadi həyatı, dəmir yolunun bərpası, ölkənin ayrı-ayrı bölgələri arasında



poçt-teleqraf əlaqələrinin yaradılması işində və sair sahələrdə də bir sıra digər mühüm tədbirlər həyata keçirmişdi. Azərbaycan hökumətinin ən böyük vəzifələrindən biri ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olan Bakı şəhərini 1918-ci il iyulun axırlarında süqut etmiş Bakı kommunasından sonra şəhəri ələ keçirmiş eser-menşevik və daşnak nümayəndələrindən ibarət "Sentrokaspi diktaturası"ndan təmizləmək idi.

Qızğın döyüşlər nəticəsində 1918-ci il sentyabrın 15-də Bakı Qafqaz İslam ordusu tərəfindən azad olunur. Sentyabrın 17-də F.Xoyski hökuməti Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan olunur.

Bakıya köçdükdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti istər ictimai-siyasi, istərsə də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başlayır. Müəssislər Məclisinin çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili işlər və xalq maarif nazirlərindən ibarət komissiya yaradılır.

1918-ci il iyunun 17-də Gəncədə öz fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası həmin il noyabrın 16-da Bakıda öz işini yenidən bərpa edir. İclasda çıxış edən Azərbaycan hökumətinin sədri F.Xoyski Milli Şura üzvlərinə müraciət edərək bildirir ki, hökumətin Müəssislər Məclisini çağırmaq üçün hazırlıq işinə vaxtı çatmadığından Milli Şura bu işi öz öhdəsinə götürsün. Milli Şura bu təkliflə razılaşır. Noyabrın 19-da Milli Şuranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclasında bu məsələ geniş müzakirə olunur. Milli Şuranın həmin iclasında qeyd olunur ki, hələ 1917-ci ilin axırlarında Cənubi Qafqaz müsəlman partiyaları tərəfindən Rusiya Məclisi Müəssisanına ümumi səsvermə yolu ilə seçilmiş 14 müsəlman nümayəndələrinin siyahısı seçkilərdə iştirak etmiş partiyaların qazandıqları səslər müqabilində genişləndirilərək 44-ə çatdırılmışdı. Azərbaycanda Məclisi-Müəssisan toplamağın qeyri-mümkün olduğunu görən Cənubi

Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini Zaqafqaziya Seymində Azərbaycanı təmsil etməkdə gördü. Çünki bu nümayəndələr Zaqafqaziyadakı müsəlman əhalisi arasındakı müxtəlif siyasi cərəyanları təmsil edirdi və bir milyondan yuxarı müsəlman əhalisinin səslərini qazanmış nümayəndələr idi. Ona görə də Zaqafqaziya Seymi və Zaqafqaziya Cümhuriyyəti hökuməti öz işinə xitam verdikdə Zaqafqaziya Seymindəki 44 müsəlman nümayəndələri özlərini Azərbaycan Milli Şurası elan etmiş və Azərbaycanın idarəsini öz üzərilərinə götürmüşdü.

Milli Şuranın 19 noyabr tarixli iclasında qeyd olunurdu ki, Azərbaycan yalnız azərbaycanlılarla məskun deyildir. Ona görə də Azərbaycan Milli Şurası Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməlidir. Hazırda Milli Şurada olan 44 nəfər nümayəndə onları təmsil etmir. Digər tərəfdən müxtəlif siyasi partiya nümayəndələrindən başqa Azərbaycan xalqının müxtəlif təbəqələrinin nümayəndələrinin də belə bir təşkilatda təmsil olunmalarına böyük ehtiyac vardır. Milli Şurada bildirilir ki, Bakı quberniyası ilə Gəncə quberniyası Zaqatala dairəsi və İrəvan ilə Tiflis quberniyalarının bir hissəsi Azərbaycan ərazisini təşkil edir. Bu ərazilərdə Qafqaz təqvimində verilmiş məlumatlara əsasən 2.750.000 nəfər əhali var. Onlardan 1.900.000 nəfəri müsəlman, 500.000 nəfəri erməni, 230.000 nəfəri isə ruslardır. Hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar - 80, ermənilər - 21, ruslar - 10, almanlar - 1, yəhudilər - 1 nümayəndə göndərməlidirlər. Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alınır.

Milli Şuranın bu məsələ ilə bağlı qəbul etdiyi qanunda göstərilirdi ki, azlıqda qalan millətlərin bütün nümayəndələri yeni nümayəndələr olacaq. Müsəlmanlardan isə 44 Milli Şura üzvü ümumi səsvermə yolu ilə seçildikləri üçün yeni parlamentə üzv daxil olurlar. Qalan 36 nəfər isə əlavə şəxslər kimi cəlb olunur. Qanunda Azərbaycanın ayrı-ayrı şəhər və



qəzaları üzrə əlavə göndəriləcək nümayəndələrin miqdarı da müəyyən edilmişdir.

Qanunda Parlamentə seçiləcək 21 erməni nümayəndəsindən 8-i Gəncə, 8-i Şuşa və 5-i isə Bakı erməni komitələrindən seçilməli idi. Bakıdakı rus əhalisindən Rus Milli Şurası 10, alman əhalisi milli təşkilatından 1, yəhudi Milli Şurasından 1, gürcü komitəsindən 1 və polyak komitəsindən 1 nəfər nümayəndə göndərilməli idi. Bundan əlavə qanunda Azərbaycan Cümhuriyyəti parlamentinə Bakı Həmkarlar Təşkilatı Şurası tərəfindən 3, Bakı Sənaye-Ticarət Cəmiyyəti tərəfindən 2 nümayəndənin göndərilməsi də nəzərdə tutulurdu.

Azərbaycan Cümhuriyyəti Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından, onun sədri M.Ə.Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc edilir. Müraciətnamədə deyilirdi: "Vətəndaşlar! Müharibə və inqilab zamanının fövqəladə əhvalını nəzərə alaraq tətil etmiş olan Azərbaycan Şurai-Millisi iqtizai - zaman ilə təkrar Azərbaycanın paytaxtı Bakıda toplandı. Şurai-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millini milli bir şəkildə çıxarıb dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurai-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətlə yığılacaq məbusan irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi Müəssisanı yığışıncaya qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeini müdafiə edəcək..."

Sənəddə Azərbaycan vətəndaşlarına müraciətlə deyilirdi ki, bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix bizdən asılı olmayaraq hamımızı

bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı ağıl və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. "Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb, bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi - səadətlərini hazırlamaq üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər".

Müraciətnamədən də göründüyü kimi parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunmuşdu. Lakin Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları əleyhinə olduqları Azərbaycan parlamentinin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırlar. General Tomsonla aparılan danışıqlarla əlaqədar və qəzalardan bütün deputatların Bakıya gələ bilməməsini nəzərə alaraq parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. Həmin gün gündüz saat 1-də H.Z.Tağıyevin Nikolayev küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman şərqində ilk parlamentin birinci iclası təntənəli şəraitdə açılır. Parlamenti açan Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə böyük təbrik nitqi söyləyir.

"Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov parlamentin sədri, doktor Həsən bəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Ə.Topçubaşov bu vaxt İstanbulda olduğu üçün parlamentə H.Ağayev sədrlik edir. 1919-cu ilin yanvarında Ə.Topçubaşov Paris Sülh Konfransında Azərbaycan nümayəndə heyətinin başçısı təyin olunaraq Parisə getdiyi üçün o, hətta 1920-ci ilin yanvarında yenidən parlamentin sədri seçilirsə də təəssüflər olsun ki, ona bir gün də olsun belə rəhbərlik etməmişdir. Parlamentin üç nəfərdən ibarət katibliyi də seçilir. Mehdi bəy Hacınski baş katib seçilir.

Sonra Azərbaycan Cümhuriyyəti müvəqqəti hökumətinin sədri Fətəli xan Xoyski öz hökumətinin fəaliyyəti haqqında



hesabat verir və öz hökumətinin istefasını qəbul etməyi parlamentdən xahiş edir.

Parlament F.Xoyski hökumətinin istefasını qəbul edir. Parlamentin tapşırığı ilə sədrlik edən H.Ağayev yeni hökumətə rəhbərlik etməyi və yeni hökumət heyətinin tərkibini formalaşdırmağı yenə də F.Xoyskiyə tapşırır. Dekabrın 26-da Fətəli xan hökumət proqramı və hökumətin tərkibi barədə parlamentdə məruzə edir. Geniş müzakirələrdən sonra parlament F.Xoyski hökumətinin proqramını bəyənir və yeni hökumətin tərkibinə etimad göstərir.

Parlamentin açılışı və fəaliyyəti ilə əlaqədar mühüm bir məsələyə də xüsusi diqqət yetirməliyik. Bu da ondan ibarətdir ki, parlament haqqında qanunda erməni nümayəndələri üçün 21 yer, rus nümayəndələri üçün 10 yer, həmkarlar ittifaqı nümayəndələri üçün 3 yer ayrıldığına baxmayaraq, onlar Azərbaycan parlamentinin ilk iclasının açılışında iştirak etmirlər.

Belə ki, Bakı Rus Milli Şurası Azərbaycandakı rus əhalisi adından danışmaq üçün heç bir mənəvi hüququ olmadığı halda parlamentdə iştirak etməmək haqqında qərar qəbul edir. Onlar sübut etməyə çalışırlar ki, Azərbaycan öz müstəqilliyini elan etməkdə "Vahid və bölünməz Rusiya!" ideyasına xilaf çıxmışdır. Guya Rus Milli Şurasının parlament və hökumətdə iştirakı "Azərbaycanın Rusiyadan ayrılması faktının tanınması" demək olardı və bu da Azərbaycanın beynəlxalq aləmdə tanınması işini asanlaşdırırdı.

Rus Milli Şurasının qəbul etdiyi qərar Azərbaycan parlamentinin çağırılması və orada öz nümayəndələrinin iştirakını müdafiə edən rus əhalisinin fikrini əks etdirmirdi. Belə ki, Bakıda fəaliyyət göstərən "Rus-Slavyan Cəmiyyəti" Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadəyə müraciət edərək həmin cəmiyyətin nümayəndələrinin Azərbaycanda "ümumi dövlət quruculuğu işlərində iştirak etmək üçün" özlərini parlamentə daxil olmalarına razılıq verməyi xahiş edirlər.

"Rus-Slavyan Cəmiyyəti" üçün Azərbaycan parlamentində 5 deputat yeri ayrılır. Buna cavab olaraq 1918-ci il dekabrın 4-də Rus Milli Şurası göstərilən cəmiyyətlə bütün işgüzar əlaqələrini kəsmək haqqında qərar qəbul edir. Lakin Azərbaycanda yaşayan rus əhalisinin təzyiqi ilə Rus Milli Şurası 1919-cu il yanvar ayının 31-də parlamentin işində iştirak etmək haqqında qərar qəbul etməyə məcbur olur.

Rus Milli Şurasının bu şovinizmi böyük dövlətçilik ideyalarının "Böyük Ermənistan" xülyaları ilə yaşayan və tarixin onlara verdiyi əlverişli şəraitdən öz xeyirlərinə maksimum dərəcədə istifadə etməyə çalışan erməni milli komitələri tərəfindən də müdafiə olunur. Onlar da Azərbaycan parlamentinin açılışına öz nümayəndələrini göndərmirlər. Onlar Azərbaycanın müstəqilliyi ilə heç cür razılaşmaq istəmirdilər.

Ermənilərin Azərbaycan parlamentində iştirak etməmək taktikası iki aydan çox davam edir. Nəhayət, onlar da parlamentdə iştirak etmək haqqında qərar qəbul edirlər. Azərbaycan parlamentində iki fraksiya - erməni və "daşnaksütyun" fraksiyalarını yaradırlar. Parlamentdə onların sonrakı fəaliyyətləri göstərdi ki, ermənilərin Azərbaycan parlamentində iştirak etmələrinin başlıca səbəbi Azərbaycan dövlətçiliyinin yaranmasına, Azərbaycan iqtisadiyyatı və mədəniyyətinin inkişafına xidmət etmək üçün deyil, özlərinin şovinist separatçı "Böyük Ermənistan" ideyalarının təbliği məsələlərinə yeni bir tribuna əldə etmək olmuşdu.

Azərbaycan parlamenti yarandığı ilk gündən öz işlərini demokratik cümhuriyyətlərə xas təşkilati prinsiplər əsasında qurur. Onu da qeyd edək ki, parlamentin təşkili haqqında qəbul edilmiş qanunda parlamentin 120 nəfərdən ibarət olması nəzərdə tutulmuşdusa da, müxtəlif səbəblərdən heç vaxt parlamentdə bu sayda deputat olmamışdır.

Artıq 1919-cu ilin axırına yaxın parlamentdə 11 müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi.



Parlamentdəki siyasi partiyalar və qurumların qüvvələr nisbəti aşağıdakı kimi idi: "Müsavat" və bitərəflər fraksiyası (38 nəfər), "İttihad" (13 nəfər), "Əhrar" (6 nəfər), sosialistlər bloku (13 nəfər), partiyasızlar (4 nəfər), müstəqillər (3 nəfər), erməni fraksiyası (5 nəfər), "daşnaksütyun" fraksiyası (6 nəfər), azlıqda qalan millətlər fraksiyası (4 nəfər).

Azərbaycan parlamentinin ilk iclaslarında onun işində iştirak edən partiya fraksiya və qrupları öz fəaliyyət proqramları haqqında bəyanatlar verirlər. Bu bəyanatlarda ümumi bir məqsəd diqqəti cəlb edirdi - gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq, Azərbaycan xalqının və hökumətinin digər xalqlar və hökumətlərlə, xüsusilə qonşu hökumətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq.

Azərbaycan Cümhuriyyəti Parlamentində fəaliyyət göstərən partiya fraksiya və qrupları onun iclaslarında həm də öz partiya və qruplarının mənafeyi və ideologiyası istiqamətindən çıxış edirdilər. Onların arasında ən iri və aparıcı partiya Azərbaycan xalqının milli mənafelərinin daşıyıcısı və parlamentdə əksəriyyət çoxluğu təşkil edən Müsavat Partiyası idi.

Bu partiya fraksiyası demokratik bitərəflər qrupu ilə demək olar ki, parlamentin və hökumətin fəaliyyətinin əsas istiqamətlərini müəyyən edirdi. Müsavat Partiyası parlamentdə çoxluq təşkil etməsinə baxmayaraq respublikanın ümumi mənafeyini nəzərə alaraq həmişə çalışırdı ki, digər partiya fraksiyaları və qrupları ilə təmas və koalisiyada işləsin.

Parlamentdə "Müsavat"dan sonra çoxluğu "İttihad" fraksiyası təşkil edirdi. Özünü Azərbaycanda İttihadi-islam tərəfdarı hesab edən bu fraksiya 1919-cu ilin dekabrına qədər daimi hakim milli-demokratik cərəyana qarşı müxalifətdə olmuş və hökumət təşkillərində iştirak etməmişdir. Parlamentdə

hökumətin fəaliyyətini daim tənqid edən fraksiyalardan biri də "İttihad" olmuşdur.

Azərbaycan parlamentində son dərəcə solçuluq istiqamətində fəaliyyət göstərən fraksiyalardan biri də bütün sosial-demokrat oriyentasiyalı nümayəndələri özündə birləşdirən sosialistlər bloku idi. Buraya hümmətçilər, menşeviklər və eserlər daxil idi. Parlament iclaslarının stenoqrafik hesabatlarından da göründüyü kimi, özlərini zəhmətkeşlərin, ilk növbədə isə fəhlə sinfi və yoxsul kəndlilərin mənafelərinin müdafiəçisi elan edən sosialistlər fraksiyası parlament tribunasından və hökumətdə iştiraklarından maksimum dərəcədə öz siyasi məqsədləri üçün istifadə etməyə çalışmışlar. Bu müddət ərzində onlar həmişə sovet Rusiyasının xeyrinə işləmiş və Azərbaycanın sovet Rusiyasına birləşdirilməsi, yalnız Qızıl Ordunun Azərbaycana həqiqi azadlıq gətirə biləcəyini, iqtisadi və sosial sahədə islahatların yalnız sosializm quruluşu şəraitində mümkün olacağını təbliğ etmişdilər. Parlamentdə iştirakları müddətində onlar yalnız 1919-cu ilin yayında Azərbaycanın Denikin könüllü orduları tərəfindən işğal ediləcəyi təhlükəsi yarandıqda "Müsavat" və digər milli partiyalarla birlikdə çıxış etməyə məcbur olmuşdular.

Parlamentdə Əhrar Partiyasının fraksiyası əsasən kəndlilərin mənafelərinin müdafiəçisi kimi çıxış etmiş, digər partiyalara nisbətən daha çox "Müsavat"a yaxın olmuşdur.

Yuxarıda deyildiyi kimi, parlamentdə ermənilər iki fraksiya - erməni və "daşnaksütyun" fraksiyaları adı altında fəaliyyət göstərsələr də, əslində onlar həmişə eyni mövqedən - Azərbaycan parlamentində Ermənistan Ararat Respublikası və ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq mövqeyindən çıxış etmişlər.

Parlamentin ilk iclaslarında əsas siyasi partiyaların fraksiyaları və qrupları öz bəyanatlarında gələcək fəaliyyət proqramlarını, habelə parlament və hökumətə öz münasibətlərini bildirirlər.



Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti özünün həyatiliyi və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. O göstərdi ki, Azərbaycan xalqı həqiqətən parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdir. O vaxt Azərbaycan Cümhuriyyəti bütün müsəlman Şərqində yeganə parlamentli respublika idi.

Özünün 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olmuşdur. Yetərsay olmadığı üçün bu iclaslardan 15-i baş tutmamışdır. Qalan 130 iclasdan ikisi tarixi - 28 may və 15 sentyabr 1919-cu il - Azərbaycanın istiqlalının və Bakının azad edilməsinin birinci ildönümləri münasibətilə; dördü təntənəli 12 mart 1919 və 12 mart 1920-ci illər - böyük rus inqilabının 2-ci və 3-cü ildönümləri; 27 iyun 1919-cu il - Azərbaycan-Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında müqavilə bağlanması və 14 yanvar 1920-ci il Paris Sülh Konfransı iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibətilə keçirilmişdir. İkisi isə fövqəladə - 1918-ci il dekabrın 20-də Ermənistanın Gürcüstana müharibə elan etməsi və 1920-ci il martın 17-də Gürcüstan-Azərbaycan arasında bağlanmış iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqi münasibətilə keçirilmiş iclaslardır. Qalan iclaslarda ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, ordu quruculuğu və s. məsələlər müzakirə olunmuşdur. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Öz fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını təsdiq edilmişdir. Parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi rolu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. Bunlar aşağıdakılar idi: maliyyə-büdcə, qanunvericilik təklifləri, müəssisələr məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat, hərbi, aqrar məsələlər: sorğular üzrə, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyalar idi.

Azərbaycan Xalq Cümhuriyyəti hüququ dövlət yaratmaq üçün hakimiyyətin qanunvericilik, idarəedicilik və məhkəmə orqanlarına bölünməsi prinsipi də nəzərdə tutulurdu. Azərbaycan Cümhuriyyəti Parlamenti öz varlığı zamanı bütün fəaliyyətini daha çox ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün lazımi şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələri yaratmağa yönəltmişdir.

Əlbəttə, Azərbaycan Parlamentinin qəbul etdiyi qanun və qərarların hamısı müstəqil ölkənin ilk qanun və qərarları olduğu üçün çox əhəmiyyətli idi. Lakin onların arasında elə qanunlar vardı ki, ölkə üçün onların əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Çünki bunların Azərbaycan Cümhuriyyəti fəaliyyətinin strateji istiqamətlərini müəyyən etməkdə mühüm rolu olmuşdur. Bunlardan vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və sair qanunları göstərmək olar. Parlament öz fəaliyyəti zamanı ən çox diqqət yetirdiyi mühüm məsələlərdən biri də Azərbaycanda ordu quruculuğu olmuşdur. Parlament üzvləri başa düşürdülər ki, ölkənin siyasi və ərazi müstəqilliyini qoruyub saxlamaq üçün güclü ordu lazımdır. Ona görə də Azərbaycan Cümhuriyyəti Parlamentində demək olar ki, mübahisəsiz və ümumi razılıq əsasında yalnız ordu quruculuğuna aid qanunların müzakirəsi keçir və qəbul olunurdu.



Azərbaycan Cümhuriyyəti hökuməti ilə yanaşı, Azərbaycan Parlamentinin fəaliyyətində də ölkədə xalq maarifinin inkişafı məsələlərinə mühüm yer verilmişdir. Tədris və teatr-tamaşa müəssisələrinin milliləşdirilməsi, yeni tədris müəssisələrinin açılması, orada dərs deyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələsi daim Azərbaycan Cümhuriyyəti Parlamentinin diqqət mərkəzində olmuşdur. Xüsusilə Bakı Dövlət Universitetinin açılıb-açılmaması məsələsi demək olar ki, bir neçə ay müddətində Azərbaycan Parlamentinin iclaslarında qızğın müzakirəyə səbəb olmuş və dəfələrlə bu haqda böyük mübahisələr getmişdi. Buna da səbəb universitetdə dərs demək üçün yüksək ixtisaslı hazırlıqlı milli kadrların olmaması səbəbindən universitetin rus dilində açılmasının nəzərdə tutulması idi. Bu işə xüsusilə "İttihad", "Əhrar" partiyalarından olan nümayəndələr ciddi müqavimət göstərirdilər. Onlar universitetin rus dilində açılmasını Azərbaycanda ruslaşdırma siyasətinin davam etdirilməsi kimi başa düşürdülər. "Müsavat", sosialistlər fraksiyalarından olan deputatlar isə universitetin rus dilində açılmasının heç bir təhlükə törətmədiyini qeyd edərək göstərirdilər ki, universitetə daha çox azərbaycanlı tələbələr cəlb olunmalı, onlar tərbiyə edilib milli kadrlar yetişdirildikdən sonra tədricən universitetdə tədrisin azərbaycanlaşdırılması prosesinə keçilməlidir. Qızğın müzakirələrdən sonra parlament 1919-cu il sentyabr ayının 1-də Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul edir. Bu gün Azərbaycanda ali təhsil müəssisələrinin və ali təhsilli kadrların yaranmasının beşiyi başında dayanan Bakı Dövlət Universitetinin tarixi onun yaradılmasını təkid edənlərin nə qədər düzgün mövqe tutduqlarını bir daha sübut etdi.

Azərbaycanda elm və təhsilin inkişafı, milli kadrların yetişdirilməsi üçün xarici ölkələrin müxtəlif ali məktəblərində

təhsil almaq üçün azərbaycanlı tələbələrinin xaricə göndərilməsi sahəsində də Azərbaycan Cümhuriyyəti Parlamenti və hökuməti mühüm işlər görmüşdür. Azərbaycan hökuməti tərəfindən yüz nəfər azərbaycanlı gənc xarici ali məktəblərdə təhsil almaq üçün dövlət hesabına xarici ölkələrə göndərilmək haqqında hazırlanmış qanun layihəsi parlamentdə geniş müzakirə edilərək qəbul olunur. Xaricə göndəriləcək tələbələri seçmək üçün parlament üzvləri-Məmmədəmin Rəsulzadə, Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov və Abdulla bəy Əfəndiyevdən ibarət xüsusi komissiya yaradılır. Abituriyentlər arasından seçilmiş yüz nəfər daha çox ümidverici gəncdən 45 nəfəri Fransanın, 23 nəfəri İtaliyanın, 10 nəfəri İngiltərənin, 9 nəfəri isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilir. Rusiyada təhsil almaq üçün göndərilməsi nəzərdə tutulan 13 nəfər gənc Rusiyada vətəndaş müharibəsinin davam etməsi ilə əlaqədar olaraq oraya gedə bilmədi.

Azərbaycan parlamenti və hökumətinin qarşısında duran mühüm vəzifələrdən biri də Azərbaycanın istiqlaliyyətinin beynəlxalq aləmdə tanınmasına nail olmaqdan ibarət idi. Bunun üçün hələ 1918-ci ilin yayında M.Ə.Rəsulzadənin rəhbərliyi ilə İstanbula nümayəndə heyəti göndərilmiş, sentyabrında isə Ə.M.Topçubaşov da onlara qoşulmuşdur. Bu nümayəndələrin məqsədi İstanbulda olan xarici ölkələrin diplomatik nümayəndəliklərinin vasitəsilə həmin ölkələrlə əlaqələr yaratmaq və onların ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi. 1918-ci ilin payızında Almaniyanın və onun müttəfiqlərinin birinci dünya müharibəsində məğlub olması vəziyyəti çətinləşdirir. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə İngiltərə arasında bağlanan Mudros sazişinə görə türklər Zaqafqaziyanı, o cümlədən Azərbaycanı boşaldırlar. Onların yerini general Tomson başda olmaqla ingilis orduları tutur. Azərbaycan hökumətinin və 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Parlamentinin ümdə vəzifəsi Paris Sülh Konfransının iştirakçısı olan qalib dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaq idi. Buna görə də 1918-ci il dekabrın 28-də Azərbaycan Hökuməti Parlamentinin Ağsaqqallar Şurası nümayəndələrinin iştirakı ilə Paris Sülh Konfransında iştirak etmək üçün Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, cümhuriyyətin beynəlxalq aləmdə tanınmasında əvəzsiz xidmətləri olmuş Ə.M.Topçubaşovun sədrliyi ilə Fransaya nümayəndə heyəti göndərilir.Böyük əziyyətlərdən və erməni təbliğatı ilə uzunmüddətli mübarizədən sonra, nəhayət ki, həmin nümayəndə heyəti 1920-ci il yanvar ayının 12-də sülh konfransındakı əsas ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınmasına nail oldular.

1920-ci il aprelin 22-də öz süqutundan beş gün əvvəl Azərbaycan Cümhuriyyəti Parlamenti Paris Sülh Konfransında öz missiyasını yerinə yetirmiş Azərbaycan nümayəndə heyətini buraxmaq və Qərbi Avropa ölkələrində (İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa) və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul edir.

Bu müzakirələr zamanı sosialistlər blokundan olan deputatlar Almaniyada və Azərbaycan hökumətinin bütün ciddi səylərinə baxmayaraq, onu de-fakto belə tanımayan sovet Rusiyasında da belə nümayəndəliklərin açılmasını təkid edir və onların da qanuna daxil edilməsinə nail olurlar. Lakin XI Qızıl Ordu tərəfindən Azərbaycanın işğalı bütün bu işləri yarımçıq qoyur.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökumətinin fəaliyyətinin daim diqqət mərkəzində olmuş nisbətən daha kəskin və həlli olduqca çətin və mürəkkəb məsələlərdən biri də Zaqafqaziyada yeni yaranmış üç respublika - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd məsələlərinin həlli idi. Bu məsələlər dəfələrlə müxtəlif komissiyalarda, Ümumzaqafqaziya iclas və konfranslarında müzakirə olunmuş və həmişə də sərhəd məsələlərinə münasibətdə bu





4.-3510

respublikaların fikirləri bir-birlərinə əks idi. Özlərinin şovinist "Böyük Ermənistan!" yaratmaq xülyasından çıxış edən Ararat Respublikası öz qonşularına, xüsusilə Azərbaycana qarşı böyük ərazi iddiaları irəli sürürdü.

Azərbaycan Xalq Cümhuriyyəti ərazi məsələlərinə münasibətdə reallıqlardan çıxış etmək tərəfdarı idi. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin məlumatlarına görə 1919-cu ilin axırlarında Azərbaycan Cümhuriyyətinin ərazisi 113.9 kv kilometr idi ki, ondan 16,6 min kv kilometr mübahisəli ərazi idi. Ərazi və sərhəd məsələləri ilə əlaqədar Azərbaycanla Gürcüstan arasında gedən danışıqlar nəticəsində ümumi razılığa gəlmək mümkün olursa da, Ermənistanla heç cür razılığa gəlmək mümkün olmamışdır.

Azərbaycan Cümhuriyyəti hökuməti Gürcüstanla 1919-cu ilin yayında Denikinə qarşı birlikdə mübarizə, 1920-ci ilin martında isə iqtisadi və siyasi əlaqələr haqqında müqavilələr imzalamış və onlar parlamentdə təsdiq olunmuşdur.

İranla münasibətlərdə də cümhuriyyətin varlığı dövründə böyük dəyişikliklər baş vermişdi. Azərbaycan öz müstəqilliyini elan edərkən İran onun müstəqilliyini tanımaqdan imtina etmişdi. Azərbaycan Cümhuriyyəti hökumətinin İranla münasibətlərə dair apardığı ardıcıl məqsədyönlü siyasət nəticəsində artıq 1919-cu ilin dekabr ayından Ağa Seyid Ziyəddin Təbətəbainin başçılığı ilə Azərbaycana gələn İran nümayəndə heyəti ilə Adil xan Ziyadxanov başda olmaqla Azərbaycan nümayəndə heyəti arasında aparılan uzunmüddətli ikitərəfli danışıqlar uğurla nəticələnir. 1920-ci il martın 20-də İran ilə Azərbaycan arasında ilk dəfə olaraq Azərbaycanın de-yure tanınmasını sübut edən dostluq haqqında saziş və habelə konsulluq haqqında, ticarət, poçt-teleqraf əlaqələri, məhkəmə qərarlarının icrası və sair haqqında bir sıra ikitərəfli müqavilələr imzalanmış və parlament tərəfindən həmin saziş və müqavilələr 1920-ci il aprel ayının 15-də təsdiq olunur.



***Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti öz fəaliyyəti dövründə bir sıra günün vacib tələbləri ilə bağlı məsələləri həll edə bilməmiş və ya onların həllini uzatmışdır. Nəticədə həmin məsələlərlə əlaqədar parlament və hökumətə qarşı narazılıqların yaranmasına səbəb olmuşdur. Müxalifətdə olan qüvvələr, ilk növbədə isə parlamentin sosialistlər bloku Azərbaycan parlament və hökumətinə qarşı bu məsələlərdən məharətlə istifadə edərək xalq arasında ona qarşı geniş təbliğat aparır, narazılıqlar yaradır, hətta hökumətə qarşı tətillər belə təşkil etməyə müvəffəq olurdular.***

Torpaq islahatı və sənaye fəhlələrinin həyat şəraitini yaxşılaşdırmaq üçün tələb olunan islahatlar Azərbaycanda həyata keçirilməsi vacib olan köklü məsələlər idi. Hələ Zaqafqaziya Seymi bunu nəzərə alaraq torpaq islahatı haqqında qanun qəbul etmiş, həmin qanun Azərbaycan mülkədarlarının açıq narazılığına səbəb olmuşdu. Ona görə də F.X.Xoyskinin Gəncədə təşkil etdiyi hökumətin ilk qərarlarından biri 1918-ci il iyun ayının 22-də Azərbaycanda torpaq islahatı haqqında Zaqafqaziya Seyminin qəbul etdiyi qanunun icrasını dayandırmaq haqqındakı qərarı idi. Həmin qərarda göstərilirdi ki, Azərbaycanda Müəssislər Məclisi çağırılana qədər həmin qanunun ölkədə icrası dayandırılır, tutulmuş istər xüsusi, istərsə də xəzinə torpaqları geri qaytarılır. Qərarda əkinçilik nazirinə tapşırılırdı ki, yeni çağırılacaq Müəssislər Məclisinə təqdim etmək üçün torpaq məsələsinin həllinə aid lazımi materiallar toplasın, qısa müddətdə yeni yaradılmış torpaq komitələrinin ləğvi və ya yenidən qurulmasına və torpaqların satınalma qiymətləri haqqında təklifləri hazırlayaraq Nazirlər Şurasına təqdim etsin.

Baxmayaraq ki, 1919-cu ilin yayından torpaq haqqında islahat məsələsinin müzakirəsi Azərbaycan Parlamentinin iclaslarının gündəliyinə daxil edilmişdir, təəssüflər olsun ki,

bütün fəaliyyəti müddətində parlament həmin məsələni müzakirə etməmişdir.

Məhz bu məsələnin həllinin çətinliyini hiss edən sosialist fraksiyasının üzvləri S.Ağamalıoğlu, Ə.H.Qarayev, İ.Əbilov, Ə.C.Pepinov və başqaları ondan parlament tribunasından parlament və hökumətə qarşı təzyiq vasitəsi kimi istifadə edirdilər. Hər dəfə parlament iclasının gündəliyi müzakirə olunarkən onlar bu məsələni qaldırır, ilk növbədə daha vacib olan torpaq məsələsinin müzakirəsini keçirməyi təklif edirdilər. Onların gündəliyə aid bu təklifləri uzun müddət müzakirə olunur, sonra isə səsə qoyularaq rədd edilirdi. O da maraqlıdır ki, torpaq islahatı məsələsi parlamentin gündəliyindəki məsələlər sırasında irəli çəkilmək əvəzinə getdikcə geriyə keçirilirdi.

Müsavat partiyası və partiyasızlar fraksiyası tərəfindən torpaq islahatı haqqında 29 maddədən ibarət qanun layihəsi ümumxalq müzakirəsi üçün 1920-ci il fevral ayının 21-də "Azərbaycan" qəzetində dərc olunur. Həmin qanun layihəsinə görə torpaq üzərində xüsusi mülkiyyət hüququ saxlanmaqla torpaqların onların sahibləri tərəfindən istifadə olunmayan hissəsi hökumət tərəfindən pulla alınaraq torpaqsız kəndlilərə paylanmalı idi. Digər tərəfdən isə kəndlilərə həmin torpaqları almaq üçün dövlət tərəfindən güzəştli şərtlərlə kreditlər verilməsi nəzərdə tutulurdu. Təəssüflər olsun ki, aprel çevrilişinə qədər bu qanun layihəsi parlament iclaslarında müzakirə olunmayaraq kağız üzərində qalmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il sentyabr ayının 17-də Bakıya köçür, oktyabrın 1-də isə Bakı Xalq Komissarları Sovetinin neft sənayesinin milliləşdirilməsi haqqındakı bütün dekretlərini ləğv edir. Bütün neft sənayesi müəssisələri və onların hazır məhsulları keçmiş sahiblərinə qaytarılır.

Sənaye müəssisələri üzərində xüsusi mülkiyyət hüququnun bərpası hökumətə və parlamentə bu sahədə də az-çox köklü dəyişikliklər həyata keçirməyə imkan vermirdi. Dəfələrlə



sosialistlər fraksiyası parlamentdə bununla əlaqədar məsələlər qaldırır, onların həll olunmamasından istifadə edərək fəhlələr arasında təbliğat aparır, fəhlə tətilləri təşkil edirdilər. Sovet Rusiyasında torpağın, sənaye müəssisələrinin milliləşdirildiyi, onların fəhlə və kəndlilərə verildiyi haqqında sosialistlər fraksiyası açıq-açığına təbliğatla Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə və parlamentinə qarşı pozuculuq siyasəti yeridir, Azərbaycanın nicatının yalnız sovet Rusiyası ilə birləşməkdə olduğunu açıq və gizli şəkildə təbliğ edirdilər. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti və onun parlamentinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu əvəzsizdir.

**"Azərbaycan" qəzeti,**
**21, 23 may 1998-ci il, № 115, 117**

# AZƏRBAYCAN CÜMHURİYYƏTİ VƏ XALQ MAARİFİ

*(Azərbaycan xalq cümhuriyyəti - 80)*

Cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın ictimai fikir və dövlət quruculuğu tarixində böyük iz buraxmışdı.

Bu cümhuriyyətin Azərbaycan xalqı qarşısında ən böyük xidməti ondadır ki, o özünün qısamüddətli fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun özünün öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübut etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qısa tarixi dövrdə çox mürəkkəb beynəlxalq şəraitdə özünün daxili və xarici siyasət məsələləri, dövlət və təsərrüfat quruculuğu, respublikanın müdafiəsi, sərhəd məsələlərinin müəyyənləşdirilməsi və sair sahədə çox böyük işlər gördü.

Yarandığı ilk gündən Azərbaycan Xalq Cümhuriyyəti xalq maarifi və mədəniyyətinin inkişafı işinə xüsusi diqqət yetirir. Çar hakimiyyət orqanları özünün 1917-ci ildəki süqutuna qədər Rusiyanın zəhmətkeş və istismar olunan xalqlarının siyasi mənlik şüurunun oyanmasına hər vasitə ilə mane olmağa çalışmışdı. Ümumiyyətlə Çar Rusiyasında xalq məktəbləri dövlət orqanizmində bir "yaman şişi" xatırladırdı. Hökumət bir tərəfdən xalq təhsilinin inkişafı ilə razılaşmalı olurdu. Çünki dünyada elm və texnikanın sürətlə inkişafı maarifin və xalq təhsilinin tamamilə yenidən qurulmasını tələb edirdi. Digər tərəfdən isə xalqın oyanmaqda olan şüurunun qarşısını almaq üçün hökumət xalq maarifi işini məhdud çərçivədə saxlamağa çalışırdı. Çar Rusiyasında xalq maarifi və



onun əsas daşıyıcısı olan xalq müəllimi hökumət tərəfindən hər cür həqarət və təqiblərə məruz qalırdı. Milli ucqarlarda isə vəziyyət daha dözülməz idi. Burada yaşayan xalqlar arasında zorla ruslaşdırma siyasəti yeridilir, təhsil əsasən rus dilində aparılırdı. Bu xalqların öz dili və mədəniyyətini inkişaf etdirməsinə hər cür əngəllər törədilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalq maarifi işlərinə birinci dərəcəli əhəmiyyət verir. 1918-ci il may ayının 28-də Fətəli Xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci Azərbaycan Cümhuriyyəti hökumətinin tərkibində Azərbaycan Xalq Maarif Nazirliyi də təsis olunur. Nəsib bəy Yusifbəyli isə ilk xalq maarif naziri təyin edilir. Azərbaycan Xalq Maarif Nazirliyi öz fəaliyyətinə Azərbaycan xalq maarifinin inqilabaqədərki vəziyyəti və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başlayır. Demokratik respublika yaranana qədər Azərbaycan ərazisində fəaliyyət göstərən maarif şəbəkəsi gənc respublikanın xalq maarifi sahəsində qarşıya qoyduğu tələblərə cavab verə bilmədiyi üçün Xalq Maarif Nazirliyi bu sahədə islahatlar keçirmək üçün təkliflər hazırlayaraq hökumətə təqdim edir. Maarif sahəsində islahatda məqsəd maarif işi üçün çəkilən xərclərə maksimum dərəcədə qənaət etməklə qısa müddətdə xalq maarifi işini sürətlə inkişaf etdirmək idi. Bunun üçün xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv olunur. Bütün respublikada məktəb və maarif işinin idarəsi Xalq Maarif Nazirliyinin və xalq məktəbləri təlimatçılarının ixtiyarına verilir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncəyə köçdükdən sonra iyunun 30-da Azərbaycan hökumətinin qərarı ilə Azərbaycan Xalq Maarifi Nazirliyinin ştatı təsdiq olunur. Buraya nazir, onun müavini, nazirliyin idarə, şöbə və dəftərxana aparatı işçiləri daxil idi. Nazirliyin səlahiyyətinə xalq maarifinə aid qanuni aktların layihələrini hazırlayaraq müvafiq qanunvericilik idarələrinə təqdim etmək, respublikada

elmin və maarifin inkişafına kömək edən tədbirlər planı işləyib hazırlamaq, nazirlik sistemi üzrə maliyyə smetası tərtib etmək, nazirlik sistemində olan bütün idarələrin və tədris müəssisələrinin illik hesabatlarını müzakirə etmək, nazirin şurasında baxılacaq məsələləri hazırlamaq. Nazirin şurasının iclaslarına müzakirə olunan məsələnin mövzusundan asılı olaraq nazirin göstərişi ilə elm və tədris məsələləri ilə məşğul olan mütəxəssislər də dəvət oluna bilərdilər.

Xalq Maarifi Nazirliyinin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili işləri üzrə üç müstəqil şöbə yaradılır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif işi sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi oldu. Bu Azərbaycan hökumətinin 1918-ci il 27 iyun tarixli qərarı ilə həyata keçirilir. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların olmaması işi çətinləşdirirdi. Buna görə də müvəqqəti olaraq inzibati-idarə orqanları, məhkəmə işi və s. sahələrdə Azərbaycan dilini bilən ixtisaslı kadrlar hazırlanana qədər rus dilindən istifadəyə də yol verilirdi. Azərbaycan Cümhuriyyəti öz varlığının ilk günlərindən milli kadrların yetişdirilməsinə, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verir. Bu işdə Xalq Maarifi Nazirliyinin işi xüsusi əhəmiyyət kəsb edir. Nazirliyin məktəb təhsili sahəsində həyata keçirdiyi ilk tədbir məktəblərin milliləşdirilməsi oldu. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarı ilə müəyyən olunurdu ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi məcburi surətdə həyata keçirilməlidir. Ali ibtidai və orta tədris müəssisələrində dərslər məcburi surətdə dövlət dilində, yəni Azərbaycan dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə türk dilli şöbələri açılır və burada Azərbaycan dili elə intensiv surətdə tədris olunur ki, iki ildən



sonra həmin şagirdlər artıq Azərbaycan dilində təhsillərini davam etdirə bilsinlər. 5-ci sinifdən yuxarı şagirdlər qurtarana qədər isə tədris prosesi rus dilində aparılır. Azərbaycan dili isə həmin siniflərdə məcburi fənn kimi tədris olunur. Bu siniflərdə Azərbaycan dilinin tədrisi həftədə 4 saatdan az olmamalı idi.

Öz fəaliyyətinin ilk günlərindən demokratik mövqelərdə dayanan Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azlıqda qalan millətlərin mənafeyini də nəzərə almışdı. Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə əgər sinifdə 10 nəfərdən az olmayaraq başqa millətdən olan şagird var idisə, onda onlara öz dillərində ilahiyyət və ana dili dərsləri keçilməli idi. Məktəblərin milliləşdirilməsi ilə əlaqədar olaraq Azərbaycan dilini bilməyən çoxlu uşaq təhsildən kənarda qalır. Buna görə də 1918-ci il noyabrın 13-də Azərbaycan hökuməti özünün xalq təhsili haqqındakı əvvəlki qərarlarına dəyişikliklər edir. Yeni qərarla o şəhərlərdə ki, bir orta təhsil müəssisəsi var idi, orada yuxarı hazırlıq siniflərindən başlayaraq Xalq Maarif Nazirliyinin icazəsi ilə paralel olaraq rus bölmələri də açmağa icazə verilir. O şəhərlərdə ki, bir-neçə eyni tipli təhsil ocağı fəaliyyət göstərirdi, onda onların bir hissəsi milliləşdirilir, qalan hissəsində isə təhsil rus dilində aparılır. Lakin həmin məktəblərin hamısında Azərbaycan dili məcburi fənn kimi tədris olunur. Həmin qərarla azərbaycanlı uşaqlarından tələb olunurdu ki, onlar məcburi surətdə yalnız milliləşdirilmiş, yaxud milliləşdirilməsi nəzərdə tutulan məktəblərdə oxusunlar.

Azərbaycan Cümhuriyyəti xalq maarif naziri Nəsibbəy Yusifbəyli 1918-ci il dekabrın 31-də Azərbaycan qubernatorlarına yazdığı məktubda göstərirdi ki, indi Xalq Cümhuriyyətində maarif işi sahəsində qarşıda çox böyük və çətin vəzifələr dayanır. Nazirlik bütün qüvvəsini sərf edir ki, mümkün qədər qısa müddətdə ölkədə yeni məktəblər, müəllimlər hazırlayan kurslar açmaqla maarif işi sahəsində ölkəni qısa vaxtda lazımi səviyyəyə qaldıra bilsin. O öz məktubunda sonra qeyd edirdi

ki, indiki zamanda yalnız yüksək maarifli xalqın yaşamağa haqqı var. Buna görə də öz məktubunda o, Azərbaycanın bütün quberniya və qəzalarında xalq maarif işinə ciddi fikir verməyi xahiş edirdi.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qadın tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi. 1919-cu ilin əvvəllərində Bakı qadın müəllimlər seminariyası kişi müəllimlər seminariyasına çevrilir. 1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da xalq maarif nazirliyinin sərəncamına keçir. Həmin il avqustun 11-də Xalq Maarif Nazirinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı müqəddəs Nina qız tədris müəssisələrinin adı dəyişdirilir. Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxada isə qız gimnaziyaları adlandırılır. 1919-cu ildə Xalq Maarif Nazirliyi Göyçay şəhərində realnı məktəb, Bakıda qız, Nuxada kişi və qadın, Şuşada kişi məktəb və seminariyaları açmaq barədə Azərbaycan Parlamentinə qərar layihələri təqdim edir. Onlardan 1919-cu ildə yalnız Göyçayda realnı məktəb açmaq haqqında qanun layihəsi təsdiq olunur.

Müəllim seminariyalarında oxuyanlar istisna olmaqla 1919-1920-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onlardan da 3115-i azərbaycanlı, qalan 6496 nəfəri isə başqa millətlərin nümayəndələri idi. Bakı kommersiya və politexnik məktəbləri, Bakıdakı 3-cü və 4-cü kişi, 2-ci, 3-cü və 4-cü qadın gimnaziyalarından başqa qalan bütün orta ixtisas təhsil müəssisələri milliləşdirilmişdir. Bakıdan başqa Azərbaycanın digər şəhərlərindəki milliləşdirilmiş məktəblərdə Azərbaycan hökumətinin 1918-ci il 28 avqust və 13 noyabr tarixli qərarlarına uyğun olaraq



milliləşdirilmiş siniflərlə yanaşı, tədrisin rus dilində aparıldığı siniflər də fəaliyyət göstərirdi. Lakin dərslərin rus dilində aparıldığı siniflərdə məcburi surətdə həftədə 3-4 saat Azərbaycan dili dərsləri də keçirilirdi.

Xalq təhsilini milli zəminlər üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud olan müəllim kadrları bu işin öhdəsindən heç cür gələ bilməzdi. Bunun üçün təcili olaraq yeni yollar axtarmaq lazım idi. Bu vəzifəni yerinə yetirmək üçün başlıca yol Türkiyədən müəllim kadrları dəvət etmək və qısamüddətli kurslarda Azərbaycan dili bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi.

1918-ci il iyunun 22-də Azərbaycanın tədris müəssisələri üçün Türkiyədən müəllim kadrları dəvət etmək və dərs vəsaiti tədarük etmək haqqında Azərbaycan hökuməti xüsusi qərar qəbul edir. Bu məqsəd üçün hökumət Türkiyə həyatı ilə yaxşı tanış olan Əhmədbəy Ağayevi bu işləri təşkil etmək üçün İstanbula ezam etməyi Xalq Maarif Nazirliyinə tövsiyə edir.

Tədris müəssisələrinin milliləşdirilməsi işini daha müvəffəqiyyətlə həyata keçirmək məqsədilə 1919-cu ilin yayında ibtidai və orta məktəblərin aşağı siniflərini müvafiq milli müəllim kadrları ilə təmin etmək məqsədilə qısa müddətli pedaqoji kurslar təşkil olunur. Hökumətin qərarı ilə bu məqsədlə Xalq Maarif Nazirliyinin sərəncamına 2 milyon 390 min manat vəsait ayrılır. Bakıda, Gəncədə və Nuxada kişi və qadın, Şuşada, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada isə kişi pedaqoji kursları açılır. Hər kursda ən azı 50 nəfər müdavim təhsil alırdı. Kursları qurtaranların demək olar ki, hamısına məktəblərdə müəllim yeri verilirdi. Bundan əlavə Türkiyədən 50 nəfərə yaxın müəllim dəvət olunur.

Müəllim kadrlarının hazırlanması və dəvəti ilə yanaşı Xalq Maarif Nazirliyi məktəblər üçün dərsliklərin hazırlanması və nəşri ilə də ciddi məşğul olur. Bunun üçün Maarif Nazirliyinin xüsusi komissiyası təşkil edilir. 1919-cu ildə "Türk əlifbası".

"Təzə elmi hesab", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Tarixi-təbii", "Rəhbər cəbr" dərslikləri qısa müddətdə hazırlanaraq kütləvi tirajlarla nəşr olunub məktəblər arasında paylanır. Dərsliklərin hazırlanmasında Azərbaycan maarifi və ədəbiyyatının görkəmli xadimləri Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Abdulla Şaiq, Camo Cəbrayılbəyli, Səmədbəy Acalov, Fərhad Ağayev, Ağabəy İsrafilbəyov, Abdullabəy Əfəndizadə və başqaları fəal iştirak edirlər. Bundan əlavə Azərbaycan məktəblərinin kitabxanaları Türkiyədən alınmış türk dilli dərsliklər, dərs vəsaitləri və başqa kitablarla da təmin olunurlar.

1919-cu il 18 sentyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının parlamenti xalq məktəbləri üçün türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırır.

Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən ümdə vəzifələrdən biri də Azərbaycanda ali təhsil işinin təşkili və ali təhsilli milli kadrların hazırlanması məsələsi idi. O dövrdə müstəqil yaşamaq üçün başlıca tələblərdən biri müxtəlif sahələr üzrə ali təhsilli kadrların hazırlanması məsələsi idi. Azərbaycan Xalq Cümhuriyyəti ilk gündən bu məsələni iki istiqamətdə həll etməyə çalışır. Birinci Azərbaycanda ali təhsil müəssisələri yaratmaq, ikinci isə azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssislərinə göndərməklə.

Özünün qısa müddətli tarixi dövründə Azərbaycan Xalq Cümhuriyyəti qarşısında Azərbaycanda üç ali məktəbin açılması məsələsi durmuşdu. Onlardan Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyası. Sənədlərdən də görünür ki, Azərbaycan Respublikası hökuməti, xüsusilə Xalq Maarif Nazirliyi bu ideyaların hamısını müsbət qarşılamışdı. Bakıda Kənd Təsərrüfatı İnstitutu açmaq məsələsini 1919-cu il 5 mart tarixli iclasında müzakirə edən Azərbaycan Cümhuriyyəti hökuməti həmin ideyanı bəyənir və Xalq Maarif Nazirliyinə tapşırır ki, bu məsələ ilə əlaqədar



qanun layihəsi hazırlayaraq parlamentə təqdim etsin. Lakin o dövrdəki şərait və imkanlar yalnız Bakı Dövlət Universitetini açmağa imkan verdi.

1919-cu il aprel ayının 8-də Azərbaycan Cümhuriyyəti hökumətinin iclasında Bakıda universitet açmaq məsələsi müzakirə olunur. Qəbul edilən qərarda göstərilirdi ki, Xalq Maarif Nazirliyinə tapşırılsın ki, bütün imkanlardan istifadə edərək 1919-1920-ci tədris ilinin başlanğıcında Bakıda universitet açsın. Bunun üçün ümumi həcmi 10 milyon manatdan çox olmamaq şərtilə xüsusi smeta hazırlanaraq təqdim olunsun. Bakı universiteti kommersiya məktəbinin binasında yerləşdirilsin.

Həmin il mayın 19-da isə Azərbaycan hökuməti Bakı universitetinin təşkilat komissiyasını yaratmaq və onun üçün vəsait buraxmaq haqqında məsələ müzakirə edir. Universitet komissiyası haqqında əsasnamə bəyənilir. May ayının 21-də isə artıq Bakı şəhərində dövlət universiteti yaratmaq üzrə komissiyanın birinci iclası keçirilir. İclası xalq maarif naziri vəzifəsini ifa edən Camobəy Hacınski açaraq bildirir ki, Azərbaycan hökuməti Bakıda dövlət universiteti açmaq haqqında qəti qərara gəlib. O, ümidvar olduğunu bildirir ki, təşkilat komitəsinin üzvləri belə çətin işi müvəffəqiyyətlə yerinə yetirmək üçün bütün imkanlardan istifadə edəcəklər. O, bildirir ki, universitetin Azərbaycan xalqının həyatında çox böyük mədəni və siyasi əhəmiyyətini nəzərə alaraq hökumət onun açılması və lazımi avadanlıqlarla təchizi üçün heç nəyi əsirgəməyəcəyini elan edir.

Universitet komissiyasına ali məktəb işinin təşkilində böyük səriştəsi olan professor V.İ.Razumovski rəhbərlik edir. Komissiyaya professorlardan A.M.Levin, N.A.Dubrovski, İ.S.Sitoviç və privat-dosent L.A.İşkov daxil idi. Universitet komissiyası haqqında da əsasnaməyə görə Xalq Maarif Nazirliyinin Bakı şəhəri Bələdiyyə İdarəsinin və neft sənayeçiləri qurultayı şurasının nümayəndələri də daxil idi. Xalq Maarif Nazirliyində

Məhəmmədağa Şaxtaxtılı, şəhər bələdiyyə idarəsindən Əlicabbar Orucəliyev və neft sənayeçiləri qurultayı şurasından A.N.Saparov universitet komissiyasına daxil olurlar. Komissiyanın 1919-cu il may ayının 22-dən sentyabrın 9-na qədər 35 iclası keçirilmişdir. Bu iclaslarda universitetin yaradılmasına dair çox müxtəlif məsələlər müzakirə olunmuşdur.

Sonralar universitetin açılması ilə bağlı məsələlər dəfələrlə Azərbaycan Cümhuriyyəti hökuməti və parlamentinin iclaslarında müzakirə olunmuşdur.

Azərbaycan dilini bilən yüksək ixtisaslı mütəxəssis kadrların olmaması üzündən Bakı universitetində təhsil rus dilində aparılmalı idi. Bu isə böyük mübahisəyə səbəb olur. "Azərbaycan" qəzetində dərc etdirdiyi məqaləsində Məhəmmədağa Şaxtaxtılı yazırdı ki, universitetdə təhsilin rus dilində aparılmasından qorxmaq lazım deyil. Universitet təhsilinin həyata keçirilməsi Azərbaycanda yüksək ixtisaslı milli kadrların yetişməsinə zəmin yaradacaq. Nəticədə tədricən milli kadrlar yetişdirildikcə universitetdə təhsil Azərbaycan dilinə keçiriləcəkdir.

1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul edir. Qanunda universitetin 4 fakültədən ibarət olaraq açılması nəzərdə tutulurdu. Onlar Şərq şöbəsi də daxil olmaqla tarix və filologiya fakültəsi, fiziki-riyaziyyat, hüquq və tibb fakültələri idi. 1919-1920-ci tədris ilində isə yalnız iki fakültə tibb fakültəsinin əvvəlinci kurslarının, tarix-filologiya fakültəsinin isə birinci kursunu açmaq mümkün olur. 1919-cu il noyabr ayının 15-də universitet auditoriyalarında ilk mühazirələr oxunur. Universitetin tarix-filologiya fakültəsində Məmməd Əmin Rəsulzadə və xalq maarif naziri Rəşid Kaplanov Osmanlı ədəbiyyatından, Məhəmmədağa Şaxtaxtılı isə Azərbaycan dilinin qramatikasından mühazirələr oxuyurlar.

Universitetdə 1919-1920-ci tədris ilində 1094 tələbə təhsil alırdı ki, onlardan da 217 nəfəri azad dinləyici idi.



Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanda ali təhsilli mütəxəssis kadrları hazırlamağın ikinci yolu Azərbaycanlı gənclərin xarici ölkələrin ali məktəblərinə göndərilməsi yolu idi.

1919-cu il sentyabr ayının 1-də Bakıda Dövlət Universiteti açmaq haqqında qanunla bərabər Azərbaycan parlamenti dünyanın müxtəlif ali məktəblərində təhsil almaq üçün 100 nəfər azərbaycanlı gənci 1919-1920-ci tədris ilində dövlət hesabına xaricə göndərmək haqqında qərar qəbul edir. Bu məqsəd üçün 7 milyon manat vəsait ayrılır. Təhsil üçün Avropa ali məktəblərinə göndərilən hər tələbə üçün ayda 400 frank təqaüd təyin olunur. Hər tələbəyə min frank yol xərci verilir. Xaricdə oxumaq üçün İngiltərəyə 10 nəfər, İtaliyaya 23 nəfər, Fransaya 45 nəfər, Türkiyəyə 9 nəfər göndərilir. Öz təhsillərini başa çatdırmaq məqsədilə 13 nəfərin Rusiyaya göndərilməsi də nəzərdə tutulmuşdur. Lakin vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb şəraitdə oraya tələbə göndərmək mümkün olmur.

Müəyyən olunmuş qaydaya görə hökumət hesabına təhsil alacaq tələbələr ali məktəbi bitirdikdən sonra dörd il məcburi surətdə Azərbaycan hökumətinin göndərdiyi yerdə işləməli idilər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Nəriman Nərimanovun göstərişi ilə hökumət xaricdə təhsil alan tələbələrin qayğısına qalaraq onlara təhsillərini başa çatdırmaq üçün maddi köməklik göstərir.

Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarif sahəsində həyata keçirdiyi mühüm tədbirlərindən biri də ibtidai təhsil müəssisələri şəbəkəsini genişləndirmək idi. Müəyyən olunmuş qayda üzrə ibtidai məktəbi qurtaran şagirdlər ibtidai-ali və orta təhsil məktəblərində öz təhsillərini davam etdirə bilərdilər. Təkcə 1919-cu ildə Azərbaycanda dövlət hesabına 15 ibtidai - ali məktəb fəaliyyət göstərirdi.

Yaşlılar arasında savadsızlığın ləğv edilməsi də Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mühüm tədbirlərdən

idi. 1919-cu il sentyabrın 15-dən Bakı,Gəncə, Şuşa, Nuxa, Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar açılır. Bu kurslarda tədris müddəti iki semestrə bölünürdü. Birinci semestr 1919-cu il sentyabrın 15-dən dekabrın 15-nə qədər, 2-ci semestr isə 1920-ci il yanvarın 1-dən aprelin 1-nə qədər müəyyən edilir. Bu kurslar üç bölməyə ayrılırdı. Birinci bölmədə tamamilə Azərbaycan dilini və yazı bilməyənlər, ikinci bölməyə dili bilib yazını bilməyənlər, üçüncü bölməyə dili və yazını bilənlər, lakin xüsusi terminləri, Azərbaycan dilində dərs demək üçün üsul və yolları öyrənmək istəyənlər idi. Bu kurslarla yanaşı Bakıda Azərbaycan parlamentinin üzvü Abdulla bəy Əfəndiyevin rəhbərliyi ilə milli məktəblər üçün xüsusi kurslar açılır. Bu kurslarda əsasən Azərbaycan dilinin tədrisi qaydaları keçirilirdi.

Bakıda birinci realnı məktəbin binasında açılan kurslara Bakı müəllimlər seminariyasının direktoru Rəşidbəy Əfəndiyev rəhbərlik edirdi. S.M.Qənizadə və bir neçə parlament üzvünün iştirakı ilə sentyabrın 17-də Bakıda açılan kurslarda 500 nəfərə qədər müdavim iştirak edirdi ki, onların da çoxu Azərbaycan Respublikasının nazirlikləri və digər hökumət idarələrinin əməkdaşları idi.

1919-cu ilin noyabrından keçmiş Rusiya imperiyasının ən iri sənaye mərkəzlərindən olan Bakıda azərbaycanlı fəhlələr üçün xüsusi texniki axşam kursları açılır. Bu kurslarda 200 nəfərə yaxın azərbaycanlı fəhlə öz peşə təhsillərini artırdılar. Bu kursların təşkilində onun müdiri mühəndis-texnik Əliheydər Babayev xüsusi fəallıq göstərmişdi.

Kursun işlərinə Xalq Maarif Nazirliyi yaxından kömək göstərirdi. Azərbaycan Cümhuriyyəti Maarif Nazirliyi ölkədə Xalq Maarifinin inkişafı üçün geniş tədbirlər planı hazırlamış və onlar Azərbaycan hökuməti tərəfindən bəyənilmiş və həyata keçirilməsi üçün razılıq verilmişdi. Bu tədbirlər arasında oxumaq üçün maddi imkanı olmayan 650 nəfər şagirdə təqaüd təyin olunması, Bakıda qızlar üçün 25 nəfərlik pansionatın



təşkili, Xalq Maarif Nazirliyi nəzdində pedaqoji və elmi bədii jurnallar nəşr etmək, Gəncə, Qazax, Şuşa və Nuxada kişi, Bakı, Nuxa və Gəncədə isə iki illik qadın kursları, Bakıda ibtidai məktəblər üçün bir illik hazırlıq kursları təşkil etmək, xaricdən gətirilən tədris çap məhsullarını gömrük xərclərindən azad etmək və sair məsələlər var idi. Lakin 1920-ci ilin əvvəllərində regionda vəziyyətin mürəkkəbləşməsi və həmin il aprelin axırlarında Azərbaycanda sovet hakimiyyətinin qələbəsi bu tədbirləri yarımçıq qoyur.

Lakin Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti müddətində xalq maarif sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifi məsələlərinin təşkilində mühüm rol oynamışdır.

**"Azərbaycan" qəzeti,**
**6 mart 1998-ci il, № 52.**



5.-3510

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNİ ÖYRƏNMƏK ÜÇÜN ƏSAS MƏNBƏLƏR

Cəmi 23 ay yaşamasına baxmayaraq xalqımızın azadlığı, istiqlaliyyəti və dövlət quruculuğu tarixində əvəzsiz rolu olmuş, lakin 70 ildən yuxarı adının çəkilməsi belə yasaq olunmuş, "əksinqilabi burjua-mülkədar Müsavat hökuməti" damğası vurulmuş Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər yeddi qıfıl arxasında saxlanılmışdır. O vaxtlar bu sənədlərlə tanışlıq təkcə tədqiqatçılara, geniş oxucu kütlələrinə deyil, həm də arxiv işçilərinin özləri üçün də əlçatmaz idi. Məxfi saxlancıqlarda qorunan bu sənədlərlə yalnız xüsusi orqanların yoxlanmasından keçmiş gizli sənədlərlə işləmək səlahiyyətləri olan bir neçə arxiv işçisi tanış idi. Onların da ağzı necə deyərlər həmin sənədlərin saxlanclarının qapılarından asılmış qıfıllardan da möhkəm idi. Ona görə də 70 ildən yuxarı bu sənədlərin saxlandığı qovluqlarda nə olduğu biz arxiv işçiləri üçün də sirr idi. Digər tərəfdən isə tarixi ədəbiyyatda "əksinqilabi burjua-mülkədar Müsavat hökuməti dövrü" adlandırılan bu tarixi mərhələ o qədər qara boyalarla təsvir olunurdu ki, oxucuya istər-istəməz həmin dövrə aid sənədlərə qarşı adamlarda açıq şəkildə olmasa da, gizli şəkildə bir qorxu, xof hissi hakim idi. Bu 70 ildə həmin sənədlərin saxlanılması vəziyyəti ilə demək olar ki, heç kim maraqlanmırdı. Əslində isə maraqlanmağa belə qorxurdu. Yalnız səksəninci illərin axırlarında, doxsanıncı illərin əvvəllərində SSRİ adlanan imperiyanın dağılması bu imperiyaya daxil olan digər xalqlar kimi Azərbaycan xalqını da öz azadlığına qovuşdurdu. Xalqımız 1920-ci ilin aprelində



XI Qızıl Ordu tərəfindən ləğv edilmiş öz dövlət müstəqilliyini yenidən bərpa etdi. Yeni yaranmış Müstəqil Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi elan etdi. Xalqımızın tarixinin həmin dövrünə tamamilə yeni baxış, yeni münasibət meydana gəldi. Tariximizin bu dövrünü yenidən öyrənmək və təhlil etmək üçün etibarlı tarixi mənbələr lazım idi. Bu cür tarixi mənbələr isə respublikamızın dövlət arxivləri və onların elmi-məlumat kitabxanalarında toplanmış sənədlər və materiallar idi.

Bu mənbələr hansılardı? Azərbaycan Xalq Cümhuriyyətinin tarixini yazanlar hansı qaynaqlardan bəhrələnir və bu tarixin yazılmasının əsasını arxivlərimizdə saxlanılan hansı sənəd və materiallar qrupu təşkil edir? Bu mənbələr ilk əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş dövlət hakimiyyəti və idarəetmə orqanlarının, müxtəlif dövlət, idarə, təşkilat və müəssisələrin, habelə ictimai təşkilatların fəaliyyəti nəticəsində yaranmış sənədlərdi. Bu sənədlər əsasən Azərbaycan Respublikasının Dövlət Arxivində və qismən də Respublika Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində mühafizə olunur. Təəssüflər olsun ki, bu sənədlər tam şəkildə qorunub saxlanaraq bizə gəlib çatmamışdır. Lakin arxivlərimizdə qorunaraq bu günə çatmış sənəd və materiallar da Azərbaycan Cümhuriyyətinin tarixi haqqında tam mənzərə yaratmasa da, kifayət qədər verilir.

Respublikamızın dövlət arxivlərində Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid dövlət hakimiyyəti və idarəçilik orqanlarının hüquq-mühafizə və təhlükəsizlik təşkilatlarının fəaliyyəti nəticəsində yaranmış 25 mindən yuxarı iş qorunub saxlanır.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid nisbətən tam şəkildə qorunub saxlanan arxiv Azərbaycan Cümhuriyyəti Parlamentinin fondudur. Minə yaxın işdən ibarət olan bu fondda Azərbaycan Cümhuriyyəti Parlamentinin 1918-ci il

dekabrın 7-də açılan ilk iclasından tutmuş 1920-ci il aprelin 19-da keçirilmiş 142-ci iclasına qədər bütün iclasların protokolları və onların böyük əksəriyyətinin isə stenoqrafik hesabatları saxlanılır. Parlamentin arxiv fondunda bundan başqa, Parlament tərəfindən qəbul edilmiş qanunlar və digər normativ aktlar, qanun layihələri, hökumət idarələri tərəfindən parlamentə təqdim olunmuş məruzələr, məlumatlar, məktublar, respublika əhalisinin müxtəlif məsələlərə aid ərizə, şikayət teleqramları, parlament üzvlərinin siyahıları, onlardan bəzilərinin şəxsi işləri və s. saxlanılır. Təəssüflər olsun ki, İstiqlaliyyət bəyannaməsinin elan edildiyi ilk gündən yaranaraq 1920-ci il aprel ayının 27-də Azərbaycan Cümhuriyyətinin süqutuna qədər fəaliyyət göstərmiş və öz fəaliyyəti dövründə 5 hökumət kabineti dəyişmiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyəti nəticəsində yaranmış və onun çoxşaxəli fəaliyyətini özündə əks etdirən sənədlər qorunub saxlanılmamış və bizə gəlib çatmamışdır. Düzdür, Cümhuriyyət hökumətinin qəbul etdiyi qərarların çoxu, hökumət sədri və onun dəftərxanasının ayrı-ayrı nazirliklərə göndərdikləri normativ aktlar və məktublar nazirliklərin sənədləri arasında qorunub saxlanılmış və bu gün Azərbaycan Cümhuriyyəti hökumətinin fəaliyyətini öyrənmək üçün əvəzsiz mənbədir.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə daxil olan nazirliklərin demək olar ki, hamısının sənədləri az və ya çox dərəcədə bizə gəlib çatmışdır. Onlardan elələri var ki, sənədləri daha mükəmməl şəkildə bizə çatmışdır. Bunlar daxili işlər nazirliyi, xalq təhsili nazirliyi, xarici işlər nazirliyi, sənaye və ticarət nazirliyi, əkinçilik və dövlət əmlakı nazirliyi, ədliyyə nazirliyi, maliyyə nazirliyidir. Elə nazirliklər də vardır ki, onların çox az miqdarda sənədləri qalmışdır. Bunlar hərbi nazirlik, əmlak nazirliyi, dövlət nəzarəti nazirliyi, yollar nazirliyi və başqalarıdı. Bu nazirliklərin arxiv fondlarında saxlanılan sənədlərdə Azərbaycan Cümhuriyyəti dövründə ölkəmizdə dövlət quruculuğu sənaye, ticarət, kənd təsərrüfatı, maarif, mədəniyyət, səhiyyə, əhalinin sosial-siyasi vəziyyəti, ölkə daxilində əlaqələri möhkəmləndirmək üçün rabitənin, şosse və dəmir yollarının bərpası, erməni təcavüzü nəticəsində yaranmış çoxminlik qaçqınlara kömək və s. məsələlər haqqında geniş məlumatlar vardır. Xarici İşlər Nazirliyinin və Azərbaycan hökumətinin Gürcüstanda olan diplomatik nümayəndəliyinin fondlarında Azərbaycan Cümhuriyyəti hökumətinin xarici ölkələrlə diplomatik əlaqələrinin yaradılmasını özündə əks etdirən qiymətli sənədlər qorunub saxlanılır. Onların arasında Ə.M.Topçubaşov başda olmaqla Paris Sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin məlumatları, habelə nazirliyin bəyanatları, notları, memorandumları, məlumatları, yazışmaları, sərhəd məsələləri və başqa məsələlər haqqında Zaqafqaziya respublikaları nümayəndələri arasında aparılan danışıqların, konfransların protokolları, Gürcüstan Respublikası və İranla bağlanan ikitərəfli müqavilələr və s. qorunur.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti zamanı respublika hökuməti qarşısında duran ən mühüm məsələlərdən biri də ölkənin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsi vəzifəsi idi. Ordu quruculuğuna aid sənədlər 1918-ci ilin dekabrında yaradılmış Azərbaycan Cümhuriyyəti hərbi nazirliyinin və onun baş qərargahının fondlarında, təhlükəsizlik məsələləri ilə əlaqədar sənədlər isə 1919-cu ilin iyununda Dövlət Müdafiə Şurası ilə eyni vaxtda yaradılmış Azərbaycan Cümhuriyyəti hökuməti yanında əksinqilab ilə mübarizə təşkilatı fondunda toplanmışdır. 1919-cu ilin yayında Azərbaycana qarşı Denikin ordularının hücumu təhlükəsi ilə əlaqədar yaradılmış bu təşkilat əvvəlcə Məmməd Bağır Şeyxzamanovun, sonra isə onun qardaşı Nağı Şeyxzamanovun rəhbərliyi ilə Bakıda və Azərbaycanın digər bölgələrində Denikin və er-

məni casuslarının aşkar edilməsi və zərərsizləşdirilməsi sahəsində çox işlər görülmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyulun 15-də Gəncədə keçirilən iclasında Birinci Dünya müharibəsi başlanandan sonra Zaqafqaziyada azərbaycanlılar və onların əmlakı üzərində ermənilərin törətdikləri vəhşiliklər və zorakılıq hallarının təhqiqi üçün xüsusi Föqəladə Təhqiqat Komissiyası yaratmaq haqqında məsələ müzakirə edir. Bu barədə Xarici İşlər Naziri Məmməd Həsən Hacınski məruzə edir. Əvvəlcə Xarici İşlər Nazirliyi yanında yaradılan bu komissiya həmin ilin sentyabrından ədliyyə nazirliyinin sərəncamına verilir. Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə yaradılmış bu komissiyanın sənədləri də dövlət arxivində qorunub saxlanılır. Komissiyanın bu məsələ ilə əlaqədar topladığı 36 cild 3500 vərəqdən ibarət təhqiqat materialları və digər sənədlər bu illərdə ermənilərin indiki Ermənistan ərazisindən başqa, həm də ermənilərin azlıq təşkil etdiyi Bakıda, Şamaxıda, Qubada, Qarabağda və respublikamızın digər bölgələrində törətdikləri vəhşiliklər, azərbaycanlıların başına açdıqları müsibətlər haqqında ətraflı məlumatlar verilir. Özü də bu məlumatların çoxunu A.Novatski, N.Mixaylov, Ç.Klassovski, A.Aleksandroviç və başqaları kimi başqa millətlərdən olan şəxslər imzalamışlar.

Arxivimizdə saxlanılan Xalq Cümhuriyyəti dövrü tarixinə aid sənədlər, habelə ölkənin inzibati-ərazi bölgüsü, yerli hakimiyyət orqanlarının yaradılması və onların fəaliyyəti haqqında da məlumat verir. Bu sənədlər əsasən Bakı və Gəncə qubernatorlarının dəftərxanalarında, Möhkəmləndirilmiş Bakı rayonunun hərbi-general qubernatoru idarəsinin fondunda (1919-cu ildə Denikin Təhlükəsi ilə əlaqədar yaradılmışdı), Şuşa, Zəngəzur, Cavad və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatorunun fondunda, habelə qəza rəislərinin, şəhər hakimlərinin idarə fondlarında qorunub saxlanılır.



Məhkəmə və prokurorluq orqanlarının fəaliyyətinə aid sənədlər Azərbaycan Məhkəmə Palatası, Bakı və Gəncə dairə məhkəmələrinin fondlarında cəmlənmişdir. Prokurorluq orqanlarının fəaliyyətinə aid sənədlər isə Azərbaycan Məhkəmə Palatası prokurorunun və Bakı Dairə Məhkəməsi prokurorunun dəftərxanalarında toplanmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş sənaye, kənd təsərrüfatı, maliyyə və digər sahələrə aid idarələrin və ictimai təşkilatların sənədləri də arxivlərimizdə saxlanılır və bu gün Azərbaycan Cümhuriyyətinin tarixini öyrənmək üçün qiymətli mənbələrdi.

Azərbaycan Cümhuriyyətinin 1920-ci ilin aprelində süqutundan sonra onun mühacirətə getmiş nümayəndələri Cümhuriyyətin fəaliyyəti dövrünə aid sənədlərdən də özləri ilə aparmış və ya mühacirətdə onların fəaliyyətləri nəticəsində yeni sənədlər və mətbu materiallar yaranmışdır. Əlbəttə bu sənəd və materiallar da Azərbaycan xalqının mənəvi sərvətidir və Azərbaycana qaytarılmalıdır. Maddi imkansızlıq üzündən arxivlərimizin əməkdaşlarının Türkiyə və Azərbaycan mühaciratının yaşadığı digər Avropa ölkələrinə ezamiyyələrini təşkil edib həmin sənədləri toplaya bilmirik. Xaricə gedib bu sənədləri əldə edənlər isə o sənədləri respublikamızın dövlət arxivlərinə təhvil vermirlər. Bu sahədə yalnız uzun müddət Parisdə YUNESKO-nun qərargahında işləmiş Ramiz Abutalıbov istisna təşkil edir. O, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin üzvü olmuş Cümhuriyyətin süqutundan sonra uzun illər xaricdə fəaliyyət göstərmiş Ceyhun Hacıbəylinin (1891-1962) arxivini gətirərək respublika Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə təhvil vermişdir. Bu sənədlər arasında Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən Paris sülh konfransına göndərilmiş nümayəndələrə verilmiş mandat, vəkalətnamə, şəhadətnamə və başqa sənədlər, C.Hacıbəylinin xatirələri, xaricdə

(Almaniyada) M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunmuş "İstiqlal" qəzetinin komplekti, "Azərbaycan", "Odlu yurd", "Yeni Qafqaziyyə", "Azəri türkü" jurnallarının ayrı-ayrı nömrələri və s. vardır. Bu qəzet və jurnallarda bilavasitə Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları olmuş, çevrilişdən sonra xaricə mühacirət etmiş Cümhuriyyət xadimlərinin Azərbaycan Cümhuriyyəti fəaliyyətinin bu və ya digər sahələrinə aid məqalə və xatirələri dərc edilmişdir ki, bu da o dövr tariximizi öyrənmək üçün qiymətli mənbələrdəndi.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənmək üçün digər mühüm məxəzlər Respublika dövlət arxivlərinin elmi-məlumat kitabxanalarıdır. Bu kitabxanalarda 1918-1920-ci illərdə buraxılmış qəzet, jurnal və kitablar saxlanılır. Onların ən əhəmiyyətlisi 1918-1920-ci illərdə Azərbaycan və rus dillərində buraxılmış gündəlik rəsmi dövlət qəzeti olan "Azərbaycan"dı. Azərbaycan Cümhuriyyəti hökumətinin əksər qərar və sərəncamları, Azərbaycan Cümhuriyyəti Parlament iclaslarının stenoqrafik hesabatları və qəbul etdiyi qanunlar məhz bu qəzetlərin səhifələrində iki dildə dərc olunurdu. Bundan əlavə "Azərbaycan Cümhuriyyəti hökuməti xəbərləri" (burada hökumətin qərar, sərəncam və digər normativ sənədləri dərc edilirdi). "Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcmuəsi" (1919-cu ildə bu məcmuənin dörd nömrəsi buraxılmış, burada Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il may ayının 28-dən - həmin il oktyabrın 31-nə qədər qəbul etdiyi 298 qərar dərc edilmişdir). 1919-cu ilin dekabrında Azərbaycan və rus dillərində "Azərbaycan Cümhuriyyətinin 1920-ci il üçün adres-təqvimi" də buraxılmışdır. Bu adres-təqvimdə Azərbaycan Cümhuriyyətinin yaranması tarixi, Parlamenti, hökuməti və ayrı-ayrı nazirliklərin fəaliyyəti haqqında yığcam məlumatlar verilmiş, Azərbaycan Parlamenti və hökumətinin qəbul etdiyi bir sıra ən mühüm qanun və qərarlar dərc olunmuşdur.



Xalqımızın bu dövr tarixini öyrənmək üçün arxivlərimizin kitabxanalarında həmin illərdə buraxılmış "Hümmət", "Əkinçi", "İstiqlal", "Hürriyyət", "Bakınes", "Bakınskaya jizn" və b. qəzetlərdən də bir mənbə kimi istifadə edilir.

Heç də təsadüfi deyildir ki, son 8-9 ildə dövlət arxivlərinin oxu zallarında elmin müxtəlif sahələri üzrə işləyən tədqiqatçıların yarıdan çoxu məhz Azərbaycan Xalq Cümhuriyyətinə aid sənəd və materiallardan istifadə etmişlər. Qısa müddətdə bu sənədlər əsasında xalqımızın Cümhuriyyət dövri tarixinə dair çoxlu monoqrafiyalar yazılmış, kitablar çap olunmuş, doktorluq və namizədlik dissertasiyaları müdafiə edilmişdir. Bu sənədlər əsasında Azərbaycan Xalq Cümhuriyyəti haqqında dövri mətbuatda yüzlərlə məqalələr verilmiş, sənədlər dərc olunmuş, çoxlu radio və televiziya verilişləri efirə getmişdir.

Bu işlərin həyata keçirilməsində Baş Arxiv İdarəsi və respublika dövlət arxivlərinin əməkdaşları da fəal iştirak etmişlər. Əməkdaşlarımız arxivlərimizdə saxlanılan sənədlər əsasında Azərbaycan Cümhuriyyətinin tarixinə aid ümumi həcmi 300 müəllif vərəqindən yuxarı olan 6 sənəd toplusunun nəşr üçün hazırlamışdır. Bunlar "Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin icras protokolları - stenoqrafik hesabatlar (1918-1920-ci illər)" (Azərbaycan və rus dillərində), "Azərbaycan Xalq Cümhuriyyətinin qanunvericilik aktları (1918-1920-ci illər)" (buraya Azərbaycan Milli Şurasının qərarları, Parlamentin qəbul etdiyi qanunlar və hökumətin qərarları daxildir), "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920-ci illər)", "Azərbaycan Xalq Cümhuriyyətinin Ordu quruculuğu (1918-1920-ci illər)", "Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri F.X.Xoyski (həyat və fəaliyyətinə aid sənədlər və materiallar)".

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 28 yanvar tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 80

illiyinin keçirilməsi haqqında"kı sərəncamı ilə yaradılmış dövlət komissiyasının tədbirlər planına daxil edilmiş yuxarıda göstərilən sənəd toplularının nəşri artıq başa çatmış və onların hamısı nəşr olunmuşdur.

Bütün bu işləri görməkdə başlıca məqsəd 70 il ərzində xalqdan gizlədilmiş Azərbaycan Cümhuriyyətinin tarixi haqqında xalqımıza bilavasitə məxəzlər əsasında ətraflı məlumat verməkdir. Bu nəşrlər həm də xalqımızın bu dövr tarixini doğru-düzgün yazmağa əsaslı kömək edəcək, Cümhuriyyət dövrü tarixi haqqında Azərbaycan xalqında mükəmməl və obyektiv təsəvvür yaradacaqdır.

**"Bakı Universitetinin xəbərləri"**
**jurnalı, 1998-ci il, № 2**



# AZƏRBAYCANDA İLK TƏHLÜKƏSİZLİK ORQANININ YARADILMASI HAQQINDA

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən böyük təhlükələrlə qarşılaşmalı oldu. Çox mühüm geopolitik regionda yerləşən, Şərqlə Qərb arasında körpü rolu oynayan və təbiətən çox zəngin ölkə olan Azərbaycana dünya dövlətlərinin marağı böyük idi. Heç də təsadüfi deyil ki, qısa bir müddətdə (1917-1920-ci illərdə) müxtəlif dövlətlər bu diyarı öz nüfuz dairələrinə qatmaq məqsədilə açıq mübarizə aparırdılar.

Azərbaycana qarşı ən böyük təhlükə "Vahid və bölünməz Rusiya!" uğrunda mübarizə aparan Denikin orduları, proletar beynəlmiləlçiliyini əlində bayraq edən bolşevik Rusiyası və "Böyük Ermənistan" yaratmaq xülyası ilə azərbaycanlılara qarşı tarixdə eşidilməmiş vəhşiliklər törədən daşnak Ermənistanı idi.

Bu qüvvələrin hər biri Azərbaycanda, xüsusilə də Bakıda geniş təxribat işləri aparır, bütün vasitələrdən istifadə edərək Azərbaycan Xalq Cümhuriyyətinin möhkəmlənməsinə, ölkədə qayda-qanun yaradılmasına mane olmağa çalışırdılar. Bakı Denikin və erməni casusları ilə dolu idi. Bolşevik Rusiyasının nümayəndələri isə daxildə təxribat işləri görür, tətillər təşkil edir, Sovet Rusiyası ilə birləşmək təbliğatı aparırdılar.

Bütün bu məsələlər Azərbaycan Respublikasının Dövlət arxivlərində saxlanılan yüzlərlə sənədlərdə — məktublarda, məlumatlarda, məruzələrdə, göndərişlərdə, ərizə və şikayətlərdə öz əksini tapmışdır.

"Vahid və bölünməz Rusiya!" uğrunda mübarizə aparan Denikin könüllüləri Şimali Qafqazı tutduqdan sonra

Azərbaycan üçün daha böyük təhlükə yarandı. 1919-cu il fevralın 18-də Denikin ordularının hücum təhlükəsi ilə bağlı Azərbaycan Respublikası parlamentinin iclasında çıxış edən rəisi-vükalə F.X.Xoyski öz bəyanatında Azərbaycanda, xüsusilə də Bakıda general Prjevalskinin rəhbərliyi ilə Denikinə yardım göstərən qüvvələrin gizli şəkildə silahlı hərbi dəstələr təşkil etməsi, ağqvardiyaçılar üçün əsgər yazılışı aparıldığını qeyd edir. O, həm də qeyd edir ki, 1918-ci il mart hadisələri zamanı azərbaycanlılara qarşı qəddarlıqlar törətmiş Hamazasp da ingilislərin qəyyumluğundan istifadə edərək Bakıda oturub Ermənistan Respublikası üçün əsgər toplayır. Bununla əlaqədar Azərbaycan hökuməti İngilis komandanı, general V.Tomsona rəsmi məktubla müraciət edərək bu işlərə son qoyulmasını və yuxarıda göstərilən şəxslərin Azərbaycandan qovulmasını tələb edir və buna nail olur (bax: "Azərbaycan" qəzeti, 1919-cu il 21 fevral).

Lakin Denikin könüllülərinin 1919-cu il may ayının axırlarında Dərbəndi tutması Azərbaycanı və ümumən bütün Zaqafqaziyanı böyük təhlükə qarşısında qoydu. İyun ayının 5-də keçirilən Azərbaycan parlamentinin növbəti iclasında çıxış edən rəisi-vükalə N.Yusifbəyli Azərbaycana yenidən Denikin təhlükəsi haqqında məlumat verir.Bu məsələnin geniş müzakirəsindən sonra parlament Denikin təhlükəsinə qarşı təsirli tədbirlər görmək haqqında hökumətə təcili tapşırıqlar verdi. Parlamentin bu məsələ ilə bağlı qəbul etdiyi qərarda göstərilirdi ki, dövlətin təhlükəsizliyini təşkil etmək üçün hazırkı hökumət üzvlərinin bir qrupundan ibarət xüsusi orqan yaradılaraq dövlətin mühafizəsi məsələlərində ona fövqəladə səlahiyyətlər verilsin. Ölkədə ümumi hərbi mükəlləfiyyət və fövqəladə vəziyyət elan olunsun. Parlament Azərbaycanın bütün vətəndaşlarına müraciət edərək onları hökumət ətrafında sıx birləşməyə çağırır.

1919-cu il iyun ayının 9-da keçirilən Azərbaycan Cümhuriyyəti hökumətinin iclasında rəisi-vükalə N. Yusifbəyli



parlamentin qərarı əsasında dövlətin müdafiəsi üçün xüsusi orqanı - "Dövlət Müdafiə Komitəsi"nin yaradılması haqqında məruzə etdi,ətraflı müzakirələrdən sonra qərara alındı ki, geniş səlahiyyətlərə malik "Dövlət Müdafiə Komitəsi" adlı xüsusi qurum yaradılsın. Dövlət Müdafiə Komitəsi beş nəfər hökumət üzvündən ibarət təşkil olundu. Buraya rəisi-vükalə, hərbi, xarici işlər, yollar və ədliyyə nazirləri daxil oldular.

Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsinin təşkili haqqında 1919-cu il iyun ayının 11-də Dövlət Müdafiə Komitəsi məcburi qərar qəbul etdi. Həmin qərarla Azərbaycan Cümhuriyyətinin bütün ərazisində hərbi vəziyyət elan olundu. Azərbaycan dövlətinə qarşı qiyam, dövləti xəyanət, Azərbaycan parlamenti və hökumətinin sədrlərinin, hökumət üzvlərinin həyatına qəsd, hərbi gözətçilərə və hərbi hissələrə basqın, hakimiyyət orqanlarına silahlı müqavimət, dəmir yollarının, körpülərin və bu kimi mühüm dövlət əhəmiyyəti olan tikili və qurğuların, telefon və teleqraf vasitələrinin qəsdən xarab edilməsi və dağıdılmasında, yaşayış binaları və taxıl anbarlarının yandırılmasında günahkar sayılan şəxslərin müharibə dövrünün qanunlarına uyğun olaraq cəzalandırılması nəzərdə tutulurdu. Xüsusi icazəsi olmadan siyasi xarakterli kütləvi mitinq və küçə yürüşləri təşkil etmək, odlu silah, patron və hərbi sürsat saxlamaq, satmaq, gəzdirmək qadağan edilirdi. Yalan şayiələr yaymaq, millətlərarası ədavəti qızışdırmaq, ərzaq və digər ilk tələbat mallarının artıq qiymətə satılması, gizlədilməsi kimi sabotaj xarakterli hərəkətlər edən şəxslər isə inzibati qaydada məsuliyyətə cəlb olunmalı idilər (bax: Adres kalendar Azerbaydjanskoy Respubliki, 1920 q. səh. 114-115).

Belə mürəkkəb bir zamanda Azərbaycanda bu cür təxribatlara qarşı xüsusi mübarizə təşkilatının yaradılması günün vacib tələblərindən biri idi. Əksinqilab ilə Mübarizə Təşkilatı da məhz bu məqsədlə yaradıldı.

Onu da qeyd edək ki, Azərbaycanda əks-kəşfiyyat işi ilə hələ 1919-cu ilin yanvarından hərbi kəşfiyyat məşğul olurdu.

Həmin il yanvarın 28-də Azərbaycan Cümhuriyyəti Hərbi Nazirliyi Baş Qərargahının general-kvartirmeyster idarəsi kəşfiyyat bölməsinin rəisi, general kvartirmeysterə göndərdiyi məktubda 15 nəfərdən ibarət agentlər şəbəkəsi yaratmağı təklif edir.

Həmin il mart ayının 26-da hərbi nazir S.Mehmandarovun əmri ilə Baş Qərargahın Baş İdarəsi yaradılır. Baş İdarənin strukturunda general-kvartirmeysterin şöbəsi fəaliyyət göstərməli idi. Həmin şöbəyə daxil olan 4 bölmədən biri də kəşfiyyat və əks-kəşfiyyat bölməsi idi. 1919-cu il aprelin 2-də hərbi nazir S.Mehmandarovun rəisi-vükalə N.Yusifbəyliyə məruzəsində məlumat verilirdi ki, yeni yaradılan Baş Qərargahın Baş İdarəsinə general kvartirmeysterin 4 bölmədən ibarət şöbəsi də daxildir. Bu bölmələrdən biri kəşfiyyat bölməsi idi. Nazirin məruzəsində kəşfiyyat bölməsinin vəzifələri belə izah olunurdu: "...Düşmən haqqında mümkün olan məlumatları toplamaq, xaricdə hərbi agenturalar yaratmaq, ölkənin daxilində isə casusluğa qarşı mübarizə aparmaqdır".

Göründüyü kimi, ilk əvvəllər hərbi kəşfiyyata ölkə daxilində casusluğa qarşı mübarizə funksiyası da tapşırılmışdı. Lakin xarici kəşfiyyatın, xüsusilə yuxarıda göstərildiyi kimi Denikin ordularının və erməni casuslarının Bakıda və Azərbaycanda açıq təxribatçılıq fəaliyyətləri Azərbaycan Cümhuriyyəti hökumətindən bu sahədə daha təsirli tədbirlər görməyi tələb edirdi. Məhz bu məqsədlə də 1919-cu il iyun ayının birinci yarısında Azərbaycanda xüsusi əks-kəşfiyyat qurumu - Əksinqilab ilə Mübarizə Təşkilatı yaradılır. Təəssüflər olsun, bilavasitə bu qurumun yaradılması haqqında parlament, hökumət və ya Dövlət Müdafiə Komitəsinin qərarı arxivdə qalmamışdır. Lakin çoxlu əlavə sənədlər onun iyun ayının birinci yarısında Dövlət Müdafiə Komitəsi ilə eyni vaxtda və ona tabe qurum kimi yaradıldığını sübut edir. Bu cür sənədlərdən biri Azərbaycan Cümhuriyyəti hökumətinin rəisi-vükaləsi və həm də daxili işlər naziri N.Yusifbəylinin Daxili



İşlər Nazirliyinin blankında yazılmış və Dövlət Müdafiə Komitəsinin sədri kimi imzaladığı M.F.Musəvinin adına göndərilmiş 1919-cu il 13 haziran (iyun) tarixli, 6 saylı məktubdur. Məktubda deyilir: "Mirfəttah Musəvi cənablarına. Dövlət Müdafiə Komitəsinin sənə cariyə haziranın 11-ci günü vaqe olan iclasında zati-aliniz müqabil kəşviyyat müdirliyinə təyin edilmiş Məhəmməd Bağır bəy Şıxzamanov cənablarına müavin təyin olunursunuz. Məskur komitənin qərardadı bəraiməlumat şərh edilir, əfəndim. Müdafiə Dövlət Komitəsinin sədri N.Yusifbəyli (imza)".

Həmin il avqust ayının 16-da M.B.Şıxzamanov Bakı şəhərinin rəisi Q.A.Qudiyevə məktubunda yazırdı: "İyun ayının əvvəllərində xarici təhlükənin artması ilə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsi və Əksinqilab və Mübrizə Təşkilatı yaradılarkən mən bu işi icra etmək üçün dəvət edildim".

1920-ci ilin fevralında Dövlət Müdafiə Komitəsi əks-kəşfiyyat bölməsinin rəisi Nağı bəy Şıxzamanov Azərbaycan Cümhuriyyəti daxili işlər nazirliyinə məruzəsində göstərirdi ki, Əksinqilab ilə Mübarizə Təşkilatı 1919-cu il iyun ayının 11-də yaradılmış və Dövlət Müdafiə Komitəsinin tabeliyində idi. Həmin təşkilatın formalaşdırılması parlamentin "Müsavat" fraksiyasının üzvü Məmməd Bağır bəy Şıxzamanova həvalə edilmişdir. Ona müavin isə sonralar naməlum şəxslər tərəfindən qətlə yetirilmiş sosialist Mirfəttah Musəvi təyin olunmuşdur. M.B.Şıxzamanov təşkilata həmin il avqust ayının 20-nə qədər başçılıq edir. Avqustun 20-də isə o, bu vəzifədən istefa verir və yerinə qardaşı Nağı bəy Şıxzamanov təyin olunur və o, bu vəzifədə təşkilat ləğv olunana qədər qalır. 1919-cu il noyabrın 19-da isə Mahmud bəy Səfikürdski təşkilat rəhbərinin müavini təyin olunur.

Əksinqilab ilə Mübarizə Təşkilatının işinə aid digər çoxlu sənədlər də bu təşkilatın artıq iyun ayının ortalarından fəaliyyət göstərdiyini sübut edir.

Təşkilatın əməkdaşları arasında partiya mənsubiyyətindən asılı olmayaraq müxtəlif siyasi cərəyanların nümayəndələrinə rast gəlmək olar. Molla Nəsrəddinçi şair Əli Razi Şəmçizadə, Əli Bayramov, İslam Əliyev, Məmməd bəy Mahmudbəyov, Qasım İsmayılov, Müzəffər Nərimanov və başqalarını buna misal göstərmək olar. Təşkilatın agentləri siyahısında Lavrenti Beriyanın da adı var.

Sənədlərdə görünür ki, Azərbaycan parlamenti və hökuməti Dövlət Müdafiə Komitəsi və Əksinqilab ilə Mübarizə Təşkilatını yaratmaqda heç də yanılmamışdır. Əksinqilab ilə Mübarizə Təşkilatı Dövlət Müdafiə Komitəsinin bir struktur hissəsi kimi yaradılmış, onun rəhbərliyi altında işləmiş və müntəzəm surətdə həmin komitəyə öz işi haqqında məlumatlar vermişdir.

Təşkilatın arxivində saxlanılan çoxlu sənədlər, ilk növbədə isə ayrı-ayrı şəxslərə göndərilmiş məktublar və onlardan çıxarışlardan da görünür ki, Bakıda Denikin könüllü ordusunun casusları ilə erməni daşnaklarının casusları sıx əlaqədə işləmiş və bu şəhərdə geniş casusluq şəbəkəsi yarada bilmişlər. Bu müddət ərzində təkcə Bakıya gələn və gedən şəxslər üzərində deyil, həm də yazışma və məktublar üzərində də ciddi nəzarət qoyulmuşdur. Maraqlıdır ki, Denikin ordularının Azərbaycana qarşı təxribatı ilə əlaqədar təşkilat tərəfindən saxlanılmış və həbs edilmiş şəxslərin əksəriyyəti ermənilər idi. Bunun üçün həbs edilənlərin siyahısına nəzər salmaq kifayətdir: Qriqori Babayants, Andrey Balayants, Danil Musaelyants, Ağacan Avakyants, Sərkis Melikyants, Armenak Melikyants, Georgi Melin-Qaykasov, David Abramyants, Soqomon Balayants, Serqey Arzumanyants, Petros Sarkisyants, Martiros Miryants, Baqret Ohancanyan, İvan Avanesov, Mixail Terzoyants, Zaxarov və b.

Zaqafqaziyaya Denikin təhlükəsi yarandığı vaxt Azərbaycan və Gürcüstan Respublikaları bu təhlükələrə qarşı ittifaq yaradarkən Ermənistan Respublikasını da bu ittifaqa qoşulmağa



dəvət edirlər. Lakin Ermənistan bundan qəti imtina edir və bilavasitə Denikin orduları ilə ittifaqa girir, nə yolla olursa-olsun Denikin könüllülərinin Zaqafqaziyaya gəlməsinə kömək göstərməyə çalışırdı. Çoxlu erməni Denikin ordusunda xidmət edirdi. Bakıda və Azərbaycanda Denikin orduları üçün casusluq fəaliyyəti göstərirdilər.

Əksinqilab ilə Mübarizə Təşkilatında xidməti məkr və hiylə ilə yoğrulmuş ermənilərin bu cür hərəkətləri ilə bağlı çoxlu faktiki sənədlər qorunub saxlanılır. Özü də bu sənədlər sübut edir ki, Denikin ordularında xidmət edən ermənilər və erməni casuslarının başlıca məqsədi "Vahid Rusiya"nın qorunub saxlanılmasına deyil, "Böyük Ermənistan"ın yaradılması xeyrinə iş görmək idi.Bu cəhətdən 1919-cu il dekabrın 17-də Petrovskdan Arutyün Arzumanovun Sergey Arzumanova məktubu çox xarakterikdir. O yazırdı: "Əzizim Sergey, hərəkət kəsilənə qədər sənin axırıncı məktubunu Qrişa vasitəsilə aldım... Mənə çox xoş məlumat verdiyin üçün təşəkkür edirəm. Görünür, sən o uzunqulaqların arasında olduğun vaxtda səmərəli işləmisən, "Kazino"nun işlərini də yaxşı təşkil etmisən. Hazırda işlərin necə gedir? Yusifbəyova (Nəsib bəy Yusifbəyli nəzərdə tutulur - A.P.) yol tapa bilmişsənmi? Partiyamızın ("Daşnaksütyun" nəzərdə tutulur - A.P.) işi necədir? Hazırda o necə tərəqqi edir? İrəvan və Şuşadan yeni üzvlər varmı? Bu barədə nədənsə susursan. İşləri nə qədər mümkündür ehtiyatla apar, xüsusilə əks-kəşfiyyatdan çox ehtiyatlı ol. Pula xəsislik etmə, harda lazımdır xərclə. Tezliklə sənə partiya üçün Anton İvanoviç "DE"nin (Denikin - A.P.) köməyi ilə avans göndərəcəyəm. Sənə göndərdiyim məktublar mənə çox baha başa gəlir, onları Krasnovodskdan göndərirəm...".

Sonra Arzumanov Bakıya gələnlərin çox ciddi şəkildə yoxlanılmasından şikayətlənərək hədələyir ki, eybi yox, onlarla haqq-hesab çəkməyə az qalıb. "Anton İvanoviç "De" astagəllikdən əl çəkib gizli əmr verilib. Hücuma hazırlıq gedir".



6.-3510

Elə həmin vaxtlarda Mozdoqdan Armenak Melikyants Bakıya Sərkis Melikyantsa xəbər verirdi ki, "General Pokrovski Bakını tutmağa hazırlaşır".

1919-cu il dekabrın 3-də Petrovskdan "Qafqaz və Merkuri" cəmiyyətində Vasili Kuzmiçə L.Kiriyev adından göndərilən məktubda soruşulurdu: "Bizə daxil olan xəbərlərdən məlum olur ki, türk ordusunun baş komandanı Nuru paşa Bakıya gəlmişdir. Əgər gəlmişsə, onun yerini öyrənib bizə bildir. Bunun üçün səni mükafatlandıracayıq. Sənə 5 min rubl göndərmişik. Xəbər ver, almısan ya yox? Əgər bir şey öyrənsən, tezliklə bizə xəbər ver. Allah qoysa, tezliklə Bakıda olacağıq. Onda bizi və bizim təşəkkürümüzü görəcəksiniz".

1920-ci il fevralın 1-də Əksinqilab ilə Mübarizə Təşkilatı tərəfindən həbs olunmuş Gəncə qəzasının sakini 23 yaşlı dülgər Soqomon Balayants tərəfindən Levon adlı şəxsə yazılmış məktub çıxır ki, həmin məktubu ona Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəliyinin əməkdaşı Arşak Sərkisyants vermişdir. S.Balayantsın cibindən həm də onun adına polkovnik Zdanovski tərəfindən imzalanmış 1919-cu il 13 noyabr tarixli, 1 №-li vəsiqə də çıxır. Məktubda göstərilirdi ki, bu məktubu təqdim edən şəxs "General Andranikin o qəhrəmanlarındandır ki, öz xalqının idealları uğrunda yorulmadan mübarizə aparır. Artıq dərəcədə xahiş edirik ki, ona hərtərəfli köməkliklər göstərilsin". Petrovsk ordu bölməsi qərargahına ünvanlanmış vəsiqədə də S.Balayantsa hərtərəfli köməklik göstərmək tövsiyə olunur.

Əksinqilab ilə Mübarizə Təşkilatı müdirinin müavini M. Musəvinin 1919-cu il avqustun 7-də tərtib etdiyi protokolda göstərilir ki, avqustun 6-da Torqovı küçəsi ilə yol gedərkən hərbi geyimli bir zabit onun diqqətini cəlb edir. Həmin zabiti o, Aşqabadda olarkən gördüyü üçün onunla maraqlanır və onu izləyir. Gənc zabit "Luna" restoranına girir. M.Musəvi də bir qədər aralıdakı stolda əyləşir. Yeyib-içən zabit sərxoş olaraq M.Musəvini erməni bilib ona yaxınlaşaraq özünü Yevgeni



Rojdestvenski kimi təqdim edir. M.Musəviyə "şanlı daşnak" deyə müraciət edən Y.Rojdestvenski azərbaycanlıların ünvanına nalayiq söyüşlər yağdırır və deyir ki, "Daşnakları ona görə çox istəyir ki, onlar müsəlmanları doğrayırdılar və könüllülərin Bakıya daxil olması ərəfəsində bütün müsəlmanları məhv edəcək, onlardan sentyabr hadisələrinin (1918-ci il -A.P.) hayıfını alacaqlar".

Onun sonrakı danışıqlarından bəlli olur ki, o, ingilis komandanlığında Denikin nümayəndəsi polkovnik Lazarevin yanında işləyir, Azərbaycan Ordusunun sayı və mövqeləri barədə məlumatlar toplayır. Onun sözü ilə Denikinin könüllülər ordusu Azərbaycan Ordusunu bir günün ərzində yox edər. O, onlarla birlikdə çoxlu erməni zabitlərinin də işlədiyini bildirir və yenə də müsəlmanları söyərək "tatarların axırının çatdığını" bəyan edir. M.Musəvi onu həbs edərək təşkilata gətirir. M.B.Şıxzamanov tərəfindən dindirilən Y.Rojdestvenski sərxoş olub dediklərini boynuna alır. Bakıda həqiqətən də onlara işləyən erməni zabiti ilə tanış olduğunu söyləyir və bildirir ki, onları yalnız üzdən tanıyır, adları və ünvanlarından xəbərsizdir. Denikinçilər Bakıda öz xeyirlərinə təbliğat aparmaq, təxribatlar törətmək üçün bütün vasitələrdən istifadə edirdilər. Onlar Bakıda yerləşən müxtəlif səhmdar cəmiyyətləri, firmaları və müəssisələrin köməyindən də bəhrələnir, həmin təşkilatlarda öz agentlərini yerləşdirirdilər. 1919-cu il dekabrın 16-da M.B.Şıxzamanov Azərbaycandakı ingilis nümayəndəsi polkovnik Stoka məktubunda bildirirdi ki, Cənubi Rusiya Silahlı Qüvvələri Baş Komandanlığı təbliğat şöbəsi tərəfindən hazırlanmış intibahnamələrin mətni və qəzetlər olan zərflər Bakı şəhərində "Qafqaz və Merkuri", "Samolyot" cəmiyyətlərinə "işgüzar kağızlar" adı ilə göndərilir. Həmin zərflərin içərisinə yerləşdirilmiş ikinci zərfdə isə yuxarıda göstərilən ədəbiyyatlar yerləşdirilir, üzərində isə onların çatacağı ünvan qeyd olunurdu. Bakıda həmin bağlamalar Soşnikov, Bulqakov, Spektorski, Popova və başqa-

larına ünvanlanırdı. Petrovskdan təbliğat şöbəsi tərəfindən çoxlu sayda qəzetlər "Qafqaz və Merkuri" cəmiyyətinin adına Bakı Rus Milli Şurasının ünvanına göndərilirdi. Bu günlərdə A.Dzex adlı bir nəfər tərəfindən Bakıda "Qafqaz və Merkuri" cəmiyyətinin texniki şöbəsinə Soşnikovun adına yollanılmış müxtəlif qəzetlərdən ibarət konvert mənim tərəfimdən saxlanılmışdır. Konvertdə olan yazıda bildirilir ki, Bakıya gələn hər gəmi ilə təxribat xarakterli ədəbiyyat göndəriləcək. Təxribat xarakterli məktubları göndərən və alanların siyahısı da polkovnik Stoka göndərilmişdir.

1920-ci il yanvarın 6-da Əksinqilab ilə Mübarizə Təşkilatının əməkdaşları tərəfindən Bakı vağzalında 1918-ci il Bakıdakı mart qırğınlarının əsas təşkilatçılarından biri Yelizavetpol quberniyası Şuşa şəhər sakini 27 yaşlı Melik Qaykasov həbs olunur. Mart qırğınlarının ən fəal iştirakçısı olan bu cəllad kütləvi şəkildə Azərbaycanlıların qətlə yetirilməsi və talanlarda fəal iştirak edərək, böyük məbləğdə pulla qaçaraq İranda gizlənmiş, sonra isə Tiflisə köçərək burada özü üçün ev almış və xüsusi meyvə dükanı açmışdır. Bakıda həbs ediləndə isə bəhanə edir ki, Bakıya xəstə anasını görməyə gəlibmiş. Mart hadisələrindən əvvəl o, Suraxanski küçəsi 196 №-li evdə yaşayırmış. Hadisələr başlayarkən o, şəhərin erməni hissəsinə qaçmağa səy edir. Lakin Hacı Sarı Babayev onu mühafizə edir, öz evində gizlədir. Səhərisi gün guya darvazanın ağzında dayanarkən o təsadüfən əlindən yaralanaraq, yarasını bağlatdırmaq üçün erməni lazaretinə qaçır. Oradan isə Mailov teatrına gedərək, guya orada tanıdığı azərbaycanlılara köməklik göstərir. Orada öyrənir ki, ona himayədarlıq etmiş Hacı Sarı Babayevi zurnaçı Artaş və Genka öldürüblər. Artaşı o, İranda gördüyünü, Genkanı isə yerini bilmədiyini bəyan edir. Guya İranda çoxlu pul qazanaraq gəlib Tiflisdə özünə ev alır və meyvə mağazası açır. Bu məsələ ilə əlaqədar şahid kimi dindirilən "Bəsirət" qəzetinin redaktoru Hacı İbrahim Qasımov, Bakı sakinləri Mirzə Mahmud Dadaşov, Məmməd



Səyid Məmmədov və başqaları mart hadisələri zamanı "Jorjik" ləqəbi ilə G.Melik-Qaykasovun Azərbaycanlılara qarşı törədilən cinayətlərin əsas təşkilatçılarından biri olduğunu dəlillərlə sübut edirlər. H.İ.Qasımov deyir: "Jorjik müsəlmanların açıq düşmənidir və həmişə hazırdı ki, müsəlmanlara və Azərbaycan hökumətinə qarşı istənilən cəzaları törətsin. Mart hadisələrinin fəal iştirakçısıdır". Dadaşov bildirir ki, Bakıda "Jorjik" daşnak partiyası nəzarət komissiyasının sədri idi və mart hadisələrindən sonra barışığın ikinci günü mən özüm onu "İsmailiyyə" və digər müsəlman dükanlarından talan olunmuş əşyalar yüklənmiş maşında gördüm".

M.S.Məmmədov şahidlik edir ki, Hacı Sarı Babayevi "Jorjik"qətlə yetirmişdi. Çünki İranda o, "Jorjik"də Hacı Sarı Babayevin portsiqarını görmüşdür.

Əlimizdə denikinçilərin və daşnakların bu zaman Bakıda və Azərbaycanın digər bölgələrində törətdikləri təxribatlar haqqında yüzlərlə əlavə faktları özündə əks etdirən digər sənədlər də vardır.

Bu cür ünsürlərin həbs edilməsi, zərərsizləşdirilməsi və Azərbaycandan qovulması haqqında Əksinqilab ilə MübarizəTəşkilatı Dövlət Müdafiə Komitəsi ilə razılaşdırılaraq qərarlar qəbul edirdi. Məsələn, 1919-cu il oktyabrın 27-də Azərbaycan üçün təhlükəli ünsürlər olduqları üçün S.Markaryan, Ş.Amirxanyan, L.Kandelayki və başqalarının üç gün müddətində Azərbaycan Respublikasından çıxarılmaları haqqında N.B.Şıxzamanov qərar qəbul edir. Həmin il noyabrın 4-də isə A.Matın, M.Roşkovski, İ.Şulakov, P.Korpuşin və Artavas Sərkisyants haqqında da eyni məzmunlu qərarlar qəbul olunmuşdur. Əlbəttə, Sovet Rusiyası və bolşeviklər də Azərbaycana sahib olmaq niyyətlərini həyata keçirmək üçün öz gizli təbliğatlarını davam etdirirdilər. Bu təbliğat 1920-ci ilin əvvəllərində daha da güclənir. Belə ki, 1920-ci il yanvarın 29-da Balaxanı-Sabunçu rayonu əks-kəşfiyyat bölməsinin müdiri M.T.Dadaşov xəbər verirdi ki, Azərbaycan dəmir yolu baş

emalatxanasında Qrişin, Seyid Qasım, Sabunçu sakini Mir Tağı Mir Ağa oğlu fəhlələr arasında təbliğat apararaq onları tətilə çağırırlar.

Həmin il fevralın 3-də yenə həmin Dadaşov məlumat verirdi ki, Bakı stansiyasının jandarm xidmətçisi Əşrəf Əli oğlu onun yanına gələrək bildirmişdir ki, Sabunçudakı fəhlə klubunda fəhlələrin keçirdiyi gizli yığıncaqda iştirak edib. Orada Aleksandr Kostinski adlı şəxs məsələ qaldırıb ki, "bizə Azərbaycan hökuməti lazım deyil. Tezliklə bolşeviklər gələcək onda biz bütün hökumət idarələrinə öz gücümüzü göstərərik". Öz nitqində o, nalayiq sözlərlə hökuməti söyür. Raportda həmin faktları təsdiq edə biləcək şahidlərin adları da çəkilmişdir.

Həmin il fevralın 24-də Dadaşov yenə də Sabunçuda fəhlə klubunda fəhlələrin gizli iclas keçirdiyini, orada artıq bolşeviklərin Krasnovodska gəldikləri, Şimaldan isə Rostov istiqamətində hərəkət etdikləri, martda dəniz yolu açılan kimi Həştərxan istiqamətində də hərəkət edəcəkləri haqqında məlumat verilibdir. Burada çıxış edən klubun rəhbəri Krayevski, Krılov, P.Nikolayev, Eminov və başqaları fəhlələri çağırırlar ki, "yatmaq lazım deyil. İşləməli və hakimiyyəti öz əlimizə götürməliyik".

Fevralın 26-da Sabunçuda Qəzənfər Kərimovun evində yaşayan Mirağa Mirtağı oğlu əsgərlər arasında təbliğat aparır ki, rəislərinizə qulaq asmayın, tezliklə bolşeviklər gələcək və Sovet hakimiyyəti qurulacaqdır.

Təəssüflər olsun ki, gənc Azərbaycan Cümhuriyyəti hökuməti bolşevik təhlükəsinə qarşı o qədər də diqqət yetirmirdi. Hətta Denikin təhlükəsi sovuşan kimi, 1920-ci ilin martında Əksinqilab ilə Mübarizə Təşkilatını ləğv edir. Bunun acı nəticələrini isə sonrakı tarix sübut etdi.

Yaranmış mürəkkəb vəziyyətdən hər cür möhtəkirlər, işbazlar, əliəyri adamlar məharətlə istifadə edirdilər. Təşkilat tərəfindən bu cür şəxslər də ifşa edilərək zərərsizləşdirilirdi. Sənədlərdən göründüyü kimi bu cür adamlar həm polis



orqanlarına, həm də təşkilatın özünə soxula bilmişdilər. Belə ki, təşkilatın agentura bölmələrindən birinin müdiri Əliağa Mahmudzadə Bakı limanında İran təbəəsi Mir Haşım Mir İsmayıl oğlundan 100 türk qızıl lirəsi müsadirə edib saxlamaq üçün həmin sahənin pristavı A.Sadıqova verir. Avqustun 18-də isə o, həmin pulları İran təbəəsinə qaytarmaq haqqında A.Sadıqova məktub yazır. Pullar sahibinə qaytarılır. Sahənin agentləri Seyid Hüseyn Həşimzadə və Seyfulla Əzimzadə buna etirazlarını bildirərək təşkilatın rəhbərliyindən 8000 manat rüşvət alaraq 100 türk qızıl lirəsini sahibinə qaytarmış Ə.Mahmudzadə haqqında ciddi tədbir görməyi tələb edirlər. Həmin işin istintaqı şəxsən M.B.Şıxzamanovun öz tərəfindən aparılır. Əvvəlcə Ə.Mahmudzadə işdən kənarlaşdırılmış və həmin il noyabrın 10-da isə işdən qovulmuşdur.

Bakı polismesterinin müavini polkovnik Bayraməlibəyov özünün keçmiş işçisi Vasili Pribok ilə əlaqəyə girərək guya H.Z.Tağıyev fabrikindən ucuz qiymətə bez düzəltmək adı ilə həmin ilin avqustunda müxtəlif şəxslərdən külli miqdarda rüşvət almış və qəbz vermişlər. 1919-cu il sentyabrın 3-də təşkilatın agenti Seyid Həsən Həsənov V.Priboku həbs edərək təşkilata gətirir. Şəxsən N.B.Şıxzamanovun rəhbərliyi ilə elə həmin gün təhqiqat başlamışdır. Məlum olmuşdur ki, V.Pribok Rəşt şəhərindən olan İran vətəndaşı Qulam Hüseyn Tağıyevdən 10 min manat, Axalsıxı sakinləri S.Saxadaşvilidən və M.Moşeşvilidən 20 min manat, Suraxanı sakini tacir Məşədi Ağa Mirzə Rəcəbovdan 14 min manat, Urbanovskidən 7400 manat almışdır. V.Pribok etiraf edir ki, həqiqətən də yuxarıda göstərilən pulları alaraq hamısını da polkovnik Bayraməlibəyova vermişdir. Əmək haqqı şəklində Bayraməlibəyov V.Priboka müxtəlif vaxtlarda 10 min manat pul qaytarmışdır.

1919-cu il dekabrın 17-də təşkilatın agentləri Ağəli Zeynalabdinzadə, Seyid Həsən Həsənov, Mirzə Baba Sadıqov

məlumat verirdilər ki, mülk sahibi Əli Hüseyn Hacı Abdul Bağı oğlu onlara müraciət edərək məlumat vermişdir ki, Bakı şəhəri 3-cü polis sahəsinin polis nəzarətçisi Yuzyubenko ondan 2000 manat tələb etmişdir ki, onun haqqında tərtib etdiyi protokolu cırıb atsın. Onlar 10 ədəd 100 manatlıq əskinasın nömrələrini qeyd edərək Ə.Abdulbağı oğluna verirlər ki, onun yanına gələcək sahə polis nəzarətçisinə versin. Həqiqətdə o, pulu polis nəzarətçisinə verir. Polis nəzarətçisi Ə.Abdulbağı oğlunun evindən çıxarkən Əksinqilab ilə Mübarizə Təşkilatının yuxarıda göstərilən əməkdaşları tərəfindən yaxalanır. Nömrələri götürülmüş əskinazlar Yuzyubenkonun cibindən çıxır və onun haqqında təhqiqat işi aparılır.

Arxivdə Əksinqilab ilə Mübarizə Təşkilatının silah alverçilərinə, gizli silah saxlanılmasına, möhtəkirliyə qarşı apardığı mübarizəni özündə əks etdirən çoxlu sənədlər də qorunub saxlanılır.

Bütün yuxarıda deyilənləri ümumiləşdirdikdə belə bir ümumi nəticəyə gəlmək olar ki, qısa bir müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, Əksinqilab ilə Mübarizə Təşkilatı gənc respublikanın xarici və daxili düşmənlərinə qarşı barışmaz mübarizə aparmış, xalqımızın təhlükəsizlik tarixinə şanlı səhifələr yazmışdır. Onun təcrübəsindən bu gün öz müstəqilliyimizi qoruyub saxlamaqda istifadə etməliyik.

**"Azərbaycan" qəzeti,**
**11, 14 iyun 1996-cı il, № 109, 112.**



## FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASI

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanında deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli facie və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Əsrimizin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazidə deyil, həm də Azərbaycanın o ərazilərində də xalqımıza qarşı vaxtaşırı qırğınlar və talanlar törətmişlər ki, bu ərazilərə onlar tamamilə, son vaxtlar gəlmiş və bu ərazilərdə həmişə mütləq azlıq təşkil etmişlər. Bu ərazilər Bakı quberniyasının Bakı, Quba, Şamaxı şəhərləri, quberniyanın Şamaxı, Quba, Göyçay qəzalarının kəndləri idi. 1917-1920-ci illərdə ermənilər Azərbaycanın demək olar ki, bütün ərazisində azərbaycanlılara qarşı çox qəddarlıqla qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Bu hadisələr kütləvi şəkildə 1918-ci ilin martında Bakıda qırğın və talanlar ilə başlayıb zəncirvari şəkildə Şamaxıda, Qubada, Göyçayda və Azərbaycanın digər qəzalarında davam etdirilərək, Qarabağda, Zəngəzurda,

Naxçıvanda, xüsusilə indiki Ermənistan ərazilərində xüsusi bir qəddarlıqla davam etdirilmişdir. Erməni vandalları bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək yandırıb viran qoymuş, xalqımızın minlərlə milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar. Ermənilərin bu dövrdə xalqımıza qarşı törətdikləri qırğınların və soyqırımların mahiyyəti ondadır ki, bu qırğınları onun "bolşevik" S.Şaumyan, satqın və xain Andranik və ya Ermənistan Ararat Respublikasının qatı millətçi və şovinist "Daşnaksütyun" rəhbərləri tərəfindən törədilməsindən asılı olmayaraq bu qırğın bir məqsədə xidmət etmişdir - əzəli Azərbaycan torpaqlarının etnik cəhətdən azərbaycanlılardan təmizlənməsi və erməniləşdirilməsinə, ermənilərin Azərbaycanda iqtisadi və siyasi ağalığının təmin edilməsinə, azərbaycanlılara qarşı əsl soyqırımı siyasətinin həyata keçirilməsinə xidmət etmişdir. Bu işə əvvəlcə V.İ.Leninin S.Şaumyana xüsusi mandatı ilə Sovet Rusiyası xeyir-dua vermişdir. S.Şaumyan Bakıda Azərbaycana qarşı başladığı soyqırımı siyasətini Şamaxı, Quba, Göyçayda davam etdirərək, estafeti Zəngəzurda cəllad Andranikə vermiş, onun işini isə əvvəlcə şovinist millətçi daşnakların yaratdığı Ararat Respublikası, sonra isə Sovet Ermənistanının daşnak xislətli rəhbərləri davam etdirmişlər.

Respublikamızın dövlət arxivlərində saxlanılan yüzlərlə işlərdəki minlərlə sənədlər, xüsusilə 1918-ci il iyulun 15-dən 1920-ci ilin aprelinə - yəni Azərbaycan XI Qızıl Ordu tərəfindən yenidən işğal edilənə qədər fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yanında fəaliyyət göstərmiş Fövqəladə Təhqiqat Komissiyasının materialları əsasında Bakı, Şamaxı, Quba, Zəngəzur, Şuşa və Azərbaycanın başqa qəzalarında ermənilərin xalqımızın başına gətirdiyi müsibətləri xalqımıza çatdırmaqla bir daha onları kimin-kim olduğu haqqında dərindən düşünməyə çağırırıq.



Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk gündən onun qarşısında qoyduğu mühüm vəzifələrdən biri də Birinci Dünya müharibəsi başlanandan sonra, xüsusilə 1917-ci ilin fevralında Rusiyada çar hakimiyyətinin devrilməsi, oktyabrında isə bolşevik çevrilişindən istifadə edən ermənilərin Zaqafqaziyada Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklər və əsl soyqırımı siyasətini təhqiq etmək və onu bütün dünyaya bəyan etmək idi.

1918-ci il iyul ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə keçirilən iclasında azərbaycanlılar və onların əmlakı üzərində zorakılıq hallarını təhqiq etmək üçün fövqəladə təhqiqat komissiyası yaratmaq haqqındakı məsələ geniş müzakirə edilir. Bu məsələ haqqında məruzə ilə çıxış edən xarici işlər naziri Məmməd Həsən Hacınski bildirir ki, "Artıq 4 aydan artıqdır ki, Azərbaycan ərazisinin müxtəlif bölgələrində bolşevik adı ilə məsuliyyətsiz erməni hərbi hissələri və başqaları mülki müsəlman əhalisinin həyatı və əmlakına qarşı eşidilməmiş vəhşiliklər törədirdilər. Eyni zamanda həmin quldur dəstələri tərəfindən göndərilən yalan məlumatlar əsasında Avropa ölkələrində bütün ictimai fikir tamamilə əks istiqamətə (yəni azərbaycanlılara qarşı - A.P.) yönəldilir. Ümumi dövlət mənafei və əhalinin zərərçəkən qruplarının mənafei elə bir təşkilatın yaradılmasını tələb edir ki, o: 1. Bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatını aparsın; 2. Bu zorakılıqların həyata keçirildiyi şəraiti müəyyənləşdirsin; 3. Cinayətkarları aşkar etsin və onların vurduqları zərərin ümumi həcmini müəyyənləşdirsin". (ARDA: f. 1061, siy. 1, iş 5, vər. 1).

M.H.Hacınskinin təklifinə görə "Bu təşkilat Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalı idi. Özü də bu komissiyanın işinin nəticələri başlıca Avropa dillərində - rus, fransız, alman dillərində və əlbəttə ki, türk (Azərbaycan - A.P.) dilində elan edilməlidir". (yenə orada).

Daha sonra bu təhqiqat komissiyasının tezliklə işə başlamasının vacibliyini əsaslandıran Məmməd Həsən bəy deyir ki, "Göstərilən komissiyanın təşkilinə bu gündən başlamaq lazımdır. Çünki bir çox şeyləri indi isti-isti adamlardan soruşmaq, fotoşəkillərini çəkmək və hələ ki mövcud olan digər əşyayi-dəlillər əsasında sübuta yetirmək olar. Sonralar bu təhqiqat işi çətinləşə və hətta sübutu tamamilə imkan xaricində ola bilər" (yenə orada).

Məruzəçi göstərir ki, əgər hökumət bu təklifə razı olarsa onda nazirlərdən hər hansı birinə bu komissiyanın təşkili tapşırılsın və həmin komissiyanın fəaliyyəti üçün lazımi vəsait ayrılsın.

Bu məsələni geniş və ətraflı müzakirə edən Azərbaycan Cümhuriyyəti hökumətinin qəbul etdiyi qərarda göstərilirdi ki, "Xarici işlər nazirinin məruzəsi bəyənilsin və ona tapşırılsın ki, Avropa müharibəsi başladığı vaxtdan bütün Zaqafqaziya ərazisində müsəlmanlar və onların əmlakı üzərində işlədilmiş zorakılıq hallarını təhqiq etmək üçün Fövqəladə Təhqiqat Komissiyası yaratsın". (ARDA: f. 1061, siy. 1, iş 95, vər. 2.)

Həmin il avqust ayının 31-də isə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinin sədri, həm də xarici işlər naziri F.X.Xoyski Gəncə şəhərində imzaladığı qərara əsasən 7 nəfərdən ibarət fövqəladə təhqiqat komissiyası yaradılır. Komissiyanın sədri andlı iclasçı - Ələkbər bəy Xasməmmədov, üzvləri isə - gənc dairə məhkəməsinin üzvləri - İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatski, həmin dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixayloviç Mixaylov, həqiqi mülki müşavir V.V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə təyin olunurlar. (Bax: ARDA: f. 1061, siy. 1, iş 105, vər.2).

Həmin qərarla komissiyanın sədri və üzvlərinin əmlak haqları və ezamiyyə xərclərinin miqdarı da müəyyənləşdirilir və komissiya sədrinə icazə verilirdi ki, lazım gəldikdə katib, ekspertlər və başqa lazımi şəxsləri də komissiyanın işinə dəvət etsin. F.X.Xoyskinin həmin il 22 sentyabr tarixli başqa bir qərarı ilə müəyyən edilir ki, fövqəladə təhqiqat komissiyasının üzvləri yalnız bu məqsəd üçün işlədikləri günlərə görə əmək haqqı almaq hüququna malikdirlər.

Sənədlərdən göründüyü kimi Fövqəladə Təhqiqat Komissiyası Xarici İşlər Nazirliyi yanında təşkil edilməsinə baxmayaraq, o artıq həmin ilin sentyabrından faktiki olaraq Ədliyyə Nazirliyi nəzdində fəaliyyət göstərməyə başlayır. Bu da tamamilə təbii idi, çünki bu işlə bilavasitə məşğul olanlar və bu işlə məşğul olmaq səlahiyyəti olanlar əsasən hüquqşünaslar idi.

Onu da qeyd edək ki, komissiyanın işinin sonuna qədər orada yalnız onun sədri Ə.Xasməmmədov, üzvlərindən isə A.V.Novatski və N.M.Mixaylov çox səmərəli fəaliyyət göstərmişlər. Müxtəlif vaxtlarda isə yuxarıda göstərilən üzvlərdən başqa komissiyaya Bakı dairə məhkəməsi prokurorunun müavini Aleksandr Yevgenyeviç Kluqe, andlı iclasçı Məmmədxan Təkinski, Gəncə dairə məhkəməsinin xüsusi əməliyyat işləri müstəntiqi Məhiyəddin bəy Şahmalıyev, Bakı quberniya dairə məhkəməsinin üzvü Hidayət bəy Sultanov, andlı iclasçılar Aley Aleksandroviç Litovski, Çeslav Boleslavoviç Klossovski, hüquqşünas Abbas Əlibəy Hacı-İrzayev, Bakı dairə məhkəməsinin üzvü B.Yusifbəyov müxtəlif vaxtlarda həmin komissiyaya üzv təyin edilmiş və ya üzvlükdən azad olunmuşlar.

Komissiya artıq 1918-ci ilin sentyabr-oktyabr aylarından geniş təhqiqat işlərinə başlayır. Belə ki, komissiyanın üzvü N.M.Mixaylov 1918-ci il oktyabrın 26-da həmin ilin sentyabrın 22-dən oktyabrın 23-nə qədər olan müddətdə Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat verirdi. O, yazırdı ki, bu müddət ərzində 500 nəfərdən çox şahid dindirilmiş, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə (Kürdəmir, Qarabucaq, Mustafalı,

Xəlilli, Qasım bəy, Ərəb Mehdibəy, Dadalı) baxış keçirilmişdir. (Bax: ARDA: f. 100, siy. 2, iş 791, vər. 11-13).

1918-ci ilin noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyinə yazdığı məruzələrdə Bakı quberniyası, Göyçay qəzasının Kürdəmir, Qarabucaq, Ərəb Mehdibəy və b. kəndlərində, Şamaxı şəhəri və Şamaxı qəzasının müsəlmanlar yaşayan kəndlərində, habelə Bakı şəhərində azərbaycanlılara qarşı törədilmiş zorakılıqların təhqiqinin ilkin vəziyyəti haqqında ətraflı məlumat verir. (Bax: ARDSPİHA: f. 277, siy. 2, iş 16).

Bundan sonra isə komissiya üzvləri qruplara bölünərək müxtəlif yerlərdə azərbaycanlılara qarşı törədilmiş bu hadisələrin geniş təhqiqinə başlayırlar.

1919-cu il yanvarın 6-da komissiyanın sədri Ə.Xasməmmədov xarici işlər nazirinə yazdığı məktubunda bildirirdi ki, Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Quba və Şamaxı şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Quba qəzalarında müsəlmanlara qarşı ermənilər tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar sizə göndərilir. Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla ruslar tərəfindən, İrəvan quberniyası, Gəncə quberniyasının dörd qəzasında - Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur böyük dağıntılar törədilib, hər gün bizə daxil olan həyəcanlı məlumatlara görə azərbaycanlı əhali ucdantutma məhv edilir. (Bax: ARDA: f. 100, siy. 2, iş 791, vər. 2).

Məlumatda bildirilirdi ki, Bakı şəhəri və ətrafı, Şamaxı, Göyçay qəzaları, habelə Ərəş, Nuxa qəzalarında, Gəncə şəhəri, Gəncə və Qazax qəzalarında müsəlman əhalisi üzərində zorakılıq hallarının təhqiqi davam edir. Komissiya xaricə gedəcək nümayəndə heyəti üçün əşyayi-dəlil kimi altı cilddən ibarət ilkin təhqiqat materialı və 95 ədəd foto şəkili təqdim etdiyini bildirir. (yenə orada).



Komissiya öz fəaliyyətinin ilk dövrlərində çox fəal işləyir. Artıq 1919-cu il yanvar ayının 16-da komissiyanın üzvü N.M.Mixaylovun Gəncə quberniyasının Ərəş və Nuxa qəzaları, may ayının 9-da isə həmin quberniyanın Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları, A.Novatski isə həmin ilin iyun ayında Quba şəhəri, Quba qəzası kəndlərinin əhalisi üzərində ermənilər tərəfindən törədilmiş talanlar və digər zorakılıq hərəkətləri haqqında təhqiqat materialları əsasında ətraflı məruzələr hazırlayaraq komissiyaya təqdim etmişlər ki, növbəti məqalələrimizdə bu haqda ətraflı məlumat verəcəyik. (Bax: ARSPİHDA; f. 277, siy. 2, iş 16, vər. 46; ARDA: f. 100, siy. 2, iş 791, vər. 38-95, f. 1061, siy. 1, iş 95, vər. 5-8).

1919-cu il aprelin 28-də komissiyanın sədri Ə.Xasməmmədov ədliyyə nazirinin həmin il 23 aprel tarixli sorğusuna cavab olaraq bildirirdi ki, fövqəladə təhqiqat komissiyası materialların toplanması işini demək olar ki, başa çatdırmış və indi onları ümumiləşdirir. Təhqiqat işlərinə məlum səbəblərdən yalnız Lənkəran qəzasında, Zəngəzur qəzasının əksər hissəsi və ümumiyyətlə Gəncə quberniyasının dağlıq hissəsi ərazilərində başlanılmamışdır. (Bax: ARDA, f. 100, siy.2, iş 791, vər. 69-70).

1919-cu il mayın 5-də fövqəladə təhqiqat komissiyasının sədri Ə.Xasməmmədov ədliyyə nazirinə başqa bir məktubunda bildirirdi ki, Azərbaycan hökumətinin M.H.Hacınskinin məruzəsi əsasında qəbul etdiyi 1918-ci il 15 iyul tarixli qərara və hökumətin həmin il 13 noyabr tarixli iclasındakı təklifinə müvafiq olaraq komissiya vəziyyətin əyani şəkildə əks etdirən foto şəkillərdən əlavə 80 foto şəkilin iki nüsxədən ibarət diopozitivlərini də hazırlanmışdır. Hökumət həmin foto şəkilləri və onlara diopozitivləri əlavə əşyayi-dəlil kimi xaricə - Paris sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinə göndərməyi məqsədəuyğun hesab edirmi? Ədliyyə nazirinin sorğusuna xarici işlər naziri özünün həmin il mayın 13-də verdiyi cavab məktubunda sülh konfransındakı

nümayəndə heyəti üçün göstərilən foto şəkil və diopozitivlərin mühüm əhəmiyyəti olduğunu qeyd edir. (ARDA: f. 100, siy. 2, iş 791, vər. 77, 80, 96). 1919-cu il may ayının 25-də Ə.Xasməmmədov ədliyyə nazirinə yazdığı digər məktubunda bildirirdi ki, bu günə qədər komissiya öz təhqiqat işini demək olar ki, qurtarmaq üzrədir. Gəncə şəhəri və Gəncə quberniyası Zəngəzur, Cəbrayıl, Şuşa, Cavanşir, Nuxa, Ərəş qəzalarının, Bakı quberniyasının Bakı şəhəri, Göyçay, Şamaxı qəzaları, habelə Quba və Cavad qəzalarının bir hissəsində təhqiqat işləri başa çatdırılmışdır. Bakı quberniyasının Cavad qəzasının bir hissəsi, Lənkəran və Bakı qəzalarında azərbaycanlılara qarşı zorakılıq hadisələri təhqiq edilməmiş qalır. Çünki Lənkəran qəzası və Cavad qəzasının ermənilər yaşayan hissəsi faktiki olaraq Azərbaycan Respublikasının qanunlarına tabe olmurlar. Ə.Xasməmmədov bildirirdi ki, Lənkəran qəzasının müsəlman əhalisi dəfələrlə mənim qarşımda məsələ qaldırıblar ki, polkovnik Avetisov başda olmaqla erməni silahlı quldur dəstələrinin vurduğu zərəri öyrənmək üçün komissiya üzvlərindən oraya göndərim. (ARDA: f. 100, siy. 2, iş 791, vər. 102-103).

Ə.Xasməmmədov 1919-cu il iyunun 4-də ədliyyə nazirinə yazdığı digər məktubunda xəbər verirdi ki, müsəlmanlara qarşı törədilmiş cinayətlərin iştirakçılarını məsuliyyətə cəlb etmək məqsədilə təhqiqat materialları əsasında qərar layihələrinin hazırlanması işinə başlanılmışdır. Komissiya üzvləri cəmi 128 qərar layihəsi hazırlamışlar. Onlardan Bakı şəhəri üzrə - 1, Şamaxı şəhəri və Şamaxı qəzası kəndləri üzrə - 23, Quba qəzası üzrə - 1, Cavad qəzası üzrə - 4, Göyçay qəzası üzrə - 18, Gəncə qəzası üzrə - 1, Nuxa qəzası üzrə - 1, Ərəş qəzası üzrə - 2, Cavanşir qəzası üzrə - 1, Şuşa qəzası üzrə - 11, Cəbrayıl qəzası üzrə - 10, Zəngəzur qəzası üzrə - 65 qərar layihəsi hazırlanmışdır. (ARDA: f. 100, siy. 2. iş 791, vər. 106-107).

1919-cu il avqustun 27-də fövqəladə təhqiqat komissiyasının üzvü Ç.Klassovski tərəfindən komissiyanın



fəaliyyəti ilə əlaqədar tərtib edilmiş arayışda göstərilirdi ki, komissiya tərəfindən toplanılmış materiallar 36 cild və 3500 vərəqdən ibarətdir. Bakı şəhəri və ətrafında törədilmiş zorakılıq hadisələrini əks etdirən materiallar 6 cild 740 vərəqdir. Bu materiallar Göyçay qəzasının Kürdəmir və başqa kəndləri üzrə 4 cild 340 vərəq, Şamaxı şəhəri və Şamaxı qəzası üzrə 7 cild 925 vərəq, Zəngəzur qəzasının dağıdılmış kəndləri üzrə 2 cild 80 vərəq, Quba şəhəri və Quba qəzası üzrə 3 cild 451 vərəq və s. idi. (Bax: ARDA, f. 100, siy. 2, iş 791, vər. 132).

Azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətlərinin təşkilatçıları və iştirakçıları olan şəxslər barəsində cinayət işi qaldırmaq haqqında 128 məruzə və qərar layihəsi hazırlanmışdır. Onlardan üçü Bakı, Şamaxı və Quba şəhərlərində, qalanlar isə müxtəlif qəzalara daxil olan kəndlərdə törədilmiş cinayətlərə aid idi. Bu qərarlarda 194 nəfərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında məsələ qaldırılmışdır. (Bax: yenə orada).

1919-cu il avqust ayının 23-də komissiyanın sədri Ə.Xasməmmədov ədliyyə nazirinə Bakıda və Şamaxı şəhərlərində və Şamaxı qəzasında azərbaycanlılara qarşı törədilmiş vəhşiliklərdə günahkar olan şəxslərin artıq məsuliyyətə cəlb edilməsi işinə başlanıldığı haqqında məlumat verirdi. O, qeyd edirdi ki, Bakı şəhərində hələlik 24 müttəhim, Şamaxı şəhəri və Şamaxı qəzasında isə 100 nəfərə yaxın müttəhim istintaqa cəlb olunub. O, göstərirdi ki, bu iş üçün iki istintaq qrupu yaradılmışdır. Bakı və Şamaxı qrupları, Bakı qrupuna komissiyanın üzvləri Ç.B.Klassovski, A.A.Aleksandroviç, komissiyanın katibi, həm də tərcüməçi E.Xanbudaqov, Şamaxı qrupuna isə komissiyanın üzvləri A.F.Novatski, N.M.Mixaylov və tərcüməçi Qasımov daxildirlər. (Bax: ARDA, f. 100, siy. 2, iş 791, vər. 126-127).

Hələ 1919-cu il mart ayının 21-də Azərbaycan Respublikası hökuməti Fövqəladə Təhqiqat Komissiyasının səlahiyyətlərini



7.-3510

genişləndirmək haqqında ədliyyə nazirinin məruzəsini dinləyir. Həmin məruzə əsasında qəbul olunmuş qərarda cinayət işləri üzrə məhkəmə işi haqqındakı nizamnamədə göstərilən məhkəmə istintaq işinə dair bütün səlahiyyətlər fövqəladə təhqiqat komissiyasına da şamil edilirdi. (Bax: ARDA, f. 1061, siy. 1, iş 95, vər. 3).

Fövqəladə Təhqiqat Komissiyası azərbaycanlılara qarşı zorakılıq hallarının günahkarlarını istintaqa cəlb etməyə başlayan kimi ermənilər və erməni mətbuatı böyük hay-küy kompaniyasına başlayır. Belə ki, Şamaxı qırğınlarının günahkarları istintaqa cəlb edilən kimi Bakıda Erməni Milli Şurası və "Daşnaksütyun" partiyasının parlament fraksiyası həmişə olduğu kimi yenə də ermənilərini müdafiəyə qalxır, bu cəlladlara mələk donu geyindirir, onların günahsız olaraq istintaqa cəlb edildiklərini sübut etməyə çalışırdılar. 1919-cu il avqustun 23-də Erməni Milli Şurasının Ədliyyə Nazirliyinə göndərdiyi məktubda deyilirdi ki, avqustun 18-də Bakıda Telefonnu küçədə Şamaxı şəhəri sakinləri Martiros Gülbəndiyants, Mixail Arzumanov və Yenok İvanyants, İvanyantsa məxsus mağazada həbs edilmişlər. Həbs edilənlərin hamısının Şamaxıda ən hörmətli adamlar olduğunu və uzun müddət Şamaxı şəhər dumasının üzvləri olduqlarını vurğulayan erməni liderləri onlardan M.Gülbəndiyantsın Şamaxı şəhər poçt-teleqraf kontorunun rəisi, M.Arzumanovun Şamaxı erməni kilsəsinin hamiktikoru, Y.İvanyatsın isə məşhur tacir olduğunu bildirirlər. (Bax: ARDA, f. 100, siy. 2, iş 791, vər. 128). Maraqlıdır ki, komissiyanın zərərçəkən və şahidlərin dindirilməsi protokollarında həmin hadisələrin təkcə təşkilatçıları deyil, həm də fəal icraçıları sırasında cəllad S.Lalayandan sonra məhz bu "hörmətli" adamların adı çəkilirdi.

Elə həmin vaxtlar Azərbaycan Parlamentindəki "Daşnaksütyun" erməni fraksiyası "Sosialistlər" fraksiyasına bəyanatla müraciət edərək son vaxtlar Bakı şəhəri və Bakı



quberniyasında 1918-ci il mart hadisələri günahkarlarının həbs edilməsi ilə əlaqədar öz narazılıqlarını bildirirlər. Guya ki, mart ayında nə Bakıda, nə də Şamaxıda baş verən hadisələrdə həbs edilən ermənilərin heç bir günahı olmayıb. Elə bil ki, bu hadisələr elə öz-özünə baş verib, gözə görünməz qüvvələr azərbaycanlıları qırıb, xanimanlarını qarət edib, dağıdıb və yandırıbdır. Haqqdan, ədalətdən dəm vuran "Daşnaksütyun" liderləri keçmişləri yada salmamağa çağırırlar. Guya keçmişləri yada salmaqla Azərbaycan hökuməti həqiqi qayda-qanun yaratmaq, vəziyyəti sabitləşdirmək əvəzində hər iki tərəfdə "intiqam və düşmənçilik" hisslərini daha da qızışdırır. (Bax: ARDA, f. 100, siy. 2, iş 791, vər. 135).

Bu cür hiyləgər, ikiüzlü bəyanatı yalnız mayası xəyanətlə və məkrlə yoğrulmuş "Daşnaksütyun" partiyası verə bilərdi. O partiya ki, öz nizamnaməsində siyasi terroru hüquq norması səviyyəsinə qaldırmışdı. O partiya ki, bütün erməni xalqını türklərə qarşı barışmaz mübarizəyə səfərbər etmişdi. O partiya ki, türkləri qırmağı onların müqəddəs milli vəzifəsi elan etmişdi. Bu bəyanatda 1918-ci ilin sentyabrında Bakı alınarkən baş vermiş hadisələr xatırladılır, ikiüzlülüklə köhnələri, olub-keçənləri unutmağa, yada salmamağa çağırırlar. Lakin Azərbaycanda aprel çevrilişindən sonra məhz 1918-ci il sentyabr hadisələrinə görə Azərbaycan Cümhuriyyəti hökumətinin ilk sədri F.X.Xoyskini, parlamentin sədri H.B.Ağayevi və Xoyskinin 2-ci hökuməti kabinetində daxili işlər naziri olmuş Behbud Xan Cavanşiri daşnak erməni terrorçuları 1920, 1921-ci illərdə Tiflis və İstanbulda məhz qisasçılıq niyyəti ilə qətlə yetirmişlər. Bax budur həqiqi erməni xəyanəti və erməni məkri.

1920-ci ilin yanvarında Azərbaycanın müstəqilliyinin Paris sülh konfransı iştirakçısı olan ölkələr tərəfindən de-fakto tanınması ilə əlaqədar olaraq həmin il fevral ayının 9-da Azərbaycan Parlamenti amnistiya haqqında qanun qəbul edir. Həmin qanunla milli ədavət zəminində qaldırılmış cinayət

işlərinə xitam verildiyi elan olunur. Bu amnistiyadan sonra da 1920-ci il aprel çevrilişinə qədər Fövqəladə Təhqiqat Komissiyası öz fəaliyyətini zəif də olsa davam etdirmişdir. Yalnız aprel çevrilişi bu komissiyanın işinə xitam vermişdir. Təxminən 20 ay fəaliyyət göstərən bu komissiya böyük çətinliklərlə qarşılaşsa da ermənilərin xalqımızın başına açdığı müsibətlər haqqında çoxlu faktiki materiallar toplamağa müvəffəq olmuş və bu gün bizə xalqımızın tarixindəki bu qaranlıq səhifələri yenidən işıqlandırmaq üçün böyük köməkliklər göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yanında yaradılmış Fövqəladə Təhqiqat Komissiyası xalqımızın azadlığı uğrunda apardığı mübarizə tarixində şərəfli yer tutur.

**"Azərbaycan" qəzeti,**
**13 fevral 1998-ci il, № 34.**



## "AZƏRBAYCAN" QƏZETİ NECƏ YARANDI?

Təkcə Azərbaycan xalqının tarixində deyil, bütün müsəlman aləmində ilk xalq cümhuriyyəti olan Azərbaycan Cümhuriyyəti hökumətinin rəsmi dövlət mətbuat orqanının yaranması müstəqil dövlətin əsas atributlarından biri idi. Məhz buna görə də 1918-ci il iyul ayının 3-də Azərbaycan Cümhuriyyəti hökuməti hökumət orqanı olan "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri"nin nəşrinə başlamaq haqqında qərar qəbul edir. Qərarda bu nəşri avadanlıqla təmin etmək işi ərzaq nazirliyinə tapşırılır. İyulun 27-də qəbul etdiyi digər qərarla Cümhuriyyətin Nazirlər Şurası "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri"nin nəşri işini Xalq Təhsil Nazirliyinə həvalə edir. Həftədə iki dəfə buraxılması nəzərdə tutulan hökumət xəbərlərində əsasən Azərbaycan Cümhuriyyəti hökumətinin qərarları, ayrı-ayrı nazirliklərin qəbul etdiyi qərarlar, əmrlər, təlimatlar, ayrı-ayrı şəxslərin vəzifələrə təyin edilmə və vəzifədən azad olunmaları haqqında məlumatlar, hökumət xəbərləri, elanları və s. dərc edilirdi.

Lakin hökumətə Azərbaycan Cümhuriyyəti hökumətinin siyasi kursunun xalqa izah edilməsinə imkan verən mətbuat orqanı mütləq lazım idi. Azərbaycan Cümhuriyyəti hökumətinin mətbu orqanını yaratmaq qarşıda duran başlıca vəzifələrdən biri idi. Bütün çətinliklərə baxmayaraq belə bir mətbu orqanın yaradılması üçün hökumət ciddi cəhdlər göstərir və nəticədə 1918-ci il sentyabrın əvvəllərində Gəncədə "Azərbaycan" adlı hökumət qəzetinin nəşri haqqında qərar qəbul edir. Qəzetin "Azərbaycan" adlandırılması da təsadüfi deyildir. Yeni yaranmış müstəqil Azərbaycan

Cümhuriyyətinin adını Azərbaycan və rus dillərində çıxan "Azərbaycan" qəzetinin adı vasitəsilə də dünyaya yaymaq lazım idi. "Azərbaycan" qəzetinin ilk nömrəsi 1918-ci il sentyabr ayının 15-də Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olunmuşdur. Dörd səhifədən ibarət olan bu nömrənin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dillərində buraxılmışdı. Qəzetin Gəncədə cəmi dörd nömrəsi çap olunmuşdu. İkinci və üçüncü nömrələr rus dilində hərəsi iki səhifə, dörd səhifədən ibarət axırıncı dördüncü nömrənin isə üç səhifəsi rus dilində, bir səhifəsi isə Azərbaycan dilində idi. Görünür ki, ya mətbəə işçiləri və ya şiriftlərin çatışmazlığı üzündən, yaxud da redaksiya işçilərinin olmamasına görə Gəncədə nəşr olunan "Azərbaycan" qəzeti əsasən rus dilində buraxılmışdır. Qəzetin Gəncədə Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı belə bir yazı da verilmişdi: "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır".

Maraqlıdır ki, "heyəti təhriyə" imzası ilə çap edilən qəzetin birinci sayında onun nəşrinin məqsədi, vəzifəsi və proqramı haqqında heç bir məlumat verilməmişdir. Qəzetin birinci sayında həm Azərbaycan, həm də rus dillərində verilmiş "Bakının süqutu" haqqında yazılar diqqəti daha çox cəlb edir. Bu haqdakı xəbərlərdə deyilirdi ki, dünən gecə Azərbaycan Cümhuriyyəti hökuməti adına Qafqaz İslam Ordusunun komandanı Nuru paşa həzrətləri tərəfindən belə bir teleqram gəlmişdi: "Bismillahirrəhmanirəhim. Bakı şəhəri 15.09.34., saat 9-a işləmiş igid ordu hissələrimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Fərrux Nuri".

Bakının alınması münasibətilə Azərbaycan Cümhuriyyəti hökumətinin sədri Fətəli Xan Xoyski tərəfindən Nuru paşaya belə bir cavab teleqram göndərilmişdi: "Qafqaz İslam Ordusunun komandanı səadətli Nuru Paşa həzrətlərinə. Təhti komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm əfəndim. Heyəti vükalə rəisi Fətəli xan".



Bakının azad edilməsi münasibətilə Fətəli xan Şərq Orduları qrupu komandanı Xəlil paşa həzrətlərinə də aşağıdakı məzmunda teleqram göndərmişdi: "Bakının-Azərbaycanın istiqbalını, səadətini, iqtisadi və siyasiyyəsini təmin edəcək və türk aləminin ikinci bir İstanbulu adını almağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanə hücumları sayəsində düşmənlər əlindən xilası münasibətilə zatiali həmiyyətpərvəranələrinizi ən səmimanə bir surətdə təbrik edirəm".

Qəzetin həmin nömrəsində verilmiş xəbərdə deyilirdi ki, Bakı Qafqaz İslam Ordusu tərəfindən azad edilərkən 30 minə yaxın silahlı düşmən əsgəri əsir alınmış, çoxlu qənimət ələ keçirilmiş və şəhərdə sakitlik hökm sürür.

Elə qəzetin həmin nömrəsində Nuru paşanın Azərbaycan Cümhuriyyəti hökumətinə aşağıdakı ikinci teleqramı da dərc edilmişdi: "Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə heyəti vükalənin yarın (sabah - A.P.) Bakıya təşriflərinə müntəzirəm, əfəndim".

Qəzetin həmin nömrəsində Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türk nəğməsi" şeri də dərc olunmuşdu. Bundan başqa birinci nömrədə müharibə meydanında, Gəncə xəbərləri, Azərbaycan hökumətinin qərarları, ayrı-ayrı nazirliklərin əmrləri, daxili işlər naziri Behbud xan Cavanşir tərəfindən imzalanmış elanlar və s. vardır.

Qəzetin rus dilindəki səhifələrində də hökumətin qərarları, Bakının alınmasına dair xəbərlər, Nuru paşa və F.X.Xoyskinin təbrikləri, Gəncə xəbərləri, yerli xronika və s. dərc edilmişdir.

"Azərbaycan" qəzetinin sentyabrın 19-da ikinci və sentyabrın 22-də isə üçüncü nömrələri rus dilində çapdan

çıxmışdı. Hər biri iki səhifədən ibarət olan bu nömrələrdə yenə də hökumətin qərarları, əmrlər, Gəncə xəbərləri, Bakının süqutu haqqında məlumatlar, yerli xəbərlər, müsəlmanların həyatı rubrikaları altında məlumatlar dərc olunmuşdu. Qəzetin ikinci sayında Ş.R. (Şərifbəy Rüstəmbəyli) imzası ilə dərc olunmuş "Düşünmək vaxtıdır" məqaləsi "Daşnaksütyun" partiyasının regionda yeritdiyi millətçi şovinist siyasətin tənqidinə həsr edilmişdi. Müəllif yazırdı ki, Nuru paşa Azərbaycandakı ermənilərə müraciət edərək xalqını fanatizm yoluna sürüklənmiş təkcə başqa xalqların deyil, öz xalqının tarixində də faciəli rol oynayan "Daşnaksütyun" partiyasının qisasçılı təhriklərindən əl çəkməyə, dönüb arxaya nəzər salmağa, özlərinin tarixi səhvlərini etiraf etməyə və qonşularla münasibətlərini sağlam düşüncələr təməlində yenidən qurmağa çağırır. Məqalənin axırında müəllif yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı nəhayət "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, hələ nə qədər ki, gec deyil ondan üz döndərsin, özünün qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır".

Təəssüflər olsun ki, ermənilər bu günə qədər də tarixin ibrət dərslərindən nəticə çıxarmamış, onlara edilmiş bu cür çağırışlara məhəl qoymamış, həmişə həm özlərini, həm də daim onlara xeyirxah münasibət bəsləmiş qonşuları - türkləri və azərbaycanlıları müsibətlərə düçar etmişlər və etməkdədirlər.

Qəzetin Gəncədə sentyabrın 25-də çıxan axırıncı dördüncü nömrəsi dörd səhifədən ibarət olmuşdur. Onlardan 3 səhifə rus dilində, bir səhifə isə Azərbaycan dilində çap olunmuşdu.

Qəzetin rus dilindəki səhifələrində yenə də hökumətin qərar, əmr və elanları, habelə hökumətin həmin il iyul ayının 15-də Birinci Dünya müharibəsi başlayan dövrdən Qafqazda azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətini təhqiq etmək üçün Fövqəladə Təhqiqat Komissiyasının yaradılması ilə bağlı T.M. (T.Makinski - A.P.) imzalı məqalə, Bakıda



vəziyyət haqqında, Bakının alınması barədə məlumatlar, Tiflis mətbuatında, yerli xronika, Türkiyədə və başqa rubrikalarda materiallar dərc edilmişdir.

Azərbaycan dilində olan səhifədə isə iki hökumət nazirlərinin əmirləri və Abdin imzalı müəllifin "Yerini bulmuş arzular" başlıqlı geniş məqaləsi verilmişdi. Məqalədə XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edildiyi dövrdən başlayaraq xalqımızın başına açılmış müsibətlər və rus işğalına qarşı xalqımızın mübarizəsindən və nəticədə öz azadlığına nail olmasından bəhs olunur.

Dördüncü nömrədən idarə tərəfindən belə bir elan da verilmişdi: "Qəzetimiz bu gündən Bakıya köçdüyünə binaən hər bir sorğu üçün bundan sonra bu ünvana müraciət etməli: Bakı, "Azərbaycan" qəzetinin idarəsinə".

Bakıda "Azərbaycan" qəzetinin Azərbaycan dilində ilk beşinci sayı 1918-ci il oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də çap edilir. Bu nömrədən başlayaraq qəzetin adı altında "Gündəlik" siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir" sözləri yazılmağa başlanmışdı.

Bakıda "Azərbaycan" qəzeti həm Azərbaycan və həm də rus dillərində müstəqil surətdə çap olunmağa başlamalarına baxmayaraq Azərbaycan dilində altıncı nömrəyə qədər, rus dilində isə beşinci nömrəyə qədər heyəti təhriyə imzası ilə, altıncı nömrədən Azərbaycan və beşinci nömrədən isə rus dilində isə qəzet "mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli" imzaları ilə çıxır. Həmin ilin noyabrın 28-dən isə Azərbaycan dilində olan qəzet Ceyhun Hacıbəylinin, rus dilində olan qəzet isə Şəfibəy Rüstəmbəylinin redaktorluğu ilə nəşr edilir. Qəzetlərin hər ikisinin də redaktorları eyni adamlar olmasına baxmayaraq, bu qəzetlər tərcümə, bir-birinin təkrarı olmayıb tam müxtəlif mövzularda məqalə və materiallar verirdilər. Bunu Azərbaycan dilində olan "Azərbaycan" qəzetinin abunə haqqında qəzetin idarəsi tərəfindən 1918-ci il oktyabrın 15-də verilmiş

elanından da görmək olar. Orada oxuyuruq: "Abunəçilərin nəzərinə! "Azərbaycan" qəzetəsi iki dildə türkcə və rusca ayrı-ayrı olaraq nəşr edilməkdədir. Abunəçilər abunə yazdırdıqları vaxt hansı lissanda qəzetə alacaqlarına işarə etməlidir".

Qəzetin hər iki dildə olan redaksiyaları da müxtəlif ünvanlarda yerləşirdi. Qəzetin 28 noyabrda çıxan 51-ci sayında "Müdiri Ceyhun bəy Hacıbəyli", noyabrın 29-da çıxan 52-ci sayından isə "müdir və baş mühərriri Ceyhun bəy Hacıbəyli" imzası ilə çap olunurdu. Rus dilində isə "qəzet redaktoru Şəfi bəy Rüstəmbəyli" imzası ilə çıxırdı.

1918-ci il dekabrın 31-nə qədər "Azərbaycan" qəzetinin Azərbaycan dilində 75 nömrəsi, rus dilində isə 70 nömrəsi işıq üzü görmüşdü.

1919-cu il dekabrın 28-də Azərbaycan hökuməti Parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşovun sədrliyi ilə gedəcək Azərbaycan Cümhuriyyəti hökumətinin nümayəndə heyətinin tərkibini müəyyən edir. Nümayəndə heyətinə müşavir sifətilə "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edilir.

Sülh konfransına getməsi ilə əlaqədar olaraq Ceyhun bəy qəzetin 1919-cu il 9 yanvar tarixli 83-cü sayında öz adından "Möhtərəm qarelərimizə" adlı belə bir yazı vermişdi: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə məti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı



əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xüdahafiz deməyi özümə fərz bildim".

Bundan sonra da qəzetin yanvarın 15-də buraxılan 88-ci sayına qədər buraxılmış beş nömrəsini yenə də redaktor kimi Ceyhun bəy imzalamışdı.

1919-cu il yanvarın 16-da buraxılmış 89-cu sayından başlayaraq qəzeti "Müvəqqəti müdir: Üzeyir bəy Hacıbəyli" imzalayır və bu imza qəzetin 1919-cu il 30 iyun tarixli 215-ci sayına qədər davam edir. Həmin il iyulun 4-də çapdan çıxmış qəzetin 216-cı sayından isə qəzet "Müvəqqəti müdir: Xəlil İbrahim" imzası ilə çap olunmağa başlayır. Qəzetin 6 iyul tarixli 217-ci sayında "Bakı xəbərləri" başlığı ilə idarədən belə bir xəbər verilmişdi: "Qəzetimizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək qəsdi ilə bir müddətə Bakıdan gedib, Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir".

Xəlil İbrahim sentyabr ayının əvvəllərinə qədər müvəqqəti redaktor kimi qəzeti imzalamışdır. 1919-cu il sentyabrın 3-də istirahətdən qayıdan Ü.Hacıbəyli 1927-ci il aprelin 28-nə, yəni Azərbaycan Cümhuriyyətinin süqutuna qədər onu redaktə etmişdi. 1918-ci il sentyabrın 15-dən 1919-cu il dekabrın 31-nə qədər qəzetin 358 nömrəsi, 1920-ci il yanvarın 1-dən aprelin 28-nə qədər isə 85 nömrəsi çap olunmuşdu. 1918-1920-ci illərdəki nəşri müddətində qəzetin 443 sayı işıq üzü görmüşdü.

Azərbaycan Cümhuriyyəti hökumətinin "Azərbaycan" qəzeti və hökumət xəbərlərini nəşr etdirməkdə məqsədlərindən biri də o idi ki, onların səhifələrində hökumətin qərarları, nazirliklərin əmrləri, təlimatları, elanları və sair rəsmi sənədləri dərc etdirsin. Nəşrinin ilk saylarında "Azərbaycan" qəzeti səhifələrində (həm Azərbaycan,həm də rus dillərində) daha çox hökumət qərarı, əmr və sərəncamları verilirdisə. "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri"nin həftədə iki nömrəsinin nəşri ilə qərarların və digər mühüm dövlət

sənədlərinin əsas hissəsi orada dərc edilməyə başlayır. 1919-cu il iyun ayının 25-də Azərbaycan hökumətinin qərarı ilə "Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcmuəsi" toplusunu nəşr etmək üçün xüsusi şöbə yaradılır və həmin şöbəyə həm də "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri"nin nəşri işi də tapşırılır.

1919-1920-ci illərdə "Azərbaycan Cümhuriyyəti hökumətinin qanun və binagüzarlıqları məcmuəsi" toplusunun cəmi 4 nömrəsi buraxılmışdı. Topluların ilk sayı 1919-cu il noyabrın 15-də, axırıncı dördüncü sayı isə 1920-ci il yanvarın 1-də buraxılmışdı. Bu məcmuələrə Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 may tarixdən, həmin il oktyabrın 31-nə qədər qəbul etdiyi 298 qərar daxil edilmişdi.

Hökumətin qərar,sərəncam,əmr və digər normativ sənədlərinin xüsusi nəşrlərdə verilməsi "Azərbaycan" qəzeti səhifələrində onların sayının azaldılmasına səbəb olur. Nəticədə "Azərbaycan" qəzetinin səhifələrində daha çox nəzəri məqalələr, dünya, region ölkələri və əlbəttə ki, Azərbaycana aid geniş xəbərlər və oxucuları maraqlandıran digər yazılar verilirdi.

"Azərbaycan" qəzetinin səhifələrində öz fəaliyyətini 1918-ci il noyabrın 16-da yenidən bərpa edən Azərbaycan Milli Şurasının, onun Azərbaycan Parlamentinin çağırılması sahəsindəki fəaliyyəti geniş işıqlandırılıb. Qəzetin səhifələrində Şuranın sədri M. Ə. Rəsulzadənin Parlamentin çağırılması ilə əlaqədar noyabrın 19-da "Bütün Azərbaycan əhalisinə müraciəti". Parlamentin təsisi haqqında Milli Şurada gedən müzakirələrin materialları və Milli Şuranın bu haqda qəbul etdiyi qanunda dərc olunmuşdur.

Azərbaycan Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladıqdan sonra qəzetin səhifələrində onun fəaliyyəti geniş işıqlandırılmış, müntəzəm olaraq qəzetin səhifələrində Parlamentin mühüm iclaslarının stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikası adı



altında dərc olunmuşdur. Habelə "Azərbaycan"ın səhifələrində "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Xarici xəbərlər", "Azərbaycanda", "Bakı xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə", "Türkiyə mətbuatı", "Qəzetlərdən", "Sülh ətrafında", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və başqa bu kimi daimi rubrikalar var idi.

"Azərbaycan" qəzetinin səhifələrində M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin, Xəlil İbrahimin, Fərhad Ağazadənin, Hacı İbrahim Qasımovun, Məhəmməd ağa Şahtaxtılının, Adilxan, Ziyadxanın, Əliabbas Müznibin, Şəfiqə Əfəndizadənin, İstanbulda təhsil alan tələbə Əmin Abidin və başqalarının Azərbaycanın tarixinə, ədəbiyyatına, iqtisadiyyatına, sənayesinə (xüsusilə neft sənayesinə), ticarət tarixinə, maarifinə, mədəniyyətinə, siyasi vəziyyətinə və s. aid seriyalarla məqalələri dərc olunurdu. Qəzetin səhifələrində Məhəmməd Hadinin, Əhməd Cavadın və başqa şairlərin şerləri çap edilirdi.

"Azərbaycan" qəzetinin səhifələrində türk xalqlarının qəddar düşməni Andranikin Zəngəzur, Naxçıvan və Qarabağda azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər, Ermənistan Respublikası ərazisində yaşayan azərbaycanlıların acı talei, onlara qarşı ermənilərin törətdikləri vəhşiliklər və soyqırımı siyasəti, onların kütləvi surətdə məhv edilməsi və qovulması haqqında çoxlu məlumatlar dərc edilmişdi. Qəzetin səhifələrində azərbaycanlılara qarşı yeridilən bu cür vəhşi siyasətlə bağlı Azərbaycan Cümhuriyyəti hökumətinin Ermənistan hökumətinə notaları, memerandumları, məktubları və başqa rəsmi sənədlər dərc edilirdi.

"Azərbaycan" qəzetinin səhifələrində 1919-cu ilin mayında Azərbaycanın İstiqlaliyyətinin elan olunmasının birinci ildönümü münasibətilə 1920-ci il yanvarın 11-də Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin Paris sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınması münasibətilə çoxlu

təbriklər, məqalələr, xatirələr və digər materiallar dərc edilmişdi.

Bir sözlə "Azərbaycan" qəzeti 1918-1920-ci illərdəki nəşri zamanı Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını öz səhifələrində geniş surətdə əks etdirmişdir. Bu gün bu qəzetin komplektləri Cümhuriyyət dövrü tariximizi öyrənməkdə bizim üçün əvəzsiz tarixi mənbələrdən biridir.

Bu gün 80 illiyini qeyd etdiyimiz "Azərbaycan" qəzetinin xalqımızın və mətbuatımızın tarixində xüsusi yeri və rolu danılmazdır. Bu münasibətlə qəzetin yaradıcı kollektivini ürəkdən təbrik edirik.

**"Azərbaycan" qəzeti,**
**11 sentyabr 1998-ci il, № 212.**



# BAKINI NECƏ QORUDULAR

***(Tariximizin təhlükəli anlarından bir soraq)***

Rusiyada çarizm süquta uğradıqdan sonra Zaqafqaziyada yaranmış vəziyyət Azərbaycanı və azərbaycanlıları böyük təhlükə qarşısında qoydu. Bir tərəfdən, S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin əsasən erməni daşnaklarından ibarət ordusu yaranmış şəraitdən istifadə edərək Bakı, Quba, Şamaxı, Salyan, Kürdəmir və b. şəhər və qəsəbələri dağıdıb viran qoyaraq Gəncəyə doğru hərəkət edir, digər tərəfdən isə Zəngəzuru işğal edib Qarabağa hücum edən Andranik də Gəncəyə hücuma hazırlaşırdı. Bununla bağlı M.Ə.Rəsulzadə yazırdı: "Bu müşkül vəziyyətdən milləti qurtaracaq yeganə bir çarə vardı - ***TÜRKİYƏ***. Ümidlər həp oraya dikilmişdi: "O qardaş millət gələcək, bizi düşmən əlindən qurtaracaq". Xalqın bundan başqa bir ümidi qalmamışdı".

Hələ 1918-ci il mayın 1-də toplaşan Zaqafqaziya Seymi müsəlman fraksiyalarının birgə iclasında Trabzonda keçirilmiş sülh konfransı haqqında Seymin üzvü M.Hacınski məlumat verərkən bildirir ki, orada Ənvər paşa və başqaları ilə söhbətlərdən məlum oldu ki, "Azərbaycana geniş şəkildə kömək göstərmək üçün Türkiyə ciddi addımlar atır. Bu günlərdə Ənvər paşanın qardaşı Nuru paşa 300 nəfər təlimatçı ilə Təbrizdən keçərək Gəncəyə gəlməlidir".

Həqiqətən də həmin il mayın sonlarında Nuru paşa 300 nəfər təlimatçı ilə Gəncəyə gəlir. M.Ə.Rəsulzadə yazırdı: "O zaman müdhiş bir anarxiyaya məruz, digər tərəfdən də, bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşılamışdı".

Nuru paşa qısa müddətdə Gəncədə ciddi qayda-qanun yarada bildi.

1918-ci il iyunun 4-də Batumda istiqlaliyyətini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti ilə Osmanlı hökuməti arasında bağlanmış müqavilənin 4-cü maddəsində deyilirdi ki, "ehtiyac olduğu təqdirdə, Osmanlı hökuməti qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Cümhuriyyətinə silahlı qüvvələrlə yardım etməyi" öhdəsinə götürür.

Bu elə bir zaman idi ki, Gəncəyə həm Bakıdan hərəkət edən Q.Korqanovun başçılıq etdiyi əksəriyyəti ermənilərdən ibarət sovet ordusu, həm də Zəngəzur və Qarabağ istiqamətində hərəkət edən Andranikin nizami quldur dəstələri təhlükə altına almışdılar. Azərbaycan Cümhuriyyətinin və Azərbaycan xalqının ölüm-dirim məsələsi həll olunurdu. Belə bir vaxtda F.X.Xoyski hökumət adından Türkiyə dövlətinə müraciət edərək, real hərbi kömək göstərməyi xahiş edir. Sonradan, Azərbaycan parlamentinin birinci iclasında Fətəli xan bu haqda demişdi: "May ayının 28-də Azərbaycan İstiqlaliyyətini elan edərək, öz hökumətini yaratdısa da, bu hökumət qanun və qayda yaratmaq, ölkənin müdafiə işində aciz idi. Çünki heç bir hərbi qüvvəmiz və silahımız yox idi. Türkiyə ilə bağladığımız müqaviləyə əsasən, Azərbaycan Türkiyədən bir qədər əsgəri yardım ala bilərdi. Hökumət bu haqda Türkiyə hökumətinə müraciət etdi... Özünüz bilirsiniz ki, Türkiyə öz borcunu yerinə yetirdi".

Türkiyənin iki qrupdan ibarət 5-ci Qafqaz diviziyası Gümrü-Dilcan - Qazax istiqamətində Azərbaycana doğru hərəkət etdi. Birinci qrup iyunun 11-də, ikincisi isə iyunun 12-də Qazaxa çatdı. Burada azərbaycanlılar türk ordusunu görünməmiş bir sevinc və səmimiyyətlə qarşıladılar. Sonra Karpat cəbhəsindən 15-ci Çanaxqala diviziyası da Gəncəyə gəldi. Nuru paşanın komandanlığı altında, Azərbaycan korpusu ilə birləşən bu hissələr Qafqaz İslam Ordusunu (QİO) yaratdılar.



İyul ayının əvvəllərində bu ordu Göyçay ətrafında, əsasən ermənilərdən ibarət Bakı Sovetinin hərbi qüvvələri ilə döyüşə girib, onu məğlub edir və Bakı istiqamətində hərəkət edir. S.Şaumyanın hərbi yardım haqqında Lenindən xahişilə Bakıya göndərilən Q.Petrovun dəstələri də Qafqaz İslam Ordusunun qarşısında dayana bilmir. Artıq iyulun sonunda Azərbaycan-Türkiyə hissələri Bakı ətrafına çatır və S.Şaumyanın hakimiyyəti süqut edir. Bakıda "Sentrokaspi" diktaturası yaranır və o, ingilislərə müraciət edərək hərbi yardım alır. Lakin bu da QİO-nun hücumunun qarşısını ala bilmir. Gərgin döyüşlərdən sonra, 1918-ci il sentyabr ayının 15-də - Qurban bayramı günü - Azərbaycan-Türkiyə ordu birləşmələri Bakını azad edir.

Əlbəttə, bu döyüşlər qurbansız başa gəlmədi. Bizdə olan məlumata görə, Türkiyədən göndərilən hərbi hissələrdə 10 min nəfərə yaxın əsgər və zabit olmuş, Azərbaycanın azadlığı uğrundakı döyüşlərdə onlardan min nəfərə yaxın canını qurban vermişdi (Hüseyn Baykara. Azərbaycan İstiqlal mübarizəsi tarixi).

Türklərin bizim azadlığımız uğrunda bu fədakarlığına ən yüksək qiyməti M.Ə.Rəsulzadə vermişdir: "Sonra mənhuz bir ixtilal nəticəsində məzarları unudulmuş qalan Anadolu məhəmmədcikləri Bakıdakı şəhadətləri ilə türklüyə yeni bir siyasi vücud əta ediyorlardı. Məddətən unudulmuş, fəqət mənən bütün qəlblərdə dəfn edilmiş bu qəhrəman Şəhidlər yalnız Bakıdamıdırlar? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən ta Bakıya qədər bir yer varmı ki, orada böylə bir fədakar yatmasın!.."

1918-ci il oktyabrın 30-da Böyük Britaniya ilə Türkiyə arasında bağlanmış Mudros sazişinə görə türk orduları Azərbaycanı tərk etməyə məcbur olur. General Tomson başda olmaqla müttəfiq orduları Bakıya gəlir.

Bakı uğrunda həlak olmuş türk və azərbaycanlı əsgərləri Çəmbərəkənd qəbiristanlığında (indi Şəhidlər xiyabını olan



8.-3510

Dağüstü parkda) dəfn edilmişdilər. 1919-cu il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını azad etməsinin birinci ildönümü münasibətilə Çəmbərəkənd qəbiristanlığında şəhidlərin xatirələrini yad etmək üçün böyük mərasim keçirilmişdi. Mərasim zamanı Bakı Xeyriyyə Cəmiyyəti şəhidlərə Xatirə abidəsinin təməlini qoymuşdu.

Elə o gün Azərbaycan parlamentinin tam bir iclası Bakının azad edilməsinin birinci ildönümünə həsr edilmişdi. Təntənəli iclası açan parlament sədri Həsən bəy Ağayev demişdi: "Bugünkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs düşünür və anlayır. Bu bayram münasibətilə türklük və islamçılıq yolunda şəhid düşən türk igidlərini yad etmək üçün rica edirəm ki, cümləniz qiyam edəsiniz (hamı ayağa qalxır)".

Öz çıxışında Azərbaycanın azadlığı uğrunda mübarizədə türk əsgərlərinin tarixi rolundan bəhs edən H.Ağayev deyirdi: "Möhtərəm əfəndilər! Bu gün düz bir ildir ki, Azərbaycanın milli mərkəzi hesab olunan Bakı düşmənlər əlindən, zalımlar əlindən xilas olmuşdur. Bizim güclü vücudumuzu açmaq və bədənimizi parçalamaq istəyən və hüququmuzu çeynəmək istəyən düşmənlər keçən il Kürdəmir stansiyasından başlayaraq, igid türklər tərəfindən qovulub Bakıya soxulmuşlar və sonra dənizə tökülmüşlər. Beləliklə, ən müqəddəs hesab etdiyimiz paytaxtımız Bakını alıb bizə vermişlər. Mayın 28-də İstiqlalımız elan edilmişdir. Sentyabrın 15-də isə haqq yerinə varmış Bakı geri alınmışdır".

Həsən bəy, xalqımıza öz qanı bahasına qardaşlıq yardımı göstərdiyi üçün Azərbaycan xalqı adından türk qardaşımıza təşəkkürünü bildirərək deyirdi ki, onlar "türklük və islamlıq uğrunda şəhidlər vermişlər. Vətənimizi xilas edən türk igidlərini yad etməklə bərabər, onu da əlavə edirəm ki, biz azəri türkləri qardaşımız olan türklərin bu canfəşanlıqlarını heç bir vaxt unutmayacaq və çətinliklə, qan bahasına alınmış və bizə bəxş olunmuş istiqlalımızı müdafiə etməyi öhdəyə alıb, hər şeydən müqəddəs tutaraq son muradımıza nail olacağıq".



Sonra H.Ağayev parlament üzvlərini Cəmiyyəti-Xeyriyyənin Bakının azad edilməsi yolunda canını fəda etmiş türk şəhidlərinin xatirəsinə ucaldacağı abidənin təməlinin qoyulması tədbirlərində iştirak etmək üçün birlikdə Çəmbərəkənd qəbiristanlığına getməyə dəvət etmişdi.

Türk əsgərlərinin abidəsi üçün möhtəşəm bir maket hazırlanmışdı. Lakin 1920-ci il aprel çevrilişindən sonra bu abidə nəinki tikilmədi, həm də Bakının azadlığı uğrunda şəhid olmuş türk və azərbaycanlı əsgərlərin məzarları da dağıdılaraq yerlə yeksan edildi. Yerində isə Kirova abidə ucaldıldı. Ancaq xalq əsgərlərin bu fədakarlığını heç vaxt unutmadı, xatirələrini daim öz ürəyində yaşatdı. Xaricdə yaşayan Azərbaycan mühacirləri isə bu xatirəni daim yad etmiş, bu haqda mühacir mətbuatında yazılar vermişlər.

Azərbaycan istiqlalı uğrunda şəhid düşən türk məhəmmədcikləri üçün müstəqil Azərbaycan Cümhuriyyəti tərəfindən 1919-cu ildə təməli qoyulmuş "Bakıda şəhidlər abidəsi"nin maketi müxtəlif məcmuələrdə bir neçə dəfə dərc edilmişdir. Onlardan birincisi 1928-ci ildə "Türk yurdu" məcmuəsinin AXC-nin 10-cu ildönümünə həsr edilmiş 9-cu sayında, ikincisi isə Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü ilə əlaqədar "Azərbaycan" yurd bilgisi məcmuəsinin 1933-cü il 21-22-ci birləşmiş sayında dərc edilmişdir. Həmin maketin birinci dərc edilmiş surətini hörmətli oxuculara təqdim edirik.

Əziz yurddaşlar, bu gün - istiqlalımızı yenidən əldə etdiyimiz bir vaxtda o zaman qoyulması nəzərdə tutulan belə abidələrin gerçəkləşdirilməsi vaxtı çatmayıbmı? Əlbəttə, çatıb. Unutmayaq ki, bu, şəhidlərimizə qədirdanlıqdan başqa, iki qardaş türk arasında etibar və sədaqətin artmasına da böyük kömək göstərərdi.

**"Həftə" qəzeti,**
**11 sentyabr 1998-ci il, № 25.**

8.*

# ФАТАЛИ ХАН ХОЙСКИЙ — ПЕРВЫЙ РУКОВОДИТЕЛЬ ПРАВИТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

*(к 125-летию со дня рождения)*

*Одним из основателей Азербайджанской Демократической Республики, вынесшим на своих плечах все тяготы управления вновь созданным государством, был видный политический и общественный деятель начала столетия Фатали хан Хойский*

Фатали хан Искендер хан оглу Хойский родился 25 ноября 1875 г. в Шеки. Отец его Искендер хан был родом из города Хой в Южном Азербайджане, о чем свидетельствует и его фамилия. Переселившись в Шеки, он здесь женился, в русской армии дослужился до звания генерал-лейтенанта.

Ф.Хойский окончил классическую гимназию в Гяндже (тогда - Елизаветполь), а в 1897г. - полный курс юридического факультета Московского университета с дипломом 1-й степени, после чего был направлен в распоряжение Тифлисской судебной палаты. Приказом №56 по палате от 26 августа 1897 г. Фатали хан был назначен на должность младшего судебного чиновника при Елизаветпольском окружном суде, а уже 27 февраля 1898 г. высочайшим приказом ему присваивается звание коллежского секретаря. 24 марта 1899 г. приказом №15 председателя Тифлисской судебной палаты он переводится на должность старшего судебного чиновника, а 16 июля



издается приказ по палате о направлении его старшим судебным чиновником в Кутаисский окружной суд. 4 сентября 1899 г. постановлением общего собрания Кутаисского окружного суда Фатали хан назначается директором Озургетского следственного участка, а в марте 1900 г. - директором Кутаисского уездного следственного участка. В том же году ему было поручено на три месяца исполнение обязанностей заместителя прокурора Кутаисского уездного суда. 27 июня 1900 г. приказом №27 Министерства юстиции Ф.Хойский назначается помощником Зугдидского мирового суда. Высочайшим повелением №48 по гражданским учреждениям от 9 июня 1901 г. ему присваивается звание титулярного советника. 18 сентября 1901 г. последовал приказ №33 Министерства юстиции о переводе Ф. Хойского на должность помощника Сухумского мирового суда. 22 апреля 1903 г. приказом №12 того же ведомства Фатали хан назначается уже судебным следователем первого городского участка Екатеринодарского окружного суда. Решением общего собрания этого же суда 29 сентября 1903 г. Фатали хану поручается исполнение должности заведующего третьим Екатеринодарским городским участком.

Высочайшим повелением №70 по гражданским учреждениям от 11 сентября 1904 г. Ф. Хойскому вместо прежнего звания титулярного советника было присвоено звание коллежского асессора, а уже 25 октября приказом №79 он назначается на должность заместителя прокурора Екатеринодарского окружного суда, на которой оставался вплоть до 20 февраля 1907 г., когда он был избран депутатом II Государственной думы от Елизаветпольской губернии.

**Участвуя в работе Государственной думы в качестве депутата мусульманской фракции, Ф. Хойский резко выступал против дискриминационной аграрной политики правительства и в особенности против пересе-**

**лений**. Фатали хан Хойский был в числе 173 депутатов, подписавших законопроект об отмене законов, ограничивающих политические и гражданские права жителей России по национальным и религиозным признакам. В этом законопроекте, представленном в Государственную думу 18 мая 1907 г., содержались требования о введении принципа равноправия всех граждан России, предоставлении им свободы выбора места жительства, слова и печати, в сферах государственной и общественной службы, в образовании. Проинформировав депутатов об этом законопроекте, председатель Думы заявил, что он будет представлен на обсуждение. Однако уже 3 июня II Государственная дума была распущена императорским манифестом, просуществовав всего 103 дня.

После этого Фатали хан вернулся в Гянджу. 17 июля он обращается в Елизаветпольский окружной суд Тифлисской судебной палаты с просьбой принять его в суд присяжным заседателем, поскольку он выбрал город Елизаветполь в качестве постоянного места жительства. На состоявшемся 21 июля 1807 г. общем собрании Елизаветпольского окружного суда было принято решение принять коллежского асессора в отставке Фатали хана Хойского в число присяжных заседателей Елизаветпольского окружного суда Тифлисской судебной палаты. В связи с этим, 24 июля председатель Елизаветпольского окружного суда направил министру юстиции рапорт, в котором сообщается, что на обращение бывшего депутата II Государственной думы, коллежского асессора в отставке Фатали хана Хойского в Елизаветпольский окружной суд о включении его в список присяжных заседателей Тифлисской судебной палаты общее собрание окружного суда приняло решение о возможности удовлетворить это прошение и содержится просьба о разрешении включить означенного Ф. Хойского в список присяжных заседателей Тифлисской судебной палаты по



этому округу. 27 августа старший председатель Тифлисской судебной палаты В.Р. Завадский в письме председателю Елизаветпольского окружного суда указал, что в соответствии с письмом 2-го департамента Министерства юстиции от 9 августа бывшего заместителя прокурора Екатеринодарского окружного суда Фатали хана Хойского разрешено принять в число присяжных заседателей Тифлисской судебной палаты. 3 сентября председатель Елизаветпольского окружного суда сообщил в Тифлисскую судебную палату, что окружной суд включил Фатали хана в список присяжных заседателей судебной палаты, выдав ему регистрационное удостоверение под номером 1551. Удостоверение было утверждено Тифлисской судебной палатой и возвращено в Елизаветпольский окружной суд с поручением вручить Ф. Хойскому под расписку. На письме значится пометка о том, что Фатали хан получил указанное удостоверение 17 сентября.

В тот же день в г. Елизаветполе было проведено общее собрание Елизаветпольского окружного суда с участием и.о. председателя суда А.К.Мосевича, членов суда И.С.Страдомского, М.И.Янковского, заместителя прокурора В.И.Фризира и секретаря Ф.Ф.Лоренци, на котором состоялась церемония приведения Ф.Хойского к присяге. Ниже приводится ее текст: "Обещаю и перед священным Кораном всемогущего Аллаха клянусь верно служить Его величеству императору и властителю всея Руси, предельно точно исполнять своим рассудком законы империи, не говорить и не писать в суде слов, наносящих вред православной церкви, государству, обществу, семье и благонравию, с честью и на совесть выполнять взятые на себя обязанности, хранить верность судебным и властным органам, защищать интересы лиц, положившихся на меня или поручивших мне свое дело, помнить о том, что за все это я в ответе перед законом и правосудием Всевышнего. В подтверждение сказанного целую священные строки Корана. Аминь."

**Под текстом присяги рукой самого Фатали хана начертано: "Присягу принес на основе этого текста", - и поставлена подпись.** Свои подписи поставили также все присутствующие, в том числе мулла Хаджи Гасан Моллазаде.

Ф.Хойский работал в Елизаветпольском суде присяжным заседателем и одновременно проводил общественную деятельность до 1913 г., когда он переехал в Баку, где продолжал работать присяжным заседателем в Бакинском окружном суде. В связи с этим председатель Елизаветпольского окружного суда своим письмом от 7 сентября 1913 г. запросил Бакинский городской суд о том, числится ли Ф. Хойский в списке присяжных заседателей этого суда, на что и.о. председателя Бакинского окружного суда К. Колбасин в ответном письме от 30 октября сообщает, что Фатали хан Хойский заявлением от 3 сентября 1913 г. известил о смене места жительства - переезде в Баку. С указанного времени и до 1917 г. Ф.Хойский трудился присяжным заседателем в Бакинском окружном суде, принимая активное участие в общественной и культурной жизни города, особенно в работе местных благотворительных обществ, оказывая им и материальную помощь.

**После февральской революции 1917 г. и свержения в России монархического режима начался новый, наиболее плодотворный период в жизни Фатали хана как общественного деятеля.** В течение менее чем трех лет ярко проявились его способности как незаурядного политического и государственного деятеля, а также умелого организатора. Именно в этот непродолжительный отрезок времени Фатали хан снискал широкую известность и любовь народа по всей стране.

После февральского переворота Фатали хан избирается членом Временного исполнительного комитета Национального мусульманского совета, созданного в Баку. Он



принимал активное участие в организации и работе созванного здесь же Общекавказского съезда мусульман.

После победы октябрьской революции в России, в ноябре 1917 г. в Тифлисе был создан Закавказский комиссариат. 23 февраля 1918 г. там же в Тифлисе приступил к работе Закавказский сейм, ставший органом законодательной власти в регионе. В этот орган вошли депутаты, избранные от Закавказья во Всероссийское учредительное собрание. В числе 44 депутатов азербайджанской фракции сейма был и Фатали хан Хойский.

22 апреля 1918 г. была объявлена независимая Закавказская федеративная республика, в правительстве которой Ф.Хойский занял пост министра юстиции. Однако провозглашение независимости Закавказья и создание правительства не внесло в жизнь региона никаких новшеств. Представители каждой из трех наций, работавшие вначале в Закавказском комиссариате, а затем в правительстве, защищали в первую очередь интересы своих партий. В результате грузинская фракция приняла решение о выходе из состава Закавказской Федерации и провозглашении независимости. По данному вопросу 25 мая 1918 г. И. Церетели выступил на собрании азербайджанской фракции сейма. В ответном выступлении Ф. Хойский отметил, что "народы Закавказья настолько тесно связаны друг с другом общими интересами, что разделение их окажется совсем непростым. Если отделение - воля грузинского народа, то препятствовать этому мы не вправе. Безусловно, в такой ситуации азербайджанским тюркам не остается ничего другого, как принять аналогичное решение". Затем Фатали хан сообщил, что в беседе с членом сейма и правительства Х.Корчикяном последний заявил, что в случае выхода грузин армянские депутаты также намерены провозгласить независимость.

26 мая 1918 г. было проведено последнее заседание Закавказского сейма, на котором он был распущен, и в тот

же день была провозглашена независимая Республика Грузия. На следующий день, 27 мая состоялось чрезвычайное заседание азербайджанской фракции сейма, которая после затяжных и всесторонних дебатов объявила себя Азербайджанским национальным советом и взяла на себя управление страной. 28 мая на первом заседании Совета в бывшей резиденции российского наместника после обстоятельных прений было принято решение о провозглашении Азербайджанской Демократической Республики на территории Южного и Восточного Закавказья и распространена декларация о независимости Азербайджана. Затем Национальный совет единогласно избрал Фатали хана Хойского председателем первого правительства Азербайджана и поручил ему формирование кабинета. После часового перерыва Ф. Хойский объявил состав правительства, в котором он наряду с постом премьер-министра занял и пост министра внутренних дел.

После завершения первых организационных мероприятий по созданию нового государства Национальный совет и правительство Азербайджана 16 июня 1918 г. переехали в Гянджу, где столкнулись с целым рядом проблем как внутреннего, так и внешнего порядка. Еще в середине мая в Гянджу прибыл в сопровождении 300 инструкторов главнокомандующий Кавказской армии Османского государства Нури паша, который сосредоточил в своих руках реальную власть в городе и весьма настороженно отнесся к прибытию Национального совета и правительства Азербайджана. В такой обстановке 17 июня в здании бывшей городской управы состоялось седьмое по счету заседание Национального совета, на котором глава правительства Ф. Хойский выступил с заявлением об отставке кабинета. После всестороннего рассмотрения отставка была принята, и Ф. Хойскому поручается формирование нового правительства. Во втором правительственном кабинете наряду с постом



премьер-министра Фатали хан занимал пост министра юстиции. В своем докладе о новой правительственной программе он подчеркнул, что основная задача этого главного исполнительного органа государства - укрепление свободы и независимости Азербайджана. На заседании были также приняты две важные резолюции о роспуске Национального совета и передаче всей законодательной и исполнительной власти в руки временного правительства.

В первой резолюции говорится, что, принимая во внимание тяжелую ситуацию в сфере внутренней и внешней политики, Национальный совет Азербайджана передает всю власть правительству, возглавляемому Фатали ханом Хойским, и поручает ему не передавать власть никому, кроме Учредительного собрания, которое будет созвано в кратчайший срок.

Во второй резолюции речь идет о правах и обязанностях правительства Ф. Хойского. В документе указывается, что правительство не может отменить независимость и политические свободы Азербайджана, не полномочно вносить изменения в аграрный и другие законы, имеющие революционное значение. Во всех остальных вопросах правительство вправе действовать по своему усмотрению. В течение не более шести месяцев правительство Ф.Хойского должно созвать Учредительное собрание.

Второе правительство также приступило к работе в чрезвычайно сложных условиях. Основное внимание по-прежнему уделялось делу формирования государственного аппарата, в том числе аппарата Совета министров и отдельных министерств. 27 июня был провозглашен государственный статус азербайджанского языка, а 28 августа принят закон о национализации учебных заведений. Первым же шагом правительства Фатали хана Хойского было объявление 19 июня по всей стране военного положения. Кроме того, правительство приступило к созданию На-

циональной армии, что имело важнейшее значение для защиты независимости в сложных условиях, в которых находилась страна. В соответствии с принятым 11 августа законом о воинской повинности был объявлен призыв на военную службу всех граждан, достигших 19 лет.

Другим важным мероприятием нового кабинета стало создание 15 июля Чрезвычайной следственной комиссии, перед которой ставилась задача изучения всех обстоятельств, связанных с погромами мусульманского населения Закавказья и посягательствами на его имущество в период мировой войны, особенно в марте 1918 г. в Баку и в последующий период, разоблачения виновных и привлечения их к ответственности.

30 августа правительство вынесло постановление о восстановлении исторического названия г. Гянджи, который был переименован царской Россией, а также о переименовании Гарягинского уезда в Джабраильский. В целом до переноса столицы в Баку правительство Фатали хана осуществило целый ряд важных мер по восстановлению экономики, железнодорожного транспорта, почты и т.д.

Необходимо подчеркнуть, что это был сложнейший критический период в истории нашей страны, без преувеличения решался вопрос "быть или не быть". Излишне пояснять, насколько тяжело приходилось тем, кто стоял у кормила власти. Вот что писал о деятельности правительства в этот период Уз.Гаджибеков: "Его высочество Фатали хан, ставший первым премьер-министром только что созданного азербайджанского государства и тем самым занявший почетное место в истории Азербайджана, находится в положении моряка, от искусства и хладнокровия которого всецело зависит спасение утлого, наспех сооруженного из досок суденышка, попавшего в бурю и рискующего ежечасно, ежеминутно разбиться о скалы... Его высочество Фатали хан согласился



взять на себя столь тяжкий труд - провести это хрупкое судно в бурю благополучно среди скал и камней и привести в спасительную гавань, и сумел искусно, с величайшим мастерством, соблюдая всяческие меры предосторожности, провести свое судно, предохранив его от ударов о скалы до тех пор, пока ураган не улегся".

**15 сентября 1918г. Кавказская исламская армия, состоящая из турецких и азербайджанских частей, вступила в Баку, а 17 сентября сюда переехало правительство Азербайджанской Демократической Республики, и этот город был объявлен столицей. Таким образом, вся территория Северного Азербайджана оказалась под контролем законных властей.** После переезда из Гянджи в Баку правительство Фатали хана Хойского еще более активизировало свою работу в общественно-политической, хозяйственной и культурной областях. Для решения организационных вопросов созыва Учредительного собрания была сформирована комиссия, состоявшая из председателя правительства, министров внутренних дел и народного просвещения. 9 ноября 1918 г. после доклада Фатали хана правительство утвердило трехцветный государственный флаг Республики.

16 ноября 1918 г. после пятимесячного перерыва на свое очередное - первое в Баку - заседание собрался Азербайджанский Национальный совет. Выступивший на заседании Ф. Хойский заявил, что возглавляемому им правительству не хватает времени на подготовительные работы для созыва Учредительного собрания, и поэтому Национальный совет должен взять эту функцию на себя. Приняв это предложение, Совет на своем заседании 19 ноября одобрил представленный правительством законопроект о сформировании парламента из 120 депутатов.

7 декабря 1918 г. состоялось открытие первой сессии парламента Азербайджанской Демократической Республики.

Председатель правительства Ф.Хойский выступил с обширным докладом о проделанной в сложнейших исторических условиях работе, после чего обратился к депутатам с просьбой принять отставку кабинета. Парламент принял отставку и поручил Фатали хану формирование и третьего правительства республики. 26 декабря Ф.Хойский выступил в парламенте с сообщением о правительственной программе и составе нового кабинета. После всестороннего обсуждения парламент одобрил представленную программу и оказал доверие вновь сформированному кабинету. И на этот раз Ф.Хойский занял в правительстве два поста - премьер-министра и министра иностранных дел. Отметим, что уже с самого начала некоторые партийные фракции в парламенте находились в резкой оппозиции к правительству Фатали хана. Они обвиняли правительство в бездействии, старались представить все беззакония и анархию в стране как итог пассивности властей. Особенно непримиримую позицию занимали фракции "Объединение", "Ахрар" и социал-демократов. На парламентском заседании 28 января 1919 г. лидер Партии "Объединение" Гарабек Гарабеков заявил, что производимые в стране нефть и зерно, а также бязь, выпускаемая на фабрике З. Тагиева, попадают в руки кучки дельцов, которые наживаются на национальном богатстве, и объяснил такое положение бездеятельностью правительства. В ходе другого заседания парламента - 4 февраля 1919 г. при обсуждении вопроса об открытии в Армении полномочного представительства Азербайджана тот же Г. Гарабеков вновь подверг правительство резкой критике. В ответ Ф. Хойский указал:

"В этом отношении правительство просчетов не допустило. Недопустимо, чтобы мы сидели как подсудимые, а вы отчитывали нас по поводу и без оного - почему так, а почему этак. Недостатки возможны в любом деле, но в этом вопросе никаких ошибок не допускалось".



На этом заседании тот же Г.Гарабеков, а также представитель партии "Ахрар" Асланбек Гардашов обвинили правительство в поощрении спекуляции и в непринятии каких-либо мер по борьбе с этим злом, подчеркивая тезис о причастности к хищениям чиновников Министерства внутренних дел. Отвечая на эти выступления, М.Э.Расулзаде указал, что правительство "за этот краткий промежуток времени сделало все, что было возможно", и заметил, что некоторые требуют радикальных перемен и нововведений от правительства, которое действует всего пять недель, но, "если требовать от человека невозможное, то природа, несомненно, этого не допустит, и в результате человек останется ни с чем".

На заседании парламента 5 февраля 1919 г. выступили Хаджи Керим Санылы, Самедага Агамалыоглу, Г. Гарабеков, Ибрагим Абилов, Муртуза Ахундзаде, Ахмед Джевдет Пепинов, Асланбек Гардашов, которые вновь подвергли правительство жесткой критике. Отвечая им, Ф.Хойский сказал: "В те дни вы раз за разом обращались ко мне, настаивая, чтобы я сформировал правительство. В своем первом выступлении я отметил, что в такое тяжелое время никто не решится взять на себя руководство правительством. Я сказал тогда: "Надеемся, что вы единодушно и единогласно поддержите правительство... Если увижу, что поддержки нет, ни минуты не останусь во главе правительства".

Далее Фатали хан отметил, что "одно дело, когда запрос помогает правительству, обращает внимание на то, что упущено из виду - на такой вопрос правительство никогда не обидится, но бывают запросы ядовитые, злопыхательские... такие запросы означают подножку, западню, кинжальный удар правительству... Разве же здесь судебное присутствие, чтобы каждый бросал обвинение, чтобы все наперебой чернили?.. Мы даже не можем требовать от хулителей

проявить немного уважения". Далее Ф. Хойский заявил: "Вы должны знать, что независимость Азербайджана ежеминутно подвергается опасности. Знайте - время теперь такое, что не только бязь и ситец исчезнут, можем и независимость нашу утратить, не станет нашего Азербайджана. Нельзя в такое критическое время измерять работу правительства количеством бязи на фабрике Тагиева".

В связи со сложившейся ситуацией Фатали хан Хойский направляет в парламент письмо об отставке правительства, и это письмо оглашается на заседании 25 февраля 1919 г. Приняв отставку, парламент просил кабинет Ф.Хойского исполнять свои обязанности до сформирования очередного правительства. 14 апреля был создан четвертый по счету правительственный кабинет во главе с Н.Б.Усуббейли.

После отставки с правительственного поста Ф.Хойский продолжает активную политическую деятельность в течение апреля, участвует в качестве депутата в решении различных политических и финансово-экономических проблем. Кроме того, Фатали хан принимает самое активное участие в подготовке и проведении Кавказской конференции, посвященной урегулированию приграничных споров между государствами региона. Он назначается главой делегации Азербайджана на конференции по вопросам азербайджано-армянских территориальных споров, которая была проведена в ноябре. 22 декабря Ф.Хойский занимает пост министра иностранных дел в кабинете, сформированном Н.Усуббейли.

**12 января 1920г. Высший совет стран Антанты признал де-факто независимое азербайджанское государство.** С января по апрель Ф.Хойский несколько раз обменивался нотами с народным комиссаром иностранных дел РСФСР Г.В.Чичериным. В этих документах Фатали хан добивался признания Азербайджанской Демократической Республики со стороны советской России. В свою очередь,



Г.Чичерин требовал от Азербайджана поддержки большевиков в борьбе с войсками Деникина. Однако Ф.Хойский твердо заявил, что правительство Азербайджана рассматривает вооруженное противоборство в России как внутреннее дело русского народа и считает вмешательство в него недопустимым.

В середине апреля 1920 г. российская XI Красная армия, ликвидировав остатки войск Деникина на Северном Кавказе, выдвинулась к границам Азербайджана. 15 апреля министр иностранных дел Фатали хан Хойский направил советскому правительству России ноту с выражением обеспокоенности по поводу безопасности границ Азербайджана. Но эта нота осталась без ответа. Утром 27 апреля русские войска перешли границу и стали продвигаться к Баку. Вечером того же дня парламент Азербайджана принял постановление о передаче власти коммунистам.

После падения Азербайджанской Демократической Республики Фатали хан Хойский тайно выехал в Тифлис, где 19 июня 1920 г. был убит вооруженными наймитами - армянскими боевиками.

### *ЛИТЕРАТУРА*


1. *Адрес-календарь Азербайджанской Республики на 1920г. Баку, 1920.*
2. *Государственный исторический архив Азербайджанской Республики (ГИААР).Ф.170, оп.1, д.241.*
3. *Азербайджанская Демократическая Республика (1918-1920). Стенографические отчеты. Баку, 1998 г.*
4. *Закавказский сейм. Стенографические отчеты. Тифлис, 1918 г.*
5. *Государственная дума. Стенографические отчеты. 1907 г., тт. 1-11.*


**Журнал "Возрождение - XXI век". 2000 год № 11-12**



9.-3510

# ERMƏNİLƏRİN XALQIMIZA QARŞI SOYQIRIMI VƏ DEPORTASİYA TARİXİNDƏN

# ЧТО ЭТО БЫЛО:
# ГЕНОЦИД ИЛИ ДЕПОРТАЦИЯ?

Как известно, в начале 19 века в результате военной экспансии Российской империи в Закавказье во владение русской короны перешла та часть исконных территорий Азербайджана, на которой затем в нашем веке была искусственно создана Республика Армения. Захватническая война завершилась для России подписанием двух трактатов: 10 февраля 1828 г.-с Ираном и 2 сентября 1829г. - с Турцией. Эти документы фактически развязали руки метрополии для переселения на вновь завоеванные земли из Персии более 8 тысяч, а из Турции - 14 тысяч армянских семей.

Акты Кавказской археографической комиссии свидетельствуют, что до выполнения условий Туркманчайского договора население христианского и армяно-григорианского вероисповедания составляло здесь, в Закавказье, явное меньшинство. По их свидетельству, в Карабахе на 12 тысяч семей приходилось лишь 2,5 тыс. немусульман, в Шемахинском ханстве - на 24 тыс. лишь 1,5 тыс. и в Шекинском ханстве - на 15 тыс. только треть. Поэтому и стремилось Российское государство обезопасить свои окраины более благонадежным. по его мнению, т. е. христианским населением.

Российский посланник при дворе персидского шаха, А.С.Грибоедов в 1828 г. в своей записке о переселении армян из Персии сообщал, что эта идея была заложена в Туркманчайский трактат не без помощи царского полковника Лазарева - армянина по национальности. Грибоедов уже тогда предчувствовал опасные последствия подобного шага.

"Армяне большею частью поселены на землях помещичьих, мусульманских - писал ей. - Летом это еще можно было допустить. Хозяева-мусульмане большею частью находились на кочевье и мало имели случаев сообщаться с иноверными пришельцами".

Острая критика политики России в Закавказье содержалась и в книге Н.И.Шаврова "Новая угроза Русскому делу в Закавказье" (Санкт-Петербург, 1911), в которой автор сетовал:

"Нашу колонизаторскую деятельность мы начали не с водворения в Закавказье русских людей, а с водворения инородцев. Прежде всего, мы переселили в Закавказье в 1819 г. 500 семей вюртембергских немцев из числа элементов, забракованных на родине, и из этих колонистов мы образовали колонии в Тифлисской и Елизаветпольской губерниях. Затем после окончания войны 1826- 1828 гг. в продолжении двух лет, с 1828 по 1830, мы переселили в Закавказье свыше 40 тыс. персидских и 84.600 турецких армян и водворили их на лучшие казенные земли Елизаветпольской и Эриванской губернии, где армянское население было ничтожно".

Свои выводы Шавров подтверждал сведениями о том, что для расселения армянам было отведено более двухсот тысяч, десятин казенных земель, а также скуплено частновладельческих земель у мусульман более чем на 2 млн. рублей. В частности, армянскими переселенцами были заселены нагорная часть Елизаветпольской губернии (Нагорный Карабах) и берега озера Гокча (ныне Севан). При этом необходимо иметь в виду, что помимо 124 тыс. армян, переселяющихся сюда официально, существовал и неофициальный поток, насчитывающий десятки тысяч семей. По добытым Шавровым сведениям, из 1 млн. 300 тыс. душ армян, проживавших в Закавказье, в начале XX в., более миллиона не принадлежало к числу коренных жителей края и было поселено здесь российской администрацией.



Статистические данные, содержащиеся в ежегодных выпусках Кавказского календаря, также свидетельствуют о том, что на территории, ныне занимаемой Армянской Республикой, проживало значительное число азербайджанцев; последние в ряде мест намного превышали численность армянского населения.

Так, в 1886 г. из 326 селений Зангезурского уезда Елизаветпольской губернии 149 были азербайджанскими (45,7 проц.), 91 - курдскими (27,9 проц.) и лишь 81 - армянскими (24,8 проц.).

В 1889 г. азербайджанское население Зангезурского уезда превышало армянское почти на полторы тыс. чел. В Эриванской губернии в 1891 г. из 661,6 тыс. чел. азербайджанцы составляли почти 270,4 тыс. чел. (41 проц.). Численность их быстро росла и в 1893 г. достигла уже 276 тыс., а в 1897 г. почти 313 тыс. чел. По той же переписи население Зангезурского уезда насчитывало более 142 тыс. чел., из коих 71,2 тыс. (50,1 проц.) составляли азербайджанцы и 63,6 тыс. (44,8 проц.) - армяне.

Мы располагаем потрясающими статистическими данными по г. Эривани, в котором в 1896 г. из 14,7 тыс. горожан проживало 7,2 тыс. азербайджанцев (49 проц.) и 7,1 тыс. армян (48 проц.). Во всем Эриванском уезде численность азербайджанского населения еще более превосходила численность армянского: из 99 тыс. чел. - 52,8 тыс. азербайджанцев (53,5 проц.) и 36,4 тыс. армян (48,4 проц.); то же в Сурмалинском уезде. В Эчмиадзинском и Новобаязетском уездах проживало по тридцать тысяч азербайджанцев в каждом, которые составляли чуть менее трети всего населения этих уездов.

По данным на 1 января 1916 г., соотношение между азербайджанским и армянским населением этих регионов несколько изменилось, но азербайджанцы по-прежнему составляли большинство в Эриванском уезде (74,2 тыс.чел.,

или 48%) и Зангезурском уезде Елизаветпольской губернии (119,5 тыс.чел., или 53,3%). Возросла численность азербайджанцев в Сурмалинском (до 45,9 тыс.чел.) и Новобаязетском (до 50,7 тыс.чел.) уездах.

Таким образом, вышеприведенные статистические данные красноречиво свидетельствуют, что на территории нынешней Армении в конце XIX и начале XX в. жило на своих исконных землях многочисленное азербайджанское население.

**С НАЧАЛА XX в.** "армянские националисты начали планомерные и целенаправленные геноцид и депортацию азербайджанцев, компактно проживавших на территориях, составивших впоследствии Армянскую ССР, а ныне - Республику Армения. Первые инспирированные ими крупные столкновения между армянами и азербайджанцами произошли в 1905- 1906 гг. Вспыхнув в Баку, они затем перекинулись на Шушинский, Эриванский, Нахичеванский, Ордубадский, Эчмиадзинский, Джеваншырский, Казахский и Зангезурский уезды.

С болью писал о тех днях выдающийся азербайджанский писатель М. С. Ордубади в своей книге "Кровавые годы", изданной в 1911 г. в Баку:

"Обратившись к опыту истории человечества, мы видим, что до сей поры ни один народ не подвергал таким мукам женский пол, как поступили армяне с жителями Умидли. Если на то пошло, то какую надо иметь совесть, чтобы бесчестить заплаканную мать, на глазах которой умерщвлены трое-четверо детей, еще бьющихся в предсмертных судорогах?..

И это армянская культура! Представляю, к чему придет нация, стремящаяся к независимости через такие гнусные поступки. Подобает ли какой-либо цивилизованной нации, изрубив до 150-ти жен и мужей и сложив друг на друга, предать огню?"



Против беззащитных азербайджанских крестьян была брошена "почти стотысячная армия зинворов, куда вошли почти все беженцы из Турецкой Армении и местные головорезы, привыкшие ничем (иным) не заниматься, кроме убийства и насилия". Об этом 9 августа 1907г. доносил в Петербург елизаветпольский губернатор.

Неслыханные и невиданные зверства творили армяне над азербайджанским населением в 1918 - 1920 гг., т. е. в период независимой Араратской республики. В архивах сохранились неопровержимые свидетельства того, что до марта 1918 г. в четырех уездах Эриванской губернии было разорено и обезлюдело 199 азербайджанских селений, в которых ранее проживало более 135 тыс. человек.

Ужасающая картина положения азербайджанцев в Армении предстает перед глазами после прочтения сообщения уполномоченного министра призрения в Армении, члена парламента Т.Макинского министру от 11 февраля 1920г.:

"Кровавые события в Эриванской губернии, начавшиеся в феврале 1918г. и продолжавшиеся вплоть до настоящего времени, привели к тому печальному результату, что многочисленное, почти полумиллионное мусульманское (азербайджанское. - **Авт.**) население этой губернии, за исключением мусульман Нахичеванского уезда Шарурского участка, части 2-го и 3-го участков Сурмалинского уезда и Зангибарского района, превратились в абсолютных бедняков. Они потеряли свое движимое и недвижимое имущество, скот и сельскохозяйственный инвентарь. В уцелевших районах мусульман не более 200 тыс. душ. Изгнанная огнем и мечом со своих насиженных мест, будучи оторванной от земли, эта масса мусульманского крестьянства не раз подвергалась в течение двух последних лет разгрому со стороны армянских банд и влачит жалкое голодное существование... Большая и притом самая трудоспособная часть этого крестьянства погибла в кровавой борьбе и

уцелела, главным образом, нетрудоспособная и беспомощная: женщины, дети и старики. Женщины большей частью вдовы, а дети-сироты. Не получая необходимой помощи в достаточной мере, они гибнут тысячами от голода, холода и болезней... В настоящее время невозможно точно установить, какая часть из этих трехсот тысяч мусульман погибла. Не без преувеличения можно сказать, что число погибших достигает 100-120 тыс. душ. Из уцелевших около 50 тыс. душ переселились в Азербайджан. Есть и такие, кто переселился в Турцию и в Макинское ханство".

Многочисленные архивные документы неопровержимо подтверждают тот факт, что в 1918-1920 гг. части дашнакских бандитских формирований свирепствовали не только на территории Армении, но и на территории, принадлежавшей Азербайджану. В адрес парламента и правительства Азербайджанской Демократической Республики из Эривани, Зангезура, Нахичевани, Ордубада и других мест постоянно шли сотни телеграмм, писем и жалоб о зверствах, содеянных армянскими бандитами. Вот фрагменты нескольких из них. Из заявления уже упоминавшегося нами Т. Макинского от 4 января 1919 г.:

"Начиная с декабря 1917 г. и до июня 1918 г., армянскими войсковыми частями в Эриванской губернии было разграблено и сожжено свыше 200 мусульманских селений, а жители частью перебиты, частью бежали в горы, где погибли от голода и холода... В настоящее время армянские войсковые части заняли весь Сурмалинский уезд и части Эриванского, Эчмиадзинского, Шарурского уездов, населенные мусульманами, и продвигаются к Нахичевани, причем мирное мусульманское население частью вырезается, частью выгоняется из своих сел и вынуждено бежать через горы в пределы Персии, что грозит ему неминуемой гибелью. На насильственно очищенной территории водворяются армяне-беженцы из Турецкой Армении".



Мольбы о помощи звучат в воззвании, принятом на собрании жителей 26 азербайджанских селений Новобаязетского уезда, состоявшемся 26 марта 1919 г.

Обращаясь к правительству Азербайджанской Республики, крестьяне сообщают о чинимых над ними насилиях "со стороны араратского республиканского войска, местных армян, а равно армянских шовинистических и дашнакских банд, которые неоднократно нападают на мусульманские мирные селения, разгромляют таковые, учиняют всевозможные неслыханные и позорные нечеловеческие действия... с целью выжить оставшийся остаток мусульман из пределов Эриванской губернии, где разорено более 270 сел магометан. Последний раз обращаемся к вам, братья мусульмане, имейте в виду безвыходное положение и помогите нам, чем только можете, не дайте погибнуть 60-тысячному населению со стороны тиранов, шовинистов и дашнакцаканов, желающих истребить несчастный остаток мусульман Эриванской губернии".

Кровавые аналогии с недавней насильственной депортацией азербайджанцев из Армении вызывает другой документ - донесение пристава 5-го участка Гянджинской губернии на имя гянджинского уездного начальника от 22 апреля 1919 г.! Потрясенный пристав писал:

"Армянские регулярные войска с 13 по 21 апреля напали на мирных жителей Гончи и снесли 21 селение (с численностью населения около 60 тыс.), беспощадно истребив под градом орудийных снарядов, не щадя женщин и детей... Начиная с Джеванширского уезда до Казахского уезда по снежному хребту, пограничное Азербайджану все пространство усеяно трупами и ранеными обиженных, жалких и обездоленных беженцев Новобаязетского уезда, и они, преследуемые армянскими войсками, представляют ужасное зрелище...".

Чудовищные преступления армянских националистов вызывали отчаяние. Оно сквозит в телеграммах из Зангезура в адрес парламента АДР:

"Сколько ни плакали зангезурцы, их стоны оставались гласом вопиющего и через горы, ущелья и кочевья никуда не дошли. Никто на помощь им не явился. У женщин отрезаны груди, дети лежат с отрезанными головами и телами, обагренными кровью... силы армянского регулярного войска до 10 тысяч, и они непрерывно пополняются подкреплениями со стороны Араратской республики".

Член Азербайджанского парламента Джалил Султанов 23 января 1920 г. с горечью сообщал в этот высший орган государственной власти:

"Сегодня ночью вместе с уездным начальником прибыл в Джебраил. Застал под открытым небом десятки тысяч голых, тощих женщин и детей-беженцев, только что прибывших из Зангезура. Зангезурский уезд окончательно уничтожен регулярными войсками прибывших с 10 пушками и пулеметами из Эривани. Число сражающихся армян доходит до десяти тысяч. Среди оставшихся трупов армян есть несколько цветных английских солдат... По полученным сведениям, завтра начинается наступление на Джебраильский уезд со стороны Зангезура с тем, чтобы соединиться с армянами Карабаха, таким образом отрезать Нахичевань и сразу покончить с Карабахом и Нахичеванью. Преступное бездействие правительства довело до уничтожения всего Зангезура и Карабаха. Пора положить конец бумажным протестам или раутам вероломных хатисовых и наглости армян, подданных Азербайджана, уничтоживших более 200 тыс. мусульман Зангезурского уезда".

Отметим, что проблема беженцев и в то время стала одной из главных забот азербайджанского народа, и с целью ее решения в составе Азербайджанского правительства было создано специально Министерство призрения.



Очередные целенаправленные акции армянских властей по выдворению компактно проживавших азербайджанцев из Армении и захвату их территории были развернуты после установления там Советской власти. Коммунистический режим открыл широкий простор армянам для овладения азербайджанскими землями так называемым законным путем". Действия армянских националистов по расширению своей территории за счет Азербайджанской Республики происходили закамуфлированно, скрытно от мировой общественности и с помощью поддержки армянского лобби в Советской России.

**В ДЕКАБРЕ 1920 г.**, в качестве "акта доброй воли" Армении был передан исконно принадлежащий Азербайджану Зангезур. Затем претензии армянских экспансионистов распространились на Карабах и Нахичевань. В 1921 г., однако, им не удалось добиться включения нагорной части Карабаха в состав Армении. Тем не менее, в июле 1923 г. их усилиями в нагорной части Карабаха была искусственным путем образована автономная область в составе Азербайджанской ССР. Но от намерения завладеть областью дашнаки не отказались...

Впервые официально они реанимировали эту проблему в ноябре 1945 г., когда в своем письме на имя И. Сталина секретарь ЦК КП Армении Г.Арутюнян поднял вопрос о передаче НКАО Армянской ССР. ЦК ВКП(б) не пресек эти поползновения, но в свою очередь запросил мнение руководства Азербайджанской ССР. Ответ М.Д.Багирова был адресован Г.Маленкову и содержал обоснование принадлежности области Азербайджанской ССР. Не возражая против включения области в состав соседней республики, Багиров одновременно посчитал необходимым довести до сведения ЦК, что "при рассмотрении вопроса о включении НКАО в состав Армянской ССР должен быть рассмотрен и вопрос о включении в состав Азербай-

джанской ССР Азизбековского, Ведийского и Карабеглярского районов Армянской ССР, примыкающих к Азербайджанской Республике и населенных преимущественно азербайджанцами". Очевидно, что после такого ответа требование Арутюняна осталось без последствий.

Тем не менее, армянское лобби в Москве, возглавляемое микоянами и тевосянами, не примирилось с неудачей и не отказалось ни от своих экспансионистских поползновений на исконные земли Азербайджана, ни от политики насильственного выселения азербайджанцев с территории Армении. Изменилась лишь тактика агрессии: если Азербайджан требует те территории Армении, где преимущественно проживают азербайджанцы, то необходимо предпринять экстренные меры, с тем, чтобы там азербайджанцев не осталось или осталось как можно меньше.

Видимо, не без участия Микояна и Тевосяна Совет Министров СССР 23 декабря 1947 г. за подписью И. Сталина принимает постановление "О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР".

Этот вопиющий документ начинается без дежурной преамбулы, излишних формальных обоснований мотивов преступной акции: "Совет Министров СССР постановляет: Переселить в 1948-1950 гг. на добровольных началах в Кура-Араксинскую низменность Азербайджанской ССР 100 тысяч колхозников и др. азербайджанское население из Армянской ССР, из них 10 тыс. человек в 1948 году, 40 тыс. человек в 1949 году и 50 тыс. человек в 1950 году".

Весьма примечательно, что действие постановления ЦИК и Совнаркома СССР от 17 ноября 1937 г. № 115-204 "О льготах по сельскохозяйственному переселению", относящегося к населению, выселенному в Сибирь, Казахстан, было распространено и на колхозников, переселявшихся в районы Кура-Араксинской низменности Азербайджанской ССР.



Что касается постановления 1947 г., то только в последнем, 11 пункте раскрывалась его истинная цель: "Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Кура-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР". Невероятное, чудовищное решение! Но оно в стиле прочих регрессивных мер, обрушившихся на многие народы, впавшие в опалу "вождей".

После этого не остается никаких сомнений - А. Микоян сумел-таки убедить "отца народов" в том, что для размещения прибывающих из-за границы армян необходимо переселить азербайджанцев из Армении.

Решения принимались в столь недопустимой спешке, что 10 марта 1948 г. Совет Министров СССР за подписью И. Сталина вынужден был принять дополнительное постановление за № 754 "О мероприятиях по переселению колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР".

Здесь уже определялись конкретные меры, связанные с переселением, создано переселенческое управление при Совете Министров Азербайджанской ССР, организован на базе конторы "Азпереселенстрой" трест "Азпереселенстрой" со строительно-монтажными конторами в Сальяны, Али-Байрамлы, Сабирабаде и Пушкине. Ради достижения неблаговидных целей пошли даже на то, что разрешили Совету Министров Азербайджанской ССР организовать представительство в Армянской ССР (г. Ереван)...

Годы были тяжелые, послевоенные, и естественно, что в Кура-Араксинской низменности в 1948 г. не смогли подготовить достаточного количества земельных площадей. Поэтому Совет Министров Азербайджанской ССР письмен-

но обратился в Совет Министров СССР с просьбой разрешить разместить часть намеченного к переселению в том году азербайджанского населения в других районах республики. Однако согласия на это не дали. И Совет Министров СССР и состоявшее при нем Главное переселенческое управление потребовали размещать выдворяемое из Армении азербайджанское население исключительно на официально установленной территории. И все же, несмотря на жесткие требования союзных органов, Азербайджан практически не имел возможности в течение трех лет принять и разместить 100 тысяч своих сынов и дочерей. В письме от 21 сентября 1949 г. на имя зам. председателя Совета Министров СССР Г. Маленкова председатель Совета Министров республики отмечал:

"Для того, чтобы создать необходимые условия для переселения в течение двух лет 90 тысяч человек (21 тыс. хозяйств), надо в этот же срок построить около 20 тысяч жилых домов, усадеб (стоимостью свыше 400 млн. руб.), помимо крупных затрат на строительство производственных помещений, школ, больниц и организацию водоснабжения. Выполнить такой большой объем строительства в течение двух лет организации республики, занимающиеся переселением, не в состоянии".

Учитывая вышеизложенное, Совмин республики просил пересмотреть ранее установленный план на 1949 и 1950 гг. и разрешить переселение в 1949 г. 10 тыс. человек и в 1950 г. - 15 тыс. человек. В декабре 1949 г. Председатель республиканского Совмина вновь обратился в Совет Министров СССР, но уже с просьбой продлить срок переселения до 1954 г. и установить следующий график переселения азербайджанского населения: 1951 г. - 10 тыс. чел., 1952 г. - 20 тыс. чел., 1953 г. - 20 тыс. чел. и 1954 г. - 15 тыс. чел. Лишь смерть Сталина прервала осуществление бесчеловечного плана депортации азербайджанского



населения из Армении в Кура-Араксинскую низменность Азербайджана.

Интересно, что точных данных о числе депортированных в те годы из Армении нет. Однако в архиве сохранилась справка Минсельхоза республики - весьма любопытный документ, направленный 16 октября 1954 г. в адрес Совета Министров и ЦК КП Азербайджана, в котором засвидетельствовано, что "за время 1948-1953 гг. в районы Кура-Араксинской низменности республики осуществлено переселение из Армянской ССР 11.914 хозяйств, или 53 тыс. человек колхозников и другого населения".

Разумеется, это отнюдь не точная численность переселенного из Армении азербайджанского населения. Важно, что архив располагает многочисленными документами, подтверждающими это. Взять хотя бы сведения о том, что уже в первый год депортации из десяти с половиной тысяч человек около 6 тысяч размещалось в других районах республики.

Какие страшные человеческие драмы, катастрофы судеб стоят за сухими строками многочисленных документов, повествующих о фактах самовольного переселения азербайджанских семей из ставшей им чужой, враждебной Армении! В этом ряду - информация председателя Вединского райисполкома А. Мамедова о самовольном переселении в 1948-1949 гг. только из Вединского района в Азербайджан 700 хозяйств. По сведениям начальника переселенческого управления при Совете Министров республики, в 1949 г. из Армянской ССР самовольно переселились в горные районы Азербайджанской ССР 856 хозяйств, насчитывавших более 4 тыс. человек. В 1950 г. в Шамхорском районе разместилось 215 самовольно прибывших хозяйств, или более 1 тыс. человек. Нахичеванский обком партии в своем письме от 27 апреля 1949 г. просил разрешения разместить на территории Нах.АССР 300 хозяйств, прибывших из Вединского района Армянской ССР.



10.-3510

С разрешения Совмина республики в 1948 г. 100 хозяйств из Басаркечарского района соседней республики переселилось в Ханларский район Азербайджанской ССР. В одной из справок, составленной работниками того же переселенческого управления, содержится информация о том, что в 1948-1951 гг. более 1 тыс. хозяйств, самовольно, неорганизованно оставив общественное имущество и покинув колхозы Армянской ССР, приехали в отдельные районы Азербайджанской ССР.

Все эти данные неопровержимо подтверждают, что в течение 1948-1953 гг. не менее 100 тысяч азербайджанцев были переселены или вынуждены были самовольно переселиться на территорию Азербайджана. Так была проведена арменизация азербайджанских земель, на которых по воле большевиков была искусственно создана Армения.

Документы содержат много фактов глумления руководства Армянской республики над азербайджанским населением. Вот один из них: зам. министра сельского хозяйства Азербайджанской ССР М.М.Поладов после поездки в Армянскую ССР в своей справке на имя председателя Совмина С. Г. Рагимова и секретаря ЦК КП Азербайджана И. Д. Мустафаева от 15 апреля 1954 г. посчитал необходимым довести до их сведения факт незаконного выселения группы азербайджанских колхозников:

"В 1949 году по указанию бывшего председателя Совета Министров Армянской ССР Карапетяна был ликвидирован колхоз в селении Ламбелю Алавердинского района и в принудительном порядке выселены на территорию Грузинской ССР 225 хозяйств колхозников-азербайджанцев. Это было сделано якобы с целью организации совхоза субтропических культур на земле этого колхоза. Для того, чтобы добиться разрешения союзного правительства о ликвидации этого колхоза, были составлены фиктивные документы о самовольном уходе большинства колхозников из этого колхоза в Азербайджанскую ССР".



Спустя несколько дней, как далее сообщается в той же справке, по настоянию местных органов власти Грузинской ССР этих колхозников вынудили покинуть территорию Грузии. После чего, опять по указанию Карапетяна, колхозники были переселены в Басаркечарский район Армянской ССР. Однако через 3 месяца они вынуждены были вернуться, обратно поселиться в наспех сооруженных землянках на границе между Грузией и Арменией. Директор вновь созданного совхоза занял дома этих колхозников, разрушил старое кладбище, использовав надгробия на постройку домов, и полностью освоил земли колхоза под посадку субтропических культур.

Нельзя не отметить разницу: когда из Армянской ССР вытесняли азербайджанцев, то их вынуждали покидать веками обжитые места, их унижали, оскорбляли; в Азербайджане же для расцвета армянской нации были созданы все условия. В течение десятилетий буквально на всех государственных должностях в республике пребывали лица армянской национальности. Их можно было видеть среди секретарей ЦК коммунистической партии, заместителей председателей Верховного Совета, Совнаркома (Совета Министров), министров и их заместителей, на ряде других ключевых государственных должностей в республике, где подавляющее большинство населения составляли азербайджанцы. Это позволило Мариэтте Шагинян заявить, что "армяне в Азербайджане катались как сыр в масле"... А азербайджанцы все это время откатывались все дальше от границ, своих исконных территорий в глубь безводных степей и горных пустошей Азербайджана, в трущобы его столицы.

**газета "Бакинский рабочий",**
**6,7 февраля 1992 года, № 26,27**

## TARİXİ HƏQİQƏTLƏR VƏ ERMƏNİ UYDURMALARI

Hələ XVII əsrdən başlayaraq ermənilər xristian dini etiqadlarından istifadə edərək Avropa dövlətlərinin üzünü Şərqə çevirməyə çalışmış, onların köməyindən istifadə edərək müstəqil "Böyük Ermənistan" yaratmaq xülyasını reallaşdırmaq fikrinə düşmüşlər.

Bu işdə ermənilərə daha çox "canıyananlıq edənlər" əvvəlcə Roma papası, sonralar isə Çar Rusiyası olmuşdur. Bu da təbii idi, çünki Roma papası üçün xristianlığı Şərqə doğru genişləndirmək, I Pyotrun Cənub dənizlərinə doğru işğalçılıq planlarını həyata keçirən Rusiya üçün isə Qara dəniz və onun boğazlarını və Xəzər ətraflarına tutmaq başlıca məqsəd idi. Bu işdə onlar həmişə xristian erməni kartından məharətlə istifadə etməyə çalışmışlar. XVIII-XIX əsrlərdə Yaxın Şərq, ilk növbədə isə İran və Osmanlı İmperiyası əraziləri İngiltərə və Çar Rusiyası kimi müstəmləkəçi dövlətlərin başlıca hədəf nöqtəsi və mübarizə meydanına çevrilir. Bu yerlərə müdaxilə üçün ermənilərə kömək onların əlində başlıca bəhanələrdən biri idi.

XVIII əsrdə Zaqafqaziyanı ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan Rus çarizmi artıq XIX əsrin birinci yarısında öz istəklərinə tamamilə nail ola bildi. 1812-ci ildə başlanmış Rusiya-İran müharibəsi 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində bağlanmış sülh müqaviləsi ilə başa çatdı. Bu müqaviləyə görə Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyası tərkibinə qatıldı. Beləliklə, vahid Azərbaycan iki yerə parçalandı. Lakin İrəvan və Naxçıvan xanlıqları hələlik İranın hakimiyyəti altında qalır.

İran isə heç cür bu məğlubiyyətlə razılaşmaq istəmir. Rusiya isə bütün Qafqaza sahib olmaq istəyirdi. Ona görə də



1826-cı il iyulun 16-da 60 minlik İran qoşunu Azərbaycanın Rusiya tərəfindən tutulmuş Şimal torpaqlarına soxulur. Lakin İran orduları elə bir əsaslı müvəffəqiyyət əldə edə bilmir. Əks hücuma keçən Qafqazdakı Rus ordusu İran qoşunlarını ağır məğlubiyyətə uğradır, İrəvan və Naxçıvan xanlıqlarının ərazisini də işğal edərək, 1827-ci ilin axırlarında Azərbaycanın cənub torpaqlarına soxularaq Təbriz, Urmiya və Ərdəbili də işğal edirlər. Vəziyyətin ağırlığını hiss edən İran 1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə ağır şərtlərlə sülh müqaviləsi imzalamağa məcbur oldu. Müqaviləyə görə çar Rusiyasının qoşunları Azərbaycanın cənub torpaqlarından çıxarılır. Yenicə işğal olunmuş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibinə qatılır. Bu müqavilədə məğlub olmuş İran üçün bir sıra təhqiramiz maddələr də var idi ki, onlardan biri də İranın Rusiyaya 20 milyon manat təzminat verməsi, təzminat ödənilib qurtarana qədər isə zəbt olunmuş bir sıra Azərbaycan əyalətlərinin girov kimi Rusiyanın himayəsində qalmalı idi.

Burada faktiki məlumatlardan istifadə edərək rus istilasına qədər və rus istilasından sonra keçmiş Azərbaycan xanlıqları olan İrəvan və Naxçıvanda erməni mənşəli əhalinin demoqrafik vəziyyətində baş vermiş dəyişiklikləri göstərməyi çalışacağıq. Faktları saxtalaşdırmaq və təhrif etməkdə dünyada analoqları olmayan erməni tarixçilərinin yazdıqları və dediklərinin, yəni az qala bütün Qafqazı öz adlarına çıxmalarının tarixi əsası varmı? Həqiqətən də bu ərazilər əzəli erməni torpaqlarıdırmı? Buna faktlar daha dəqiq cavab verir.

Yeri gəlmişkən qeyd edək ki, Rus ordusunun Qafqaza və İrana hücumunda erməni millətindən olan generallar və zabitlər fəal iştirak edirdilər. Onlar A.P.Yermolev və İ.F.Paskeviç kimi qəti şovinist rus hakimlərinin qılığına girərək onların etimadını qazanır, bundan isə ermənilərin xeyrinə çox məharətlə istifadə edirdilər. Erməni millətindən olan general və zabitlər V.Madatov, Q.Lazarev, İ.Korqanov,

V.Bebudov, A.Arqutinski və başqaları bu işdə xüsusilə iyrənc rol oynamışdılar.

Onların arasında Rus ordusunun Qafqazdakı baş komandanı general felimarşal qraf İ.Paskeviç-İrəvanskinin sevimlisi polkovnik Q.Lazarevi xüsusilə qeyd etmək lazımdır. O, 1826-1828-ci illərdə Rusiya-İran müharibəsi zamanı ermənilərin İrandan Zaqafqaziyaya köçürülməsində xüsusi canfəşanlıq göstərmişdi. Şəxsən İ.Paskeviçin təşəbbüsü ilə 1827-ci ilin mayında ermənilər arasında Rusiyanın siyasi təsirini gücləndirmək bəhanəsi ilə özünün sədaqətli xidmətləri ilə Rusiya "hökumətinin etibarını qazanmış və bununla bərabər erməni xalqı arasında böyük nüfuz sahibi olan" polkovnik Q.Lazarev S.Peterburqdan Qafqaza çağırılır. 1831-ci ildə buraxılmış S.Qlinkonun "Azərbaycan ermənilərinin Rusiya ərazisinə köçürülməsinin təsviri" kitabında (yeri gəlmişkən qeyd edək ki, Q.Lazarevin rolu və fəaliyyətinin olduqca şişirdildiyi bu kitab Moskvada Şərq dilləri institutunun Lazarevlərə məxsus mətbəəsində çap olunmuşdu - A.P.), göstərilir ki, qısa müddətdə Q.Lazarev İ.Paskeviçin və hökumətin etimadını doğruldur. 1827-ci ilin oktyabrında qalib ordunun komandanı kimi Təbrizə daxil olan İ.Paskeviç qısa müddətdə Təbriz və onun ətrafındakı əyalətlərdə erməni millətindən olan əhalinin Rusiya tərəfinə cəlb olunmasında Q.Lazarevin fəal rolunu nəzərə alaraq onun yorulmaq bilməyən və Rusiya üçün xeyirli fəaliyyət dairəsini daha da genişləndirmək məqsədilə onu Təbrizin komendantı təyin edir. Q.Lazarevin Təbrizin komendantı təyin olunması haqqında xəbər yayılan kimi Azərbaycan vilayətinin bütün xanlıqlarından ermənilər Təbrizə axışmağa başlayırlar. Onlar Q.Lazarevdən xahiş edirlər, Rusiya İmperatoruna çatdırsın ki, ermənilər "O əlahəzrətin səltənətində yaşamağa və ölməyə şad olardılar!" Xoy erməniləri isə bildirirlər ki, "Biz İranın çörəyini yeməkdənsə, Rusiyanın ot-ələfini yeməyə hazırıq!" .



Türkmənçay müqaviləsinin on dördüncü maddəsinə müvafiq olaraq xristianlar adı altında Cənubi Azərbaycan ərazisində yaşayan ermənilərin Zaqafqaziyaya köçürülməsi işinə rəhbərlik üçün xüsusi komitə yaradılır. Ona rəhbərlik işi isə Q.Lazarevə tapşırılır. İ.Paskeviçin 1828-ci il fevralın 26-da polkovnik Q.Lazarevin adına göndərdiyi erməniləri Cənubi Azərbaycandan Rusiyanın yeni tutduğu ərazilərə köçürmək üçün 19 maddədən ibarət təlimatında göstərilirdi ki, rus ordusu Təbrizi tutan kimi onun yanına gələn ermənilər Rusiya vilayətlərinə köçməyə icazə istəmişlər. Lakin Azərbaycanın həmişəlik Rusiyanın hakimiyyəti altında qalacağına ümid edən ermənilər köçməyə tələsmirdilər. Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra isə Rus ordusu tezliklə Arazdan cənubda tutduqları torpaqları tərk etməli idi. Yalnız İran müqavilədə göstərilən təzminatı tam şəkildə ödəyə bilmədiyi üçün Urmiya, Xoy və Maku əyalətləri müvəqqəti təzminat ödənilənə qədər girov kimi Rusiyanın əlində qalacaq. İ.Paskeviç Q.Lazarevə göstəriş verirdi ki, vaxtdan istifadə edərək həmin ərazilərdəki ermənilər arasında Rusiyaya köçmək barədə geniş təbliğat işi aparsınlar. Bu təlimatda o, erməniləri İrəvan, Naxçıvan və Qarabağa köçürməyi tövsiyə edirdi.

Bununla əlaqədar həmin il martın 30-da Q.Lazarev ermənilərə rus və erməni dillərində xüsusi müraciət də qəbul edir. Həmin müraciətdə ermənilərin İrəvan, Naxçıvan və Qarabağ torpaqlarında istədikləri yerə köçmələrinə icazə verildiyi və onlar üçün gəldikləri yerdə hər cür şərait yaradılacağı, köçərkən isə onlara hərtərəfli köməkliklər göstəriləcəyini elan edir.

1929-cu il dekabrın 24-də İ.Paskeviçə ətraflı hesabat təqdim edən Q.Lazarev üç ay yarım ərzində 8000-dən yuxarı erməni ailəsinin (40 min nəfərin) Arazı keçərək Rusiyanın yeni tutduğu torpaqlarda - İrəvan, Naxçıvan və Qarabağda məskunlaşdırıldığını bildirir.

Rusiya-İran müharibəsini qələbə ilə başa çatdıran və öz istədiklərinə nail olan Rus çarizmi özünün təcavüzkarlıq planlarını indi də Türkiyəyə qarşı yönəldir. Türkiyə ilə müharibə aparan rus ordusuna yenə də İ.Paskeviç komandanlıq edirdi. Türkiyə ilə müharibədə də ruslar ermənilərdən məharətlə istifadə edirlər. Ermənilər Türkiyə torpaqlarına soxulan rus ordusuna yollar göstərir, onları ərzaqla, qoşqu vasitələri ilə təmin edirdilər. Şərqi Anadoluda İ.Paskeviç orduları ermənilərin təhriki ilə dinc müsəlman əhalisinə qarşı eşidilməmiş amansızlıqlar törətmişdir. Məsələn, Axıskanı tutmağın qeyri mümkün olduğunu görən İ.Paskeviç hər tərəfdən ona od vurdurur. Dörd min nəfərdən çox mülki əhali yandıqdan sonra Axıskaya girən rus qoşunu yaşından asılı olmayaraq bütün müsəlman əhalisini qılıncdan keçirir və Axıska nahiyəsinin idarəsini V.Behbudov adlı bir erməniyə tapşırır. İrəli hərəkət edərək Ərdahan, Bayazid və Ərzurumu tutan İ.Paskeviç idarə üçün ermənilərdən ibarət bir bələdiyyə idarəsi də yaradır. Əlinə fürsət düşmüş ermənilər türk ordularının bir daha Ərzuruma qayıtmayacağına ümid edərək buradakı türklərə qarşı eşidilməmiş vəhşiliklər törədirlər. 1829-cu ildə Ədirnədə Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi imzalanır. Bu müqaviləyə görə ruslar Ərzurumu boşaltmalı olurlar. Bu erməniləri matəmə qərq edir. Türklərə qarşı törətdikləri cinayətdən qorxaraq 14 mindən yuxarı erməni ailəsi (84600 nəfər) Türkiyə torpaqlarını tərk edən rus ordusunun köməyi ilə təcili olaraq Rusiya ərazisinə köçürlər.

Rusiyanın hakimiyyəti altına keçdikdən sonra ətrafında toplanmış ermənilərin arzusunu yerinə yetirən İ.Paskeviçin təşəbbüsü ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində Erməni vilayəti yaradılması haqqında Rusiya İmperatoru I Nikolay fərman verir. 1829-cu ilin aprelindən 1832-ci ilin mayına qədər Erməni vilayətinin kameral siyahıya alınması işi aparılır. İ.Paskeviçin göstərişi ilə bu iş mülki



müşavir İ.Şopenə həvalə olunur. O, topladığı materiallar əsasında özünün "Rusiya imperiyasına birləşdirilən dövrdə Erməni vilayətinin vəziyyəti" adlı iri həcmli əsərini yazaraq 1852-ci ildə S.Peterburqda İmperiya Elmlər Akademiyasının mətbəəsində çap etdirir. Həmin əsər Akademiyanın Demidov mükafatına da layiq görülmüşdür. Bu kitab sırf erməni mənbələrinin təsiri altında yazılmış bir əsər idi. Onun "Qədim Ermənistana bir nəzər" adlı bölməsində müəllif qədim Ermənistanın tarixi coğrafiyası və dili haqqında verdiyi məlumatlarda bildirirdi ki, onun qədim Ermənistan haqda verdiyi məlumatlar sırf erməni mənbələrinə əsaslanır. O, etiraf edirdi ki, yaxşı başa düşürdüm və başa düşürəm ki, bu cür əsərləri daha dəqiq məlumatlar əsasında yazmaq və təkmilləşdirmək üçün erməni, gürcü, ərəb, fars, yunan salnamə və ədəbiyyatlarına dərindən baş vurmaq, tədqiqatlar aparmaq lazımdır. Bunun üçün isə insan gərək bütün həyatını həmin işə həsr etsin. Buna isə mənim imkanım olmamışdır. O, yer adlarını olduğu kimi verməyə çalışdığını göstərir. Bu adların əksəriyyəti isə Azərbaycan adlarıdır. İ.Şopenin bu torpaqları qədim erməni torpaqları kimi qələmə vermək üçün bütün ciddi cəhdlərinə baxmayaraq onun topladığı materiallar, verdiyi məlumatlar rus istilasına qədər bu ərazilərin Azərbaycan torpaqları olduğunu bir daha sübut edir.

Keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış Erməni vilayəti İrəvan və Naxçıvan əyalətləri və Ordubad dairəsinə bölünürdü. Bu ərazilərdə Rusiyaya birləşdirilən zaman üç şəhər (İrəvan, Naxçıvan və Ordubad) və 1111 kənd mövcud olmuşdur ki, onlardan da həmin dövrdə yalnız 752-si əhali ilə məskunlaşdırılmışdır. Məskunlaşdırılmış kəndlərdən 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si isə Ordubad dairəsində idi. Viran qalmış 359 kənddən 310-u İrəvan əyalətində, 43-ü Naxçıvan əyalətində, 6-sı isə Ordubad dairəsində idi. Dağılmış kəndlərin bu kitabda siyahısı da verilmişdir. Demək olar ki,

onların hamısı azərbaycanlı adları idi. Onların əksəriyyəti Rusiya ilə İran arasında gedən müharibə zamanı hərbi əməliyyatlar nəticəsində dağıdılmış, əhalisi isə İrana, Türkiyəyə köçmüş və ya döyüş xəttindən aralı kəndlərə qaçmışlar. Bunu kitab müəllifinin özü də etiraf edirdi ki, yəqin siyahıya almadan sonrakı keçən müddətdə həmin kəndlərin çoxu artıq bərpa olunmuşdur.

Bu kitabda İ.Şopen Erməni vilayətinin erməni əhalisini iki qismə - köçürülməyə qədər orada yaşayanlar və ruslar tərəfindən buraya köçürülənlərə bölürdü. O, qeyd edirdi ki, bütün Erməni vilayətində köçürülməyə qədər cəmi 4428 erməni ailəsi (25.151 nəfər) olmuşdur ki, onlardan da 3.498 ailə (20.073 nəfər) İrəvan əyalətində, 530 ailə (2.690 nəfər) Naxçıvan əyalətində, 400 ailə (2.388 nəfər) isə Ordubad dairəsində yaşamışdır.

1828-1829-cu illərdə İrandan Erməni vilayətinə 6.946 erməni ailəsi (35.560 nəfər), 1830-cu ilə qədər isə Türkiyədən 3.682 erməni ailə (21.666 nəfər), cəmi isə İran və Türkiyədən 3 il ərzində 10.628 erməni ailəsi (57.226 nəfər) Rusların yaratdığı Erməni vilayətinə köçürülmüşdür. Nəticədə artıq 1830-cu ildə bu vilayətdə erməni ailələrinin sayı 15.059-a (82.377 nəfər) çatır.

İ.Şopenin məlumatına görə 1928-ci ilə qədər İrəvan və Naxçıvan xanlıqlarının ərazilərindəki şəhərlərdə 4.280 ailə olmuşdur ki, onlardan da 2.400 ailə İrəvanda, 1100 ailə Naxçıvanda, 780 ailə isə Ordubadda idi. Bu xanlıqların ərazisində olan kəndli ailələrinin sayı isə cəmi 15.850 idi. Onlardan da 11.000 kəndli ailəsi İrəvan xanlığı ərazisində, 4.850 kəndli ailəsi isə Naxçıvan xanlığı və Ordubad ərazisində olmuşdur. İ.Şopen sübut etməyə çalışırdı ki,guya müharibə nəticəsində çoxlu müsəlmanın məhv olması və xaricə qaçmasına baxmayaraq, bu ərazilərdəki köklü əhalinin sayı əhəmiyyətli dərəcədə azalmamışdır. Yalnız köçəri müsəlman tayfalardan ibarət olan ailələrin sayı Rusiya İmperiyasına



məxsus olan ərazidə kəskin surətdə azalaraq istilaya qədərki 2.984 ailədən müharibədən sonra yalnız 847 ailə qalmışdır. Yəni 2.137 ailə Rusiya tərəfindən tutulan torpaqları tərk etmişdir. Onun hesablamalarına görə Rusiyaya birləşdirilənə qədər bu ərazidə cəmi 23.730 ailə olmuşdur ki, onlardan da 17 mini İrəvan xanlığı ərazisində, 4.600-ü Naxçıvan xanlığı ərazisində, 2.130-u isə Ordubad dairəsində olmuşdur. Ümumi əhalinin sayı isə hər ailədə 5 nəfər hesabı ilə 118.650 nəfər olmalı idi.

Əlbəttə, burada bizim üçün daha çox maraq doğuran fakt 1829-1832-ci illərə aid Kameral siyahıyaalma zamanı bu ərazidə olmuş yerli əhali və buraya köçürülən ermənilərin sayı məsələsidir. Burada verilən rəqəmlər erməni uydurmalarını ifşa edən və tarixi həqiqətləri bir daha aşkarlayan danılmaz faktlardı. Bu rəqəmlər əyani şəkildə sübut edir ki, torpaqların həqiqi sahibləri kimdir. Ruslar tərəfindən bu torpaqlara köçürülən ermənilər, yoxsa əsrlərlə bu torpaqlarda yaşayan Azərbaycan türkləri.

Yuxarıda qeyd etdiyimiz kimi Rusiya inzibati idarə orqanları keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaratdıqları Erməni vilayətini iki əyalətə - İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölmüşdülər. Müstəqil inzibati qurum kimi götürülən üç şəhərdən (İrəvan, Naxçıvan və Ordubad) başqa bu əyalətlərdəki bütün kəndlər mahallara bölünürdü. İrəvan əyaləti 15 mahala, Naxçıvan əyaləti və Ordubad dairəsi isə hərəsi 5 mahala ayrılırdı.

1829-cu ildə siyahıya alma zamanı İrəvan şəhərində 1.807 azərbaycanlı ailəsi (7.331 nəfər), 944 erməni ailəsi (4.132 nəfər) olmuşdur ki, onlardan da 567 ailə (2.369 nəfər) yerli ermənilər, 377 ailə (1.763 nəfər) isə İran və Türkiyədən köçürülən ermənilər idi.

Bu gün bir nəfər də olsun azərbaycanlı qalmayan keçmiş İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətindəki əhalinin 1829-1832-ci illərdə kameral siyahıya alınması

məlumatına əsasən yerli əhali arasında azərbaycanlı ailələrinin sayı 9.196 (49.875 nəfər), erməni ailələrinin sayı isə 3.498(20.073 nəfər) olmuşdur. 1828-1829-cu illərdə isə bu əraziyə İrandan 4.559 ailə (23.563 nəfər), Türkiyədən isə 3.674 ailə (21.639 nəfər) köçürülmüşdür. Təkcə bu iki il ərzində İran və Türkiyədən yalnız İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətinə 8.233 erməni ailəsi (45.202 nəfər) köçürülmüşdür.

İrəvan əyalətinə daxil olan mahallar və onların kəndlərindəki əhalinin məskunlaşmasını əks etdirən siyahıda əsas diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, bu əyalətə daxil olan mahalların əksəriyyətində olan ərazilər Rusiya imperiyası tərəfindən zəbt edilənə qədər burada erməni əhalisi olmamış, bu yerlərə ermənilər yalnız 1828-1830-cu illərdə İran və Türkiyədən gətirilmişlər. Faktlara müraciət edək. Şərur mahalının 50 kəndində və Saatlı mahalının 9 kəndində bir nəfər də olsun erməni olmamışdır. Parçanis - Dərəkənd mahalının 54 kəndindən yalnız birində - Əkərək kəndində bir erməni ailəsi, Seyidli və Axsaxlı mahalının 20 kəndindən yalnız Göytül kəndində 6 erməni ailəsi, Dərçiçək mahalının 37 kəndindən yalnız 4-də 92 erməni ailəsi, Göyçə mahalının 59 kəndindən yalnız ikisində 15 erməni ailəsi yaşamışdı.

Ermənilərin nisbətən çoxluq təşkil etdikləri 4 mahalda - Qırxbulaq, Karpi-bazar, Sərdarabad və Sürməlikdə isə əhalinin yarısı və ya yarıdan çoxu yenə də azərbaycanlılar olmuşdur. Burada verilən məlumata görə Abaran mahalındakı 39 kənd tamamilə xaraba qalmış, yalnız İran və Türkiyədən köçürülmüş ermənilərlə məskunlaşdırılmışdır. Görünür ki, Rusiya ilə İran arasında hərbi əməliyyatlar meydanına çevrilən bu ərazilərdəki kəndlərin əhalisi o yerlərdən qaçıb dağılmış, kəndlər isə boş qalmışdır. Maraqlıdır ki, bu yerlərdə ermənilər məskunlaşdırıldıqdan sonra da kəndlərin çoxunun adı yenə də azərbaycanlı adları olaraq qalırdı. Məsələn, Molla Qasım, Hacı Bağır, Sarı bulaq, Gülabad, Damcılı, Camışlı, Quruboğaz və s.



Ümumiyyətlə isə bu dövrdə Erməni vilayətində 31.201 ailə (164.450 nəfər) var idi ki, onlardan da 16.078 azərbaycanlı ailəsi (81.749 nəfər) və 15.059 erməni ailəsi (82.377 nəfər) idi ki, onlardan da yuxarıda göstərildiyi kimi yalnız 4.428 ailə (25.154 nəfər) Rusiyanın bu əraziləri istilasına qədər orada məskunlaşmış ermənilər idi.

Rusiyanın Zaqafqaziyadakı müstəmləkəçilik siyasətinin əsas məqsədləri ilə bağlı məsələlər rus tədqiqatçısı N.Şavrovun "Zaqafqaziyada Rus işinin yeni təhlükəsi" (S.Peterburq, 1911) kitabında özünün geniş əksini tapmışdır. O, yazırdı: "Biz Zaqafqaziyada müstəmləkəçilik fəaliyyətimizi oraya rusları köçürməklə deyil, başqa dildən olanları köçürməklə başladıq... 1826-1828-ci illərdə iki il davam etmiş müharibə qurtardıqdan sonra 1828-ci ildən 1830-cu ilə kimi Zaqafqaziyaya İrandan 40 mindən yuxarı, Türkiyədən isə 84.600 nəfər erməni köçürdük və onları Yelizavetpol və İrəvan quberniyalarının erməni əhalisinin çox cüzi olduğu ən yaxşı dövlət torpaqlarında yerləşdirdik". N.Şavrov qeyd edirdi ki, bu ərazilərdə erməniləri yerləşdirmək üçün 200 min desyatindən çox hökumət torpaqları ayrılmış, habelə əlavə olaraq müsəlmanlardan 2 milyon manatlıqdan yuxarı xüsusi mülkədar torpaqları da pulla alınaraq ermənilərə paylanmışdır. 200 min desyatin hökumət torpaqları isə əslində keçmiş İrəvan, Qarabağ və Naxçıvan xanlarına və onların ailələrinə məxsus olmuş və çar hakimiyyət orqanları tərəfindən müsadirə edilmiş ən yaxşı torpaqlar idi. Daha doğrusu xanlar və onların ailələrinin ən səfalı yaylaqları və yurd yerləri idi. Ona görədir ki, sonralar İrəvan mahalının, Qarabağın, Göyçənin ən səfalı yaylalarındakı yaşayış yerlərinin əksəriyyəti ermənilərə məxsus idi. Rus istilası nəticəsində buraya köçürülərək məskunlaşdırılmış bu gəlmələr, bu gün özlərini həmin torpaqların həqiqi sahibləri hesab edirlər.

Bu, ermənilərin Zaqafqaziyaya ilk axını idi. Bu axın sonralar bir əsrə yaxın müddətdə ardıcıl olaraq davam etmişdir.

N.Şavrovun verdiyi məlumatda deyilirdi ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənin bir milyonundan çoxu yerli əhali olmayıb. Onlar Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlər idi.

Rusiya imperiyasında buraxılmış statistik məlumatlar, xüsusilə yarım əsrdən yuxarı bir müddət ərzində nəşr olunan "Kavkazski kalendar" məlumat kitablarında, 1897-ci ildə Rusiya imperiyasında əhalinin birinci ümumrusiya siyahıya alınmasının nəticələrinə dair nəşrlərdə - Ermənistan Respublikasının indiki ərazisində azərbaycanlıların Rusiyanın köçürmə siyasətindən sonra da əhalinin əsas hissəsini təşkil etdiyini göstərir.

Belə ki, 1886-cı ildə Yelizavetpol quberniyası Zəngəzur qəzasındakı 326 kənddən 149-u azərbaycanlı (45,7 faiz), 91-i kürd (27,9 faiz) və yalnız 81-i erməni (24,8 faiz) kəndi idi.

1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi ermənilərdən 1500 nəfər çox idi. İrəvan quberniyasında 1891-ci ildə 661,6 min nəfər əhalidən 270,4 min nəfəri (41 faiz) azərbaycanlılar idi. 1893-cü ildə bu rəqəm 276 minə, 1897-ci ildə isə 313 minə çatmışdır. 1897-ci ildə Zəngəzur qəzasında əhalinin sayı 142 min nəfər olmuşdur ki, onlardan da 71,2 min nəfəri (50,1 faiz) azərbaycanlı, 63,6 min nəfəri (44,8 faiz) isə erməni idi.

İndi Ermənistanın paytaxtı olan İrəvan şəhəri və İrəvan qəzasında da o dövrdəki əhalinin etnik tərkibi xüsusilə diqqəti cəlb edir. Belə ki, 1896-cı ildə İrəvan şəhərindəki 14,7 min nəfər əhalidən 7,2 min nəfəri (49 faiz) azərbaycanlılar, 7,1 min nəfəri (48 faiz) isə ermənilər idi. İrəvan qəzasındakı 99 min nəfər əhalidən 52,8 min nəfəri (53,5 faiz) azərbaycanlılar, 36,4 min nəfəri (46,4 faiz) ermənilər idi.

1916-cı ilin yanvarın 1-nə olan məlumata görə isə həmin regionun azərbaycanlı və erməni əhalisinin miqdarı arasındakı nisbət Birinci Dünya müharibəsində Qafqaz cəbhəsinin bu ərazidən keçməsinin təsiri ilə müəyyən qədər dəyişmişdir.



Buna baxmayaraq yenə də bu ərazidə azərbaycanlılar əhalinin əsas hissəsini təşkil edirdi. Azərbaycanlılar İrəvan qəzasında 74,2 min nəfər (48 faiz), Zəngəzur qəzasında 119,5 min nəfər (53,3 faiz), Sürməlik qəzasında 45,9 min nəfər (31,2 faiz), Eçmiadzin qəzasında 41,3 min nəfər (24,6 faiz) və Yeni Bayazid qəzasında isə 50,7 min nəfər (29,2 faiz) olmuşdur.

Beləliklə, yuxarıda göstərilən statistik məlumatlar əyani şəkildə sübut edir ki, hələ XIX əsrin axırları və XX əsrin əvvəllərində də indiki Ermənistan Respublikasının ərazisində yüz minlərlə azərbaycanlı hələ öz doğma yurdlarında yaşayır və əhalinin əksəriyyətini təşkil edirdi.

Bu ərazidəki azərbaycanlı əhalinin say tərkibinin azalmasında köklü dəyişikliklər 1918-1920-ci illərdən bədnam daşnak partiyasının yaratdığı Ararat Respublikası zamanından başlanmışdır. Həmin illərdə bu ərazilərdəki yüzlərlə azərbaycanlı kəndləri dağıdılıb viran qoyulmuş, azərbaycanlı əhali isə kütləvi surətdə məhv edilmiş və ya qovulmuşdur.

1920-ci ildə Ermənistanda Sovet hakimiyyətinin qələbəsindən sonra isə kommunist və bolşevik donuna girmiş erməni daşnaklarının əl-qolu daha da açılır. Nəticədə Sovet hakimiyyətinin 70 ili ərzində bu yerlərdə yaşayan azərbaycanlıların həmin ərazilərdən qovulması işi açıq və gizli şəkildə davam etdirilir və nəhayət M.Qorbaçovun bədnam "yenidənqurma" siyasətindən məharətlə istifadə edən ermənilər 1988-1989-cu illərdə bu ərazilərdəki son azərbaycanlını da öz ata-baba yurdundan zorla qovaraq, keçmiş Oğuz torpaqları hesabına xalis ermənilərdən ibarət Ermənistan Respublikası yaratmışlar. Bu "müvəffəqiyyətdən" rühlanan ermənilər öz işğalçılıq siyasətlərini davam etdirərək altı ildən yuxarı Azərbaycana qarşı apardıqları müharibə nəticəsində onun ərazisinin beşdəbir hissəsindən çoxunu işğal edə bilmişlər. Nəticədə Azərbaycan türklərinin torpaqlarına köçürülərək özlərinə məskən salmış ermənilər bu ərazilərin "Nuhun nəvələri olan hayklara mənsub olduğu" haqqındakı sərsəm xülyalarını bütün

dünyaya həqiqət kimi qələmə verməyə çalışaraq, bu yerlərdə möhkəmlənib "Böyük Ermənistan" yaratmaq xülyasını həqiqətə çevirmək istəyirlər. Bütün tarix boyu döyülməsinə baxmayaraq hələ də özləri üçün bir nəticə çıxarmayan ermənilərin başqalarının havadarlığı ilə əldə etdikləri müvəqqəti müvəffəqiyyətlərinə baxmayaraq axır nəticədə yenə də arzularının gözlərində qalacağına heç bir şübhəmiz yoxdur. Təcavüzkara qarşı tarixin hökmü həmişə amansız olmuşdur, yenə də belə olacağına əminik.

**"Yeni fikir" qəzeti,**
**19 noyabr 1995-ci il, № 9.**



# DEPORTASİYA

## *(1948-1953-cü illər)*

*"Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin sədri İ.Stalin tərəfindən imzalanmış 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli, 754 saylı qərarları xalqımıza qarşı Sovet hökumətinin qəbul etdiyi ən ədalətsiz qərarlardan biri idi. İ.Stalinin imzaladığı bu qərarlar bir ölkə daxilində iki xalqdan birinin xeyrinə başqasına qarşı tətbiq edilmiş əsl repressiya siyasəti idi.*

***Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənabları Azərbaycanın müstəqilliyi - Respublika günü münasibətilə söylədiyi nitqində demişdir: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-1948-ci illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik."***

*Prezidentimizin bu iradı çox yerində, ədalətli və haqlı iraddır. Ermənistandan azərbaycanlıların etnik təmizlənməsinə yönəldilmiş bu diskriminasiya siyasəti artıq çoxdan dünya xalqlarına çatdırılmalı və özünün siyasi qiymətini almalı idi. Təəssüflər olsun ki, belə olmadı.*

*Bu sətirlərin müəllifi hələ səksəninci illərin axırlarında Dağlıq Qarabağ hadisələri ilə bağlı məsələləri araşdırarkən sənədlərdə qırxıncı illərdə belə qərarların olduğuna arxivlərdəki yazışmalarda və digər sənədlərdə rast gəldi.*



11.-3510

*Dövri mətbuatda isə bu haqda heç bir məlumat yox idi. Ancaq arxivlərimizdə həmin qərarları tapa bilmədik. O vaxt Moskvada ezamiyyətdə olarkən keçmiş SSRİ Mərkəzi Dövlət Oktyabr İnqilabı və Sosializm Quruculuğu Arxivində tanışlıqla həmin qərarlarla tanış ola bildik. Ancaq surətini ala bilmədik. Orada bildirdilər ki, respublika Nazirlər Soveti həmin qərarları alıb,onlar sizin respublikada mütləq olacaq. Həqiqətən də Azərbaycan Respublikası Nazirlər Kabinetinin arxivindən həmin qərarları tapdıq və surətlərini aldıq. Bundan sonra arxivdə geniş araşdırma işi apararaq, bu məsələ ilə bağlı mükəmməl arayışlar hazırlayaraq həmin qərarların surətlərini də əlavə etməklə respublikanın yuxarı partiya və hökumət orqanlarına təqdim etdik. Təəssüflər olsun ki, gözləmə mövqeyi tutan o dövrkü respublika rəhbərləri buna heç bir əhəmiyyət vermədilər. Əslində bu sənədlər heç bir əsas olmadan Sovet hökumətinin azırbaycanlılara qarşı yeritdiyi ayrı-seçkilik və repressiya siyasətini ifşa etmək üçün əla faktlar idi. O vaxt mən indiki "Azərbaycan" qəzetinin baş redaktoru o, vədə "Respublika" qəzetinin redaktor müavini Əmir müəllimə müraciət edərək belə bir materialın olduğunu bildirdim. O, isə təkidlə mənə həmin materialları "Respublika" qəzetində dərc etmək üçün hazırlamağı məsləhət gördü. Sırf arxiv sənədləri əsasında hazırladığım həmin materiallar "Köçürmə" adı ilə "Respublika" qəzetində dərc olunmağa başladı. Qəzetin 1991-ci il aprelin 12, 13-də çıxan son 14 və 15-ci saylarında həmin materialın əvvəli dərc olundu. Təəssüflər olsun ki, o vaxt hakimiyyətdə olanlar tərəfindən bu cür kəskin materiallar dərc etdiyi üçün "Respublika" qəzeti bağlandı və həmin materialın dərci yarımçıq qaldı. Ancaq dünya xali deyilmiş "Vətən səsi" qəzetinin redaktoru (bu gün "Respublika" qəzetinin redaktoru) Teymur müəllim həmin materialları tam şəkildə "Vətən səsi"ndə yenidən dərc etməyə söz verdi. Həqiqətən də həmin qəzetin 1991-ci il 8, 17, 22 və 28 may tarixli 19, 20, 21 və 22-ci saylarında göstərilən material*



*tam şəkildə dərc edildi. 1992-ci il fevral ayının 6-7-də "Bakinski raboçi" qəzetinin 26 və 27-ci saylarında dərc olunmuş "Bu nə idi: soyqırımı, yoxsa deportasiya?" başlıqlı məqalədə də bu məsələdən geniş bəhs etmişdik.*

*Azərbaycan xalqı üçün taleyüklü məsələdən bəhs edən həmin materialları sırf arxiv sənədləri əsasında kitabça şəklində hazırlayaraq nəşriyyata təqdim etdik. Doğrusu, onu hazırlayarkən fikirləşirdik ki, ermənilərin fitvası ilə Sovet hökumətinin azərbaycanlılara qarşı törətdiyi bu ədalətsizlikləri dünya xalqlarına çatdırmaq üçün həmin materiallar başqa dillərə də tərcümə olunaraq yayılacaqdır. Təəssüflər olsun ki, belə olmadı. Çox etinasızlıqla qarşılanan həmin iş nəşriyyatdan nəşriyyata ötürüldü. Nəhayət ki, çox çətinliklərdən sonra 1995-ci ildə az bir tirajla "Azərnəşr"də çapdan çıxdı.*

*Hörmətli prezidentimizin Azərbaycanın müstəqilliyi - Respublika günü münasibətilə söylədiyi nitqindən bir daha göründü ki, belə taleyüklü məsələləri lazımi qədər duymaq və başa düşmək üçün yalnız Heydər Əliyev zəkası lazımdır. "Panorama" qəzetində həmin qərarlarla bağlı dərc edilmiş məqalələr prezidentin diqqətini cəlb etmişdir. Xalqımıza qarşı bu cür ədalətsizliklərə vaxtında cavab verilmədiyini haqlı tənqid edən hörmətli prezidentimiz öz nitqində demişdir:* ***"Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar".***

*Həmin nitqində hörmətli prezidentimiz diqqətimizi bir daha bu məsələyə cəlb etməklə xalqımıza qarşı yönəldilmiş belə ədalətsizlikləri heç vaxt yaddan çıxarmamağa, təkrar-təkrar onların üzərinə yenidən qayıtmağa, kimin-kim olduğunu xalqımıza başa salmağa, dünya xalqlarına isə çatdırmağa çağırır.*

XIX əsrin əvvəllərində Rusiya ilə İran arasındakı müharibələr nəticəsində Rusiya imperiyasının hakimiyyəti altına keçən Azərbaycanın qərb ərazilərində sonradan, bizim əsrdə Ermənistan deyilən respublika meydana gəlir. Hələ o dövrdə Rusiya ilə İran arasında və Rusiya ilə Türkiyə arasında gedən müharibələrdə qalib gələn rus istilaçıları İrandan 8 mindən yuxarı erməni ailəsini (40 min nəfər), Türkiyədən isə 14 min erməni ailəsini (84600 nəfər) Rusiyanın işğal etdiyi Zaqafqaziyaya, əsasən azərbaycanlıların yaşadıqları ərazilərə köçürür.

Rusiya rəsmi mənbələri xəbər verirdilər ki, bu ölkə tərəfindən Zaqafqaziya zəbt olunarkən xaçpərəst ermənilər bu ərazidəki əhalinin cüzi bir hissəsini təşkil edirdi. Belə ki, Qarabağda 12 min ailədən 2,5 mini, Şamaxıda 24 min ailədən 1,5 mini, Şəki xanlığında isə 15 min ailədən yalnız üçdə biri xaçpərəst idi.

Rus tədqiqatçısı N.Şavrov əsrimizin əvvəllərində yazırdı ki, erməniləri yerləşdirmək üçün rus hökuməti tərəfindən Qafqazda 200 min desyatindən çox dövlət torpaqları ayrılmış, habelə əlavə olaraq müsəlmanlardan 2 milyon manatlıqdan yuxarı xüsusi torpaqlar da pulla alınaraq ermənilərə paylanmışdır. Həmin müəllifin verdiyi məlumata görə artıq XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu yerli əhali olmayıb, Rusiya hakimiyyəti orqanları tərəfindən buraya köçürülənlər idi.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, N.Şavrovun yazdığı 200 min desyatin hökumət torpaqları isə keçmiş Qarabağ, İrəvan və Naxçıvan xanlarına və onların ailələrinə mənsub olmuş və çar hakimiyyəti tərəfindən istila edilmiş ən yaxşı torpaqlar idi. Daha doğrusu, bu torpaqlar xanlar və onların ailələrinə məxsus yaylalar və yurd yerləri idi. Bu gün İrəvan mahalının, Qarabağın, Göyçənin, Zəngəzurun ən səfalı yerlərindəki yaşayış məntəqələrində ermənilərin yaşamasının başlıca səbəbi də bu idi.



Təxminən bir əsrə yaxın azərbaycanlıların bu ərazilərdən sıxışdırılmasına, çar Rusiyasının həmişə erməniləri dəstəkləyərək xalqımıza qarşı yeritdiyi ayrı-seçkilik siyasətinə baxmayaraq, həmin ərazilərdə azərbaycanlıların sayı yenə də üstünlük təşkil etmişdir. Rusiya rəsmi hökumət dairələrinin verdiyi demoqrafik məlumatlardan da aydın olur ki, XX əsrin əvvəllərində də indiki Ermənistan Respublikasının ərazisində yüz minlərlə azərbaycanlı hələ öz doğma ata-baba yurdlarında yaşayır və əhalinin əksəriyyətini təşkil edirdilər.

Bu ərazilərdəki azərbaycanlıların say tərkibinin azalmasında köklü dəyişikliklər 1918-1920-ci illərdə bədnam "Daşnaksütyun" partiyasının yaratdığı Ararat Respublikası zamanından başlanmışdır. Çoxlu tarixi sənədlər sübut edir ki, həmin illərdə bu ərazilərdəki yüzlərlə azərbaycanlı kəndləri ermənilər tərəfindən dağıdılıb viran qoyulmuş, azərbaycanlı əhali isə ya məhv edilmiş, ya da qovulmuşdur.

1920-ci ilin axırlarında Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra ermənilər əsrlərlə arzusunda olduqları Zəngəzuru çox asanlıqla ələ keçirdilər. Bu müvəffəqiyyətdən ruhlanan ermənilər vaxt var ikən Naxçıvan və Qarabağı da Azərbaycandan qoparmağa çalışırlar. Sovet Rusiyası, V.İ.Lenin başda olmaqla onun bolşevik rəhbərləri tamamilə ermənilərin tərəfində idilər. Leninin və Mərkəzi Sovet Rusiyası hökuməti tərəfindən himayə olunan Qafqazdakı erməni-gürcü bolşevik bloku bu ərazidə bütün hakimiyyəti öz əllərinə keçirmişdi. Stalin, Orconikidze, Mikoyan, Myasnikyan, Mirzoyan və başqaları öz iradələrini bütün Qafqazda, ilk növbədə isə paytaxtı proletar Bakısı olan Azərbaycanda diktə edirdilər. Azərbaycan partiya təşkilatına rəhbərlik edən, uzun illər "böyük dostumuz" saydığımız S.M.Kirov da onlarla tam həmrəy idi. Azərbaycanda bu güclü bloka qarşı mübarizədə aldadılmış N.Nərimanov demək olar ki, tək qalmışdı. Bu işdə "sapı özümüzdün olan "naxələf" "beynəlmiləlçi" bolşeviklərimiz də düşmən dəyirmanına su tökməkdə az rol oynamamışlar.

1920-ci ildə Zəngəzuru ələ keçirən ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istəyirdilər. Bu işdə N.Nərimanovun prinsipial mövqeyi onların oxunu daşa toxundurdu. Məhz ermənilərin qurması və başabəla bolşeviklərimizin köməyi ilə 1922-ci ilin sonunda N.Nərimanov Moskvaya işə keçirildikdən, əslində isə Azərbaycandan uzaqlaşdırıldıqdan sonra burada sərkislər, mirzoyanlar meydan suladılar. Nəticədə onlar 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyat verdirməyə nail oldular. Ancaq Ermənistanın Azərbaycana qarşı torpaq iddiası bununla bitmədi. 70 illik Sovet hakimiyyəti illərində Ermənistan bir tərəfdən Azərbaycan torpaqları hesabına öz ərazisini addım-addım genişləndirmiş, digər tərəfdən isə tutduqları həmin ərazilərdən azərbaycanlıları bütün vasitələrdən istifadə edərək öz ata-baba yurdlarından sıxışdırıb çıxarmaqla yalnız ermənilərdən ibarət "türksüz Ermənistan" yaratmaq siyasəti yeritmişlər. Bu illərdə Ermənistanda kimin partiya və hökumət rəhbərliyinə gəlməsindən asılı olmayaraq bu siyasət ardıcıl və dönmədən həyata keçirilmişdir.

Ermənilərin yeni ərazi iddiaları müharibədən sonra yenidən şiddətlənir. 1943-cü ildə üç dövlətin Tehran konfransı zamanı erməni diasporu həmişə olduğu kimi yaranmış fürsətdən istifadə edərək SSRİ xarici işlər komissarı V.Molotova müraciətlə Stalindən İranda yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsinə icazə verməyi xahiş etmişlər. Stalinin razılığını alan V.Molotov onlara müsbət cavab vermişdi. Məkrli ermənilərə də elə bu lazım idi. 1945-ci ilin aprelində bütün dünya ermənilərinin ali patriarx-katalikosunun müavini Georq Çeorokiyan ərizə ilə İ.Stalinə müraciət edərək dünya ermənilərinin müqəddəs dini mərkəzi olan Eçmiadzin monastrının fəaliyyətinə icazə verilməsi və bununla bağlı tədbirlərin həyata keçirilməsi üçün razılıq istəyir. Onun məktubu üzərində İ.Stalin aprelin 19-da öz dəst-xətti ilə belə bir dərkənar qoyur: "Razıyam. SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalin".



Əlbəttə, bu razılığın alınmasında Kommunist Partiyası tarixində ən uzun ömürlü siyasi büro üzvü (40 ildən yuxarı), Kreml tülküsü ləqəbi qazanmış A.Mikoyanın da rolu danılmazdır. İ.Stalinin bu səxavətindən hiyləgər ermənilər daha da ruhlanırlar. 1945-ci ilin noyabrında heç bir əsaslı səbəb göstərmədən Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutyunov İ.Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirməyi xahiş edir. Xahişini belə yalan məlumatla əsaslandırır ki, guya Dağlıq Qarabağ Ermənistan SSR-lə sərhəddir, onun iqtisadiyyatı Ermənistan iqtisadiyyatı ilə sıx bağlıdır. Həmin məktubu Stalin G.Malenkova ünvanlayır. O, isə öz növbəsində cavab üçün Azərbaycan SSR rəhbərliyinə göndərir. Dağlıq Qarabağın tarixi və əzəli Azərbaycan torpaqları olduğu haqqında ətraflı və əsaslandırılmış məlumat verən M.C.Bağırov öz məktubunun sonunda bildirdi ki, Şuşa rayonunu çıxmaqla Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycan SSR-ə qaytarılsın. Beləliklə də ermənilərin xahişi nəticəsiz qalır.

Lakin mayaları yalan, hiylə və məkrlə yoğrulmuş ermənilər burada da öz niyyətlərini həyata keçirmək üçün daha sərfəli yol tapdılar. Dağlıq Qarabağ məsələsini arxa plana keçirərək, xaricdən "vətənlərinə" qayıdan erməniləri qəbul etmək və yerləşdirmək işini ön plana keçirdilər. Özü də burada elə bir məkrli hiyləyə əl atırlar və buna heç kim etiraz edə bilmir. Guya xaricdən gələn erməniləri yerləşdirmək üçün Ermənistan SSR-də torpaq azlıq edir. Azərbaycanın Kür-Araz ovalığının pambıq əkilən rayonlarında isə işçi qüvvəsi çatışmır. Ermənistandakı azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsi bütün bu problemləri asanlıqla həll edir. Həm xaricdən gələn ermənilər üçün yer boşalır, həm də Kür-Araz ovalığının pambıq əkən rayonları işçi qüvvəsi ilə təmin olunur.

Məsələnin mahiyyətinə vardıqda isə burada məkrli erməni bicliyi tam aydınlığı ilə üzə çıxır. Əsrlərlə bu gün Ermənistan adlandırılan respublikanın dağ rayonlarının səfalı yaylaqlarında yaşamış azərbaycanlı əhali Kür-Araz ovalığının ilan mələyən düzlərinə köçürülür. Nəticədə bir tərəfdən Erəmənistan etnik cəhətdən türklərdən təmizlənir və onların əsrlərlə arzusunda olduqları "türksüz Ermənistan" xülyaları reallaşır, digər tərəfdən isə Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhali bu yerlərin təbii şəraitinə davam gətirə bilməyib məhv olurlar. Beləliklə də gözəgörünməz yollarla ermənilər tarixi düşmənləri hesab etdikləri türklərin sayını azaldırlar. Əsl erməni xəyanəti!

Əlbəttə, İ.Stalin rejimi zamanı bu cür arqumentlərlə əsaslandırılmış təklifin qarşısında etiraz etmək çətin idi. Görünür ki, Moskvada da artıq bu məsələ razılaşdırılmışdı. Yoxsa M.C.Bağırov həmin məsələ ilə bu cür asanlıqla razılaşa bilməzdi. Respublika Dövlət Siyasi Partiyalar Arxivində bu məsələ ilə bağlı Azərbaycan və Ermənistan K(b)P mərkəzi komitələrinin birinci katibləri M.C.Bağırov və Q.Arutyunovun 1947-ci il dekabr ayında birgə imzaladıqları və İ.Stalinə ünvanlanmış məktubun surəti qorunub saxlanılır. Həmin surətdə məktubun imzalanma ayı dekabr göstərilib,günü isə yoxdur. "Qolos Armeniya" qəzetinin verdiyi məlumata görə, 11 noyabr 1990-cı il həmin məktubun imzalanma tarixi 3 dekabrdır. Göstərilən məktubda azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsinin səbəbləri əsaslandırılaraq bununla əlaqədar konkret təkliflər irəli sürülür. Ermənistan SSR-dəki azərbaycanlı əhali Azərbaycan SSR-in pambıq əkilən rayonlarına köçürülsün, onların yerinə isə xaricdən gələn ermənilər yerləşdirilsin. Azərbaycan SSR və Ermənistan SSR nazirlər sovetlərinə icazə verilsin ki, əhalinin köçürülməsinin şərtləri və qaydalarını hazırlamaq və həyata keçirmək üçün birgə komissiya yaratsınlar. Bu tədbirlə əlaqədar xərclər İttifaq büdcəsindən maliyyələşdirilsin. Həmin işdə bu məktubla bağlı heç bir başqa qeyd və ya yazı qalmayıb. Bu müraciətə cavab olaraq 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Soveti İ.Stalinin imzası ilə qərar qəbul edir. Bu qərar Azərbaycan və azərbaycanlılara qarşı arxadan vurulan zərbə, açıq deportasiya siyasəti idi. Heç bir girişsiz, izahsız yalnız birdən-birə onun qərar hissəsindən başlayan bu sənət məzmunundan da göründüyü kimi çox tələsik hazırlanmışdır. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərara əlavə olaraq ikinci bir qərar qəbul edir. Özü də köçürmə ilə əlaqədar tədbirlər planı ikinci qərarda daha ətraflı şərh olunur.

Adətən, belə qərarlar qəbul olunarkən onların qəbulundan əvvəl yerinə yetirilməsi üçün yerlərdə hazırlıq işləri görülürdü. Azərbaycanda isə bu məsələ ilə əlaqədar hazırlıq işləri yalnız 1948-ci ilin yanvarın ortalarından, yəni respublikada SSRİ Nazirlər Sovetinin qərarı alındıqdan sonra başlanmışdır. Respublika Nazirlər Soveti bu məsələyə dair ilk gizli qərarını 1948-ci il fevralın 2-də qəbul etmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" "Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Azərbaycan SSR və Ermənistan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən güzəştlər haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hesablar çürüdülsün, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakı, o cümlədən ev heyvanları və quşların aparılmasına da şərait yaradılsın.

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı güzəştlər edilməsi nəzərdə tutulurdu: Köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı heyvanları aparmağa; köçürülən ailələrin ailə başçısına 1000 manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün varid olduqları Kür-Araz ovalığında nağd pulla hər ailə başçısına 1,5 sentner və hər ailə üzvünə isə 0,5 sentner taxıl satın almağa icazə verilirdi. "Kənd təsərrüfatı köçürülüşü üzrə güzəştlər haqqında SSRİ Mərkəzi İcraiyyə Komitəsi və SSRİ Xalq Komissarları Sovetinin 1937-ci il 17 noyabr tarixli qərarı Kür-Araz ovalığına köçürülən azərbaycanlı əhaliyə də şamil edilirdi. Maraqlıdır ki, bu qərar məhz 1937-ci ildən Sibir, Qazaxıstan və Uzaq Şərqə sürgün olanlara aid idi. 1947-ci ildə isə o, Ermənistan SSR-dən köçürülən azərbaycanlılara da şamil edildi. Bu bir daha sübut edir ki, həmin tədbir əslində köçürülmə deyil, sözün əsl mənasında, azərbaycanlıların öz doğma yurd yuvalarından deportasiyası idi. Göstərilən qərarla Ermənistandan deportasiya olunan kolxozçu və digər azərbaycanlı əhaliyə icazə verilirdi ki, onlar öz taxıl və kartoflarını Ermənistanda taxıl tədarükü orqanlarına, mal-qaralarını isə ət birliklərinə təhvil verib qəbzlər ala bilər, Azərbaycana gəldikdə isə burada onlar həmin qəbzlərlə yerli taxıl tədarükü orqanlarından və ət birliklərindən müvafiq çəkidə taxıl, kartof və mal-qaralarını ala bilərdilər.

Qərarda kənd təsərrüfatı banklarına tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülənlərə evlər tikmək, həyətyanı təsərrüfat sahələri yaratmaq və mal-qara almaq üçün, hər təsərrüfat başına ev tikmək üçün 20 min manat kredit və mal-qara almaq üçün 3 min manat kredit verilsin. Bu kreditlərin ödənilməsi onlar verildikdən üç il sonra başlamalı, ev tikmək üçün ayrılmış kredit on il müddətinə, mal-qara almaq üçün ayrılmış kredit isə 5 il müddətinə ödənilməli idi.



SSRİ Nazirlər Soveti SSRİ Dəmir Yolları Nazirliyinə köçürülənlərin daşınmasını təmin etməyi, SSRİ Səhiyyə Nazirliyinə köçürülənləri gəldikləri yerdən tam tibbi müayinədən keçirmək, yollarda tibbi kömək göstərmək, SSRİ Maliyyə Nazirliyinə isə Azərbaycan SSR-in büdcəsində köçürmə ilə əlaqədar xərcləri nəzərdə tutmağı tapşırırdı.

Azərbaycan SSR və Ermənistan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, köçürmə ilə bağlı bir ay müddətində tədbirlər planı hazırlayıb SSRİ Nazirlər Sovetinə məlumat versinlər.

Bu qərarın belə təcili hazırlanmasının mahiyyətini onun axırıncı 11-ci maddəsi açıqlayır. Burada oxuyuruq: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər".

Əksərən dağ kəndlərindən köçürülən azərbaycanlıların yerinə xaricdən gələn harın daşnaksütyun tör-töküntüləri getmədi. Son illərin hadisələri göstərdi ki, bütün bunlar Ermənistanın dağ kəndlərini abad etmək üçün deyil, "türksüz Ermənistan" yaratmaq xülyasını həyata keçirmək planının tərkib hissəsi idi. Ona görə də azərbaycanlıların köçürüldüyü dağ kəndlərinin çoxu sonralar xarabazarlığa çevrildi.

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin İ.Stalinin imzası ilə "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi ikinci qərarda göstərilirdi ki, o, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir". 1948-ci il 10 mart tarixli qərarda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Burada qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçən kolxozçular özləri ilə əsas istehsal vasitələrini, kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini,

bütün növdən olan ev heyvanlarını və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və başqa əşyaları da apara bilərlər. Dəyirman, çoxillik ağaclar, elektrostansiya və başqa mədəni-məişət tikililəri isə buraya daxil deyildir.

Qərarda Ermənistan SSR və Azərbaycan SSR nazirlər sovetlərinə tapşırılırdı ki, bir ay müddətində Ermənistanda Kür-Araz ovalığına köçürüləcək kolxozlar, kolxozçular və digər azərbaycanlı əhalinin Ermənistanda qoyduğu köçürülə bilməyən əmlakın ödənilməsi qaydaları müəyyənləşdirilsin. Bu respublikaların nazirlər sovetlərinə köçürülən əhaliyə öz əmlaklarını satmaqda kömək etmək tapşırılırdı.

Qərarda Azərbaycan SSR Nazirlər Sovetinin köçürülən kolxoz təsərrüfatları və əhalinin yerləşdirilməsi şöbəsinin Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarəsinə çevrilməsi məqsədəuyğun hesab edilir.

Kür-Araz ovalığında Suvarılan Torpaqların İstifadəsi İdarəsinə köçürülən kolxozlara texniki yardım göstərmək, onlara yaşayış evləri və yardımçı təsərrüfatlar yaratmaq üçün tikinti materialları ilə kömək etmək də tapşırılırdı.

Azərbaycan SSR Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə icazə verilirdi ki, "Azərköçürmətikinti" kontoru əsasında Kür-Araz ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsi tabeliyində "Azərköçürmətikinti" tresti yaradılsın və həmin trestin nəzdində Salyan, Əli Bayramlı, Sabirabad və Puşkin rayonlarında tikinti-quraşdırma kontorları təşkil olunsun.

Azərbaycan SSR Nazirlər Sovetinə icazə verilirdi ki, Ermənistan SSR-dən kolxozçular və başqa azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürüləcəyi müddətdə Yerevanda özünün xüsusi nümayəndəliyini açsın, Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsinə hazırlıq işləri üçün 1948-ci ildə respublika üçün ayrılmış limitdən kənar vəsaitdən 11 milyon manat layihələşdirmə, köməkçi müəssisələrin tikintisi, tikinti



avadanlıqlarının alınması, tikinti təşkilatlarının yaradılması və başqa məqsədlər üçün istifadə edilsin. 1948-1950-ci illərdə köçürülmə ilə əlaqədar olaraq Molotov vilayəti Meşə Təsərrüfatı İdarəsinin istehsal gücünü ildə 100 min kub metr artırmaq nəzərdə tutulurdu.

Həmin qərarla SSRİ-nin müvafiq nazirlik və komitələrinə tapşırılırdı ki, 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamına əlavə avadanlıq və materiallar buraxsınlar. SSRİ Yollar Nazirliyinə tapşırılırdı ki, Kür-Araz ovalığının Lənkəran, Salyan, Sarıcalar, Saatlı, Daşburun, Ucar və başqa stansiyalarında hərəsində 600 metr uzunluğunda yükləmə-boşaltma meydanları yaratmaq üçün 1948-ci ildən Kür-Araz Ovalığı Suvarılan Torpaqların İstifadəsi İdarəsinə lazımi qədər material - rels, şpal və s. ayırsın.

SSRİ Nazirlər Sovetinin qərarlarından irəli gələn vəzifələri yerinə yetirmək məqsədilə Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də xüsusi qərarlar qəbul etdi.

1948-ci il 2 fevral tarixli gizli qərardan həmin il Ermənistan SSR-dən köçürüləcək 10 min nəfər əhalini qəbul etmək və yerləşdirmək məsələlərindən bəhs olunurdu.

Burada Salyan, Saatlı, Sabirabad, Əli Bayramlı, Puşkin, Ağcabədi və Xıllı rayon icraiyyə komitələrinə bir vəzifə olaraq: 1948-ci il fevralın 15-nə qədər köçürülənlərin yerləşdiriləcəyi kolxozlarda olan boş yaşayış evlərinin təmiri və bərpası üçün tikinti briqadaları yaratmaq; onları lazımi nəqliyyat vasitələri və əmək alətləriylə təmin etmək, öz yaşayış evlərinin bir hissəsini köçürülənlərə vermək istəyən kolxozçuları aşkar etmək və uçota götürmək; kolxozlarda Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsinin qaydaları, şərtləri, təsərrüfat-siyasi əhəmiyyəti haqqında geniş izahat işləri aparmaq tapşırılırdı.

Azərbaycan SSR sovxozlar, kənd təsərrüfatı, su təsərrüfatı nazirliklərinə. Kür-Araz ovalığında suvarılan torpaqların istifadəsi və Kür-Araz su tikintisi idarələrinə tapşırılırdı ki, 1948-ci ilin birinci yarısında köçürülənləri qəbul etmək üçün lazımi yaşayış sahələrinin hazırlanması, sovxozlarda, tikinti kontorlarında, su vuran qurğularda onların işlə təmin olunması üçün hazırlıq işləri görsünlər.

Dövlət Plan Komitəsinə tapşırılırdı ki, kolxoz və sovxozlarda köçürülənlərdən ötrü yaşayış evlərinin təmiri üçün lazımi tikinti materialları ayırsın, müvafiq rayon icraiyyə komitələri və Azərbaycan SSR Sovxozlar Nazirliyi isə həmin tikinti materiallarını yalnız köçürülənlər üçün evlərin təmiri işinə sərf olunmasını təmin etsinlər.

Azərbaycan Kəndtikinti Layihə və Arxitektura İşləri üzrə İdarəyə tapşırılırdı ki, istifadə idarəsi ilə müqavilə əsasında 1948-ci ilin fevral-iyun aylarında Ermənistandan köçürüləcək təsərrüfatların yerləşdirilməsi üçün kolxoz qəsəbələrinin baş planlarının layihələrini hazırlasınlar.

Həmin qərarda köçürülmə ilə bağlı yaradılacaq tikinti təşkilatları üçün mühəndis-texnik kadrların seçilməsi işi Dövlət Plan Komitəsinə, Azərbaycan dilində köçürmə ilə əlaqədar şərtlər və Kür-Araz ovalığı torpaqlarının istifadəsinin xalq təsərrüfatı əhəmiyyətini izah edən kitabçanın, köçürülənlərə dövlət tərəfindən göstəriləcək güzəştləri izah edən rəngarəng plakatların hazırlanması və nəşri Azərbaycan Dövlət Nəşriyyatına həvalə olunurdu. Azərbaycan SSR Səhiyyə Nazirliyinə tapşırılırdı ki, köçkünləri qəbul edən rayonlar, sovxoz və kolxozlarda malyariya, mədə-bağırsaq xəstəliklərinə qarşı mübarizə üçün tədbirlər planı işləyib hazırlasın, bu rayonlarda xəstəxana, ambulatoriya və feldşer məntəqələri şəbəkəsi yaratsın; Maarif Nazirliyinə 1948-1949-cu tədris ili üçün köçürülənlərin yerləşdiriləcəyi rayonlarda məktəblər və uşaq tərbiyə müəssisələri yaratmaq və genişləndirmək. Ticarət Nazirliyinə və Azərittifaqa isə



köçürülənlərə ticarət xidməti göstərmək üçün tədbirlər planı işləyib hazırlayaraq baxılmaq üçün Nazirlər Sovetinə təqdim etmək tapşırılırdı.

1948-ci il martın 19-da Azərbaycan K(b)P MK-nın bürosunda SSRİ Nazirlər Sovetinin yuxarıda göstərilən qərarlarından (23 dekabr 1947-ci il və 10 mart 1948-ci il) irəli gələn vəzifələr geniş müzakirə edilir. Büro həmin qərarın yerinə yetirilməsi üçün respublika Nazirlər Soveti sədrinin müavini Ş.Əzizbəyova on gün müddətində köçürmə üçün tədbirlər planını hazırlayaraq təsdiq üçün Nazirlər Sovetinə, Azərbaycan K(b)P MK-nın katibi H.Həsənova isə Ermənistan SSR-dən köçürüləcək azərbaycanlı əhali və onları Azərbaycan SSR-də qəbul edəcək rayonların əhalisi arasında siyasi-tərbiyə və izahat işləri aparmaq üçün tədbirlər planını hazırlayaraq büroya təqdim etməyi tapşırır. Habelə büro Ermənistan SSR-dən azərbaycanlı əhalinin köçürülməsi vaxtı və qaydalarını Ermənistan rəhbərləri ilə razılaşdırmaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin və Mərkəzi Komitənin katibi H.Seyidovun Ermənistan SSR-ə ezamiyyəsini qərara alır. Büro M.Cəfərovu Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi, M.Mahmudovu isə Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də müvəkkili təsdiq edir.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 14 aprel tarixli qərarında isə SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları və bu qərarlardan irəli gələn vəzifələr geniş izah edilir, bunların yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələr dəqiqləşdirilirdi.

Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il mayın 13-də bu məsələ ilə əlaqədar əlavə qərar qəbul edir. Azərbaycan K(b)P MK isə 1948-ci il aprel ayının 13-də "Ermənistan SSR-dən koxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi izahat işləri haqqında" xüsusi qərar qəbul edir.

edənlərdən biri - məşhur K.N.Brutensin atasıdır - A.P.), sonra isə R.İ.Sevumyan rəhbərlik edirdi. Necə deyərlər, qoyun qurda etibar edilmişdi.

1948-ci il mayın axırlarında SSRİ Nazirlər Sovetindən respublika Nazirlər Sovetinə zəng edərək köçürməyə hazırlığın gedişi haqqında məlumat tələb edirlər. İyunun 4-də Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin imzası ilə SSRİ Nazirlər Sovetinə göndərilən məlumatda bildirilirdi ki, köçürmə ilə əlaqədar 1948-ci il may ayının 30-na qədər aşağıdakı işlər görülmüşdür: köçürmə planını təmin etmək üçün Azərbaycan SSR-in 28 rayonuna inşaatçı mühəndislər göndərilmiş və onların qarşısında yaşayış üçün yararlı binaları aşkar etmək, onların təmiri işini təşkil etmək vəzifəsi qoyulmuşdur. SSRİ MİK və XKS-nin 1937-ci il 17 noyabr tarixli "Kənd təsərrüfatı köçürülüşü üzrə güzəştlər haqqında" qərarı Azərbaycan dilinə tərcümə edilərək 4000 nüsxədə nəşr olunmuşdur. 25 nəfərdən ibarət qrup bu günlərdə izahat işləri aparmaq üçün Ermənistan SSR-ə yola salınır. Mətbəə üsulu ilə Azərbaycan və rus dillərində 7000 nüsxə ərizə-anket, 5000 nüsxə isə köçürmə bileti hazırlanaraq Ermənistan SSR-ə göndərilmiş və onların doldurulması işinə başlanıb. Köçürmə xərcləri üçün 1948-ci ilin respublika büdcəsindən 13 milyon manat vəsait ayrılması nəzərdə tutulur. 1948-ci ildə 12.177 nəfərin köçürülməsi Ermənistan SSR Nazirlər Soveti ilə razılaşdırılıb.

Azərbaycan SSR Nazirlər Sovetinin kolxoz təsərrüfatlarının köçürülməsi şöbəsi Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinə çevrilmiş, Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin köçürüləcəyi dövr üçün Yerevan şəhərində Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də nümayəndəliyi yaradılmışdır. Habelə arayışda köçürülənlər üçün tikiləcək evlərin 6 nümunəvi layihəsinin hazırlandığı, tikinti üçün tikinti materiallarının hazırlanması və tikinti işini təşkil etmək üçün "Azərköçürmətikinti" trestinin və onun Salyan, Sabirabad, Əli Bayramlı, Puşkin rayonlarında



tikinti kontorlarının yaradılması və s. haqqında məlumat verilirdi.

Ermənistan SSR-dən Kür-Araz ovalığına ilk köçkünlər 1948-ci il iyunun əvvəllərində gəlir. Azərbaycan SSR Sovxozlar Nazirliyinin həmin il iyunun 19-da verdiyi məlumatda bildirilirdi ki, qəbul olunan ilk eşelonlarla 44 azərbaycanlı ailəsi gəlmiş, onlar Jdanov rayonundakı sovxozlarda yerləşdirilmişlər. Məlumatda göstərilirdi ki, gələnlər təmir olunmuş mənzillərdə yerləşdirilir. Onlar özləri ilə lazımi ev əşyaları gətirmiş, sovxozlar onları miçətkən ilə təmin etmiş, istəyənlər üçün bostan sahələri ayrılmış və imkan daxilində onlara toxumla kömək edilir. Əmək qabiliyyətli əhali işlə təmin olunur. Onlar əsasən bağlarda və bostanlarda işə düzəlmişlər. Köçürülənlər arasında bir neçə nəfər ixtisaslı traktorçu da var və onlar müvəffəqiyyətlə pambıq tarlalarında kultivasiya işi ilə məşğul olurlar. Məlumatda bildirilirdi ki, bu günlərdə əlavə 23 ailəni qəbul etməyə hazırlaşırıq.

İyulun 29-da respublika Nazirlər Sovetinin müvəkkili Goranboy stansiyasından xəbər verirdi ki, "iyulun 28-də səhər saat doqquzda 59 vaqondan ibarət eşelon daxil oldu. 101 təsərrüfat, 382 nəfər öz ev əşyaları və ev heyvanları ilə varid oldu. Qəbul və boşaldılma işləri lazımi qaydada həyata keçirildi. Artıq axşam 9-a qədər 96 ailə maşınlara yüklənərək kolxozlara yola salındı".

Respublika Dövlət Kino-Foto Sənədləri Arxivində Ermənistandan azərbaycanlıların deportasiyası ilə bağlı çox nadir kino lenti qorunub saxlanılır. Həmin lentdə deportasiya olunanların Azərbaycanda "təntənəli qarşılanma" mərasimi əks olunmuşdur. Əllərində gül-çiçək dəstələri olan yerli sakinlər "intizarla" Ermənistandan deportasiya olunanları gətirən qatarı gözləyirlər. Lentdə hələ uzaqdan kinokameranın obyektivinə alınan qatar fit verə-verə perrona çatıb dayanır. Yük və malqara daşınan vaqonların kiçik pəncərələrindən, hündür və açıq qapılarından Ermənistandan deportasiya olunanlar bu "tən-

Köçürülmə işinin təşkilinə 1948-ci ildə Ermənistan SSR-dən azərbaycanlıların köçürüləcəyi rayonların siyahılarının tərtibindən başlanır. Hər rayondan neçə təsərrüfat və nə qədər adam köçürüləcəyi, onların Azərbaycanın hansı rayonlarında yerləşdiriləcəyi müəyyənləşdirilir. Bunun üçün 1948-ci ilin yanvarında Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P MK-nın nümayəndələri Ermənistan SSR-ə ezam olunurlar. Onların qarşısında Ermənistan SSR Nazirlər Soveti ilə birgə köçürmə ilə əlaqədar vahid tədbirlər planı işləyib hazırlamaq, eyni vaxtda Ermənistandan köçürüləcək azərbaycanlılar arasında köçürmənin şərtləri, güzəştləri haqqında izahat işi aparmaq idi.

Azərbaycan K(b)P MK bürosunun qərarı ilə 1948-ci ilin martında isə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev və Azərbaycan K(b)P MK-nın katibi H.Seyidov Ermənistana gedir. Onlar Ermənistan SSR rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonları gəzərək kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri aparırlar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarında həmin ildə Ermənistan SSR-in Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə Basarkeçər, Vedi, Artaşat, Noyenberyan, Oktemberyan, Zəngibasar və başqa rayonlarından Azərbaycana 2.757 təsərrüfatın (12.171 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, qalan 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və Voroşilov rayonlarında, habelə Gədəbəy, Xanlar, Şamxor, Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan rayonlarında yerləşdirilməli idi.

1948-ci il iyulun 9-da respublika Nazirlər Sovetinin sədri T.Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V.M.Molotova məktubunda Kür-Araz ovalığında 1948-ci ildə köçürülməsi nəzərdə tutulmuş azərbaycanlı əhalini yerləşdirmək üçün yaşayış binalarının olmamasını nəzərə alaraq onların bir hissəsini respublikanın başqa rayonlarında yerləşdirməyə razılıq verməyi xahiş edir. Həm də göstərir ki, köçürülən əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarından olduğu üçün onlar Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışa bilirlər. Təəssüflər olsun ki, SSRİ Nazirlər Soveti bu xahişə müsbət cavab vermir. Nəticədə isə güclə Kür-Araz ovalığına deportasiya olunmuş minlərlə azərbaycanlı ailəsi şəraitə davam gətirə bilməyərək məhv olur.

1948-ci il mayın 18-də respublika Nazirlər Sovetinin sədri T.Quliyev Nazirlər Sovetinin Ermənistan SSR-dəki müvəkkilinə təcili teleqramında bildirirdi ki, "mayın 13-də köçürmə planı Azərbaycan SSR Nazirlər Soveti tərəfindən yalnız Qubaya köçürüləcək 52 təsərrüfat və 232 nəfərin köçürmə vaxtını yazdan-payıza keçirmək şərtilə qəbul edildi. Onu razılaşdırmaq üçün Ermənistan SSR Nazirlər Sovetinə təqdim edin. Bu məlumatı təxirəsalmadan köçürülənlərə çatdırın. Köçürmənin həyata keçirilməsi işinə başlayın".

Azərbaycan SSR ərazisində Ermənistan SSR-dən azərbaycanlı köçkünləri qəbul etmək üçün Nazirlər Sovetinin göstərişi ilə respublikanın rayonlarına 27 nəfər məsul şəxsdən ibarət heyət göndərilir. Heyətin vəzifəsi göndərildiyi rayonlarda köçürülənləri yerləşdirmək üçün tikililərin vəziyyətini müəyyənləşdirmək idi. Köçürülmə ilə əlaqədar rayon partiya və icraiyyə komitələrinə göndərilmiş məktubda deyilirdi ki, rayonlara göndərilən nümayəndələrə hərtərəfli şərait yaradılsın ki, onlar həmin rayonlarda olan boş yaşayış binalarına baxsınlar və onlardan yaşayış evləri kimi istifadə edib-etməməyin mümkünlüyünü təyin etsinlər.

Xalqımızın ən böyük faciələrindən biri də bu idi ki, bu cür taleyüklü məsələlərin həllini öz respublikamızda da ermənilərə tapşırmışdıq. Bütün köçürmə müddətində bu işə Azərbaycan SSR Nazirlər Sovetində şöbə müdirləri əvvəlcə N.A.Brutens (bu gün Azərbaycanı bu bəlalara düçar





12.-3510

tənəli" qarşılanma mərasiminə tamaşa edirlər. Qatar dayanır. Qarşılayanlar vaqonlara yüyürərək gül-çiçək dəstələrini zavallı köçkünlərə təqdim edirlər. Mitinq keçirilir. Yəqin ki, orada xalqımıza qarşı bu cür "atalıq qayğısına görə" bütün xalqların dahi rəhbəri və müəllimi İ.Stalinin şərəfinə nə qədər tariflər deyilib. Kinokameranın obyektivi yenidən vaqonlara tuşlanır. Yük vaqonlarının qapılarından qadınlar, uşaqlar, qocalar, sonra isə inək və qoyunlar çıxır. Həkim briqadaları gələnlərin səhhətini yoxlayır, xəstələrə yardım edirlər. Yəni həmişə olduğu kimi, Sovet hökumətinin "başları yarıb", sonra ətəklərə qoz tökmə siyasəti davam edir. Bu səhnələri gördükcə istər-istəməz adamın yadına "könüllü olaraq istiqraza yazılma", "könüllü iməciliklər" və s. düşür.

Maraqlıdır ki, bu gün Ermənistan adlanan doğma vətənlərindən də bu zavallı əhalini beləcə təmtəraqla yola salmışlar. Ermənilərin dilləndirdiyi qara zurnanın təranələri altında əsrlərlə yaşadıqları ata-baba yurdlarından "könüllülük prinsipləri əsasında" deportasiya olunanlar hələ rəqsə də məcbur edilirdilər. Onları rəqs etməyə Dövlət Təhlükəsizliyi orqanlarının gözə görünən və görünməyən xəfiyyələrinin qorxusu məcbur edirdi. Yola salanlar üçün isə sözün əsl mənasında toy-bayram idi. Çünki onların əsrlərlə xülyasında olduqları "türksüz Ermənistan" ideyası reallığa çevrilməkdə idi.

Artıq 1948-ci il noyabrın 1-nə qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə 1799 təsərrüfatda birləşən 7.747 nəfər adam köçürülmüşdü. Həmin müddətdə Ermənistan SSR-dən Azərbaycana özbaşına 2.834 nəfərdən ibarət 429 ailə köçmüşdür. Beləliklə, 1948-ci il noyabrın 1-nə qədər Azərbaycana 2.228 təsərrüfatda birləşən 10.584 nəfər adam gəlmişdi.

Həmin ilin dekabrında isə Ermənistandan əlavə olaraq 120 təsərrüfatda birləşən 462 nəfər köçür. Onlardan 65 təsərrüfatda birləşən 209 nəfəri Noyenberyan rayonunun Körpülü kəndinin, 64 təsərrüfatda birləşən 253 nəfər isə Yerevan şəhərinin sakinləri idi.



Azərbaycan SSR Nazirlər Sovetinə Azərbaycan K(b)P MK-ya verilmiş məlumatlardan görünür ki, bir sıra rayonlara, o cümlədən Tovuz rayonuna köçürülənlər çox soyuq qarşılanmış, onların bir hissəsi tövlələrdə yerləşdirilmişdir. Ona görə də Aşağı Körpülüdən köçürülənlərdən 16 təsərrüfat qonşu Gürcüstan SSR-in Borçalı rayonuna getmiş, 5 təsərrüfat Yuxarı Körpülü kəndinə qayıtmış, 2 təsərrüfat isə Alaverdi mədənlərində işləməyə getmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürülməsinin nəticələri göstərdi ki, qırx min nəfər adamı yerləşdirmək o qədər də asan məsələ deyil. Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfərin nisbətən daha çox mənzil ehtiyatı olduğu bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına baxmayaraq, onların çoxu mal-qara tövlələrində yerləşdirilir. Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və onları yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi. Ona görə də respublika Nazirlər Sovetinin sədri yenidən SSRİ Nazirlər Sovetinə müraciət etməyə məcbur olur. O öz məktubunda bu çətinlikləri nəzərə alaraq, 1949-cu ildə Ermənistan SSR-dən 12-15 min əhalinin köçürülməsinə razılıq verməyi xahiş edir. Həm də xahiş edirdi ki, Ermənistan SSR-in dağ rayonlarından köçürülən əhalinin Azərbaycanın iqlim şəraiti əlverişli olan dağ rayonlarına köçürülməsinə, Kür-Araz ovalığına köçürülənlər üçün müəyyən olunmuş güzəştlərin onlara da aid edilməsinə icazə verilsin.

1949-cu ildə respublika Köçürmə İdarəsi Azərbaycan SSR Nazirlər Sovetinə göndərdiyi məktub və arayışlarda dəfələrlə bildirirdi ki, yaşayış evlərinin çatışmaması nəticəsində Səfərəliyev, Ağcabədi rayonlarına köçürülənlər dözülməz şəraitdə yaşayırlar. Bəzən bir neçə ailə kiçicik bir daxmada daldalanmalı olur, çox vaxt onlar mal-qara ilə bir tövlədə

etdikləri yemi, qış yanacağını, ərzaq məhsullarını, bəzən isə ev əşyalarını da satmış, demək olar ki, açıq səma altında qalmışlar. Azərbaycan köçürmə idarəsi isə onları bu il köçürmək imkanı olmadığını bildirir. Öz məktubunda o, T.Quliyevə şəxsən bu işə qarışaraq həmin əhalinin köçürülməsinə kömək etməyi xahiş edir.

Ümumiyyətlə, 1949-cu ildə Ermənistan SSR-dən azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir, Salyan, Sabirabad, Yevlax rayonlarına köçürülür. Yaşayış evlərinin, ictimai binaların, içməli suyun və s. olmaması həmin rayonların rəhbərlərini məcbur edirdi ki, bütün vasitələrdən istifadə edərək köçürülənləri qəbul etməkdən imtina etsinlər. Sənədlərdən aydın olur ki, Ermənistan SSR-dən gəlmiş eşalonlar sutkalarla dəmiryol stansiyalarında dayanır, yalnız yuxarıdan təzyiq onları məcbur edirdi ki, köçürülənləri necə gəldi qəbul etsinlər.

Yevlaxda, Sabirabadda, Ucarda və b. rayonlarda bu cür hallara təsadüf olunurdu. Əgər qəbul edilirdilərsə də, onları yerləşdirməyə yer tapılmır, onlar yerli kolxozçuların evlərinə paylanır, bu da həm gəlmələr, həm də yerli əhali üçün əlavə narahatlıqlar törədir, narazılıqlar yaradırdı.

Buna görə də 1949-cu ilin dekabrında respublika Nazirlər Sovetinin sədri T.Quliyev bu məsələ ilə bağlı yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət etməli olur. T.Quliyev öz məktubunda göstərirdi ki, iki il müddətində köçürmə planının qeyri-kafi şəkildə yerinə yetirilməsinin başlıca səbəbi Kür-Araz ovalığına köçürülənlər üçün lazımi yaşayış evlərinin və mədəni-məişət ocaqlarının yaradıla bilməməsidir. 1948-1949-cu illərdə Ermənistan SSR-dən köçürülənlər əsasən yerli kolxozçuları sıxışdıraraq onların evlərinə yerləşdirilmişlər. Artıq respublika orqanlarının və rayon təşkilatlarının bu sahədə imkanları tamamilə tükənmişdir. Yeganə yol yeni evlər tikməklə köçürülənləri qəbul etməkdir. Məktubda göstərilirdi ki, Azərbaycan SSR-in 1950-ci ilin xalq



təsərrüfatı planında 3500 təsərrüfatın (15 min nəfərin) köçürülməsi planlaşdırılır. Bunun üçün isə 3500 ev tikilməlidir. Azərbaycan köçürmə tikinti trestinin və kolxozların illik tikinti imkanlarını nəzərə alaraq, Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürüləcək əhali üçün köçürmə planında dəyişikliklər etmək, 1951-ci ildə 10 min nəfərin, 1952-ci ildə 20 min, 1953-cü ildə 20 min, 1954-cü ildə isə 15 min nəfərin köçürülməsini nəzərdə tutmaq xahiş olunurdu.

Ermənistan SSR-dən azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı mübahisə doğuran məsələlərdən biri də oradan köçən əhaliyə məxsus ictimai və fərdi təsərrüfatlarda olan mal-qaranın sayı ilə bağlı idi. Bununla əlaqədar 1949 və 1950-ci illərə aid çoxlu sənədlər qorunub saxlanılır. 1949-cu ilin dekabrında Ermənistan SSR-in köçürmə idarəsinin vurduğu teleqramda deyilirdi ki, dekabrın 26-na qədər köçənlər özləri ilə 8138 baş iribuynuzlu mal-qara, 19237 xırdabuynuzlu davar, 312 at, 81 donuz aparmışlar. Onlardan da guya 5114 iribuynuzlu mal-qara, 14824 davar, 257 at və 81 donuz ictimai kolxoz təsərrüfatlarının payına düşür.

Azərbaycan köçürmə idarəsinin məlumatına görə isə 1949-cu il dekabrın 1-nə qədər Ermənistandan köçürülənlər özləri ilə cəmi 5019 baş iribuynuzlu mal-qara, 9374 baş davar, 177 baş at gətirmişdilər ki, onlardan da 1677 baş iribuynuzlu mal-qara, 4231 baş davar və 109 baş at ictimai təsərrüfatın payına düşürdü.

Bundan sonra bu məsələ ilə əlaqədar Moskva, Bakı və Yerevan arasında çox intensiv yazışma və teleqram mübadiləsi başlanır. Nəhayət, 1950-ci il yanvarın 11-də Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan bu məsələni həll etmək məqsədilə şəxsi məktubla öz müavini Astva Saturyanı Bakıya göndərir. Nəticədə Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetləri sədrlərinin birlikdə imzası ilə SSRİ Nazirlər Sovetinə belə bir teleqram göndərilir ki, 1950-ci ilin 1 yanvarına qədər Ermənistan SSR-dən Azərbaycan SSR-ə

qalırlar. Məsələn, Ağcabədi rayonunda T.Quliyev adına kolxozda üç ailə qapı-pəncərəsi olmayan, təmir edilməmiş, tavanı axan kiçicik bir daxmada yerləşmişdir.

Köçkün Orucəli Əkbərovun ailəsi Səfərəliyev rayonunun Caparidze adına kolxozunda Həyat Əmirahovanın evində yaşayır. Dekabrın əvvəllərində O.Əkbərovun əşyaları küçəyə atılmış, 5 nəfərdən ibarət ailə üzvü qış günündə açıq səma altında gecələməyə məcbur olmuşdur. Köçkün Həcər Əkbərovanın ailəsi də dəfələrlə küçəyə atılmışdır. 8 nəfər ailə üzvü olan Hüseyn Əliyevi İlyasovun evində bir kiçik otaqda yerləşdirmişlər. Ev sahibi, onun arvadı və uşaqları H.Əliyev gündüz evdə olmayan vaxt onun uşaqlarını həmin otağa qatıb qapını bağlayır, söyüb təhqir edirdilər. Bu da köçürülənlər arasında haqlı narazılığa səbəb olurdu. Köçürmə İdarəsi xəbər verirdi ki, köçkünlərin ərzaq və çoxişlənən mallarla təchizi işi də olduqca acınacaqlı vəziyyətdədir. Köçkünlər çay, qənd, duz, paltar sabunu, neft, lampa və s. çoxişlənən mallar ala bilmir, rayon partiya komitələrinin katibləri və icraiyyə komitələrinin rəhbərləri isə onların ehtiyaclarına heç cür diqqət vermirlər. Nəticədə köçürülənlər üçün dözülməz şərait yaranır, onların arasında narazılıqlar artır, dava, qalmaqal olur, bu isə köçürmənin ümumi gedişinə mənfi təsir göstərir. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR ilə razılaşdırılaraq 1949-cu ildə 15.713 nəfərin, yaxud 3.818 təsərrüfatın köçürülməsi planlaşdırılır. Onlardan 5.420 nəfəri yazda, 10.293 nəfəri isə payızda köçürülməli idi. Lakin həmin ilin sentyabrına qədər SSRİ Nazirlər Soveti bu plana razılıq vermir. SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinin rəisi S.Çeremuşin respublika Nazirlər Sovetinin sədri T.Quliyevə məktubunda bir daha xatırladır ki, 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 40 min azərbaycanlı əhali köçürülməlidir. Həmin ilin 9 ayı ərzində köçürmənin vəziyyəti haqqında SSRİ Nazirlər Sovetinə məlumat vermək üçün hesabat tələb edir.



Bu məsələ ilə əlaqədar respublika Nazirlər Sovetinin sədri T.Quliyev 1949-cu il sentyabrın 21-də yenidən SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət etməli olur. O bildirirdi ki, 90 min adamı və 21 min təsərrüfatı yerləşdirmək üçün ən azı 20 min yaşayış evi tələb olunur. Bununla yanaşı, istehsal binaları, məktəblər, xəstəxanalar, su təchizatı müəssisələri, hamamlar və s. köməkçi binaların tikintisi də zəruridir. Bunun üçün ən azı 400 milyon manatlıq tikinti-quraşdırma işləri görülməlidir. Belə böyük bir işin öhdəsindən isə Azərbaycan Respublikası öz gücü ilə iki il müddətinə gələ bilməz. Bunları nəzərə alaraq respublika Nazirlər Soveti 1949-cu ildə köçürmə planını 10 min nəfərə endirməyi xahiş edir.

1949-cu ilin oktyabrında Azərbaycan SSR Köçürmə İdarəsi Respublika Nazirlər Sovetinə məlumatında bildirirdi ki, həmin ildə 10 min azərbaycanlının köçürülməsi planlaşdırılıb, oktyabrın 22-nə qədər isə 983 təsərrüfat (4000 nəfər) köçürülmüş, 1500 təsərrüfatı (5000 nəfər) əhatə edən azərbaycanlılara isə köçürmə bileti verilmiş, müvafiq qrafiklər üzrə dəmiryol eşalonlarında yola salınmaq üçün hazırlanmışlar. İdarə bildirirdi ki, köçürmə planı müvəffəqiyyətlə yerinə yetiriləcək. Lakin Ermənistan SSR-də azərbaycanlı əhalini dəmiryol stansiyalarına gətirmək üçün benzin çatışmır. Köçürmə planını yerinə yetirmək məqsədilə Azərbaycan SSR öz yanacaq fondundan azərbaycanlı əhalini Ermənistanda dəmiryol stansiyalarına gətirmək üçün 60 ton benzin ayırır.

Ermənistan SSR Nazirlər Soveti sədrinin müavini A.Piruzyan həmin il dekabrın 2-də Azərbaycan SSR Nazirlər Soveti sədrinə məktubunda bildirirdi ki, 1949-cu il planına görə Ermənistan SSR-dən Azərbaycana 3278 təsərrüfat, yaxud 15.276 nəfər adam köçürülməlidir. Faktiki olaraq isə 10.595 adam, yaxud 2368 təsərrüfat köçürülmüşdür. Plan üzrə köçürmək üçün 628 təsərrüfat, yaxud 3201 nəfər adam qalır. Onlar oktyabr-noyabr aylarında Azərbaycana köçürülməli idilər. Ona görə də onlar öz evlərini, mal-qara üçün tədarük

köçürülən əhali özləri ilə ictimai təsərrüfatlardan 4502 baş iribuynuzlu mal-qara, 12720 baş davar, 206 baş at və 66 baş donuz, şəxsi təsərrüfatlardan isə 2607 baş iribuynuzlu mal-qara, 4178 baş davar və 64 baş at gətirmişlər.

Teleqramda xahiş olunurdu ki, heyvandarlığın inkişafına dair dövlət planında həmin sayda mal-qara Ermənistan SSR-in hesabından çıxarılaraq Azərbaycan SSR-i planına əlavə edilsin.

Köçürülən mal-qaranın sayı belə dəqiqliklə qeydiyyatdan keçirildiyi halda, 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmüş və ya köçməyə məcbur olmuş azərbaycanlı əhalinin dəqiq uçotu olmamış, köçürülənlərin sayı haqqında respublika Nazirlər Soveti yanında Köçürmə İdarəsinin eyni ildə və hətta eyni ayda verdiyi məlumatlarda onların sayı müxtəlif cür göstərilmişdir. Məsələn: həmin idarə rəisinin SSR Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə 1952-ci il 25 sentyabr tarixli məktubunda 1948-1953-cü illərdə Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına 8082 təsərrüfatın (34.513 nəfərin), həmin il sentyabrın 17-də isə respublika Nazirlər Sovetinə yazdığı məlumatda isə göstərilən illərdə 9123 təsərrüfatın (38.767 nəfərin) köçürüldüyü göstərilir. Özü də köçürülmə idarəsi Azərbaycan SSR-ə köçürülən və köçməyə məcbur olanların ümumi sayını deyil, əsasən Kür-Araz ovalığına köçənlərin hesabını aparmışdır.

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi "Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında" qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına 4674 təsərrüfat (20.000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Qərarda köçürülənlər üçün lazım olan tikinti işlərinin yarıtmaz vəziyyəti də qeyd olunur. Köçürülənlər üçün iki ildə cəmi 80 təzə ev tikilmişdi. Həmin qərarda köçürülənlər üçün evlərin və ictimai-məişət müəssisələrinin genişləndirilməsi tədbirlərindən də ətraflı bəhs olunur.

1950-ci il martın 14-də Azərbaycan SSR Nazirlər Soveti Ermənistan SSR-dən yaz köçürmə planını və həmin il avqustun 25-də isə payız köçürmə planını təsdiq edən iki qərar qəbul edir. Birinci qərarla yazda 1672 təsərrüfatın (6510 nəfərin), payızda isə 1747 təsərrüfatın (7851 nəfərin) köçürülməsi planlaşdırılırdı.

1950-ci ildə köçürmə ilə əlaqədar respublika təşkilatları qarşısında duran başlıca vəzifə köçürülənlər üçün yeni evlər tikmək işinin təşkili idi.

Sənədlərdən göründüyü kimi, 1950-ci il köçürmənin ən ağır ili olmuşdur. Köçürülənləri yerləşdirmək üçün yaşayış evləri yox idi. Azərbaycan köçürmə tikinti tresti və onun rayonlardakı kontorları bu işin öhdəsindən gələ bilmirdi. Məsələn, həmin ilin yanvarında Qaradonludan alınmış teleqramda göstərilirdi ki, 3-cü sutkadır ki, II vaqon köçkün vaqonları boşaltmır. Həmin ilin noyabrında Ucardan alınmış digər teleqramda deyilirdi ki, Zərdab rayonuna köçürülmək üçün Ucar stansiyasına gətirilmiş 52 ailə bir aydan artıqdır ki, açıq səma altında gecələyirlər, vəziyyət çox ağırdır. Köçürülənlər əvvəllər Jdanov rayonunda yerləşdirilmiş qohumları ilə birləşdirilmələrini xahiş edirlər. Göründüyü kimi, Ermənistanın bir kəndindən gələnlər müxtəlif rayonlara, kəndlərə, kolxoz və sovxozlara paylanırdılar. Bu da onların haqlı narazılığına səbəb olurdu. Onlar müxtəlif kolxozlara səpələnir, gətirdikləri ictimai əmlak və mal-qara isə bu və ya digər kolxozda qalırdı.

1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, əslində isə 470 ev tikilmiş, plan 13,4 faiz yerinə yetirilmişdi. 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin olunmamışdır.

1950-ci ildə köçürülənlər üçün ev tikmək və mal-qara almaq məqsədilə ayrılmış 19 milyon manat kreditin yalnız 13.9 milyon manatı (73 faizi) xərclənmişdi.

1950-ci ilin noyabrında Ermənistan SSR-in Zəngibasar rayonu Rəhimabad kəndindəki "Azad" kolxozundan Azərbaycan SSR-in Ağcabədi rayonunun Molotov adına kolxozuna köçürülmüş Əmir İsmayılov 1951-ci il avqustun əvvəllərində yenidən öz doğma kəndlərinə qayıdır. Avqustun 13-də isə Yerevandan Moskvaya İ.Stalinin adına aşağıdakı məzmunda teleqram göndərir: "Əziz atamız Stalin ! Sizə məlum edirəm ki, bizi 1950-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürdülər. Yenə də geriyə Ermənistana qayıtmalı olduq. O səbəbə ki, Azərbaycanda bizim yaşayışımız üçün şərait yoxdur. Azərbaycanın iqlim şəraiti bizə orada yaşamağa imkan vermir. Uşaqlarımız orada tələf oldu, özümüz isə bu günə qədər də xəstəyik. Əziz ata. Sizdən xahiş edirik ki, bizə imkan verəsiniz, yenə də Ermənistan SSR-də yaşayaq".

Xalqımızın münasibətlərinin əsl səbəbkarının ünvanına göndərilmiş həmin teleqramın bir surəti Moskvadan Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin adına göndərilərək xəbər verilirdi ki, SSRİ Nazirlər Sovetinin tapşırığı ilə Baş Köçürmə İdarəsinin inspektoru V.Nesteroviç həmin ərizəni yerində yoxlamaq məqsədilə Azərbaycana gəlib Ağcabədi rayonunda olacaq, oradan isə Ermənistan SSR-in Zəngibasar rayonuna gedəcək. Ona hərtərəfli köməklik göstərilməsi tapşırılırdı.

Sənədlərdən görünür ki, V.Nesteroviç gəlmiş, o, Azərbaycan və Ermənistan köçürmə idarələrinin nümayəndələri ilə birlikdə yuxarıda göstərilən rayonlarda olmuşdur. Lakin həmin yoxlamanın nəticələri barədəki sənədlərə arxivdə rast gəlmədik.

1951-ci ildə SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsi özünün kollegiya iclaslarında üç dəfə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz



ovalığına köçürülməsi vəziyyətini müzakirə etmişdir. Hər dəfə də köçürmə işinin qeyri-qənaətbəxş getdiyi xüsusi qeyd olunmuşdur. İlk müzakirə həmin il yanvarın 31-də keçirilən "1950-ci ildə köçürmənin nəticələri və 1951-ci ildə köçürməyə hazırlıq işlərinin vəziyyəti haqqında" məsələsi idi. Köçürmə idarəsi kollegiyasının qərarında qeyd olunurdu ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən köçürülmüş 8110 ailədən 4878-i yaşayış evləri ilə təmin olunmamışdır.

Həmin il aprelin 28-də və avqustun 28-də bu məsələ yenə də SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsində müzakirə olunur və köçürmə işinin yarıtmaz vəziyyəti ilə bağlı SSRİ Nazirlər Sovetinə məlumat vermək haqqında qərar qəbul edilir.

Görünür ki, Baş Köçürmə İdarəsinin 1951-ci ildə Azərbaycana köçürmə ilə əlaqədar məsələlərə belə maraq göstərməsi səbəbsiz deyildir. Həmin il Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürülmüş azərbaycanlı əhali arasında geriqayıtma hallarına təsadüf edilir. Ermənistan SSR-dən azərbaycanlılar ictimai təsərrüfatları qoyaraq özbaşına Azərbaycana köçərkən Ermənistan SSR rəhbərləri susur, bir dəfə də olsun buna etirazlarını bildirmirdilər. Lakin Kür-Araz ovalığına köçürülmüş azərbaycanlıların öz ata-baba yurdlarına geri qayıtması halları müşahidə edilən kimi, Ermənistan SSR rəhbərləri, necə deyərlər, əsl həyəcan təbili vurdular. 1951-ci ilin may-iyun aylarında Ermənistan SSR Nazirlər Soveti, köçürmə idarəsi, rayon icraiyyə komitələri Azərbaycan SSR Nazirlər Sovetinə, SSRİ Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə bir-birinin ardınca məktub və teleqramlar göndərərək geri qayıtma halları ilə əlaqədar böyük hay-küy kampaniyası başlayırlar. Ermənistan SSR Köçürmə İdarəsinin rəisi mayın 27-də Moskvaya 360 ailənin, Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyan mayın 29-da Azərbaycan SSR Nazirlər Sovetinə 376 ailənin, Axta Rayon İcraiyyə Komitəsinin sədri isə təkcə Axta rayonuna 117 ailənin qayıtdığını bildirirlər. Onları qorxu-

dan başlıca məsələ qayıdan ailələrin hələ köçürülməmiş ailələr arasında apardıqları təbliğat idi. S.Karapetyan öz teleqramında bildirirdi ki, hökumət tərəfindən müəyyən olunmuş köçürmə qaydalarını pozduqları üçün geri qayıdanlar Ermənistanda qəbul edilə bilməz.

Qayıtma ilə əlaqədar Ermənistan SSR tərəfindən qaldırılmış bu qalmaqal nəticəsində Azərbaycan SSR rəhbərliyi respublika köçürmə idarəsindən geri qayıdanlar haqqında arayış tələb edir. Arayışda göstərilirdi ki, Ermənistana qayıdan ailələrin sayı S.Karapetyanın teleqramında göstərildiyi kimi 376 deyil, cəmi 215-dir. Qeyd olunurdu ki, 1948-1950-ci illərdə Ermənistan SSR-dən cəmi 8018 təsərrüfat (34.382 nəfər) köçürülmüşdür. Ermənistan SSR-i aran rayonlarından Kür-Araz ovalığına köçürülmüş azərbaycanlılar buranın kolxoz və sovxozlarında vicdanla işləyirlər. Ermənistanın Axta, Basarkeçər, Qarabağlar kimi dağ rayonlarından köçürülmüş əhali isə dəfələrlə Kür-Araz düzənliyinin iqliminin onlara düşmədiyindən şikayətlənir, onlara Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilməsini xahiş edirlər. SSRİ Nazirlər Sovetinin qərarında yalnız Kür-Araz ovalığına köçürmək nəzərdə tutulduğu üçün onların tələbləri yerinə yetirilmir. Arayışda göstərilirdi ki, əgər onlara Azərbaycanın dağ rayonlarına köçməyə icazə verilərsə, onda onları bir neçə günün içərisində Azərbaycana qaytarmaq olar. Lakin onların qeyri-qanuni tələbi (görəsən niyə zorla köçürmə qanuni olurdu, lakin onların dağ rayonlarına köçürülmələrini tələb etmələri qeyri-qanuni A.P.) yerinə yetirilərsə, bu gələcəkdə köçürmə işinə mənfi təsir göstərə bilər. Çünki Azərbaycana köçürmək üçün əsasən dağ rayonlarının əhalisi qalıb. Əgər indikilərə güzəştə gedilsə, onlar da dağ rayonlarına köçürülmələrini tələb edə bilərlər.

S.Karapetyanın 29 may tarixli teleqramı ilə əlaqədar olaraq Azərbaycan SSR Nazirlər Soveti həmin il iyunun 7-də xüsusi qərar qəbul edir. Bu məsələnin Nazirlər Sovetində müzakirəsi zamanı azərbaycanlıların geri qayıtması əsl faciə kimi



qarşılanır. Bütün günahlar Azərbaycan SSR Köçürmə İdarəsi rəhbərlərinin üzərinə qoyulur, bu hadisəyə siyasi qiymət verilərək köçürmə idarəsinin rəhbərləri siyasi kütlükdə ittiham olunur və cəzalandırılırlar.

Respublika Nazirlər Sovetinin qərarı ilə N.Allahverdiyevin rəhbərliyi altında Azərbaycan SSR Köçürmə İdarəsi işçiləri həmin ilin iyun-iyul aylarında Ermənistana gedib orada yerli rayon icraiyyə komitələri ilə birlikdə geri qayıdanların siyahılarını dəqiqləşdirirlər. Müəyyən olunur ki, 1951-ci il iyunun 1-nə qədər 376 təsərrüfat deyil, cəmi 217 təsərrüfat (872 nəfər) geri qayıtmışdır. Köçürmə İdarəsi tərəfindən respublika Nazirlər Sovetinə təqdim edilmiş arayışda göstərilirdi ki, S.Karapetyanın teleqramındakı rəqəmlərə köçürmə zamanı həbsdə, ordu sıralarında olmuş, düzgün olmayaraq köçürmə siyahısında göstərilən adamlar da daxil edilmişdir. Arayışda göstərilirdi ki, təkcə onların yoxladıqları rayonlarda 1948-1950-ci illərdə 1000 təsərrüfatdan yuxarı azərbaycanlı ailəsi ictimai əmlaklarını qoyaraq, özbaşına Ermənistan SSR-ni tərk edib Azərbaycanın müxtəlif rayonlarına köçmüşlər.

Əvvəlki illərdə olduğu kimi, 1951-ci ildə də köçürmə məsələsi respublika Nazirlər Sovetinin diqqət mərkəzində olmuş, həmin il oktyabrın 11-də Nazirlər Soveti "Ermənistan SSR-dən köçürülənlərin təsərrüfat cəhətdən yerləşdirilməsi və 1951-ci il payız köçürmə planının yerinə yetirilməsinin gedişi haqqında" qərar qəbul etmişdir. Qərarda göstərilirdi ki, 1951-ci ilin 9 ayı ərzində 3400 yeni ev tikilərək köçürülənlərə təhvil verilməli idi. Əslində isə cəmi 2231 ev tikilmiş, tikinti planı 65,7 faiz yerinə yetirilmişdir.

1951-ci ildə cəmi 1500 təsərrüfatın Ermənistan SSR-dən Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi planlaşdırılmışdır. Köçürülməsi nəzərdə tutulan 400 təsərrüfat qeyri - kolxoz təsərrüfatı, yəni Yerevandan olan müəllimlər, müxtəlif idarə işçiləri, redaksiya əməkdaşları, həkimlər, evdar qadınlar

və başqaları idi. Onların ixtisaslarına uyğun Kür-Araz ovalığını pambıqçılıq rayonlarında iş olmadığı üçün Ermənistan SSR Köçürmə İdarəsi 1951-ci il köçürmə planından 400 təsərrüfatı çıxaraq, 1951-ci ildə 1100 təsərrüfatı köçürməyi təklif edir. 1951-ci ilin yazında 300 ailənin köçürülməsi planlaşdırılmış, əslində isə 311 ailə köçürülərək plan 103, 6 faiz yerinə yetirilmişdir.

1952-ci il yanvarın 17-də Azərbaycan SSR Nazirlər Soveti "1952-ci ildə Azərbaycan SSR-ə köçürmə planı və köçürülənlər üçün yaşayış evlərinin hazırlanması haqqında" qərar qəbul edir. Qərarda göstərilirdi ki, 1951-ci il köçürülməsi üçün yaşayış evlərinin tikilməsi işi qeyri - qənaətbəxş şəkildə aparılmışdır. Planda 1100 təsərrüfatın köçürülməsi nəzərdə tutulmuş, əslində isə 909 təsərrüfat köçürülmüşdür, köçürmə planı 82,6 faiz yerinə yetirilmişdir. 1951-ci il planında 5000 yaşayış evinin tikintisi planlaşdırılmış, əslində isə 3704 ev tikilib istifadəyə verilmiş, plan 74, 1 faiz yerinə yetirilmişdir.

Qərarda 1952-ci ildə Kür-Araz ovalığına 1200 təsərrüfatın köçürülməsi, onlardan 600 təsərrüfatın Ermənistan SSR-dən, 600 təsərrüfatın isə respublika daxili ehtiyatları hesabına həyata keçirilməsi planlaşdırılırdı. Həmin ildə köçürülənlər üçün 2500 yaşayış evi tikmək nəzərdə tutulurdu.

Əlbəttə, illər keçdikcə köçürmə idarəsinin köçürmənin təşkili ilə əlaqədar təcrübəsi də artır. Köçürülənlər üçün tikilən evlərin sayı çoxalır, yeni qəsəbələr salınır, kəndlərin görkəmi dəyişirdi. Bununla yanaşı, köçürülənlər üçün hələ də lazım olan şərait yaradılmamışdı.

İçməli su, mənzil-məişət, səhiyyə və mədəni-kütləvi xidmətin səviyyəsi olduqca aşağı idi. Ermənistan SSR-in Vedi rayonundan Ağdaş rayonunun Qoşaqovaq kəndinə köçürülmüş 24 ailə adından İzzət Əliyev, İbrahim Allahverdiyev, Cavad Cavadov, Yolçu Əliyev və başqalarının 1953-cü il aprelin 3-də Azərbaycan SSR Nazirlər Sovetinə yazdıqları ərizədə oxuyuruq: "Biz 1952-ci ilin oktyabrında Ermənistan SSR-in



Vedi rayonundan köçüb Ağdaş rayonuna gəlmişik. Yeni köçüb gəlmiş 24 evi yararsız, təmirə ehtiyacı olan darısqal binalarda yerləşdirmişlər. Gələrkən bizə yazda (1953-cü ilin yazında - A.P.) yeni yaşayış binalarının tikiləcəyini vəd etdikləri halda, hələ də biz ev sahibləri ilə gündə qalmaqal şəraitində həmin evlərdə yaşayırıq. Ev sahibləri bizə verilən evlərdən tezliklə çıxmağımızı tələb edirlər. 15-16 kvadratmetr sahəsi olan evdə 10-12 nəfər daldalanırıq... Rayon və kolxoz rəhbərləri yeni köçüb gələn kolxozçuların kənddən çıxıb getməsinə çalışırlar".

Sənədlərdən göründüyü kimi, "Köçürmətikinti" trestinin tikdiyi evlərin çoxu çiy kərpicdən olub, xaricdən saman qatılmış palçıqla suvanırdı. Yeraltı suların daha çox üzdə olduğu Kür-Araz ovalığında tikilmiş belə binalar davamsız olub, yaz vaxtları tezliklə nəm çəkərək uçub dağılırdı. Bu cür binaların bir tərəfdən əlverişsiz olması, digər tərəfdən isə çox baha başa gəlməsi köçürülənlərin ciddi narazılığına səbəb olurdu.

1952-ci ildə respublika Nazirlər Soveti tərəfindən SSRİ Nazirlər Sovetinə yazılmış məktubda bildirilirdi ki, nümunəvi layihələr əsasında tikilən evlər cəmi ikiotaqlı, həcminin isə 25,7 kvadratmetr olması, köməkçi tikililərin (tövlə, əldamı, ayaqyolu və s.) yoxluğu, qiymətlərinin baha olması köçkünləri narazı salır. Onlar həmin evləri qəbul etməkdən imtina edirlər. Kolxozçuların bu evlərdən imtina etməsi nəticəsində kolxozlar banklara 17 milyon manat qədər pul borclu qalıblar. Bütün bunları nəzərə alaraq respublika Nazirlər Soveti İttifaq hökumətindən xahiş edirdi ki, yaranmış şəraiti nəzərə alaraq tikilmiş evlərin qiymətinin 50 faizi kolxozçulara güzəşt edilsin.

1952-ci ildə Ermənistan SSR-dən köçürmə planı 124,6 faiz yerinə yetirilir. Köçürülənlər üçün evlər tikilməsi planı isə 80,6 faiz ödənilir.

1953-cü il fevralın 5-də respublika Nazirlər Soveti "1953-cü ildə Azərbaycan SSR-də köçürmə planı və köçürülənlər üçün yaşayış evləri hazırlamaq haqqında" qərar qəbul edir.



13.-3510

Həmin ilin yazında respublika Nazirlər Soveti yanında Köçürmə İdarəsi Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilir.

1953-cü ildə Stalinin ölümündən sonra Ermənistan SSR-dən Kür-Araz ovalığına köçürmənin sürəti azalır. Bundan sonra isə əks proses başlayır. Azərbaycana köçürülmüş əhali geri qayıdır. Bu proses 1954-cü ildə daha da sürətlənir. Ermənistan SSR rəhbərləri buna qəti etirazlarını bildirirlər. 1954-cü ilin aprelində Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti başda nazir müavini M.Poladov olmaqla Ermənistan SSR-in azərbaycanlılar yaşayan rayonlarını gəzir, onların geri qayıtması səbəblərini araşdırırlar. Onlar öz məlumatlarında göstərirdilər ki, geri qayıtmanın başlıca səbəbi Kür-Araz ovalığında köçürülənlər üçün lazımi şəraitin olmaması, Ermənistanın dağ rayonlarından köçürülən azərbaycanlıların bu yerlərin iqliminə alışa bilməməsidir. Onların məlumatına görə, 1954-cü ilin aprelinə qədər 1155 təsərrüfat geriyə - özlərinin əvvəlki yerlərinə qayıtmışlar.

Arayışda geriyə qayıtmanın qarşısını almaq üçün konkret təkliflər də irəli sürülürdü. Bu təkliflər sırasında Azərbaycan SSR-in Kür-Araz ovalığında onlar üçün əlverişli şərait yaradılması, Ermənistan SSR-ə dönənləri orada yenidən məskunlaşmağa qoymamaq, özləri üçün yeni evlər tikməyə, həyətyanı təsərrüfat yaratmağa icazə verməmək və s. təklif olunurdu.

1954-cü ilin mayında və sentyabrında azərbaycanlı əhalinin köçürüldüyü rayonların icraiyyə komitələrinin sədrlərinə və rayon partiya komitələri katiblərinə respublika partiya və hökumət rəhbərlərinin imzası ilə göndərilmiş məktubda həmin rayonlara köçürülənlərin Azərbaycan SSR-in başqa rayonlarına getməsinin və Ermənistan SSR-ə geri qayıtmasının tezliklə qarşısını almaq tapşırılırdı. Məktubda göstərilirdi ki, bu günə qədər Kür-Araz ovalığına köçürülmüş ailələrdən 1000-dən



yuxarısı özləri üçün yaşayış evi ala bilməmiş, hələ də yerli kolxozçuların evlərində yaşayırlar. Bərdə rayonunun Malenkov adına kolxozunda isə onlar yeraltı daxmalarda daldalanırlar. Məktubda deyilirdi ki, onlar üçün mənzil-məişət şəraiti yaradılmalı, içməli su ilə təmin olunmalı, köçkünlərə səhiyyə xidməti kökündən yaxşılaşdırılmalı, Kür-Araz ovalığına köçürülənlərin dəqiq siyahısı tərtib edilməlidir.

Azərbaycan SSR kənd təsərrüfatı nazirinin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-ya və respublika Nazirlər Sovetinə göndərdiyi məktubunda göstərilirdi ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11.914 təsərrüfat (53.000 nəfər) köçürülmüşdür.

Azərbaycana köçürülənlərin və köçməyə məcbur olanların sayı ilə əlaqədar bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Sənədlərdən aydın olur ki, həmin illərdə rəsmi köçürmə ilə yanaşı, köçürülən yerlərə getmək istəməyənlər, yaxud Ermənistanda yaradılmış dözülməz şəraitdən, təhqirlərdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdır. Onlar kütləvi surətdə Azərbaycanın müxtəlif rayonlarına, əsasən isə Ermənistanla sərhəd olan Gədəbəy, Tovuz, Şamxor, Zəngilan və b. rayonlara köçmüşlər. Ermənistanda məharətlə pərdələnmiş təqiblərdən baş götürüb qaçanları Azərbaycanda da gülərüzlə qarşılamırdılar. Sənədlər bu faktı açıq-aşkar sübut edir. "Kommunist beynəlmiləlçiliyi" mövqeyində sədaqətlə dayanan respublika rəhbərliyi onları incitmiş, qayıtmaq istəyənlərə mane olmuş, onları yalnız SSRİ Nazirlər Sovetinin qərarında nəzərdə tutulan Kür-Araz ovalığındakı rayonlara getməyə məcbur etmişlər.

Sənədlərdən göründüyü kimi, planlı surətdə Kür-Araz ovalığının ilan mələyən düzlərinə köçürülməkdən vahiməyə düşən bir çox azərbaycanlı ailələri tezliklə özləri Ermənistan SSR ərazisini kütləvi surətdə tərk edir, Azərbaycanın digər rayonlarına pənah gətirirdilər. Ermənistan SSR Basarkeçər rayonu Zod kəndinin sakini Bala Hacıyev 1948-ci ilin fevra-

lında şəxsən Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olmuş və öz kəndliləri adından xahiş etmişdir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçməsinə icazə versin. Onların xahişi yerinə yetirilmiş və həmin 100 ailə Xanlar rayonuna köçmüşdür.

1948-ci il aprelin 20-də respublika Nazirlər Sovetinin əməkdaşı A.Bıxovski Nazirlər Sovetinin sədrinə verdiyi məlumatda bildirirdi ki, Ermənistan SSR-in Qəmərli rayonunun Sabunçu kəndindəki "Zəhmət" kolxozunun üzvü Kazım Məmmədov Nazirlər Sovetinə müraciət edərək onunla birlikdə Sabunçu kəndindən 10 ailənin, qonşu Qaraqoyunlu kəndindən isə 6 ailənin, cəmi 51 nəfərin, o cümlədən 27 nəfər əmək qabiliyyətli sakinin Ermənistan SSR-dən Azərbaycana köçərək, hazırda Tovuz rayonunun Nizami kolxozunda yaşayırlar. K.Məmmədov bildirirdi ki, aprelin 4-də onların kəndinə Yerevan şəhərindən Balabəy Martirosyan və Hüseyn Məmmədov gəlib bildirmişlər ki, azərbaycanlı əhali öz evlərini və əmlaklarını sataraq Azərbaycan SSR-ə köçməlidirlər. Bundan vahiməyə düşən kəndimizin sakinlərindən çoxu öz evlərini dəyər-dəyməzinə satmış və hazırda evsiz-eşiksiz qalmışlar.

Həmin ailələrə məxsus mal-qaranı da dabaq xəstəliyi bəhanəsi ilə aparmağa qoymamış, onları dəyər-dəyməzinə satmağa məcbur etmişlər. K.Məmmədov respublika hökumətinə müraciət edərək, onların Tovuz rayonunda məskunlaşmasına razılıq verməyi xahiş edir.

Başqa bir məktubda Vedi rayonunun Avşar kənd sakini Mircəlal Məmmədov xahiş edirdi ki, Ermənistan SSR-də sement zavodunda işlədiyi üçün ona Tovuz sement zavodunda işləməyə icazə verilsin.

Sonrakı illərdə də azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycanın ayrı-ayrı rayonlarına özbaşına köçməsi halları davam etmişdir. 1949-cu ilin aprelində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı, hərbi qulluqçu, əslən Ermənistan SSR-in Kirovakan rayonunun Gözəldərə kəndindən olan Xıdır Mustafayev respublika Nazirlər Sovetinə göndərdiyi məktubunda yazırdı ki, Köçürmə İdarəsinin razılığı ilə anasını və qardaşlarını Xanlar rayonuna köçürmək istəmişdir. Rəsmi razılıq olmasına baxmayaraq, Xanlar Rayon İcraiyyə Komitəsinin sədri, milliyyətcə erməni Atanesov Xanlar şəhərində xeyli boş mənzil ola-ola, onlara zirzəmiləri və yararsız daxmaları təklif etmişdir. X.Mustafayev öz məktubunda ailəsinə yararlı mənzil verilməsi barədə köməklik göstərməyi xahiş edir.

Həmin il aprelin 27-də Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov Azərbaycan K(b)P Mərkəzi Komitəsinə məktub ilə birgə, Ermənistan SSR Zəngibasar rayonu Elyas kəndindən kolxozçuların ümumi iclasının protokolunu da göndərir. 220 nəfər kolxoz üzvünün iştirakı ilə keçən iclas Naxçıvan MSSR rəhbər orqanlarına üz tutub bu kolxoza daxil olan 150 təsərrüfatı Naxçıvan Muxtar Respublikasında yerləşdirməyi xahiş edir. Kolxozçuların qəbul etdikləri qərarda deyilirdi: "Kolxozumuz varlı kolxozdur. Belə bir kolxozu kəndlərə dağıtmaq yaxşı deyil. Bütün kolxozun bir yerə köçməsi təsərrüfatımızın iqtidarını pozmaz... Noraşen rayonunun iqlimi və suyu da bizə yaxındır. Orada tezliklə əkin əkə bilərik. Qoşqu qüvvəmiz və toxumumuz da var. Naxçıvan MSSR Ali Sovetindən və Nazirlər Sovetindən xahiş edilsin ki, bizim kolxozun üzvlərinin Noraşen rayonunun Şəngiley və Dərəkənd kəndlərinə köçməsinə icazə versinlər".

Y.Yusifov AK(b)P MK-dan xahiş edir ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda qəbuluna icazə verilsin.

1949-cu ilin sentyabrında Sisyan rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Naxçıvan MSSR-in Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş edirlər. Elə həmin vaxt Ermənistan SSR Axta rayonu S.Ağamalıoğlu adına kolxozun üzvləri

də respublika Nazirlər Sovetindən Azərbaycan SSR-ə köçməyə icazə verilməsini xahiş edirlər. Bu ərizələrə cavab olaraq respublika Köçürmə İdarəsi bildirir ki, Şahbuz rayonu Kür-Araz ovalığına daxil olmadığı üçün Şəki kəndinin sakinləri oraya dövlət tərəfindən mütəşəkkil şəkildə köçürülə bilməzlər. Axta rayonu S.Ağamalıoğlu kolxozunun sakinlərini isə Kür-Araz ovalığında istədikləri yerə köçürmək imkanı var.

1949-cu il noyabrın 23-də Vedi Rayon Soveti İcraiyyə Komitəsinin sədri A.Məmmədov Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyana bildirirdi ki, 1948-1949-cu illərdə təkcə Vedi rayonundan 700-dən yuxarı azərbaycanlı təsərrüfatı özbaşına Azərbaycanın müxtəlif rayonlarına köçmüşlər. O yazırdı ki, təkcə son beş gündə əlavə 75 təsərrüfat da Vedini tərk edərək özbaşına Azərbaycana getmiş və bu cür gedənlərin sayı gündən-günə artmaqdadır.

1948-ci ildə Kür-Araz ovalığına daxil olmayan Gədəbəy, Qazax, Şamxor, Səfərəliyev, Kirovabad, Xanlar, Quba, Dəstəfur, Bakının Maştağa və Əzizbəyov rayonlarına köçürülmüş əhali üçün SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında nəzərdə tutulan güzəştli şərtlərdən istifadə haqqında Azərbaycan SSR Nazirlər Sovetinin xahişinə baxmayaraq, ittifaq hökuməti buna razılıq verməmişdir. Bu da həmin rayonlara köçürülmüş əhalinin həyat şəraitini daha dözülməz etmişdir.

1950-ci ilin fevralında respublika Köçürmə İdarəsi Naxçıvan Vilayət Partiya Komitəsinə və Nazirlər Sovetinə 1950-ci ilin yazında 500 təsərrüfatın Ermənistan SSR-dən Noraşen rayonuna köçürülməsinə icazə vermək barədə xahişə cavab olaraq bildirirdi ki, hazırda rəsmən yalnız Kür-Araz ovalığına köçürmədən söz getməsinə baxmayaraq, Naxçıvan MSSR Ermənistan SSR-in Qarabağlar, Vedi, Artaşat rayonlarından özbaşına gələn azərbaycanlı əhalini qəbul edir. Onların arasında Kür-Araz ovalığına köçürmə bileti olanlar belə vardır. Köçürmə İdarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar edirdi ki, gələcəkdə bu cür hallara yol verməsin.



Ermənistan SSR-dən köçürülən azərbaycanlı əhalinin Kür-Araz ovalığına deyil, Azərbaycanın digər rayonlarına kütləvi surətdə "özbaşına" köçməsinin qarşısını almaq məqsədilə 1950-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri və Azərbaycan KP MK katibinin imzası ilə rayon icraiyyə komitələri sədrlərinə və rayon partiya komitələri katiblərinə xüsusi məktub göndərilir. Məktubda göstərilirdi ki, Qazax, Tovuz, Ağstafa, Şamxor, Gədəbəy, Xanlar, Dəstəfur, Mirbəşir, Bərdə, Ağdam və başqa rayonların rəhbərləri Ermənistan SSR-dən özbaşına gələn azərbaycanlı əhalini qəbul edirlər. Bu isə Ermənistan SSR-dən köçürülən əhalinin işçi qüvvəsini lazımi rayonlarda yerləşdirməyə imkan vermir. Ermənistan SSR-dən özbaşına gələn azərbaycanlıların Kür-Araz ovalığına daxil olmayan rayonlarda qəbulunu dayandırmaq tələb olunurdu.

Köçürmə İdarəsinin məlumatında göstərilirdi ki, tam olmayan məlumata görə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana özbaşına 4396 nəfərin daxil olduğu 856 ailə köçmüşdür. 1949-cu ildə Şamxor rayonuna özbaşına 215 təsərrüfat (1173 nəfər), Gədəbəyə 77 təsərrüfat (427 nəfər), Qazaxa 86 təsərrüfat (425 nəfər) və s. köçmüşdür. Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycana kütləvi şəkildə köçməsi halları sonrakı illərdə də davam etmişdir. Köçürmə İdarəsinin məlumatlarının birində göstərilir ki, nümayəndələrinin gəzdiyi bir neçə rayondan təkcə 1948-1950-ci illərdə 1000-dən yuxarı azərbaycanlı ailəsi özbaşına Azərbaycanın müxtəlif rayonlarına köçmüşdür. Bütün bunlar nəzərə alınarsa, şübhəsizdir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən 100 mindən yuxarı azərbaycanlı köçürülmüş və ya köçməyə məcbur edilmişdir.

Deportasiya ilə bağlı bir məsələnin üzərində xüsusi dayanmaq vacibdir. Son on ildə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar daşnak liderləri dəridən-qabıqdan çıxaraq bütün dünyaya sübut etməyə çalışırlar ki, guya Dağlıq Qarabağda

ermənilərə qarşı ayrı-seçkilik siyasəti yeridilmiş, onlar sıxışdırılmış, incidilmişlər. Tarixi sənədlər isə bunun tam əksini sübut edir. Əgər o zaman Ermənistan SSR-in dağlıq rayonlarından köçürülən azərbaycanlı əhali təbii şəraiti gəldikləri rayonların təbii şəraitinə tam uyğun gələn Dağlıq Qarabağda yerləşdirilsəydilər, bu daha insaflı və ədalətli olardı. Lakin bu belə olmadı. Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin nümayəndəsi Əbdürrəhmanov, DQMV İcraiyyə Komitəsi sədrinin müavini Kərimov, vilayət Daxili İşlər İdarəsi rəisinin müavini Venediktov və vilayət Partiya Komitəsi Kənd Təsərrüfatı Şöbəsi müdirinin müavini Süleymanyanın iştirakı ilə Ermənistan SSR-dən DQMV Martuni rayonuna köçürülmüş azərbaycanlı əhalinin yerləşdirilməsi haqqında 1949-cu ilin yanvarın 15-də aparılmış yoxlamadan sonra Stepanakertdə tərtib olunmuş arayışda göstərilirdi ki, 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-in Martuni rayonuna 131 azərbaycanlı ailəsi (570 nəfər) köçürülmüşdür. Onlardan 86 ailə (355 nəfər) Qişi, 17 ailə (82 nəfər) Güney-Çartaz və 25 ailə (120 nəfər) Xunuşnak kəndlərində yerləşdirilmişlər. Göstərilirdi ki, köçürülənlər üçün son dərəcə dözülməz şərait yaradılıb. Uşaqların oxuması üçün məktəblər yoxdur. Martuni rayon xalq maarif şöbəsinin müdiri Ulubabyan "gəlmə" azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna mane olurdu. Güney-Çartaz kəndindən heç bir səbəb olmadan azərbaycanlı müəllimi Azərbaycan dili dərsi deməkdən kənarlaşdıraraq, Azərbaycan dilinin tədrisini bu dili bilməyən məktəb müdirinə tapşırır. Xunuşnak kəndinə köçürülmüş uşaqlar həmin kənddə Azərbaycan qrupu olmadığı üçün qarlı-şaxtalı günlərdə Qişi kəndinə gedib-gəlməyə məcbur olurdular. Köçürülənlərin əksəriyyəti işlə və həyətyanı torpaq sahələri ilə təmin edilmirlər. Çoxuşaqlı ailələrin vəziyyəti xüsusilə dözülməz idi. 8 uşaq anası Qəmər Abbasovanın, 6 uşaq anası Kübra Babayevanın və başqalarının



bir əmək günü belə yox idi. Yoxlama günü bu ailələrin heç birində yeməyə ərzaqları belə olmamışdı. Arayışda göstərilirdi ki, Ermənistandan gələnlər əsasən uçuq-sökük daxmalarda yerləşdirilmişdir. Onlara ev tikmək üçün ayrılan tikinti materialları Horadiz stansiyasında yatıb qalır. Rayon rəhbərliyi, rayon icraiyyə komitəsinin sədri Əmirxanyan və rayon partiya komitəsinin katibi Baxşıyan köçürülənlərin şikayətlərinə tam etinasız yanaşır, onların həyat şəraitini yaxşılaşdırmaq üçün heç bir tədbir görmürlər. Lakin bu yoxlamanın da heç bir nəticəsi olmur. Köçkünlər yenidən respublika hökumətinə müraciət etməyə məcbur olurlar.

1949-cu il may ayının 27-də Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Allahverdiyev, respublika Nazirlər Soveti sədrinin müavini İ.K.Abdullayevə yazdığı məlumatında bildirirdi ki, sizin göstərişinizlə 1948-ci ilin avqustunda DQMV Martuni rayonunun Qişi və Xunuşnak kəndlərinə Ermənistan SSR-dən köçürülmüş azərbaycanlı əhalinin vəziyyətini vilayət təşkilatları ilə birlikdə həll etmək üçün Stepanakertdə oldum. Martuniyə köçürülmüş əhali çox acınacaqlı vəziyyətdə yaşayır. Onlar Martuni rayonunun Qişi və Xunuşnak kəndlərində qalmağa qəti etiraz edirlər. Çünki bu kəndlərdə daim məskən salmaq və həyətyanı təsərrüfat yaratmaq üçün heç bir imkan yoxdur. N.Allahverdiyev göstərirdi ki, köçürülənlərin yaşayışı ilə tanış olduqdan sonra onların tələblərinin tamamilə haqlı olduğunu aşkar etdim. Köçkünlər üçün həyətyanı sahələr ayırmağa belə həmin kəndlərdəki kolxozların imkanı və torpaq fondu yoxdur. Məlumatda deyilirdi ki, Martuni rayonu Kür-Araz ovalığına daxil deyil. Mardakert rayonu isə Kür-Araz ovalığına daxildir və orada gələnlərin həyətyanı təsərrüfat sahəsi yaratması üçün kifayət qədər torpaq fondu var. Təklif olunurdu ki, həmin ailələr Mardakert rayonu ərazisinə köçürülsünlər.

Təəssüf ki, bu təklif də yalnız kağız üzərində qalmış, nəticədə Martuni rayonuna köçürülmüş azərbaycanlı əhali

oradan qaçıb dağılmağa məcbur olmuşdur. Təbii ki, vahid mərkəzdən idarə olunan vilayət rəhbərləri Ermənistandan köçürülən azərbaycanlıların Dağlıq Qarabağda məskunlaşmasına heç cür yol verə bilməzdilər və vermədilər də. Acınacaqlı fakt odur ki, Azərbaycanda da köçürmə işinin əsas icraçıları məhz ermənilər idi. İmza edənin vəzifəsindən asılı olmayaraq bütün sənədləşməni erməni millətindən olan şəxslər aparırdılar. Şübhə yoxdur ki, Azərbaycan SSR Nazirlər Sovetində köçürmə məsələlərinin əsas icraçıları olan brutenslər, sevunyanlar Dağlıq Qarabağ rəhbərləri ilə birgə əvvəlcədən azərbaycanlıların elə yerlərə köçürülməsini planlaşdırmışlar ki, orada yaşayış üçün heç bir şərait olmasın və azərbaycanlı əhali özü gec-tez oradan qaçmağa məcbur olsunlar. Təəssüflər olsun ki, azərbaycanlı rəhbərlər bu qədər aşkar həqiqətləri dərk edə bilməmiş, yaxud Moskva qarşısında sədaqətlərini sübut üçün dərk etmək istəməmişlər.

Nəticədə 1949-1953-cü illərdə Ermənistan SSR-dən köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmamış, əksinə, daxili köçürmə adı ilə 1949-cu ildən Dağlıq Qarabağdan 132 ailə (549 nəfər) azərbaycanlı Azərbaycan SSR-in Xanlar rayonuna köçürülmüşdür. Beləliklə də, "Böyük Ermənistan" üçün ərazilər boşaldılması işi düşünülmüş şəkildə və planlı surətdə davam etdirilmişdir. Arxivdə saxlanılan bir tarixi sənəd qatı şovinist, millətçilik azarına tutulmuş Ermənistan rəhbərlərinin iç üzünü açıb ifşa edir. Bu sənəd 1954-cü ilin aprelində Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini Möhsün Poladovun Ermənistan SSR-ə ezamiyyətdən sonra respublika Nazirlər Sovetinə yazdığı məlumatdır. 1949-cu ildə Ermənistan SSR Nazirlər Sovetinin sədri S.Karapetyanın qeyri-qanuni göstərişi ilə Ləmbəli kəndindəki azərbaycanlılar yaşayan kolxoz ləğv olunur. Çox əlverişli təbii şəraiti olan bu kənddə subtropik bitkilər sovxozu yaratmaq bəhanəsi ilə oradakı 225 azərbaycanlı ailəsi zorla qovulur. S.Karapetyandan soruşan olmur ki, məgər həmin



sovxozda azərbaycanlılar işləyə bilməzlərmi? Nə üçün oraya hökmən ermənilər gəlməlidirlər? 1949-cu il dekabrın qarlı-şaxtalı günlərində Ləmbəlidən qovulmuş azərbaycanlı əhali Gürcüstan SSR-in azərbaycanlılar yaşayan kəndlərinə pənah gətirirlər. Lakin burada da gürcülər onları dinc buraxmır. Bir neçə gün sonra Gürcüstan SSR yerli hakimiyyət orqanlarının göstərişi ilə ləmbəlilər Gürcüstan ərazisindən də güclə qovulurlar. Onlar geriyə, öz yerlərinə qayıtmağa məcbur olurlar. Lakin bu dəfə S.Karapetyanın göstərişi ilə onlar öz yurdları - Ləmbəliyə buraxılmayaraq, Basarkeçər rayonuna göndərilirlər.

Ləmbəlilərin evləri isə bura köçürülən erməni ailələri arasında paylanır. XX əsrdə dəfələrlə azərbaycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklər törədən erməni vandalları Ləmbəlidəki azərbaycanlı qəbiristanlıqlarını da yerlə-yeksan edərək oranın daşlarından yeni binaların tikintisində istifadə edirlər.

Azərbaycan SSR rəhbərliyi tərəfindən heç bir kömək görməyən ləmbəlilər ölüm-dirim mübarizəsinə girişərək öz torpaqlarına dönmək istəyirlər. Üç ay sonra onlar Basarkeçərdən geri qayıdaraq Ermənistanla Gürcüstan sərhəddində, Ləmbəliyə yaxın bir yerdə özlərinə yeraltı dəyələr quraraq yaşayırlar. 1954-cü ilin əvvəllərinə qədər onlar beləcə məşəqqətli ömür sürür, amma onlara qarşı edilmiş ədalətsizliklə barışmırlar. Stalinin ölümündən sonra ləmbəlilər Moskvaya, SSRİ Nazirlər Sovetinin yeni sədri G.M.Malenkova dalbadal məktub, ərizə və teleqramlarla müraciət edərək zorla əllərindən alınmış evlərinin geri qaytarılmasını tələb edirlər. Ləmbəlilərin belə mərd mübarizəsi qarşısında Ermənistan rəhbərləri və yerli hakimiyyət orqanlarının nümayəndələri güzəştə getməyə məcbur olurlar. Lakin yenə də bicliyə əl atırlar. Ləmbəlilərə sovxozun tikdirdiyi binalarda yaşamağı və sovxozda fəhlə kimi işləməyi təklif edirlər. Ləmbəlilərsə bu təklifi qəti rədd edir və öz evlərini qaytarmağı tələb edirlər.

SSRİ Nazirlər Sovetinin göstərişi ilə SSRİ Kənd Təsərrüfatı Nazirliyi Baş Köçürmə İdarəsi rəisinin müavini başda olmaqla xüsusi komissiya yerdə vəziyyətlə tanış olmaq üçün Ləmbəliyə gəlir. Ətraflı yoxlamadan sonra qaldırılan bütün məsələlər faktlarla təsdiqlənir. Komissiya Ermənistan SSR rəhbərliyinin qanunsuzluqlara yol verməsi barədə Ermənistan KP MK-nın birinci katibi Tovmasyana məlumat verir. Fakt qarşısında qalan Tovmasyan Ermənistan KP MK Bürosunun "Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə" qərarını hazırlamağı tapşırır. Beləliklə, 4 ildən yuxarı davam edən gərgin mübarizə nəticəsində ləmbəlilər qalib gəlirlər.

"Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək" bəhanəsi altında Yerevanda yaşayan azərbaycanlılarla bərabər Azərbaycan dilində olan pedoqoji məktəb və onun 200 tələbəsi də Xanlar rayonuna, Yerevan Pedaqoji İnstitutunun Azərbaycan bölməsi isə Bakıya köçürülüb Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qatıldı. Onlarda dərs deyən müəllimlər də ya Xanlara, ya da Bakıya köçürüldü. Ermənistan SSR-dəki Azərbaycan dili tədris müəssisələri ya bağlanır, ya da Azərbaycana köçürülmüşdülər.

Təəssüflər olsun ki, Ermənistanda azərbaycanlılar yüz bəhanələrlə sıxışdırılıb, təhqir edilib və alçaldılaraq qovulduqları bir vaxtda Azərbaycanda erməni millətindən olan şəxslərin respublika həyatının bütün sahələrində geniş əl-qol açmaları üçün hər cür şərait yaradılmışdı. İllər boyu Azərbaycanda ermənilər bütün səviyyələrdən olan rəsmi hökumət və ictimai vəzifələrdə gen-bol təmsil olunmuşlar.

Çoxsaylı arxiv sənədlərindən görünür ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1918-1920-ci illərdə ermənilərin Bakı, Şamaxı, Quba, Zəngəzur, Qarabağ və başqa yerlərdə azərbaycanlıların başına açdıqları müsibətlər tezliklə unudulmuş, ermənilər respublikada çox yüksək rəhbər mövqelər tutmuşlar. Uzun müddət onlar Azərbaycan KP MK



və Bakı Komitəsinin katibləri (hətta birinci katibləri), Azərbaycan Mərkəzi İcraiyyə komitəsi, Ali Soveti, Xalq Komissarları Soveti, Nazirlər Sovetində müavin, şöbə müdirləri, nazir, komitə sədrləri, idarə rəhbərləri və başqa mühüm vəzifələrdə işləmişlər. Dövlət Təhlükəsizliyi Komitəsi, respublika Prokurorluğu və Daxili İşlər Nazirliyində özlərinə isti yuva tapan ermənilər 30-cu illərdəki repressiya zamanı və sonrakı illərdə azərbaycanlıların başına olmazın müsibətlər açmışlar. Azərbaycan xalq təsərrüfatının ən çox gəlirli sahələri - ticarət, tikinti, xalq istehlak malları istehsalı və məişət xidməti sahələri demək olar ki, ermənilər tərəfindən zəbt olunmuşdu. Azərbaycanın gəlirinin çox hissəsi əyri yollarla ermənilərin cibinə axırdı. Azərbaycanda əhalinin ən firəvan yaşayan zümrəsi ermənilər idi. Maraqlıdır ki, 1920-ci illərdən başlayaraq, Yerevanda azərbaycanlıların sayı get-gedə azaldıqca, Bakıda ermənilərin sayı durmadan artaraq 80-ci illərdə 220 minə çatmışdı. Dağlıq Qarabağ vilayətindən Bakıya axan ermənilər (Dağlıq Qarabağda qeydiyyatda qalmaqla) burada torpaqları zəbt edərək qeyri-qanuni yolla bir sıra erməni məhəllələri yaratmağa müvəffəq olmuşlar. İqtisadi və sosial təminat cəhətdən DQMV-in erməni əhalisi həm Azərbaycanın, həm də Ermənistanın digər kənd rayonlarının əhalisinə nisbətən daha firəvan yaşayırdılar. Lakin avantürist M.S.Qorbaçovun bədnam yenidənqurma siyasətindən öz məqsədləri üçün məharətlə istifadə edən Qarabağ erməniləri uzun illər Azərbaycan hökuməti tərəfindən onların iqtisadi və sosial təminat cəhətincə sıxışdırıldıqlarını bütün dünyaya bəyan etdilər. Əslində isə məqsəd Dağlıq Qarabağı Ermənistana qatmaq idi. Nəticədə, 1988-1989-cu ilin əvvəllərində Ermənistanda olan 200 mindən yuxarı azərbaycanlı əhali axırıncı nəfərinə qədər Ermənistandan qovuldu. Səkkiz ildən yuxarı Azərbaycana qarşı işğalçılıq müharibəsi aparan Ermənistan ərazimizin 20 faizindən çoxunu işğal edib, bir milyondan yuxarı soydaşımızı öz ölkəsində qaçqına çevirdi. Bütün bunlar

onun nəticəsidir ki, Sovet hakimiyyətinin ilk illərindən Azərbaycan rəhbərliyi tərəfindən ermənilərin bütün hərəkətlərinə göz yumulub, onların qarşısını almaq üçün heç bir ciddi tədbir görülməyib. Ermənistan SSR-də azərbaycanlılar sıxışdırılıb, təhqir olunub qovulduğu bir zamanda M.Şaginyanın sərrast ifadəsi ilə desək, Azərbaycanda yaşayan ermənilər "yağ içərisində böyrək kimi" bəslənmişlər. Bu da bizim unutqanlığımızın, biganəliyimizin və proletar beynəlmiləlçiliyinə sonsuz sədaqətimizin məntiqi nəticəsidir.

Bütün bu biganəliklərə, unutqanlığa öz münasibətini bildirən möhtərəm prezidentimiz bizi bundan sonra sayıq olmağa çağırmışdır. O demişdir: "Bəli, həmin bu 70 il müddətində bizim xalqımızın böyük itkiləri olubdur. Biz bunları bilməliyik, gələcək nəsillər də bilməlidirlər ki, Azərbaycana qarşı bir daha belə xəyanətlərin, tədbirlərin, təcavüzlərin qarşısı alına bilsin".

**Deportasiya, "Azərbaycan" qəzeti, 27, 29 iyun, 5, 10, 11, 12 iyul 1997-ci il, № 132, 134, 139, 143, 144, 145.**



## BAKIDA 1918-ci il MART FACİƏSİ

Tarixə nəzər saldıqda biz belə bir qanunauyğunluğun şahidi oluruq ki, harada pul, var-dövlət əldə etmək olarsa, ermənilər hamıdan əvvəl orada peyda olur. Əvvəlcə özlərini yazıq, mağmın, zavallı, sözəbaxan işbazlar kimi göstərir, sonra isə özlərinə yer etdikcə quduzlaşır, başqalarına diş göstərirlər. Məhz ermənilərin Bakıda görünməsi, möhkəmlənməsi, Bakının düz göbəyində öz kilsələrini tikdirmələri 1905-ci və 1918-ci illərdə və sonralar Bakıda bu yerin həqiqi sakinlərinə qarşı törətdikləri qırğınlar dediyimizə əyani sübutdur. Hələ 1907-ci ilin avqustunda Yelizavetpol (Gəncə) qubernatoru A.Kaçalov Qafqaz Canişininə daşnaksütyunla bağlı geniş məruzələrindən birində erməni psixologiyasını belə səciyyələndirmişdi: "Millətçilik erməni xalqının çox dərinlərdən gələn başlıca milli xüsusiyyətidir. Hər bir erməni özünü hamıdan - rusdan, gürcüdən, tatardan (azərbaycanlıdan - A.P.) yüksək, ağıllı, bic, xeyirxah və bacarıqlı hesab edir... Millətçilik, öz dininə, dilinə sədaqət, acgözlük, ehtiyatlılıq, hər şeyə qadir pula inam, var-dövlət və kapital qarşısında səcdanı kult dərəcəsinə qaldırmaq - bax budur erməni psixologiyasının başlıca xüsusiyyətləri" (Rusiya Federasiyası Dövlət Tarix arxivi (RDFTA) f. 841, siy. 7, iş 290, vər. 38).

XIX əsrin axırları XX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətlə inkişafı, Bakının dünyanın ən iri neft mərkəzinə çevrilməsi ermənilərin kütləvi surətdə bu şəhərə axınına səbəb olur. Özlərinin xristian dininə etiqadlarına və həmişə Rusiya hökuməti qarşısında müti və Şərq siyasətində Rusiya hökuməti əlində bir alət olduqlarına istinad edən ermənilər hökumətdən Bakı neft sənayesində böyük imtiyazlar

ala bilir və qısa bir vaxtda demək olar ki, Bakı neftinin əsas sahibkarlarından birinə çevrilirlər. İş o yerə çatır ki, Bakı neft sənayeçiləri qurultayına rəhbərliyi tamamilə ermənilər öz əllərinə keçirir və burada istədiklərini diqtə edirlər.

XX əsrin əvvəllərində Rusiyada sənayenin sürətlə inkişafı, Sənaye proletariatının yaranmasına və onun inqilabi mübarizəsinin yüksəlməsinə də təkan verdi. Çar Rusiyasının əsas sənaye rayonlarından olan Bakıda da sənaye proletariatı və onun inqilabi təşkilatları, xüsusilə sosial-demokrat təşkilatları yaranır. Bakı neft sənayesində konsepsiyalar əldə edən erməni varlıları ilə yanaşı, özünə iş axtaran erməni yoxsulları da fəhlə sifətilə artıq XIX əsrin axırlarından Bakı neft mədənlərində sürətlə artmağa başlayır və artıq XX əsrin əvvəllərində Bakı neft sənayesi fəhlələri arasında erməni fəhlələrinin sayının artması xüsusilə nəzərə çarpırdı. Onlar Bakıda yaranmış bir sıra inqilabi təşkilatların və o cümlədən sosial-demokratik təşkilatlarının fəal üzvlərinə çevrilirlər. Birinci rus inqilabı ərəfəsində sosial-demokratların nüfuzunun bakı fəhlələri arasında artdığını görən daşnaklar bu vəziyyətdən məharətlə istifadə edir və tezliklə sosial-demokratlarla yaxınlaşırlar. Erməni fəhlələri arasında sosial-demokratiya ideyalarını yaymaqla "Daşnaksütyun" partiyası onlar arasında öz nüfuzunu qorumağa və sosial-demokrat ideyalarından öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Erməni millətinə xas olan xüsusiyyətlərdən biri odur ki, onlar hər hansı partiyaya daxil olsalar belə, ilk növbədə ondan öz məqsədləri üçün istifadə edəcəklər. Erməni millətindən olan şəxslər hansı partiyaya, zümrəyə, vəzifəyə, cəmiyyətə daxil olmasından asılı olmayaraq ilk növbədə erməni olaraq qalır. Yəni ermənilərə məxsus ideyalar onların şüurunda, beynində möhkəm həkk olunmuşdur. Bunu onların beyinlərinə göz açdıqları vaxtdan evlərində, kilsələrində, məktəblərində, bir sözlə ermənilərə məxsus bütün ictimai yerlərdə yeridirlər. Harada olursa olsun, erməni həmişə bir cür danışır, başqa cür hərəkət edir. "Daşnaksütyunun" sosial-demokratlarla yaxınlaşmasının mahiyyətini Yelizavetpol qubernatoru belə səciyyələndirirdi: "Millətçilik ruhu ermənilərə məxsus elə başlıca xasiyyətdir ki, ən qısa bir vaxt üçün belə ermənilərin ondan imtina edə biləcəyini təsəvvürə belə gətirmək mümkün deyil. Sosialistlər partiyasına qoşulmaqla "Daşnaksütyun" şübhəsiz ki, möhkəm əqidəli sosialistlər qarşısında vicdansızlıq etmişlər. Çünki erməni xalqı heç vaxt sosializm ideyalarını dərindən dərk edə bilməz. Ermənini inandırmaq olmaz ki, tatar (azərbaycanlı - A.P.) millətindən olan proletar sənə erməni millətindən olan istismarçı burjua nümayəndəsindən daha yaxındır, sadəcə olaraq ağılasığmazdır". (RFDTA: f. 821, siy. 7, iş 220, vər. 41).

XX əsrin əvvəllərində Rusiyada baş vermiş siyasi hadisələrin tarixinə qısa bir nəzər saldıqda belə bir qanunauyğunluqla qarşılaşırıq ki, mərkəzi dövlət üçün ağır, kəskin və təzadlarla dolu bütün mərhələlərdən erməni daşnakları həmişə öz şovinist millətçi məqsədləri üçün məharətlə istifadə edərək azərbaycanlılara qarşı vəhşi qırğın və talanlara əl atmışlar. Məhz belə hadisələrdən biri də 1918-ci ilin martında Bakıda törədilmiş azərbaycanlıların kütləvi qırğını aktı olmuşdur.

1917-ci ildə əvvəlcə fevral inqilabı nəticəsində çar hakimiyyətinin devrilməsi, sonra isə oktyabr ayında bolşevik çevrilişindən sonra imperiyanın dağıdılmasından daşnaklar və digər erməni millətçi partiyaları məharətlə istifadə etdilər. 1918-1920-ci illərdə Qafqazda, o cümlədən Azərbaycanın bütün ərazisində ermənilər azərbaycanlılara qarşı geniş qırğınlar, talanlar, zorakılıq və terror əməliyyatları həyata keçirmişlər. Ermənilərin bu hərəkəti 1905-ci ildə olduğu kimi 1918-ci ilin martında, yenə də Bakıdan başlamışdır. Özü də bu qırğın 1905-ci ilə nisbətən ermənilər tərəfindən daha məharətlə hazırlanmış və amansızlıqla həyata keçirilmişdir. Bunun əsas səbəbi Rusiyada bolşevik hakimiyyətinin qələbəsi ilə ölkənin





14.-3510

Birinci Dünya müharibəsindən çıxması nəticəsində əsgərlərin döyüş bölgələrini tərk etməsi olmuşdur. Qafqaz cəbhəsindəki Rusiyanın hərbi hissələrinin tərkibində olan əsasən erməni zabit və əsgərlərinin silahlarını təhvil verməyərək Azərbaycana, xüsusilə Bakıya dolmasından bolşevik donu geyinmiş, əlində V.İ.Leninin fövqəladə Zaqafqaziya komissarı vəzifəsinə təyin edilməsi haqqında mandatı olan daşnak Stepan Şaumyan məharətlə istifadə edir. V.Leninin mandatı ilə Tiflisə gedən S.Şaumyan orada istədiyinə nail ola bilməyərək Bakıya qayıdır. Beynəlmiləl proletar Bakısında demək olar ki, bütün hakimiyyəti öz əlinə keçirən S.Şaumyan ondan məharətlə azərbaycanlılara qarşı mübarizədə istifadə edir. S.Şaumyanın rəhbərliyi ilə Bakıda törədilən azərbaycanlı qırğınları sonralar bütün Azərbaycana yayılır. Bu məsələlər öz əksini geniş şəkildə Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə təhqiqat komissiyasının hazırladığı məruzələrdə və digər rəsmi sənədlərdə tapmışdır. Faciənin həyata keçirilməsinin səbəbi aydın idi. Bunun üçün bəhanə düşünmək lazım idi. Bəhanə necə düşünülmüşdür? Bununla əlaqədar komissiyanın məruzəsinə və digər sənədlərinə, habelə S.Şaumyanın məktubuna nəzər salaq.

1918-ci ilin yanvarında başda general M.K.Talışinski olmaqla yaradılmaqda olan müsəlman korpusunun qərargahı Bakıya gəlir. Qərargahın rus zabitləri sırasında əvvəllər jandarmeriyada xidmət etmiş şəxslər olduğu bəhanəsilə müsəlman korpusunun qərargah üzvlərinin əksəriyyəti erməni əsgərlərindən ibarət bolşeviklər tərəfindən həbs edilirlər. Daşnaksütyun erməni partiyası Sovet hakimiyyətini tanıyaraq sonrakı hadisələrin göstərdiyi kimi, azərbaycanlılarla mübarizə üçün bolşeviklər partiyası ilə birləşirlər. Müsəlman korpusu qərargahının həbs edilməsindən istifadə edərək ermənilər azərbaycanlıları bolşeviklərə, həm də ermənilərə qarşı silahlı üsyana təhrik edirdilər. Burada da məqsəd özləri tərəfindən hazırlanan hadisələrin günahını azərbaycanlıların üzərinə



atmaq idi. Lakin azərbaycanlılar bu təxribata getməmişlər. Azərbaycanlıların çıxışı baş vermədikdə erməni əsgərləri azərbaycanlılar üzərində zor işlətməyə, müdafiəsiz qocaları, qadınları və uşaqları qarət edib öldürməyə başlamışlar. Azərbaycanlılar hətta Bakı vağzalında belə görünə bilmirdilər. Şəhərdən dəmir yolu ilə çıxmaq istəyən azərbaycanlılar Bakı vağzalında erməni əsgərləri tərəfindən qarət edilərək, öldürülməmək üçün faytonlarla yaxındakı stansiyaların birinə gedirdilər. Ermənilərin bütün təhriklərinə baxmayaraq azərbaycanlılar dözür, qırğına getmək istəmirdilər. Bakının məscidlərində keçirilmiş mitinq və yığıncaqlarda iştirak edən Bakıdakı xristian xadimlərinin sözlərinə görə bütün müsəlman xadimləri azərbaycanlı əhalini sakitliyə, sıxıntı və zorakılığa dözməyə çağırırdılar.

Məruzədə bildirilirdi ki, azərbaycanlılar bütün vasitələrdən istifadə edərək barışığa çalışırdılar. Azərbaycanlıların nümayəndələri dəfələrlə bolşeviklərə qarşı ermənilərlə ittifaq bağlamağa çalışmış, lakin ermənilər hər dəfə buna qeyri-müəyyən cavab vermişlər.

1918-ci il martın 17-də silahla ehtiyatsız davranmış və nəticədə həlak olmuş Məmməd Tağıyevin cənazəsini Bakıya müşayiət edən müsəlman divizionunun böyük bir dəstəsi Lənkərana yola düşmək istəyir. Paraxodun körpüdən aralanmasına az qalmış silahlı erməni bolşevikləri müsəlman divizionundan tərksilah olunmağı tələb edirlər. Divizion rədd cavabı verdikdə gəmiyə tüfəng və pulemyotlardan atəş açılır. Ertəsi gün şəhərin erməni hissəsində silahlı erməni əsgərləri görünürlər. Onlar bütün küçələrdə səngərlər qazıb, torpaq və daşlardan bəndlər ucaltmağa başlayırlar. Bunu görən azərbaycanlılar da öz növbəsində bəzi küçələrdə səngərlər qazmağa başlayırlar...

Məruzədə göstərilir ki, həmin gün Müsəlman Xeyriyyə Cəmiyyətinin binası "İsmailiyyədə" azərbaycanlıların yığıncağı keçirilir. Keçmiş Bakı şəhər rəisi Qaik Ter-Mikaelyants

iclasa gələrək erməni milli Şurası və Daşnaksütyun partiyası adından bildirir ki, əgər azərbaycanlılar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşevikləri Bakıdan qovmağa kömək edəcəklər. Ertəsi gün, martın 19-da səhər tezdən azərbaycanlılar hələ yuxuda olduqları bir vaxtda, ermənilərin yalan vədlərinə arxayınlaşmış şəhərin azərbaycanlı hissəsinə hücum başlanır. Hücumda yalnız erməni əsgərləri iştirak edir və azərbaycanlılar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirlər. Xəzərdəki hərbi gəmilər ermənilərin provakasiyası ilə şəhərin azərbaycanlılar yaşayan hissəsini top atəşinə tuturlar. Ermənilər rus matroslarını inandırmışdılar ki, şəhərdə müsəlmanlar rus əhalisini qırırlar. Matroslar əmin olduqda ki, azərbaycanlılar şəhərdəki rus əhalisinə toxunmurlar, onlar top atəşini dayandırmışlar. Hücum ərəfəsində şəhərdəki bütün ermənilər şəhərin azərbaycanlı hissəsindən erməni hissəsinə keçmişdilər.

Yaxşı silahlanmış və təlim görmüş erməni əsgərləri pulemyotların atəşi altında əhalisi tamamilə azərbaycanlılardan ibarət "Məmmədli" və "Zibilli dərə" deyilən yerlərdə azərbaycanlıların evlərinə soxulur, sakinləri xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, üç-dörd günlük körpələri süngülərin ucuna keçirirdilər. Qaçmış valideynlərin bütün südəmər körpələri vəhşiliklə öldürülürdü. Valideynlərin özlərini isə küçələrdə qovub qətlə yetirdilər. Şəhərin bu hissəsində çox az adama qaçıb öz canını qurtarmaq nəsib olmuşdur. Məruzədə göstərilirdi ki, bu vəhşiliklərin şahidi olmuş adamlar danışanda özlərini ağlamaqdan saxlaya bilmir, həyəcanlanır, ona görə də hadisələri yerli-yerində nəql edə bilmirlər. Azərbaycanlıları qətl edərkən onların evlərini qarət edir, sonra isə od vurub yandırırdılar. Azərbaycanlı qadınlarını öldürür, çalalara dolduraraq üzərlərini torpaqlayırdılar. Sonralar təkcə bir çaladan burun və qulaqları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadınının meyiti tapılmışdır. Şahidlər deyirdilər ki, ermənilər



öldürə bilmədikləri qadınların hörüklərini bir-birinə bağlayır, başaçıq, ayaqyalın qabaqlarına qatıb küçələrlə qovur, yolda tüfəngin qundağı ilə döyürdülər.

Məruzədə göstərilirdi ki, öldürülmüş azərbaycanlıların sayını müəyyənləşdirməkdə komissiya çətinlik çəkir. Çünki evlərin çoxunda ermənilər bütün ailəni qırmış və indi elə bir adam yoxdur ki, ondan öldürənlərin adını öyrənmək mümkün olsun. Şəhərdə bir qədər sakitlik yaranandan sonra meyitləri basdırmaq üçün şəhərin bu hissəsinə gələnlər böyük dəhşətlərlə üzləşmişlər. Eybəcər hala salınmış meyitlər içərisində cinsi orqanlarına payalar soxulmuş qadın meyitləri də tapılmışdır.

Şəhərin başqa azərbaycanlı hissəsində də erməni əsgərləri pulemyot atəşləri altında sürətlə hücuma keçir, azərbaycanlıları sıxışdırıb öz məhəllələrindən çıxarır, evlərə soxularaq azərbaycanlıları qəddarlıqla öldürür, evlərini qarət edir, sonra isə yandırırdılar. Qətllər zamanı ermənilər nə cinsə, nə yaşa əhəmiyyət vermirdilər. Məsələn, Hacı Əmir Əliyevin evinə soxulan ermənilər onu - 80 yaşlı qocanı, 60 və 70 yaşlı arvadlarını öldürüb, 3 az yaşlı uşağı doğramış və Əliyevin 25 yaşlı gəlinini diri-diri divara mıxlamışlar.

Nikolay (indiki İstiqlal) küçəsi ilə hücuma keçən erməni əsgərlərinə əsasən erməni ziyalıları rəhbərlik etmişlər. Belə dəstələrdən biri bir evə girib 8 qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək 9 ziyalı azərbaycanlını küçəyə çıxarmış və kilsə meydanında güllələmişlər. Meyitlərdən 2-si ermənilər tərəfindən yandırılmış "Dağıstan" mehmanxanasının alovları içərisinə atılaraq yandırılmışdır. Bu evdə doktor Tağıyev bolşeviklərin hakimiyyətini tanımasını təsdiq edən sənədi erməni əsgərlərinə göstərdikdə, onlar buna əhəmiyyət verməyərək bildirmişlər ki, onlar daşnaklardı və bolşevikləri tanımırlar...

Müdafiəsiz azərbaycanlıları məhv edərkən ermənilər də-

nizçiləri və qırmızı qvardiyaçıları da onların üstünə salışdırmaq istəyirlər. Məsələn, martın 19-da səhər İran konsulu və dənizçi Natonson qalaya gələrək azərbaycanlı nümayəndələrinə bildirmişlər ki, azərbaycanlılar qalada olan rusları və erməniləri öldürmüşlər. Buna cavab olaraq azərbaycanlılar onların hər ikisini arasında ermənilərin də olduğu 240 xristian kişi, qadın və uşağın saxlandığı Mir Əli Nağı Hüseynovun evinə gətirirlər. Onlar xristianlara bu münasibəti görüb qaladan gedəndən 3 saat sonra yenə də qalaya qayıdırlar ki, 2 erməni icması xadimi bizə yenidən xəbər verib ki, İran konsulu və dənizçi Natonson qaladan gedəndən sonra azərbaycanlılar qaladakı bütün xristianları doğrayıblar. Onların yenidən aldadıldığını görən Natonson ermənilərin qalaya hücumunu dəf etmək üçün qalada 20 matros qoyub özü gedir.

Martın 20-də "Kaspi" redaksiyası ilə "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyəti arasındakı döngəyə 3 əsgərin müşayiəti ilə erməni zabiti gəlir və "İsmailiyyə"nin binasına girir. Bir müddətdən sonra binanın pəncərələrindən tüstü, alov görünür və təkcə Bakı azərbaycanlılarının deyil, bütün şəhərin bəzəyi olan bu möhtəşəm bina yanğından məhv olur.

Bəs bu hadisələrə onun bilavasitə təşkilatçısı olduğu S.Şaumyan necə qiymət vermişdir?

1918-ci il aprelin 13-də o, Moskvaya, Xalq Komissarları Sovetinə yazdığı məktubda həmin ilin martında Bakıda ermənilərin azərbaycanlıların başına açdıqları müsibətlərə siyasi don geydirməyə çalışır. Guya ki, bu hərəkətlər azərbaycanlılara qarşı ermənilərin milli ədavətindən yox, Sovet hakimiyyətinə sədaqətindən doğmuşdur. Məlumdur ki, 3 gün, martın 30, 31 və aprelin 1-də Bakı şəhərində şiddətli qırğın olmuşdur. Bu qırğına siyasi vuruşma donu geyindirən Şaumyan yazırdı: "Bir tərəfdən, Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz beynəlmiləl qızıl ordu, qısa müddətdə yenidən qura bildiyimiz qırmızı donanma ***və erməni milli hissələri***, digər tərəfdən "müsavat" partiyasına başçılıq etdiyi



və içərisində çoxlu rus zabiti olan ***müsəlman dikaya diviziyası*** və silahlı ***müsəlman quldur dəstələri*** vuruşurdular". (S.Şaumyan. Seçilmiş əsərləri 2-ci cild, B. 1978, səh. 259).

Bu qısa məlumatdan da görünür ki, S.Şaumyan bu işdə nə qədər rəzil rol oynamış, əsl daşnak xislətini bolşevik mundiri altında məharətlə gizlədərək bu hadisələrə Sovet hakimiyyəti uğrunda mübarizə donu geyindirmişdi. Onun məktubuna diqqət yetirdikdə görürük ki, guya ki, onun tərəfində olanların hamısı, o cümlədən başkəsən daşnak cəlladları da "əsl sülh göyərçinləri", əks tərəf isə qaniçən cəlladlar imişlər. Özü də Moskvanın dilini bağlamaq üçün müsəlman dikaya diviziyasında çoxlu rus zabiti olduğunu xüsusi vurğulayır. Əsl erməni ikiüzlülüyü və erməni hiyləgərliyi.

Həqiqət isə necə idi? Müsəlmanların həqiqətdə elə bir qüvvəli silahlı dəstələri və silahı yox idi. Onun təsvir etdiyi bütün Sovet hərbi hissələrində vuruşanlar isə əslində erməni daşnakları və bolşevik cildinə girmiş erməni millətçiləri idi. Görün azərbaycanlılar üzərində erməni daşnaklarının bu vəhşiliklərinə görə o, necə də öyünür, lovğalanır: "Biz döyüşlərdə parlaq nəticələr əldə etmişik. Düşmən tamamilə darmadağın edilmişdir. Biz onların qarşısında şərtlər qoyduq və onlar bu şərtləri danışıqsız imzaladılar.

Müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti daim tükdən asılı idi. Yelizavetpolda və Tiflisdə yerlərini möhkəmləndirmiş olan feodal (bəy və xan) ziyalıları başda olmaqla bu partiyalar, menşeviklərin açıq və qorxaq siyasəti nəticəsində özlərini son zamanlarda Bakıda da çox təcavüzkarcasına aparırdılar... Zaqafqaziyanın müqəddəratı həll olunurdu. Əgər onlar Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi, bütün qeyri-müsəlman ünsürləri tərksilah edib qırardılar". (Şaumyan. göstərilən əsəri, 2-ci cild. səh. 259-260).

Göründüyü kimi S.Şaumyan da məhz yuxarıda Yelizavetpol qubernatorunun göstərdiyi sosialistlərdən olmuşdur. Öz

məktubunda o, həyasızcasına "Daşnaksütyun" partiyasına məxsus olan hərbi hissələrin Bakıda azərbaycanlı əhalinin qırılmasında iştirakına haqq qazandırmağa çalışır. O yazırdı: ***"Milli hissələrin iştirakı*** vətəndaş müharibəsinə qismən ***milli qırğın xarakteri*** vermişdir, lakin buna yol verməmək mümkün deyildi. ***Biz bilərəkdən buna yol verdik.*** Müsəlman yoxsulları böyük zərər ***çəkmiş, lakin onlar indi bolşeviklərin və Sovetlərin ətrafında daha sıx toplaşmışlar".*** (S.Şaumyan. göstərilən əsəri səh. 260).

Bu məktuba diqqət yetirdikdə maraqlı faktlar meydana çıxır. O, yazırdı ki, bu hadisələr zamanı erməni, müsəlman və rus fəhlələrindən ibarət olan Qırmızı Qvardiya dəstələri, neft mədənlərini ətraf müsəlman kəndlərinin basqınından qoruyurdu. Deməli, başqa millətdən olan Sovet əsgərləri mədənləri qorumaq adı ilə S.Şaumyan və Q.Korqanov tərəfindən şəhərdən uzaqlaşdırılmış, şəhər həm S.Şaumyana tabe olan ermənilərdən ibarət Sovet əsgərlərinin, həm də daşnakların ixtiyarına verilmişdi.

Arxivlərimizdə Bakı faciəsi ilə bağlı Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin tərtib etdikləri çoxlu dindirmə protokolları, ayrı-ayrı evlər, küçələr üzrə qarətlər, evlərin yandırılması, qətl və ölüm hadisələri ilə əlaqədar çoxlu zərərçəkən və şahid ifadələri, ayrı-ayrı ailələrə vurulmuş zərərin miqdarı, qarət olunmuş əşyaların, öldürülənlərin və yaralananların siyahıları, aktlar və s. qorunub saxlanılır. (Bax: ARDSPİHA: f. 227, siy. 2, iş 13-16, vər. 25-26).

Təəssüflər olsun ki, komissiya Bakıda ermənilərin xalqımıza vurduğu maddi zərərin miqdarı qətlə yetirdikləri və yaraladıqları əhalinin sayını dəqiq müəyyənləşdirmək işini başa çatdıra bilməyibdir. S.Şaumyan isə Moskvaya yazdığı məktubda bilərəkdən bu rəqəmi azaldaraq guya hər iki tərəfdən cəmi 3 min nəfər olduğunu yazmışdı. (Bax: S.Şaumyan, göstərilən əsər, II cild səh. 259).

Həmin rəqəmlərin hesablanması olduqca çoxlu vaxt tələb



etdiyindən hələlik biz onu yerinə yetirə bilmədik. Lakin saxlanılan sənədlərdəki məlumatlarla tanışlıq, o dövrdə bu hadisənin bilavasitə iştirakçılarının xatirə və məqalələri, Bakıda dağılıb, xarabazara çevrilmiş küçə və evlərin əlimizdə olan foto şəkilləri sübut edir ki, şəksiz bu hadisələrdə 10 minlərlə adam qətlə yetirilmiş, xalqımıza yüzlərlə milyon manatlıq maddi zərər vurulmuşdur. 1933-cü il aprel ayının 1-də Almaniyanın Münxen şəhərində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "İstiqlal" qəzetinin 31-ci nömrəsində həmin hadisənin 15 illiyi münasibəti ilə çap olunmuş məqalədə oxuyuruq: "1918-ci il 22 martda Bakının "İsmailiyyə" binasının möhtəşəm salonunu milli musiqi, tans, qəhqəhə sevinc və gülüş titrədirdi. "Novruz" bayramı qarşılanmaqda idi. Bir həftə sonra 31 martda isə, bu tarixi bina, Azərbaycanın bütün siyasi, elmi, ədəbi, bədii, iqtisadi və ictimai cəmiyyət və təşkilatları ilə, kitabxana, qiraətxana, yetimlər yurdunun yerləşmiş olduğu bu qoca saray quru bir kabus halında matəm içərisində idi. Yandırılmışdı. Yandırılan bir tək "İsmailiyyə" deyildi. Türklərə məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, milli teatro binaları, məktəblər, xəstəxanalar, camilər, milli mədəni müəssisələr yerlə yeksan edilmişdi. Bir həftə içərisində Bakı bütün simasını dəyişmişdi.

31 martda 15 min günahsız türk kəsilmişdi.

Günün qəhrəmanları: Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikaelyan, Saakyan, Lalayan, Amazasp, Əmiryan və b. idi.

Əlində Lenin və Stalinin 13 nömrəli dekreti olan Stepan Şaumyan həmin dekretə görə "Böyük Hayıstan"a müqabil Azərbaycanı "Sovetsizə" edərək burada Moskva hakimiyyətini quracaqdı.

Bunun üçün silahlı erməni qüvvələrinə dayanaraq türkləri kəsirdi. O mart günlərini fotoqraf vasitəsilə təsbit etmiş bir çox iranlı, polyak, gürcü tanıyıram və bunların heç birindən olmayan M.Kulqe adlı bir əcnəbi hadisələri belə anladır:

"Yalnız müsəlman əhali tərəfindən məskunlaşmış məhəllə-

ləri qırıb, əhalini öldürür, qılıncla parçalayır, süngürlərlə deşik-deşik edir, evlərə atəş vurur, cocuqları bu atəşlərə ataraq diri-diri yaxır, 3-4 günlük südəmər cocuqları isə süngülərinə taxırdılar.

Hadisələrdən sonra torpağa gömülmüş 57 islam nəşi bulundu. Bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdi.

Öldürmədikləri qadınların saçlarını bir-birinə bağlayaraq üryan bir halda küçələrdə qabaqlarına qatıb sürür və özlərini tüfəng dibçəkləri ilə vururdular. Kimsəyə rəhm edilmirdi. Cocuqlara rəhm edilmədiyi kimi, ixtiyarlara da aman yoxdu. Məsələn, Əlizadə Hacı Əmirin evində 80 yaşlı anası, 60-70 yaşında qadınları öldürmüş və 25 yaşında təzə gəlini diri-diri divara mıxlamışlardı..." Bir sözlə, Moskva Azərbaycanda sosializm və kommunizm qurmaqla məşğul idi.

Gərək M.Kulqenin, gərəksə digər əcnəbilərin, o günlərin xatirəsi olmaq üzərə, almış olduqları və bu gün əllərdə mövcud fotoqraflar çox faciəli mənzərələr əks edirlər. Mələk qədər sevimli bir azəri yavrusu Bakının bir divarına çivilənmişdir və çiv yavrunun ta qəlbini dəlib keçməkdədir. Bir yığım qızlı-erkəkli cocuq ölüləri üzərində qocaman çoban köpəkləri bu məsum yavruları gəmirir. Çılpaq bir qadın yerə sərilmiş, ölmüş... bu ölü vücudun qurumuş məməsini canlı bir yavru əmməkdədir... 31 martın xatirələri yalnız bunlar deyildir. Mən hələ 10 minlərlə azəri qız və qadınlarının əsir sürüsü halında götürüldüyünü, "Rekord" teatrosunun o gün məhşəri andıran mənzərələrini, əsir bazarında azəri qızlarının satıldıqlarını və sairəni qeyd etmirəm.

Çünki 31 martı xatırlamaq və canlandırmaq üçün bu qədər də kafidir, bu qədər də bəsdir".

Mart faciələrini öz gözləri ilə görmüş, bu hadisələrin bütün iztirablarına dözmüş, xoşbəxt təsadüf nəticəsində sağ qalmış yeniyetmə bir gənc Məhəmməd Muradzadənin 1918-ci ilin dekabrında qələmə alıb, 1919-cu ildə çap etdirdiyi "Mart hadiseyi-əliməsi" kitabçası bü cəhətdən xüsusi maraq doğurur. (Bu kitabça Sədaqət Məmmədova tərəfindən kiril əlifbasına çevrilərək 1996-cı ildə "Azərnəşr"də yenidən buraxılmışdı). Burada həmin gəncin ailəsinin və qonşularının timsalında ermənilərin Bakıdakı mart qırğınları zamanı azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qələmə alınmışdır. O, yazırdı: "həyatım durduqca martın 19-cu gecəsini, yəni bazar ertəsi gününün axşamını unutmaram. Bu gecə ailə bir-biri ilə elə rəftar ilə davranırdı ki, sanki sabah bir-birini görməyəcəklər, əbədi bir fərağa məhkum olacaqlar". (M.Muradzadə, mart hadiseyi-əliməsi. Bakı, 1996, səh. 11).

Martın 20-də (yeni təqvimlə 31-də) səhər M.Muradzadənin atasının tanışlarından bir nəfər Hacı özünün 50-55 yaşında yaralı qardaşını onların evinə gətirir. Hacı ailəsinin harada olduğunu bilmir. Yaralını görən gənc ona baxmağa dözə bilməyib qonşu yəhudilərin evinə qaçır. Onların həyətinə soxulan erməni caniləri hacıdan və M.Muradzadənin atasından silah tələb edirlər. Silah olmadıqda onlar pul tələb edirlər. O, yazırdı: "Atamla Hacı öz əllərilə pul kisələrini çıxarıb canilərə verdilər. İnsan qanına susamış canilər pulları alıb aralarında böldükdən sonra ikisi həmin həyətə çıxır. Biri isə bayıra çıxarkən əvvəlcə atamın sinəsini nişan edərək bir atəş açır, ardınca Hacının köksündən vurur. Hər ikisi dəhşətli bir surətdə yerə yıxılır". (yenə orada səh. 18-19.)

M.Muradzadə yazırdı ki, canilər getdikdən sonra: "Mən bu dəhşətlərin bununla bitdiyini və bir daha təkrar edilməyəcəyini zənn edirdim. Birdən məhəllədə böyük qovğa qopdu və bizim məhəllə qapısı şiddətlə döyülməyə başlandı". (yenə orada).

Həyətə soxulan ermənilərin digər canilər dəstəsi artıq həyətdə kişi tapmayaraq onlardan iki nəfəri "qoca ilə qadınları heyvan sürüsü kimi qabaqlarına qatıb əsir adıyla hara isə aparırlar. İndi canilər növbə ilə həyətdəki evləri axtarıb qarət və talan edirdilər. Axırda mən olduğum evin qapısına gəldilər.

Lakin yəhudi bu evin özünə məxsus olub, burada müsəlmanlar olmadığını" deyib caniləri öz evinə buraxmır. Bununla da birinci dəfə M.Məmmədzadənin həyatı xilas edilir. Ermənilərin milli zəmində törətdikləri qırğınla bağlı öz fikirlərini M.Muradzadə belə təsvir edir: "Artıq iki günlük müharibədə kimlərin iştirak etdiyini və nə üçün bunun belə davamını bir saat gördüyüm səhnələr gözəlcə göstərdi. İslam adı daşıyana aman yox, zira o mənhus qonşu millətin qaniçən canavarları indi vaxtdan istifadə edərək ***başqa siyasi bir maska*** ilə qurşaqdan dişlərinədək silahlanıb özlərindən milyonlarca çox və qapı bir qonşu olan nəcib bir milləti öz yurdlarında yox etməyə böyük bir cürətlə əl açmışlardı". (yenə orada səh. 17-18).

M.Məmmədzadə öz gördüklərindən əlavə qonşu yəhudilərin şəhadətləri əsasında azərbaycanlılara tutulan divan, küçələrdə tökülüb qalmış azərbaycanlı cəsədləri haqqında da yığcam məlumat verərək yazırdı: "Şəhərin vəziyyətindən xəbər bilmək üçün yəhudi cocuqları tezdən məhəlləmizə çıxmışlardı. Gətirdikləri o təsirli və dil yaxıncı xəbərlərində islam qurbanlarını bütün küçələr boyu qırlar üzərində dəniz sahilinə tordan atılmış balıqlar kimi yan-yana qanlı ölüm yatağında yatdıqlarını söyləyirlərdi. İki gündən bəri günahsız məzlumları torpağa endirmiş və böyük xanimanları söndürən atəşlərin sədası indi şəhərin uzaq yerlərində eşidilirdi. Bizim məhəllədə isə böyük bir sükunət hökm sürürdü". (yenə orada səh. 22).

Lakin bu sükunət çox hökm sürmür, elə həmin gün M.Muradzadənin dediyi kimi qonşu millətin qaniçən canavarları yenidən künc-bucaqda gizlənmiş türk-islam yavrularını qırmağa qol çırmalamışlar. Hər bir rus və yəhudi evlərini axtarıb ölüm hədəsiylə müsəlmanları vermələrini əmr edirdilər. Belə bir cani və qarətkarlar dəstəsi bizim küçəyə dəxi gəlmişlərdi. Bizi bu anadək insanlıq naminə saxlayan yəhudilər bu əhvalatdan böyük bir təşvişə düşmüşlərdi... Ev sahibi Levin çox həlim bir kişi idi. Hərdən yanımıza gəlib övzai-əhvalatdan bizi agah edərək bu dəqiqələr çox qorxulu olduğu üçün yalnız mətanətli olmağımıza tövsiyyə edib hər növ olursa bizi müdafiə edəcəyini söyləyirdi". (yenə orada səh. 22-23).

M.Mahmudzadə yazırdı ki, erməni calladları yenə də küçədə olan yəhudi və rus evlərində olan azərbaycanlıları zorla çıxarır, islam qurbanlarının dad və fəryadları, ətraf evlərdən çıxarılan məsum körpələrin ürəkparçalayan bağırtıları eşidilirdi. Onları canilər gizləndikləri yerdən güclə çıxarıb küçədə güllə və qılıncla işgəncələrlə məhv edirdilər. M.Muradzadə yazırdı: "Kiçik qardaşımla dayım alt mərtəbədə idilər. Mən özümdən kiçik qardaşlarımla Levinin otağında oturmuşdum. Levin isə yalnız bizim pərişan halımıza aludə olub dirigözlü insanları canilər əlinə verməmək üçün çarələr düşünürdü". (yenə orada səh.23). Yalnız rus ordusunda xidmət etmiş əli silahlı bir neçə gənc yəhudi öz evlərini müdafiə etdikləri üçün canilər Levinin yaşadığı evə girə bilməmiş və M.Mahmudzadə, onun qardaşları və dayısı canilərin əlindən xilas olmuşlar.

Yeri gəlmişkən onu da qeyd edək ki, Fövqəladə Təhqiqat Komissiyasının Bakı hadisələri haqqında hazırladığı məruzədə də göstərilirdi ki, Bakıda mart qırğınları zamanı "ruslar, yəhudilər və gürcülər mümkün olan yerdə azərbaycanlıları xilas etmişlər. Ermənilər azərbaycanlılara qarşı qırğını yalnız ermənilərə qəti ultimatum vermiş 36-cı Türküstan polkunun tələblərinə görə dayandırmışlar. Bakıda olan bütün rus icmalarının nümayəndələri ermənilərin bu vəhşiliklərindən hiddətlənir və ucadan öz etirazlarını bildirirdilər". (Bax: ARDSPİHA. f. 277, siy. 2, iş 16, vər. 18).

Xatirələrində yeri gəldikcə gənc müəllif ermənilərin törətdikləri ümumi vandalizm haqqında da məlumatlar verir, ermənilərin bu cür müvəffəqiyyət qazanmalarının səbəblərinə öz münasibətini də bildirirdi. O, yazırdı: "Hələ qarşımda o gün

müşahidə etdiyim ürəkdağlayan bir mənzərə təcəssüm edib durur. O gün küçə ilə bir neçə kişinin çiynində qısa bir nərdivan üzərində əlvan boyalı xalça sarınmış bir meyidin aparıldığını gördünüz. O, mart günlərinin məzlum qurbanı, mənim zavallı atam idi. O dövrün vəziyyətinə nəzərən bu hala da qibtə edirdilər. Ona görə ki, çox şəhidlərin meyiti o gün tapılmaz oldu. Ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. O gün bu müəzzəm Bakı şəhərinin yarıdan çoxu bir matəm saraya çevrildi. Çox evlərin üzvləri südəmər yavrularınadək zəhərli xəncərlər ilə doğrandı. Fəryad, ahfəğan sədası eşidilməz bir ev qalmadı". (yenə orada səh. 27).

Mart hadisələri zamanı öz gözləri ilə gördüyü və eşitdiyi hadisələri qələmə alan M.Muradzadə yeri gəldikcə bu hadisələrə öz münasibətini də bildirdi. O, Bakıda tam azlıq təşkil edən ermənilərin bu torpaqların həqiqi sahibləri olan azərbaycanlıların başına açdığı müsibətlərin səbəblərini də aşkarlamağa çalışır. Onun bu haqda söylədiyi fikirlər çox maraqlıdır. M.Muradzadənin fikirləri bir də ona görə maraqlıdır ki, 70 ildən çox keçməsinə baxmayaraq, 80-ci illərin axırlarında ermənilərin bizi bu cür ağır vəziyyətə salmasında, ərazimizin 20 faizdən çoxunun işğalında, bir milyondan yuxarı qaçqınımızın olmasında yenə də öz təqsirimiz az deyildir. Deməli, tarixin ibrət dərslərindən hələ də özümüz üçün lazımi nəticə çıxara bilməmişik. Hələ mart hadisələri başlamazdan əvvəl özünün və dostlarının düşüncələri haqqında məlumat verən M.Muradzadə yazırdı ki, fikirləşirdim, əgər ermənilərlə dava başlayarsa, azərbaycanlılar tərəfindən "hansı igidlərin iştirak edəyəcəyini və hansı təşkilat tərəfindən və neyçin elani həll ediləcəyini bir növ təsəvvürümə belə gətirə bilmirdim, çünki "əlində bir mauzeri ilə altı patronu olub yalnız orada-burada pusquda duraraq öz qardaşının qanını tökməyə adət etmiş, yaxud iştirak edib də öz qardaşına vaxt zərurətində səngərdə patronun birini 7-8 rubleyə satan milli igidlərmi?". O yazırdı ki, düşünürdüm düşmənin toplarına qarşı bizimkilər görəsən nə ilə cavab verəcəklər? (yenə orada səh. 9).



Xatirə müəllifi hələ mart hadisələrindən bir neçə gün əvvəl "İsmailiyyə" binasından bir az aşağıdakı dükanın qabağında ermənilərlə münasibətlər haqqında öz gənc dostları ilə olan söhbətini xatırlayaraq yazırdı ki, mən o zaman deyirdim: "Bilirsinizmi dostlar, allah göstərməsin ki, bu müharibə başlansa bizim üçün acı nəticələr verər. Hələ milli əsgərlər kamil bir surətdə təşkil edilməmiş, başıpozuq qüvvələrə güvənməməli. Bir mauzer və 5 patron ilə top və pulemyotlara cavab vermək olmaz. Məncə bu müharibədə kasıb və fəqirlər artıq dərəcədə zərər çəkən olacaqlar". Gənc müəllifin bu sözlərinə dostlarından biri belə cavab verir: "Xeyir, qardaş, pulemyot yoxsa da, bir gülləyə pulemyotçunu öldürüb, pulemyotunu əlindən alıb özümüz atarıq. Müsəlmanın müharibədə çox hiylələri olur".

Çox maraqlıdır ki, həmin gənc bir neçə gün əvvəl "İsmailiyyə"də çıxış edən boşboğaz təbliğatçının yalan vədlərinə inanmışdır. O öz yoldaşlarına "İsmailiyyə"dəki sarı paltolu əfəndinin, ölmək, ölmək deyə bağırdığını", "düşmənlərimiz "İsmailiyyə" qarşısında səcdə etməlidirlər" söylədiyini bildirir və qürurla deyirdi ki, "belə bir ruh yüksəliyi ilə heç vaxt məğlub olmarıq". (yenə orada səh. 29).

Öz dostunun bu sadəlövh inamına cavab olaraq M.Muradzadə bildirir: "Dostum, yanılırsan, söyləmək başqa, fel başqa, bu işdə ancaq diplomat olmalı, işi elə bir tərz ilə aparmalı ki, bəslədiyimiz o böyük amal bir gün olsun ki, öz mövqeyini tutsun. Düşmənlər azacıq bir hadisədən istifadə edirlər, əllərində olan qüvvələrlə bizləri dərin bir fəlakətə sövq edirlər".

M.Muradzadə daha sonra yazırdı ki, bu cür "milli qəhrəmanlarımız "İsmailiyyə" kimi memarlıq abidəsinin düşmən tərəfindən dağıdılmasına və yandırılmasına, Təzəpir məscidi kimi dini və tarixi abidənin topa tutulmasına yol verdilər. Mart hadisələri zamanı "qalib çıxmış" ermənilər öz

vəhşiliklərini ört-basdır etməyə çalışırlar. Erməni vəhşiləri tərəfindən öz evlərindən çıxarılaraq müxtəlif kinoteatr binalarında əsir edilmiş azərbaycanlı qocalar, qadınlar və uşaqlar sülh elan edildikdən sonra elə həmin erməni qaniçənlərinin müşayiəti ilə küçələrdən keçirilərək öz evlərinə aparılırdılar. Bu cür ikiüzlü hərəkətin əsl mahiyyətini başa düşən gənc müəllif yazırdı ki, "küçə boyu əvvəl başımızı yarıb, sonra ətəyimizə qoz dolduran o vəhşi qüvvələr əsirləri müşayiət edirdilər". Evlərinin qapılarında dayanmış erməni millətindən olan Bakı əhalisi isə əsirlikdən buraxılanları ələ salır, gülür, şadlanır və tənə ilə soruşurdular: "Asma, bir-iki Qafqaziya bizimki söyləyirdiniz, iştə Qafqaziyaya sahib oldunuzmu?". Gənc müəllif yazırdı: "Düşmənin bu növ tənələri acı, fəqət doğru idi. Çalışmamaq nəticəsi olaraq azlıq təşkil edən millətin bu gün vəhşi qüvvələri qarşısında baş əyməyə məcbur olmuşuq". (yenə orada vər. 27).

Fövqəladə Təhqiqat Komissiyası sədrinin məruzəsində göstərilirdi ki, 1918-ci il mart hadisələrindən sonra Bakıda ermənilərlə azərbaycanlılar arasında sülh haqqında sazişə gəlindiyinə baxmayaraq həmin il sentyabrın 15-də Bakı azərbaycanlı və türk əsgəri qüvvələri tərəfindən azad edilənə qədər ermənilər müntəzəm olaraq Bakı küçələrində, şəhərdən ətraf kəndlərə gedən yollarda azərbaycanlıları tutub qətlə yetirir, meyidlərinin bir hissəsini isə quyulara və ya dənizə atırdılar. (Bax: ARDSPİHA: f. 277, siy. 2, iş 16, vər. 18).

Ermənilərin xalqımıza qarşı törətdiyi bütün bu vəhşiliklərin ildönümləri Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən həm 1919-cu, həm də 1920-ci ildə martın 31-də milli matəm günü kimi qeyd olunmuşdur. Sovet hakimiyyəti isə bu hadisəni tamamilə unutdurmağa çalışmışdır. Bakıdakı qanlı mart hadisələri Sovet dövrü tarixçiləri tərəfindən tarixi faktların və sənədlərin əksinə olaraq bu qırğını bir millətin, başqa millətə qarşı ədavəti nəticəsində həyata keçirdiyi soyqırımı siyasəti kimi deyil, Ümumrusiya vətəndaş



müharibəsinin tərkib hissəsi, Sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsi və onların əksinqilab üzərində böyük qələbəsi kimi təqdim edilmişdir. Lakin kommunizm ideoloqlarının bütün ciddi cəhdlərinə baxmayaraq xalqımızın yaddaşında əbədi iz buraxmış 1918-ci il qanlı mart hadisələrini heç cür unutdura bilməmişlər. Azərbaycanda bolşevik rejimi qurulduqdan sonra, xaricdə yaşamağa məcbur olmuş demokratik ruhlu Azərbaycan ziyalıları hər il bu günü milli matəm günü kimi qeyd etmiş, bu münasibətlə xatirə gecələri keçirmiş, qəzetlərdə məqalə və xatirələr dərc etdirmişlər. M.Ə.Rəsulzadənin redaktorluğu ilə Almaniyanın Münxen şəhərində nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci sayı demək olar ki, bütünlüklə Bakıdakı 1918-ci il mart qırğınının 15 illiyinə həsr edilmişdir. Azərbaycan öz istiqlaliyyətini yenidən əldə etdikdən sonra bu gün hər il anılmaqdadır. 80 illiyi bu il tamam olacaq bu hadisəni yalnız biz özümüz öyrənməklə qalmamalıyıq. Qoyun dərisinə girmiş "zavallı ermənilərin" yırtıcı canavar sifətlərini bütün dünyaya bəyan etməliyik. Elə etməliyik ki, bütün dünya xalqları ermənilərin rəzil sifətlərini görsün və kimin kim olduğunu yaxşıca tanısın. Elə etməliyik ki, xalqımızın başına açılan bu müsibətlər bir də təkrar olunmasın.

**"Azərbaycan" qəzeti**
**27, 28 fevral 1998-ci il, № 46, 47.**



15.-3510

## ŞAMAXI FACİƏLƏRİ

**1918**-ci ilin mart-aprel aylarında erməni zorakılıqlarından Azərbaycanın ən çox zərər çəkmiş bölgələrindən biri də Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndləri olmuşdur. Təəssüflər olsun ki, bu günə qədər 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən nədənsə onların Şamaxıda törətdikləri vəhşiliklərin ifşası kölgədə qalmışdır. Ermənilərin toplu halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə azərbaycanlı kəndinin əhatəsindəki cəmi 6 erməni kəndi və Şamaxı şəhərindəki azlıqda qalan bir ovuc erməni əhalisinin bu ərazidə azərbaycanlıların başına açdığı müsibətlərlə tanış olduqda adam dəhşətə gəlir. Ancaq təkzib olunmaz faktdır ki, bir ovuc erməni onlarca Azərbaycan kəndlərini tar-mar etmiş, on minlərlə günahsız əhalisini qətlə yetirmişlər. Bu fakt bir də onu sübut edir ki, ermənilər olduqca təhlükəli düşməndirlər. Onlar həmişə zərbəni gözlənilməz yerdən vurmağı çox gözəl bacarırlar. Ona görə də onlara inanaraq heç yerdə nəzarətsiz buraxmaq olmaz. Yeri gəlmişkən 1918-ci il Şamaxı hadisələrinin törədilməsində S.Şaumyan və onun əlaltılarının rolunu da diqqətdən qaçırmaq olmaz. O, özü 1918-ci ilin aprelin 13-də Sovet Rusiyası Xalq Komissarlar Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan "yeni dəstələr" göndərdiyini etiraf edirdi. (Bax: S.Şaumyan, seçilmiş əsərləri, 2-ci cild, səh. 261).

Bu dəstələrə S.Şaumyanın yaxın silahdaşlarından olan və Şamaxı qırğınının əsas təşkilatçısı, xalqımızın qəddar düşmənlərindən biri daşnak S.Lalayev rəhbərlik etmişdir.



Ermənilərin 1918-ci ilin mart və aprel aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərində törətdikləri cinayətləri ifşa edən çoxlu arxiv sənədləri qorunub saxlanılır. Bu sənədlər arasında 1918-ci il noyabr ayının 22-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədovun Azərbaycan Cümhuriyyəti ədliyyə nazirinə Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlı kəndlərinin talan edilməsi və müsəlman əhalisi üzərində ermənilərin zorakılıqları haqqında məruzəsi. (Bax: ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər. 9-14), həmin komissiyanın üzvü A.Novatskinin bu məsələ haqqında komissiya sədrinə məruzəsi, (bax: ARDA, f.1061, siy. 1, iş 108, vər. 8-10), bu işdə günahkar olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında Fövqəladə Təhqiqat Komissiyasının 1919-cu il 12 iyul tarixli qərarı ( Bax: ARDA, f. 1061, siy. 1, iş 105, vər. 1) və s. vardır.

Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat işlərində toplanılmış materiallar ermənilərin burada törətdikləri vəhşiliklər, erməni rəzaləti haqqında ətraflı məlumat verir. Burada toplanan yüzlərlə zərərdidə və şahid ifadələri, dindirmə protokolları ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikili və mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və Şamaxı qəzasının azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri əyani şəkildə ifşa edir.

Bu işdə Ə.Xasməmmədovun ədliyyə nazirinə təqdim etdiyi məruzəyə xüsusilə diqqət yetirməliyik. Komissiyanın ilkin istintaq nəticəsində əldə etdiyi məlumatlar həmin məruzədə şərh olunurdu. Məruzədə deyilirdi ki, Şamaxı şəhəri iki hissədən ibarətdir. Yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsi. Birincidə əsasən ermənilər və malakanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə yalnız müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardır. Erməni və malakanlar hərəsi 6

kənddə yaşayırlar. Həm şəhərli və həm də kəndlərdən olan müsəlmanlar ermənilərlə və malakanlarla keçmiş zamanlardan sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, onları incitməmiş, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Zaqafqaziyanın bir çox şəhər və kəndlərində ermənilərə qarşı çıxış ediləndə də Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişdir. Buna baxmayaraq Şamaxı şəhəri və Şamaxı qəzasının erməniləri həmin vaxtda zərər çəkmiş erməni qardaşları ilə həmrəylik xatirinə müsəlmanlara qarşı gizlində düşmənçilik hissi bəsləyir və 1905-ci ildə incidilmiş ermənilərin hayıfını çıxmaq üçün əlverişli məqam gözləyirmişlər. 1918-ci il martın 18-də qaliblər kimi şəhərin müsəlman hissəsinə soxulan ermənilər qışqırırmışlar: "Biz bu günü ***on iki ildir ki, gözləmişik.*** Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs ***Həzrət Abbasınızı çağırın***".

Həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab almışdır: "Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir".

Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ birinci dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər. 1917-ci il fevral çevrilişindən sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başlayırlar. Ermənilər çar hakimiyyəti orqanlarının yerli komandası oradan getdikdə gizli surətdə silah anbarını ələ keçirib bu haqda nə qəza komissarına, nə də yerli müsəlman Milli Şurasına heç bir məlumat verməmişdilər. Onlar ermənilərdən və malakanlardan ibarət hərbi qarnizon təşkil



edib oraya müsəlmanları buraxmamışlar. Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik edir, onları təhqir edir və incidirdilər. Elə bu vaxtlar ermənilər öz kəndlərinə müxtəlif yollarla silah və sürsat gətirib, sürətlə silahlanmağa başlayırlar. Silahı əsasən cəbhədən qayıdan əsgərlər gətirirdilər. Onların hərəsi özü ilə bəzən üç tüfəng gətirmişlər. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə salır. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Müsəlmanlar bütün qüvvələrini sərf edirdilər ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Altdan-altdan sürətlə silahlanan ermənilər üzdə özlərini elə göstərirdilər ki, guya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər. Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə erməni kəndində gizli surətdə Zaqafqaziyanın digər qəzalarından erməni əsgərləri toplanmağa başlayırlar. Martın birinci yarısında məlumat alınır ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək Bakıdakı bolşevik hakimiyyəti adından erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin dəstə ilə görüşü malakan kəndi Qozlu-Çayda (Xilmili) olur. Dəstəyə silahı Şamaxı qarnizonuna təhvil vermək təklif olunur. Onlar bundan qəti imtina edir və bildirirlər ki, onların başlıca məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verirlər. Martın 15-də dəstə Şamaxının yanından keçərkən şəhərin kənarında öz evlərini qoruyan müsəlmanlar dəstənin şəhərə hücum etdiyini güman edib atəş açırlar. Dəstə də cavab atəşi açır.

Tezliklə bütün şəhəri atışma bürüyür. Bu atışma nəticəsində hər iki tərəfdən tələfat olur. Lakin axşama yaxın şəhərdə tam sakitlik yaradılır. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün millətlərin və onların ruhanilərinin nümayəndələri bir yerə yığışaraq and içirlər ki, sülh şəraitində yaşayacaq və qayda-qanunu pozmayacaqlar. Bunu eşidən Kürdəmir kəndi sakinlərin müsəlmanları incitməməyi ermənilərdən xahiş etmək üçün Şamaxıya gəlmiş, erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən bu cür cavab almışlar: "Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və ***bu işdə onu İngiltərə müdafiə edəcək***".

1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin sədaları altında oyanırlar. Evlərindən çıxarkən görürlər ki, şəhər cənubdan ermənilər, şimali-şərqdən isə malakanlar tərəfindən mühasirə olunub. Şəhərin tamamilə azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tuturlar. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz idi. Yuxarıda qeyd etdiyimiz kimi ondan bir gün əvvəl erməni yepiskopu Baqrat və malakanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara qarşı silahlı çıxış etməyəcəklərinə and içərək söz vermişdilər. Əvvəlcədən müdafiəyə hazırlaşmamış azərbaycanlılar əvvəlcə müdafiə olunmağa təşəbbüs edirlərsə də, lakin top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilirlər. Ermənilər və malakanlar həmləyə başladıqlarından bir neçə saat sonra artıq şəhərin azərbaycanlılar yaşayan və şəhərin erməni hissəsi ilə sərhəd olan "Piran-Şirvan" bölməsinə soxula bilirlər. Onlar öz hərəkətləri zamanı hər addımları



azərbaycanlıların evlərinin talan edilməsi, yandırılması və mülki əhalinin qəddarlıqla qətlə yetirilməsi ilə müşahidə olunurdu. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət və yandırdığı evlər arasında Şıxıyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri də var idi. Ermənilər və malakanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Gecə müsəlmanlar təslim olmaq barədə qalib ermənilərin yanına nümayəndələr göndərir və sülh xahiş edirlər. Lakin atəş dayandırılmır. Yanğınlar bütün bölgəyə yayılır və o biri günün səhərinə qədər şəhərin bu ən zəngin məhəlləsindəki evlərdən yalnız xarabalıqlar qalır. Yandırılmış evlərdən qaçaraq canını qurtarmaq istəyən sakinlərin - kişi, qadın və uşaqlığına heç bir fərq qoymayan ermənilər onları açıqcasına, yaxud tinlərdən atəşə tuturlar. Adamları evlərdə, həyətlərdə, küçələrdə qətlə yetirirlər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yaranır. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağıla sığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Öldürmək və evlərini yandırmaq hədəsi ilə ermənilər azərbaycanlılardan onların pul və qiymətli şeylərini alır, lakin çox vaxt pul və qiymətli şeyləri vermələri belə azərbaycanlıları ölümdən və evlərini yandırılmaqdan xilas edə bilmirdi. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla təhqir olunmuşlar. Küçələrdə pazlarla diri-diri yerə mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlak araba və furqonlarla erməni və malakan kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam edir. Yalnız Gəncədən azərbaycanlı silahlı

dəstələrinin Şamaxıya köməyə gəlməsi ilə qorxuya düşən ermənilər və malakanlar Şamaxı qəzasının Qozlu-çay malakan kəndinə çəkilirlər. Azərbaycanlı silahlı dəstələri onları təqib edir. Lakin onlara məlum olur ki, ermənilər və malakanların qüvvələri onlarınkından qat-qat üstündür. Ona görə də strateji mülahizələrlə dörd gündən sonra azərbaycanlı silahlı dəstələr şəhəri tərk etməyə məcbur olurlar. Gəncədən olan silahlı dəstələrlə Şamaxının demək olar ki, əksər müsəlman əhalisi şəhəri tərk edir. Ancaq çox tələsik olduğu üçün onlar hətta özləri ilə vacib əşyalarını belə götürə bilməyərək onları talein hökmünə buraxırlar. Çoxlu şəhər sakini xüsusilə, yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qalır. Gəncədən olan silahlı dəstələr Şamaxını tərk etdikdən bir neçə gün sonra erməni və malakan quldur dəstələri geri qayıdaraq ikinci dəfə Şamaxını tuturlar. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması əvvəlkindən daha böyük qəddarlıq, qəzəb və qaniçənliklə həyata keçirilir. Şəhərdə qalan azərbaycanlı əhali uşaqlar, qadınlar, qocalar da daxil olmaqla tamamilə məhv edilmişdir. Küçələr, həyətlər, evlər, məscidlər meyidlərlə dolu idi. Şəhərdə azərbaycanlıların bütün hərəkət edən əmlakı qarət edilərək erməni və malakan kəndlərinə aparılmışdı. Şəhərin bütün azərbaycanlı hissəsi oda tutulmuşdur. Şəhərdəki bütün məscidlər (on iki məhəllə və təkcə ibadət yeri olmayıb 800 illik tarixi olan böyük arxitektura abidəsi olan "Cümə məscidi"), onların nəzdindəki müqəddəs yerlərlə birlikdə yandırılmışdı. Bir sözlə şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələri tamamilə xarabazarlığa çevrilmiş, bir ədəd də olsa azərbaycanlı evi sağ qalmamışdır.

Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı ***bir neçə min azərbaycanlı qətlə yetirilmişdir***. Onların arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Onlardan məşhur axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşlər. Ermənilər əvvəlcə onun saqqalını yolmuş,



dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişlər. Ermənilərin qəddarlıqla öldürdüyü şəhərin nüfuzlu azərbaycanlı şəxsiyyətləri arasında şəhər hakimi Teymur bəy Xudaverdov, birinci dövlət dumasına Şamaxıdan deputat seçilmiş Məmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov,Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyəddin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi.

Ermənilər xilas olmaq üçün Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışlar. Hacı axundun tamamilə yandırılmış evinin həyətində fövqəladə təhqiqat komissiyasının üzvləri çoxlu xırda insan sümükləri aşkar etmişlər. Meyitlərin iri sümüklərini isə türklər 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən yığıb basdırmışlar. Komissiya üzvlərinin 1918-ci ilin oktyabr-noyabrında bu barədə hazırladığı məruzədə qeyd olunurdu ki, həyətdə hələ indi də çürümüş meyitlərin iyi qalmaqdadır. Habelə yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.

Məruzədə göstərilirdi ki, bir neçə məscidin, evin və mağazaların xarabazarlıqlarının, habelə insan sümüklərinin 45 ədəd foto şəkilləri də çəkilmişdir. Fövqəladə təhqiqat komissiyasının digər məruzələrindən birində deyilirdi ki, erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir. (ARDSPİHA: f. 227, siy. 2, iş 16, vər. 18).

Məruzədən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş ziyan ***orta hesabla bir milyard manatdan çox olmuşdur***. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə - qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlir və ikili məqsəd daşıyırdı. Bir tərəfdən azərbaycanlıları kütləvi surətdə qırmaq, digər tərəfdən isə onların hesabına var-dövlət əldə edib varlanmaq. Şamaxını talan edən erməni quldur dəstələri bu ideyadan ilham alırdılar: ***Öldürüb talamaq! Talayıb öldürmək!***

Şamaxı üzərinə hər iki hücum zamanı yanğınlar, talanlar, qətllər bilavasitə illərlə Şamaxıda sülh şəraitində yaşamış, azərbaycanlılardan daim hörmət görmüş nankor yerli ermənilərin rəhbərliyi ilə daşnaklar tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdir. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, Şuşalı Aqamalov və b. rəhbərlik etmişdir. Rəhbərlik etməklə yanaşı bu şəxslər quldur dəstələrinin digər üzvləri ilə birlikdə və onlarla bərabər azərbaycanlı evlərini yandırmaq, talan etmək və dinc əhalinin qətillərində də bilavasitə iştirak etmişlər. Yüzlərlə şahidlər və zərərçəkənlər dindirilərkən bu qatillərin adlarını çəkmiş, qətl və qarətdə bilavasitə iştirak etdiklərini təsdiq etmişlər. Onlar yerli ermənilərdən keçmiş qəza rəisinin müavini Qavril Karaoğlanovun, keçmiş Şamaxı poçta-teleqraf kontorunun rəisi Arşak Gülbəndiyanın, Şamaxı erməni kilsəsinin hami-ktikoru Mixail Arzumanovun, Şamaxıda məşhur tacir E.İvanyantsın, dəllək Samvel Dolievin və b. bu hadisələrin şəxsən iştirakçısı və icraçısı olduqlarına şəhadət vermişlər.

Toplanılmış çoxlu əşyayi dəlillər, zərərçəkənlərin və şahidlərin ifadələri əsasında fövqəladə təhqiqat komissiyasının üzvü A.Novatski həmin komissiyanın sədrinin adına yazdığı məruzədə dinc azərbaycanlı əhaliyə qarşı eşidilməmiş cinayətlər törətmiş həmin şəxslərə qarşı cinayət işi qaldırmağı təklif edir. (Bax: ARDA. f.1061, siy. 1, iş 108, vər. 10).

1919-cu il iyul ayının 12-də Azərbaycan Cümhuriyyəti hökuməti yanında Fövqəladə təhqiqat komissiyası Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki təhqiqat işi haqqında komissiyanın üzvü A.Novatskinin məruzəsini dinləyərək şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və s. əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin, Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının, cəmi 31 nəfərin Şamaxı qırğınlarının başlıca caniləri olduqları göstərilir. Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qərarda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq öz qarşılarında Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bunun üçün də 1918-ci il martın 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlılar yaşayan hissəsinə hücuma keçirlər. ***Bir neçə gündə bir neçə min dinc azərbaycanlı əhalini - kişi, qadın, uşağı qətlə yetirmişlər. Özü də bü qatillər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətl edilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş,gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, çox böyük əziyyətlərlə öldürülmüşlər.*** Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət

etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. Fövqəladə təhqiqat komissiyası bu vandalizmin başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul edir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 108, vər. 5).

Şamaxı şəhəri kimi Şamaxı qəzasının nə az, nə çox 86 azərbaycanlılar yaşayan kəndi də ermənilərin xaincəsinə qəfl hücumlarına məruz qalmışlar.

Martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində olan Əngəxaran kəndinə də qəfil hücum olur. Müdafiəsiz kəndə soxulan düşmən Əngəxaranda ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu kənddən ermənilərin böyük işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı var. (Bax: ARDA. f. 1061, siy. 1, iş 100, vər. 19-24). Əngəxarana soxulan düşmən ermənilər və malakanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alır. Əsir alınmış Əngəxaran sakinlərinin uşaqları azərbaycanlı kəndi olan Məlhəmə aparılıb orada saxlanılır. 88 kişini isə malakan kəndi Çuxuryurda aparırlar. Kəndə çatmamış onlar əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələyirlər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərirlər. Yolda iki nəfəri də güllələyirlər. Mədrəsə kəndinə cəmi 74 nəfər sağ azərbaycanlı gəlib çıxır. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr Mədrəsəyə aparılmış qohumlarının taleindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəldikdə onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığını görürlər. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin



döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ onlar sağ ikən ermənilər onların sinələri üzərində od qalamışlar. Bundan başqa dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşlar. Komissiyanın məruzəsində göstərilirdi ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

Respublikamızın dövlət arxivlərində saxlanılan yüzlərlə sənəd Şamaxı qəzasının azərbaycanlı kəndlərində ermənilərin törətdikləri vəhşilikləri də əyani şəkildə ifşa edir. Təəssüflər olsun ki, Şamaxı şəhəri və Şamaxı qəzasındakı qətllər və dağıntılarla bağlı fövqəladə təhqiqat komissiyası tərəfindən aparılan təhqiqat və araşdırma işləri tamamilə başa çatdırılaraq yekun sənədlər və məlumatlar hazırlanmadığı üçün Şamaxı şəhəri və Şamaxı qəzasındakı azərbaycanlı kəndlərinə dəymiş ümumi zərərin miqdarı və öldürülmüş, yaralanmış əhalinin ümumi sayı haqqında əlimizdə dəqiq məlumat yoxdur. Lakin həmin komissiya tərəfindən toplanılmış və əlimizdə olan çoxlu ilkin məlumatlar əsasında Şamaxı qəzasının kəndlərində azərbaycanlılara dəymiş zərər, öldürülən və yaralananlar haqqında hesablamalar aparmaq mümkündür.

1919-cu il aprel ayının 3-də Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyi Şamaxı qəza rəisinin Fövqəladə təhqiqat komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısı göndərilmişdir. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin) adı daxil edilmişdir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 85, vər. 1-3). Fövqəladə təhqiqat komissiyasının Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə apardığı təhqiqatların - şahid ifadələri, zərərçəkənləri dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatlar, ölən və yaralananların siyahısı və s. əsasında ***53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı***

kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdir. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir: Nəvahi kəndində cəmi 995 nəfər azərbaycanlı öldürülmüşdür ki, onlardan da 555 nəfəri kişi, 260 nəfəri qadın və 140 nəfəri uşaq idi. Kəndə dəymiş ümumi maddi zərər 60 milyon manat olmuşdur; Yəhyalı kəndində 922 nəfər öldürülmüşdür ki, onlardan da 360 nəfəri kişi, 412 nəfəri qadın və 150 nəfəri uşaq idi, kəndə dəymiş ümumi maddi zərər 22 milyon manat olmuşdur; Qubalı Baloğlan kəndində 553 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 135 nəfəri uşaqlar idi, kəndə dəyən ümumi maddi zərər 90 milyona yaxın olmuşdur; Kalva kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 250 nəfəri kişi, 150 nəfəri qadın, 100 nəfəri uşaq idi, kəndə dəyən ümumi zərər 24 milyon manat olmuşdur; Ağsu kəndində 500 nəfər öldürülmüşdür ki, onlardan 200 nəfəri kişi, 300 nəfəri qadın olmuşdur, kəndə dəyən ümumi maddi zərər 36,5 milyon manat olmuşdur; Tircan kəndində 360 nəfər öldürülmüşdür ki, onlardan da 300 nəfəri kişi, 40 nəfəri qadın və 20 nəfər uşaq idi, kəndə dəyən ümumi maddi zərər 21 milyon manata yaxın olmuşdur; Bağırlı kəndində 370 nəfər öldürülmüşdür ki, onlardan da 80 nəfəri kişi, 150 nəfəri qadın, 140 nəfəri uşaqlar olmuşdur, kəndə dəyən ümumi zərər 12,5 milyon manat olmuşdur. Qalan bütün kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar fövqəladə təhqiqat komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişlər. Bu aktlarda olan rəqəmlər üzrə bizim hesablamamıza görə Şamaxı qəzasının ***53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamamıza görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur.*** (Bu məlumatlar üçün bax: ARDA, f. 1061, siy. 2, iş 85, 87, 100 və s.). Dəymiş maddi zərərlər yandırılmış və dağıdılmış yaşayış evləri və digər tikililərin, qovulub aparılmış və ya məhv edilmiş iri və xırda buynuzlu mal-qaranın, oğurlanmış və yandırılmış ev əşyalarının, aparılmış və ya məhv edilmiş kənd təsərrüfatı alətlərinin, taxılın, mal-qara üçün yemin, qırılıb dağıdılmış üzüm, tut və meyvə bağları və s. üzrə hesablanırdı. Ermənilərin azərbaycanlıların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri hərəkətlər sözün əsl mənasında vandalizmin, vəhşiliyin nümunəsi idi. Onlar tutduqları yerlərdə ilk növbədə evləri qarət edib yandırır, mal-qaranı isə sürüb aparırdılar. Bu vəhşilər mal-qaranı sürüb aparmağa imkan tapmadıqda tövlələrə od vurub dilsiz-ağızsız heyvanları belə diri-diri yandırırdılar. Üzüm, meyvə və tut bağlarındakı ağac və meynələri vəhşiliklə doğrayırdılar. Bir sözlə, onlar özlərindən sonra heç nə qoymurdular. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin dağıdıb məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi sözün əsil mənasında dilənçilərə çevrilmiş, Azərbaycanın başqa rayonlarına və Bakı şəhərinə pənah gətirmişlər. Təəssüflər olsun ki, Sovet hakimiyyəti illərində xalqımıza edilmiş bu zülm unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S.Şaumyan o vaxtlar Şamaxı qəzasına daxil olmuş rayonlarda ən əziz adam kimi yad edilmişdir. Onun adına küçələr, kolxozlar qoyulmuş, şəkilləri idarələrimizdə ən görkəmli yerlərdən asılmışdır. Bu unutqanlığımız isə bizə çox baha başa gəldi. Minlərlə say-seçmə oğullarımızı, ərazimizin 20 faizini itirdik, 1 milyon soydaşımız öz ölkəsində qaçqına çevrildi.

**"Azərbaycan" qəzeti,**
**14, 15 mart 1998-ci il, № 59, 60.**

## ZƏNGƏZUR FACİƏLƏRİ

1918-ci ildən 1920-ci il aprel çevrilişinə qədər erməni vəhşiliklərindən ən çox ziyan görmüş Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı güc işlətmək siyasəti bir an da olsun belə kəsilmir, hərdən səngisə də, sonra daha yeni qəddarlıqlarla təkrar olunurdu. Fövqəladə İstintaq Komissiyasının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin, müxtəlif nazirliklərin arxivlərində bu haqda çoxlu tarixi sənədlər qorunub saxlanılır. Onların arasında Fövqəladə təhqiqat komissiyasının məruzələrini, Azərbaycan parlamentinin 1918-ci il dekabrın 20-də keçirdiyi və bu məsələyə həsr olunmuş xüsusi fövqəladə iclasının materiallarını, xüsusilə orada Baş nazir F.X.Xoyskinin çıxışını, parlamentin adına gəlmiş teleqramları və s. qeyd etmək olar. (Bax: ARDA. f. 895, siy. 1, iş 1299, f. 970, siy. 1, iş 161, f. 1061, siy. 1, iş 49-65 və s.).

Hündür dağ bölgəsində yerləşən bu qəzanın demək olar ki, əlaqələri Şuşa qəzası ilə tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdir. Müsəlman kəndləri tək-tək erməni kəndlərinin aralarında qaldıqlarına və bir-biriləri ilə əlaqə saxlamaq üçün yalnız erməni kəndlərindən istifadə etməyə məcbur olduqları üçün ilk gündən özlərinin bu üstün vəziyyətini hiss edən ermənilər həmin qəzada üstünlüyü öz əllərinə almışlar. Qəzanın müsəlman əhalisinin Azərbaycanın başqa əyalətlərinə nisbətən vəziyyəti bir də ona görə pisləşmişdir ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin çox yaxşı təşkil edilmiş erməni əsgərlərindən ibarət nizami qoşunları da vardı. Andranik öz ətrafında nizami qoşun və erməni quldur dəstələrini



cəmləşdirərək görünür ki, Erməni Respublikası hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edir ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da qəzanın ərazisini tərk etsinlər. Guya bu qəza Ermənistan Respublikasına daxildir. Qəzanın demək olar ki, bütün dünyadan təcrid olunmuş və çox zəif silahlanmış əhalisi Andranikin bu tələblərini rədd edir. Buna görə də ermənilər həmin əhaliyə qarşı eşidilməmiş vəhşiliklər törədirlər. Öz respublikalarının ərazisini genişləndirməyə cəhd edərək ermənilər müsəlmanlara aman vermirdilər. Hətta müsəlmanlar könüllü olaraq öz doğma ocaqlarını tərk etdikdə belə ermənilər onların kəndlərini yandırır, özülünə qədər dağıdır, əhalini görünməmiş vəhşiliklərlə qətlə yetirir, onların mal-heyvanlarını sürüb aparır, əmlaklarını müsadirə edir, onların torpaq sahələrini zorla ələ keçirib əkirdilər. Məruzədə göstərilirdi ki, hazırda bu qəzada yalnız Oxçu dərəsi müsəlman kəndlərinin əhalisi çox mərdliklə öz doğma ev-eşiklərini, ata-baba ocaqlarını müdafiə edirlər.

Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdir. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin üçün şumlanmışdır. ***50 mindən yuxarı müsəlman qaçqını*** qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışlar.

Fövqəladə təhqiqat komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunur. Dağıdılmış bütün kəndlərin adları sadalanır.

Məruzədə göstərilən 115 kənd ermənilər tərəfindən yandırılmış, əmlakı oğurlanıb aparılmış, ərazisi ermənilər tərəfindən zəbt olunmuşdur. Bu kəndlər məhv edilərkən o



16.-3510

qədər haqsızlıqlar, vəhşiliklər törədilmişdir ki, onları ayrı-ayrı kəndlər üzrə göstərməyə imkan yoxdur. Ermənilərin dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliklər haqqında təhqiqat komissiyasının aktları, onlara əlavələrdə kifayət qədər məlumatlar vardır.

Yuxarıda göstərilən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Nəticədə tam olmayan məlumata görə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşilikləri haqqında tam məlumat vermir. Belə ki, erməni vəhşiliklərinin qurbanları daha çox olmuşdur. Ancaq indiki dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.

Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri vəhşiliklər haqqında ətraflı məlumatlar verilmişdir. Vaqudu kəndində erməni əsgərlərinə paylanmış və zorlanmış 15 nəfər gözəl azərbaycanlı qızları namussuzluq əzabına dözə bilməyərək özlərini məhv etmişlər. Elə həmin kənddə 400-dən yuxarı azərbaycanlı əhali məsciddə sığınacaq tapır və güman edirlər ki, ermənilər müqəddəs yer olan məscidə dəyməzlər. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Həmin kənddə Qədəm Tahir qızı qılıncla doğranmış və döşü kəsilərək başı kəsilmiş südəmər uşağın ağzına soxulmuşdur. Həmin kənddə ermənilər Yolçu Şıx Hüseyn oğlunu öldürərək, cinsiyyət üzvünü kəsib ağzına soxmuşlar. Həmin kənddən dörd nəfər cavan qız - Nisə Əmən qızı, Acib Nuhbala qızı, Sona Cəfər qızı və Şahnur Cəlal qızı ölənə qədər ermənilər tərəfindən zorlanmışlar. Həmin kəndin yaxınlığında Gülməstə Qasım qızı öldürülmüş, döşləri kəsilmiş, kürəklərinin arasına at nalı mıxlanmışdır. Nüvədi kəndində ermənilər yorğan-döşəkdən dura bilməyən yüz yaşlı Əsəd bəy Məlik Abbasovu süngü ilə dəlik-deşik etmişlər.

Həmin kənddə küçələrdə qaçıb canını qurtarmaq istəyən uşaq və qadınların şaşka və xəncərlərlə başlarını üzmüşlər. Şəki kəndinin küçələrində döşləri kəsilmiş qadın və iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdır. İrmişli kəndini talan edərkən ermənilər südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülənlərin meyitləri tikə-tikə doğranırdı. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edirlər, bundan imtina edən qadınların döşlərini kəsir körpə uşaqların ağzına soxurdular. Elə həmin kənddə ermənilər sağ-sağ Qulam Şakir oğlunun ayaqlarını kəsmiş, sonra süngü ilə onu dəlik-deşik edərək qanı qurtarıb ölənə qədər kəsik ayaqları üzərində hərəkət etməyə məcbur etmişlər. Həmin kənddə gözəl qızlar əvvəl zorlanmış, sonra isə öldürülmüşlər. Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışlar. Bağırbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışlar. Müsəlmanlar kəndində meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışlar ki, bilmək olmurdu ki, həmin əzalar hansı meyitə məxsusdur. Qatar kəndində çox hörmətli Məşədi Qələndər Məşədi Qulu oğlunun üzərinə ermənilər neft tökərək diri-diri yandırmışlar. Həmin kənddə ermənilər Kərbəlayı Allahverdi Hüseynəli oğlunun əl-ayağını bağlayaraq qoyun kimi boğazından kəsmişlər. Vartanazur kəndində ermənilər xüsusilə çox uşaq və qadını xəncərlə doğramışlar.

Bu göstərilənlər ermənilərin törətdikləri vəhşiliklərin cüzi bir hissəsi idi. Bu cür və bundan daha dəhşətli vəhşiliklər ermənilərin dağıtdıqları bütün kəndlərdə təkrar olunurdu. Lakin təəssüflər olsun ki, o kəndlərin çoxunda bu vəhşiliklərin şahidləri belə qalmamışdır.

Çoxlu şahidlərin dediyinə görə Zəngəzur qəzasında 1918-ci il yayın axırları və payızında baş verən bu hadisələr bilavasitə

cəllad Andranikin rəhbərliyi altında keçirilmişdir. Zəngəzur qəzasının müsəlman kəndlərinə hücum etmiş erməni quldur dəstələrinin başçıları və bu dəstələrin yüzlərlə üzvləri şahidlər tərəfindən tanınmışlar. Onlardan Gorus şəhərindən Nikolay Osipov, Simon Mirumov, Darabas kəndindən - Şamir Şahnazarov, Meğri kəndindən David Arşak, Matevos Maçiants, Kəvər kəndindən Amazasp, Xatanan kəndindən zabit Avanes Ter-Petrosov, Arnazur kəndindən Sumbat Melik-Stepanov və onlarla başqaları idi.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, 10 minlərlə iribuynuzlu mal-qara və 100 minlərlə xırdabuynuzlu qoyun-keçi ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti üçün zəmi kökündən məhv edilmişdir. Qəzanın Azərbaycanın müxtəlif kəndlərinə qaçıb dağılmış əhalisinə ermənilər tərəfindən o vaxtın qiymətləri ilə ***1 milyard manata yaxın maddi ziyan vurulmuşdur.***

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919-cu ilin dekabrından yenidən şiddətlənir. Artıq noyabr aylarında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başlayırlar. Özü də bu vaxt artıq Ararat Respublikasının rəsmi nizami ordusu bu işdə iştirak etməyə başlayır. (ARDA: f. 894, siy. 4, iş 65).

1920-ci il yanvarın 6-da keçirilən iclasda Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi "Zəngəzurun müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasının davam etməsinə qarşı tədbirlər görülməsinin zəruriliyi haqqında" daxili işlər nazirliyinin məlumatını müzakirə edir və qərara alınır ki, dinc əhaliyə qarşı ermənilərin bu hərəkətlərinin qarşısını almaq üçün müəyyən tədbirlər görülsün və bu haqda müttəfiq qoşunlarının bölgədəki nümayəndəsinə məlumat verilsin. (Bax: ARDA. f. 897, siy. 1, iş 112, vər. 48).



Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvəllərində özünün kulminasiya nöqtəsinə çatır. Həmin il yanvarın ortalarında Paris sülh konfransı ölkələri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması ilə əlaqədar olaraq ermənilər Zəngəzurda daha da fəallaşırlar. Özü də əvvəllər Zəngəzurda baş verən hadisələrin bilavasitə təşkitlatçısı olan Ararat Respublikası rəsmi yazışmalarda bu işlərdən qətiyyən xəbəri olmadığını iddia edir. Həmin hadisələrin günahını gah Andranikin, gah da Zəngəzurda yaradılmış digər erməni təşkilatlarının üzərinə atırdı. Lakin 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin bilavasitə təşkilatçısı məhz Ararat Respublikasının özü idi. Burada da əsas məqsəd Zəngəzur qəzasını tezliklə tamamilə müsəlmanlardan təmizləyərək sülh konfransı ölkələrini bu məsələnin Ermənistanın xeyrinə həllində həyata keçirilmiş fakt qarşısında qoymaq idi. Artıq bu təmizləmə siyasətində Zəngəzurdakı erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının top və pulemyotlarla silahlanmış on mindən yuxarı nizami qoşun dəstələri də iştirak edirdi.

Bu hücumla əlaqədar olaraq 1920-ci il yanvarın 20-dən Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə müxtəlif partiya fraksiyalarının rəhbərlərinə Zəngəzur, Cəbrayıl və Şuşadan çoxlu həyəcanlı xəbərlər daxil olur.

İlk teleqram 1920-ci il yanvarın 21-də Azərbaycan Respublikası Parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Cəbrayıldan Azərbaycan Parlamentinə göndərilmişdir. Orada deyilirdi: "Zəngəzur qəzasında ***dörd gündür*** ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında hücumları davam edir. Cəbhə xətti Qubadlıdan Xocahana qədər 50 verst məsafədə uzanır. İtgilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur. Artıq dərəcədə xahiş edirəm çox sayda ordu və patron göndərmək haqqında təcili tədbirlər görün. Qəzanın bədbəxt əhalisi

adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz türk (azərbaycan - A.P.) xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 20).

Elə həmin gün Şuşadan da Azərbaycan Parlamentinin ünvanına Məmməd Həsən Xocahanlı, Fərrux bəy Sarmasbəyov, Abbas bəy Mirzəyev, Baqrat bəy Cavanşir, İsmayıl Muxtarov tərəfindən vurulmuş teleqramda deyilirdi: "Yanvarın 19-dan başlayaraq ermənilər nizami ordu və artileriyanın köməyi ilə Zəngəzur müsəlmanlarını qırmağa başlayıblar. Artıq Əliqulu uşağı, Eyvazlı, Şamsız, Şurnux, Məzrə, Novla, Tarovlu kəndləri tamamilə dağıdılıb, hücum davam edir. Müsəlmanların vəziyyəti çıxılmazdır. Heç yandan kömək yoxdur. İranlı ermənilər tərəfindən də təhlükə gözlənilir. Yalvarırıq, təcili tədbirlər görün". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 35-37).

Yanvarın 22-də isə Cəbrayıl məktəbinin nəzarətçisi H.Axundzadə Azərbaycan Parlamentinə göndərdiyi teleqramda yazırdı: "Ayın 19-da səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağıdılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qutarırlar". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 31-33).

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi - azərbaycanlı əhali arasında ümidsizlik doğurur. 1920-ci il yanvar ayının 23-də Cəbrayıldan müəllim Hüseyn Axunzadə və başqaları



tərəfindən kiril əlifbası ilə Azərbaycan dilində Azərbaycan Cümhuriyyəti Parlamenti və hökuməti adına göndərdikləri teleqramda deyilirdi: "İkinci dəfə olaraq teleqraf edirik. Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı. Qarı arvadların məmələri kəsilmiş, məsum balalarının başsız bədənləri qırmızı qanlarına bulaşmış çöllərdə qalıblar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmən müqabilində bir az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Heç bir tərəfdən kömək gəlməmişdir. Ermənilərin nizami orduları ***on min nəfərə*** çatmışdır və hər an qüvvələri artmaqdadır. Ararat (Respublikası - A.P.) tərəfindən hər an onlara kömək gəlir. On ədəddən yuxarı topları və çoxlu pulemyotları vardır. Topların gurultusu Cəbrayılı həyəcana gətirmişdir. On minlərlə Zəngəzur qaçqını Cəbrayıl qəzasına yayılmışdır. Üzümüzü çeviririk ümumi Azərbaycan dindaşlarımıza. Onları Zəngəzurdakı qardaşlarımızın, bacılarımızın, məsum balaların məzlumanə şəkildə şəhid olmalarına qarşı kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq.

Ermənilərin fikri budur ki, Zəngəzurla qurtarmaqla Cəbrayıl erməniləri ilə birləşib buralarda da dəxi dava etsinlər və Naxçıvan ilə bizim əlaqələrimizi tamamilə kəssinlər. Əgər hökumət tərəfindən fövqəladə binagüzarlıq olmazsa müsəlmanların işi fəna olacaqdır". (ARDA. f. 895, siy. 1, iş 299, vər. 8-12).

Elə həmin gün Cəlil Sultanovdan da Azərbaycan Parlamentinə, hökumətinə, bütün Parlament fraksiyalarının sədrlərinə aşağıdakı məzmunda ikinci teleqramı daxil olmuşdur: "İndicə aldığım səhih məlumata görə yanvarın 19-da erməni nizami ordusu 10 top və çoxlu pulemyotlarla Xocahan və Qaladərəsi arasındakı bir sıra tatar (azərbaycanlı - A.P.) kəndlərinə hücum etmişlər. Dünənə qədər 15 kənd məhv

edilmişdir. Hücum Cəbrayıl qəzasının Xanlıq kəndi yaxınlığında davam edir... Qaçqınlar böyük sayda Cəbrayıla gəlirlər. Təkrar edir və yalvarıram ki, təcili tədbir görərək ordu göndərin. Xahiş edirəm mənim teleqramımı bütün Parlament üzvlərinə elan edəsiniz. Mən hərbi əməliyyat yerinə gedirəm". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 14-17).

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Bu gün axşam vaxtı qəza rəisi ili birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Ermənilərin döyüş meydanında qalmış ölüləri arasında bir neçə rəngli ingilis əsgəri də vardı. Xocahan və Zabux arasındakı bütün yüksəkliklər ermənilər tərəfindən tutulmuşdur. Əkərə çayının sağ sahili boyu üçüncü polis sahəsi tamamilə toplarla və pulemyotlarla məhv edilmişdir. Bu gün Zəngəzur qəzasının dördüncü polis sahəsinin sağ qalan hissəsini ermənilər mühasirə ilə kəsib ayıraraq onun da axırına çıxırlar. Zəngəzurda tam hakimiyyətsizlik hökm sürür. Döyüşmək və müqavimət göstərmək üçün heç bir vəsait yoxdur. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın Dağlıq hissəsinin erməniləri sürətlə üsyana hazırlaşırlar. Hökumətin cinayətkarcasına fəaliyyətsizliyi Zəngəzur və Qarabağın məhvinə gətirib çıxarıb. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain xatisovların təntənəli ziyafətləri, Azərbaycanın erməni təbəələrinin həyasızlığı yetər. Xahiş edirəm təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinayət və satqınlığa bərabərdir. Hərbi nazirin iştirakı çox vacibdir". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26).

1920-ci il yanvarın 24-də Cəbrayıldan C.Sultanovun Azərbaycan Parlamenti adına göndərdiyi son teleqramında deyilirdi: "Bütün teleqramlarıma əlavə olaraq hərbi əməliyyat yerindən məlum edirəm ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhədlərində - Əkərə çayı ətrafında cəmləşdiririrlər. Qarabağı xilas etmək lazımdır. ***Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir.*** Yalvarıram, təcili və qəti tədbirlər görün". (ARDA: f. 895, siy. 1, iş 299, vər. 5-7).

Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Qarabağın general-qubernatoru X.Sultanova 1920-ci il 24 yanvar tarixli gizli məktubundan məlum olur ki, Zəngəzur və Qarabağda ermənilərin yaratdığı bu həyəcanlı vəziyyətlə bağlı hərbi nazirliyin xüsusi tədbirlər planı hazırlaması ilə yanaşı Dövlət müdafiə komitəsinin qərarı ilə daxili işlər orqanlarına yerli əhalidən müdafiə dəstələri yaratmaq üçün 5 milyon manat vəsait ayrılmış, bu vəsaitin lazımi yerlərə çatdırılması və nəzərdə tutulan məqsəd üçün sərf edilməsi işində yardımçı olmaq vəzifəsi həvalə edilmişdir. (Bax: ARDA: f. 894, siy. 7, iş 21, vər. 26). Lakin bu vəsait, xüsusilə hərbi sürsatın yerlərə çatdırılmasında böyük çətinliklər yaranmasına baxmayaraq, nəhayət ki, bu çətinliklər aradan qaldırılaraq qəzanın əhalisindən ayrı-ayrı müdafiə dəstələri yaradılaraq Abdallardan Zəngilana qədər cəbhə boyu xəttində yerləşdirilmişdir. (Bax: "Azərbaycan" qəzeti, 1920-ci il, 26 fevral).

Dövlət müdafiə komitəsinin qərarı ilə hərbi nazirlik Xankəndi qarnizonunda və Gəncədə olan əsgəri qüvvələri Cəbrayıla yönəldilir. Daxili işlər naziri vəzifəsini ifa edən

M.Vəkilov 1920-ci ilin fevralında Qarabağ general-qubernatoruna, Zəngəzura hərbi yardım məqsədilə digər yerlərin əhalisindən təşkil olunmuş min nəfərlik müdafiə dəstəsi yaradaraq bölgəyə gətirilməsini tapşırır. (Bax: ARDA. f. 894, siy. 7, iş 21, vər. 53).

Görülmüş tədbirlər nəticəsində Cəbrayıl qəzasından göndərilən 600 nəfərlik süvari dəstəsinin və Zəngəzur qəzası 3-cü sahəsinin pristavı Cəmilbəyovun 2 pulemyotla göndərdiyi 300 nəfərlik silahlı dəstələr birgə səy nəticəsində həm əsgərlərin sayı, həm hərbi texnika cəhətdən özlərindən 6 dəfə üstünlüyə malik erməni ordusuna böyük zərbələr endirərək Dondarlı ilə bərabər Qubadlı və digər kəndləri ermənilərdən geri aldılar. (ARDA: f. 894, siy. 7, iş 21, vər. 35). Dondarlıdakı məğlubiyyətdən sonra erməni silahlı qüvvələri Əliquluşağı kəndindən Zəngilana qədər olan ərazidə geri çəkilməyə məcbur olurlar. Bu həm də azərbaycanlı əhalidə mübarizəyə ümid oyatdı və sübut etdi ki, azərbaycanlılar yaxşı təşkil olunduqda ermənilərə layiqincə cavab verə bilirlər. Bu qələbənin əsas əhəmiyyətlərindən biri də onda idi ki, ermənilərin Qarabağa soxulmaq planları pozuldu. Həm də bu vaxt Türkiyə hərbi hissələri Naxçıvan mahalında yerli əhali ilə birlikdə ermənilərə qarşı döyüşlərdə erməni qüvvələrinə üstün gəlməsi erməniləri məcbur edir ki, özlərinin Zəngəzurdakı hərbi qüvvələrinin 2 minlik bir hissəsini kömək üçün geri çağırsın. (Bax: ARDA. f. 894, siy. 7, iş 22, vər. 13-14).

Nəticədə Azərbaycan Ordu birləşmələri Cəbrayıl və Zəngəzur partizanları ilə birlikdə apardıqları müvəffəqiyyətli əməliyyatlar nəticəsində bir neçə kəndi ermənilərdən geri almış, hətta onlardan əsir götürmüş və hərbi sursat ələ keçirmişdir. (ARDA: f. 894, siy. 7, iş 29a, vər. 5-6).

Azərbaycan ordusu və partizan dəstələrinin müvəffəqiyyətli əməliyyatlarını pozmaq, onlar arasında çaşqınlıq yaratmaq məqsədilə 1920-ci ilin martında Novruz bayramı günü ermənilər azərbaycanlıların bayram şənliklərinə başı qarışdığı



bir vaxtda Qarabağda qiyam qaldırır və Azərbaycan ordusunun Xan kəndindəki hərbi hissənin düşərgəsinə xaincəsinə basqın edirlər. Qarabağ qiyamı Azərbaycan ordusu tərəfindən müvəffəqiyyətlə yatırılır. Öz təcavüzkarlıq niyyətindən əl çəkməyən Ermənistan daşnak hökuməti Zəngəzura əlavə silahlı qüvvələr göndərməklə burada hərbi əməliyyatları yenə də qızışdırırdı. Nəticədə əlavə yeni qüvvələr alan erməni hərbi hissələrinin martın 27-də başlanan yeni hücumları nəticəsində bölgədə vəziyyət yenə də ağırlaşır. Güllə çatışmadığı üçün partizan dəstələri geri çəkilməyə məcbur olurlar. Fürsətdən istifadə edərək Qarabağ ermənilərindən yardım alan Zəngəzurdakı daşnak ordusu martın 27-də partizanların geri aldıqları Fərican kəndinə hücum etmişlər. Martın 29-da gedən döyüşlər nəticəsində azərbaycan əsgər və partizanları heç bir itgi vermədən Əliquluşağı kəndini geri almış və 300-ə qədər ermənini məhv etmişdir. (ARDA: f. 894, siy. 7, iş 29a, vər. 8-9).

Lakin martın sonu, aprelin əvvəllərində Zəngəzur və Qarabağ erməni silahlı dəstələrinin xeyli üstün qüvvələrlə güclü hücumları Həkəri çayından Şuşaya qədər olan ərazidəki Əliyanlı, Müsəlmanlar, Muradxanlı, Qaraimanlı və s. kəndlərin əhalisinin öz yaşayış yerlərini tərk edərək Cəbrayıl qəzasına qaçmağa məcbur oldular. (Yenə orada, vər. 15).

Martın 31-də axşam Qubadlı və Dondarlı kəndlərinin ermənilərin əlinə keçməsi ilə əlaqədar olaraq polkovnik Qacarın başçılıq etdiyi hərbi hissələr Cəbrayıl qəzasının Xanlıq kəndinə çəkilməyə məcbur oldular. Bununla da Zəngəzurdakı erməni silahlı qüvvələri Qarabağdakı erməni hərbi dəstələri ilə birləşərək region üçün ciddi təhlükə yaradır. Belə ki, Zəngəzurun çox hissəsinin erməni hərbi birləşmələrinin əlinə keçməsi və onun Şuşa üzərinə hücum üçün real zəmin yaranması, Cəbrayıl qəzasını tutaraq Ağdam ilə əlaqəni tamamilə kəsə bilmək təhlükəsi yaranır. Buna görə də həmin il aprelin 1-də hərbi şuranın müşavirəsində ertəsi

gün bütün Cəbrayıl qəzası üzrə hücuma keçmək qərara alınmışdır. Görülən bütün tədbirlər nəticəsində aprel ayında aparılan döyüşlər nəticəsində Ermənistanın nizami silahlı dəstələri Zəngəzurda xeyli sıxışdırılmış və hadisələrin gedişi üzərində nəzarət artıq bərpa edilmiş, daha müvəffəqiyyətli əks hücumlar üçün zəmin yaranmışdır. 1920-ci il aprelin 27-də XI Qızıl ordunun Bakını, sonra isə Azəraycanın başqa bölmələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Azərbaycanın ərazi bütövlüyünün təmin etmək üçün gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan Sovetləşən kimi heç bir qeyri şərtsiz həmin ərazilər Sovet Ermənistanına bağışlandı.

Azərbaycanda 1920-ci il aprel çevrilişindən sonra həmin ilin dekabrında Ermənistanın sovetləşdirilməsinə qədər Zəngəzur məsələsi ilə bağlı Sovet Rusiyasının yeritdiyi siyasətlə Ermənistan sovetləşəndən sonra yeritdiyi siyasət arasında köklü fərq mövcud olmuşdur. Belə ki, əgər 1920-ci il aprelin 30-da XI ordunun siyasi rəhbərliyi Azərbaycan İnqilab Komitəsi sədrinin müavini M.D.Hüseynovu Ermənistan daşnak hökumətinə nota ilə müraciət edərək Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləməyi tələb edirdisə, həmin ilin dekabrında Zəngəzuru Ermənistana bağışlamağı məcbur etmişlər. Əlbəttə, bu o dövrkü Azərbaycan rəhbərliyinin öz təşəbbüsü ilə həyata keçirilmiş bir akt olmayıb. V.İ.Leninin başçılıq etdiyi Sovet Rusiyasının hakim dairələrində böyük nüfuz sahibi olan erməni və gürcü bolşeviklərinin diktəsi ilə bu regionda yeritdiyi yeni müstəmləkəçilik siyasətinin təcəssümü idi.

1920-ci ilin dekabrında Zəngəzurun heç bir qeyri-şərtsiz Ermənistana verilməsi ilə mənfur Z.Balayanın "Ocağ"ında deyildiyi kimi "Türkün ürəyinə çalınmış paz" onsuz da iki yerə parçalanmış Azərbaycanın şimal hissəsini yenidən bölüb iki yerə ayırdı. Görünür ki, bu məsələnin tamamilə öz xeyirlərinə



həll olunduğunu hiss edən ermənilər müvəqqəti sakitlik yaratmaq üçün Zəngəzurdan qovulmuş azərbaycanlı əhalinin geriyə, öz yurd-yuvalarına qayıtmalarına etiraz etmirlər. Ancaq sonrakı hadisələr göstərdi ki, bu razılıq müvəqqəti imiş. Bütün vasitələrdən istifadə edən ermənilər bu ərazidə yaşayan azərbaycanlıları sıxışdıraraq azaltmış, 1980-ci illərin axırlarında M.Qorbaçovun bədnam "yenidənqurma" siyasətindən məharətlə bəhrələnərək onları son nəfəslərinə qədər əzəli və əbədi torpaqları olan Zəngəzurdan qovmuşlar.

**"Azərbaycan" qəzeti,**
**25, 27 mart 1998-ci il, № 66, 68**

# QUBA QIRĞINLARI

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il iyul ayının 15-də yaratdığı Fövqəladə Təhqiqat Komissiyası həmin ilin aprel və may aylarında Quba şəhəri və Quba qəzasının kəndlərində S.Şaumyan və G.Karqanovun göndərdikləri erməni daşnak cəza dəstələrinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında da çoxlu məlumatlar toplamışdır. 5 clddən ibarət olan bu materiallar arasında zərərdidələrin və şahidlərin dindirilmə protokolları, Quba şəhərinin ayrı-ayrı günlərində yandırılmış və dağıdılmış, evlərə və dükanlara baxış protokolları, Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatskinin və digər şəxslərin hazırladıqları məruzələr, aktlar, şəhərin ayrı-ayrı ailələrinə və sakinlərinə dəymiş maddi zərərin miqdarı barədə siyahılar və s. vardır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95-98). Bu cildlərdəki qarət edilmiş əşyaların siyahıları arasında daha çox xalça və qızıl əşyaların siyahısı nəzəri cəlb edir.

Ermənilərin kütləvi surətdə yaşamadığı, demək olar ki, onların barmaqla sayıldığı Quba şəhərində bu hadisələr necə baş vermişdi? Ermənilər xalqımıza qarşı belə bir vəhşilikləri necə törədə bilmişlər?

Əvvəla onu qeyd edək ki, Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatski 1918-ci ilin dekabrın 11-də həmin ilin may ayında Quba şəhərinin S.Şaumyanın göndərdiyi daşnak quldur dəstələri tərəfindən dağıdılmasına qədər şəhərin ümumi vəziyyətinə aid Quba şəhər rəisi Ə.Əlibəyova sorğu göndərir. Şəhər rəisi isə özünün həmin il 12 dekabr tarixli cavabında bildirirdi ki, Amazaspın erməni cəza dəstələri tərəfindən dağıdılana qədər Quba şəhərində təxminən 20 minə yaxın əhali və 10 minə yaxın ev olmuşdur. Daşnakların Quba şəhərinə hücumu 1918-ci il may ayının 1-də başlamış və onların azğınlıqları doqquz gün davam etmişdir. Bu müddət ərzində Quba şəhərində azərbaycanlılara məxsus 200-ə yaxın ev tamamilə dağıdılmış və yandırılmışdı. Ən çox dağıntı Bazar, **Bulvar**, **Komendant** və A.Bakıxanov kimi mərkəzi küçələrdə törədilmişdir. Onun verdiyi məlumata görə bu hadisələrə qədər Quba şəhərində dağınıq şəkildə cəmisi 500 nəfərə yaxın erməni yaşamışdır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 1-2).

Burada Ə.Əlibəyovun izahatındakı bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. Bir tərəfdən bu o illər kommunist libası geymiş erməni daşnaklarının azərbaycanlılara qarşı bir neçə yerdə həyata keçirdiyi tamamilə əvvəlcədən planlaşdırılmış tədbirlə necə də uzlaşır. Digər tərəfdən isə 1988-ci ildə Sumqayıt hadisələri zamanı pullu ermənilərin öz pullarının əmanət kassalarından çıxarması və Sumqayıtı tərk etmələri ilə necə də oxşarlıq təşkil edir.

Əli Abbas bəy izahatında bildirirdi ki, mən fikir verirdim, bu il mart ayının əvvəllərindən çoxlu Quba erməniləri özlərinin daşınan və daşınmayan əmlaklarını sataraq çıxıb gedirlər. Məsələn, Aleksandr Melikov, Cavad Poqasov, Mirzə Parseqov, Maqaks Poqasov, Artaşet Məlikov, Nerses Surumov və b. Mən Aleksandr Melikovdan və Bağdasarovdan soruşduqda ki, nə səbəbə onlar əmlaklarını sataraq belə tələsik çıxıb gedirlər. Onlar mənə dedilər ki, "Sizinlə bizim aramızda nə isə gözlənilir. Ona görə komitə bizi geri çağırır". (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 38). Deməli həmişə olduğu kimi varlı ermənilər yenə də vaxtında Quba şəhərini tərk edibləmiş.

Bəs Quba hadisələri necə başlamışdı?

1918-ci ilin aprel ayında Bakı şəhəri və Bakı quberniyasının bir hissəsində hakimiyyət bolşeviklərin əlində olduğu vaxt bolşevik partiyasının nümayəndəsi David Qolovani Qubaya gəlir. 1918-ci il dekabrın 21-də A.Novatski tərəfindən

dindirilən D.Qolovani bildirmişdi ki, mən əqidəli sosial-demokrat menşevikəm, öz siyasi əqidəmə görə sürgün edilmişdim. Fevral inqilabından sonra azad olundum və Moskvada tibbi təhsil alırdım. 1918-ci ilin əvvəllərində Qafqaza gəldim və qohumlarımın evində qonaq idim. Rusiyaya qayıtmaq istədikdə Qudermesdə baş vermiş hadisələrə görə Moskva ilə dəmiryol əlaqəsi kəsildiyi üçün gedə bilmədim. Bakıda işsiz qalmışdım. Burada isə hakimiyyət bolşeviklərin əlində idi. Bolşevik rəhbərlərindən biri olan A.Çaparidze mənə milisdə işləməyi təklif etdi və mən həmin təklifi qəbul etdim. Bakıda baş vermiş mart hadisələrindən sonra mənə Qudermes stansiyasına qədər dəmiryol hərəkətinin bərpa edilməsinin təşkili tapşırıldı. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 62). O bildirir ki, mənə tapşırılmış əsgərlərdən ibarət eşalonun paravozunda yola düşdüm və yol boyu müsəlman əhali silahlı əsgərlərdən ibarət eşalonun gəldiyini eşidib öz kəndlərini tərk edərək qaçırdılar. Mən müsəlmanları dayandıraraq qorxu və qaçmaq üçün bir əsas olmadığını onlara başa salırdım. Onun bildirdiyinə görə eşalonda 2000-ə yaxın əsgər var idi. Onlar əsasən ruslar və ermənilərdən ibarət idi. Eşalon Xaçmaz stansiyasına çatdıqda burada iki erməni eşalona minərək əsgərlər, xüsusilə erməni əsgərləri arasında Qubada ermənilərə qarşı repressiya siyasəti həyata keçirildiyi haqqında təbliğat aparmağa başladılar. Guya bu repressiya siyasətini azərbaycanlı bəylər həyata keçirmişdilər. Eşalonda olan erməni əsgərlər həyəcana gələrək, hücum edib Quba şəhərini dağıtmağı təklif edirlər. (Yenə orada, vər. 62). D.Qolovani bildirirdi ki, mən və komissar əsgərləri güclə saxlaya bildik və məlumat aldıq ki, qubalılar bizimlə danışıqlar aparmaq üçün nümayəndə heyəti göndəriblər.

Bu məsələ haqqında Quba şəhər rəisi Ə.Əlibəyov isə Fövqəladə Təhqiqat Komissiyasına 1918-ci il 15 dekabr tarixli ifadəsində bildirmişdi ki, aprel ayında kimsə Xaçmazdan xəbər verdi ki, oraya bolşevik silahlı dəstələri gəlib və Quba şəhərinə hərəkət etmək niyyətindədirlər. Biz qubalılar Xaçmaza bolşeviklərin yanına nümayəndə heyəti göndərdik ki, öyrənək nə məqsədlə Qubaya gəlmək istəyirlər. Nümayəndə heyəti qayıdıb xəbər gətirdi ki, bolşeviklər Quba şəhərini və Quba qəzasını Sovet hakimiyyətinə tabe etdirmək və burada qayda-qanun yaratmaq üçün gəliblər. Eyni zamanda onlar nümayəndə heyətinə bu məsələləri aydınlaşdırmaq üçün Bakıya bolşeviklərin yanına nümayəndə heyəti göndərməyi də məsləhət görmüşdülər. Ertəsi gün bolşevik D.Qolovani, Qubalı müsəlman ***qatı bolşevik*** Mir Cəfər Bağırovla bərabər Qubaya gəldilər. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 34). Ə.Əlibəyovun sözlərinə görə D.Qolovani qubalılarla söhbət zamanı bildirir ki, bolşeviklər Qubaya gəliblər ki, yerindəcə aydınlaşdırsınlar burada Sovet hakimiyyəti lazımdır ya yox və müəyyən ediblər ki, lazımdır. (Bax: yenə orada).

D.Qolovani isə bu məsələni belə izah edirdi: "Eşalon Qubaya hücum əvəzində bitərəf şəxs kimi məni Qubaya 2 saat müddətində Sovet hakimiyyətini tanımaq ultimatumu ilə göndərmək qərarına gəldi. 3 nəfərdən ibarət nümayəndə heyəti yanıma gələrək bəyan etdilər ki, qubalılar bolşevik hakimiyyətini tanıyır və onun tələblərinə əməl edəcəklər. Mən Qubaya gəldim və qubalılardan tələb etdim ki, 2 saata mənə cavab versinlər. Sovet hakimiyyətini tanıyırlar, ya yox? Onlara dedim ki, təklifi rədd etsəniz, gələcəkdə hadisələrin gedişi barədə Sizə təminat verə bilməyəcəyəm. Qubalılar sünni və şiə məzhəb din xadimlərini yığdılar və din xadimləri bolşevizmin şəriət qanunlarına zidd olmadığı üçün Sovet hakimiyyətinə tabe olduqlarını bildirdilər. Bu haqda mən Xaçmazda eşalonun komissarına da məlumat verdim. Bir neçə müddət Qubada qaldım. Qubalılar məndən Qubaya əsgərlərdən ibarət dəstə göndərməyimi xahiş etdilər. Çünki elə qüvvələr var idi ki, onlarla mübarizə apara bilmirdilər... Mən Bakıya teleqram vurdum ki, ***qubalılar burada qayda-***





17.-3510

***qanun yaratmaq üçün Qubaya silahlı dəstə göndərməyi xahiş edirlər.*** Mənə cavab verildi ki, artıq dəstə göndərilib. Həmin dəstəni qarşılamaq üçün mən Xaçmaza getdim və onlarla birlikdə Qubaya gəldik. Dəstədə cəmi 187 nəfər adam var idi. Onlardan 12 nəfər erməni, bir neçə nəfər yəhudi, qalanları isə ruslar idi. Dəstədə familiyasını bilmədiyim ermənin rəhbərliyi altında 2 pulemyot da var idi. Dəstənin bu komandirini bir neçə dəfə mən ara qarışdırma hərəkətlərdən daşındıra bildim. (Bax: ARDA. f. 1061, siy. 1, iş 96, vər. 62).

Bu məsələ haqqında Quba şəhərinin nüfuzlu şəxslərindən olan Hacı İsmayıl Orucov isə 1918-ci il dekabrın 12-də verdiyi izahatda demişdi: "Yaz aylarında gecə, vaxtını dəqiq deyə bilmərəm. Quba şəhərinə Xaçmazda olan bolşevik dəstəsinin nümayəndəsi Qolovani gələrək bizdən tələb etdi ki, bolşeviklərin hakimiyyətini qəbul edək. Cavab üçün bizə 2 saat vaxt verdi. Biz isə heç olmazsa 24 saat vaxt verməyi xahiş etdik ki, qonşu kəndlilər ilə bir yerə yığışıb bu məsələni müzakirə edək. Bizim xahişimiz rədd olundu. Qolovani Quba şəhərini və ətraf kəndləri dağıtmaqla hədələdi. Onda Quba şəhəri və ətraf kəndlərin əhalisi Sovet hakimiyyətini tanıdıqlarını elan etdilər. Nisbətən uzaq kəndlər bolşeviklərə tabe olmaqdan imtina etdilər. 2 gündən sonra 200-300 nəfərlik bolşevik dəstəsi Quba şəhərinə gəldi. Dəstədə əksəriyyəti ermənilər təşkil edirdi. Ermənilər azərbaycanlılara sataşır, lakin onları öldürmür və qarət etmirdilər. Təxminən 10 gündən sonra yəhudi qəsəbəsi tərəfindən şəhərə yaxınlaşan ləzgi silahlı dəstələri şəhəri zorla tutmuş bolşevikləri qovmaq üçün şəhəri atəşə tutdular. Atışma üç sutka davam etdi. Nəhayət bolşeviklər onlara köməyə gəlmiş böyük silahlı dəstənin mühafizəsi altındı Xaçmaza geri çəkildilər. Ləzgilərsə dağılıb getdilər". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 14).

Quba şəhər rəisi Ə.Əlibəyov Quba şəhəri əhalisinin D.Qolovaninin təkliflərini qəbul etdikdən sonra cərəyan edən



hadisələri haqqında öz ifadəsində bildirirdi ki, bundan sonra o, Xaçmaza qayıtdı. Altı gündən sonra isə o, 170 nəfərlik silahlı dəstə və pulemyotlarla yenidən Qubaya qayıtdı. Dəstə ruslar, yəhudilər və ermənilərdən ibarət idi. Özü də axırıncılar çoxluq təşkil edirdilər. Dəstənin başında poruçik Ağacanyan dururdu. O, həm də pulemyotçuların rəisi idi. Qolovani özünü Qubanın qəza komissarı elan etdi. Qubalılar ona tabe oldu və Sovet hakimiyyətini tanıdı. Tezliklə ətraf kəndlərin ləzgiləri şəhərə köməyə gələrək onu bolşeviklərdən azad etmək və bolşevikləri şəhərdən qovmaq üçün şəhəri tüfənglərdən atəşə tutdular. Bolşeviklər pulemyotlarla cavab verirdilər. Erməni bolşeviklər heç cür tabe olmaq istəmirdilər və sonralar aydın oldu ki, onlar kömək gözləyirmişlər. Atışma nəticəsində mülki əhalidən 40 nəfər öldürüldü. Ləzgilərdən isə 200 nəfərə yaxın adam öldürülmüşdü. Üç gündən sonra Xaçmazdan bolşeviklərə 40 nəfərlik dəstə və bir topdan ibarət yeni kömək gəldi. Nəhayət altıncı gün bolşeviklər şəhəri tərk etməyə başladılar. Onlarla bərabər müstəntiqlər Manuylov və Yesmandan başqa bütün rus çinovnikləri və bütün ermənilər də şəhəri tərk etdilər. Geri çəkilərkən Ağacanyanın silahlı dəstələri Bulvar küçəsinə od vurduqları Bazar küçəsində 16 nəfər, komendant küçəsində 7 nəfər və şəhərin kənarında köhnə həbsxananın yanında 35 nəfər azərbaycanlını qətlə yetirirlər... Geri çəkilən bolşevik dəstələri ləzgilər tərəfindən atəşə tutulur. Dəstənin önündə şəhərdən çıxarılmış erməni və rus əhalisi gedirdi. Onların arasında ölən və yaralananlar var idi. Ölənlərdən bəzilərinin meyidi bolşeviklər tərəfindən götürülür. Qalanları isə yerdə qalır. Onların kimlərin bolşeviklərin və ya ləzgilərin atəşi nəticəsində öldürüldüyü məlum deyildi". (yenə orada, f. 1061, siy. 1, iş 96, vər. 35).

D.Qolovani isə bu hadisə barədə belə məlumat verirdi: "Tezliklə dəstəmizin üzərinə ləzgilər və ətraf kəndlərin müsəlmanları (azərbaycanlılar - A.P) hücum etdilər. Qubalılar bizə hücum etmədi. Xaçmazdan köməyimizə poruçik

Ağacanyanın başçılığı ilə yalnız ermənilərdən ibarət 150 nəfərlik dəstə və iki top gəldi. O biri gün o, Qubada olan əksəriyyəti ermənilərdən ibarət xristian əhalini şəhərdən çıxarmaq üçün bir yerə yığdı. Biz geri çəkilməyə başladıq. Mən dəstənin önündə gedirdim. Onun (Ağacanyanın - A.P.) əsgərləri köçürdükləri adamları qoyaraq qaçırdılar... Köçürülənlərin bir hissəsi mənim dəstələrim tərəfindən çıxarıldı, bir hissəsi isə Leontev bağı yanında qalaraq, orada ləzgilər tərəfindən məhv edildilər. Biz Xaçmaza oradan isə Dərbəndə getdik. Bir neçə gündən sonra hərbi nazir G.Karqanov Amazaspın komandanlığı altında 2000 nəfərdən ibarət cəza dəstəsini Qubaya göndərdi". (yenə orada, f. 1061, siy. 1, iş 96, vər. 63).

D.Qolovani dəstələri Qubadan çıxarıldıqdan təxminən iki həftə sonra Quba şəhərinə xəbər çatır ki, Bakıdan top və pulemyotlarla silahlanmış böyük bir ordu hissəsi Quba şəhərinə doğru hərəkət etməkdədir. Ə.Əlibəyovun verdiyi məlumata görə "Aprelin axırlarında həmin silahlı dəstələr Xaçmaz kəndinə çatır. Bu kəndin sakinləri dəstənin qabağını kəsir nəticədə iki gün atışma gedir. Müsəlmanlar daha dəstənin qabağını kəsmək iqtidarında olmadıqları üçün dəstə özünə yol açaraq Quba şəhərinə istiqamət götürür. Yalnız ermənilərdən təşkil edilmiş bu dəstənin başında türklərə qarşı vəhşiliklər törətməkdə ad çıxarmış daşnaksakan Amazasp dururdu. Onun köməkçisi Nikolay, komissarı isə Venunts idi. Dəstəyə yol göstərən və bələdçi "Dəyirmançı" ləqəbli qubalı erməni Hərtün Hayrapetov idi". (Bax: ARDA. f.1061, siy. 1, iş 96, vər. 35).

Ə.Əlibəyovun məlumatına görə 1918-ci il may ayının 1-də dəstə üç istiqamətdən şəhərə daxil olur. Dəstədə dörd top və səkkiz pulemyot var idi. Şəhərə daxil olan daşnak dəstələri çox amansızlıqla dinc əhalinin öldürülməsi və var-dövlətlərinin talanı işinə başlayır. Təkcə birinci gün şəhərin aşağı hissəsində 713 nəfər azərbaycanlı öldürülür ki, onların da əksəriyyəti qadın və uşaqlar idi. Böyük Şosse və Bazar



küçələrindəki evlər qarət edilir. Amazaspın silahlı dəstələri şəhəri dörd hissəyə bölərək hər bir hissədə ayrıca qərargah yaradırlar. Birinci qərargah Leontev bağının yanında, ikinci qərargah erməni kilsəsinin ərazisində, üçüncü qərargah müsəlman qəbirstanlığının yaxınlığındakı yüksəklikdə, dördüncü - mərkəzi qərargah isə yəhudi qəsəbəsi hündürlüyündə yaradılmışdır. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 35).

Ermənilərin Qubada azğınlığı doqquz gün davam edir. Hücumun ikinci günü şəhərin birinci və ikinci hissəsində onlar 1012 nəfər azərbaycanlını qətlə yetirirlər ki, onların da böyük əksəriyyəti şəhərin yoxsul əhalisi və İrandan iş dalınca gəlmiş kişilər idi. Talanlarsa heç cür səngimirdi.

Qırğın və talanların üçüncü günü Quba şəhər rəisi qubalıların nümayəndəsi kimi Amazaspın yanına gedərək xahiş edir ki, heç olmazsa küçə və evlərdə atılıb qalmış ölülərin dəfn olunmasına icazə versin. Amazasp bundan imtina edir və ata minərək Ə.Əlibəyovla bərabər qərargahından şəhərə gəlir. Burada o, Əli Abbas bəyin iştirakı ilə əsgərlərə müraciət edərək qətl və talanları qurtarmaq haqqında öyüd-nəsihət verməyə başlayır. Ə.Əlibəyov öz izahatında bildirirdi: "Bu öyüd-nəsihət mənə belə gəldi ki, səmimi deyildi və əsgərlər onu (yəni Amazaspı - A.P.) əks mənada başa düşməli idilər". (yenə orada vər. 35).

Ə.Əlibəyov öz izahatından sonra bildirir ki, Amazasp məscidin yanındakı meydana gələrək orada toplaşmış müsəlmanlara müraciətlə dedi: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni mənafelərinin müdafiəçisiyəm. Mən Sovet hökuməti tərəfindən cəza dəstəsi ilə buraya göndərilmişəm ki, burada sizdən iki həftə bundan əvvəl burada öldürülmüş ermənilərin qisasını alım. (O, əlini üzərində toplar dayanmış dağa tərəf tutaraq) sizin müsibətiniz o vaxt başlayacaq ki, mən sabah o dağa qalxım. Sabah mən o dağa qalxaraq şəhəri topa tutduracaq və yer ilə yeksan edəcəyəm. Hazırda mənim Didax və Alpan

kəndlərində döyüşlərim gedir. Sonra Üç gün və Kilit kəndlərinə keçərək sizləri odlara yaxacaq və Şahdağa çatacağam. Onda başa düşərsiniz ki, ermənilərі öldürmək nə deməkdir. Mən buraya qayda-qanun yaratmaq və Sovet hakimiyyəti qurmaq üçün deyil öldürülümüş ermənilərin qisasını almaq üçün göndərilmişəm". (yenə orada vər. 35-36).

Amazaspın erməni daşnak dəstələrinin Quba şəhəri və ətraf kəndlərdə törətdiyi vəhşiliklər Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatskinin rəhbərlik etdiyi qrup tərəfindən ümumiləşdirilmiş məruzədə də öz əksini tapmışdır. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95). Məruzədə deyilirdi ki, erməni silahlı dəstələrinin şəhərə daxil olması müsəlman əhalinin kütləvi surətdə qətli və onlar üzərində hər cür zorakılıq halları ilə müşayiət olunurdu. Ermənilər küçələrdə əllərinə keçən kişi, qadın və uşaqları amansızlıqla qətlə yetirdilər. Evlərə soxularaq südəmər uşaqlara belə rəhm etmir, onları analarının qucağındaca qılıncla doğrayırdılar. A.Novatskinin məruzəsində deyilirdi ki, Kərbəlayi Məhəmməd Tağı oğlunun on dörd nəfərdən ibarət ailəsi bu cür qəddarlıqla qətlə yetirilmişdi. Məhəmməd Rəsul Mahmud oğlunun üç uşaq və arvadından ibarət bütün ailəsi ağır işgəncələrlə öldürülmüşdür. Onun özünün diri-diri qarnını yırtmış, gözü qabağında üç uşağının başını kəsmişdilər. Hacı Dadaş Bala Qasım oğlu arvadı Məşədi Bibixanım və oğlu Əbdül Qasımla öz evlərində öldürülmüş və yandırılmışlar. Kərbəlayi Abuzər Məstan oğlunun iki qızı - Hökumə və Buta analarının qucağındaca xəncərlə doğranmışlar. Belə faktlar məruzədə və onun üçün toplanmış materiallarda onlarladı. Məsələn, erməni əsgərləri şəhərin hörmətli ağsaqqallarından olan Əli-Paşa Kərbəlayı Məhəmməd oğlundan tələb edirlər ki, kef çəkmək üçün onlara müsəlman qadın və qızları tapıb gətirsin. Təbiidir ki, Əli-Paşa Kərbəlayı Məhəmməd oğlu bundan imtina edir. Əmrlərinin yerinə yetirilmədiyini görən erməni cəlladları onu və oğlunu vəhşicəsinə qətlə yetirirlər. Erməni vandalları əvvəlcə atasının gözü qabağında oğlunun gözlərini çıxarır, üzünü ülgüclə doğrayır, sonra isə canını tapşırana qədər süngü ilə dəlik-deşik edirlər. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95, vər. 6).



Qubanın nüfuzlu şəxslərindən Hacı İsmayıl Orucov öz ifadəsində bildirdi ki, Qriqori adında bir nəfər erməni öz evini Qubada Molla Şahbalı adlı bir nəfərə satmışdı. Qriqorinin adını bilmədiyim oğlu evi satmağın əleyhinə idi. Ermənilər Qubanı tutduqda Amazaspın dəstəsində olan Qriqorinin həmin oğlu Molla Şahbalını qəddarlıqla qətlə yetirmişdi. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 16).

Quba şəhər rəisi Ə.Əlibəyov öz ifadəsində bildirdi ki, "Zorakılıqlar, qətllər və qarətlər doqquz gün davam etdi. Mən yenidən Amazaspın yanına gedərək heç olmazsa ölülərin cəsədlərinin yığılaraq torpağa tapşırılmasına icazə verməyi xahiş etdim. Adı çəkilən Hartün Hayrapetov mənim iştirakımla ona məruzə etdi ki, (məruzə zamanı mən də iştirak edirdim və erməni dilini bildiyim üçün nə dediyini başa düşürdüm) şəhərdən Nikolay pulu ilə nəğdi 3 milyon manat yığılıb, 6 milyon manatlıq qızıl və qızıl qadın bəzək əşyaları toplanıb, hər öldürülmüş erməni üçün 200 müsəlman öldürülmüş, hər zorlanmış erməni arvadı üçün 70 müsəlman arvad və qızı zorlanmış, ermənilərdən müsadirə olunmuş əşyalar geri alınmış, 90-a yaxın ev yandırılmışdır. Hayrapetov məruzəsini belə yekunlaşdırdı: "İş tamamlanmışdır, artıq bəsdir, gedək". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 37).

Ə.Əlibəyov öz izahatından sonra qeyd edirdi ki, bu vaxt artıq şəhərin hər yerində evlər yanırdı. Təkcə Bazar küçəsində yanan ev və dükanların sayı 16 idi. Mənim gözlərim qarşısında həmin Hartün Hayrapetov və onun 12 nəfərlik artilleriya dəstəsi yarım milyon manatlıqdan yuxarı ərzaq məhsulları - qənd, çay və manufaktura malları olan anbara od vurdu. İlk gündən şəhərdən talanaraq Bağırovun evinə yığılmış mallar H.Hayrapetovun nəzarəti altında arabalara yüklənərək yola salınırdı.

Amazasp dəstələrinin Qubadan çıxarılması ilə əlaqədar bu hadisələrin ilk başlanğıcının səbəbkarı olmuş Qolovaninin izahatı da maraqlıdır. O, bildirmişdi: "A.Çaparidzenin aldığı və mənim keçmiş köməkçim ***Mir Cəfər Bağırov tərəfindən imzalanmış teleqramda deyilirdi ki, mən (yəni D.Qolovani - A.P.)*** Qubaya gələrək onları hər tərəfdən yanğınlar, qətl və qarətlər törədən Amazaspın dəstələrindən xilas edim. Çaparidze mənə tezliklə Qubaya getməyi məsləhət görürdü. Mən geniş səlahiyyətlər alaraq Qubaya gəldim. Amazaspa tənə ilə müraciət etdim ki, onun dəstələri burada nələr törətmişdi? O və dəstənin komissarı Venunts məni inandırmağa çalışdılar ki, guya onların bu işdə heç bir taqsırı yoxdur, öz aralarında vuruşan ***sünnü və şiə müsəlmanlar bir-birlərini qırmış və şəhəri yandırmışlar***". Mən onlara inanmadım və Amazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o tərəddüd etdi və sonra bildirdi ki, çıxıb gedir. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 65).

Maraqlıdır ki, Quba şəhərinin nüfuzlu şəxslərindən olan Hacı İsmayıl Orucov da öz izahatında bu məsələyə toxunmuşdu: "Ermənilərin Quba şəhəri sakinləri üzərində vəhşilikləri on gün davam etmişdir. Gürcülər gəlmiş, ermənilər geriyə — Bakıya qayıtmışdılar. Gürcülər bizimlə sülh şəraitində davranmış və türklər gələnə qədər Qubada qalmışlar". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 16).

Ermənilərin Qubada törətdikləri vəhşiliklər haqqında Quba şəhər rəisi Ə.Əlibəyov yazırdı ki, ermənilər şəhəri tərk etdikdən sonra mən şəhərə dəymiş zərəri hesablamağa başladım və müəyyən etdim ki, iki minə yaxın müsəlman kişi, qadın və uşaq qətlə yetirilmişdi. A.Novatski də öz məruzəsində Ə.Əlibəyovun məlumatına əsaslanaraq qətlə yetirilmiş azərbaycanlıların sayının iki minə yaxın olduğunu yazırdı. (Bax: ARDA. f.1061,siy. 1, iş 96, vər. 6). Yuxarıda göstərdiyimiz Hacı İsmayıl Orucov isə öz izahatında bildirirdi ki, "Ölüləri dəfn edən mollanın dediyinə görə, o, 2800 nəfərin cənazəsinin torpağa tapşırıldığını saymışdı". (Bax: yenə orada vər. 15).

A.Novatski Amazasp dəstələrinin Qubadakı qarətləri barədə verdiyi məlumatları əsasən Ə.Əlibəyovun izahatından götürülmüşdür. Təxmini hesablamalara görə Amazaspın dəstəsi tərəfindən oğurlanmış əmlak 4 milyon manat nəğdi pul, 4,5 milyon manatlıq briliant, qızıl, gümüş və digər qiymətli daş-qaş, 25 milyon manatlıq müxtəlif mallar - xalça, ev əşyaları və s. olmuşdu.

Bundan əlavə Amazaspın dəstələri təkcə Quba şəhərində 105 evi və digər tikililəri tamamilə yandırıb dağıtmışlar ki, bunun da nəticəsində onların sahiblərinə dəyən zərər 100 milyon manatdan yuxarı olmuşdur. (yenə orada, f. 1061, siy. 1, iş 95, vər. 6).

Amazaspın Qubaya doğru hərəkət edən erməni hərbi hissələri öz yolu üstündə olan bütün azərbaycanlı kəndlərini talan edir, yandırır, dağıdır, qaçmağa macal tapmamış əhaliyə, o cümlədən qadın və uşaqlara aman vermədən qırırdılar. A.Novatskinin məruzəsində göstərilirdi ki, elə hallar olmuşdur ki, azərbaycanlı kəndliləri ağ bayraqla Amazasp dəstələrinin yanına nümayəndələr göndərib tabe olduqlarını bildirmişlər. Lakin ermənilər bu nümayəndələrə qulaq asmaq istəməyib, onları amansızlıqla qətlə yetirmişlər. A.Novatski komissiyası müəyyən etmişdir ki, ümumiyyətlə Amazaspın dəstələri tərəfindən Quba qəzası ərazisində 122 müsəlman kəndi dağıdılmış və yandırılmışdır. Bu kəndlər dağıdılan və yandırılan zaman 60 nəfər azərbaycanlı kişi, qadın və uşaq öldürülmüş və 53 kişi yaralanmışdır. (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 8).

Əlimizdə olan digər faktlar göstərir ki, bu Amazasp dəstələrinin Quba kəndlərində öldürdüklərinin hamısı deyil: Məsələn, yuxarıda dəfələrlə adı çəkilən D.Qolovani öz izahatında bildirmişdi ki, Amazaspın dəstəsi Qubadan çıxıb

gedərkən "Xaçmaza qədər yol boyu 36 nəfər arabaçını qətlə yetirmişdi. Onlardan 5-nin cəsədini mən özüm gördüm". (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 65).

A.Novatski komissiyasının məruzəsindən, D.Qolovaninin və Ə.Əlibəyovun məlumatlarından görünür ki, Amazaspın daşnak dəstələri digər komissarların xəbəri olmadan şəxsən S.Şaumyanın təşəbbüsü ilə Quba şəhərinə həqiqətən də azərbaycanlıları cəzalandırmaq məqsədilə göndərilmişdir. S.Şaumyanın tapşırığı ilə Bakı Xalq Komissarları Sovetinin hərbi komissarı G.Karqanov tərəfindən Qubaya göndərilən təxminən iki min nəfərə yaxın heyəti olan hərbi hissəyə yalnız "Daşnaksütyun" partiyasına mənsub ermənilər daxil edilmişlər. Onlara bilərəkdən komandir türklərə və azərbaycanlılara qarşı öz qəddarlığı ilə ad çıxarmış daşnak cəlladı Amazasp təyin olunmuşdur. Dəstənin komissarı isə Venunts idi. Bu dəstə öz qarşısında heç bir siyasi məqsəd qoymayaraq özlərini "cəza" dəstəsi adlandırırlar. Onlar qarşısında "Xəzər dənizi sahillərindən tutmuş Şah dağına qədər olan ərazidə yaşayan bütün müsəlmanları Şamaxıda olduğu kimi məhv etmək, onların xanimanlarını isə yer üzərindən silmək məqsədi qoymuşdurlar. (ARDA: f. 1061, siy.1, iş 95, vər. 7).

S.Şaumyanın bu işə şəxsi marağını açıqlamaq üçün Ə.Əlibəyovun izahatına xüsusilə diqqət yetirməliyik. O demişdi: "Amazaspın erməni dəstələri getdikdən sonra mən nümayəndə kimi bolşeviklərin başçıları Şaumyan və Çaparidzenin yanında oldum ki, öyrənim həqiqətən də Sovetlər Amazaspın rəhbərliyi ilə Qubaya cəza dəstəsi göndəriblərmi? Silahlı dəstənin Qubada törətdikləri hadisələr barəsində onlara yazılı şəkildə məlumat verdim. Şaumyan sifətində sevinc ifadəsi olaraq məni dinlədi və dedi: ***"Müsəlmanlar (azərbaycanlılar - A.P.) və türklər yüz minlərlə ermənini öldürüblər, indi nə olub ki, Qubada ermənilər iki müsəlmanı öldürürən kimi müsəlmanlar şikayət edir və göz yaşı axıdırlar".*** (ARDA: f. 1061, siy. 1, iş 96, vər. 38). Bax budur bolşevik cildinə girmiş daşnak xislətli S.Şaumyanın həqiqi sifəti.



A.Novatskinin məruzəsində Amazaspın "cəza dəstəsində" onun özü, müavini Nikolay və komissarı Venuntsdan başqa daha fəal üzvlərinin adları da sadalanır. Bunlar Quba şəhəri sakinləri - Hartün Hayrapetov, dəllək Cavad, Hartünov, balıq sənayeçisi Avakovun oğlu, tələbə Əmircanov qardaşları, tacir Mirzə Əmircanovun özü və qardaşı uşaqları, meyxanaçı Məlikov, Qriqoninin oğlu Vartan, dəyirman sahibi Mirzəcanın nəvəsi Hərtün, Vartan Avakov, Hərtün Baba oğlu, Aleksandr Mukasyants, Tatevos Yaqub oğlu, Babacan oğlu ilə Hartün Karapet oğlu - iki oğlu və qardaşı oğlu ilə və sair.

Məruzənin yekununda Quba şəhərində və Quba qəzasının 122 kəndində vəhşiliklər törətmiş Amazaspa, onun müavini Nikolaya, komissar Venuntsa, Hartün Hayrapetova, dəllək Cavada, Avakova, Əmircanova və başqalarına qarşı cinayət işi qaldırmaq təklif olunur. Öldükləri üçün keçmiş komissarlar S.Şaumyan və G.Karqanova qarşı cinayət işi xətm olunması təklifi olunur. (ARDA: f 1061, siy. 1, iş 95, vər. 5-8).

Elə həmin ilin noyabrında göstərilən məruzə əsasında Fövqəladə Təhqiqat Komissiyası, komissiyanın sədri Ə.Xasməmmədovun və komissiyanın digər üzvlərinin imzası ilə yuxarıda göstərilən şəxslərə qarşı cinayət işi qaldırılması haqqında qərar qəbul etmiş. Onların işləri 1920-ci il yanvarın 29-da Bakı dairə məhkəməsinin prokurorluğuna göndərilmişdir. (Bax: göstərilən iş vər. 9-11).

1920-ci il yanvar ayının 11-də Azərbaycan Xalq Cümhuriyyətinin Böyük dövlətlər tərəfindən de-fakto tanınması ilə əlaqədar olaraq Cümhuriyyət Parlamentinin həmin il fevralın 9-da qəbul etdiyi qanunun ikinci maddəsinə görə həmin qanun qəbul olunana qədər millətlərarası düşmənçilik zəminində törədilmiş cinayətlərə xitam verildiyi elan olunur və bu işlərin istintaqının dayandırıldığı elan olunurdu.

Həmin ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdikdən sonra onun qəbul etdiyi bütün qanunları ləğv edən bolşevik hökumətinin məhkəmə orqanları 1920-ci il oktyabrın 10-da Quba qəzası məhkəməsinin birinci istintaq komissiyası həmin işə yenidən baxaraq Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin həmin il fevralın 9-da qəbul etdiyi amnistiya haqqında qanuna əsasən milli ədavət zəminində qaldırılmış həmin cinayət işinə xitam vermək üçün onu Quba qəza Xalq Məhkəməsinə göndərmiş və həmin işə xitam verilmişdir. (Bax: ARDA. f. 1061, siy. 1, iş 95, vər.13).

Beləliklə, də cəllad Amazasp və onun cinayətkar daşnak məsləkdaşlarının Quba şəhəri və Quba qəzası kəndlərində tökdüyü minlərlə azərbaycanlının qanı bu günə qədər də yerdə qalmışdı. Məhz bu haqsızlıqlardan ruhlanan azərbaycanlı qanına susamış erməni daşnakları qaldırdıqları yeni ərazi iddiaları ilə 1988-ci ildən sonra da minlərlə günahsız azərbaycanlını qətlə yetirmiş, bir milyon nəfəri evsiz-eşiksiz qoymuşlar.

**"Azərbaycan" qəzeti, 27 dekabr 1998-ci il, № 301.**



## QARABAĞ BÖLGƏSİNDƏ ERMƏNİ VƏHŞİLİKLƏRİ

**1918-1920**-ci illərdə ermənilərin ən çox vəhşiliklər törətdiyi Azərbaycan ərazilərindən biri də Qarabağ bölgəsi olmuşdur. Azərbaycanın dilbər guşələrindən olan bu əraziyə ermənilər çoxdan göz tikmişdilər. Hələ XIX əsrin əvvəllərində ruslar erməniləri bu yerə köçürdükdən sonra əsasən gəlmə ermənilər həmişə Azərbaycana qarşı hiylə və məkr yuvası olan erməni məlikliklərindəki ermənilərlə birləşərək xalqımıza qarşı əsl təhlükəyə çevrilməkdə idilər. Həmişə "Yersiz gəldi, yerli qaç" prinsipi ilə hərəkət edən ermənilər çar hakimiyyət orqanlarının onlara qarşı himayəçilik siyasətindən məharətlə istifadə edərək yerli azərbaycanlıları getdikcə sıxışdırmağa başlayırlar. Onların bu hərəkəti XX əsrin əvvəllərindən başlayaraq artıq sistemli şəkil alır və planlı surətdə həyata keçirilməyə başlayır. Ermənilərin azərbaycanlı əhaliyə qarşı münasibətləri daim qeyri-səmimi olsa da, onlar bu hisslərini gizlədərək açıq büruzə vermir, çar hakimiyyət orqanlarında işə girərək altdan-altdan azərbaycanlılara qarşı öz düşmənçilik siyasətlərini yeridirdilər. Ermənilərin bu bölgədə azərbaycanlılara qarşı ilk açıq düşmənçilik siyasətlərini başqa yerlərdə olduğu kimi 1905-1907-ci illər erməni-azərbaycanlı münaqişəsi zamanı göstərdilər.

Ermənilərin "Kiçik Ermənistan" adlandırdıqları Qarabağ torpaqlarına ilk açıq iddiaları Rusiyada çarizmin devrilməsindən sonra başlandı. Rusiyada əvvəlcə fevral inqilabı, sonra isə oktyabr çevrilişindən ermənilər öz ərazi iddiaları üçün məharətlə istifadə etdilər. Onsuz da hələ Birinci Dünya müharibəsi və rus inqilabından əvvəl də kifayət qədər silah

əldə etmiş ermənilər vəziyyətdən istifadə edərək daha sürətlə silahlanmağa başlamışdılar. Cəbhələrdən fərarilik edərək qaçan erməni əsgər və zabitləri hesabına Azərbaycan ərazisindəki erməni silahlı quldur dəstələrinin sayı getdikcə çoxalır. Nəticədə özlərində güc və qüvvə hiss edən ermənilər azərbaycanlılara qarşı özlərini çox həyasızcasına aparmağa başlayırlar.

Türkiyə təbəəsi, türk xalqının cəlladı Andranikin bu əraziyə gəlməsi ilə ermənilərin bu hərəkatı daha da azğın xarakter alır.

Daşnak partiyasının rəhbərliyi ilə ermənilərin Qarabağın-Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında törətdikləri vəhşiliklər Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən yaradılmış Fövqəladə Təhqiqat Komissiyası tərəfindən geniş təhqiq olunmuşdur. Bu haqda çoxlu şahid ifadələri, baxış protokolları, məruzələr, bu qəzaların polis idarələrində tərtib olunmuş rəsmi sənədlərdə çoxlu faktiki məlumatlar toplanmışdır.

Sovet Rusiyasının Birinci Dünya müharibəsi cəbhələrində hərbi əməliyyatların dayandırılmasından çox-çox əvvəl xeyli erməni əsgərləri cəbhədən fərarilik edərək öz kəndlərinə qayıdır və özləri ilə çoxlu oğurluq tüfəng, pulemyot və digər hərbi sursatlar da gətirdilər. Bu cür cinayət hallarına bir tərəfdən yerli erməni ziyalıları və erməni kənd icmaları kömək edirdisə, digər tərəfdən isə Rusiyada polis hakimiyyətinin fəaliyyətsizliyi, bəzən isə onların bilərəkdən buna imkan vermələri olurdu. Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.Mixaylovun toplanmış faktlar əsasında hazırladığı məruzədə deyilirdi ki, Cavanşir qəzasının müsəlman əhalisi özlərinin tarixi qonşuları olan ermənilərə çox sadəlövhlüklə inanır və hər ehtimala qarşı həmin silahların gələcəkdə onlara qarşı yönəldiləcəyini təsəvvürlərinə belə gətirə bilmirdilər. Nəticədə onlar həmin silahların gətirilməsinin qarşısını almaq üçün heç bir tədbir görmürdülər. Yevlax stansiyasında və Bərdə şosse yolu üzərində bu cür silah gətirilməsi halları azərbaycanlılar tərəfindən dəfələrlə aşkar edilmiş, lakin onlar buna elə bir prinsipial əhəmiyyət verməmişdilər. (Bax: ARDA: f. 970, siy. 1. iş 161, vər 1).

Rusiyada bolşeviklərin oktyabrda etdiyi dövlət çevrilişindən sonra isə Yuxarı Qarabağa, o cümlədən Cavanşir qəzasının erməni kəndlərinə silah və sursat gətirilməsi demək olar ki, açıq şəkildə həyata keçirilməyə başlandı. Həmin vaxtdan ermənilər müsəlmanlara qarşı özlərinin düşmənçilik niyyətlərini açıq şəkildə büruzə verməyə və onlara qarşı zor tətbiq etməyə başladılar (yenə orada).

N.Mixaylovun məruzəsində daha sonra göstərilirdi ki, Cavanşir qəzasındakı azərbaycanlı kəndləri əsasən düzənlik hissələrdə yerləşirdi. Lakin Kolanlı və Avrayan kənd icmalarından birincisi Cavanşir qəzasının dağətəyi, ikincisi isə yüksək dağ zolağında yerləşirdi. Kolanlı icmasına daxil olan 12 kənd (Dəmirlər, İmrat-Qərvənd, Umudlu, Qaralar, Sırxavənd, Çıraqlı, Əli-Ağalı və b.) hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuşdur. Bu kənd icmasına daxil olan kəndlərin əhalisi yalnız erməni kəndlərindən keçərək digər azərbaycanlı kəndləri ilə əlaqə saxlaya bilirdilər. Avrayan icmasına daxil olan kəndlər isə yüksək dağ zirvəsində, erməni kəndlərindən hündürdə yerləşməklə çox əlverişli vəziyyətdə idilər. Əhalisi isə qorxmaz kürd tayfaları idi. Ona görə də bu hadisələr zamanı onlar heç cür zərər çəkməmişlər. Şahidlərin ifadələrinə görə erməni quldur dəstələri yalnız silahsız və tamamilə erməni kəndləri tərəfindən mühasirə olunaraq, heç yandan kömək ala bilməyən azərbaycanlılar qarşısında özlərini güclü və mütəşəkkil hiss edir və çox asanlıqla müvəffəqiyyət qazanırdılar.

Məruzədə göstərilirdi ki, bütün Cavanşir qəzasında yalnız Kolanlı icmasına daxil olan kəndlər demək olar ki, tamamilə ermənilər tərəfindən dağıdılmışdır. 1917-ci ilin dekabrından başlayaraq erməni silahlı quldur dəstələri Kolanlı icmasına daxil olan azərbaycanlı kəndlərinə hücum edir və onlardan hələ yer üzərində mövcud olmayan Ermənistan Respublikasına

tabe olmağı tələb edir və guya öz dövlətləri üçün azərbaycanlılardan zorla vergi yığırdılar. Bundan əlavə onlar bir ay müddətində öz əsgərlərini yedirtməyi azərbaycanlılardan tələb edir, içib keflənərək onları təhqir edir, incidir, qadınlarını zorlayır, müntəzəm olaraq müsəlmanların mal-heyvanlarını zorla sürüb aparırdılar. (Bax: ARDA: f. 970, siy. 1, iş 161, vər. 2).

Şahidlərin verdiyi məlumatlara görə, Cavanşir qəzası müsəlman milli Şurası ermənilərlə əvvəlki mehriban qonşuluq münasibətlərini bərpa etmək üçün hər cür cəhdlər göstərir və çalışırdılar ki, Kolanlı kənd icmasına daxil olan kəndlərin əhalisini bu acınacaqlı vəziyyətdən çıxarsınlar. Onların bütün ciddi cəhdlərinə baxmayaraq ermənilərin barışmamazlığı üzündən bir nəticə əldə edə bilmirdilər, Kolanlı kənd icmasına daxil olan kəndlərin azərbaycanlı əhalisinin bu cür kölə vəziyyəti bir çox aylar, bəzi kəndlərdə isə hətta 1918-ci ilin sentyabr-dekabr aylarına qədər davam etmişdir. Nəhayət ermənilərin əlindən cana doymuş həmin kəndlərin əhalisi birlikdə qərara gəlirlər ki, nə yolla olursa, olsun və nə qədər insan tələfatı hesabına başa gəlmiş olsa belə onlar erməni quldur dəstələrinin əhatəsini yarıb arandakı azərbaycanlı kəndlərinə getməlidirlər. Həqiqətən də onlar bu əməliyyatı yalnız dəhşətli tələfatlar hesabına həyata keçirə bilmişlər. Bu kəndlərdən qaçan azərbaycanlılar sözün əsl mənasında özlərinin hər şeylərindən - mal-heyvanlarından, evlərindən, bütün ev avadanlıqlarından, ərzaq məhsullarından məhrum olurlar. Qaçqın kəndlilərin çoxu - xüsusilə qadınlar və uşaqlar soyuqdan, aclıqdan və xəstəlikdən yollarda məhv olurlar. Çoxlu qaçqınlar erməni quldur dəstələri tərəfindən yollarda məhv edilirdi. Kəndlərdən qaça bilməyən və ya qaçmağa imkanı olmayan xəstə, qoca və hətta əlillərə belə ermənilər aman vermədən onları son nəfərlərinə qədər qəddarcasına güllələmiş və ya xəncərlə doğramışlar. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 2).

Cavanşir qəzasının bir neçə kəndinin, o cümlədən İmarət-Qərvənd kəndinin əhalisi və Umudlu kəndi əhalisinin bir



hissəsi erməni təqiblərindən yaxa qurtarmaq üçün payız aylarında uzun və çətin dağ yolları ilə Murov Dağını böyük tələfatlarla aşaraq Cavanşir qəzasının aran kəndlərinə gəlirlər və həmin qəzanın müxtəlif kəndlərində yerləşdirilirlər.

Yuxarıda deyildiyi kimi Cavanşir qəzasının milli müsəlman Şurası dəfələrlə ermənilərin yanına barışıq üçün nümayəndə heyəti göndərmişdi. Bu nümayəndə heyətinin rəhbərlərindən biri - Məşədi Alış İsmayılov Fövqəladə Təhqiqat Komissiyasına izahatında bildirmişdi ki, ermənilər onları çox pis qarşılayır, nümayəndə heyətinin üzvlərini hədələyir, qorxudur və təhqir edirdilər. Belə ki, Marağa kənd erməni icmasının kəndxudası Nerses Manukov onları hədələyərək demişdir: "Bu hələ harasıdı, siz bir dayanın, görün hələ sizi nələr gözləyir". (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 3).

Ermənilərin həyasızlığı o yerə çatmışdı ki, 1918-ci ilin yaz və yay aylarında Cavanşir qəzasının düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da zorakılıqlar tətbiq edirdilər. Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururlar. Hətta iş o yerə çatır ki, aran kəndlərində içməli su belə çatışmır. Aran kəndlərinin əhalisi 1918-ci ilin yayında öz mal-heyvanlarını yaylaqlara köçürə bilmədikləri üçün çoxlu tələfat verirlər.

Ən maraqlısı odur ki, N.Mixaylovun 1919-cu il mayın 9-da Fövqəladə Təhqiqat Komissiyasına təqdim etdiyi məruzədə göstərilirdi ki, axır vaxtlar vəziyyət bir qədər yüngülləşsə də Cavanşir qəzasındakı ermənilər bu qəzada onların yaşadıqları torpaqları Ermənistan Respublikasının ərazisi elan edərək, Azərbaycan Respublikasının hakimiyyətini tanımaq belə istəmirlər və əvvəlki kimi öz zorakılıq hərəkətlərini davam etdirirlər. Ona görə də Fövqəladə Təhqiqat Komissiyasının üzvləri erməni kəndlərindən keçərək qəzanın dağətəyi ərazilərində dağıdılmış azərbaycanlı kəndlərinə baxış keçirə bilmirlər. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 3).



18.-3510

N.Mixaylovun məruzəsində göstərilirdi ki, Cavanşir qəzasında yuxarıda göstərilən 12 azərbaycanlı kəndlərini tamamilə dağıtmaqdan əlavə, erməni quldur dəstələri tərəfindən ətrafdakı digər azərbaycanlı kəndlərinə də basqınlar edilir, adamlar qarət olunur və qətlə yetirilirlər. Azərbaycanlıların iribuynuzlu və xırdabuynuzlu mal-heyvan sürülərini zorla sürüb aparırlar. Məruzədə bu haqda çoxlu əyani faktlar sadalanır. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 4).

Şahid İsgəndərovun ifadəsində bildirilirdi ki, ermənilər istədikləri vaxt dəstələrlə azərbaycanlılar yaşayan ərazilərə gəlirlər. Özü də həyasızlıq o yerə çatmışdır ki, onlar Tərtər bazarında təkcə alver etməklə qalmayıb, həm də azərbaycanlılardan oğurladıqları mal-heyvanı yenidən onlara satmaqdan belə utanmırdılar. (Bax: yenə orada).

Cavanşir qəzası ərazisində ermənilər yaşına, cinsinə fərq qoymadan uşaqlara, qadınlara, qocalara və hətta şikəstlərə belə aman vermədən azərbaycanlılara qarşı çox saylı ölüm aktları həyata keçirmişlər. Bir çox hallarda isə onlar ağlasığmaz qətl formaları tətbiq etmişlər. Məsələn, Umudlu kəndində Süleyman Qazax Aslan oğlu, Məmməd Məşədi Paşa oğlu və Kazım Atam oğlu ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilmiş, sonra isə onların cəsədlərini doğrayaraq hər hissəsini bir yerdən asmışlar. Həmkəndliləri onları bu vəziyyətdə tapanda hansı hissəsinin kimə mənsub olduğunu belə ayırd edə bilməmişdilər. Hacı Qərvənd kəndində qətlə yetirilmiş Zeynəb Şirin qızının döşləri kəsilmişdir. Dovşanlı kəndinin bir hissəsi olan Korakor kəndinin sakinləri Ramazan Novruzəli oğlu, Qönçə Ocaqqulu qızı və şikəst Süleyman Həsənəli oğlu qəddarlıqla qətlə yetirilmiş və meyitləri yandırılmışdı. Sırxavənd-Ballıqaya kəndinin sakini Soltan Əli İmam oğlu Qazançı kəndi yaxınlığında saxlanılmış, vəhşiliklə öldürülmüş və yandırılmışdı. Güneyqaya-Sırxavənd kəndinin sakinləri Şərit İsmayıl oğlu və Rəcəb Novruzəli oğlunun meyidləri



ermənilər tərəfindən başları kəsilib aparılmış şəkildə tapılmışdır. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 4).

Şahidlərin ifadələri əsasında Fövqəladə Təhqiqat Komissiyası Cavanşir qəzasında azərbaycanlılara qarşı vəhşiliklər törədilməsinə rəhbərlik etmiş ermənilərin adlarını da müəyyənləşdirmişdi. Bunlar Yuxarı Qarxun kəndində torpaq sahibi mühəndis Konstantin Abramov, Avan Yuzbaşevin malikanəsini idarə edən Baqrat bəy Məlik-Şahnazarov, Marağalı kənd icmasının kəndxudası Nerses Manukov, Gülyataq kəndinin sakini İvan bəy Mirzəbəyov, Dovşanlı kəndindən Artyom və Muku Sukiasovlar, Yevrem və Nikolay Şahbaqovlar, Bazarkənddən Nikolay Saruxanov, Vank kəndindən Tiqran Asan Cəlalov, Yuxarı və Aşağı Çaylı kəndlərindən Şamir Ağabekov, Setrak Usubbekov, Talış kəndindən Tyuni Atambekov, Ağdərə kəndindən Karapet Anastasov, Talış kəndindən İsakk və Minas Ter-Danielov qardaşları, həmin kənddən Rüstəm Babayev, Çardaxlı kəndindən Baxış Avnesov, Aşağı Çaylı kəndindən Akopcan Masesov, Nikolay Sokratov, ağdərəli Markos bəy Ter-Astsaturov, Marqoşavan kəndindən Atakişi Xaçaturov və başqaları idi. Özü də bu ermənilər Cavanşir qəzasında azərbaycanlılara qarşı törədilmiş eşidilməmiş vəhşiliklərin təkcə rəhbərləri deyil, həm də şəxsən onların öldürülməsi, onlara işgəncə və əzablar verilməsinin iştirakçıları idilər. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 5).

Fövqəladə Təhqiqat Komissiyasına təqdim olunmuş məlumatlar və onların əsasında tərtib edilmiş aktlardakı, əsasən Cavanşir qəzasında ermənilərin bu qəzanın müsəlman əhalisinə vurduğu zərər onlarca milyon manata bərabər olmuşdu.

Qarabağ bölgəsində 1918-ci il və 1919-cu ilin əvvəllərində daha çox erməni təzyiqlərinə məruz qalan qəzalarından biri də Cəbrayıl qəzası idi. Cəbrayıl qəzası 12 azərbaycanlı və 3 erməni kənd icmasından ibarət idi. Yuxarı Qarabağın başqa

qəzalarında olduğu kimi bu qəza da öz ərazilərinin yerləşmə vəziyyətinə görə elədir ki, düzənlikdəki kəndləri əksərən azərbaycanlı kəndləri idi. Qorxudan ermənilər buraya hücum etməyə cürət etmirdilər. Bilirdilər ki, hücum etsələr layiqli cavab alacaqlar. Ona görə də onlar dağətəyi azərbaycanlı kəndlərinə hücum etmiş və məhz ən çox zərər çəkənlər də bu kəndlərin əhalisi olmuşdur.

Fövqəladə Təhqiqat Komissiyasının topladığı material və dindirilmiş şahidlərin ifadələrinə görə ilk əvvəllər Qarabağın başqa qəzalarında ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdikləri vəhşiliklər haqqında deyilənləri Cəbrayıl qəzasının azərbaycanlı əhalisi ağıllarına belə sığışdıra bilmirdilər. Çünki qəzanın erməni əhalisi onları həmişə əmin edir və inandırırdılar ki, bu qəzanın azərbaycanlı əhalisinə qarşı belə hallar heç vaxt baş verə bilməz. Ona görə hələ də məkrli erməni siyasətini başa düşməyən qəzanın sadəlövh azərbaycanlı əhalisi onlara inanıb nəinki müdafiə haqqında düşünmürdülər, hətta ermənilərə qarşı hər hansı müqavimət göstərməyi belə ağıllarına gətirmirdilər.

1918-ci il dekabrın ilk günlərindən ermənilər qəzanın azərbaycanlı əhalisinə qarşı silahlı çıxışa başlayırlar. Ermənilər əvvəlcə tək-tək qətllər törədir, hücum edərək azərbaycanlı kəndlərinə məxsus mal-heyvanı sürüb aparırdılar. Getdikcə daha da mütəşəkkilləşən erməni quldur dəstələri azərbaycanlı kəndlərinə açıq silahlı basqınlar etməyə başlayırlar. Buna baxmayaraq Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin dindirdikləri şahidlərin ifadələrində və Cəbrayıl qəza rəisinin 1919-cu il fevralın 17-də Qarabağ general qubernatoru X.Sultanova raportunda bildirilirdi ki, "qəzanın müsəlman əhalisi bu cür hadisələri böyük təəssüf hissi ilə qarşılayaraq, heç bir fəal mübarizə yoluna keçməyərək yalnız özlərini və öz əmlaklarını erməni hücumlarından qorumaq üçün müdafiə mövqei tutmuş və ermənilərə qarşı heç bir qeyri-qanuni hərəkətə yol verməmişlər. Buna da sübut odur ki, bu müddət



ərzində erməni kəndlərindən heç biri müsəlmanlar tərəfindən zərər görməmişdir". (ARDA: f. 970, siy. 1, iş 161, vər. 5).

1918 və 1919-cu ilin əvvəllərində erməni quldurlarının Cəbrayıl qəzasında törətdikləri vəhşiliklər haqqında Fövqəladə Təhqiqat Komissiyasının məruzələrində geniş məlumatlar var. Onlardan bəzilərini nəzərdən keçirək.

1918-ci il dekabrın 26-da gecə Düdükçü, Edilli, Ağbulaq, Qoqo, Çirakuz və Axullu kəndlərinin erməniləri Düdükçü kəndinin azərbaycanlılar yaşayan hissəsini dağıtmış və evlərini yandırmışlar. Dekabrın 7-də həmin kəndlərin silahlı erməni quldur dəstələri Arış kəndi əhalisinin qoyun sürülərini sürüb aparmışlar. Dekabrın 5-də isə silahlı ermənilər Qaragöllü kəndinə hücum edərək qoyun sürülərini aparmışlar. Dekabrın 2-də erməni silahlı quldur dəstələri Aşıq Məlikli kəndinə hücum edərək əmlaklarını talan etmiş, yandırılmış, mal-heyvanlarını isə sürüb aparmışlar. Elə həmin gün ermənilər Xolaflı, Totor, Şıxlar kəndlərini talan etmiş, yandırmış, mal-heyvanlarının bir hissəsini məhv etmiş, bir hissəsini isə sürüb aparmışlar. Həmin il dekabrın 18-də Sirik kəndi ermənilər tərəfindən qarət olunmuş və yandırılmışdır. 1919-cu il fevralın 27-də Ağcakənd Dələnlər və Mülkədarlı kəndlərinin erməniləri yenidən Sirik kəndinə hücum edərək, yenə də bu kəndin bir hissəsini yandırmışlar. (ARDA: f. 970, siy. 1, iş 161, vər. 5-6).

Məruzədə 1918-ci ilin sonları və 1919-cu ilin əvvəllərində Cəbrayıl qəzasında erməni silahlı quldur dəstələrinin azərbaycanlılar yaşayan digər kəndlərə - Eyvazlı, Dolanlar, Şıxlar, Məlikli və s. hücum edərək azərbaycanlı əhalinin əmlakını qarət edərək yandırdıqları, mal-heyvanlarını isə sürüb apardıqları haqda çoxlu faktlar sadalanır. (Bax: yenə orada vər. 6).

Cəbrayıl qəzasında azərbaycanlı kəndlərinin qarət edilməsi və yandırılması həm də azərbaycanlıların qətlə yetirilməsi və yaralanmaları ilə müşayiət olunurdu. Məsələn, Axullu kəndinin qarəti və yandırılması zamanı 2 kişi, 3 qadın və 1

uşaq öldürülmüş, 1 kişi yaralanmışdı. Məlikli kəndinə hücum zamanı 1 kişi, Məzrə kəndinə hücum zamanı 6 kişi öldürülmüş, Sirik kəndinə hücum zamanı isə 11 kişi, 10 qadın, 14 uşaq qətlə yetirilmiş və 2 kişi yaralanmışdı. Başqa kəndlərə hücumlar zamanı da ölənlər və yaralanlar olmuşdur. (Bax: ARDA. f. 970, siy. 1, iş 161, vər. 6).

Erməni quldur dəstələrinin azərbaycanlı kəndlərinə hücumları zamanı onlara rəhbərlik etmiş ermənilərin çoxu şahidlər və zərərçəkənlər tərəfindən tanınmışlar. Maraqlıdır ki, bunlar qəzanın müsəlman əhalisini daim sakitliyə çağıran, ermənilərin onlara qarşı heç bir hərəkət törətməyəcəklərinə inandırmaq istəyən ermənilər idi. Qəzanın azərbaycanlı əhalisindən olan şahidlər bu quldurların 60 nəfərdən çoxunun adını və familiyasını təhqiqat komissiyasının üzvlərinə demişlər. Bunların arasında Şuşa qəzasından olan azərbaycanlı əhaliyə qarşı qəddarlıqda bütün Qarabağda ad çıxarmış Xurşud bəy , Markar bəy, İşxan bəy və Sumbat bəy (adlara baxın axırında da bəy titulu - A.P.) İşxanov qardaşları, Şuşalı Sokrat bəy Məlik-Şahnəzərov, Düdükçüdən Balasan Hayrapetov, Karapet Ohancanov, yüzbaşı Markez, proporşik Aslan Sərkisov, Muxan Martirosov və başqa cəlladlar idi. (Bax: yenə orada vər. 6).

Cəbrayıl qəzasında ermənilərin azərbaycanlılara vurduqları maddi ziyan ən adi hesablamalara görə on milyonlarla manata bərabər idi.

Qarabağda ermənilərin azərbaycanlılara vurduğu ən böyük ziyan Şuşa qəzasının ərazisi və ermənilərin həmişə əllərinə keçirmək üçün diş qıcadıqları Şuşa şəhəri idi. Çoxlu təkzib olunmaz tarixi faktlardan da məlum olduğu kimi əvvəllər İran şahlarına yaltaqlıq edərək dünyanın bu cənnətməkan diyarında əllərinə mülklər keçirən erməni məlikləri əsrlərlə bu ərazidə ermənilərin sayını artırmaq üçün dəridən-qabıqdan çıxmış, ikiüzlülüyün, namərdliyin, satqınlığın ən iyrənc formalarından məharətlə istifadə etmişdilər. Ancaq heç kimə sirr deyil ki,



bütün Qafqazda, o cümlədən də Qarabağda möhkəmləndikləri ilk günlərdən başlayaraq ermənilər yerli əhaliyə qarşı əvvəlcə gizli, sonra isə açıq şəkildə xəyanətə və mübarizəyə keçmişdilər.

Şuşa qəzası böyük ərazidə Zəngəzur qəzası ilə sərhəd olub, dağlıq və dağətəyi azərbaycanlı kəndləri bir-birindən ayrı düşmüş və hər tərəfdən erməni kəndləri ilə əhatə edilmişdir. Həmişə ermənilər azərbaycanlı kəndlərinin bu vəziyyətini nəzərə almış və həmin kəndləri mühasirədə saxlamaq, dağıtmaq və onlara qarşı hər cür yaramazlıqlar törətməyə müvəffəq olmuşlar.

Rusiyadakı 1917-ci il fevral inqilabına qədər Şuşa qəzasında ermənilərin azərbaycanlı əhaliyə qarşı qeyri-səmimi münasibəti 1905-ci il erməni-azərbaycanlı toqquşması dövrü nəzərə alınmazsa, açıq nümayiş etdirilməmişdir. 1917-ci ildə Rusiyada dövlət çevrilişindən sonra, onsuz da lazımi qədər silah əldə etmiş ermənilər daha sürətlə silahlanmağa başlayırlar. Silahlı erməni quldur dəstələri cəbhələrdən qaçan fərari erməni əsgər və zabitlərinin hesabına getdikcə daha da çoxalır. Nəticədə özlərində güc hiss edən ermənilər, özlərini azərbaycanlılara qarşı çox həyasızcasına aparmağa başlayırlar. Azərbaycanlılarla mübarizədə daha çox müvəffəqiyyət əldə etmək üçün "Daşnaksütyun" partiyası müsəlmanlar arasında sinfi mübarizəni qızışdırır. Nəticədə bir çox azərbaycanlı mülkədarı, o cümlədən Fərrux bəy Vəzirovun zəngin və nümunəvi mülkü dağıdılır. Bundan məharətlə istifadə edən ermənilər erməni Levon Vartapetovu qəza komissarı seçdirmişlər. O isə qəzada milis heyətini yalnız ermənilərdən ibarət təşkil edir.

Şuşa-Qaryagun və Şuşa-Əsgəran yollarını ermənilər tamamilə nəzarət altına alırlar və həmin yollarla gedib-gələn azərbaycanlıları qarət edir, silahlarını əllərindən alır və tədricən həmin keçidlər tamamilə azərbaycanlıların üzünə bağlanır. Bu quldur dəstələrini getdikcə ermənilər daha

mütəşəkkil hərbi formaya salırlar. Ermənilərin bu hərəkətləri keçmiş Türkiyə vətəndaşı satqın general Andranikin dəstələri Gorusa gəldikdən sonra daha da fəallaşır. Azərbaycan ərazilərindən keçərək Gorusa gələn bu avantürist burada bütün Qarabağ ermənilərinin ümumi hərbi mükəlləfiyyətini elan edir. Bu vaxtdan başlayaraq Andranikin əsgərləri erməni kəndliləri ilə birlikdə Zəngəzur qəzasında müsəlman kəndlərini məhv etməyə, yandırıb dağıtmağa, əhalini vəhşicəsinə qırmağa başlayır. Sonra Andranik 3 dəfə Zabux dərəsindən keçərək ermənilərin "Kiçik Ermənistan" adlandırdıqları ərazinin - Qarabağın mərkəzi Şuşa şəhərini tutmağa təşəbbüs edir. Lakin onun hücumları yerli müsəlman əhali tərəfindən müvəffəqiyyətlə dəf edilir. Hər dəfə qanlı döyüşlərdə Andranik böyük itki verərək geri çəkilməyə məcbur olur.

Hər tərəfdən erməni əhatəsində olan Şuşanın vəziyyəti çox ağır idi. Əhalisinin çoxu azərbaycanlı olan Şuşa və ətrafdakı bir neçə müsəlman kəndi - 173 erməni kəndi tərəfindən üzük qaşı kimi əhatəyə alınmışdı. Bura gələn yolların ermənilər tərəfindən kəsilməsi nəticəsində 8 ay - yeni türklər gələnə qədər Şuşa şəhəri və dağ zonasındakı azərbaycanlı kəndlərindəki azərbaycanlı əhalinin vəziyyəti həqiqətən də faciəli idi.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində qeyd edilirdi ki, Şuşa şəhəri və ətraf kəndlərdəki erməni əhalisi azərbaycanın hakimiyyətini tanımayıb, bu günə qədər də tanımaq istəmirlər. Onlar çalışırlar ki, Qarabağın Verand, Dzax, Xaçın və Zəngəzur ərazilərini Azərbaycandan ayırıb Ermənistana birləşdirsinlər. Bu günə qədər Qarabağın erməni əhalisi Azərbaycan hökumətinə vergi verməkdən və hər hansı mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edirlər. 1-ci və 2-ci polis sahəsində erməni quldur dəstələri Sokrat bəy Məlik-Şahnazarovun rəhbərliyi ilə öz cinayətkar hərəkətlərini davam etdirirlər. Bu günə qədər də Ağdam-Qaryagin şosse yolu



bağlıdır. Ermənilər xüsusilə Qarakənd kəndinin erməniləri həmin yoldan keçməyə cürət edən müsəlmanları qarət edir və qətlə yetirirdilər. (ARDA: f. 100, siy. 2, iş 791, vər. 92).

Komissiyanın məruzəsində erməni yaramazlıqlarına necə də dəqiq qiymət verilmişdir. Orada deyilirdi: ***"Hər yerdə olduğu kimi Şuşa qəzasında da ermənilər öz taktikalarına həmişəki kimi sadiqdirlər. O yerdə ki, onlar çoxluq təşkil edirlər, onda onlar özgə xalqlara qarşı zülm etmək və güc işlətməkdə amansızdırlar. O vaxt ki, onlar azlıq təşkil edirlər kimə istəsəniz və necə istəsəniz qulluq etməyə həmişə hazırdılar".*** (ARDA: f. 100, siy. 2, iş 791, vər. 94).

Sonra məruzədə şahidlərin şəhadətləri əsasında ermənilərin Şuşa qəzasında törətdikləri cinayətlər 27 maddədə sadalanırdı. Şahidlərin ifadələrinə görə 1918-ci ilin dekabrında ermənilər 2-ci polis sahəsinə daxil olan Qoqo kəndinin azərbaycanlılar yaşayan 55 evdən ibarət xanimanlarını dağıdır və yandırırlar. Mülkədar Cavanşirin də malikanəsini dağıdıb yandırır, ailə başçısı Əsəd Ağa Cavanşiri, onun oğlu Soltan ağanı, qızı İranə Bəyimi, qardaşı qızı Fatma Bəyim Cavanşiri, ev qulluqçusu İncə İbad qızını, nökərləri Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu və Vəli Kərbəlayı Ələsgər oğlunu öldürmüş, ölüləri təhqir edərək onları soyundurub sonra da xəncərlə doğramışlar. Kəndin azərbaycanlı əhalisinə və mülkədar Cavanşirə məxsus ev və tikililəri yandırmış, bütün avadanlıq, mal-qara və kənd təsərrüfat alətlərini qarət edib aparmışlar.

Ermənilər Tuğ kəndinin azərbaycanlılara məxsus hissəsini də dağıtmışlar. Hətta 1919-cu ilin mayına qədər, yəni komissiya məlumat hazırlayana qədər həmin kəndin azərbaycanlı əhalisi əsir kimi saxlanılmış onlara kənd təsərrüfat işləri ilə məşğul olmağa belə icazə verməmiş, onları ac saxlayaraq ermənilərin hakimiyyətinə tabe omağı tələb edirdilər. Tuğ mülkədarı Ağa bəy Məlik-Aslanovun üzərinə hücum edən ermənilər onu öldürüb, əmlakını müsadirə edirlər. Tuğ sakini Güldəstə xanım Nəcəf bəy qızını da ermənilər

döyə-döyə öldürürlər. Tuğ yolunda ermənilər Novruz Qasım oğlunu və mülkədar Səlim bəy Məlik-Aslanovu qarət edir və sonra isə döyərək öldürürlər.

1918-ci ilin payızında ermənilər 33 evdən ibarət Salakətin kəndini tamamilə dağıdaraq yandırmış, əmlaklarını isə qarət etmiş, mal-heyvanlarını sürüb aparmış və torpaqlarını ələ keçirmişlər. Elə həmin vaxtlar ermənilər Şıxımlı, Kövşatlı, Divanlılar və Çaraküz kəndlərini də tamamilə yandırmış, azərbaycanlıların əmlakını qarət edərək, mal-heyvanlarını sürüb aparmış, bağlarını doğramışlar.

1918-ci ilin yayında ermənilər Pərioğlular kəndi yaxınlığındakı köçəri alaçıqlarına hücum edərək onları dağıtmış, qarət etmiş, Zarisli kəndinə məxsus 300 baş iribuynuzlu mal-qaranı sürüb aparmışlar. Elə həmin vaxt Molla Nəsrəddin yolunda ermənilər Şuşadan Cəbrayıla un dalınca getmiş 12 nəfər azərbaycanlını qətlə yetirmişlər. Təkli kəndindən 700-dən yuxarı qoyunu sürüb aparmışlar.

1919-cu il martın 9-da ermənilər Şuşa şəhərinə yaxın şosse yolunda 4 nəfər azərbaycanlı əsgəri soyunduraraq güllələmiş və 3 nəfərin ölüsünü isə gizlətmişlər.

Şuşa qəzasının 1-ci və 3-cü polis sahələrində isə 1918-ci ilin avqustunda ermənilər Atmazlı, Keştmazlı və Qazanlı kəndlərinin köçərilərinin bütün heyvanlarını sürüb aparmış, ev əşyalarını isə talan etmişlər. Elə həmin vaxt ermənilər 240 ailədən ibarət Gülablı kəndini dağıtmış, kəndlilərin əşyalarının çoxunu qarət etmiş və demək olar ki, bütün mal-heyvanlarını sürüb aparmışlar. Ermənilər Xıdırlı kənd icmasına məxsus çoxlu iribuynuzlu mal və qoyunu da sürüb aparmışlar. Ermənilər Mərzili kəndinin azərbaycanlı əhalisini öz ata-baba ocaqlarını tərk etməyə məcbur etmiş, onların ev əşyalarının çox hissəsini qarət etmiş, 150 iribuynuzlu mal və 1000 baş qoyununu sürüb aparmış, azərbaycanlıların tərk etdikləri evləri isə tutmuşlar.

1918-ci ilin martında erməni quldur dəstələri Sokrat bəy Məlik-Şahnazarovun başçılığı ilə Abdal kəndini dağıtmış,



qarət etmiş və kəndin mal-heyvanlarının bir hissəsini sürüb aparmışlar. 1918-ci ilin avqustunda ermənilər Qaradağlı, Xocavənd kəndlərini və onların azərbaycanlı köçərilərini qarət etmiş, mal-heyvanlarını aparmışlar. Ermənilər Xocalı kəndində də azərbaycanlı əhalini öz kəndlərini tərk etməyə məcbur etmiş, mal-heyvanlarının bir hissəsini sürüb aparmışlar. Məlumatda göstərilirdi ki, bu hələ ermənilərin həmin qəzada törətdikləri cinayətlərin hamısı deyildi. Şahid ifadələrini ümumiləşdirən komissiya qeyd edirdi ki, yalnız Şuşa qəzasında dağıdılmış, yandırılmış, talan edilmiş azərbaycanlı kəndlərində öldürülənlərin sayı 100 nəfərdən çox idi. Öldürülənlər üzərində ağlagəlməz vəhşiliklər edilmişdir. Onlar süngülərlə dəlik-deşik edilir, başları kəsilir, kiçik yaşlı uşaqlar süngülərə taxılaraq vəhşiliklə öldürülür, qadınların döşü, kişilərin burun, qulaq və cinsiyyət üzvləri kəsilirdi. Ölüləri doğrayır, yandırır və hər cür təhqirlərə məruz qoyurdular. Şuşa qəzasında bu vəhşiliklərə rəhbərlik edənlər Sokrat bəy Məlik-Şahnazarov, Akop Veddiyev, Şamir Avakov, Armenak Xaçaturov, Eqiş İşxanov, Xosrov bəy, İşxan bəy və Tiqran bəy İşxanov qardaşları və başqaları idi.

Məlumatdan görünür ki, bu hadisələr zamanı ən sadə hesablamalara görə qəzanın azərbaycanlı əhalisinin çəkdiyi zərər 100 milyon manatdan çox olmuşdur. (Bax: ARDA. f. 100, siy. 2, iş 791, vər 95).

Maraqlıdır ki, ermənilər təkcə Zaqafqaziya Seymi dağıldıqdan sonra, bu ərazidə üç müstəqil respublika yarandıqdan sonra Ermənistan respublikasının ərazisində deyil, həm də Azərbaycanın öz ərazisində də azərbaycanlılara qarşı soyqırımı siyasətindən əl çəkməmişlər. Onlar haq-nahaq Azərbaycanın əzəli və əbədi torpaqları olan yuxarı Qarabağı və Zəngəzuru Ermənistan Respublikasının tərkib hissəsi elan edir və burada Azərbaycan Respublikasının hakimiyyətini heç cür tanımaq istəmirdilər.

Zəngəzur və Qarabağda Erməni Milli Şuraları yaradılır. Bu ərazilərdə yaşayan bütün erməni əhalisi bu şuraların əslində isə Azərbaycan ərazisində onları idarə edən Ermənistan Respublikasının hakimiyyətini tanıdıqlarını bildirirdilər.

Azərbaycan Respublikası hökuməti 1919-cu ilin yanvarında Bakıda olan ingilis komandanlığı ilə razılaşaraq Azərbaycanın mübahisəsiz ayrılmaz hissəsi olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradır. Yanvarın 29-da doktor Xosrov bəy Sultanovu oraya general qubernator təyin edir. Lakin buna baxmayaraq bu qəzalarda yaşayan erməni əhalisi heç cür Azərbaycan hakimiyyət orqanlarına tabe olmaq istəmirlər. Həyasızlıq o yerə çatır ki, Ararat Respublikası Xarici İşlər Nazirliyi öz hökuməti adından Azərbaycan hökumətinə nota verərək, göstərilən müvəqqəti general-qubernatorluğun yaradılmasını "Ermənistanın ərazi hüquqlarına qəsd" kimi qiymətləndirir. (Bax: "Azərbaycan" qəz. 30 yanvar 1919, № 21).

Yuxarı Qarabağ ərazisində demək olar ki, əslində iki hakimiyyətlik hökm sürürdü. Tamamilə Zəngəzuru ələ keçirmiş ermənilər Şuşa, Cavad və Cəbrayıl qəzalarına da əl uzadırlar.

Azərbaycan hökuməti yarandığı ilk gündən ermənilərlə sülh şəraitində yaşamaq üçün özündən asılı olan bütün tədbirləri görür. Hətta hökumət qüvvələrinə göstəriş verilir ki, ermənilər tərəfindən təxribatlar törədilsə belə dözümlülük göstərilsin, onlara cavab verilməsin.

Şuşa şəhəri və ətraf kəndlərdə olan ermənilər iqamətgahı həmin şəhərdə yerləşən müvəqqəti general-qubernatorun hakimiyyətini tanımır. Şuşadakı Erməni Milli Şurasının bütün tapşırıqlarını danışıqsız yerinə yetirirdilər. Hələ 1919-cu il iyunun əvvəllərində Şuşada və onun ətrafında baş vermiş hadisələrdən üç ay əvvəl Şuşada oturan ingilis komandanlığının nümayəndəsi Şuşadakı Erməni Milli Şurası üzvlərinin qızışdırıcılıq hərəkətlərini və onların azərbaycanlılarla



ermənilərin dinc yanaşı yaşamalarına heç cür imkan vermədiklərini görərək, onları Şuşadan kənarlaşdırmağa söz verir. Lakin ermənilərin təziqi ilə mümkün qədər bu işi yubadırlar. Erməni və Azərbaycanlı hissələrinə bölünmüş Şuşada Erməni Milli Şurası öz təcavüzkar təbliğatçılıq siyasətlərini heç cür dayandırmaq istəmir. Ararat Respublikasından Şuranın ən barışmaz üzvü Arzumanov vasitəsilə gizli tapşırıqlar və kömək alan şura bunun müqabilində daim Ermənistan hökumətinin tapşırıqlarını yerinə yetirirdi. Şuşa-Gorus, Şuşa-Qaryagin yollarını tam nəzarət altında saxlayan ermənilər bu yollarla Şuşa ermənilərinə gizli kömək, silah-sürsat və s. gətirirdilər.

Ermənilər yayqabağı azərbaycanlı maldarların yaylaqlara köçməsi və Şuşanın yanından köçmələri ilə əlaqədar tez-tez təxribatlar törədirdilər. Onlar sürülərə hücum edir, çobanları öldürür, sürülərini oğurlayıb aparırdılar. Müvəqqəti general-qubernator X.Sultanov başda olmaqla Azərbaycan hakimiyyət orqanları isə bütün bunlara dözərək sakitlik yaratmağa çalışırdılar.

Həmin il iyunun 1-də çoxlu silahlı ermənilərin gizli yolla şəhərə daxil olduğu haqqında məlumat alan Azərbaycanın Şuşadakı hakimiyyət orqanları Üç-Mıx yüksəkliyində azərbaycanlılara məxsus səngərlərdə isə gözətçilərin sayını artırır. Şəhərin İrəvan darvazası tərəfdə isə 20 min nəfər əsgər və 1 pulemyotdan ibarət yeni post yaradılır və onlara tapşırıq verilir ki, şəhərə gələnlər üzərində ciddi nəzarət qoysunlar.

İyunun 4-də səhər tamamilə gözlənilmədən Üç-Mıx yüksəkliyi tərəfdən atışma başlanır və o tezliklə bütün şəhəri bürüyür. Sonralar müəyyən olunur ki, Üç-Mıx yüksəkliyindəki erməni səngərlərində 50 nəfərə yaxın silahlı erməni yığışmış və erməni zabiti Arzumanov başda olmaqla azərbaycanlı əsgərlərinin səngərlərinə hücum etmişlər. Nəticədə 3 nəfər azərbaycanlı əsgər qətlə yetirilir, ermənilərdən isə hücuma rəhbərlik edən Arzumanov və bir sıra başqaları öldürülür.

Bundan sonra iyunun 5-də həmişə ermənilər tərəfindən zorakılıqlar görən Xəlfəli kənd icmasına mənsub müsəlmanlar Qeybalı erməni kəndinə hücum edərək onu dağıdır və əhalisinin bir hissəsini qətlə yetirirlər. Azərbaycanın yüzlərlə kəndini yer üzərindən silən, əhalisinə qarşı tarixdə eşidilməmiş vəhşiliklər törədən ermənilər bu faktdan azərbaycanlılara və Azərbaycan hökumətinə qarşı təbliğat kampaniyası üçün maksimum dərəcədə istifadə edirlər. Bütün erməni qəzetləri bu hadisəni şişirdərək ermənilərin böyük faciəsinə çevirməyə çalışırlar. Onun haqqında bütün dünyaya səs salırlar. Bu erməni təbliğatı ilə bağlı ingilis jurnalisti Skotland-Liddelin söylədiyi sözlər necə də yerinə düşür: "Ermənilər həmişə özləri savaş axtarır və nə vaxt ki, onu tapırlar, onlar öz təbliğatlarında bunu "sıxışdırılmaq" adlandırırlar, əslində isə bu onların özlərinin qazandıqları cəzadır. O, qeyd edirdi ki, daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Əgər bu hadisədən necə lazımdırsa istifadə edə bilərlərsə, onda o, təbliğat üçün çoxlu xeyir gətirə bilir. O, Nuru paşanın aşağıdakı sözlərini misal gətirir: "Erməni nə vaxt, necə ölməsindən asılı olmayaraq həmişə başını məzardan qaldırır və qışqırır - mən kütləvi qırğın zamanı öldürülmüşəm!". (ARDA: f. 894, siy. 10, iş 81, vər 10).

Azərbaycan parlamentində "Daşnaksütyun" və erməni fraksiyalarından olan deputatlarının bu məsələ ilə bağlı qaldırdıqları böyük hay-küy bir daha dediklərimizi sübut edir. Azərbaycan hökuməti iyunun ortalarında 4 nəfər parlament üzvündən ibarət nümayəndə heyətini Şuşaya göndərir. Onlardan 2 nəfəri azərbaycanlı - Qarabəy Qarabəyov ("İttihad" fraksiyası), Ş.Rüstəmbəyov ("Müsavat" fraksiyası). 2 nəfər erməni - P.X.Çubaryan ("Daşnaksütyun" fraksiyası) və İ.N.Xocayan ("Erməni" fraksiyası) idi. Şuşadan qayıtdıqdan sonra onlar vahid məruzə hazırlamaq üçün heç cür razılığa gələ bilmirlər. Ona görə də 1919-cu il iyul ayının 7-8-də keçirilən Azərbaycan Cümhuriyyəti Parlamentinin bu



məsələyə həsr olunmuş iclaslarında faktiki olaraq 4 məruzə dinlənilmişdir. Birinci gün Q.Qarabəyov və P.X.Çubaryan, ikinci gün isə Ş.Rüstəmbəyov və İ.N.Xocayan məruzə edirlər.

Erməni deputatlarının hər ikisinin çıxışı demək olar ki, bütünlüklə Azərbaycana, Azərbaycan hökumətinə və Şuşada müvəqqəti general-qubernator X.Sultanova qarşı ittihamnamə kimi səslənir. Daşnak P.X.Çubaryan öz çıxışına belə ikiüzlü bir bəyanatla başlayır: "Bir məruzəçi kimi şərait tamamilə mənim əleyhimədir, əvvələ mən daşnakam və daşnaklar da hər şey üçün günahkardılar. İkincisi isə mən erməniyəm. Lakin xahiş edirəm inanasınız ki, fakt və hadisələrin izahında və onlara qiymət verilməsində mən bir müstəntiq kimi qərəzsiz və obyektiv olacağam". (Bax: ARDA. f. 895, siy. 1, iş 103, vər. 33). Maraqlıdır ki, onun bu "səmimiyyətinə" yerdən "Allah eləsin!" replikası ilə cavab verilir. Sonra isə həm o, həm də İ.Xocayan öz çıxışlarında sözün əsl mənasında bir Azərbaycan vətəndaşı, Azərbaycan Parlamentinin üzvü kimi deyil, əsl daşnak müballiği, Ararat Respublikasının emissarı kimi çıxış edirlər. Onların bu həyasız hərəkətlərinə hələ 1905-ci il erməni-azərbaycanlı qırğını zamanı əsl erməni ideoloqu kimi Qafqaz Canişini qr. İ.İ.Vorantsov-Daşkovun yanında keçirilmiş müzakirələrdə çox fəal iştirak etmiş erməni ideoloqlarından olan, Azərbaycan Parlamentinin üzvü və Azərbaycan neftinin sahibkarlarından biri S.S.Taqinsov və daşnak A.Malxazyan da qoşulurlar. P.X.Çubayan gözləri yaşlı deyəndə ki, "bizi bərabər hüquqlu vətəndaş hesab edin". Q.Qarabəyov ona cavabında bildirir ki, "bizim aramızda hansı bərabərlikdən söhbət gedə bilər ki, siz özünüz bizim bütün çağrışlarımıza, bizim bütün təkliflərimizə cavab vermirsiniz... Siz özünüz bunu istəmirsiniz, ancaq erməni nümayəndələrinin az bir hissəsi parlament kürsüsündən ona görə istifadə edirlər ki, müsəlmanları söysünlər, ləkələsinlər. Digər hissəsi isə müsəlmanları əldə silah qarşılayırlar". (Bax; göstərilən iş, vər. 223).

Şuşa və onun ətrafındakı Qeybalı və Kərgicahan kəndlərində baş vermiş hadisələrlə bağlı erməni deputatlarının hay-küyünə cavab olaraq məruzəçi Q.Qarabəyov deyir ki, Azərbaycan Cümhuriyyətinin hakimiyyət orqanları və müvəqqəti general-qubernatoru X.Sultanovun bütün ciddi cəhdlərinə baxmayaraq, ermənilər tərəfindən törədilmiş fitnələrin nəticəsi olan bu hadisə haqqında qışqıraraq, bütün dünyaya səs salmaq kimi hərəkətləriniz mənə belə gəlir ki, sizin bu cür yaramazlıqlara son qoymaq istəmədiyinizi göstərir. O, deyir: "Bununla sizdən, sizə verilən zərərdən 20-30 dəfə artıq zərər çəkmiş digər tərəfin - müsəlmanların vəziyyətini mürəkkəbləşdirmək istiəyirsiniz. Bu hərəkətiniz o qədər sadə, o qədər aydındır ki, çətin ki, buna kimsəni inandırmaq lazım gəlsin. Sizin hər yerdə qəzetləriniz var, adamlarınız var, pulunuz var. Bunların köməyi ilə siz Avropa ictimai fikrini istədiyiniz kimi bizə qarşı yönəldə bilirsiniz. Təkcə İstanbulda ermənilərin demək olar ki, bütün Avropa dillərində 7 qəzeti çıxır". (Bax: göstərilən iş, vər. 222).

Çıxış edən digər məruzəçi Ş.Rüstəmbəyov P.Çubaryanın məruzəsini general-qubernator X.Sultanova qarşı əsl ittiham aktı adlandırır. Ş.Rüstəmbəyov qeyd edir ki, P.Çubaryanın dediyi kimi əgər bu işlərin təşkilatçısı həqiqətən də general-qubernator olsaydı, onda gərək Şuşa şəhərində və Şuşa qəzasının digər kəndlərində bu günə qədər bir nəfər də olsun erməni qalmayaydı. Əslində isə X.Sultanov həmişə bütün vasitələrdən istifadə edərək Qarabağda qayda-qanun yaratmağa, qırğının qarşısını almağa, dinc erməni əhalisini qorumağa çalışmışdı. (Bax: yenə orada vər. 227).

Ermənilərin bütün pozuculuq hərəkətlərinə baxmayaraq Azərbaycan Cümhuriyyəti hökumətinin və müvəqqəti general-qubernator X.Sultanovun ciddi səyləri nəticəsində 1919-cu il avqust ayının sonlarında Azərbaycan hökuməti ilə Qarabağ Erməni Milli Şurası arasında deklarasiya imzalanır. Bu deklarasiya ilə Qarabağ erməniləri Azərbaycan hökumətinin hakimiyyətini tanıyır, Azərbaycan hökuməti isə onlara mədəni-milli muxtariyyat hüququ verirdi. (Bax: "Azərbaycan" qəzeti, № 185, 2 sentyabr 1919).

Bu deklarasiyadan sonra hətta Azərbaycan hökuməti Qarabağda erməni müəllimlərinə yardım etmək məqsədilə 1919-cu il sentyabrın 29-da qəbul edildiyi qərarla Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının müvəqqəti general-qubernatoruna 1 milyon manat pul vəsaiti də ayırmışdı. (ARDA: f. 894, siy. 1, iş 24, vər. 56).

Azərbaycan hökumətinin bütün bu güzəştlərinə, bütün məsələləri sülh yolu ilə həll etmək istəməsinə baxmayaraq Qarabağ erməniləri öz məkirli niyyətlərindən heç cür əl çəkmək istəmirdilər. Onlar Ararat Respublikası hökumətinin gizli tapşırıqlarını həyata keçirmək üçün yollar axtarır, gizli olaraq yeni çıxışlara hazırlaşır və bunun üçün fürsət gözləyirdilər.

Ermənilərin belə bir çıxışı 1920-ci il mart ayının 22-də Novruz bayramı günü baş verir. Bu gün Şuşa şəhəri, Şuşa qəzası və onunla qonşu olan digər qəzalarda eyni vaxtda ermənilər yenə də qiyam qaldırırlar. Həmin il aprel ayının 1-də Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasında Qarabağda ermənilərin yeni qiyamı haqqında yenə də məsələ müzakirə olunur. Bu hadisələr haqqında daxili işlər naziri Mustafa bəy Vəkilov məlumat verir. Nazir öz çıxışında bildirir ki, son günlərdə ictimaiyyətin diqqətini yenə də Qarabağ hadisələri daha çox cəlb edir. Bu hadisələrin baş verməsi ilə bağlı məlumatında nazir deyir: "Martın 22-də və iki gün ondan irəli Şuşa qalasına Azərbaycanın xidmətində olan iki sahənin erməni pristavları general-qubernatorun görüşünə gəlmək bəhanəsi ilə hərəsi 15-20 nəfər silahlı erməni strajnikləri ilə şəhərə (Şuşaya - A.P.) gəlmişlər. Beləliklə, şəhərə 200 nəfər silahlı erməni əsgəri toplamışlar. Bir bu qədər də şəhərdə olan erməni silahlıları ilə birləşərək Şuşada qəflətən əsgərlərimizə hücum etmişlər". (Bax:





19.-3510

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti, stenoqrafik hesabatlar, Bakı, 1998, II cild səh. 879).

Hücum edən ermənilər bir neçə zabiti həbs edərək Azərbaycan ordusunun əsgərlərinə atəş açmışlar. Bir tərəfdən bayram münasibətilə xalq öz evlərində bayram şənlikləri keçirdiklərindən, digər tərəfdən azərbaycanlılar bu cür namərdliyi gözləmədikləri halda bu silahlı çıxış olduqca qəfildən baş vermişdi. Buna baxmayaraq Şuşadakı Azərbaycan ordusunun əsgəri hissələrinin, onlara rəhbərlik edən zabitlərin qəhrəmanlığı sayəsində ermənilərin hücumu tezliklə dəf edilir. Mart ayının 23-də bütün günü şəhərdə atışma getmiş və günbatana yaxın qiyamçılar artıq Azərbaycan ordu hissələri qarşısında dayana bilməyərək şəhəri tərk etməyə məcbur olmuşlar. (Bax: yenə orada səh. 879-880).

Ermənilərin eyni vaxtda Xan kəndinə də hücumu olmuşdur. Onların da hücumları dəf olunmuşdur. Yalnız Əsgəran qalasına hücum edən ermənilər qeyri-bərabər döyüşdə Azərbaycan ordusu əsgərlərini oradan çıxararaq Əsgəran qalasını ələ keçirə bilmişlər.

M.Vəkilov öz məruzəsində qeyd edir ki, ermənilər bu qiyama gizli şəkildə bir neçə aydan bəri hazırlaşırmışlar. Bu xüsusda böyük hazırlıq işləri görülmüş, hücuma başlamaq üçün onların ümumi bir xəbərdarlıq siqnalları da olmuşdur. Şuşa şəhərinin yaxınlığındakı Şuşa kəndindən atılan top atəşi ilə verilən xəbərdarlıq üzrə hər yerdə eyni vaxtda erməni yaraqlıları Azərbaycan əsgərlərinin üzərinə hücuma keçmişlər. Şuşa şəhəri və Şuşa qəzası kəndləri ilə yanaşı Qarabağın Cavanşir və Zəngəzur qəzalarında olan erməni əhalisi də qiyam edib Azərbaycan əhalisi və Azərbaycan əsgərləri üzərinə hücum etmişlər. Əlbəttə bu qiyam nə qədər böyük bir miqyasda hazırlansa da, hər yerdə ermənilərə böyük zərbələr vurulmuş, onların hücumları dəf edilmişdir. Ermənilərin gizli şəkildə hazırladıqları hücum planları bir



nəticə verməmişdir. Onlar yalnız Əsgəran qalasını işğal edə bilmişlər. Bütün bu məsələlər haqqında məlumat verən daxili işlər naziri daha sonra demişdir: "Bu kimi həyasız fitnəni dəf etmək üçün əsgəri qüvvəyə müraciət etmədən əvvəl həyəcana gəlmiş əhali özü onu yatırmağa çalışmışdır. Məmləkətimizin hər tərəfindən camaat sel kimi könüllü surətdə axışıb məhəlli hadisəyə gəlməkdədir. Hazırda bu xalq axınının qabağını almaq müşkül bir məsələ olmuşdur. Hər yerdən cəbhəyə qoşularaq öz qardaşlarının imdadına gəlirlər. Qarabağda müvəqqəti pozulmuş intizam və qayda-qanun bu yaxınlarda düzələcəkdir". (Yenə orada səh. 880).

Demək olar ki, aprel çevrilişi ərəfəsində bu məsələnin Parlamentdə müzakirəsi çox qızğın mübahisələrə səbəb olmuşdur. Hər partiya və ictimai qurum bu müzakirələrdən öz məqsədləri və təbliğatları üçün istifadə etməyə çalışmışlar. Sosial-demokratlar, xüsusilə Əliheydər Qarayev bu iclaslarda xüsusi canfəşanlıq göstərmişdir. Öz çıxışında o, Qarabağda qayda-qanun yaratmaq və böhran vəziyyətindən çıxmaq üçün yeganə yolu "Qırmızı Rusiya qoşununu" Azərbaycana dəvət etməkdə görürdü. (Bax: yenə orada səh. 881).

Onu da qeyd edək ki, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalına qədər Qarabağ erməniləri heç cür Dağlıq Qarabağı Azərbaycandan ayıraraq daşnak Ermənistanına qatmaq iddiasından imtina etməmişlər. Mayaları məkr və hiylə ilə yoğrulmuş, həmişə eyni vaxtda bir neçə cəbhəyə işləməyi məharətlə bacaran ermənilər bu illərdə də bir tərəfdən Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışmışdılarsa da, digər tərəfdən ola bilsin ki, gizli surətdə Sovet Rusiyası ilə də əlaqəyə girərək bolşevik ordusunun Azərbaycana müdaxiləsini asanlaşdırmaq məqsədilə 1920-ci ilin yazında Azərbaycan ordusunun əsas qüvvələrinin başını Dağlıq Qarabağda qarışdırmışlar.

Sovet hakimiyyəti illərində ermənilərə edilən hədsiz güzəştlər ermənipərəst qüvvələrin bütün ciddi cəhdlərinə

baxmayaraq, Dağlıq Qarabağı Ermənistana birləşdirmək mümkün olmadıqda ona Muxtar vilayət statusunun verdirilməsi, sonralar dəfələrlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə edilən baş tutmamış cəhdlər və nəhayət M.Qorbaçovun bədnam yenidənqurma siyasətindən istifadə edərək ermənilərin Dağlıq Qarabağda törətdikləri hadisələr dediklərimizə əyani sübutdur.

**"Azərbaycan" qəzeti,**
**5, 6, 7 yanvar 1999-cu il, № 2, 3, 4.**



# BƏZİ MƏQAMLAR AYDINLAŞIR

***(Deportasiya tariximizdən)***

**1948-1953**-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların özlərinin ata-baba yurdlarından deportasiyası ilə əlaqədar məsələlərin öyrənilməsi və araşdırılması ilə bağlı yeni-yeni faktlar ortaya çıxır ki, bu da həmin məsələlərə daha çox aydınlıq gətirir. Hələ 1991-ci ildə "Vətən səsi" qəzetində dərc etdirdiyim "Köçürmə" başlıqlı məqalədə belə bir cümlə var idi: "Ermənistan SSR Basarkeçər rayonu Zod kəndi sakini Bala Hacıyev 1948-ci ilin fevral ayında şəxsən Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin qəbulunda olur və öz kəndliləri adından xahiş edir ki, 100 ailənin Azərbaycanın Xanlar rayonuna köçürülməsinə icazə verilsin. Onların xahişi yerinə yetirilir və həmin 100 ailə Xanlar rayonuna köçür".

Əlbəttə, həmin sətirləri yazanda Bala Hacıyevin kim olduğu, həyatda olub-olmaması barədə heç nə bilmirdim. Arxivdə saxlanılan sənədlərə istinadən bunu yazmışdım. Həmin məqaləni oxumuş Bala Hacıyev isə bu məsələ ilə bağlı öz təəssüratlarını "Köçürülmə" başlıqlı kiçik məqalədə dərc etdirmişdi. Təəssüflər olsun ki, onun bu yazısı mənə rast gəlməmişdi. Son vaxtlara qədər o özü də bu haqda heç bir məlumat verməmişdi.

Bu günlərdə 1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olmuş Ermənistan SSR Basarkeçər rayonu Zod kəndi sakinlərinin onun ünvanına göndərdiyi 35 vərəqdən ibarət 27 ədəd üçgünc əsgər məktublarını Baş Arxiv İdarəsinə mənim adıma göndərmişdi. Bununla bağlı göndərdiyi

məktubunda Bala müəllim yazır: "Bu məktubları yarım əsrdən çox vaxt ərzində xatirə kimi saxlamışam. Ömrümün sonu yaxınlaşdığından, Sizə olan xüsusi ehtiramıma görə bu məktubları arxivə təqdim etməyi lazım bildim".

Basarkeçər rayonunun Zod kəndində doğularaq böyüyüb başa çatmış, 1941-1945-ci illər Vətən müharibəsi cəbhələrində həlak olmuş nakam soydaşlarımızın bu qiymətli məktublarını arxivimizə təqdim etdiyi üçün Bala müəllimə dərin təşəkkürümüzü bildiririk.

Bəs Bala Hacıyev kimdir? Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyevin qəbuluna o necə düşə bilmişdi? Bizə təqdim edilmiş sənədlərdən və əldə etdiyimiz digər mənbələrdəki məlumatlardan aydın olur ki, Bala Hacıyev ziyalı bir ailədə dünyaya göz açmış, böyüyüb başa çatmışdı. Onun atası Əsgər Oruc oğlu Hacıyev əslən Zod kəndindən olub, təkcə bu kənddə deyil, bütün Basarkeçərdə dövrünün tanınmış ziyalılarından olmuşdu.

B.Hacıyev ilk təlim-tərbiyəsini də atasından almışdır. Onun göndərdiyi materiallar arasında 1964-cü il oktyabr ayının 7-də Basarkeçər rayonunda çıxan "Bolluq uğrunda" adlı qəzetdə dərc olunmuş Zod kəndində açılmış ilk realnı məktəbinin 80 illiyi münasibətilə Mirzə Əsgər müəllimə həsr olunmuş "hümanist fikirli maarifpərvər" adlı məqalə də vardı. Məqalədə deyilir: "1884-cü ildə Zod kəndində birinci olaraq realnı məktəb açılır. Zoddan sonra Böyük Məzrədə, daha sonra isə Basarkeçərdə də belə məktəblər açılmağa başladı".

Zodda açılan realnı məktəbdə o dövrün qabaqcıl, mütərəqqi fikirli müəllimləri dərs deyirdi. Belə müəllimlərdən biri də Mirzə Ələsgər idi. Kəndli ailəsində doğulmuş Mirzə Ələsgər ömrünün əvvəlindən sonuna kimi yoxsul kəndli balalarını oxutmağa çalışmış, bu sahədə öz səy və bacarığını əsirgəməmişdir.

Mirzə Ələsgər bir müddət dostu Mirzə Bəylərlə birlikdə İrəvan qubernatorunun dəftərxanasında işləmiş. 1870-ci illərin



sonlarında isə doğma kəndinə qayıdaraq ömrünün sonuna kimi burada mirzəlik və müəllimlik etmişdir.

Bala Hacıyevin göndərdiyi sənədlər arasında 1910-cu ildə atasının Zod kəndliləri adından Rusiya Əkinçilik və Yerquruluşu Baş İdarəsinin Qafqazdakı müvəkkilinin dəftərxanasına yazdığı ərizənin əlyazması da var. Həmin əlyazmasını Mirzə Ələsgərin qardaşı Rəhim Hacıyev qardaşından xatirə kimi uzun illər saxlayaraq oğlu Meydan Hacıyevə vermişdir. Meydan Hacıyev isə 1975-ci il dekabrın 25-də həmin yazını xüsusi məktubla Əsgər Hacıyevin oğlu Bala Hacıyevə bağışlamışdı.

İrəvan Quberniyası Yeni Bayazid qəzası Zod kəndinin yoxsul kəndlilərinin səlahiyyətli nümayəndələri Əkbər Əsəd oğlu və Məşədi Ağakişi oğlunun adından yazılmış həmin ərizədə göstərilirdi ki, 36 ilə yaxındır ki, Zod kəndliləri icması xəzinəyə məxsus "Səngər-Qatar Qaya" adlı yay və qış otaqlarından istifadə etməklə ildə xəzinəyə 367 manat 44 qəpik haqq ödəmişlər. Son vaxtlar hökumətin yoxsul kəndlilərin ağır vəziyyətini yüngülləşdirmək üçün bir sıra tədbirlər gördüyü vaxtda yenə də kəndin yoxsul kəndliləri Zod kəndinin ağaları Qiyasmanskilərin dözülməz zülmü altındadırlar. Onlar heç bir haqq ödəmədikləri halda kəndliləri həmin otaqlardan sıxışdırırlar. Kəndlilər öz ərizələrində yazırdılar ki, onlar bu barədə 1910-cu il iyun ayının 4-də əkinçilik və dövlət əmlakı nazirliyinin Qafqazdakı müvəkkilinə müraciət etsələr də, heç bir cavab almamışlar.

Dövrünün tanınmış ziyalısı olan atası Mirzə Əsgərdən dərs alan Bala Hacıyev də sonralar kəndin sayılan ziyalılarından olmuşdur. O, 1942-1948-ci illərdə, yəni öz doğma kəndlərindən köçənə qədər həmin kənddə Sovet sədri işləmişdir. Müharibə cəbhələrindən ona yazılmış əsgər məktublarının məzmunlarından da görünür ki, həmkəndliləri Bala Hacıyevi bir kənd Sovet sədrindən daha çox həmməslək, kənd camaatının qayğısına qalan bir həmyerli kimi tanımış və

öz ailələrinin vəziyyəti ilə əlaqədar dərd sərlərini onunla bölüşmüş, ondan kömək diləmişlər.

Köçürülmələri ilə əlaqədar Bala Hacıyevin yazdığı məqalə bu məsələnin bir sıra qaranlıq məqamlarını aydınlaşdırır. O yazır ki, 1948-ci il fevral ayının əvvəllərində Basarkeçərdə azərbaycanlılar yaşayan kənd rəhbərlərinin yığıncağı keçirildi. Bu rayondakı 37 kənddən 30-u azərbaycanlı, 5-i erməni və 2-si qarışıq kəndlər idi. O vaxt raykomun birinci katibi Talıb Musayev idi. Yığıncaqda Bakıdan gələnlər də var idi. Bakıdan gələn A.Gözəlov çıxış edib dedi ki, İttifaq hökumətinin razılığı ilə Ermənistandan yaşayan azərbaycanlılar könüllü qaydada Azərbaycana köçürüləcəklər. Bala Hacıyevin yazdığına görə köçürülmə şərtlərini izah edən A.Gözəlov onlara ediləcək güzəştlər haqqında geniş məlumat verir. Hətta kolxoz əmlakının bölünmə aparılması və evlərinin satılmasının da təmin ediləcəyini bildirir.

Hazırda həyatda sağ-salamat yaşayan, o vaxt Basarkeçər rayonu partiya komitəsinin birinci katibi işləmiş Talıb Musayev bu məsələ ilə əlaqədar "Xalq qəzeti"nin 1997-ci il 23 iyun tarixli nömrəsində dərc etdirdiyi məqaləsində yazır: "Mən 1948-ci ilin yanvar ayında Bakıda Bağırovun qəbuluna gəldim. Məni qəbul etdi və çox sərt danışdı. O, eşitmişdi ki, mən köçürülməyə zidd olmuşam".

Talıb müəllim yazır ki, mən ona təmkinlə dedim ki, "Yoldaş Bağırov sizin himayənizdə yaşayıb işləməyə camaat hazırdır. Ancaq bir neçə şərtimiz var".

Bu şərtlər - onlara dağlıq və dağətəyi rayonlarda yer verilməsi, ictimai və şəxsi mülkiyyətin Ermənistandan köçürülüb gətirilməsi, köçürülməni tezləşdirmək üçün Xanlar rayonundan köçürülmüş almanların evlərinə Basarkeçər rayonu əhalisinin yerləşdirilməsinə icazə verilməsindən ibarət idi.

T.Musayev yazır ki, bu məsələlərə öz münasibətini bildirən Bağırov mənə tapşırdı ki, "Xanlara alman evlərinə hansı kəndin əhalisini köçürmək istəyirsənsə, o kəndin rəhbərlərini mənim yanıma göndər. Mən də rayonun ən böyük kəndi olan Zod kəndinin Sovet sədri Bala Hacıyevi və partiya təşkilatı katibi Kirazlı Nəsirovu onun yanına göndərdim".

Bala Hacıyev yazır ki, mən mərhum Kirazlı Nəsirov və Zod kəndindən olan icraiyyə komitəsinin təlimatçısı mərhum Əli Rzayev birlikdə Bakıya gəldik. Biz Teymur Quliyevin qəbulunda olduq, köç barədə söhbət etdik. Sonra bizi mehmanxanada yerləşdirdilər. Sabahı günü tanımadıqları bir nəfər onları Mərkəzi Komitəyə aparır. Əvvəlcə onları Mərkəzi Komitənin şöbə müdiri İlyas Abdullayev qəbul edir və bildirir ki, "sizi kişi, yəni M.Bağırov qəbul edəcək. Və bu barədə bizi təlimatlandırdı. Sonra özü ilə birlikdə M.Bağırovun iş otağına getdik. Burada T.Quliyev, H.Seyidov (MK-ın katibi) oturmuşdular. M.Bağırov stoldan qalxıb iki-üç addım qabağımıza gəlib bizimlə görüşdü. M.Bağırov bir saatdan çox bizimlə söhbət etdi".

Bala Hacıyevin yazdığına görə M.Bağırov Ermənistanda yaşayan azərbaycanlıların necə dolandığını soruşur və sonra Ermənistandan azərbaycanlıların köçürülməsi ilə əlaqədar belə deyir: ***"Bu məsələ üç ildi məni məşğul edirdi. Keçən il, yəni 1947-ci ildə mən sanatoriyada olanda Moskvada Ermənistan KP MK-nın birinci katibi Q.Artyunovla görüşdükdə belə bir razılığa gəldik ki, Ermənistanda yaşayan azərbaycanlılar "könüllü qaydada" Azərbaycana köçürülsün. Bu barədə Q.Artyunov İ.Stalinə deməli idi, ancaq o deyə bilmədi. Mən İ.Stalinin qəbulunda oldum və o, buna razılıq verdi".***

Azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi ilə bağlı "Vətən səsi" qəzetində dərc etdirdiyim məqalədə yazmışdım: "Azərbaycanda heç kəsin gözləmədiyi bir halda 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin İ.Stalin tərəfindən imzalanmış qərarı çıxır".

Sonralar Respublika Dövlət Siyasi Partiyalar arxivində aşkar etdiyimiz M.C.Bağırov və Q.Artyunovun birlikdə İ.Stalinə ünvanladıqları 1947-ci il dekabr tarixli məktubun surəti (bu surətdə günün yeri boşdu. "Qolos Armeniya" qəzetində verilmiş məlumata görə isə bu tarix "3" dekabrdı - A.P.) və B.Hacıyevin yuxarıda yazdıqları bir daha sübut edir ki, Azərbaycanda təkcə sadə insanlar deyil, hətta çoxlu rəhbər kadrların belə bu işdən məlumatı olmasa da, bu köçürülmənin şəxsi təşəbbüsçülərindən biri, bəlkə də birincisi M.C.Bağırov özü olmuşdur. Görünür əhatəsindəki məkrli ermənilər onu inandıra bilmişdilər ki, Mingəçevir dəryaçasının tikintisindən sonra respublikada pambıqçılığın inkişafı üçün belə bir tədbirin həyata keçirilməsi mütləq lazımdır. Göründüyü kimi ermənilərin fitvasına uyaraq diqqətlə düşünüb, götür-qoy edilməmiş bu cür köçürmə xalqımızı XX əsrin ortalarında ən böyük mərhumiyyətlərdən birinə - kütləvi deportasiyaya məruz qoymuşdu.

Bala Hacıyevin yazdığına görə M.Bağırovun göstərişi ilə kənd təsərrüfatı nazirinin müavini Rəsul Həsənov bir "Vilis" maşınında onları Bakıdan Gəncəyə aparır. Yollarda onlar Şamaxı, Ağsu, Göyçay rayonlarına baxır, axırda isə Şamxor və Xanlar rayonlarında olurlar. Onlar Xanlara köçməyi qərarlaşdıraraq Ermənistana qayıdırlar. Basarkeçərdə erməni millətindən olan məsul rayon rəhbərləri, xüsusilə orqan işçiləri bu cür köçməyə heç cür razılıq vermək istəmirlər. B.Hacıyevin yazdığına görə yalnız Basarkeçər rayon partiya komitəsinin birinci katibi Talıb Musayevin bu işə qarışması Zod kəndindən 100 ailənin Xanlara köçməsi üçün şərait yaradır. O, həm də bu kənddəki kolxozdan 100 ailənin payına düşən əmlakın da düzgün bölünüb verilməsi işini təşkil edir.

Bu məsələ ilə əlaqədar Talıb müəllim özü də yuxarıda göstərilən məqaləsində yazır: "Köçürmə işi bir il müddətində çox mütəşəkkil şəkildə təşkil olundu və zodlular köçdülər. Zod camaatı Xanlara köçüb gələnə qədər Azərbaycan



Respublikasının daxili işlər naziri işləyən X.Qriqoryan (sonralar Bağırovla birlikdə məhkum edilmişdi) öz qohum və dostlarını Xanlarda alman evlərində yerləşdirmişdi. Xanlara köçən zodlular alman evlərində yerləşmiş erməniləri zorla çıxarıb "yoldaş Bağırov bu evləri bizə verib" deyərək özləri məskunlaşırdılar. X.Qriqoryanın xalasının yerləşdiyi evi Sovet sədri B.Hacıyev zorla boşaltdırıb özü məskunlaşmışdı. İndi də B.Hacıyev öz uşaqları ilə həmin evdə yaşayır".

Sonda bizim 1991-ci il may ayının 22-də "Vətən səsi" qəzetində dərc etdirdiyimiz "Köçürülmə" adlı məqalədə istinad etdiyimiz sənəd haqqında bir qədər açıqlamaya ehtiyac var.

Məlumdur ki, şəxsən M.Bağırovun köməkliyindən istifadə edərək Xanlardan köçürülmüş almanların evlərində qeyri-qanuni yerləşmiş erməniləri həmin evlərdən qovaraq özləri məskunlaşmış azərbaycanlılara qarşı təkcə onların alman evlərindən qovduqları ermənilər deyil, habelə Xanlar rayonunun erməni millətindən olan üzdə kommunist, batində isə iliyinə qədər millətçi olan partiya və sovet rəhbərləri bunu heç cür zodlulara bağışlaya bilmirlər. İmkan düşdükcə Zod kəndindən köçüb gəlmiş azərbaycanlıları incidirdilər. Ermənilərin bu hərəkətlərinə dözə bilməyən Bala Hacıyev 1953-cü il oktyabr ayının 22-də yenidən Teymur Quliyevə məktubla müraciət edir. Məktubunun əvvəlində Ermənistan SSR Basarkeçər rayonunun Zod kəndindən köçüb gəlmiş 100 ailənin Xanlar şəhərində yerləşdirilməsində kömək üçün Teymur Quliyevə bir daha minnətdarlığını bildirən Bala Hacıyev sonra yazırdı: "Yoldaş Quliyev bir sıra qeyri-qanuni hərəkətlər, məhdudlaşdırmalar 100 ailənin bir neçəsinin geri qayıtmasına səbəb olmaqla hal-hazırdakı vəziyyətə görə bizim Xanlarda yaşamağımız olduqca çətinləşir. Mənim öz fikrimi yazı vasitəsilə sizə bildirməyim olduqca çətinləşib, artıq dərəcədə xahiş edirəm ki, məni Nazirlər Sovetində bir neçə dəqiqə qəbul edib, şikayətimi eşidib, sonra lazımi binagüzarlıqda bulunasınız. Əminəm ki, mənim bu xahişimi də rədd etməyəcəksiniz".

Təəssüflər olsun ki, Bala Hacıyev öz əminliyində yanılmışdı. Arxivdə olan sənədlərdən görünür ki, məktub rus dilinə tərcümə olunmuş, T.Quliyev tərcümənin üzərində Nazirlər Sovetinin kənd təsərrüfatı şöbəsinin müdiri Ç.Zimenkovun adına belə bir dərkənar qoymuşdu: "Yoldaş Zimenkov, mənimlə danışın", N.Zimenkovun isə belə bir qeydi var: "Yoldaş T.Quliyev məruzə olundu". Sənəddən görünür ki, B.Hacıyev 1953-cü ildə nəinki T.Quliyev tərəfindən qəbul edilməmiş, hətta onun məktubuna cavab belə verilməmişdir.

Bütün bu göstərilənlər xalqımızın deportasiya tarixində Zod kəndindən olan kolxozçuların Xanlar şəhərinə köçürülməsi məsələsinə tam aydınlıq gətirməklə yanaşı, bir daha sübut edir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan soydaşlarımızın öz tarixi-etnik torpaqlarından deportasiyanın təşəbbüskarları və təşkilatçıları arasında özümüzün ən yüksək vəzifəli məmurlarımız da olmuşdur. Bütün başqa günahları bağışlamaq mümkün olsa da, bu cür günahları bağışlamaq çətindir.

**"Azərbaycan" qəzeti,**
**4 iyul 1999-cu il, № 149**



## MART HADİSEYİ ƏLİMƏSİ

*(ÖN SÖZ)*

Son illər Azərbaycan xalqının başına bir sıra müsibətlər gəlmişdir. Keçmiş SSRİ və Sov. İKP rəhbərlərinin respublikalardaxili separatist qüvvələrə verdiyi "kart-blanş" siyasəti əsasında erməni millətçilərinin əvvəl Ermənistan, daha sonra isə Azərbaycan ərazisindəki qədim türk torpaqlarında azərbaycanlılara qarşı yeritdikləri soyqırımı nəticəsində baş vermiş müharibə yaşadığımız keçid dövrünün obyektiv iqtisadi çətinliklərini daha da dərinləşdirmiş və ağırlaşdırmışdır. Tarixə nəzər saldıqda biz belə bir qanunauyğunluq aşkar edə bilərik ki, mərkəzi dövlət üçün ağır, kəskin təzadlarla dolu bütün mərhələlərdən erməni daşnakları öz şovinist məqsədləri üçün məharətlə istifadə edərək, azərbaycanlılara qarşı terror aktlarına əl atmışlar. Bu cür hadisələr təkcə indi yaşadığımız günlərə aid deyil. Belə fəlakətlər həm 1905-ci ildə çar Rusiyası birinci rus inqilabının təlatümləri içində boğulanda, həm də 1917-ci ilin oktyabr hadisələrindən sonra imperiyanın dağılması nəticəsində gənc müstəqil dövlətlər yarandığı dövrdə də baş vermişdir. Yaranmış vəziyyətdən məharətlə istifadə edərək 1918-1920-ci illər ərzində Qafqazda, o cümlədən Azərbaycanın bütün ərazisində ermənilər azərbaycanlılara qarşı geniş qırğınlar, talanlar, zorakılıq və terror əməliyyatları həyata keçirmişlər. Ermənilərin bu hərəkəti 1918-ci ilin martında Bakıda baş vermiş kütləvi qırğından sonra xüsusilə kəskin şəkildə özünü büruzə vermişdir. Rusiyada bolşevik hakimiyyətinin qələbəsi ilə əlaqədar ölkənin birinci dünya müharibəsində iştirakdan çıxması və bunun nəticəsində əsgərlərin döyüş bölgələrini

tərk etməsi, Qafqaz cəbhəsindəki Rusiya hərbi hissələri tərkibində olan erməni əsgər və zabitlərinin silahlarını təhvil verməyərək Bakıya dolmasından bolşevik donu geymiş, əlində V.İ.Leninin mandatı olan daşnak Stepan Şaumyan məharətlə istifadə etdi. Məhz S.Şaumyanın rəhbərliyi ilə Bakıda törədilən qırğınlar sonralar Şamaxı, Quba və Göyçay qəzalarının şəhər və kəndlərində davam etdirilmiş, Qarabağda, Zəngəzurda və Azərbaycanın başqa rayonlarında daha amansız şəkil almışdı. Ermənilərin törətdikləri qırğınların əsas mahiyyəti ondadır ki, şaumyanlar, lalayevlər və başqa bu kimi bolşeviklərin fəaliyyəti ilə 1890-cı ildə yaradılmış qatı şovinist və terrorçu Daşnaksütyun partiyasının başçılıq etdiyi erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri terror və soyqırımı əzəli Azərbaycan torpaqlarının etnik cəhətdən azərbaycanlılardan təmizlənməsi və erməniləşdirilməsinə, ermənilərin Azərbaycanda siyasi və iqtisadi ağalığını təmin etməyə yönəldilmişdi. Bu işi əvvəlcə V.İ.Leninin mandatı ilə Bakıda sovet hakimiyyəti qurmuş, əslində isə ermənilərin Bakı üzərində tam hökmranlığını yaratmış S.Şaumyan, sonralar isə 1918-ci ilin mayında yaradılmış Ermənistan Respublikasının şovinist liderləri həyata keçirirdilər.

1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Məmməd Həsən Hacınski Bakıdakı mart qırğını və ondan sonra erməni quldur dəstələrinin Azərbaycan və azərbaycanlılara vurduğu zərəri müəyyənləşdirmək məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaratmağı təklif edir. M.H.Hacınski öz məruzəsində göstərdi ki, bu komissiyanın materialları ümumiləşdirilərək Avropanın başlıca dillərinə (ingilis, fransız, alman, rus) tərcümə edilib geniş yayılmalı, bununla da ermənilərin vəhşilikləri və onların nəticələri bütün dünyaya bildirilməlidir. M.H.Hacınskinin məruzəsi əsasında elə həmin gün Azərbaycan hökuməti Gəncədə Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə Fövqəladə İstintaq Komissiyası yaratmaq haqqında qərar qəbul



edir və bu qərarı ilə Birinci Dünya müharibəsi başlanandan bəri bütün Qafqazda ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilik və zorakılıqları təhqiq etməyi komissiyaya tapşırır. Ədalət naminə deməliyik ki, komissiya bu sahədə çox iş görmüşdür. Komissiyanın üzvləri Bakı, Şamaxı, Quba, Göyçay, Şuşa, Kürdəmir, Zəngəzur və s. yerlərdə erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər haqqında çoxlu məlumat toplamış, sanballı təhqiqat materialları hazırlamışlar. Təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində 31 mart həm 1919, həm də 1920-ci ildə milli matəm günü kimi qeyd olunmuşdur. Yeni yaradılmış sovet hökuməti isə bu hadisəni tamamilə unutdurmağa çalışmışdır. Bakıdakı qanlı mart hadisələri Sovet dövrü tarixçiləri tərəfindən tarixi sənədlərin əksinə olaraq bir millətin başqa bir millətə qarşı soyqırımı kimi deyil, Ümumrusiya vətəndaş müharibəsinin tərkib hissəsi, sovet hakimiyyəti uğrunda bolşeviklərin mübarizəsi və onların əksinqilab üzərində böyük qələbələri kimi təqdim olunmuşdur. Bu qanlı hadisələr sinfi mübarizə və insanpərvərlik məfhumlarından o dərəcədə uzaq idi ki, hətta Azərbaycan bolşeviklərinin liderləri olan N.Nərimanov, M.Əzizbəyov və başqaları dəhşətə gəlmiş, erməni millətçilərinin törətdikləri cinayətlərə qarşı kəskin çıxış etmişdilər.

1919-cu ildə etdiyi məruzələrindən birində N.Nərimanov deyirdi: "Müsəlman əhalisinin silahlı erməni bandaları tərəfindən vəhşicəsinə öldürülməsini kim vətəndaş müharibəsi adlandıra bilər? Kim deyə bilər ki, erməni silahlı dəstələri Bakıda vətəndaş müharibəsi aparırdılar?.. Fərz edək ki, Bakıdakı mart hadisələri vətəndaş müharibəsinin təcəssümü idi. Bəs onda daşnaklar Əmirov və Styopa Lalayevin bundan sonra Şamaxıda törətdikləri vəhşiliklərə nə ad vermək olar?"

Bütün bunlara baxmayaraq, sovet hakimiyyəti illərində erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdikləri cinayət əməllərinin yanlış beynəlmiləlçilik prinsipləri əsasında unudulmasına cəhdlər göstərilmişdir. Lakin kommunizm ideoloqları xalqımızın yaddaşında əbədi iz buraxmış 1918-ci il qanlı mart hadisələrini heç cür həmişəlik unutdura bilməmişlər. Azərbaycanda bolşevik rejimi qurulduqdan sonra xarici ölkələrdə yaşamağa məcbur olmuş demokratik ruhlu azərbaycanlılar hər il bu günü milli matəm günü kimi qeyd etmiş, bu münasibətlə xatirə gecələri keçirmiş, qəzetlərdə məqalə və xatirələr dərc etdirmişlər. Almaniyada M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "İstiqlal" qəzetinin 1933-cü il 1 aprel tarixli 31-ci nömrəsi demək olar ki, tamamilə Bakıdakı 1918-ci il mart hadisələrinin 15 illiyinə həsr edilmişdir. Həmin nömrədə mart hadisələri zamanı ermənilərin törətdikləri vəhşiliklər haqqında geniş məlumat verilir. Qəzet yazırdı: "Bir həftə ərzində Bakı bütün simasını dəyişmişdi. 31 martda 15 min günahsız türk kəsilmişdir. Günün qəhrəmanları: Şaumyan, Avakyan, Arakelyan, Ter-Mikaelyan, Saakyan, Lalayan, Amazasp, Əmriyan və b. idi.

Əlində Leninlə Stalinin 13 nömrəli dekreti olan Stepan Şaumyan məzkur dekretə görə "Böyük Hayıstan"a müqabil Azərbaycanı "sovetizə" edərək burada Moskva hakimiyyətini quracaqdı. Bunun üçün müsəlləh erməni qüvvələrinə dayanaraq türkləri kəsirdi".

Faciəli mart günlərində ermənilər Bakıda Azərbaycan xalqına məxsus bütün mədəniyyət ocaqlarını - "İsmailiyyə"ni, məktəbləri, məscidləri, mətbəələri, qəzet redaksiyalarını, teatrları, xəstəxanaları dağıdıb, yandırır, xarabazara çevirir, mağazaları qarət edib viran qoyurdular. Azərbaycanlılar yaşayan məhəllələri topa tutur, yandırır, uşaqdan tutmuş qocaya qədər hamını güllələyir, qılıncdan keçirir, süngülərlə dəlik-deşik edirdilər. Evlərə od vurur, uşaqları, ixtiyar qocaları oda ataraq diri-diri yandırırdılar. Gənc oğlan və qızları diri-diri



divara mıxlayır, onların burun və qulaqlarını kəsir, gözlərini çıxararaq əzab-əziyyətlə öldürürdülər. Kimsəyə rəhm edilmirdi. Öldürmədikləri qadınları çılpaq soyundurur, saçlarını bir-birinə bağlayaraq küçələrdə qundaqları ilə vuraraq qaçmağa məcbur edirdilər.

Bir sözlə ermənilər bu üç gündə Bakıda ağlagəlməz vəhşiliklər törətmişlər. Ən dəhşətlisi isə o idi ki, 1918-ci il aprel ayının 13-də Moskvaya Xalq Komissarları Sovetinə yazdığı məktubunda S.Şaumyan azərbaycanlılara qarşı törədilmiş bu vəhşiliklərə haqq qazandırır. Daşnakların bu hərəkətlərinə rəvac verilməsinin səbəblərindən bəhs edərkən bolşevik cildinə girmiş bu qatı daşnak cəlladı yazırdı: "Milli hissələrin (burada - daşnakların - A.P.) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdir, lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik". Nə qədər açıq etiraf!

Ermənilərin bu vəhşilikləri haqqında çoxlu rəsmi sənədlər, qəzet məlumatları, xatirələr qorunub saxlanılır. Son vaxtlar bu məsələ ilə əlaqədar çoxlu materiallar da nəşr olunmuşdur.

1919-cu ildə nəşr edilmiş və Sədaqət xanım Məmmədovanın ərəb əlifbasından çevirərək yenidən çapa hazırladığı Məhəmməd Muradzadənin "Mart hadiseyi-əliməsi" kitabçası bu sahədə xüsusi əhəmiyyət kəsb edir. Bu həmin hadisələrin iştirakçısı olmuş, bütün erməni vəhşiliklərini öz gözləri ilə görmüş, xoşbəxt təsadüf nəticəsində sağ qalmış bir gəncin şəxsi təəssüratıdır. Burada həmin gəncin ailəsinin timsalında ermənilərin Bakıdakı mart qırğınları zamanı törətdikləri vəhşiliklər qələmə alınmışdır. Ancaq yeri gəldikcə gənc müəllif ermənilərin törətdikləri vandalizm haqqında da məlumat verir, ermənilərin bu cür müvəffəqiyyət qazanmalarının səbəblərinə də öz münasibətini bildirir. O, yazırdı: "Hələ qarşımda o gün müşahidə etdiyim ürəkdağlayan bir mənzərə təcəssüm edib durur. O gün küçə ilə bir neçə kişinin çiynində qısa bir nərdivan üzərində əlvan boyalı xalça



20.-3510

sarınmış bir meyitin aparıldığını gördünüz. O, mart günlərinin məzlum qurbanı, mənim zavallı atam idi. O dövrün vəziyyətinə nəzərən bu hala da qibtə edirlərdi. Ona görə ki, çox şəhidlərin meyiti o gün tapılmaz oldu. Ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. O gün bu müəzzəm Bakı şəhərinin yarıdan çoxu bir matəmsəraya çevrildi. Çox evlərin üzvləri südəmər yavrularınadək zəhərli xəncərlər ilə doğrandı. Fəryad, ah-fəğan sədası eşidilməyən bir ev qalmadı".

Mart hadisələri haqqında öz gözü ilə gördüyü hadisələri təsvir edən M.Muradzadə yeri gəldikcə bu hadisələrə öz münasibətini də bildirir. Bakıda azlıq təşkil edən ermənilərin bu torpaqların həqiqi sahibi olan azərbaycanlıların başına açdığı müsibətlərin səbəblərini də aşkarlamağa çalışır, bu haqda söylədiyi fikirlər çox maraqlıdır. M.Muradzadənin fikirləri bir də ona görə maraqlıdır ki, 70 ildən çox keçməsinə baxmayaraq, səksəninci illərin axırlarında ermənilərin yenə də bizi bu cür ağır vəziyyətə salmasında, ərazimizin 20 faizdən çoxunun işğalında, bir milyondan yuxarı qaçqınımızın olmasında yenə də öz təqsirimiz az deyildir. Deməli, tarixin ibrət dərslərindən hələ də özümüz üçün lazımi nəticə çıxara bilməmişik. Hələ mart hadisələri başlamazdan əvvəlki düşüncələri haqqında da məlumat verən M.Muradzadə qeyd edirdi ki, fikirləşirdim, əgər ermənilərlə dava başlayarsa, azərbaycanlılar tərəfindən "hansı igidlərin iştirak edəcəyini və hansı təşkilat tərəfindən və neyçin elani hərb ediləcəyini bir növ" təsəvvürümə belə gətirə bilmirdim, çünki "əlində bir mauzeri ilə altı patronu olub yalnız orada-burada pusquda duraraq öz qardaşının qanını tökməyə adət etmiş, yaxud iştirak edib də öz qardaşına vaxt zərurətində səngərdə patronun birini yeddi-səkkiz rubləyə satan milli igidlərmi?" O yazırdı ki, düşünürdüm düşmənin toplarına, pulemyotlarına, dənizdə dayanmış hərbi gəmilərinə qarşı bizimkilər görəsən nə ilə cavab verəcəklər?



Xatirə müəllifi hələ mart hadisələrindən bir neçə gün əvvəl İsmailiyyə binasından bir az aşağıdakı dükanın qabağında ermənilərlə münasibətlər haqqında öz gənc dostları ilə olan söhbətini xatırlayaraq yazırdı: Mən o zaman deyirdim: "Bilirsinizmi, dostlar, Allah göstərməsin, bu müharibə başlanarsa, bizim üçün acı nəticələr verər. Hələ milli əsgərlər kamil bir surətdə təşkil edilməmiş, lazımi təchizatı əldə edilməmiş başı pozuq qüvvələrə güvənməməli. Bir mauzer və beş patron ilə top və pulemyotlara cavab vermək olmaz. Məncə bu müharibədə kasıb və fəqirlər artıq zərərçəkən olacaqlar". Gənc müəllifin bu sözlərinə dostlarından biri belə cavab verir: "Xeyir, qardaş, pulemyot yoxsa da bir gülləylə pulemyotçunu öldürüb, pulemyotunu əlindən alıb özümüz atarıq. Müsəlmanın müharibədə çox hiylələri olur".

Çox maraqlıdır ki, həmin gənc bir neçə gün əvvəl "İsmailiyyədə" çıxış edən boşboğaz təbliğatçının yalan vədlərinə inanmışdı. O öz yoldaşlarına İsmailiyyədəki "sarı paltolu əfəndinin" "ölmək, ölmək deyə bağırdığını", "düşmənlərimiz İsmailiyyə qarşısında səcdə etməlidirlər" söylədiyini bildirir və qürurla deyirdi ki, "belə bir ruh yüksəkliyi ilə heç vaxt məğlub olmarıq".

Öz dostunun bu sadəlövh inamına cavab olaraq M.Muradzadə bildirir: "Dostum, yanılırsan, söyləmək başqa, fel başqa; bu işdə ancaq diplomat olmalı, işi elə bir tərz ilə aparmalı ki, bəslədiyimiz o böyük amal bir gün olsun ki, öz mövqeyini tutsun. Düşmənlər azacıq bir hadisədən istifadə edirlər, əllərində olan qüvvələrlə bizləri dərin bir fəlakətə sövq edirlər"

M.Muradzadə daha sonra yazırdı ki, bu cür "milli qəhrəmanlarımız" İsmailiyyə kimi memarlıq abidəsinin düşmən tərəfindən dağıdılmasına və yandırılmasına, Təzəpir məscidi kimi dini və tarixi abidənin topa tutulmasına yol verdilər. S.Şaumyan və onun bolşevik donu geymiş daşnak məsləkdaşları Bakıda öz niyyətlərinə çatdıqdan sonra sülh

yaratmağa razı olurlar. Mart hadisələri zamanı "qalib çıxmış" ermənilər öz vəhşiliklərinin üzərini ört-basdır etməyə çalışırlar. Erməni vəhşiləri tərəfindən öz evlərindən çıxarılaraq müxtəlif kinoteatr binalarında əsir edilmiş azərbaycanlı qocalar, qadınlar və uşaqlar sülh elan edildikdən sonra elə həmin erməni qaniçənlərinin müşayiəti ilə küçələrdən keçirilərək öz evlərinə aparılırdılar. Bu cür ikiüzlü hərəkətin əsl mahiyyətini başa düşən gənc müəllif yazırdı ki, "küçə boyu əvvəl başımızı yarıb, sonra ətəyimizə qoz dolduran o vəhşi qüvvələr əsirləri müşayiət edirdilər". Evlərinin qapılarında dayanmış erməni millətindən olan Bakı əhalisi isə əsirlikdən buraxılanları ələ salır, gülür, şadlanır və tənə ilə soruşurdular: "Asma, bir-iki Qafqaziya bizimki söyləyirdiniz, işte Qafqaziyaya sahib oldunuz?" Gənc müəllif yazırdı: "Düşmənin bu növ tənələri acı, fəqət doğru idi. Çalışmamaq nəticəsi olaraq azlıq təşkil edən millətin bu gün vəhşi qüvvələri qarşısında baş əyməyə məcbur olmuşuq".

Təəssüflər olsun ki, tarixin ibrət dərslərindən nəticə çıxarmamağımızın bəhrəsidir ki, bu gün namərd qonşularımız ərazimizin dörddə bir hissəsini işğal etmiş, bir milyondan çox soydaşımız öz vətənində yurd-yuvasından qaçqın düşmüşdür.

Bir daha qeyd etmək lazımdır ki, bu cür yazıların yenidən nəşri xalqımızın milli şüurunun oyanmasında, öz dostları ilə düşmənlərini tanımasında müsbət rol oynayar.

**Məmməd Muradzadə. Mart hadiseyi-əliməsi Bakı, "Azərnəşr", 1996-cı il**



# ERMƏNİLƏR VƏ İRAN

## *(ÖN SÖZ)*

Mirzə Bala Məmmədzadənin 1927-ci ildə İstanbulda nəşr etdirdiyi "Ermənilər və İran" əsəri öz aktuallığını bu gün də qoruyub saxlamaqdadır. Ququ quşunun balaları kimi parazit həyat sürən ermənilər dünyanın hansı ölkəsinə ayaq açırlarsa, oraya tezliklə uyğunlaşır və kök salırlar. Harada olurlarsa-olsunlar ən iyrənc üsullarla əsrlərlə xülyasında olduqları Böyük Ermənistanı dirçəltmək kimi sərsəm sayıqlamalarını hamının beyninə, fikrinə yeritməyə çalışırlar. Özü də bu yolda onlar heç bir yalandan, böhtandan çəkinmirlər. M.Məmmədzadənin "Ermənilər və İran" əsərini oxuduqda və onu bugünkü daşnak xislətli erməni təbliğatı ilə müqayisə etdikdə elə təsəvvür yaranır ki, sanki söhbət gedən hadisələrdən bir əsrə yaxın vaxt keçməyib. Tarixdə heç nə dəyişməyib. Ermənilər öz istədiklərinə nail olmaq üçün hər cür yalana və böhtana əl atırlar. 1988-ci ilin fevralından uydurma Qarabağ problemini ortaya atdıqdan sonra, bu beş il ərzində ermənilər özlərinin haqlı olduqlarını sübuta yetirmək üçün nələr etmədilər. Azərbaycan xalqını dünya ictimaiyyətinin gözündən salmaq üçün nə kimi yaramazlıqlara əl atmadılar.

M.Məmmədzadənin "Ermənilər və İran" əsəri ilə tanış olarkən bir daha yəqin edirik ki, ermənilərin bugünkü hərəkətləri təsadüfdən doğmayıb, onlar yüz il bundan əvvəl hazırladıqları plan əsasında, çox dəqiq hərəkət edirlər. Həmin hərəkətlər bü millətin xislətindən meydana gəlir. Ağa qara, qaraya ağ demək, öz yalanını doğru kimi qələmə vermək bu millət ağalarına xas olan başlıca xüsusiyyətdir. Öz

məqsədlərinə çatmaq üçün onlar nə kimi yalanlar uydurmağa qabildirlər, ilahi!

1920-ci ilin noyabrında Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra İrana qaçan Daşnaksütyun tör-töküntüləri burada da sakit oturmurlar. İranı erməni milli hərəkatının başlıca mərkəzlərindən birinə çevirirlər. İran hakim dairələrinin onlara qarşı müsbət münasibətindən istifadə edən mühacir daşnaklar yerli ermənilərlə birlikdə İranda özlərinin çoxlu iqtisadi və ictimai təşkilatlarını yaradır, məktəblər və teatrlar açır, qəzetlər nəşr edirlər. Onlar İranın bir çox mülki və hərbi idarələrinə soxulur, Rza Pəhləvinin hakimiyyətə gəlməsindən istifadə edərək İran Azərbaycanında iqtisadi və ticarət imtiyazları, bu sahədə hegemonluğu öz əllərinə keçirməyə çalışırlar. Maraqlıdır ki, Sovet İttifaqının İrandakı səfiri erməni Davityanın köməyilə ermənilər İrandakı Sovet səfirliyində də əsas vəzifələri öz əllərinə keçirirlər.Bir sözlə ermənilər İranda xüsusi iqtisadi, ticarət və mədəni imtiyazlar əldə edirlər. Ancaq bununla kifayətlənmirlər. Hər yerdə olduğu kimi, burada da siyasi fəaliyyəti ön plana çəkir, ermənilərə xas olan təcavüzkarlıq siyasətini daha da gücləndirirlər. Təəssüflər olsun ki, İranın "Təbriz", "Pərvəriş" kimi qəzetləri də erməni daşnaklarının dəyirmanına su tökür, türklərə, o cümlədən azəri türklərinə qarşı təbliğatda onların əlində vasitəyə çevrilirlər.

İranda erməni millətçiləri və daşnaklarının siyasi təbliğatının əsas qayəsi türk dünyasına, ilk növbədə isə Türkiyə və Azərbaycana qarşı yönəldilmişdir. İrandakı daşnaklar və mühacir ermənilər İranda hakimiyyətə gəlmiş Pəhləvi xanədanının şovinist, paniranizm və ya panariyanizm əhval-ruhiyyəsindən məharətlə istifadə etməyə çalışır, onu daha da qızışdırırdılar.

1923-cü ildə Bakıda Müsavat partiyasının gizli mərkəzi dağıdıldıqdan sonra İrana mühacirət etməyə məcbur olan M.Məmmədzadə 1927-ci ilə kimi orada yaşamışdır. Dövrünün açıqgözlü və uzaqgörən siyasi xadimlərindən olan Mirzə Bala ermənilərin İranda yeritdikləri antitürk qızışdırıcılıq siyasətini çox incəliklərinə qədər duya bilmiş və özünün "Ermənilər və İran" əsərində onu ifşa və tənqid etmişdir.

Ermənilər guya özlərinin də mənsub olduqları panariyanizm ideyasını əllərində bayraq edərək müstəqil ariyan ittifaqı yaratmağı təbliğ edirdilər ki, bu ittifaqda ermənilərə də xüsusi yer verilməli idi.

M.Mammədzadə ermənilərin İranda yeritdikləri təxribatçı paniranizm və ya panariyanizm siyasətinin mahiyyətini açaraq göstərdi ki, onların təbliğatının əsasını İranı istəmək deyil, panariyanizm bayrağı altında sərsəm Böyük Ermənistan yaratmaq işinə İranı da cəlb etmək idi. Çox maraqlıdır ki, ermənilərin həyasız təbliğatları ağ parçanı qara sapla tikməyə bənzəyir. Təəssüflər olsun ki, nə o vaxt İran hakim dairələri, nə də bu gün Rusiya rəhbərləri ermənilərin bu cür "qara sapla" tikilən siyasətini ya görmür, ya da özlərini görməməzliyə vururlar. Əslində isə ermənilərin bu siyasəti həm də həmin ölkələrin özünə qarşı yönəlib. Bu beş ildə ermənilər keçmiş SSRİ-yə və Rusiyaya qarşı nələr uydurmayıb, nə kimi iyrənc hərəkətlərə əl atmayıblar. Bunun müqabilində isə mərkəzdəki erməni lobbisinin məharətlə ələ aldığı keçmiş SSRİ-nin və indiki Rusiyanın rəhbərləri həmişə erməniləri müdafiə edib. Maraqlıdır ki, o vaxtlar da onlar İrana qarşı belə bir təbliğat aparırdılar. Əgər onların sərsəm planları baş tutsaydı, İran dövlətinin böyük bir hissəsini Böyük Ermənistana qatıb ayırmalı idilər. M.Məmmədzadə yazırdı ki, "1919-cu ildə Amerikada mühacir ermənilərin nəşr etdirdikləri "Ermənistana dair" kitabında verilmiş "Böyük Ermənistan"ın xəritəsində Ermənistanın ərazisi Trabzon və Samsonda Qara dənizə, İskəndərun körfəzində Ağ dənizə çıxdığı kimi Azərbaycanın Xəzər dənizinə yanaşır və Gəncə şəhəri yaxınından başlayaraq Kür nəhri ilə Xəzər dənizinə qədər uzanan xəttin cənubundakı Salyan, Lənkəran, Muğan, Mil,

Qarabağ, Zəngəzur, Gəncə qəzasının dağlıq hissəsini, Naxçıvan ilə Ordubadı, İran Azərbaycanından isə Astara, Ərdəbil, Qaradağ, Təbriz, Xoy, Maku, Səlmas və Urmiya tərəflərini əhatə edir. Təbrizin "Tavriz", Gəncənin "Qanzaq" olduğunu və ermənilər tərəfindən təsis edildiyini iddia etməklə nə məqsəd güddükləri aşkardır. Bir sözlə ermənilərin sərsəm "Böyük Ermənistan"ı nə az, nə də çox Türkiyə, İran və Qafqazın türklər yaşayan bütün ərazisini əhatə etməli idi.

"Bütün türkləri qırıb xalis ermənilərdən ibarət bir Ermənistan" yaratmaq kimi sərsəm ideyanı həyata keçirmək üçün hələ XX əsrin əvvəllərində bu ərazidə 10 milyondan yuxarı türkü məhv etmək lazım idi. Bu gün ermənilər Dağlıq Qarabağdakı kəndləri tutarkən onları yerlə yeksan etmək, yaxud Ermənistandakı azərbaycanlı kəndlərində qəbiristanlığa qədər bütün türk nişanələrini dağıtmaq ideyasının haradan gəldiyi məlum olur.

XX əsrin əvvəllərində Daşnaksütyunun sərsəm ideyaları özünün erməni tərəfkeşliyi ilə məşhur olan Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov tərəfindən də qeyd edilmişdir. O, yazırdı ki, Daşnaksütyunun "bu hərəkəti sırf ermənilərdən ibarət bir erməni ərazisi" yaratmaq və "gələcək Ermənistan avtonomiyası" üçün zəmin hazırlamaqdır.

M.Məmmədzadə ariyan ittifaqı yaratmağı təbliğ edənləri onların öz silahları ilə ifşa edirdi. Guya ermənilərlə kürdlərin eyni kökdən - ariyan nəslindən olduqlarını sübut etməyi çalışan ermənilər onlara lazım olanda kürdləri tərifləyir, onlara sərf etməyəndə isə onları ən yaramaz sözlərlə belə damğalayırdılar. O yerdə ki, ermənilərə sərfəli idi, onlar kürdləri İrani-nijad millətlər sırasına daxil edirdi. P.Yeğigyan yazırdı ki, İrani-nijad millətlər sırasına: "Türkiyədə kəndilərinə müstəqil bir dövlət yaratmaq üçün mübarizə edən və cahan millətləri içərisində kəndilərinə müstəqil bir mövqe qazanmağa can atan və bu yolda heç bir fədakarlıq və qurbandan qorxmayan kürdlər (?) dəxi daxildir". Varandyan adlı başqa bir erməni müəllif isə kürdlər haqqında yazırdı: "...Hər bir yaradıcı fəaliyyəti istehza ilə qarşılayan bu millətin ən namuslu işi quldurluq və ən böyük məharəti zülm və xunxarlıqdır".

Əsl erməni ikiüzlülüyü, nə qədər ki, kürdlər türklərə qarşı çıxış edir, onlar "fədakar", "qorxmaz" ariyan millətidir. O vaxt ki, onlar ermənilərə qarşı çıxış edirlər, onlar "quldur", "zülmkar", "qaniçəndirlər". Məhz bu gün də ermənilər bir tərəfdən Azərbaycanda yaşayan digər millətləri, o cümlədən kürdləri də azərbycanlılara qarşı qoymaq üçün qabıqdan çıxırlar. Digər tərəfdən isə Ermənistandakı kürdləri kütləvi surətdə qovurlar. Ermənilərin işləri ilə əməllərini müqayisə etdikdə yer üzərində belə ikiüzlü siyasət yeridən başqa millətin ola biləcəyinə şübhə edirsən. Axı hər bir hərəkətin, hər bir yalan və böhtanın da müəyyən həddi, hüdudu olar. Ermənilərin törətdikləri alçaqlığın, onların yalan və böhtanlarının hüdudu yoxdur. Bunu hələ 20-ci illərdə M.Məmmədzadə də hiss etmişdi. Birinci Dünya müharibəsi illərində ermənilərin Türkiyə, İran və Qafqazda türklərə və azərbaycanlılara qarşı törətdikləri cinayətlər hədsiz idi. Onlar Türkiyədə, İranda və Qafqazda türk millətlərinin başına nə müsibətlər açmayıblar? 1918-1920-ci illərdə Qafqazda yaranmış vəziyyətdən istifadə edərək yüz minlərlə azərbaycanlını qıran və ya öz yerlərindən qovan ermənilər İran Azərbaycanının Maku, Xoy və Urmiya əyalətlərində də azərbaycanlılara qarşı bu cür vəhşiliklər törətmişlər. M.Məmmədzadə yazır ki, Birinci Dünya müharibəsi illərində rus ordusunun İrandakı istilalarından istifadə edən ermənilərin yaratdıqları milli erməni alayları Urmiya gölü ətrafında türk əhalisini kütləvi surətdə qırır. "Urmi bəlası" deyə yad edilən bu "qanlı faciələrdə" qırılan müsəlmanların miqdarı sayagəlməz idi. O, yazırdı ki, erməni "mücahidləri" tərəfindən əsir götürülən gənc azəri qızlarından düzəldilmiş "alaylar"ın "rəsmi keçid"ləri də unudulmamışdır. Urmiya - Xoy faciələri

təsadüfi hadisə olmayıb dünyada ən qəddar Daşnaksütyun partiyasının qatı millətçilik siyasətinin tərkib hissəsi idi. Bu gün Xocalı hadisəsi ilə bu hadisələr gözlərimiz önündə bir daha təkrar olundu. Xocalı qırğını "qədim mədəni və əzabkeş" erməni millətinin vəhşi təbiətini bir daha açıqladı. Ermənilər hələ bəşər tarixində görünməmiş cinayətə, öz ölülərinin qəbrləri üzərində qadın və uşaqların gözü qabağında heç bir günahı olmayan, girov kimi ələ keçirilmiş azərbaycanlıların qurban kəsilməsi kimi vəhşiliyə əl atırlar. Bunu ancaq dünyanın ən vəhşi "mədəni milləti" edə bilər. Görəsən bu cür hərəkət sahibi olan millət özünü bəşər övladı saya bilərmi? Onların insan adlanmağa mənəvi hüquqları varmı? Bu beş ildə ermənilərin başımıza açdığı müsibətlərdə özümüzün də günahı böyükdür. Ermənilər bizə qarşı düşmənçilik təbliğatı apardığı zamanda M.Şaginyanın dediyi kimi biz Azərbaycanda erməniləri "yağ içərisində böyrək kimi" bəsləyirdik. Erməniləri ifşa edən tarixi sənədləri, "Ermənilər və İran" kimi əsərləri dəfələrlə nəşr etməli, bütün dünyaya yaymalı, ermənilərin iç üzünü açmalı, ifşa etməli idik. Təəssüflər. Min təəssüflər ki, bunu etməmişik. Ancaq yaxşı deyiblər: "haqq nazilər, amma üzülməz". Xocalı faciəsi ilə ermənilər bütün dünya qarşısında iç üzlərini açıb göstərdilər. Ancaq onlar unudurlar ki, "sirkə nə qədər tünd olsa, öz qabını çatladar".

M.Məmmədzadənin son vaxtlara qədər yeddi qıfıl altında saxlanılan "Ermənilər və İran" əsəri ərəb qrafikasından transliterasiya edilərkən müəllifin dili və üslubuna toxunulmamış, yalnız bəzi sözlər müasir tələffüz formasına uyğunlaşdırılmışdır. Axırda isə müasir oxucu üçün çətin başa düşülən sözlərin lüğəti verilir.

**Mirzəbala Məmmədzadə. Ermənilər və İran, Bakı, "Azərnəşr" 1993-cü il.**



## ERMƏNİLƏR DAĞLIQ QARABAĞA MUXTARİYYATI NECƏ VERDİRİBLƏR?

Məkrlə, hiylə və yalanla yoğrulmuş və artıq V əsrdən özlərinin dövlət müstəqilliklərini tamamilə itirərək bütün dünyaya səpələnmiş ermənilər hər yerdə özlərinə isti yuva qurmuşlar. Əslində torpaqsız, xəyalən isə özlərini dənizdən-dənizə torpaqların sahibi sayan ermənilər əsrlər boyu özləri üçün müəyyən yer seçmək, orada öz dövlətlərini yaratmağa çalışmışlar. Bunun üçün ağıla belə gəlməyən hiylə və kələklərə əl atmış, bu məqsədlə daha çox onlara yazığı gəlmiş Bizans imperiyası tərəfindən onları qırılıb məhv olmaqdan xilas etmiş türk xalqlarının yaşadığı torpaqlara göz tikmişlər. Ermənilər əsrlərlə göz tikdiyi və ələ keçirmək üçün dəridən-qabıqdan çıxdıqları, hər cür hiylə və məkrə əl atdıqları belə türk torpaqlarından biri də Qarabağın dağlıq hissəsi olmuşdur. Aramsız müharibələr, dövlətlərarası müharibə meydanı olan bu yerlərdə ermənilər İran şahlarının "səxavətindən" məharətlə istifadə edərək mülklər ələ keçirir, müxtəlif məkr və hiylələr yolu ilə həmin torpaqlarda möhkəmlənir, gələcəkdə torpaq iddiaları üçün zəmin hazırlayırdılar. Qarabağda erməni məlikləri bax beləcə yaranmışdır.

Azərbaycan ərazisinə yadellilərin, xüsusilə XVIII əsrdən başlayaraq rusların ayaq açmasının, burada möhkəmlənməyə çalışmalarının əsas təşəbbüskar və səbəbkarlarından biri də ermənilər, o cümlədən Qarabağ erməniləri olmuşlar. İstər Avropa dövlətlərinin, istərsə də Rusiyanın ermənilərə "isti münasibətində" ermənilərin satqın və ikiüzlü xisləti ilə yanaşı xristian dini məzhəbindən olmaları da böyük rol oynamışdır.

Artıq XIX əsrin əvvəllərində rusların Qafqaza gəlməsi, Rusiya-İran müharibələri nəticəsində Azərbaycan torpaqlarının parçalanmasında "xüsusi rolu olan" ermənilərin Arazın o tayından İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə köçürülməsi ilə yanaşı, həm də Qarabağın Dağlıq hissəsinin səfalı yaylalarına köçürülməsi, ermənilərin, erməni məliklərinin Rusiya imperiyasına "sədaqətlə xidmətlərinə təşəkkürün" bariz nümunəsi idi. Bu işin general P.Paskeviç tərəfindən bilvasitə Rusiya ordusunun erməni mənşəli, qatı erməni millətçisi polkovnik G.Lazarevə tapşırması fikrimizi sübut üçün kifayətdir. Çoxlu tarixi faktlar G.Lazarevin bu yolda "misilsiz xidmətlərinin" özü də həmin xidmətlərin kökündə hansı məkrli məqsədlər durduğunu göstərir. G.Lazarevin həyata keçirdiyi tədbirlər onun rus imperiyasına xidmətdən daha çox hələ o vaxtlar ermənilər tərəfindən gündəmə gətirilmiş "Böyük Ermənistan" yaratmaq ideyalarını dirçəltməyə xidmət etməkdən ibarət olmuşdur.

Artıq XIX əsrin əvvəllərindən başlayaraq ermənilər "Böyük Ermənistan" yaratmaq üçün plasdarm məqsədilə Zaqafqaziyada Azərbaycan torpaqlarına göz tikirlər. Həmin əsrin axırlarında yaranan erməni millətçi "Qınçaq", sonra isə "Daşnaksütyun" partiyaları yarandıqdan sonra bu torpaqlardan azərbaycanlıların təmizlənməsi işinin təşkilinə sistemli şəkildə başlanılır. İlk dəfə belə təmizləmə işi 1905-1907-ci illər erməni - azərbaycanlı münaqişəsi zamanı baş verir. Ermənilər bilərəkdən onların yaşayış məntəqələri ilə qonşu olan azərbaycanlı kəndlərini dağıdıb yerlə yeksan edir. Azərbaycanlıların bir daha həmin kəndlərə qayıtmasının qarşısını almaq üçün müxtəlif hiylələrə əl atır, xüsusilə onları həmişə qorxu altında saxlayaraq azərbaycanlı kəndlərini, onların ətrafındakı torpaqları boş qoymağa, bufer zonaları yaratmağa məcbur edirdilər. Sonra isə çar hakimiyyət orqanlarının əli ilə həmin torpaqlarda Türkiyə, İran və başqa yerlərdən gələn erməniləri yerləşdirməklə bu ərazilərdə ermənilərin sayını məqsədyönlü şəkildə artırırdılar.



Ermənilərin Azərbaycan torpaqlarını bu yolla ələ keçirmək üçün həmin ərazilərdə olan azərbaycanlılara qarşı soyqırımı siyasətinin həyata keçirilməsində 1914-cü ildə başlamış Birinci dünya müharibəsi və 1917-ci ildə Rusiyada baş verən inqilablar əsas katalizator rolu oynadı. Ermənilər yaranmış əlverişli şəraitdən öz məqsədləri üçün maksimum dərəcədə istifadə etdilər.

1917-ci ilin oktyabrında bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Rusiyanın müharibədən çıxması və müharibə cəbhəsində olan orduların buraxılması özlərinin əsrlər boyu etdikləri arzularını həyata keçirməkdə ermənilər üçün olduqca əlverişli şərait yaratdı. Müharibə cəbhələrindən geri qayıdan erməni əsgərləri özləri ilə bərabər döyüş, silah və sursatlarını da gətirir, burada yerli millətçi erməni zeynvor dəstələri ilə birləşərək silahsız, heç bir hərbi təcrübəsi olmayan azərbaycanlılara qarşı silahlı basqınlar təşkil edirdilər. Onlar Azərbaycan kəndlərini yandırır, dağıdır və dinc əhalini amansızlıqla qırmağa başlayırlar. Xalqımıza qarşı bu qırğınlarda S.Şaumyan başda olmaqla özünə Bakıda qurduqları sovet hakimiyyəti orqanlarında isti yuva tapan erməni daşnakları və Türkiyədən qaçmış xalqımızın və bütün türk dünyasının qatı cəlladı Andranikin "xüsusi xidmətləri" olmuşdur. Əgər S.Şaumyanın başçılıq etdiyi erməni qüvvələri Bakı, Şamaxı və Quba bölgələrində xalqımıza qanlı divan tuturdusa, bu işi Naxçıvan, Zəngəzur və Qarabağda cəllad Andranik həyata keçirirdi. Dünyanın qarışıq vəziyyətindən istifadə edərək Zəngəzurda möhkəmlənmiş Andranik dəfələrlə Qarabağa hücum etmiş, lakin öz istəyinə nail ola bilməmiş, məğlub olaraq geri oturdulmuşdu.

1918-ci il may ayının axırlarında Zaqafqaziya seymi buraxıldıqdan sonra Cənubi Qafqazda üç müstəqil Respublika - Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları elan

olundu. Həmin vaxtdan da başlayaraq yeni yaranmış Ermənistan Respublikası elə ilk gündən öz qonşularına qarşı torpaq iddiası ilə geniş hərbi əməliyyatlara başladı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin fəaliyyət göstərdiyi 23 ay ərzində özünün Ermənistanla sülh yaratmaq cəhdlərinə baxmayaraq daim Ermənistan Respublikası ilə rəsmən elan edilməmiş müharibə vəziyyətində olmuşdu. Ermənistan 1918-ci ilin dekabrında qədim Azərbaycan torpaqları olan Lori və Borçalı uğrunda Gürcüstana qarşı rəsmi müharibə elan edir. İlk əvvəl yalnız keçmiş İrəvan və Eçmiadzin qəzalarının ərazisində yaranan Ermənistan Respublikası demək olar ki, Cənubi Qafqazın çox hissəsini "tarixi erməni torpaqları" elan edərək imkan varikən bütün vəsaitlərdən istifadə edərək həmin torpaqları ələ keçirməyə çalışmışdı.

1919-cu ilin aprelində ingilis missiyasının İrəvandakı rəhbəri polkovnik Temperley Ermənistan hökumətinə müraciət edərək 1914-cü ilə qədər Rusiya dövləti daxilindəki hansı ərazini özlərinin şəriksiz "ayrılmaz hissəsi" hesab edirlər sualına Ermənistan hökuməti belə cavab vermişdi: "Bütün İrəvan quberniyası, bütün Kars vilayəti, Tiflis quberniyasının Axalkalaki və Borçalı qəzaları, Yelizavetpol quberniyasının bir hissəsi, daha dəqiq Yelizavetpol qəzasının cənub hissəsi, Cavanşir qəzasının cənub-qərb hissəsi, Şuşa qəzasının qərb hissəsi, Qaryagin (Cəbrayıl) qəzasının bir hissəsi və Zəngəzur qəzası". Göründüyü kimi Ermənistan hökuməti hətta Azərbaycan Cümhuriyyətinin mübahisəsiz torpaqlarına belə iddia irəli sürürdü.

1919-cu il yanvar ayının 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün mübahisəsiz torpaqlarında qayda-qanun yaratmaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında general qubernatorluq yaradır və Xosrov bəy Sultanovu oraya general-qubernator təyin edir.

Ermənistan Respublikası yaranan gündən demək olar ki, Güney Qafqazın müxtəlif bölgələrində təşkil edilmiş Erməni Milli Şuralarının fəaliyyətini daşnak partiyasının İrəvandan idarə edilən yerli təşkilatları tərəfindən birləşdirir və istiqamətləndirir. Dağlıq Qarabağda yaradılmış Erməni Milli Şurası Ararat Respublikası yaranan kimi Yuxarı Qarabağı həmin respublikanın ayrılmaz hissəsi olduğunu, Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmadıqlarını və onu tanımadıqlarını bildirir. Sonralar müəyyən məcburiyyət qarşısında Azərbaycan Cümhuriyyəti hökuməti ilə mədəni-milli muxtariyyat haqqında müqavilə imzalasalar da, axıra qədər onlar faktiki olaraq Azərbaycan Cümhuriyyəti hökumətini tanımaq istəməmiş, Yuxarı Qarabağda vaxtaşırı toqquşmalar törətmiş, yeni yaranmış Azərbaycan Cümhuriyəti hökuməti öz varlığı dövründə vaxtının çoxunu bu ərazidə ermənilərin törətdiyi iğtişaşların qarşısını almağa yönəltmişdir.

O da təsadüfi deyildir ki, 1920-ci ilin aprelində XI Ordu Azərbaycanı işğal edərkən Azərbaycan Cümhuriyyəti Ordusunun əsas qüvvələri Dağlıq Qarabağda erməni qiyamçılarına qarşı mübarizə ilə məşğul idi. Ola bilsin ki, bu da təsadüfi deyildi. Bəlkə də bu haqda Sovet Rusiyası ilə müəyyən sövdələşmələri var idi. Ermənistanda Sovet hakimiyyəti qurulan kimi Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Sovet Rusiyasının cəhdləri bunu sübut etmirmi ?

Nəhayət 1919-cu ilin avqustunda Azərbaycan hökuməti ilə Dağlıq Qarabağ erməniləri arasında saziş imzalanır. Dağlıq Qarabağ məsələsinin sülh konfransında müzakirə ediləcəyi nəzərə alınaraq 1919-cu il avqust ayının 15-də Qarabağ ermənilərinin 7-ci qurultayı Azərbaycan Cümhuriyyəti hökuməti ilə müvəqqəti olaraq müqavilə imzalayaraq aşağıdakı razılığa gəlirlər. Müvəqqəti müqavilə sülh konfransı tərəfindən bu məsələnin həllinə qədər qəbul edilir və konfransın qəbul etdiyi qərar hər iki tərəf üçün eyni dərəcədə məcburidir. Qarabağın Şuşa, Cavanşir, Cəbrayıl qəzalarının dağlıq hissəsinin (Dizak, Varand, Xacen və Carabert) erməni

əhalisi özlərini müvəqqəti olaraq Azərbaycan Cümhuriyyəti daxilində hesab edirlər. Şuşa, Cavanşir və Cəbrayıl qəzaları Qarabağ general-qubernatorluğu kimi xüsusi inzibati vahidə ayrılır və qubernatorluq ərazisində erməni əraziləri üçün inzibati idarə orqanları işçiləri azlıqların hüquqlarını nəzərə almaqla ermənilərdən təyin olunur. Qarabağın dağlıq hissəsində (Dizak, Xacen, Varand və Carabert) inzibati vəzifəli şəxslər erməni şurası üzvlərinin təqdimatı ilə Qarabağ general-qubernatoru tərəfindən təyin olunur. Qarabağ general-qubernatoru yanında altı nəfərdən ibarət (üç azırbaycanlı, üç erməni) şura yaradılır. Şuranın erməni üzvləri Dağlıq Qarabağ ermənilərinin qurultayı tərəfindən seçilir. Millətlərarası bütün prinsipal məsələlər əvvəlcədən bu şurada müzakirə edilmədən həyata keçirilə bilməz.

General-qubernatorun mülkü işlər üzrə köməkçisi vəzifəsi müəyyən edilir və həmin vəzifəyə erməni millətindən olan şəxs təyin olunmalı idi. Habelə həmin müqavilədə göstərilirdi ki, Azərbaycan hökuməti dağıdılmış müsəlman və erməni kəndlərinin tezliklə bərpası işində Qarabağ əhalisinə maddi və mənəvi köməklik göstərir. Müqavilə imzalandığı günə qədər millətlərarası toqquşmada iştirakına görə heç bir şəxs təqib olunmur. Qarabağ erməniləri bu hüquqlardan maksimum dərəcədə yararlanmağa çalışırdılar.

Ermənilərin bütün bu şıltaqlıqlarına baxmayaraq Azərbaycan Cümhuriyyəti hökuməti öz süqutuna qədər daimi mübahisəli ərazi məsələlərini ermənilərlə sülh yolu, danışıqlar yolu ilə həll etməyə çalışmış, əks tərəfdən isə sözdə buna razılıq verilsə də, əslində isə Ermənistan Respublikası öz süqutuna qədər Azərbaycan torpaqlarını ələ keçirmək uğrunda mübarizəni davam etdirmişdi.

Hətta 1920-ci ilin aprel çevrilişindən və XI Ordu tərəfindən Azərbaycanın işğalından sonra da ermənilər bu niyyətlərindən əl çəkməmiş, rus sovet ordusunun hücumu ilə əlaqədar ermənilər Sovet Rusiyası ilə müqavilə bağlamaq barədə çox



intensiv danışıqlar aparmışlar. Bununla əlaqədar S.Orconikidze V.Lenin, İ.Stalin və G.Çiçerinə məlumatında bildirirdi: "Bu gün Qabrelyan mənə elan etdi ki, Azərbaycan Şərur-Dərələyəz qəzası və Naxçıvan rayonundan imtina edərsə, erməni nümayəndə heyəti ***Qarabağ və Zəngəzurun*** Azərbaycana birləşdirilməsi ilə razılaşar".

Elə həmin vaxt Sovet Rusiyasının nümayəndə heyəti Leqran başda olmaqla ermənilərlə danışıqlar aparırdı. Bu danışıqların gedişi ilə əlaqədar S.Orconikidzenin G.Çiçerinə teleqramında deyilirdi: "Mənim fikrimcə Qarabağ və Zəngəzuru təcili Azərbaycanla birləşdirməli. ***Mən Azərbaycanı məcbur edərəm*** ki, bu vilayətlərin muxtariyyatını elan etsin. Bu Azərbaycan tərəfindən edilməlidi və ***heç cürə müqavilədə (Ermənistanla - Sovet Rusiyası arasında bağlanacaq müqavilə nəzərdə tutulur - A.P.) göstərilməməlidir***".

"Azərbaycan" qəzetinin 1920-ci il 2 aprel tarixli nömrəsində dərc olunmuş "Ermənistan birləşir..." başlıqlı məqalədə deyilirdi: "...Qars, İrəvan, Naxçıvan, Zəngəzur və Qarabağ başqalarının sümükləri üzərində "birləşmiş Ermənistan" yaratmaq iddiasına düşən daşnakların mübarizə proqramında yalnız ayrıca məntəqələri təşkil edir. Bu məntəqələr çoxdan Ermənistan xəritəsinə daxil edilib və indi onun rəhbərləri öz niyyətlərini yalnız həyata keçirirlər. Kim bilavasitə İrəvan hadisələrini yaşayıb, kim günün günorta çağı müsəlmanlara (azərbaycanlılara - A.P.) qarşı çəkinmədən ovu çıxan erməniləri görüb, kim ki, nə vaxtsa çiçəklənən qəzanın yerlə yeksan edildiyini görübsə, əlbəttə onlar bilirlər ki, erməni hökuməti heç vaxt Qars, Naxçıvan, Zəngəzur və Qarabağı sakit buraxmayacaqlar. Əvvəlcə İrəvan, İçmiadzen, Sürməli, Novobayazid qəzalarını müsəlmanlardan (azərbaycanlılardan - A.P.) təmizləmək lazım idi. Sözün əsil mənasında bu icra olundu. Bu gün Ermənistanın hakimiyyəti altında olan bu döyüş meydanında bir nəfər də olsun müsəlman yoxdur, onların daşınan və daşınmaz əmlaklarının



21.-3510

hamısı Hayastanın toxunulmaz fonduna daxil edilmişdir. Bu qəzalar Ermənistanın qruplaşmalı olduğu mərkəz olmalıdır."

Əvvəlcə Azərbaycanda, sonra isə Ermənistanda Sovet hakimiyyətinin qurulması ermənilərin əsrlərlə qurduqları planlarının həyata keçirmələri üçün hədsiz imkanlar yaratdı.

1920-ci il noyabr ayının 30-da Azərbaycan K(b)P Mərkəzi Komitəsi siyasi və təşkilat bürolarının Q.Kaminski, N.Nərimanov, Y.Stasova, S.Orconikidze, M.B.Qasımov, Ə.H.Qarayev, Sarkis(S.Ter-Daniselyan) V.Yeqorov, M.D.Hüseynov və A.Serebrovskinin iştirakı ilə keçirilmiş birgə iclasında Ermənistanda Sovet hakimiyyətinin elan edilməsi haqqındakı Ermənistan İnqilab Komitəsinin teleqramı müzakirə edilir.

Siyasi və təşkilat bürosu bu məsələ ilə bağlı deklarasiyanın mətnini təsdiq edir. Deklarasiyada göstərilirdi ki, Ermənistan İnqilab Komitəsinin adına təbrik məktubu göndərilir. Təbrikdə göstərilir ki, "Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasında heç bir sərhəd mövcud deyildir. Naxçıvan və Zəngəzur Ermənistana keçir. ***Qarabağın Dağlıq hissəsinə isə öz müstəqilliyini təyin etmək hüququ verilir.*** Sovet Azərbaycanı Sovet Ermənistanı ilə möhkəm hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft məsələsi xüsusi qeyd edilsin)".

Qərarda həmin deklarasiyanın elanı N.Nərimanova tapşırılır.

Ertəsi gün, yəni dekabrın 1-də Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qələbəsinə həsr olunmuş təntənəli iclası keçirilir və burada N.Nərimanov həmin deklarasiya ilə çıxış edir və öz nitqində deyir: "***Dağlıq Qarabağın zəhmətkeş*** kəndlilərinə öz müqəddəratlarının təyini üçün tam hüquq verilir."

Maraqlıdır, Qafqazın keçmiş canişini ilə müqayisədə özünü Qafqazın əsl sahibi kimi daha sərbəst aparan S.Orconikidze elə həmin iclasdakı öz çıxışında Azərbaycan K(b)P MK-nın siyasi



və təşkilat bürosunun N.Nərimanov tərəfindən elan edilmiş deklarasiyasını bilərəkdən təhrif edir. O deyir: "N.Nərimanovun çıxışı çox xarakterikdir... Zəngəzur, Naxçıvan və Qarabağ, bu sözlərin mənası ondan xəbəri olmayan ruslar üçün heç bir əhəmiyyəti yoxdur. Hansısa Zəngəzur - məhsulsuz dağlar, suyu yox, çörəyi yox. Orada heç nə yoxdur. Hansısa Dağlıq Qarabağ. Nə var bu Qarabağda? Heç nə yoxdur. Bax yoldaş Nərimanov deyir: "Onları özünüz üçün götürün. Götürün bu məhsulverməyən torpaqları Ermənistan üçün".

Maraqlıdır ki, bundan sonra S.Orconikidzenin Ermənistanın yeni rəhbərləri ilə yazışmalarında, V.Leninə, İ.Stalinə və G.Çiçerinə məktub, teleqram və birbaşa xətlə danışıqlarında deklarasiyada göstərilən "Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə öz müqəddəratlarının təyini hüququ verilir" sözləri görünür bilərəkdən tamamilə yaddan çıxarılır.

Artıq dekabrın 2-də o, Bakıdan V.Lenin və İ.Stalinə göndərdiyi məlumatda bildirirdi ki, "Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın (?) Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir".

Həmin il dekabrın 1-də bu məsələ ilə əlaqədar birbaşa rabitə ilə A.Nazaretyan ilə danışan S.Orconikidze ona yuxarıda göstərilən ərazilərin Azərbaycan tərəfindən Ermənistana güzəşt edildiyini, artıq Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında sərhədlərin mövcud olmadığını bildirir və deyir ki, "Azərbaycan özünün var-dövlətini və neftini də hər iki respublikanın sərvəti elan etmişdir". A.Nazaretyan isə ona belə cavab vermişdir: Mətbuatda car çəkməyə başlayacağıq: "Bravo azərbaycanlılar!".

Təsadüfi deyildir ki, İ.Stalin də 1920-ci il dekabrın əvvəllərində Ermənistana göndərdiyi təbrikində yazırdı: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan və ***Dağlıq Qarabağın (?)*** Sovet Ermənistanına verilməsini elan edir".

Əlbəttə, belə bir imkan əldə etmiş ermənilər bütün vəsaitlərdən istifadə edərək əsrlərlə arzusunda olduqları Dağlıq Qarabağı imkan var ikən tez bir vaxta ələ keçirməyə çalışırdılar.

1921-ci il iyunun 27-də Azərbaycan K(b)P MK-nın siyasi və təşkilat bürolarının birgə iclasında Azərbaycanın Ermənistanla sərhəd məsələləri müzakirə edilir və qeyd edilir ki, siyasi və təşkilat büroları Dağlıq Qarabağ məsələsinin yoldaş X.Bekzadyanın təklif etdiyi şəkildə həllini ümumən qəbul edilməz hesab edir, ona görə ki, Dağlıq Qarabağın iqtisadi cəhətdən Azərbaycana yönümü sözsüzdür, bu istiqamətdə də həmin məsələ həll edilməlidir. Ona görə də bu ərazilərin erməni və türk (azərbaycanlı - A.P.) əhalisinə görə müvafiq olaraq Ermənistana və Azərbaycana ayırmaq haqqında təkliflər həm inzibati və həm də iqtisadi nöqteyi-nəzərdən qəbul edilməzdir. Məsələnin gələcəkdə tam həlli yalnız N.Nərimanov tərəfindən siyasi və təşkilat bürosunun fikri haqqında verdiyi məlumata Tiflisdən cavab aldıqdan sonra yenidən baxıla bilər.

Elə həmin gün Tiflisdə RK(b)P Qafqaz ölkə bürosunun üzvləri S.Orconikidze, S.Kirov, Y.Fiqatner, Gürcüstanın xarici işlər komissarı Savanidze, ASSR-in xarici işlər komissarı M.Hüseynov, Az.MİK-in sədri M.Hacıyev, Gürcüstanın xalq hərbi dəniz komissarı Ş.Eliavanın iştirak etdiyi iclasda M.L.Hüseynovun Dağlıq Qarabağ məsələsi haqqında N.Nərimanovla danışıqlarını müzakirə edərək qərara alır ki, Qafqaz bürosunun təcili plenumunu çağırmaq və N.Nərimanov və A.Myasnikov yoldaşlara aşağıdakı məzmunda məktub göndərmək: "RK(b)P Qafqaz bürosunun rəyasət heyəti təklif edir ki, bunu (məktubu - A.P.) alan kimi təcili olaraq Qafqaz bürosunun təcili iclasına yola düşəsiniz. Gündəlik respublikaların sərhəd məsələləri haqqındadır. Tiflisdə Qafqaz bürosunun 6 üzvü var. Siz gəlmədiyiniz halda da Tiflisdə olan Qafqaz bürosunun 6 üzvünün qərarı məcburi hesab



ediləcəkdir. Ona görə də sizin təcili gəlməyinizi təkidlə tələb edirik".

Bu məktubdan da görünür ki, özünü Qafqaz Respublikalarının mütləq hakimi sayan S.Orconikidze xalqımız üçün bu qədər həyati əhəmiyyəti olan məsələləri zor işlətmək yolu ilə Ermənistanın xeyrinə necə də asanlıqla həll etmək istəyirdi. Görünür ki, ermənilər tam əmin idilər ki, artıq Dağlıq Qarabağ Ermənistan SSR-ə veriləcəkdir. Buna görə də Ermənistan nümayəndəsi kimi, A.Muravyanı Dağlıq Qarabağa müvəkkil göndərir. Bu isə azərbaycanlılar arasında böyük narazılığa səbəb olur.

1921-ci il iyun ayının 28-də XKS-in N.Nərimanovun sədrliyi ilə keçən iclasında "Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsi və bununla əlaqədar Azərbaycan Xalq Komissarları Soveti ilə yanaşı Ermənistan tərəfindən A.Muravyanın Qarabağa müvəkkil təyin olunması barədə məsələyə baxılaraq qərara alınır ki, bu məsələnin müzakirəsi ilə bağlı yol. N.Nərimanovun RK(b)P Qafqaz bürosunda iştirakı üçün Tiflisə getməsi ilə əlaqədar olaraq Az.KP MK siyasi və təşkilat bürosunun bu məsələ barədə 1921-ci il 27 iyun tarixli qərarı əsas kimi qəbul edilsin".

1921-ci il iyulun 4-də RK(b)P MK-nın üzvü İ.Stalinin iştirakı ilə Qafqaz bürosunun üzvləri S.Orconikidze, F.Maxaradze, N.Nərimanov, A.Myasnikov, S.Kirov, A.Nazaretyan, M.Oraxelaşvili və Y.Fiqatnerin iştirakı ilə RK(b)P MK Qafqaz bürosunun axşam iclasında Qarabağ ilə əlaqədar məsələyə baxılır. Bu məsələnin müzakirəsi zamanı ciddi fikir ayrılığı ortaya çıxır və onlar səsə qoyularkən aşağıdakı kimi səs qazanır: Qarabağı Azərbaycanın tərkibində saxlamaq ***lehinə*** N.Nərimanov, F.Maxaradze və A.Nazaretyan səs verir. Bu təklifin ***əlehinə*** S.Orconikidze, A.Myasnikov, S.Kirov (?!), Y.Fiqatner səs verirlər.

Bu məsələ ilə bağlı bütün Qarabağda yaşayan həm azərbaycanlı, həm də erməni əhalisi arasında rəy sorğusu

keçirməyin lehinə yalnız N.Nərimanov və F.Maxaradze səs verirlər.

Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsinin lehinə isə S.Orconikidze, A.Myasnikov, Y.Fiqatner, S.Kirov (?!) səs verirlər.

Rəy sorğusunun yalnız Dağlıq Qarabağın erməni əhalisi arasında keçirmək təklifinə isə S.Orconikidze, A.Myasnikov, Y.Fiqatner, S.Kirov (?!), A.Nazaretyan səs verirlər.

Beləliklə, Qafqaz bürosunun iclasında Dağlıq Qarabağın Ermənistan SSR-ə daxil edilməsi və rəy sorğusunu isə yalnız Dağlıq Qarabağ əhalisi, yəni əsasən ermənilər arasında keçirmək haqqında qərar qəbul edilir.

Bu qərarla əlaqədar o vaxt Azərbaycanın mütləq sahibi və hakimi olan, əslində özünün rəhbərlik etdiyi respublikaya qarşı açıqdan-açığa bu qədər təhqiramiz münasibət bəsləyən S.Kirovun hərəkətlərinə heç cür haqq qazandırmaq olmur. Belə bir şəxs 70 il Azərbaycanda V.İ.Lenindən sonra xalqımızın ən sədaqətli dostu kimi qələmə verilmiş, təbliğ edilmiş, Bakının ən görkəmli yerində ona əzəmətli heykəl ucaldılaraq az qala bütə çevrilərək Azərbaycanda hər şey onun adı ilə bağlanmış və adlandırılmışdır. S.Kirov xalqımızın bax belə "sədaqətli" dostu idi. Yaxşı deyiblər belə dostu olana düşmən lazım deyil.

Məsələ bu şəkil aldıqda N.Nərimanov Qarabağın Azərbaycan üçün həyati əhəmiyyətini nəzərə alaraq həmin məsələnin son həllini RK(b)P Mərkəzi Komitəsinin müzakirəsinə təqdim etmək haqqında məsələ qaldırır və bununla əlaqədar olaraq qəbul edilmiş qərarda deyilirdi ki, Qarabağ haqqında məsələ ilə bağlı ciddi fikir ayrılığı yaranması ilə əlaqədar RK(b)P MK Qafqaz bürosu həmin məsələ haqqında son qərar qəbul etmək məsələsini RK(b)P Mərkəzi Komitəsinin müzakirəsinə keçirməyi vacib hesab edir.

Lakin görünür ki, İ.Stalinin təsiri ilə, yaxud hansısa başqa səbəbdən bu məsələ RK(b)P MK-nın müzakirəsinə



verilməyərək ertəsi gün, yəni 1921-ci il iyulun 5-də İ.Stalinin və RK(b)P MK Zaqafqaziya bürosunun yuxarıda göstərilən üzvlərinin tam heyətində keçirilən iclasında yenidən baxılır. S.Orconikidze və A.Nazaretyan Qarabağ haqqında keçən gün baxılmış məsələyə yenidən baxmağı təklif edirlər. Müzakirələr nəticəsində plenum bu məsələ barədə aşağıdakı məzmunda qərar qəbul edir: "Müsəlmanlar (azərbaycanlılar - A.P.) və ermənilər arasında milli sülhün vacibliyi mövqeindən çıxış edərək, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini nəzərə alaraq ***Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlayaraq ona Muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri Mərkəz olmaqla geniş*** vilayət muxtariyyatı hüququ verilsin".

Bu qərarın lehinə 4 nəfər səs verir, 3 nəfər isə bitərəf qalır.

Həmin iclasda Dağlıq Qarabağa Muxtariyyat verilməsi haqqında qəbul edilmiş qərarda deyilirdi: "a) Azərbaycan [K(b)P] Mərkəzi Komitəsinə tapşırılsın ki, Muxtar vilayətin sərhədlərini müəyyən etsin və təsdiq üçün RK(b)P Mərkəzi Komitəsi Qafqaz bürosunun təsdiqinə versin; b)[RK(b)P] MK Qafqaz bürosu Rəyasət Heyətinə tapşırılsın ki, Ermənistan K(b)P Mərkəzi Komitəsi və Azərbaycan [K(b)P] Mərkəzi Komitəsi ilə Dağlıq Qarabağ Fövqəladə Komissiyasına namizədlər haqqında danışıqlar aparsın; v) Azərbaycan [K(b)P] Mərkəzi Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisini müəyyən etsin və təsdiq üçün [RK(b)P] Mərkəzi Komitəsi Qafqaz bürosuna təqdim etsin".

1921-ci il iyul ayının 19-da Azərbaycan MİK-in rəyasət heyətinin iclasında N.Nərimanov Tiflisdə Sovet respublikaları Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd məsələlərinin müəyyənləşdirilməsinə həsr edilmiş yığıncaqda iştirakı barədə məlumat verir. O deyir: "Sovet Konstitusiyası çərçivəsində vilayət icraiyyə komitəsi başda olmaqla daxili özünüidarə hüququ verilməklə Dağlıq Qarabağ Sovet Azərbaycanının ayrılmaz hissəsi kimi qalacaq".

Həmin il iyulun 20-də Az.K(b)P MK-nın siyasi və təşkilat bürosu Qarabağın "Konstitusiyasını hazırlamaq üçün" Xalq Daxili İşlər Komissarlığı, Xalq Ədliyyə Komissarlığı və Xalq Xarici İşlər Komissarlığının nümayəndələrindən ibarət komissiya yaradır.

L.Mirzoyan başda olmaqla Azərbaycanda məsul rəhbər vəzifələrdə olan ermənilər Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi sahəsində gizli fəaliyyət göstərərək Qarabağ məsələsinin səngiməsinə heç cür yol vermək istəmirdilər. Belə ki, 1921-ci il avqust ayının 1-də Dağlıq Qarabağın Kendxurt kəndində qırx yeddi nümayəndənin, Xalq Komissarları, Sovetinin nümayəndəsi L.Mirzoyanın, Şuşa qəzası daxili işlər şöbəsi müdirinin və ikinci sahə icraiyyə komitəsi üzvlərinin iştirakı ilə qurultay keçirilərək burada Qarabağ məsələsi müzakirə olunur. Demək olar ki, bu dövrdə əvvəllər ermənilərin bütün dünyada qloballaşdırdıqları "erməni məsələsi" indi SSRİ daxilində Ermənistan Sovet Respublikası yarandığı bir şəraitində, onun ərazilərini genişləndirmək üçün "Qarabağ məsələsi" kimi yeni qondarma bir məsələ də gündəliyə gətirilir. Sonrakı tarixi hadisələr göstərdi ki, bu heç də təsadüfi deyilmiş. Qarabağın Ermənistana birləşdirilməsi yolunda "Daşnaksütyun" partiyasının çoxdan məqsədyönlü şəkildə hazırlayaraq həyata keçirmək istədiyi proqramın ayrılmaz tərkib hissəsi idi. Fərq orda idi ki, bu ideya kommunist cildinə girmiş daşnaq xislətli ermənilər tərəfindən Sovet beynəlmiləlçiliyi bayrağı altında irəli atılır və həyata keçirilirdi. Özü də çox müvəffəqiyyətlə həyata keçirilirdi.

Həmin qurultayda məruzəçi kimi çıxış edən L.Mirzoyan elan edir ki, bu məsələ rəsmən müzakirəyə qoyulmur. Bu müzakirə yalnız kəndlilərin bu haqda fikirlərini öyrənmək məqsədi daşıyır. O, sübut edir ki, "iqtisadi, mənəvi, siyasi və milli nöqteyi nəzərdən Qarabağ sıxı surətdə Azərbaycanın mərkəzi (Bakı) ilə bağlıdır. Artıq bu faktorlar məsələni müəyyən edir ki, biz Qarabağı hansı siyasi quruma aid edək".



Beləliklə, L.Mirzoyan Dağlıq Qarabağa Muxtariyyat verilməsi haqqında Zaqafqaziya ölkə partiya təşkilatının qərarını özü bildiyi və ermənilərə sərfəli şəkildə izah edir. O, keçid şəraitində ***dağlıq hissəsinin əhalisinə (yəni ermənilərə - A.P.)*** milli zülm ediləcəyinin mümkünlüyünü də istisna etmirdi, lakin erməniləri müvəqqəti "dözümlülüyə" çağırırdı.

Eyni zamanda o, elə həmin il avqust ayının 8-də Azərbaycan K(b)P MK-ya və surətini RK(b)P MK Qafqaz bürosuna göndərdiyi məktubunda Dağlıq Qarabağda vəziyyəti tənzimləmək üçün bir sıra konkret tədbirlərin müəyyən edildiyini, o cümlədən də "Bütün Dağlıq Qarabağı müstəqil inzibati vahid kimi ayıraraq Mərkəzə - Az.MİK-ə və Xalq Komissarları Sovetinə, partiya xətti ilə Az.K(b)P MK-ya tabe edilsin". N.Nərimanov sonralar bu məsələ ilə bağlı "Ucqarlarda inqilabımızın tarixinə dair İ.V.Stalinə məktubunda yazırdı: "Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyatın əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. L.Mirzoyan bu müddət ərzində ***erməni daşnak müəllimlərinin köməyi ilə zəmin hazırladı*** və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi".

1921-ci il sentyabrın 26-da Az.K(b)P MK-nın siyasi və təşkilat bürosu yenidən "Qarabağ işi" deyilən məsələni müzakirə edərək qərar qəbul edir ki: "Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın ayrılması haqqında qərarına yenidən baxsın, buna qədər muxtariyyat elan olunmasın".

Siyasi və təşkilat bürosunun qəbul etdiyi həmin qərarın başqa maddəsində deyilirdi ki, bu məsələ haqqında materiallar toplamaq üçün Ə.H.Qarayev, S.M.Əfəndiyev, Stukalov və L.Mirzoyandan ibarət xüsusi komissiya yaradılsın və onlara tapşırılsın ki, Az.MİK-in sessiyası qurtaran kimi təcili olaraq Qarabağa getsinlər.

1921-ci il oktyabr ayının 21-də Qarabağ bölgəsinin (Şuşa, Cavanşir, Qubadlı və Qaryagin qəzaları) məsul işçilərinin Az.K(b)P Mərkəzi Komitəsi təşkilat bürosu üzvləri D.Bünyadzadə, L.Mirzoyan və Ə.H.Qarayevin iştirakı ilə keçirilən konfransda çıxış edənlər belə fikir söyləyirlər ki, "Dağlıq Qarabağın ayrıca muxtar vilayətə ayrılması məqsədə müvafiq hesab edilməsin".

1921-ci il dekabrın 10-da Az.K(b)P MK-nın xəbərlərində "Qarabağ məsələsi" başlığı ilə dərc olunmuş yazıda deyilirdi ki, bu məsələ ilə bağlı keçirilən konfransda müəyyən olunmuşdur ki, "***Qarabağ məsələsi" deyilən hər hansı bir ayrıca məsələ yoxdur***, o Qarabağ partiya və sovet orqanlarının ümumi zəifliyindən doğan fikirdi".

Lakin L.Mirzoyan başda olmaqla kommunist cildinə girmiş erməni daşnakları heç cür öz niyyətlərindən əl çəkmək istəmirdilər. Zaqafqaziya Federasiyasının təşkili ilə əlaqədar müəyyən müddət həlli ikinci plana keçirilmiş Dağlıq Qarabağa Muxtariyyat verilməsi məsələsi 1922-ci ilin oktyabrında SSRİ-nin yaradılmasına hazırlıq getdiyi bir zamanda yenidən gündəliyə gətirilir. 1922-ci il oktyabr ayının 27-də RK(b)P Zaqafqaziya Diyar Komitəsi rəyasət heyətinin A.Myasnikov, M.Oraxelaşvili, S.Orconikidze, S.Kirov və S.Yaqubovun Ermənistan K(b)P MK katibi İonesyanın iştirakı ilə keçirilən iclası A.Karakozovun məruzəsi əsasında bu məsələyə yenidən baxaraq qərara alır ki, "RK(b)P MK Qafqaz bürosunun 5 iyul 1921-ci il tarixli Qarabağa muxtariyyat verilməsi haqqındakı qərarını icra etmək üçün Az.K(b)P MK-ya təklif edilsin ki, bu qərarı həyata keçirsin".

Həmin il oktyabrın 30-da keçirilən Az.K(b)P MK Rəyasət Heyətinin Qarabağa Muxtariyyat verilməsi məsələsini hazırlamaq üçün Komissiya yaradılması haqqında məsələyə baxır və S.Ağamalı oğlunun sədrliyi ilə A.Karakozov və Sviridovdan ibarət komissiya yaradır. Maraqlıdır ki, elə həmin gün Az.K(b)P Mərkəzi və Bakı Komitələrinin məsul işçilərinin iştirakı ilə keçirdiyi plenumda müzakirə olunan birinci məsələ Azərbaycanın Zaqafqaziya Federasiyası vasitəsi ilə Sosialist Sovet Respublikaları İttifaqına daxil olmaq, ikinci məsələ isə "Dağlıq Qarabağın Muxtariyyatı haqqında" idi.

Daşnak ideologiyasına məharətlə yiyələnmiş, ciblərində kommunist partiyasının üzvlük biletləri olan ermənilər harda necə hərəkət etməyi gözəl bacarırdılar. 1922-ci il dekabrın 15-də Az.K(b)P MK rəyasət heyətinin S.Kirov, M.Xanbudaqov, R.Axundov, Ə.H. Qarayev, M.C.Bağırov və M.B.Qasımovun (tərkibə fikir verin, bu işin əsas təşəbbüskarı L.Mirzoyan yoxdur - A.P.) iştirakı ilə keçirilən iclasında yenidən Qarabağ haqqında məsələyə baxılır. Bu dəfə məsələ RK(b)P Zaqafqaziya diyar komitəsinin qərarı əsasında Az.MİK və XKS-nin kommunist fraksiyaları və A.Karakozov tərəfindən qaldırılırdı. Görünür, tapşırıq artıq çox ciddi olduğu üçün iclas 11 maddədən ibarət geniş qərar qəbul edir. Qərarda deyilirdi: a) RK(b)P Zaqafqaziya Diyar Komitəsinin qərarı icra üçün qəbul edilsin; b) Azərbaycan SSR XKS-i yanında ***Kirov, Mirzabekyants və Karakozovdan*** ibarət tərkibdə Dağlıq Qarabağ işləri üzrə Komissiya təsdiq edilsin; v) 7 nəfərdən ibarət Dağlıq Qarabağ işləri üzrə komitə təsdiq edilsin; Karakozov sədr, 3 qəza icraiyyə komitələrinin - (Şuşa, Cəbrayıl və Cavanşir) sədrləri və 3 nəfər üzvünü isə yoldaş A.Karakozov MK Katibi ilə birlikdə müəyyən edərək Rəyasət heyəti tərəfindən təsdiq olunur və Sovet orqanları tərəfindən həyata keçirilir; q) Az.MİK-ə və XKS-nə təklif edilsin ki, Dağlıq Qarabağ işləri üzrə Komissiya və Komitənin təşkili haqqında dekret elan etsinlər".

Bu qərarın yerinə yetirilməsi ilə bağlı dekabrın 16-da Az.MİK və XKS-i M.B.Qasımov, D.Bünyatzadə və M.Xanbudaqovun imzası ilə Dağlıq Qarabağ haqqında qərar elan edilir. Qərarda deyilirdi: "Dağlıq Qarabağda bütün sahələrdə - Sovet, təsərrüfat və mədəni quruculuq sahəsində əhalinin ehtiyaclarını aşkar etmək, onları tezliklə və tam

şəkildə təmin etmək məqsədilə Az.MİK-i və ASSR Xalq Komissarları Soveti qərara alır: 1) Az. SSR Xalq Komissarları Soveti yanında S.Kirov, A.Karakozov və Mirzabekyantsdan ibarət Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılsın; 2) Eyni zamanda Şuşa şəhərində 7 nəfərdən ibarət Qarabağ işləri üzrə komitə yaradılsın. Buraya A.Karakozov (sədr), Şadunts, Tavakelyan, Parziyan və Şuşa, Cəbrayıl və Qaryagin qəzalarının sədrləri, üzvlər təyin edilsinlər; 3) Komitəyə hüquq verilir ki, bilavasitə və müstəqil şəkildə Azərb. SSR-in bütün Mərkəzi idarələri ilə əlaqə yaratsın; 4) Texniki işləri Komitə yerli icraiyyə komitələri vasitəsilə həyata keçirir".

1922-ci il dekabrın 17-də Azərb.SSR Xalq Komissarları Sovetində Dağlıq Qarabağ haqqında Az.MİK və XKS-nin qərarının layihəsinə baxılaraq qərara alınır ki, komissiyaya təklif edilsin ki, iki həftə müddətində smeta tərtib etsin və Xalq Komissarları Sovetinə təqdim etsin.

1923-cü il yanvarın 2-də Xalq Komissarları Soveti tərəfindən Dağlıq Qarabağ işləri üzrə Komitənin üç nəfərdən ibarət ştatı təsdiq edilir.

L.Mirzoyan başda olmaqla ermənilər Dağlıq Qarabağla əlaqədar işləri çox məharətlə düzüb qoşurdular. Guya Dağlıq Qarabağda kadr çatışmadığı üzündən 1923-cü il yanvarın 22-də S.Kirov və A.Karakozovun imzası ilə Ermənistan K(b)P MK katibi İonesyana teleqram göndərilərək Qarabağda işləmək üçün Tavakelyanı, Akopyanı, Aydınyanı, Vartanyanı, Axtınskini və Sero Manutsyanı ezam etmək xahiş olunurdu.

Həmin il yanvarın 30-da S.Kirov RK(b)P Zaqafqaziya Diyar Komitəsinə, A.Myasnikovun adına göndərdiyi gizli və təcili teleqramda yuxarıda göstərilən teleqramı təkrarlayaraq yazırdı: "Xahiş edirik, Qarabağda işləmək üçün Ermənistandan Tavakelyanı, Akopyanı, Aydınyanı, Vartanyanı, Axtınskini və Sero Manutsyanı ezam edəsiniz. Kadrlarla işi möhkəmləndirmədən Qarabağda işləri nizamlamaq mümkün deyil".



Həmin il aprelin 21-də Az. K(b)P MK Rəyasət Heyəti Tavakelyan və Parizyanın əvəzinə Çalyan və Manutsyanı Qarabağ Komitəsi tərkibinə əlavə etməyi qərara alır və bu işi sovetlər xətti ilə həyata keçirmək vəzifəsini XKS-nə tapşırır.

Həmin il aprelin 25-də Az.SSR XKS-i Tavakelyan və Parizyanın əvəzinə Qarabağ Komitəsinin tərkibinə Çalyan və Manutsyanı keçirmək haqqında qərar qəbul edir.

"Erməni daşnak müəllimlərinin köməyi" (N.Nərimanov) və Azərbaycanın "böyük hamisi" S.M.Kirovun xeyir-duası ilə L.Mirzoyanın Dağlıq Qarabağ Muxtar vilayəti elan etmək yolundakı təşəbbüsü 1922-ci ilin dekabrında N.Nərimanov "təntənəli surətdə" Moskvaya "yüksək vəzifəyə" yola salındıqdan sonra daha rəvan gedir.

1923-cü il iyun ayının 27-28-də keçirilən RK(b)P Zaqafqaziya Diyar Komitəsinin plenumu yenidən bu məsələni geniş müzakirə edir. Ən acınacaqlı cəhət o idi ki, axı o vaxtlar Ermənistan SSR-də azərbaycanlıların kompakt yaşadığı ərazilər daha çox idi. Bu iclaslarda iştirak edən heç olmasa bir nəfər də olsun azərbaycanlı tapılmır ki, Ermənistanda yaşayan azərbaycanlılar üçün də belə bir muxtariyyat verilməsi məsələsini qaldırsın. Görünür onlar üçün tutduqları vəzifə milli məsələ və vətən torpaqlarından daha şirin idi.

RK(b)P Zaqafqaziya Diyar Komitəsinin üzvləri - Ginzburq, M.D.Hüseynov, Kaxiani, Ə.H.Qarayev, M.B.Qasımov, S.M.Kirov, Lukaşin, F.Maxaradze, L.Mirzoyan, Mixaylov, Q.Musabəyov, A.Myasnikov, M.Oraxelaşvili, S.Orconikidze, M.Pleşakov, V.Strua, M.Tsxakaya, Eliava və S.Yaqubovun iştirak etdiyi həmin plenumda Qarabağ komitəsinin üzvləri S.Şatunts və A.Karakozovun məruzələri əsasında iki gün davam edən müzakirələr nəticəsində plenum qərara alır: "Az.K(b)P MK-ya tapşırılsın ki, bir ay müddətində Dağlıq Qarabağı Muxtar vilayətə ayırsın, ayrılan rayonların kəndliləri üçün torpaq və suyun bölünməsi işi həyata keçirilsin".

Elə həmin il iyulun 1-də AK(b)P MK Rəyasət heyətinin S.Kirov, L.Mirzoyan, Ə.Qarayev, Q.Musabəyov, R.Axundovun iştirakı ilə keçən iclası "Qarabağ haqqında" məsələyə baxaraq bu haqda çox geniş qərar qəbul edir. Qərarda Az.MİK-ə təklif olunurdu ki, rəyasət heyəti adından Xankəndi Mərkəz olmaqla Dağlıq Qarabağda İcraiyyə komitəsinin başçılığı ilə "Qarabağ Muxtar vilayəti yaradılsın. Həmin dekretdə göstərilsin ki, sərhəd və s. məsələlər xüsusi komissiya tərəfindən müəyyən ediləcək. Gələcəkdə İcraiyyə Komitəsi yaradılana qədər Qarabağı idarə etmək üçün A.Karakozovun sədrliyi ilə 5 nəfərdən ibarət İnqilab Komitəsi yaradılsın. İnqilab Komitəsinə tapşırılsın ki, iki aydan gec olmayaraq Sovetlər qurultayı çağırsın. Ə.H.Qarayevin sədrliyi ilə A.Karakozov, Sviridov, Ç.İldırım və D.Bünyatzadədən ibarət komissiya yaradılsın. Komissiyaya tapşırılırdı ki, 1) Muxtar vilayətin sərhədlərini; 2) Kürdüstanın Əsasnaməsini; 3) Aran Qarabağın inzibati bölgüsünü müəyyən etsin və bir həftə müddətində bu barədə öz rəyini bildirsin. Mərkəzi Komitənin təbliğat şöbəsinə isə tapşırılırdı ki, bu məsələ barədə istər azərbaycanlı, istərsə də erməni əhalisi arasında geniş izahat işləri aparsın.

Az.MİK-nin iyulun 4-də keçirilən iclasında "Dağlıq Qarabağ haqqında" məsələyə baxılır. Qəbul edilmiş qərarda deyilirdi: "a)Qarabağın Dağlıq hissəsindən Xankəndi Mərkəz və İcraiyyə Komitəsi başda olmaqla Muxtar Qarabağ vilayəti yaradılsın; b)Gələcəkdə İcraiyyə Komitəsi təşkil edilənə qədər Dağlıq Qarabağı idarə etmək məqsədilə yol. A.Karakozov başda olmaqla İnqilab Komitəsi yaradılsın; v) İnqilab Komitəsinə tapşırılsın ki, iki aydan gec olmayaraq Sovetlər qurultayı çağırsın; q)yol. Ə.Qarayevin sədrliyi A.Karakozovun, Sviridovun, Ç.İldırımın və D.Buniatzadənin üzvlüyü ilə komissiya yaradılsın. Komissiyaya tapşırılsın ki, 1) Muxtar Qarabağın sərhədlərini; 2) Aran Qarabağın inzibati bölgüsünü; 3) Kürdüstanın Əsasnaməsini müəyyən etsin".



Nəhayət həmin il iyul ayının 7-də ermənilərin uzun illərdən bəri arzularında olduqları "Dağlıq Qarabağ Muxtar vilayətinin yaradılması haqqında" Azərbaycan MKİ-i dekret elan edir. Dekretdə deyilirdi: "1) Dağlıq Qarabağın erməni hissəsindən Az.SSR-in tərkib hissəsi kimi Xankəndi mərkəz olmaqla Muxtar vilayət yaradılsın; 2) Muxtar vilayətin idarə orqanları Vilayət İcraiyyə Komitəsi və yerli Sovetlərdi; 3) Vilayət İcraiyyə Komitəsi təşkil olunana qədər müvəqqəti İnqilab Komitəsi yaradılsın və ona tapşırılsın ki, iki aydan gec olmayaraq daimi icraiyyə orqanı seçmək üçün Sovetlər qurultayı çağırsın".

Həmin dekretin 4-cü maddəsinə əsasən vilayətin Əsasnaməsini hazırlamaq və Qarabağ Muxtar vilayətinin inzibati vahidlərini və sərhədlərini müəyyən etmək üçün hakimiyyəti orqanları nümayəndələrindən ibarət qarışıq komissiya yaratmaq və həmin komissiyaya öz işini avqustun 15-nə qədər başa çatdırmaq işi tapşırılırdı.

Maraqlıdır ki, "Bakinski raboçi" qəzeti özünün 1923-cü il iyulun 19-cu nömrəsində dərc etdiyi "Qarabağ Muxtariyyatı" məqaləsində deyilirdi: "Dağlıq Qarabağın Muxtariyyatı haqqında Az.MİK-in dekreti Zaqafqaziya xalqları arasında qardaşcasına həmrəyliyin müəyyən edilməsi tarixində böyük əhəmiyyət kəsb edir." (B.R. 1923, 19 iyul).

Lakin tarixi hadisələr tamamilə bunun əksini sübut etdi. Sübut etdi ki, Azərbaycan rəhbərliyində özlərinə isti yuva tapmış L.Mirzoyan və onun kimi daşnak xislətli ermənilərin Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirmək niyyətləri baş tutmadıqda, bu əraziyə Muxtar vilayət statusu verdirməklə gələcəkdə həmin torpaqları Ermənistana birləşdirmək üçün zəmin hazırlayırdılar. Ən maraqlı məsələlərdən biri də budur ki, keçmiş Qubadlı qəzasının ərazisində "Kürdüstan qəzası" yaratmaq ideyası da elə bu vaxtlar meydana çıxmışdı. Məkrli daşnaksütyunun ərazi iddialarını Azərbaycanda həyata keçirən erməni kommunistləri böyük qardaşları rusların: "Parçala,

hökm sür!" siyasətindən məharətlə istifadə edərək imkan varikən Azərbaycanın ərazilərini ya ələ keçirir, ya da parçalayaraq gələcək hücumları üçün zəmin hazırlayırdılar. "Kürdüstan qəzası" ideyası da bu zəmində meydana gəlmişdi. Bu ideyanın təşəbbüskarları həmin ərazidə yaşayan azərbaycanlılarla kürdlər arasında narazılıqlar yaratmaq, nifaq toxumları əkmək məqsədi güdən ciblərində kommunist partiyasının üzvlük biletini daşıyan ermənilər idi.

Səksəninci illərdə ermənilərin canfəşanlıqla "Qırmızı Kürdüstan" ideyasını qabartması, bu vasitədən istifadə edərək Laçın dəhlizini ələ keçirmək üçün etdikləri həyasızlıqlar buna əyani sübutdur.

1923-cü il iyul ayının 21-də Azərbaycan MİK Rəyasət heyəti və Azərb.SSR XKS-in birgə iclasında D.Bünyatzadə Qarabağ məsələsinə aid komissiyanın məruzəsi ilə çıxış edir. Həmin məruzənin müzakirəsi əsasında qəbul edilmiş qərarda deyilirdi: "a) Dağılmış Skobelevski cəmiyyətinin Rus kəndlərinin ərazisi Muxtar Qarabağın ərazisinə daxil edilsin; b) Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə daxil edilsin; v) Qarabağın aran hissəsində iki qəza yaradılsın; q) Kürdlərin sakin olduqları ərazidə "Kürdüstan qəzası" yaradılsın; d) Xalq Komissarları Sovetinə tapşırılsın ki, bu qəzaların dəqiq sərhədlərini və inzibati mərkəzlərini müəyyən etsin; e) Dağlıq Qarabağ Muxtar Vilayətinin İnqilab Komitəsi 5 nəfərdən ibarət təşkil edilsin; Sədr yol. Karakozov, üzvlər - Biniatov, Kostanyan, Kafiyev və Çalyan; j) Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamənin son variantının hazırlanması işi Karakozov, Biniatov, Çalyan, Vareykis və Manutsyandan ibarət komissiyaya tapşırılsın. Komissiyanı yığmaq işi yol. Karakozova həvalə edilsin, bir həftəlik iş vaxtı müəyyən edilsin; z) Az.MİK adından bu muxtariyyatın məqsəd və əhəmiyyəti haqqında Azərbaycan kəndlilərinə müraciətlə çıxış etmək məqsədə müvafiq hesab edilsin".



1923-cü il iyulun 24-də Az.MİK və XKS-nin qərarı ilə vilayət Sovetlərinin I-ci qurultayı çağrılana qədər Dağlıq Qarabağ Muxtar Vilayətini idarə etmək üçün aşağıdakı tərkibdə müvəqqəti İnqilab Komitəsi yaradılır. İnqilab Komitəsinin sədri A.Karakozov; üzvləri isə M.Çalyan, S.Manutsyan, B.Biniatov və K.Kafiyev təyin edilir.

Elə həmin qərarla Dağlıq Qarabağ işləri üzrə komitə ləğv olunaraq onun bütün işləri, avadanlığı və ona məxsus olan fondlar İnqilab Komitəsinə verilir.

Az.K(b)P MK rəyasət heyəti həmin il iyulun 30-da S.Kirovun sədrliyi ilə keçən iclasında Dağlıq Qarabağın ayrıca vilayətə ayrılması ilə əlaqədar olaraq Kürdüstan, Cəbrayıl və Ağdam qəzalarının sərhədlərini təsdiq edir. Pirican kəndi Kürdüstanın qəza mərkəzi müəyyən edilir. Cəbrayıl qəzasının mərkəzi isə Qaryagindən Cəbrayıla köçürülür, Ağdamın qəza Mərkəzi Ağdam şəhəri hesab olunur.

1923-cü il iyulun 31-də S.Manutsyanın Şuşadan Bakıya S.Kirovun adına göndərdiyi teleqramda deyilirdi: "Şuşa vətəndaşlarının çoxsaylı mitinqi Qarabağa Muxtariyyat verilməsini bəyənən qətnamə qəbul edərək, Sovet hakimiyyətinin milli siyasət xəttinin düzgünlüyü qeyd edilir".

Maraqlıdır ki, elə həmin il iyul ayının 31-də Az.MİK-in elan etdiyi "ASSR-də dövlət idarələrinin milliləşdirilməsi haqqında"kı dekretdə respublika əhalisinin çoxluğunun dili olan türk (Azərbaycan - A.P.) dili bütün respublikada rəsmi dövlət dili elan edildiyi halda, həmin dekretin 9-cu maddəsində göstərilirdi ki, "Qarabağ Muxtar vilayətində əlaqə ***dili erməni dilidir***".

1924-cü il noyabrın 24-də dərc edilmiş "Dağlıq Qarabağ Muxtar vilayəti haqqında Əsasnamə"də isə bu fikir daha da genişləndirilərək göstərilirdi ki, "Dağlıq Qarabağ Muxtar vilayətində bütün kargüzarlıq, məhkəmə işləri və məktəblərdə təhsil ***ana dilində (yəni erməni dilində - A.P.)*** aparılır."

1923-cü ilin iyul ayında Dağlıq Qarabağ Muxtar vilayətinin əsasnaməsini hazırlayan,Dağlıq və Aran Qarabağ, habelə Dağlıq Qarabağ və Kürdüstan arasında sərhədləri müəyyən edən və Aran Qarabağ və Kürdüstanın inzibati idarə formasını və inzibati bölgülərini müəyyən edən komissiyanın iclası keçirilir. Komissiya ilk məsələ olaraq "Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsasnaməsi" haqqında məsələyə baxır və qərara alır ki, bu Əsasnamə üçün RSFSR Quberniya icraiyyə komitələri haqqında 1923-cü ildə təsdiq olunmuş Əsasnamə əsas kimi qəbul edilsin və tətbiq olunsun. Vilayətdə bütün kargüzarlıq, məhkəmə işi və məktəblərdə təhsil ana dilində (erməni dilində - A.P.) aparılır".

Komissiya həm də "Dağlıq və Aran Qarabağ, Dağlıq Qarabağla Kürdüstan arasında sərhəd məsələlərinə, habelə Dağlıq Qarabağ ərazisinə daxil ediləcək kəndlərin sərhədləri haqqında" məsələyə də baxır. Komissiyanın bu məsələyə baxaraq Dağlıq Qarabağın ərazisinə Cavanşir qəzasından 45, Şuşa qəzasından 92, Qubadlı qəzasından isə 32 - cəmi 169 erməni və azərbaycanlı kəndlərinin daxil edilməsi haqqında qərar qəbul edir.

Bu qərarda bir məsələyə xüsusi diqqət yetirməliyik ***"Dağlıq Qarabağ ərazisinə aşağıdakı erməni və türk (azırbaycanlı - A.P.) kəndləri daxil edilsin."*** Yuxarıda göstərildiyi kimi Dağlıq Qarabağın ərazisində erməni dili rəsmi danışıq dili elan edilirdi. Belə olduğu şəraitdə Dağlıq Qarabağın ərazisinə daxil edilmiş onlarla azərbaycanlı kəndlərinin azərbaycan əhalisinin hüquqlarının tapdanması haqqında heç bir söz deyilmirdi. Öz vətənlərində demək olar ki, zorla ermənilərə tabe edildikləri bəs deyilmiş kimi, Dağlıq Qarabağ Muxtar Vilayəti idarə orqanlarında azərbaycanlılar nəyə görə burada rəsmi dil elan edilmiş erməni dilində danışmalı və yazışmalı idilər? Arxivlərimizdə Dağlıq Qarabağın təşkili ilə bağlı məsələlərin müzakirəsinə aid sənədlərdə bir dəfə də olsun sual verilmir ki, Dağlıq Qarabağ Muxtar Vilayətindəki Azərbaycan kəndlərinin, azərbaycanlı əhalisinin hüquqları niyə pozulmalıdır?



Maraqlıdır ki, komissiya Aran Qarabağın idarə formasını və inzibati bölgüsü məsələsini müzakirə edərkən təklif edir ki, Aran Qarabağda da Vilayət İcraiyyə Komitəsi yaradılsın və onun tərkibinə Cavanşir, Şuşa, Qubadlı və Qaryagin qəzalarının aran hissəsi daxil edilsin. Orada RSFSR quberniyaları haqqında 1923-cü il Əsasnaməsi tətbiq olunsun. Aran Qarabağın rayonlaşdırılması Az.MİK yanında xüsusi komissiyaya həvalə edilsin.

Lakin görünür komissiyanın bu təklifi bəyənilmir və 1923-cü il avqust ayının 6-da Az.MİK-nin əmri ilə "Qarabağın dağlıq hissəsinin Muxtar Vilayətə ayrılması ilə əlaqədar Qarabağın qalan hissəsindən - Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılır. Həmin əmrlə bu qəzaların və qəza mərkəzləri də müəyyən edilir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaranan kimi vilayət inzibati orqanları, xüsusilə tamamilə ermənilərdən ibarət Az.K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsi xüsusi fəallıqla işə başlayır. Artıq 1923-cü il sentyabr ayının 18-də keçirilən vilayət partiya komitəsinin iclası Xankəndinin adını dəyişdirərək xalqımızın qəddar düşməni Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırır.

Maraqlıdır ki, S.Kirov başda olmaqda Az.K(b)P MK katibliyi Dağlıq Qarabağ Muxtar Vilayəti Əsasnaməsini tezliklə elan etməyi Az.MİK-dən təkidlə tələb edirdi. Bu onun həmin il sentyabrın 11-də Az.MİK-in katibi M.Xanbudaqova, sentyabrın 24-də isə MK katibi Çaqinin M.Xanbudaqova məktublarında öz əksini tapmışdır.

Həmin il oktyabr ayının 8-də isə Az.K(b)P MK Rəyasət heyətinin iclasında yenidən Dağlıq Qarabağın Muxtar Vilayətə çevrilməsi haqqında MK qərarının həyata keçirilməsi, məsələlərini yoxlayan komissiyanın məruzəsi müzakirə olunaraq, bu məsələ haqqında geniş qərar qəbul edilir.

Bütün bu müzakirələri diqqətlə izlədikdə görürük ki, bu məsələnin belə təkidlə və təcili surətdə həll edilməsinə

çalışılmanın arxasında hansısa çox nüfuzlu qüvvələr dayanaraq, onu istiqamətləndirirdilər. Bütün bu istinad etdiyimiz sənəd və materiallardan göründüyu kimi bu işin arxasında S.M.Kirovun əziz xələfi olan L.Mirzoyan və onun əlaltıları durduğu halda iş elə təşkil edilirdi ki, heç yerdə onun izi görünmür, kölgədə qalırdı. Əslən qarabağlı olan bu adam hər şeyi çox məharətlə istiqamətləndirirdi. Əlbəttə, burada o vaxt Zaqafqaziya ölkə partiya komitəsində, xüsusilə İ.Stalin və S.Orconikidzenin yanında əsas nüfuz sahibləri olan A.Myasnikov, A.Nazaretyan, Moskvada A.Mikoyan, L.Karaxanyan və başqa bu kimi ermənilərin fəaliyyətini də yaddan çıxartmaq olmaz. N.Nərimanov yazırdı: "Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleini ***erməni daşnaklarına tapşırır***".

1923-cü il oktyabrın 18-də Dağlıq Qarabağ Muxtar Vilayətinin vilayət Sovetlər qurultayı və İcraiyyə Komitəsinin Əsasnaməsinə baxan komissiyanın iclası keçirilir. İclasda Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri haqqında Əsasnamədə dəyişikliklər haqqında məsələlərə baxılır.

Komissiyanın iclası qərara alır ki, Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnaməni dəyişdirərək Dağlıq Qarabağ Muxtar Vilayəti vilayət Sovetlər qurultayı və İcraiyyə Komitəsinin əsasnaməsi adlandırılsın. Lakin sənədlərdən göründüyü kimi sonralar bu təklif qəbul edilməmiş, Əsasnamə elə Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə kimi qalmışdır.

Burada bir məsələyə də xüsusi diqqət yetirmək lazımdır. O da Şuşa şəhərinin hər vasitə ilə Dağlıq Qarabağda faktiki Mərkəz olmaq statusunun getdikcə heçə endirilməsi idi. 1921-ci il iyul ayının 5-də RK(b)P MK Zaqafqaziya bürosu Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaq haqqında qərar qəbul edərkən Şuşa şəhəri mərkəz olmaqla belə bir qurumun yaradılmasını tövsiyə etmişdi. Maraqlıdır ki, sonralar bu qərar



unudularaq Xankəndi mərkəz olmaqla muxtar vilayət yaratmaq ideyası ortaya atılır. Bu da təsadüfi deyildi. Görünür Şuşada azərbaycanlılar çoxluq təşkil etdiyi üçün ermənilərin öz millətçilik planlarını istədikləri kimi həyata keçirməyə imkan verilməyəcəyini duyurdular. Ona görə də Muxtar Vilayətin Mərkəzini bilərəkdən kiçicik bir qəsəbəyə köçürürdülər ki, burada erməniləri məqsədyönlü şəkildə yerləşdirərək gələcəkdə öz çirkin niyyətlərini həyata keçirmək üçün zəmin hazırlasınlar. Sonrakı hadisələr bunu bir daha sübut etdi.

1923-cü il dekabrın 11-də Az.K(b)P MK rəyasət heyəti "Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsasnaməsi"ni yenidən işləmək üçün A.Karakozov, T.Şahbazi, B.Vəlibəyov, M.C.Bağırov və Sərkisovdan ibarət komissiya yaradır. Komissiyaya rəhbərlik T.Şahbaziyə tapşırılır.

1924-cü il iyul ayının 1-də Az.K(b)P MK rəyasət heyətində Dağlıq Qarabağ haqqında Əsasnamənin son variantını hazırlamaq üçün komissiya yaradılması haqqında məsələyə baxılaraq qərara alınır ki, "Dağlıq Qarabağ Muxtar Vilayəti Əsasnaməsinin son variantını redaktə etmək üçün M.C.Bağırov(sədr), Teymur Əliyev və A.Karakozov yoldaşlardan ibarət komissiya yaradılsın. Komissiya öz işini gün müddətində başa çatdıraraq Az.K(b)P MK rəyasət heyətinin təsdiqinə versin".

Həmin il iyul ayının 3-də Az.K(b)P MK rəyasət heyəti Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsasnaməsinə baxaraq qərara alır: "Əsasnamə layihəsi bəyənilsin. Az.MİK-in rəyasət heyətinə təklif edilsin ki, layihə təcili olaraq Sovet orqanlarından keçirilsin - türk (azərbaycan - A.P.), erməni və rus dillərində dərc edilsin".

Nəhayət 1924-cü il noyabr ayının 26-da Az.MİK-in qərarı ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə" mətbuatda dərc edilir.

Bu Əsasnamənin 1-ci maddəsi ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkib hissəsi elan edilir".

Onun 2-ci maddəsində "Dağlıq Qarabağda bütün kargüzarlıq, məhkəmə və məktəbdə təhsilin doğma dildə (yəni erməni dilində - A.P.) aparılması" qeyd olunurdu.

Əsasnamənin başlıca bölmələrindən biri Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi haqqındakı bölmədir. Burada Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinə Şuşa qəzasından - Şuşa və Stepanakert (Xankəndi) şəhərlərinin və 110 kəndin, Cavanşir qəzasından 52 kəndin, Qaryagin qəzasından - 30 kəndin, Qubadlı qəzasından isə Qaladərəsi kəndinin - cəmi 193 kəndin verildiyi qeyd olunurdu. Maraqlı faktlardan biri də budur ki, 1923-cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyat verilməsi haqqında dekret elan olunarkən ona daxil olacaq kəndlərin sayı 169 idi. Bu müddət ərzində ermənilər həmin kəndlərin sayı üzərinə 24 kənd də əlavə etdirə bilmişdilər. Görünür buna görə də muxtariyyatın elanı haqqında dekret verildikdən təxminən il yarım sonra onun əsasnaməsi təsdiq olunmuş və elan edilmişdir.

1925-ci ildə Q.A.Köçaryan "Dağlıq Qarabağ" adlı kitabında Dağlıq Qarabağın 4 rayonunda - Dizakda - 48, Varanda - 46, Xaçendə - 65 və Crabetdə isə 63 kənd, yəni cəmi 222 kənd olduğunu qeyd edir. Şuşa qəzasının Dağlıq hissəsindən Şuşa şəhəri də daxil olmaqla 120 kənd, Cavanşir qəzasından 55 kənd, Qaryagin qəzasından Hadrut da daxil olmaqla 31 kənd və Qubadlı qəzasından isə bir neçə kənd daxil edilmişdir. (Cəmi 206 kənd göstərilir).

Əsasnamədə göstərilirdi ki, Dağlıq Qarabağ muxtar Vilayəti ərazisində hakimiyyət Sovetlər qurultayı, Mərkəzi İcraiyyə Komitəsi və yerli Sovetlərə məxsusdur. Muxtar vilayətdə ali hakimiyyət ildə bir dəfədən gec olmayaraq çağrılan Sovetlər qurultayına məxsusdur. Qurultaylar arası müddətdə isə bütün hakimiyyət Sovetlərin Mrəkəzi İcraiyyə Komitəsinə (MİK) keçir. Sovetlər qurultayının və DQMV MİK-nin qərarlarını yerinə yetirmək üçün MİK - Xalq Komissarları Soveti yaradır ki, o da vilayətin idarəsini həyata keçirir. Əsasnaməyə görə



Vilayət MİK-in sədri həm də XKS-in sədri idi. Bu əsasnamə ilə vilayətdə ayrı-ayrı sahələrin idarəsi üçün Daxili İşlər, Ədliyyə, Maarif, Səhiyyə, Əkinçilik Komissarlıqları, Mərkəzi Statistika İdarəsi və Xalq Təsərrüfat Şurası yaradılır. Habelə vilayətdə Respublika Xalq, Əmək və Maliyyə Komissarlıqlarının, fəhlə-kəndli nəzarəti müfəttişlikləri yaradılır. Əsasnamədə həmin təşkilatların hüquqi vəzifələrini də müəyyən edilmişdir. Bu Əsasnamə həm də yerli hakimiyyət orqanlarının hüquq və vəzifələrini müəyyənləşdirirdi.

Beləliklə də Azərbaycanın dilbər guşəsi olan Yuxarı Qarabağda muxtariyyat şəklində yeni bir erməni qurumu meydana gəldi. Ola bilsin ki, o vaxt bəzi azərbaycanlılar bununla da ərazimizdə erməni məsələsinin həll olunduğunu düşünürdülər.

Lakin "Böyük Ermənistan" yaratmaq azarına tutulmuş ermənilər bu torpaqların Ermənistana birləşdirilməsi iddiasından heç vaxt əl çəkməmişdilər. Onlar marığa yataraq əlverişli məqam gözləyirdilər. Azərbaycan hökumətinin Dağlıq Qarabağ Muxtar Vilayəti üçün lazım olan bütün güzəştlərə getməsinə baxmayaraq ermənilər yenə də razı qalmırdılar. Onlar bütün vasitələrdən istifadə edərək Dağlıq Qarabağda ermənilərin sıxışdırıldığını, hüquqlarının pozulduğunu nəzərə çarpdırmaq istəyirdilər. Muxtar vilayətdə isə erməni əhalisi arasında Ermənistanla birləşmək ideyası daim diqqətdə saxlanılır və gizli şəkildə öz təbliğatlarını davam etdirirdilər.

Təsadüfi deyildir ki, zaman-zaman ermənilər Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi ideyasını rəsmi və qeyri rəsmi şəkildə qaldırır, bu ideyanı heç vaxt yaddan çıxmağa qoymurdular. Məsələn, 1945-ci ilin noyabrında Ermənistan Kommunist partiyası Mərkəzi Komitəsinin katibi H.Arutyunov Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında rəsmi məktubla İ.Stalinə müraciət edir. Öz xahişini o belə bir yalan məlumatla əsaslandırmağa

çalışırdı ki, guya Dağlıq Qarabağ Ermənistan SSR-lə həmsərhəddir və onun iqtisadiyyatı Ermənistanın iqtisadiyyatı ilə sıx bağlıdır. Həyasızlıq o yerə çatır ki, əgər həmin məsələ müsbət həll olunarsa, onda Ermənistan hökumətinin Qarabağın keçmiş mərkəzi və 1920-ci il hadisələri zamanı dağıdılmış Şuşa şəhərinin bərpası haqqında hazırlanmış əlavə təkliflərinin də mərkəzi hökumətə təqdim edəcəyini bildirirdi. Həmin məktubu İ.Stalin G.Malenkova ünvanlayır. G.Malenkov isə öz növbəsində onu cavab üçün Azərbaycan SSR rəhbərliyinə göndərir. Dağlıq Qarabağın tarixi və onun əzəli Azərbaycan torpaqları olması barədə ətraflı və əsaslandırılmış arayış hazırlatdıran M.C.Bağırov G.Malenkova məktubunun sonunda bildirirdi ki, Şuşa rayonunu çıxmaq şərtilə Azərbaycan hökuməti təklifə etiraz etmir. Bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlıların yığcam yaşadığı, Azərbaycanla sərhədd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də Azərbaycan SSR-ə qaytarılsın. Vəziyyətin bu cür mürəkkəbləşdiyini görən "ulu rəhbər" bu təklifin gələcək inkişafına nöqtə qoyur. Ermənilərin bu yolda atdıqları bir ox da daşa dəyir.

Ancaq erməniləri tanıyan və onların tarixinə yaxından bələd olan hər bir kəs bilir ki, erməni-erməni olmazdı, əgər bir oxu daşa dəydikdə ikincini, üçüncünü və s. atmasın. Onlar N.Xruşşovun vaxtında da bu məsələni qaldırsalar da, bir nəticə əldə edə bilmədilər. Nəhayət tək Azərbaycan xalqını deyil, keçmiş Sovetlər İttifaqında yaşayan bir çox xalqları qanlı mübarizə girdabına yuvartlamış avantürist M.Qorbaçovun hakimiyyəti dövründə onun köməyindən və bədnam "yenidənqurma" siyasətindən istifadə edən ermənilər öz istəklərinə nail oldular. B.Yeltsinin hakimiyyəti illərində isə onlar böyük havadarlarının köməyi ilə təkcə Dağlıq Qarabağın işğalı ilə kifayətlənməyib bütün ətraf rayonları da ələ keçirdilər. Bu gün ermənilər Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş, bir milyondan yuxarı azərbaycanlını qaçqın



və köçkün vəziyyətinə salmışlar. Yazıq, mağmın və əzabkeş cildinə girmiş vəhşi erməni vandalları XX əsrin axırlarında xalqımıza qarşı əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı kimi qanlı faciəni törətdilər. Bütün bunları görən dünya isə susur, ermənilərin bu vəhşiliyini görməməzliyə vurur. Ancaq qoy nə erməni vandalları buna sevinsin, nədə onların havadarları elə bilməsinlər ki, bu cür nahaq qanlar yerdə qalacaq. Yox! Təcavüzkara qarşı tarixin hökmü tez, ya gec, həmişə axır nəticədə amansız olmuşdur. Əminik ki, yenə də belə olacaqdır. Mütləq olacaq! Buna əminik.

**"Azərbaycan" qəzeti,**
**4, 11, 14 mart 2001-ci il, № 52, 56, 58.**

# ERMƏNİLƏRİN ƏRAZI İDDİALARI NECƏ YARANMIŞDIR?

*(Sənədlərin izi ilə)*

Hələ erkən orta əsrlərdə öz dövlətçiliklərini tamamilə itirərək bütün dünyaya dağılmış ermənilər o vaxtdan başlayaraq min beş yüz ilə yaxın bir dövrdə zaman-zaman öz dövlətçiliklərini bərpa etməyə cəhd göstərsələr də, heç bir müvəffəqiyyət əldə edə bilməmişlər. Yalnız XX əsrdə Birinci dünya müharibəsi, keçmiş Çar Rusiyasının süqutu və onun yerində yeni Sovet imperiyasının yaranması ermənilər üçün belə bir əlverişli şans yaratdı.

XVIII əsrdən Qafqazı, o cümlədən Güney Qafqazı ələ keçirmək üçün geniş hərbi fəaliyyətə başlayan Çar Rusiyası artıq XIX əsrin birinci yarısında öz istəklərinə tamamilə nail ola bildi. Çar Rusiyası ilə İran arasında gedən müharibələr nəticəsində bağlanan 1813-cü il 12 oktyabr tarixli Gülüstan və 1828-ci il 10 fevral tarixli Türkmənçay müqavilələri nəticəsində Güney Qafqaz tamamilə Rusiyanın əlinə keçdi.

Ermənilərin Güney Qafqazda çoxalması və möhkəmlənməsinin əsas səbəbi rus çarizminin bu ərazidə yeritdiyi xristianlaşdırmaq siyasətinin nəticəsi idi. Rus Çarizminin bu siyasətindən bəhs edən P.İ.Şavrov özünün "Güney Qafqazda Rus işinin yeni təhlükəsi" adlı kitabında yazırdı: "Biz Güney Qafqazda müstəmləkəçilik fəaliyyətimizi oraya rusları köçürməklə deyil, başqa dindən olanları köçürməklə başladıq. 1826-1828-ci illərdə iki il davam etmiş müharibə qurtardıqdan sonra 1828-1830-cu ilə kimi Güney Qafqaza İrandan 40 mindən yuxarı, Türkiyədən isə 84600 nəfər köçürdük və onları Yelizavetpol (keçmiş Gəncə - A.P.)



və İrəvan quberniyalarının ***erməni əhalisinin çox cüzi olduğu ən yaxşı dövlət torpaqlarında yerləşdirdik***" (Bax: N.İ.Şavrov, göstərilən əsəri səh. 59).

N.İ.Şavrov sonra qeyd edirdi ki, erməniləri yerləşdirmək üçün 200 min desyatindən çox dövlət torpaqları ayrılmış, habelə müsəlmanlardan 2 milyon manatlıqdan yuxarı xüsusi torpaqlar da pulla alınaraq ermənilərə paylanmışdır.

N.İ.Şavrovun yazdığından da göründüyü kimi gəlmə ermənilər keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə yanaşı, həm də Yelizavetpol quberniyasında Qarabağ və Zəngəzurun dağlıq bölgəsində və Göyçə gölünün sahillərindəki səfalı yaylaqlarda yerləşdirilmişlər. N.İ.Şavrov yazırdı ki, rəsmi köçürülmüş 124 min nəfər erməni ilə yanaşı 10 minlərlə erməni ailələri də qeyri-rəsmi surətdə Güney Qafqaza axışmışlar. O, qeyd edirdi ki, ***"XX əsrin əvvəllərində Güney Qafqazda yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu yerli əhali olmayıb Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlərdi"***. (N.İ.Şavrov. göstərilən əsəri, səh. 60-61).

Güney Qafqazda Rusiyanın köməyi ilə ermənilər özlərinə yer eylədikcə əl-qol açmağa, dünən qabaqlarında müti qul kimi dayandıqları qonşularına qarşı ərazi iddialarına başladılar. Onlar Türkiyənin Şərq əyalətlərində və Güney Qafqazın azərbaycanlılar yaşadığı torpaqlarda özlərinin sərsəm "Böyük Ermənistan!" yaratmaq xülyalarını reallığa çevirmək yoluna qədəm qoydular.

Qərbi Avropa ölkələri və Rusiyadakı inqilabi yüksəlişlərin təsiri altında ermənilər də artıq XIX əsrin 80-90-cı illərində siyasi cəhətdən təşkilatlanmağa başlayırlar.

Hələ 1887-ci ildə bir qrup erməni millətçisi Cenevrədə "Hnçak" ("zəng") adlı partiya yaradırlar. 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" ("İttifaq") adında qatı burjua-millətçi erməni faşist partiyası meydana gəlir. Bu partiyaların XIX əsrin axırlarından başlayaraq başqa millətlərə, xüsusilə türk

soyundan olan millətlərə qarşı törətdikləri qanlı cinayətlər öz coğrafi əhatəsinə və qəddarlıq dərəcələrinə görə tarixdə bu qəbildən olan hadisələr sırasında xüsusi yer tutur. Erməni millətçi partiyalarının, xüsusilə "Daşnaksütyun" partiyasının terror və təxribat xarakterli əməlləri bütün Güney Qafqazı, Osmanlı imperiyasının Anadolu və Avropa hissəsini, İranın Azərbaycan türklərinin yaşadığı əraziləri əhatə edirdi.

1909-cu il aprel ayının 15-də "Daşnaksütyun" partiyasının fəaliyyəti il əlaqədar Qafqaz canişini dəftərxanasından Bakı şəhər rəisinin adına göndərilmiş məlumatda bu qatı millətçi qrup haqqında ətraflı məlumat verilirdi. Orada deyilirdi ki, "Daşnaksütyun", "Azad böyük Ermənistanı" bərpa etmək məqsədi güdərək öz istəyinə çatmaq üçün əsas üsullardan biri kimi öz proqramında ümumi silahlı üsyan və özünün nizami ordusunu yaratmaq yolunu seçib. "Daşnaksütyun" zinvorlardan (əsgərlərdən - A.P.) ibarət öz ordusunu yaratmaq işinin əsasını hələ 16 il bundan əvvəl, 1892-ci ildə özünün birinci qurultayı zamanı qoyub. Partiyanın vəsaiti hesabına bu orduya zinvorlar cəlb etmək və onları silahlandırmaq işi bu günə qədər də müntəzəm surətdə davam etdirilir". (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA) f.524, siy. 1, iş 57, vər. 7).

Rusiya və Türkiyə ermənilərinin vahid, ümumi vətəni - "Böyük Ermənistan" yaradılması kimi sərsəm ideyalar mövqeindən çıxış edən "Daşnaksütyun" səylə öz qüvvələrini erməni millətinin bütün zümrələri arasında millətçilik meyllərini qızışdırmağa, ermənilərdə başqa millətlərə, xüsusilə türklərə qarşı düşmənçilik və nifrət hissi aşılamağa yönəldilmişdir. Bu işdə "Daşnaksütyun" partiyası ən iyrənc mübarizə və təbliğat üsullarından belə çəkinmirdi.

Erməni millətçiləri XIX əsrin 90-cı illərinin axırlarında Türkiyənin Sasun və digər vilayətlərində fitnəkar çıxışlar təşkil edirlər. Rusiyanın Van və Ərzurumdakı Baş Konsulu V.Mayevskinin, erməni keşişi T.Geğemyansın və başqalarının verdikləri məlumatlara görə bu ərazilərdəki milli qırğınların



təşəbbüskarları həmişə erməni millətçiləri, xüsusilə də Rusiyadan Türkiyəyə gedən ermənilər olmuşlar. Ən maraqlı fakt odur ki, həm V.Mayevski, həm də T.Geğemyans ermənilər arasında millətçilik təbliğatının yayılmasında erməni ruhanilərinin və erməni kilsələrinin rolunu xüsusi vurğulamışlar. V.Mayevski yazırdı: "Onların (erməni keşişlərinin - A.P.) dini fəaliyyəti olduqca cüzidir. Lakin bunun əvəzində onlar həmişə millətçilik ideyalarını himayə etmək zəminində əlindən gələni əsirgəmədən səylə çalışırlar... ermənilər arasında millətçilik ideyaları yüz illiklər ərzində bir-birindən uzaq, lakin saysız-hesabsız monastrların himayəsi altında olmuşdur". (Rusiyanın Van və Ərzurumdakı baş konsulu V.Mayevskinin xatirələri. Bakı, 1994, səh. 11.)

Maraqlıdır ki, Yelizavetpol qubernatoru A.Kalaçov 1907-ci il avqustun 9-da "Daşnaksütyun" partiyasının fəaliyyəti ilə bağlı Qafqaz Canişini qraf İ.Vorontsov-Daşkovun tapşırığı ilə hazırladığı geniş məlumatda (Bax: Rusiya Federasiyası Dövlət Tarix Arxivi (RFDTA) f. 841, siy. 7, iş 290, vər 38-49) bu partiya, onun ermənilər arasında millətçilik təbliğatının əsas daşıyıcısı olması, sosial-demokratiya ideyalarına onun münasibəti, Qafqazda, o cümlədən də Yelizavetpol quberniyasında "Daşnaksütyun" partiyasının özəkləri və onların fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir. Onu da qeyd edək ki, Yelizavetpol qubernatorunun bu məlumatından həm Qafqaz Canişini dəftərxanasının xüsusi şöbəsində, həm də Rusiya daxili işlər nazirliyi polis departamentində hazırlanmış arayış və oçerklərdə geniş istifadə edilmişdir. (Bax: ARDTA. f.524, siy. 1, iş 57, vər. 3-9; "Daşnaki (iz materialov departamenta polisii)" Bakı, 1990.

Yelizavetpol qubernatoru yazırdı: "Millətçilik erməni xalqının çox dərinlərdən gələn başlıca milli xüsusiyyətdir. Hər bir erməni özünü hamıdan - rusdan, gürcüdən, tatardan (azərbaycanlıdan - A.P.) yüksək, ağıllı, bic, xeyirxah və bacarıqlı hesab edir... Millətçilik, öz dininə, dilinə sədaqət,

acgözlük, ehtiyatlılıq, hər şeyə qadir pula inam, var-dövlət və kapital qarşısında səcdanı kult dərəcəsinə qaldırmaq - bax budur erməni xislətinin başlıca xüsusiyyətləri". (RFDTA: f. 841, siy. 7, iş 290, vər. 238).

Yelizavetpol qubernatoru qeyd edirdi ki, buna görə də hər hansı bir təlim və təbliğatın ermənilər arasında müvəffəqiyyət qazanması üçün o ermənilərin yuxarıda göstərilən milli ruhuna söykənməlidir. Belə ki 1903-cü il iyunun 12-də Eçmiadzin kilsəsinə məxsus əmlakın müsadirəsinə dair Rus çarı tərəfindən qəbul edilmiş fərman daşnakların güclü millətçilik təbliğatı üçün göydəndüşmə bəhanə olur. Çar fərmanında "kilsə əmlakı və kapitalından" gələn gəlirin yalnız kilsənin ehtiyacları üçün istifadəsinə dövlətin nəzarət edəcəyinə dair qəti göstərişi uzun əsrlər boyu Eçmiadzin kilsəsinin bütün sərvəti və əmlakını istədikləri kimi istifadə etmiş erməni ruhaniləri tərəfindən qəzəb və hiddətlə qarşılanır. "Daşnaksütyun" bu narazılıqdan məharətlə istifadə edir. Yelizavetpol qubernatoru yazırdı ki, "Daşnaksütyun" sinfi mənsubiyyətindən asılı olmayaraq bütün erməni xalqını - kəndliləri, mülkədarları, sərmayədarları, fəhlələri, tələbələri, ruhaniləri və erməni millətindən olan dövlət qulluqçularını öz ətrafında birləşdirir. Bu illər Güney Qafqazda Rusiyaya və ruslara qarşı elə bir alçaq hərəkət yox idi ki, ermənilər onu alqışlamasınlar, Rusiyaya qarşı təbliğatda zəhmət və pul sərf etməsinlər. Hər cür avara, quldur, başkəsən, adam öldürən əgər Rusiyanın əleyhinə idisə, o erməni varlısının imarətində, yoxsulunun isə kasıb komasında, monastrların küncündə ən əziz qonaq kimi qəbul edilirdi.

1903-cü ildə Güney Qafqazda erməni zinvorları tərəfindən yüzlərlə cinayətlər törədilir. Onlar bir sıra ucqar bölgələrdə hakimiyyəti ələ keçirir, qatarları, dəmir və şose yollarını, körpüləri partladır, yüksək rütbəli dövlət məmurlarını, polis və jandarm nümayəndələrini, nüfuzlu ictimai xadimləri, hətta jurnalistləri belə terror yolu ilə qətlə yetirirdilər. Bir-birinin ardınca general Əlixanov, qubernatorlar Nakaşidze, Andreyev, polkovniklər Bıkov, Saxarov və onlarla başqa hökumət məmurları erməni terrorunun qurbanı olur. Yelizavetpol qubernatoru yazırdı ki, özü də bu qətllər "ağlagəlməz dərəcədə həyasızlıqla, izdihamlı və müxtəlif zümrədən olan erməni güruhunun gözləri qarşısında həyata keçirilirdi. Lakin onların arasında heç vaxt qatili ifşa edə biləcək bir nəfər də olsun belə şahid tapılmırdı". (RFDTA: f. 841, siy. 7, iş 290, vər. 38). Nəticədə çox vaxt erməni mətbuatı özlərinin təşkil etdiyi bu sui-qəsd hərəkətlərinin günahını həyasızcasına azərbaycanlıların üzərinə atmağa çalışır, hadisə yerində zinvorların öldürülməsini isə daşnak təbliğatı "bədbəxt erməni millətinin növbəti faciəsi" kimi qələm verir, göz yaşı axıdırdılar.

Respublika Dövlət Tarix Arxivində ermənilərin təkcə azərbaycanlılara qarşı deyil, həm də Güney Qafqazdakı çar hakimiyyət orqanlarına qarşı tətbiq etdiyi bu cür xəbis "mübarizə üsullarını" sübut edən çoxlu sənədlər qorunub saxlanılır. Onlardan yalnız birini 1905-ci ilin mayında Bakı polismeysterinə göndərilmiş və polismeyster tərəfindən isə Bakının müvəqqəti general-qubernatoruna istiqamətləndirilmiş intibahnaməni oxucuların nəzərinə çatdırmaq istərdik. Bu Erməni İnqilabi Federasiyasının Qafqaz Məsul Komitəsi tərəfindən mətbəə üsulu ilə çoxaldılaraq Güney Qafqazda olan inzibati-idarə işçiləri arasında vahimə yaratmaq üçün yayılmış intibahnamədir. Orada deyilirdi: "Erməni İnqilabi Federasiyası bununla bütün qorodovoylara, strajniklərə, məhəllə nəzarətçilərinə, sahə pristavlarına, qəza rəislərinə, polismeysterlərə, jandarm və axtarış polisinə və yuxarıların əmrlərini yerinə yetirən bütün başqalarına elan edir ki, bundan sonra Güney Qafqazda hər hansı erməni əhalisindən silahları almaq məqsədilə axtarışlar aparmağa və həbs etməyə təşəbbüs göstərsələr amansızlıqla və rəhimsizcəsinə məhv ediləcəklər. Qoy onların hər biri bu cür hərəkət etməzdən əvvəl Bakı

qubernatoru Nakaşidzeni, Yelizavetpol vitse-qubernatoru Andreyevi, qəza rəisləri - Boquslavskini, Şmerlinqi, Naşşanskini, Pavlovu, polismeyster Saxarovu, pristavlar - Cavaxovu, Şumakeviçi, məhəllə nəzarətçisi - Ter-Saakovu, qorodovoy Sergeyevi, dalandar Şeqonu və çoxlu-çoxlu başqalarını yada salsınlar. Rəisdən 25 rubl mükafat, yaxud inqilabçıdan güllə - baxın nəyin arasında seçim etməlisiniz. Canişin zərərçəkənlərin ailələrini təmin etməyə söz verir. Bu bizim üçün daha yaxşı, çünki günahı olmayan ailəni köməksiz qoymaq haqqında fikir inqilabçının əlinin əsməsinə səbəb ola bilərdi - indi bu maniə də aradan qalxmışdır". (ARDTA: f. 484, siy. 3, iş 4, vər. 209).

Bu intibahnamə bir daha sübut edir ki, ermənilər öz məqsədlərinə çatmaq üçün necə çirkin əməllərə, qəddar üsullara əl atırlar. Onlar dünya mətbuatında özlərinin törətdikləri rəzalətləri başqalarının üzərinə atmağa çalışsalar da, özlərinin buraxdıqları bu cür intibahnamələrlə bir daha özlərinin əsl erməni sifətlərini göstərmişlər. Bu intibahnamə hələ XX əsrin əvvəllərindən ermənilərin terror yolunu tutduğunu, bu gün törətdikləri terror hərəkətlərinin təsadüfi olmadığını sübut edir. Onu sübut edir ki, bəlkə də dünya tarixində "Daşnaksütyun" yeganə partiyadır ki, yarandığı ilk gündən öz nizamnaməsində terroru siyasi mübarizə metodu səviyyəsinə qaldırmış, terrordan gen-bol istifadə etmişdir.

Bu illər erməni millətindən olan çar məmurları yalnız çox böyük təziqlər altında öz vəzifələrini yerinə yetirirdilər. Ermənilər Rusiya hökumət adamları və idarələrinə hər hansı şikayət və xahişlə müraciətdən demək olar tamamilə imtina etmişdilər. Ermənilərə aid bütün məsələlərin həlli danışıqsız olaraq "Daşnaksütyun" partiyasının nümayəndələri tərəfindən həyata keçirilir və həmin partiyanın kassasına varlıların minlərlə manatı, yoxsulların isə qəpik-quruşu sel kimi axırdı.

Yelizavetpol qubernatoru yazırdı ki, çar hökumətinin gördüyü bir sıra tədbirlər nəticəsində erməniləri inandıra bilir ki, hökumət heç də erməniləri pravoslav kilsəsinə itaət etməyə, öz dillərini unutdurmağa məcbur etmək istəmir. Vəziyyət getdikcə sabitləşir. Hökumət nümayəndələrinə qarşı sui-qəsd halları səngiyir, "Daşnaksütyun" partiyasının xəzinələrinə pullar artıq könüllü surətdə verilmir, güclə yığılmağa başlanır. "Daşnaksütyun" nümayəndələri cəmiyyətdə əvvəlki kimi rəğbətlə qarşılanmır, partiyanın vəziyyəti ağırlaşır, partiyanın xəzinəsinə pul vəsaiti əvvəlki kimi yığılmır. "Zaqafqaziya hüdudlarında əsasən Türkiyədən qaçmış ermənilərdən və yerli başkəsənlərdən ibarət, əlindən adam öldürmək və zor işlətməkdən başqa heç bir iş gəlməyən, lakin partiya hesabına yüksək maaş alan (ən aşağı rütbəli zinvorlar ildə 300 rubl) ***yüz min nəfərlik*** zinvorlar ordusunu saxlamaq işi çətinləşir". (Bax: RFDTA: f. 841, siy. 7, iş 290, vər. 39).

"Daşnaksütyun" bu vəziyyətdən çıxmaq üçün yollar axtarır. Rusiyada inqilabi hərəkatın yüksəlməsi ilə əlaqədar sosial-demokratların nüfuzunun artdığını görən "Daşnaksütyun" bu şəraitdən məharətlə istifadə edərək onlara yaxınlaşır. Ermənilər arasında sosial-demokratiya ideyalarını yaymaqla "Daşnaksütyun" öz nüfuzunu qoruyub saxlamağa çalışır.

"Daşnaksütyun"un bu işdəki ikiüzlü siyasətini çox gözəl anlayan Yelizavetpol qubernatoru yazırdı ki, hər bir erməni ilk əvvəl özünün milli ideologiyasına, sonra isə hər hansı partiyanın ideologiyasına xidmət edə bilər. Sosial-demokratlara qoşulmaqla ermənilər bu partiyanın millətlərin deyil, siniflərin bərabərliyi ideologiyasına xəyanət etmiş olurlar. O, yazırdı: "Millətçilik - erməni üçün elə başlıca xüsusiyyətdir ki, hətta qısa bir müddətə də olsa, onların bundan imtina edə biləcəklərini təsəvvürə belə gətirmək mümkün deyil... Ermənini inandırmaq ki, tatar (azərbaycanlı - A.P.) proletarı ona ideyaca daha yaxındır, nəinki istismarçı erməni burjua nümayəndəsi, sadəcə olaraq ağlasığmazdır". (RFDTA: f. 841, siy.7, iş 290, vər. 41).





23.-3510

Ermәni-azәrbaycanlı qırğını ilә әlaqәdar Qafqaz Canişini dәftәrxanası xüsusi şöbәsindә hazırlanmış mәlumatda deyilirdi ki, bu qırğından ermәnilәr hәr halda öz xeyirlәrinә müәyyәn qәdәr istifadә edә bildilәr. Belә ki onlar Güney Qafqaziyada ermәnilәrlә-azәrbaycanlılar yaşayan torpaqlar arasında müәyyәn qәdәr sәrhәdlәr, bufer zonalar yarada bildilәr vә çox vaxt öz torpaqlarını azәrbaycanlıların torpaqları hesabına genişlәndirdilәr. Münaqişә nәticәsindә azәrbaycanlıların boşaltdıqları torpaqlarda isә Türkiyәdәn vә qismәn dә İrandan gәlәn ermәnilәri yerlәşdirirdilәr. (Bax: ARDTA: f. 524, siy. 1, iş 57, vәr. 3).

Rusiya Xarici İşlәr Nazirliyi polis departamentinin mәlumatında isә göstәrilirdi ki, Yelizavetpol, İrәvan quberniyaları vә Qars vilayәtindә müsәlmanların qaçaraq canlarını qurtarması nәticәsindә boşaltdıqları torpaqlarda 5-6 il әrzindә Türkiyәdәn vә qismәn isә İrandan gәlmiş yarım milyona yaxın ermәni yerlәşdirilmişdir ki, onlardan da 200 mindәn yuxarısı artıq Rusiya tәbәәliyini qәbul etmişdir. (Bax: "Daşnaki" Bakı 1990, sәh. 11).

Yuxarıda göstәrildiyi kimi ermәni-azәrbaycanlı qırğını dayandırıldıqdan sonra yenidәn ermәnilәrin "Daşnaksütyun" partiyasına münasibәti dәyişir vә partiya xәzinәsinә pul axını yenә dә dayanır. Partiya yenә dә yüz minlik ordusunu maaşla tәmin edә bilmir. Maaşsız qalan vә әllәrindәndәn quldurluq, baş kәsmәk vә adam öldürmәkdәn başqa bir iş gәlmәyәn daşnaksütyun zinvorları pozğunlaşır, ayrı-ayrı quldur dәstәlәri tәşkil edirlәr. Onlar "Daşnaksütyun" bayrağı altında quldurluq vә soyğunçuluqla mәşğul olmağa başlayırlar. Hәtta iş o yerә çatır ki, onlar öz ermәnilәrini belә soymağa başlayırlar. Nәticәdә ermәnilәr "Daşnaksütyun"dan üz döndәrmәyә başlayırlar. Zinvorların bu hәrәkәtlәri nәticәsindә özlәrinin ermәnilәr arasında tamamilә nüfuzlarını itirә bilәcәklәrindәn qorxuya düşәn "Daşnaksütyun" rәhbәrliyi özü soyğunçu zinvorları tәqib etmәyә başlayır.



Daşnak rәhbәrlәri hәm dә qorxurdular ki, zinvorların bu hәrәkәtitndәn narazı qalan Rusiya hökumәti tәkcә ermәni zinvorlarına qarşı deyil elәcә dә bütün ermәnilәrә qarşı repressiya siyasәti tәtbiq etsin. Ona görә dә "Daşnaksütyun" özünün 1907-ci ildә keçirdiyi qurultayda Rusiya hökumәtinә qarşı qәbul etdiyi hücum taktikasından әl çәkir, soyğunçu zinvorların tәqibindә Rusiya hökumәtinә kömәklik göstәrmәyә başlayır. Onlar "Daşnaksütyun" bayrağına sadiq qalan zinvorlardan ibarәt partiyanın xüsusi "yaşıl qvardiyalar"ını yaradaraq onlardan quldurluq vә soyğunçuluqla mәşğul olan silahlı zinvor dәstәlәrini zәrәrsizlәşdirmәk üçün istifadә edirlәr. Öz nüfuzlarını qaldırmaq üçün "Daşnaksütyun" partiyası 1907-ci ildә keçirdiyi IV qurultayında qәbul etdiyi partiyanın yeni proqramına әsasәn "vahimә tәşkilatları" ("Orqanizasii ustraşenie") yaradırlar. Qurultayın qәrarlarına tabe olmaqdan imtina edәn zinvorların hәrbi diktatura rәhbәrlәrinә, rәislәrinә vә sıravi zinvorlarına qarşı amansız terror elan edilir vә onlar üçün ölüm hökmü çıxarılır vә yerindәcә icra edilirdi. Bununla yanaşı partiyanın yerli tәşkilatlarına da әmir verilmişdi ki, quldur vә talançılıqla mәşğul olan zinvorları tutaraq onlara aman vermәdәn üzәrlәrindә mәhkәmә qurub mәhv etsinlәr. Bütün 1907-ci il boyu partiyanın qәrarı ilә ermәni zinvorlarından ibarәt çoxlu qiyamçı quldur dәstәlәri mәhv edilir. Qiyam yatırılır. 1909-cu ilin aprelindә canişin dәftәrxanasından verilmiş mәlumatda göstәrilirdi ki, "Daşnaksütyun" partiyası tәrәfindәn zinvorlardan ibarәt qaçaq vә quldurlar indiyә qәdәr dә tutulduqca mәhv edilirlәr. (Bax: ARDTA, f. 524, siy. 1, iş 57, vәr. 8).

Ancaq bu o demәk deyildir ki, "Daşnaksütyun" öz çirkin әmәllәrindәn vә "Böyük Ermәnistan!" yaratmaq ideyasından әl çәkmişdir. "Daşnaksütyun" öz ordusunu yenidәn qurur vә daşnak ideologiyasına sadiq qalmış zinvorları ora cәlb edirdi.

Onlar öz hərəkətlərinin istiqamətini əsasən Türkiyəyə, xüsusilə Anadolunun Şərq əyalətlərində iğtişaşlar törətməyə yönəldirlər. Bunun üçün onlar hərbi məktəblər təşkil edirlər.

Bolqarıstanda təşkil edilmiş erməni hərbi məktəbinin 1907-ci ildə ilk buraxılışı olur. Oranı 53 daşnak zabiti bitirir. Amerikanın hərbi məktəblərində də "Daşnaksütyun" orduları üçün zabitlər hazırlanırdı. (Bax: Daşnaki, səh. 20). Onlar bütün qüvvələrini yeni döyüşlərə hazırlayırdılar. Bütün imkanlardan istifadə edərək Qafqazda azərbaycanlıları zəifləşməyə, onlara qarşı daşnak siyasətinə məxsus yaramazlıqlar törətməyə çalışırdılar. Beləki 1913-cü il oktyabrın 15-də Cenevrədə keçirilən "Daşnaksütyun" partiyasının növbəti qurultayında, partiyanın Şərq bürosunun müvəkkili, Berlin sakini Avetis Aqaronyanın təklifi ilə qəbul edilmiş bir qərarda deyilirdi ki, "Panislamist emissarları adı altında Qafqaza öz adamlarımızı göndərməliyik. Həmin adamlar təbliğat yolu ilə müsəlman əhalisi arasında Rusiyaya qarşı narazılıqlar yaratsın və onları üsyana təhrik etsin. Bunun nəticəsində Rusiya hökuməti onlara qarşı repressiya tətbiq edər və müsəlman kütlələri zəifləyər. Belə olarsa "Daşnaksütyun" Qafqazda özünün gələcək fəaliyyətində müsəlmanların müqaviməti ilə rastlaşmayacaq. Digər tərəfdən ermənilərə qarşı Qafqaz müsəlmanları ilə Anadolu türklərinin birgə fəaliyyət göstərməsi təhlükəsi aradan qalxar". (ARDTA. f. 524, siy. 1, iş 58, vər. 2).

Yuxarıda gətirilən çoxlu faktlardan məlum olur ki, Rusiya xəfiyyə orqanlarının "Daşnaksütyun" partiyasının proqramında Rusiyaya, habelə Güney Qafqazdakı müsəlmanlara, xüsusilə azərbaycanlılara qarşı məkrli siyasətlərindən çox yaxşı xəbərdar idi. Elə isə onlar ermənilərə qarşı nəyə görə ciddi cəza tədbirləri görmürdülər? İlk növbədə ona görə ki, Türkiyəyə qarşı işğalçılıq siyasəti yeridən Rusiya ermənilərindən istənilən vaxt və istədikləri kimi istifadə edə bilirdilər. Buna görə də Rusiya hökuməti ermənilərin tək azərbaycanlılara qarşı deyil, habelə çar hakimiyyətinin özünə



qarşı yönəldilmiş düşmənçilik hərəkətlərini görməməzliyə vurur, onların bütün şıltaqlıqlarına dözürdü. Birinci dünya müharibəsi zamanı Qafqaz cəbhəsində Türkiyə ilə Rusiya ordusu arasında vuruş zamanı rus ordusu sıralarında xidmət edən ermənilərin törətdikləri vəhşiliklər bunu bir daha sübut etdi. Maraqlıdır ki, ermənilərin bütün bu "xidmətlərinə" baxmayaraq Birinci dünya müharibəsi və 1917-ci il oktyabr çevrilişinə qədər həm Qərb ölkələri və həm də Rusiya onlardan həmişə istifadə etmiş, lakin son anda onların əsas istəklərini, yəni "Vahid Ermsənistan!" yaratmaq ideyasının həyata keçirilməsinə imkan verməmişlər. Yalnız 1918-ci ildə yaranmış Ararat Respublikası və 1920-ci ilin noyabrında Ermənistanda Sovet hakimiyyətinin qələbəsindən məharətlə istifadə edən ermənilər əsrlər boyu arzusunda olduqları Ermənistan dövləti yaratmaq ideyalarını reallaşdıra bildilər. Bundan sonra Sovet hakimiyyətinin onlara qarşı isti münasibətindən ruhlanan ermənilər Azərbaycan torpaqları hesabına açıq və gizli şəkildə öz ərazilərini getdikcə genişləndirmişlər. 1988-ci ilin sonlarından isə avantürist M.Qorbaçovun "yenidənqurma" siyasətindən istifadə edən ermənilər ölkəmizə qarşı ərazi iddiası ilə açıq təcavüzkar işğalçılıq siyasətinə başladılar. Nəticədə onlar öz havadarlarının köməyi ilə ərazimizin 20 faizindən çoxunu işğal etmiş, 1 milyondan yuxarı soydaşımızı öz yurdunda qaçqına çevirmişlər.

**"Azərbaycan" qəzeti,
12, 13 aprel 2001-ci il, № 81, 82.**

## ERMƏNİ XİSLƏTİ
## BU DA BİR HƏQİQƏTDİR

Məhz Rus imperiyasının Qafqazda işğalçılıq siyasətindən məharətlə istifadə edən ermənilər XIX-XX əsrlərdə rusların köməyi ilə Güney Qafqaza köçürülərək burada özlərinə yer etmiş, möhkəmlənmiş və nəticədə yerli əhaliyə, xüsusilə azərbaycanlılara qarşı açıq şəkildə ərazi iddialarına başlamışlar. Artıq XX əsrin əvvəllərindən başlayaraq yaranmış əlverişli şəraitdən istifadə edərək Azərbaycan torpaqlarını ələ keçirmək işinə sürətlə girişən ermənilər birinci dünya müharibəsi və Rusiyada baş vermiş inqilab nəticəsində əsrlərlə arzusunda olduqları "Böyük Ermənistan" yarada bilməsələr də, Azərbaycan torpaqları hesabına erməni dövləti yarada bildilər. 1918-ci il may ayının 28-də çox kiçik bir ərazidə yaranmış Ararat Respublikası tez bir zamanda qonşularına qarşı təcavüzkar siyasətə keçərək çox sürətlə öz ərazisini genişləndirməyə başlamışdır.

Ermənilərin əsrlərlə hazırladıqları planların həyata keçməsində 1917-ci ilin oktyabrında Rusiyada baş verən bolşevik çevrilişi və Sovetlər İttifaqının yaranmasının müstəsna rolu olmuşdur. İndiki Ermənistan ərazisində özlərinin dövlət strukturlarını yaradan ermənilərin qarşılarına qoyduğu başlıca məqsəd bu əraziyə başqa millətlərin nümayəndələrini bir daha buraxmaq, digər tərəfdən isə həmin ərazilərdə olan başqa millətləri, xüsusilə bu yerlərin əsl sahibləri olan azərbaycanlıları oradan sıxışdırıb çıxarmaq olmuşdur.

Nəticədə bü gün Ermənistanı demək olar ki, təkcə erməni millətindən ibarət mono dövlətə çevirməyə müvəffəq olmuş ermənilər, xüsusilə onların dövlət və siyasi rəhbərləri



utanıb-qızarmadan sübut etməyə çalışırlar ki, Ermənistan dünyanın ən beynəlmiləl ölkələrindən biridir və guya burada çoxlu millətlərin nümayəndələri yaşayır.

İndiki Ermənistan deyilən yerdən azərbaycanlıların qovulmasından söz düşəndə ermənilər sübut etməyə çalışırlar ki, guya Ermənistanda azərbaycanlılara münasibət həmişə yaxşı olmuşdur, azərbaycanlılar özləri orada yaşamaq istəməmişlər. Əslində isə indi Azərbaycan ərazisində yaşayan və hələ 1988-ci il hadisələrindən çox-çox əvvəllər Ermənistanı tərk etməyə məcbur olmuş minlərlə azərbaycanlı onlar üçün ermənilər tərəfindən yaradılmış dözülməz şəraitin acı nəticələri olaraq, öz doğma ata-baba yurdlarını tərk etdiklərini deyirlər. Onların çoxu böyük əzab-əziyyətlə ali təhsil alıb Ermənistana qayıtdıqdan sonra onlara iş verilmirdi. Onlar hətta orta təhsilli deyil, ibtidai təhsilli erməninin rəhbərliyi altında işləməyə məcbur edilirdilər. Həmin az savadlı ermənilər ali savadlı azərbaycanlıları incidir, təhqir edir, elə dözülməz şərait yaradırdılar ki, onlar öz ərizələri əsasında işdən getsinlər. Ancaq ikiüzlü ermənilər bu gün onlara məxsus olan həyasızlıqla bunu həmişə təkzib etməyə çalışırlar. Tarixi faktlar, arxiv sənədləri isə bunun əksini sübut edir.

Belə ki, Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivində mühafizə olunan bir iş (ardspiha; f. 1, siy. 231, iş 23, vər. 40-46) Sovet hakimiyyəti illərində Ermənistan SSR-də hökumət idarələrinin və daşnak xislətli erməni əhalisinin burada yaşayan azərbaycanlıların başına müxtəlif şəkildə açdıqları oyunlardan, onların sıxışdırılmasından, son nəticədə isə onların məcbur olaraq Ermənistanı tərk etmələrindən bəhs edir. Bu Zaqafqaziya Federasiyası Xalq Komissarları Soveti yanında Dövlət Siyasi İdarəsinin üç Zaqafqaziya Respublikalarında - Azərbaycan, Gürcüstan və Ermənistanda siyasi vəziyyət haqqında xülasələrdən bir nüsxədir.

kəndində azərbaycanlıların onsuz da yaşamaları üçün darısqal olan evlərinə əlavə iki qaçqın erməni ailəsi də yerləşdirilmişdir. Nəticədə azərbaycanlı ailəsi məcbur olur ki, qonşudan ayı 18 manata ev kirayə edib, orada qaçqın erməni ailələrini yerləşdirsinlər. Başqa bir halda isə azərbaycanlı ailəsi məcbur olaraq hökumət dairələrinə müraciət edirdi ki, ona tikinti materialları versinlər ki, o,öz gücü və vəsaiti hesabına qaçqın ermənilər üçün ev tiksin və bununla da onun evinə yerləşdirilmiş erməni qaçqınlardan canını qurtarsın.

Vergi siyasətində də azərbaycanlı ailələr üçün bilərəkdən dözülməz şərait yaradılmışdır. Xülasədə qeyd olunurdu ki, Voronsovski dairəsinin azərbaycanlılar yaşayan onlarla kəndində bu il keçən ilə nisbətən vergilərin məbləği 105 faiz artırılmışdır. Həm də ayrı-ayrı ortabab kəndli təsərrüfatlarına 1928-1929-cu təsərrüfat ilində qoyulmuş verginin məbləği birin üçə nisbətində artırılmışdır. İrmazlo kəndindəki 85 təsərrüfatdan 25 faizinin üzərinə xüsusi vergi qoyulmuşdur. Bir sıra yoxsul kəndli təsərrüfatlarına da böyük məbləğdə vergilər qoyulmuşdur. Xülasədə göstərilirdi ki, eyni vəziyyətə Ermənistandakı azərbaycanlılar yaşayan digər kəndlərdə də rast gəlinir.

Xülasədə sonra deyilirdi ki, bütün bunlara yerli hakimiyyət orqanlarının azərbaycanlı əhaliyə qarşı kobud rəftarını da əlavə etmək lazımdır. Yeni Bayazid qəzasında yuxarı Zağalı kəndinə qəza prokuroru və dairə icraiyyə komitəsinin sədri (hər ikisi də Ermənistan K(b) P-ın üzvüdür) gəlirlər. Azərbaycanlı kəndlilər onlara müraciət edərək, Azərbaycana keçməyə icazə verməyi xahiş edirlər. Əvvəlcədən işin mahiyyətinə əhəmiyyət verməyən icraiyyə komitəsinin sədri deyir: "Di köç get öz yerinə". Bir dəqiqə keçdikdən sonra isə fikirləşərək yenidən: "Burada gəbərəcəksən, amma köçməyi görməyəcəksən" - deyir. Onda kəndli kömək üçün qəza prokuroruna müraciət edir, prokuror isə onu hətta eşitmək belə istəməyərək deyir: "Mən sizin prokuror deyiləm. Sizin prokuror Azərbaycandadır".



Xülasədə göstərilirdi ki, bu cür qeyri sağlam mühitdə narazılıq sürətlə artır. Orada qeyd olunurdu ki, hazırda Leninakan qəzasının Ağbabalı dairəsində, Yeni Bayazid qəzasının Basarkeçər dairəsində, bütün Lori-Pəmbək qəzasında, İrəvan və Eçmiadzin qəzalarının ayrı-ayrı dairələrində köçmək əhval-ruhiyyəsi azərbaycanlı kəndlilərin bütün təbəqələrini bürümüşdür. Azərbaycanlı kəndlər arasında köçmək əhval-ruhiyyəsinin yaranmasında erməni kəndlərindəki daşnak emissarları və şövinist əhval-ruhiyyəli ünsürlərin təbliğatı da az rol oynamır. İrəvan qəzasının Qara Dəvəli kəndində 2 nəfər daşnak tanış azərbaycanlıları inandırmağa çalışırdılar ki, nə qədər gec deyil, Ermənistandan köçüb getsinlər, "yoxsa tezliklə ölkə daşnaklar tərəfindən zəbt olunacaq və bütün azərbaycanlılar qılıncdan keçiriləcəklər". Xülasədə qeyd olunurdu ki, bu cür təbliğatdan qorxuya düşən bir neçə azərbaycanlı ailəsi Naxçıvan vilayətinə köçmüşlər. Bu haqda xəbər tezliklə qonşu Eçmiadzin qəzasına da yayılır, bir sıra kəndlərdə də (Taqi, Nazrav, Part) azərbaycanlılar Türkiyəyə köçməyə hazırlaşırlar. Xülasənin bu məsələyə aid bölməsinin sonunda deyilirdi ki, "beləliklə, Ermənistan SSR-də azərbaycanlılara qarşı yaradılmış obyektiv şərait azərbaycanlı kəndlilər arasında real köçmək əhval-ruhiyyəsi yaradır".

Təəssüflər olsun ki, baş siyasi idarənin hazırladığı xülasələrdən bu bir nüsxə təsadüf nəticəsində məhv edilməyərək qalmışdır. Bu cür xülasələr arxivlərdə tam şəkildə qorunub saxlansaydı, orada Sovet hakimiyyəti illərində ermənilərin Ermənistanda yaşayan azərbaycanlıların başına açdıqları çoxlu müsibətlərdən xəbər tuta bilərdik. Düzdür bu gün ermənilərin xülasədə qeyd olunan məsələlərə münasibətlərini öz üzərində hiss etmiş minlərlə azərbaycanlılar hələ də həyatda yaşayırlar. Təəssüflər olsun ki, bu haqda

1929-cu il yanvar ayının 1-nə olan və həmin il yanvarın 30-da Azərbaycan K(b)P MK katibləri Ə.H.Qarayev və L.Mirzoyanın adına göndərilmiş həmin xülasədə digər məsələlərlə yanaşı Ermənistan SSR-də azərbaycanlılara qarşı yaradılmış dözülməz münasibətlər haqqında da ətraflı məlumat verilir.

Burada Ermənistan SSR-ə aid xülasədə azərbaycanlılar arasında Ermənistandan köçmək əhval-ruhiyyəsinin çox böyük olduğu bildirilirdi. Lori-Pəmbək qəzasının Ağbaba rayonunda yeni köçmək əhval-ruhiyyəsi haqqında məlumatların, Leninakan, Yeni-Bayazid və Eçmiadzin qəzalarında da həmin əhval-ruhiyyənin artması, bununla əlaqədar köçmək əhval-ruhiyyəsinə səbəb olan, onu şərtləndirən halların açıqlanması üçün yeni faktların üzə çıxmasıdır. Köçmə üçün şərait yaradan səbəblər təhlil edilərkən əsas iki amilə diqqət cəlb edilirdi. Bir tərəfdən adamların köçüb getməyə həvəsi, digər tərəfdən isə köçmək üçün əsas olan konkret səbəblər.

Maraqlıdır ki, burada azırbaycanlıların Ermənistandan köçməsini şərtləndirən başlıca amillər bir rayonun - Basarkeçər rayonunun timsalında bariz şəkildə izah edilirdi. Göstərilirdi ki, azərbacanlıların köçməsini şərtləndirən əsas amillər, məktəb, səhiyyə məsələləri, kənd təsərrüfatı vasitələri, onların təminatının yox dərəcəsində olmasıdır. Digər tərəfdən isə köçmənin səbəbi kimi azərbaycanlılara qarşı Ermənistan SSR hakimiyyət orqanları nümayəndələrinin qeyri-səmimi münasibəti və onlara qarşı daşnak təbliğatında görülürdü.

Xülasədə göstərilirdi ki, Yeni-Bayazid qəzasının Basarkeçər dairəsindəki 15 min müsəlman əhalisi olan 32 kənddə cəmi bir pilləli 16 məktəb və iki qiraətxana var. Bütün məktəblər ən adi avadanlıqdan belə məhrumdurlar. Bir dənə də olsun yeni məktəb binası yoxdur. Demək olar ki, bütün məktəblərin pəncərə şüşələri yoxdur, divarlar çatdı. Pedaqoji persionalın ictimai-siyasi və pedaqoji hazırlıq səviyyəsi olduqca aşağı səviyyədədir.



Göstərilirdi ki, Basarkeçər dairəsində yalnız 13 çarpayılıq bir xəstəxana və 1 ambulatoriya var. Ambulatoriyanın çox vaxt bağlı olduğu, qışda isə kəndlərə yollar bağlı olduğu üçün kəndlilər ambulatoriyaya ümumiyyətlə gələ bilmirlər.

Azərbaycanlılar yaşayan kəndlərdə bir ədəd də olsun taxıl biçən, sovuran və toxumsəpən maşın yoxdur. Bu kəndlərin aldıqları traktor və kotanlar isə ya ümumiyyətlə heç nəyə yaramır, ya da saz vəziyyətdə deyil.

Azərbaycanlı əhalinin məskunlaşdığı rayonların partiya komitələrində azərbaycanlı təlimatçılar çatışmır. İrəvan qəzası Razdan dairəsində milliyyətcə erməni olan, azərbaycan dilini zəif bilə təlimatçı azərbaycanlılarla olduqca kobud rəftar edir.

Xülasədə göstərilirdi ki, Yeni Bayazid qəzasının Basarkeçər dairəsində də vəziyyət bundan yaxşı deyil. Burada Sovet və partiya aparatlarının olduqca zəif işi nəticəsində hələ 1927-ci ildə bir sıra kəndlər - Yarpızlı, Böyük Məzrə, Kalvank, Yuxarı Zağalı köçmək üçün ərizə vermişdilər. O vaxt, yəni 1927-ci ildə köçmək haqqında məsələ müvəqqəti olaraq unudulmuş, bir neçə vaxtdan sonra isə o daha da kəskin şəkildə yenidən qalxmışdır.

Həmin dairəyə bir partiya erməni qaçqınları gətirilmiş azərbaycanlı əhalinin iradəsinin əksinə olaraq, onlar azərbaycanlı əhalinin evlərində yerləşdirilmişlər. Azərbaycanlılara söz verilmişdir ki, iki aydan sonra ermənilər yeni evlərə köçürüləcəklər. Bu vəziyyət hər iki tərəf üçün, əsl məşəqqət idi. Erməni qaçqınları demək olar ki, hər yerdə əvəzsiz olaraq azərbaycanlıların özləri üçün tədarük etdikləri qış yanacaqlarından istifadə edirdilər. Elə hallar da olmuşdur ki, boş yeri olmayan azərbaycanlıları məcbur etmişlər ki, "bir təhər sıxlaşsınlar" və öz evlərində erməni qaçqınlarını yerləşdirsinlər. Məsələn, Böyük Məzrə

söhbət düşərkən ermənilər onu qəti təkzib etməyə çalışırlar. Bəs görəsən onlar Zaqafqaziya Federasiyası hökuməti yanında nüfuzlu Dövlət Siyasi İdarəsinin bü cur təkzib edilməz mə'lumatlarına necə cavab verəcəklər? Onlarıdamı yalan adlandıracaqlar? Ola bilər. Çünki səmimiyyətdən, düzlükdən, xalqımız üçün həyati əhəmiyyəti olan bu cür məsələlərə qarşı vicdanlı münasibətdən başqa ermənilərdən nə desən gözləmək olar.

**"Azərbaycan" qəzeti, 16 sentyabr 2001-ci il, № 212**



## ERMƏNİ MƏKRİ

Ermənilər tarix boyu həmişə məkrli siyasət yürütmüşlər. Onlar öz niyyətlərini həyata keçirmək üçün hər cür vasitələrdən istifadə etmişlər. İstədiklərinə nail olmaq üçün heç bir vasitədən-hiylədən, kələkdən, aldatmaqdan, yalandan, şərdən, böhtandan bir sözlə mümkün olan və mümkün olmayan digər yollardan istifadə etməkdən çəkinməmişlər.

Güney Qafqazda 1917-ci il Rusiya inqilabından, xüsusilə həmin ilin oktyabrında baş vermiş bolşevik çevrilişindən sonra ermənilər vaxt və imkan var ikən "Böyük Ermənistan" yaratmaq yolunda bu regionda fəal fəaliyyətə keçirlər və nə qədər mümkünsə torpaq tutmağa çalışırlar. Bunun üçün onlar Birinci Dünya müharibəsinin, xüsusilə bolşevik Rusiyasının bu müharibədən çıxması şəraitindən məharətlə istifadə edərək nə qədər mümkündürsə sürətlə silahlanır, torpaq tutmaq üçün Azərbaycana və azərbaycanlılara qarşı siyasi təcavüzə hazırlaşırlar. Güney Qafqazda üç əsas Qafqaz xalqlarının federasiyası və seyminin yaranmasından, Bakıda S.Şaumyan başda olmaqla demək olar ki, ermənilərdən ibarət Bakı Xalq Komissarları Sovetinin təşkilindən, Zəngəzur və Qarabağda türk xalqlarının qatı düşməni Andranikin silahlı quldur dəstələrinin ağalıq etdiyi bir şəraitdən məharətlə istifadə edən ermənilər çalışırdılar ki, bu ərazilərdə daha çox torpaq ələ keçirsinlər. Bu məqsədlə azərbaycanlılara qarşı hər yerdə böyük qırğınlar və talanlar törədirdilər.

Güney Qafqazda üç müstəqil — Azərbaycan, Gürcüstan və Ermənistanın Cümhuriyyətlərinin yarandığı ilk gündən isə ermənilər digər iki Cümhuriyyətə qarşı sözün əsl mənasında səlib yürüşü yolunu tutdular. Ermənistan

Cümhuriyyəti yaranarkən onun ərazisi cəmi 400 min əhalisi olan iki qəzadan - İrəvan və Eçmiadzindən ibarət idi. 1918-ci ilin axırlarında Almaniya ilə bərabər Birinci Dünya müharibəsində məğlub olan Türkiyə, İngiltərə ilə bağladığı Mudros sazişinə əsasən Güney Qafqazı tərk etdikdən və ingilislər buraya gəldikdən sonra ermənilər müttəfiq dövlətlərdən Qars vilayətini, keçmiş İrəvan quberniyasının bütün torpaqlarını alaraq Ermənistanın ərazisini 17.500 kvadrat milə və əhalisini isə 1.310 min nəfərə çatdırırlar. Bu əhalinin isə 595 min nəfəri erməni, 575 min nəfəri isə müsəlmanlar (azərbaycanlılar - A.P.) və 140 min nəfəri isə başqa millətlərin nümayəndələri idi. (bax: Bolşaya Sovetskaya ensiklopediya, Cild III, 1926 il, səh. 437).

Bunlara qane olmayan daşnaklar Gürcüstan Cümhuriyyətinə daxil olan Lori, Axalkalaki və Borçalını, Azərbaycanın isə Zəngəzur, Naxçıvan və Qarabağ torpaqlarına iddia irəli sürürlər. Hətta onlar əslən Azərbaycan torpaqları olan Lori və Borçalını zorla Ermənistana birləşdirmək məqsədi ilə 1918-ci il dekabrın ortalarında Gürcüstana qarşı rəsmi müharibə elan edirlər. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 23 aylıq hakimiyyəti dövründə Ararat respublikası Azərbaycana rəsmən müharibə elan etməmişdirsə də, bu dövr ərzində ermənilərin Azərbaycana qarşı apardıqları uzun müddətli və qanlı qırğınlar nəticəsində Azərbaycanın mübahisəli hesab edilən ərazilərinin əhalisi 30 faizə qədər azalmışdır. Bəzi yaşayış məntəqələri isə sözün həqiqi mənasında tamamilə yer üzündən silinmişdir (Bax: yenə orada III cild, səh. 437).

Müttəfiq qoşunları adından Güney Qafqazda fəaliyyət göstərən ingilis komandanlığının Paris Sülh Konfransının mübahisəli ərazilər haqqında qərar qəbul edəcəyi haqqında vədlərini eşidən ermənilər bu qərar qəbul ediləne kimi nə qədər mümkündürsə, bu ərazilərdə torpaqlar, xüsusilə Azərbaycan torpaqlarını ələ keçirmək və həmin ərazilərdən azərbaycanlıları təmizləyərək sülh konfransı iştirakçılarını həyata keçirilmiş fakt qarşısında qoymağa çalışırdılar. Yəni həmin ərazilərdə azərbaycanlı yoxdursa, deməli həmin ərazilər Azərbaycan torpaqları və Azərbaycan əraziləri də ola bilməz. Ona görə də Azərbaycan Cümhuriyyəti hökumətinin bu ərazilərin əhalisinə Azərbaycan hökumətinə tabe olmaq haqqındakı çağırışını həmin ərazilərdə yaradılmış və o ərazilərin erməniləri adından çıxış edən Erməni Milli Şuraları qulaq ardına vururdular. Özü də bunu onlar şüurlu surətdə qəsdən və bilərəkdən edirdilər. Onlar çalışırdılar nə qədər ki, vaxt var, bu torpağları ələ keçirsinlər, həmin yerləri azərbaycanlılardan təmizləsinlər və beləliklə sülh konfransında müzakirə zamanı həmin ərazilərdə azərbaycanlıların və qeyri-millətlərin olmadığını bəhanə edərək həmin torpaqların Ermənistana birləşdirilməsini reallaşdırmaq üçün zəmin hazırlayırdılar.

Ermənilərin əsrlər boyu öz əllərinə keçirmək istədikləri belə ərazilərdən biri də Zəngəzur və Dağlıq Qarabağ torpaqları idi. Bu ərazilər Çar hakimiyyəti dövründə Yelizavetpol (Gəncə) quberniyasına daxil idi və bu ərazilər Gəncə qubernatoru tərəfindən idarə olunurdu. Azərbaycanda Cümhuriyyət hökuməti yarandığı vaxtlar ölkənin durumunun həm iqtisadi və həm də hərbi baxımdan zəif olmasından, Gəncə qubernatorunun bu ərazilərlə zəif əlaqəsindən istifadə edən mükəmməl surətdə silahlanmış ermənilər bu əraziləri Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək üçün zəmin hazırlayırdılar. Bunun üçün Dağlıq Qarabağda yaradılmış Qarabağ ermənilərinin Milli Şurası Azərbaycana tabe olmadıqlarını bildirir və özlərinin müstəqilliklərini elan edirlər. Başlıca məqsəd də gələcəkdə Ermənistanla birləşmək idi. Məhz ermənilərin bu niyyətlərinin qarşısını almaq məqsədilə Azərbaycan Cümhuriyyəti hökuməti ermənilərin bu hərəkətlərinə qarşı əks tədbirlər görməyə məcbur olur.

Belə ki, 1919-cu ilin yanvarında Azərbaycan Cümhuriyyəti hökumətinin daxili işlər naziri Xəlil bəy Xasməmmədov bu məsələ ilə bağlı rəsmən Cümhuriyyət hökumətinə məruzə ilə müraciət edir. Məruzədə bildirilirdi ki, Rusiyadakı inqilabi çevrilişdən sonra Zaqafqaziya hökuməti yaranandan Zəngəzur, Şuşa və qonşu qəzaların erməni əhalisi daşnak təbliğatının təsiri altında ayrılaraq, özlərinin iri inzibati-ərazi vahidlərini yaratmağa təşəbbüs göstərməyə başlayıblar. Buna görə də onların Azərbaycanın hakimiyyət orqanlarına tabe olmamaq haqqında bəyanatları tez-tez təkrar olunur. Qərəzli adamların təsiri altında bu ərazinin müsəlman hissəsinə qarşı ehtiraslar da süni surətdə qızışdırılır. Azərbaycan Güney Qafqaz Federasiyasından ayrıldıqdan sonra daşnakların daha da güclənmiş təbliğatı altında həmin dağlıq hissənin erməni əhalisinin Azərbaycandan ayrılmaq təşəbbüsü daha açıq şəkil almışdır. Onlar Azərbaycan Cümhuriyyətindən ayrılaraq yeni yaranmış Ararat Cümhuriyyətinə birləşmək istəyirlər.

Məruzədə deyilirdi ki, yerlərdə hakimiyyət strukturlarının dağılması, tam anarxiyanın hökm sürməsi, daşnak təbliğatçılarına imkan verirdi ki, bu istiqamətdə tam sərbəst hərəkət etsinlər və fəaliyyət göstərsinlər.

Yeni yaranmış Azərbaycan Cümhuriyyəti hökumətinə ilk vaxtlar lazım gəlirdi ki, hətta özünün paytaxtında belə çox böyük çətinliklərlə qayda-qanun yaratsın. Təbiidir ki, buna görə də Şuşa, Qaryagin, Cavanşir və Zəngəzur kimi uzaq qəzalarda baş verən hərəkətlərə diqqət yetirmək üçün təkcə fiziki qüvvəsi deyil, həm də adicə imkanları çatışmırdı. Bunun nəticəsində də Azərbaycanın göstərilən qəzalarının erməni əhalisinin çox hissəsi Azərbaycan hökumətini tanımır və bu hökuməti tanıyan azərbaycanlılara qarşı düşmən münasibət bəsləyirdilər. Məruzədə göstərilirdi ki, Andranikin başçılığı ilə erməni hərbi dəstələrinin bu yerlərə gəlişi vəziyyəti daha da gərginləşdirmişdir. Andranik açıq şəkildə öz "hərbi əməliyyatlarında" məqsədinin bu əraziləri Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək olduğunu bildirir. Bu məqsədlə yerli erməni əhalisi çetniklər (silahlı hərbi dəstələr - A.P.) düzəldirlər. Bu hərbi dəstələr yerli müsəlman əhalisinə qarşı güc işlətmək, onların əmlakını talan və özlərini isə məhv etməkdən belə çəkinmirdilər. Andranikin təşkil etdiyi erməni silahlı dəstələri tərəfindən "150-yə yaxın müsəlman kəndi dağıdılmış və qarət olunmuşdur. Həmin ərazilərdə olan azərbaycanlı əhali kütləvi surətdə Ağdam və başqa yerlərə qaçmaqla canlarını qurtarmışdılar". Məruzədə daha sonra göstərilirdi ki, bu qaçqınların çoxu sözün əsl mənasında ac-yalavac və çılpaqdırlar. Onların arasında baş verən yoluxucu xəstəliklər başqa ərazilərin əhalisi arasında da sürətlə yayılmaqdadır. Bu ərazilər Gəncə quberniyasına tabe olduğu və quberniya mərkəzi bu ərazilərdən uzaq olduğu üçün ermənilər tərəfindən törədilən və həllinin tezliklə yerinə yetirilməsi tələb olunan məsələyə qarşı təcili tədbirlər görülə bilmir. Ona görə də bu ərazilərdə mərkəzi hökumətə tabe olan hakimiyyət orqanı strukturunun yaradılması çox vacibdir.

Daxili işlər naziri bu məqsədlə mərkəzi Şuşa şəhəri olmaqla Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının ərazilərində müvəqqəti general-qubernatorluq vəzifəsinin təsis edilməsi və onun aparatının yaradılmasının vacibliyinə diqqəti cəlb edərək tezliklə belə bir inzibati-idarə orqanının yaradılmasını təklif edir. Yeni yaradılacaq bu inzibati-idarə qurumuna həmin ərazidə yerləşən məhkəmə orqanları və dövlət nəzarətinin nümayəndəsindən başqa bütün idarələr və vəzifəli şəxslər tabe etdirilməli idi.

Yeni yaradılacaq müvəqqəti general-qubernatorluq qarşısında bu ərazidəki ermənilərin Azərbaycan hökumətinə və xalqına qarşı törətdikləri hərəkətləri ləğv etmək, həmin qəzaların ərazilərində tam şəkildə qayda-qanun yaratmaq,





24.-3510

yerlərdə inzibati-idarə orqanlarının işini təşkil etmək, qaçqınlara ümumi köməkliklər göstərmək və onları ərzaqla təmin etmək, həm qaçqınlar, həm də köklü yerli əhali arasında yoluxucu xəstəliklərə qarşı mübarizə aparmaq və nəhayət qaçqınları sakitləşdirərək onların öz doğma yerlərinə qaytarılmamasını təmin etmək vəzifələri qoyulurdu. (Bax: ARDA. f, 894, siy. 9, iş 5, vər. 13-14).

Azərbaycan Cümhuriyyəti hökuməti 1919-cu il yanvar ayının 15-də keçirmiş iclasında daxili işlər naziri X.Xasməmmədovun yuxarıda göstərilən məruzəsini dinləyərək ətraflı müzakirə edir. Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları ərazilərinin hüdudlarında müvəqqəti general-qubernatorluq vəzifəsini təsis etmək və məruzədə göstərilən hüquq və vəzifələrin yerinə yetirilməsi vəzifəsinin də ona həvalə olunması barədə qərar qəbul edir. Müvəqqəti general-qubernator vəzifəsinə namizəd tapmaq, habelə general-qubernatorluq və onun yanında xalq milisinin saxlanılması üçün lazım olan vəsait xərclərinin smetalarının layihələrini hazırlamaq işi də daxili işlər nazirliyinə həvalə olunur. (Yenə orada, vər. 17).

Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatoru vəzifəsi əslən Qarabağdan olan, bu əraziyə və onun əhalisinə yaxşı bələd olan Azərbaycan Cümhuriyyətinin ilk yaradıcılarından və onun birinci hökumətində hərbi nazir olmuş Xosrov bəy Sultanova təklif edilir. Əvvəlcə o, bu təklifdən imtina edir. Bu vəzifəyə ikinci namizəd əslən Şimali Qafqazdan olan çar ordusu və inzibati-idarə sistemində uzun illər işləmiş rotmister Qud Qudyeviç olur. Lakin Azərbaycan dilini bilmədiyi üçün bu namizəddən də imtina olunaraq, yenidən X.Sultanova müraciət edilir və nəhayət onun razılığı alınır.

Azərbaycan Cümhuriyyəti hökumətinin 1919-cu il yanvar ayının 29-da keçirilən iclasında Xosrov bəy Sultanov Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının



müvəqqəti general-qubernatoru təyin olunur. Qubernatorluğun ştatını və 600 nəfərdən ibarət atlı dəstə təşkil etmək məqsədi ilə həmin iclasda Xosrov bəyin sərəncamına bir milyon manat vəsait ayırmaq haqqında qərar da qəbul olunur. (yenə orada, vər. 11).

Azərbaycan Cümhuriyyəti hökumətinin 1919-cu il 1 fevral tarixli qərarı ilə rotmistr Qud Qudyeviç Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları müvəqqəti general-qubernatorunun müavini təyin olunur. (ARDA: f. 894, siy. 1, iş 22, vər. 25).

Azərbaycan Cümhuriyyəti hökuməti özünün 1919-cu il 7 mart tarixli iclasında daxili işlər nazirliyi tərəfindən təqdim olunmuş Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatorluğu üçün ştat vahidlərini təsdiq etmiş, onların saxlanılması üçün general-qubernatorun sərəncamında olan vəsaitdən istifadə etməsi haqqında göstəriş verilmişdir. (f. 894, siy. 1, iş 22, vər. 60).

Artıq 1919-cu il fevral ayının 5-də Xosrov bəy Sultanov daxili işlər nazirliyinə müraciət edərək, göstərilən 4 qəzanın Gəncə quberniyasının ərazisindən ayrıldığı haqqında Gəncə qubernatoruna məlumat verməyi xahiş edir və general-qubernatorluq ərazisində yaradılacaq xalq milisi rəisləri üçün zabit heyətinin ştat vahidlərini də təqdim edir. (f. 894, siy. 9, iş 5, vər. 25-27).

Həmin il fevralın 22-də Azərbaycan Cümhuriyyəti hökumətinin işlər müdiri Pərviz Mirzənin imzası ilə daxili işlər nazirinə məruzə etmək məqsədi ilə İngilis komandanlığının Şuşa şəhəri və ətraf ərazilər üçün təyin olunmuş xüsusi missiyasının rəhbəri mayor Monk Mezona verilmiş təlimatın surəti də əlavə edilməklə daxili işlər nazirliyinə məktub göndərilmişdir. (f. 894, siy. 9, iş 5, vər. 31, 32).

Britaniyanın Bakıdakı ordularının baş qərargah rəisi tərəfindən imzalanmış həmin təlimatla Şuşadakı ingilis missiyası qarşısında bu ərazidə qanun-qaydaları qorumaq,

qaçqınları harada və necə yerləşdirməyi əvvəlcədən müəyyən etmək, Yevlaxdan həmin ərazilərə ərzağı necə çatdırmaq vəzifəsi qoyulurdu. Onlar tə'limatlandırılırdılar ki, "siz kimə lazımdırsa, izah etməlisiniz ki, heç bir siyasi represiyaya yol verilməyəcək, hər hansı partiyanın güc tətbiq etmək istəyinin Bakıdakı Britaniya komandanlığı tərəfindən qətiyyətlə qarşısı alınacaq. Qarabağ və Zəngəzurun Azərbaycana və ya Ermənistana aidiyyəti məsələsi yerlərdə həll edilə bilməz. Doktor X.Sultanov bu vilayətə general-qubernator təyin olunub. Onun vəzifəsi vilayəti güc tətbiq etmədən idarə etmək, ərazi iddiaları qaldırmaq məsələsindən imtina etməkdir. Siz ona öz vəzifəsini həyata keçirmək üçün hərtərəfli yardım göstərin. İki erməni nümayəndəsi Şuşaya gəlir və sizə hər cür köməklik göstərəcəklər. Siz general Andranikə öz ordusunu buraxmaq üçün təlimat verin. Onun ordusunun Yevlağa aparılması üçün lazımi sərəncam verin. Orada onlar tərkisilah edildikdən sonra dəmir yolu ilə Ermənistana göndəriləcəklər. Siz həm də bu yaz qaçqınların da öz vətənlərinə qaytarılması üçün sərəncam verməlisiniz.

Siz kimə lazımdır hamıya başa salmalısınız ki, Sizin missiyanın fəaliyyətinə heç cür Qarabağ və Zəngəzur ərazilərinin bu və ya başqa tərəfə aidiyyatı məsələsinə dəxli yoxdur. Bu məsələ sülh konfransı tərəfindən həll ediləcəkdir". (ARDA: f. 894, siy. 9, iş 5, vər. 32).

1919-cu il fevral ayının 18-də Gəncə qubernatoru M.Vəkilov daxili işlər nazirinə müraciət edərək bildirir ki, Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yarandıqdan sonra da qəza rəislərindən qəza idarələrinə təyinat haqqında mənə müraciətlər olunur. Xahiş edirəm məlumat verin ki, həmin məsələləri mən özüm həll edim, yoxsa onları müvəqqəti general-qubernatorun sərəncamına göndərim.



Daxili işlər nazirliyi tərəfindən Gəncə qubernatoruna göndərilmiş cavab məktubunda göstərilən qəzalarla əlaqədar bütün məsələlərin həllini müvəqqəti general-qubernatorun sərəncamına göndərmək tövsiyyə olunurdu.

Həmin il aprel ayının 2-də X.Sultanov Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda müvəqqəti general-qubernatorluğun ərazisində olan hərbi hissələrin də onun tabeliyinə verilməsi haqqında məsələ qaldırır. Aprelin 4-də hökumətin sədri müvəqqəti general-qubernatorun bu xahişi barədə öz hökumətinin iclasında məlumat verir. Lakin hökumət X.Sultanovun xahişinə razılıq vermir. Hökumətin həmin məsələyə dair qəbul etdiyi qərarda deyilirdi ki, general-qubernatorluq öz ərazisindəki hərbi hissələrin Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları general-qubernatoruna tabe olunması general-qubernator hərbi şəxs olmadığı üçün qəbul edilə bilməz. Qərarla yalnız fövqəladə vəziyyətlərdə ona qanunda nəzərdə tutulmuş hallarda hərbi hissələrin köməyindən istifadə etmək hüququ verilirdi. (ARDA: f. 894, siy. 9, iş 5, vər. 37).

Hökumətin bu qərarına etiraz əlaməti olaraq X.Sultanov aprelin 6-da yenidən daxili işlər nazirinə göndərdiyi məktubunda yazırdı: "Ermənilərin hər hansı çıxışı zamanı hökumətlə əlaqə saxlamadan hərbi qüvvələrin köməyindən istifadə etmək mümkün deyil. Teleqrafın nasaz olduğu bir vaxtda teleqramların vaxtında çatdırılmaması çətinlik törədir. Qanunla general-qubernatorun vəzifəsi o hərbi şəxs olmasa da hərbi rəhbərliyin vəzifəsi ilə bərabərləşdirilir və general-qubernatorluq ərazisindəki hərbi hissələr də ona tabe edilməməlidir". (f. 894, siy. 9, iş 5, vər. 39).

1919-cu il aprelin 19-da Nazirlər Kabinetinin növbəti iclasında baş nazir N.Yusifbəyov Qarabağ general-qubernatorunun həmin qubernatorluq ərazisindəki ordu hissələrinin ona tabe etdirilməsi haqqındakı əlavə xahişi barədə məlumat verir və qərara alınır ki, 4 aprel tarixli

qərara əlavə olaraq Qarabağ general-qubernatorluğu ərazisindəki hərbi hissələr müvəqqəti general-qubernatorun icazəsi və razılığı ilə hərəkət edir. Həm də o, bu hərbi hissələrdən istifadə edilməsi üçün verdiyi bütün sərəncamlara görə məsuldur. (ARDA: f. 894, siy. 1, iş 25, vər. 7)

Azərbaycan hökuməti tərəfindən 1919-cu il yanvarın 15-də Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında müvəqqəti general-qubernatorluq yaradılması ilə əlaqədar olaraq Dağlıq Qarabağ ermənilərı etiraz aksiyaları keçirir və Ermənistan Cümhuriyyəti hökuməti həmin ilin yanvarında Azərbaycan hökumətinə etiraz notası göndərir. Öz notasında Ermənistan hökuməti belə bir qurumun yaradılmasını Ermənistanın ərazi hüquqlarına qarşı yönəldilmiş qəsd kimi qiymətləndirir. Ona cavab olaraq yanvarın 31-də Azərbaycan Cümhuriyyəti hökumətinin xarici işlər naziri əvəzi A.X.Ziyatxanov Ermənistan Cümhuriyyəti hökumətinin xarici işlər nazirliyinə göndərdiyi cavab notasında bildirirdi ki, Ermənistan hökumətinin belə bir nota verməyə heç bir hüquqi əsası və mənəvi haqqı yoxdur. Çünki bu ərazilər əzəldən Azərbaycanın mübahisəsiz və ayrılmaz hissəsi olmuşdur. Ona görə də Azərbaycan hökumətinin təkcə hüquqi cəhətdən deyil, həm də mənəvi cəhətdən vəzifəsi həyati tələb olaraq, bu ərazilərdə milliyyətindən və dinindən asılı olmayaraq öz vətəndaşlarının həyatını, şərəfini və əmlakını məsuliyyətsiz şəxslərin özbaşınalığından qorumaqdır. Ona görə də bizim hökumətin bu əraziyə general-qubernator təyin etməsi heç vaxt Ermənistanın ərazi hüquqlarına qəsd ola bilməz. Sizin hökumətin bu barədəki etirazınıza isə bizim suveren hüquqlarımıza müdaxilə və daxili işlərimizə qarışmaq kimi baxıla bilər. (Bax: "Azərbaycan" qəzeti 1 fevral 1919, № 23).

X.Sultanovun Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında yaradılmış müvəqqəti general-qubernatorluğa general-qubernator təyin edilməsinə ermənilər xüsusilə daha



kəskin əks reaksiya verirlər. Onlar buna etirazlarını açıq şəkildə bildirir, yeni qubernatoru tanımayacaqlarını elan edirdilər. Əlbəttə, ermənilərin bu etirazlarının əsas səbəblərindən biri də bu şəxsin Andranik ordularını Zabux dərəsində böyük məğlubiyyətə uğratmış Sultan bəy Sultanovun qardaşı olması idi. Ermənilərin etirazlarına baxmayaraq X.Sultanov ona tapşırılmış ərazidə ciddi surətdə işə girişir və orada lazımi qayda-qanun yaratmağa başlayır.

Bu elə bir vaxt idi ki, Ararat Respublikası ərazisində yüzlərlə azərbaycanlı kəndləri dağıdılıb yerlə yeksan edilir, yüz minlərlə azərbaycanlı əhali öz doğma yurd-yuvasında məhv edilir və yaxud bütün əmlakı əlindən alınaraq qovulurdu. Azərbaycan Cümhuriyyəti hökumətinin bu məsələ barədə dəfələrlə Ermənistan hökumətinə verdiyi notalara cavablarda Ermənistan hökuməti bu faktları qəti surətdə təkzib edir, bütün vasitələrdən istifadə edərək bu vəziyyəti beynəlxalq ictimaiyyətdən gizlətməyə çalışırdı. Belə bir şəraitdə 1919-cu il iyunun 4-də ermənilərin Şuşa şəhərində törətdikləri silahlı qiyama etiraz əlaməti olaraq Şuşa qəzasının ermənilərdən ibarət Qeybalı kəndində müsəlmanlar erməni evlərini dağıdaraq bir qismini yandırır, əhalinin bir hissəsini isə qətlə yetirirlər. Bu hadisədən əllərinə fürsət düşmüş ermənilər, bütün dünyada Azərbaycana və azərbaycanlılara, müvəqqəti general-qubernator X.Sultanova qarşı böyük təbliğat kampaniyasına başlayırlar. Bu hadisə ilə bağlı ermənilər hər yerdə mitinq və küçə yürüşləri keçirirdilər.

"Naşa vremya" qəzetinin 1919-cu il 13 iyun tarixli 106-cı nömrəsində verdiyi məlumata görə həmin il iyunun 8-də Tiflisdə keçirilən ermənilərin çoxminli mitinqində elə qələmə verilirdi ki, guya Şuşada Azərbaycanın nizami ordusu tərəfindən silahsız mülki erməni əhalisinin üzərinə hücum edib. Guya bu cür düşmənçilik aktları ilə Azərbaycan hökuməti erməni Qarabağını ələ keçirməyi və Qarabağın

erməni əhalisini daim təzyiq altında saxlayıb qanını tökmək istəyir. Mitinq iştirakçıları Güney Qafqazda müttəfiq ölkələrin missiyalarına müraciət edərək tələb edirdilər ki, Qarabağda qan tökülməsinin qarşısını alsınlar və erməni xalqını onları gözləyən yeni və daha təhlükəli bədbəxtliklərdən qorusunlar. Mitinqin qətnaməsində deyilirdi: ***"Ölkədə qayda-qanun və sakitlik yaranması üçün daimi təhlükə olan tanınmış Türkiyə agenti və Azərbaycanın general-qubernatoru Sultanov və bütün Azərbaycan hərbi qüvvələri erməni Dağlıq Qarabağının (!!!) ərazisindən kənarlaşdırılsınlar. Erməni Dağlıq Qarabağı Azərbaycan hakimiyyətinin təsir dairəsindən çıxarılsın".***

"Naşa vremya" qəzetinin elə həmin nömrəsində (13 iyun, 1919, № 106) Qarabağdan verdiyi digər xəbərdə isə deyilirdi ki, bu hadisədən sonra Qarabağ Erməni Milli Şurası möhkəmləndirilmiş tərkibdə Şuşa şəhərindən ətraf kəndlərə çıxmış və Dağlıq Qarabağda bütün hakimiyyəti öz əllərinə götürmüşlər. Şəhərdə birinci gün baş verən toqquşma zamanı guya erməni ordu hissələri ətraf kəndlərindən şəhərə doğru hərəkət edir, yalnız ingilis komandanlığının işə qarışması nəticəsində Milli Şuranın göstərişi ilə ordu dəstələri şəhərə daxil olmamışdılar.

"Azərbaycan" qəzetinin 1919-cu il 21 iyun tarixli 127-ci nömrəsində verilmiş məlumatda isə deyilirdi ki, Qarabağda baş verən hadisələrlə bağlı həyəcana gəlmiş minlərlə erməni İrəvanda parlament binası qarşısında toplaşaraq öz etirazlarını bildirirlər. Onlar erməni ziyalıları başda olmaqla musiqi orkestrinin müşayiəti ilə hökumət sədrinin iqamətgahına doğru hərəkət edirlər. Hökumət sədri bildirir ki, bu gün mən ingilis missiyasının rəhbəri leytenant Çerkasla bərabər Tiflisə gedərək oradakı ingilis komandanlığı ilə danışıq aparacağam. O, söz verirdi ki, həyəcana gəlmiş xalqın tələbini ödəyəcək, erməni Qarabağının məsələsini həll etmək üçün qəti və ciddi



tədbirlər görəcəkdir. Fürsətdən istifadə edən hökumətin sədri mitinq iştirakçılarına müraciət edərək erməni xalqının müqəddəs hüquqlarını silah gücünə qorumaq üçün mitinq iştirakçılarını orduya yazılmağa çağırır.

Həmin il iyunun 26-da Azərbaycan Cümhuriyyəti hökumətinin Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinski Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda bildirirdi ki, mən 1919-cu il iyun ayının 25-də Ermənistan Xarici İşlər Nazirliyinə nota verərək bildirdim ki, X.Sultanov Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə bu il yanvar ayının 15-də Azərbaycanın mübahisəsiz və ayrılmaz hissəsi olan Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında yaradılmış general-qubernatorluğa general qubernator təyin edilmişdir. Ona görə də Ermənistan hökumətinin X.Sultanovun hərəkətlərinə və göstərilən qəzalarda Azərbaycan ordularının olmasına qarşı heç bir etiraz edə bilməz və Ermənistanın bu hərəkəti Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmaqdır. General-qubernator çox ciddi tədbirlər görərək Şuşa qəzasında lazımi qayda yarada bilmiş və bu ərazidə həyat artıq öz normal axarına düşmüşdür. (ARDA: f. 970, siy. 1, iş 65, vər. 85).

Yuxarıda deyilənlərdən göründüyü kimi mayaları yalan, məkr və xəyanətlə yoğrulmuş ermənilər 1919-cu ilin əvvəllərində Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradılarkən və Xosrov bəy Sultanov oraya general-qubernator təyin olunarkən buna qəti etirazlarını bildirmiş, X.Sultanovun ünvanına olmazın böhtan və uydurmalarını yağdırmışlar. Lakin həmişə Gəncə qəzasına daxil olmuş Erkeç, Yuxarı Ağcakənd və Qaraçinar kənd icmalarına daxil olan 10-12 erməni kəndini 1919-cu ilin ikinci yarısında müvəqqəti Qarabağ general-qubernatorluğunun Cavanşir qəzası ərazisinə qatmaq üçün ermənilər çox geniş təşkilati kampaniyaya başlayırlar və bu işdə onlar hətta nifrət etdikləri

müvəqqəti Qarabağ general-qubernatoru X.Sultanovun köməyindən də bəhrələnməyə çalışmışlar. Burada ermənilərin başlıca məqsədi əgər Paris sülh konfransının qərarı əsasında Dağlıq Qarabağ Ermənistana verilərsə bu əraziləri də Ararat Respublikası ilə birləşdirməkdən ibarət idi. Məlumdur ki, həmin vaxtlar Parisdə sülh konfransında iştirak edən Ermənistan nümayəndə heyəti bu sahədə çox gərgin iş aparır, həmin ərazilərin Azərbaycana aid olmadığı haqqında konfrans iştirakçısı olan dövlətlər, xüsusilə konfransın işinə əsas istiqamət verən müharibədə qalib gəlmiş iri dövlətlərin nümayəndələri arasında dəridən-qabıqdan çıxaraq Azərbaycana qarşı çox gərgin təbliğat işi aparırdılar. Hətta 1919-cu ilin avqust ayında keçirilən Dağlıq Qarabağ ermənilərinin 7-ci qurultayı qərarlarına əsasən Paris sülh konfransı tərəfindən həmin məsələnin qəti şəkildə həllinə qədər Dağlıq Qarabağ Erməni Milli Şurası Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmaq barədə 1919-cu il avqust ayının 26-da Azərbaycan hökuməti ilə müqavilə də imzalamışdır. Bundan istifadə edən ermənilər vaxt var ikən yuxarıda göstərilən kənd icmalarının da Qarabağ general-qubernatorluğunun Cavanşir qəzasına birləşdirilməsinə kömək etmək üçün general-qubernator X.Sultanovla danışıq aparır və hətta onun razılığını da ala bilirlər. Nəticədə həmin ilin sentyabr ayından ciddi-cəhdlə öz ideyalarının reallaşdırılması işinə girişirlər. Bu məsələ ilə bağlı arxivlərimizdə çoxlu tarixi sənədlər qorunub saxlanılır. Tarixi ardıcıllıqla indi onlardan bəzilərini nəzərdən keçirək.

1919-cu il sentyabr ayının 11-də Gəncə qubernatoru Xudadat bəy Rəfibəyov daxili işlər nazirinə məktubla müraciət edərək bildirirdi ki, hökumətin bu il 15 yanvar tarixli qərarı ilə Gəncə quberniyasına daxil olan Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradılmışdır. General-qubernatorun müavininin teleqramından və ermənilərin özlərinin məktublarından görünür ki, Gəncə qəzasının 3-cü polis şöbəsinə daxil olan 10-12-yə qədər kəndi əhatə edən Erkeç, Yuxarı Ağcakənd və Qaraçinar kənd icmaları Qarabağ Erməni Milli Şurasının qərarı ilə özlərini Qarabağ rayonu ərazisinə daxil edilmiş və beləliklə də Qarabağ general-qubernatorluğuna daxil olunmuş hesab edirlər.

Gəncə qubernatoru öz məktubunda bildirirdi ki, ermənilərin bu tələbi hökumətin müvəqqəti general-qubernatorluq yaradılması haqqındakı qərarında göstərilən sərhədlərlə tamamilə ziddiyyət təşkil edir və yuxarıda göstərilən kənd icmalarının Qarabağ general-qubernatorluğuna daxil edilməsi barədə hökumətin yeni bir sərəncamı olmadığı üçün xahiş edirəm mənə məlum edəsiniz ki, bu kəndlərin idarəsini kim həyata keçirməlidir və onlarda əhali tərəfdən qayda-qanun pozulduqda kim buna məsul olmalıdır.

Xudadat bəy sonra bildirirdi ki, bütün bunlarla yanaşı göstərilən kəndlər həmişə Gəncə qəzası ərazisinə daxil olmuş və yerli müsəlman əhalisi üçün həm iqtisadi və həm də məişət şəraiti nöqteyi-nəzərindən mühüm rol oynamışdır. Təkcə o faktı qeyd etmək lazımdır ki, bu kəndlərin Gəncə qəzasından ayrılması yerli müsəlman əhalinin yaylaqlara hərəkəti üçün böyük çətinliklər törədəcək. X.Rəfibəyov məktubunun sonunda daxili işlər nazirinə həmin ərazilərin onun rəhbərlik etdiyi quberniyaya tabe olan Gəncə qəzasının 3-cü polis şöbəsindən çıxarılmaması haqqında sərəncam verilməsini xahiş edirdi. (f. 894, siy. 2, iş 81, vər. 42, 43).

Qarabağ general-qubernatoru müavininin imzası ilə 1919-cu il sentyabrın 5-də Gəncə qubernatoruna göndərilmiş teleqramda deyilirdi ki, Qarabağ ermənilərinin 7-ci qurultayı komissiyasına daxil olmuş məlumata görə Erkeç və Aşağı Ağcakənd kəndləri sizin quberniyanın hakimiyyət orqanları tərəfindən tərksilah edilmişlər. Göstərilən kəndlər Carabert (Cavanşir - A.P.) qəzasına daxildir ki, o da Qarabağ məsələsinin sülh yolu ilə həll edilmə maddəsinə daxil

edilmişdir və Qarabağ ermənilərinin 7-ci qurultayı komissiyasının təklifi ilə hökumət tərəfindən hər iki millətdən olan əhalinin tərksilah edilməsi işi müvəqqəti olaraq dayandırılmışdır. Xahiş edirik, tərk silah işini dayandırasınız, çünki bu iş Dağlıq Qarabağın, xüsusilə Cavanşir qəzasının əhalisini çox narahat edir. (f. 894, siy. 2, iş 81, vər. 44).

1919-cu il avqustun 29-da Carabert qəzası 4-cü polis şöbəsinin pristavı Yuxarı Ağcakənddən Gəncə qəza rəisinə təcili olaraq aşağıdakı məzmunda belə bir cavab vermişdir: "Sizin bu ilin 27 və 28 avqust tarixli təqdimatınıza cavab olaraq bildirirəm ki, hazırda mənə tabe olan polis şöbəsində kəndxudaların köhnə müavinləri yoxdur, yeni müavinlərdi ki, onlar da Qarabağ hakimiyyətinə tabedirlər və göstərilən hakimiyyəti orqanının icazəsi olmadan onların danışıq üçün Çaykəndə sizin yanınıza gəlməyə qanuni hüquqları yoxdur. Biz Gülüstan rayonunun bütün kəndlərinin nümayəndələri ilə birlikdə danışıq aparmaq üçün Çaykəndə sizin yanınıza gəldik. Təəssüflər olsun ki, sizi görə bilmədik və bizə dedilər ki, siz iki saat əvvəl getmişsiniz. Məlumat üçün Carabert rayonu rəisinin 28 avqust tarixli, 88 nömrəli sərəncamını və Gülüstan rayonu əhalisi nümayəndələrinin ümumi yığıncaq protokolunun surətini də sizə göndərirəm". (f. 894, siy. 2, iş 81, vər. 45).

Carabert və Gülüstan rayonları rəisinin 1919-cu il 28 avqust tarixli, 88 №-li sərəncamında deyilirdi: "Carabert rayonu 4-cü polis şöbəsi pristavına - Sizin məlumatınıza cavab olaraq bildirirəm ki, Şuşa şəhərində keçirilən Qarabağ ermənilərinin general-qubernator X.Sultanovun da iştirak etdiyi 7-ci qurultayı belə bir qərar qəbul etmişdi. Qurultayın qərarları haqqında Carabert şurasının üzvü bu il avqust ayının 31-də Ağdərədə keçiriləcək Carabert qurultayında ətraflı məruzə edəcək. 7-ci qurultay bütün əməkçi erməni xalqının arzularını yerinə yetirmişdir. Əməkçi ermənilərin bu istək və arzularını həyati ***cəhətdən bir-birləri ilə bağlı və dost Azərbaycan və Qarabağ xalqları qardaşlıqda yaşamışıq. Biz əməkçi kəndlilər bunu dərk edir və əldə silah bütün avantüralara qarşı mübarizə aparırıq. Bu gün hakimiyyət də həmin xalqın əlindədir. Azərbaycan xalqı və bütün inzibati idarə orqanları erməni xalqının qabaqcıl ziyalılarına imkan verməlidir ki, Qarabağ ermənilərinin 7-ci qurultayı qərarlarının həyata keçirilməsini təşkil və icra etsinlər.*** Yelizavetpol (baxın yuxarıda Qarabağdakı Azərbaycan hakimiyyətinə mədhnamə oxuyan ermənilər Yelizavetpol adının dəyişdirilib Gəncə adlandırılmasını tanımaq belə istəməmişlər - A.P.) qəza rəisinə xəbər verin ki, ***onun hərəkətləri 7-ci qurultayın qərarlarına ziddir. Tam əminəm ki, hər hansı cəhətdən məsələnin gərginləşdirilməsi Azərbaycan Cümhuriyyəti və bütün ermənilər üçün (!) məqsədə müvafiq*** deyil. Mənim məktubumun bütün məzmununu Bəhram bəyə və bizim nümayəndələrə xəbər verə bilərsiniz. Təkrar edirəm bu il avqustun 31-də Ağdərədə qurultay olacaq. Çalışın ki, hər kənddən buraya 50 ev hesabı ilə bir nəfər nümayəndə gəlsin. Şuranın (Qarabağ erməni Milli Şurası nəzərdə tutulur - A.P.) məruzəsi olacaq və yeni inzibati rəhbərlər seçiləcək və onlar təsdiq üçün cənab general-qubernator X.Sultanovun hüzuruna göndəriləcəklər. Əslini Carabert və Gülüstan rayonları rəisi Mirzəbekov imzalamışdır. Carabert qəzası 4-cü polis şöbəsinin pristavı (imza) 29 avqust 1919-cu il". (ARDA: f. 894, siy. 2, iş 81, vər. 45).

Gülüstan kəndində keçirilən Gülüstan rayonu nümayəndələrinin ümumi yığıncağı adından da Gəncə qəza rəisinə aşağıdakı məzmunda cavab məktubu göndərilmişdir. Məktubda deyilirdi: "Sizin Qaraçinar kəndxudasına bu il 27 avqust tarixli sərəncamınıza və sözlü təkliflərinizə əsasən Erkeç kənd icmasının nümayəndələrinin guya özbaşına Qarabağ qubernatorluğuna keçməsi ilə bağlı bildiririk ki, Gülüstan rayonu nümayəndələrinin ümumi yığıncağı məhz

gedirlər, Cavanşirin köçəri maldarları öz yaylaqlarına Gülüstan ərazisindən keçib gedirlər, nəhayət Tərtər bazarı yeganə bazardır ki, gülüstanlılar onlara lazım olan məhsulu orada həm ala və həm də sata bilirlər. Gülüstanın Cavanşirlə bu cür sıxı iqtisadi əlaqədə olması, tələb edir ki, Gülüstan Cavanşirlə inzibati cəhətdən də əlaqədə olsun.

Təhriri məruzədə sonra deyilirdi ki, tarixən və iqtisadi cəhətdən Qarabağla əlaqədə olan Gülüstan çevrilişdən sonra tezliklə özünün Yelizavetpolla əlaqələrini kəsərək nəzərlərini Qarabağa yönəltdi və həm də onunla siyasi münasibətlərə də girdi. Bütün onun idealı və arzuları Qarabağ ermənilərinin arzuları ilə eyni idi. Qarabağla birlikdə Gülüstan da son illərin bütün müsibətlərini yaşamışdır. Qarabağın erməni əhalisi qonşu xalqlarla ***qardaş qırğınına*** son qoymaq qərarına gəlmiş və sülh şəraitində yaradıcı əməyə başlamışdı. Gülüstanlılar da bu qərarı danışıqsız qəbul etdilər və hesab edirlər ki, onların iştirakı bütün Qarabağ ermənilərinin iştirak etdiyi qərarla həll edilməlidir.

Bu cür mülahizələri əldə rəhbər tutan gülüstanlılar Qarabağ ermənilərinin bütün qurultaylarına, o cümlədən Qarabağın dağlıq hissəsi haqqında qəti qərar qəbul edən 7-ci qurultayına da öz nümayəndələrini göndərmişlər.

Yuxarıda göstərilən vəziyyəti nəzərə alaraq biz müvəqqəti Qarabağ general-qubernatoru yanında olan Şuranın üzvləri hesab edirik ki, Gülüstan camaatının xahişinin yerinə yetirilməsi məqsədə uyğundur və Cümhuriyyət quruluşunun tələblərinə cavab verir. (f. 894, siy. 2, iş 81, vər. 57).

Onu qeyd edək ki, Qarabağ general-qubernatoru yanında 6 nəfərdən ibarət şura var idi. Şuranın üzvlərindən 3 nəfəri erməni, 3 nəfəri isə azərbaycanlı idi. Görünür, 3 nəfər erməni qalan 3 nəfər azərbaycanlını da bu işin "ədalətliliyinə" elə məharətlə inandıra bilmişlər ki, təhriri məruzədən də göründüyü kimi azərbaycanlılar da belə bir qərarın qəbuluna razı olmuşdular. Ermənilərə inanıb bu cür təkliflərlə asanlıqla razılaşmağımızın, hər şeyi guya çalışıb sülh yolu ilə həll etməyə səy etməyimizin nəticəsi idi ki, ermənilər bundan məharətlə istifadə edərək bu günə qədər başımıza bu müsibətləri açıblar. Təəssüflər olsun ki, hələ də ayılmamışıq.

Həmin sənədin sonunda belə bir arayış da var: "1919-cu il oktyabrın 17-də 22 nömrə ilə həmin təhriri məruzə göstərilən məsələ barədə iclas protokolları ilə birlikdə hökumət qarşısında məsələ qaldırmaq üçün cənab Qarabağ general-qubernatoruna təqdim edilmişdir".

Göstərilən təhriri məruzə ilə bərabər Qarabulaq, Quşçu,Armavir, Manaşid, Buzluq, Erkeç, Qaraçinar, Gülüstan, Yuxarı Ağcakənd, Xarxaput, Yeni kənd kəndlilərinin guya ümumi yığıncaqlarında qəbul olunmuş sülh sazişləri də bütün kəndlilərin imzası ilə müvəqqəti Qarabağ general-qubernatoru cənab X.Sultanovun ünvanına göndərilmişdir.

Gülüstan rayonunun bütün kəndlərində qəbul edilmiş sülh müqavilələrinin məzmunu eyni idi: "Biz özümüzü Qarabağ ermənilərinin ayrılmaz hissəsi hesab edir və buna görə də Qarabağ ermənilərinin 7-ci qurultayının qərarlarını öz fəaliyyətimiz üçün əsas götürür və yalnız bütün Qarabağ ermənilərinin qəbul etdiyi şərtlərlə Azərbaycana qoşulmağa razıyıq". (bax. ARDA: f.894, siy. 2, iş 81, vər. 58-76).

1919-cu il sentyabr ayının 10-u ilə 20-si arasında yuxarıda göstərilən kənd icmalarına daxil olan bütün kəndlərin yüzlərlə kəndlilərinin iştirak etdiyi ümumi yığıncaqlarında yuxarıda göstərilən məzmunda qərarlar qəbul edilir. Bu yığıncaqların hamısında Yuxarı Ağcakənd sakinləri Levon bəy Ter-Minasovu və Qriqori Ter-Martirosovu onların bu sülh müqavilələrini Qarabağ Erməni Milli Şurasına təqdim etmək üçün nümayəndə seçildikləri bildirilirdi. (bax: ARDA: f. 894, siy. 2, iş 81, vər. 58-76).

Bütün yuxarıda gətirilən faktlardan da görünür ki, Dağlıq Qarabağ ərazisindəki bütün erməni kəndlərinin əhalisinin





25.-3510

Qaraçinar, Yenikənd, Qaxtut, Xarxaput, Gülüstan, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Erməni Borisi, Erkeç, Manaşid, Buzluq, Armavir və Qarabulaq kəndlərinin nümayəndələri məsələni müzakirə edərək aşağıdakı nəticəyə gəlmişlər: Biz faktiki olaraq Qarabağ Erməni Milli Şurasına ***tabe edilmişik***, bununla bərabər bizim rayon tarixən və etnoqrafik cəhətdən Qarabağla bağlıdır və onun ərazisinin ayrılmaz hissəsini təşkil edir. Qarabağ Erməni Milli Şurası Qarabağ məsələsini Azərbaycan Cümhuriyyəti hökuməti ilə sülh yolu ilə həll etmək qərarına gəlib və ermənilərin Qarabağ ermənilərinin 7-ci qurultayı tərəfindən qəbul edilmiş qərarla bu məcburi surətdə bizə də aid edilib. Bütün yuxarıda deyilənləri nəzərə alaraq sizdən xahiş edirik ki, Azərbaycan Cümhuriyyəti hökumətinin hakimiyyətini tanımaq barədə bütün diplomatik danışıqları hər kəndin hörmətli ağsaqqalları ilə deyil, Qarabağ Erməni Milli Şurası və yaxud hakimiyyət nümayəndələri ilə aparasınız". (ARDA: f. 894, siy. 2, iş 81, vər. 45 ardı).

Qarabağ ermənilərinin 7-ci qurultayından, xüsusilə Qarabağ Erməniləri Milli Şurası ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında bağlanılmış sülh müqaviləsindən sonra bu sülh müqaviləsində Carabert qəzasından da söhbət getdiyindən özlərinin də dediyi kimi Rus inqilabından sonra millətlərin öz müqəddəratını təyin etməsi ideyasından istifadə edən Qarabağ erməniləri özlərini müstəqil elan edir və Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmadıqlarını bildirirlər. Həmişə Gəncə qəzasına daxil olmuş Gülüstan rayonunun erməniləri də bu vəziyyətdən istifadə edərək özbaşına özlərinin Qarabağın Cavanşir qəzası ilə birləşdiklərini elan edirlər.

1919-cu il sentyabr ayının 10-da Gəncə qəzasının Gülüstan, Ağcakənd və Erkeç kənd icmalarına daxil olan 13 kəndin kəndlilərinin qurultayı keçirilir və orada yekdil səslə qərara alınır ki, Qarabağ ermənilərinin qurultayı şəxsində



Qarabağın Dağlıq hissəsinin erməni əhalisi ilə Azərbaycan hökuməti arasında bağlanmış müvəqqəti sazişə əsasən bütün hökumət və ictimai ***təşkilatlar qarşısında xahiş edilsin ki, çevrilişə qədər Rusiya hökuməti tərəfindən süni surətdə xalqın mənafei nəzərə alınmadan Qarabağdan qoparılaraq Yelizavetpol qəzasına birləşdirilmiş Gülüstan rayonu Qarabağın mübahisəsiz ərazisi kimi tanınsın.*** Bundan əlavə bu cür müraciətlər Gülüstanın hər bir kəndi tərəfindən də ayrılıqda xüsusi sülh sazişi ilə də qaldırılmışdır. (Əslində kəndlərdə bütün sülh sazişi bu tarixdən sonra qaldırılmışdı - A.P.) Biz aşağıda imza edən müvəqqəti Qarabağ general-qubernatoru yanındakı şura üzvləri Gülüstanın erməni əhalisinin yuxarıda göstərilən xahişi ilə tanış olaraq və həmin əhalinin verdiyi səlahiyyətə əsasən qərara aldıq ki, aşağıda göstərilən əsaslara görə gülüstanlıların xahişini Azərbaycan hökuməti qarşısında müdafiə edək:

1. Tarixən Gülüstan həmişə Qarabağ torpağı olmuş, Qarabağın mərkəzi hakimiyyətinin həm siyasi, həm də dini hakimiyyəti oraya da şamil edilmişdir. O, beş məlikliyin - "Xəmsə"nin tərkibinə daxil olmuşdu. Bunun üçün aşkar sübut odur ki, hətta ruslar gələndən sonra 60-cı illərə qədər də Gülüstanın o vaxt bütün Qarabağı əhatə edən Şuşa qəzasının bir hissəsi hesab olunurdu. (Əgər qəza quberniya və s. bu kimi ərazi bölgülər ruslar Qafqazı işğal etdikdən sonra yaranmışdırsa, onda Gülüstan Şuşa qəzasına necə daxil ola bilərdi - A.P.) Yalnız 60-cı illərdə Rusiya hökuməti hansısa özünə məlum olan səbəblər üzündən Gülüstanı Qarabağdan qopararaq Yelizavetpol qəzasına birləşdirir, məlumdur ki, bu bölgülərdə Rusiya hökuməti əhalinin mənafeindən başqa nəyi istəsəniz əldə rəhbər tuturdu.

2. Gülüstan Qarabağla - daha doğrusu onun bir hissəsi olan Cavanşirlə daha çox əlaqədədir, nəinki Gəncə qəzası ilə. Gülüstan kəndliləri Cavanşir qəzasına torpaq becərməyə

hamısı bir mərkəzdən Qarabağ ermənilərinin Milli Şurası tərəfindən məharətlə idarə olunurdu. Şura isə Ermənistan respublikasının daşnak xislətli rəhbərləri və daşnaksütyun partiyası tərəfindən idarə olunurdu. Bir sözlə bütün bu sənədlərdən onların qısa müddətdə çox mütəşəkkil şəkildə hazırlanmasından da aşkar görünür ki, erməni millətçiləri hər işi necə dəqiq, vaxtında, inadkarlıqla, məharətlə və həyasızlıqla həyata keçirirdilər. Ermənilərə öz işlərində bu günə qədər də uğur qazandıran əsas səbəb onların hər hansı bir məsələ ilə bağlı bu qədər yüksək səviyyədə təşkilatlandırılmalarıdır. Onların müvəffəqiyyətlərinə başlıca səbəb ən alçaq və ağ yalanlarını bu cür yollarla həyata keçirmələri olmuşdur. Onların bu günə qədər qazandıqları bütün uğurlarını milli məsələdə belə birlik nümayiş etdirmələrində, təşkilatlanmalarında və təşkilatlandırılmalarında axtarmaq lazımdır.

1919-cu il sentyabr ayının 23-də daxili işlər naziri əvəzi general-mayor Ağabəyov Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatoru X.Sultanova ünvanladığı məktubla yuxarıda bəhs edilmiş sənədlərin surətlərini də göndərməklə həmin sənədlərdə qaldırılan məsələlərə münasibətdə general-qubernatorun fikri soruşulurdu. (yenə orada vər. 42, 43).

Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatoru X.Sultanov göstərilən məktuba cavab verməyə tələsmir. Məhz cavabı gecikdirdiyi üçün Ağabəyov həmin il oktyabr ayının 28-də yenidən ona müraciət edərək Gəncə qəzası 3-cü polis şöbəsinə daxil olan Yuxarı Ağcakənd, Erkeç və Qaraçinar kənd icmalarına daxil olan 10-12 kənd haqqında məlumat verməyi tələb edir. (yenə orada vər. 42).

1919-cu il noyabrın 18-də Gəncə qubernatoru X.Rəfibəyov yenidən daxili işlər nazirinə müraciət edərək bildirirdi ki, bu il sentyabrın 11-də Erkeç, Yuxarı Ağcakənd və Qaraçinar kənd icmalarının Gəncə qəzası tərkibinə daxil edilməsi barədə məsələ ilə bağlı göndərdiyim məktuba əlavə olaraq yeni sənədləri də göndərirəm. Onu da bildirirəm ki, orada Gülüstan rayonuna daxil olan bütün kənd icmaları haqqında deyil, yalnız həmişə Gəncə qəzasına daxil olmuş üç kənd icması barəsində söhbət gedir. Yuxarıda göstərilən kənd icmalarının əhalisi Qarabağa birləşmək barədə öz tərsliklərində inad edir, yaranmış asayişin pozulması şəraitini nəzərə almaq istəmirlər. Aran yerlərdə yaşayan müsəlman əhalisindən şikayətlər daxil olur ki, dağlıq hissənin erməniləri yay vaxtı bilərəkdən suyu başqa səmtlərə yönəltmişlər və nəticədə müsəlmanların əkin sahələri sudan məhrum olmuş və onları məhsulsuzluq təhlükəsi gözləyir. (yenə orada vər. 46).

Gəncə qubernatorunun bu məktubuna cavab olaraq daxili işlər nazirliyi dəftərxanası rəisi Ü.Ağasıbəyov özünün 1919-cu il 3 dekabr tarixli, 1229 №-li məktubu ilə bildirirdi ki, sizin bu il 11 sentyabr tarixli 12601 №-li məktubunuzda qaldırdığınız məsələ barədə Qarabağ general-qubernatoruna sorğu göndərilmiş, lakin bu günə qədər qubernatordan cavab alınmamışdır.

Dəftərxana elə həmin gün Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzaları müvəqqəti general-qubernatoruna da eyni məzmunda məktub göndərilərək bu məsələ ilə bağlı tezliklə cavab verməsi xahiş olunurdu (yenə orada vər. 46 arxası).

1919-cu il noyabr ayının 1-də Gəncə qubernatoru X.Rəfibəyov Gəncə qəza rəisinə göndərdiyi məktubla Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaratmaq haqqında Azərbaycan Cümhuriyyəti hökumətinin 1919-cu il 15 yanvar tarixli qərarının və müvəqqəti general-qubernatorun 1919-cu il 21 oktyabr tarixli, 7135 №-li məktubunun surətlərini göndərərək təklif edirdi ki, Erkeç, Yuxarı Ağcakənd və Qaraçinar kənd icmalarına elan edin ki, özlərinin bütün işləri

barədə onlar Cavanşir qəzasının deyil, Gəncə qəzasının inzibati idarə orqanlarına müraciət etməlidirlər. Eyni zamanda kənd ağsaqqallarına və kəndxudalara təklif edin ki, onların cəmiyyətlərinə aid bəzi məsələləri aydınlaşdırmaq üçün mənim hüzuruma gəlsinlər. (f. 894, siy. 2, iş 81, vər. 48).

Müvəqqəti general-qubernatorun 1919-cu il oktyabrın 21-də Gəncə qubernatorunun ünvanına göndərdiyi məktubda deyilirdi: "Keçən sentyabr ayının 13-də göndərilmiş 12697 №-li məktuba cavab olaraq bildirirəm ki, Cavanşir qəza rəisinə sərəncam vermişəm ki, Erkeç, Yuxarı Ağcakənd və Qaraçinar kənd icmalarına aid bütün işləri sizin sərəncamınızda olan quberniyanın idarələrinə göndərsinlər". (f. 894, siy. 2, iş 81, vər. 50).

Həmin il noyabr ayının 14-də Gəncə qəza rəisi yuxarıda göstərilən məktuba cavab olaraq Yuxarı Ağcakənd, Qaraçinar və Erkeç kənd icmaları ağsaqqallarının rəyini Gəncə qubernatoruna göndərmişdi. (f. 894, siy. 2, iş 81, vər. 51-52).

Göstərilən cavabda deyilirdi ki, noyabrın 12-də Yuxarı Ağcakənddə biz rəsmən Gəncə qubernatorunun Gəncə qəza rəisinə məktubu, Azərbaycan Cümhuriyyəti hökumətinin Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları ərazisində müvəqqəti general-qubernatorluq yaradılması və müvəqqəti general-qubernatorun 21 oktyabr tarixli 7135 №-li məktubu ilə tanış edildik.

1919-cu il noyabrın 9-da qəza rəisi öz növbəsində Mixaylovka kənd icmasının kəndxudası Aleksey Oçiyevi ezam etmiş və o, yuxarıda göstərilən yazışmalar barəsində məlumat vermək üçün bütün icmaların nümayəndələrinin ümumi yığıncağını keçirmişdi.

Rəydə göstərilirdi ki, həm Gəncə, həm də Qarabağ quberniya idarələrinin sərəncamları Gülüstan rayonu nümayəndələri üçün tam gözlənilməz oldu. Göstərilən məsələnin hərtərəfli müzakirəsindən sonra bütün icmaların nümayəndələrinin ümumi yığıncağı aşağıdakı qərara gəldi:



Məlumdur ki, Carabert qəzası, haraya ki, Gülüstan rayonu da daxildir, əzəldən də Qarabağa daxil olmuş, özünün tarixi və etnoqrafik əlamətlərinə görə Carabert ilə təbii və sıx əlaqədədir.

1868-ci ildə Yelizavetpol quberniyası tabeliyində yeni qəzalar yaradılarkən Gülüstan rayonu özünün istəyinin əksinə olaraq Carabertdən ayrılaraq inzibati cəhətdən rahatlıq məqsədi ilə Yelizavetpol qəzasına birləşdirilmişdir. Dini işlərə münasibətdə isə Gülüstan rayonu Carabertin tərkibində qalmaqda davam etmiş və son 2-3 ilə qədər Qarabağ erməni eparxiya konsistoruna daxil idi.

Böyük Rus inqilabından sonra xalqların öz müqəddəratını təyin etməsi haqqındakı ümumi şüar irəli sürüldükdən sonra ***Qarabağ ermənilər də özləri üçün belə bir hüququ qəbul etdi və bu məsələyə aid çoxsaylı erməni qurultaylarında ingilis komandanlığının nümayəndəsi Şatolvort da iştirak edirdi. Qurultay bu təklifi qəbul etdi və hətta Dağlıq Qarabağın planını da cızdı, harada ki, onun tərkibinə Gülüstan rayonu da daxil edilmişdir.*** Gülüstan rayonu 1919-cu ilin martından faktiki olaraq Qarabağa birləşdirilmiş və bu günə qədər də Carabert qəzası rəhbərliyi tərəfindən idarə olunur.

Sonra cavabda göstərilirdi ki, Azərbaycan hökuməti ilə Qarabağ Erməni Milli Şurasının şəxsində erməni nümayəndələrinin arasında yaranmış mübahisə tezliklə 1919-cu ilin avqustunda sülh sazişi ilə başa çatdı. Sazişdə Carabert termini işlədilmiş və ***Gülüstan rayonunun Gəncə qəzasından çıxarılaraq Qarabağa birləşdirilməsinə general-qubernator cənab Sultanov da təntənəli şəkildə söz vermişdi. Gülüstan rayonunun hər bir kəndi ayrılıqda cənab general-qubernatorun istəyinə əməl edərək özlərinin Qarabağla birləşmək haqqındakı tərəddüdsüz qərarlarını izhar edir və bu haqda hökmlərini öz nümayəndələri vasitəsi ilə Qarabağ Erməni Milli Şurasına***

*göndərmişdilər.* Şura isə öz növbəsində o vaxt onları general-qubernatora təqdim etmişdi. General qubernatorun müavini Q.Kalantarov isə oktyabrın 2-də nümayəndələrə elan etmişdi ki, bu məsələ demək olar ki, həll olunub. Ancaq qalır formal şəkildə bu haqda Gəncə qubernatoruna da məlumat vermək və onun da razılığını almaq. Bunun üçün isə yəqin ki, 2-3 gün vaxt çəkər.

Nəhayət bu yaxınlarda Azərbaycan Cümhuriyyəti hökumətinin başçısı cənab Yusifbəyov Gəncə şəhərində olarkən ermənilər banket zamanı erməni milli şurası şəxsində sözarası Gülüstan məsələsinə də toxunurlar. Bu barədə cənab Yusifbəyov camaat qarşısında açıq şəkildə bəyan etdi ki, Qarabağ və Gəncə qubernatorları arasında hər hansı yazışmanın olmasına baxmayaraq bu məsələ özünün qəti həllini yalnız parlamentdə tapa bilər.

Cavabda daha sonra deyilirdi ki, oktyabrın 29-da general-qubernator yanında fövqəladə birləşmiş qurultayda, harada ki, general-qubernator yanındakı şuranın üzvləri də iştirak edirdi. Ermənilər L.Azeşanetov, D.Yaroneimov və A.Balasanov və üç nəfər müsəlman - Gülüstan rayonunun iştirakı haqqında məsələ qaldırdı. Gülüstan rayonu nümayəndələri və şuranın başqa üzvləri də tələb etdilər ki, Parlamentdə Gülüstan rayonunun Qarabağa qəti şəkildə birləşdirilməsi məsələsinin həllinə nail olsunlar. Şura üzvləri təntənəli şəkildə söz verdilər ki, xalqın istəyini yerinə yetirəcəklər və xalq səbirsizliklə özlərinin qanuni şəkildə parlamentdə iştiraklarını gözləyirlər.

Bütün bunlarla yanaşı, Gülüstan rayonunun nümayəndələri bu il noyabr ayının 1-də Gəncə Erməni Milli Şurasına da onların bu təşəbbüsünün müdafiəsi xahişi ilə də müraciət edərək onların da Gəncə qubernatorundan həmin rayonun Qarabağa birləşdirilməsinə razılıq verməsi xahişi ilə ona müraciət etsinlər.

Cavabın sonunda deyilirdi ki, bütün göstərilən izahatları



nəzərə alaraq ki: 1) yazışmalarda Azərbaycan hökumətinin *1919-cu il 15 yanvar tarixli müdrik (!)* qərarında gətirilən iqtibasların bu məsələyə heç bir aidiyyəti yoxdur və 2) Qarabağ və Gəncə rəsmi idarələrinin sərəncamları Azərbaycan hökuməti ilə Qarabağ ermənilərinin 7-ci qurultayı arasında bağlanmış müqavilənin Carabert - hansı ki, tərkibinə Gülüstan rayonu da daxildir - şərtlərini pozur. Gülüstan rayonu - Qaraçinar, Yuxarı Ağcakənd və Erkeç kənd icmalarının və onların ağsaqqallarının şəxsində cənab Gəncə qubernatorundan acizanə xahiş edir ki, faktiki olaraq Qarabağa daxil olan Gülüstan rayonunun vəziyyətinin axıra qədər öyrənilməsi üçün bizə möhlət versin. Cavab yığıncaq iştirakçılarının razılığı ilə 12 nəfər səlahiyyətli şəxs tərəfindən imza edilmiş, kəndxudanın imza və möhürü ilə təsdiq olunmuşdur. (ARDA: f. 894, siy. 2, iş 81, vər. 51, 52).

Cavanşir qəzası 4-cü polis şöbəsinin pristavı Ter-Leonov 1919-cu il dekabrın 3-də Erkeç və Ağcakənd kənd icmalarının barışıq sazişini Cavanşir qəzası rəisinin adına göndərərək xahiş edirdi ki, həmin kənd icmalarının Cavanşir qəzası ərazisinə birləşdirilməsi barədə bu barışıq qərarını lazımi yerə çatdırsın. Pristavın məktubunda sonra deyilirdi ki,cənab müvəqqəti Qarabağ general-qubernatoru tərəfindən mən sizin tabeliyinizdə olan 4-cü polis şöbəsinə pristav təyin olunarkən gələcəkdə məsələ tam şəkildə həll olunana qədər mənə Gülüstan rayonunu da idarə etmək tapşırılmışdır. Məlumat verirəm ki, hazırda Gülüstan rayonunda inzibati xidmət üçün mənim tərəfimdən təyin olunmuş bir uryadnik və 5 nəfər stracnikdən ibarət komanda qoyulmuşdur. (ARDA: f. 894, siy. 2, iş 81, vər. 78).

Həmin raport Erkeç və Ağcakənd kənd icmalarının barışıq sazişi ilə birlikdə Cavanşir qəza rəisi tərəfindən baxılmaq üçün müvəqqəti Qarabağ general-qubernatorunun ünvanına göndərilmişdir. Demək olar ki, bu kənd icmalarının keçmiş barışıq müqavilələrinin ümumiləşdirilmiş

variantı olan həmin sənəddə göstərilirdi ki, biz Ağcakənd kənd icmasının aşağıdakı kəndlərinin - Qaraçinar, Yenikənd, Qaxtut, Xarxaput, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Erməni Borisi və Gülüstanın - 811 evdən ibarət sakinləri Cavanşir qəzası 4-cü polis şöbəsinin pristavı Ter-Akopovun iştirakı ilə Gülüstan rayonunun etnoqrafik cəhətdən Qarabağa daxil olması məsələsini müzakirə etdik.

Eyni məzmunda məsələni Erkeç kənd icmasına daxil olan kəndlərin - Erkeç, Buzluq, Manaşid, Qarabulaq və Armavir kəndlərinin 331 evdən ibarət sakinləri tərəfindən də Cavanşir qəzası 4-cü polis şöbəsinin pristavı Ter-Akopovun iştirakı ilə müzakirə edilir. (ARDA: f. 894, siy. 2, iş 81, vər. 79-90).

Onu da qeyd edək ki, hər iki barışıq sazişinin altında ayrı-ayrı kəndlərin adları ayrı-ayrılıqda yazılmaqla həmin yazıların altında göstərilən kəndin sakinləri imza etmiş və ya onların familiyaları ardıcıllıqla yazılmış və hər kəndin kəndxudasının müavini tərəfindən imzalanmış və möhürlənmişdir. Hər iki barışıq sazişinin axırında isə 4-cü polis şöbəsinin pristavı "Yazılmış barışıq sazişi mənim iştirakımla yazılmış və imzalanmışdır" qeydini yazaraq özü də imzalamışdır. (f. 894, siy. 2, iş 81, vər. 79-90).

Hər iki barışıq sazişinin birinci səhifəsində deyilirdi ki, bizim rayonun əhalisi tamamilə ermənilərdən ibarət olduğundan, rusların Zaqafqaziyanı işğalına qədər, daha doğrusu ruslar buraya gələnə qədər Qarabağın ayrılmaz hissəsi idi. Gülüstan məlikliyi beş erməni məlikliyindən biri idi. Bunu indi də qalan Məlik Yusifin Gülüstan qalası "Xəmseyi-Melikutun" sübut edir.

Rusiya mütləqiyyəti bizimlə hesablaşmayaraq və bizim iradəmizin əksinə olaraq bizim rayonu Qarabağdan ayırdı. Ancaq Rusiya bizi mənəvi cəhətdən Qarabağdan ayıra bilmədi, indiyə qədər də bizim dini rəhbərlərimiz Qarabağ konsistoriyası ilə əlaqədədir və onun tabeliyində olmuşdur.



Sonra həmin sənəddə deyilirdi: "Nəhayət biz II Nikolayın qulları olmadığımız ***üçün, bizimlə dayanaqla danışılmadığı üçün, Azərbaycan Cümhuriyyətinin vətəndaşları olduğumuz üçün (!!!), biz güclə bizim Gülüstan rayonunun Qarabağdan ayrılmasına etirazımızı bildiririk və elan edirik ki, Azərbaycan Cümhuriyyətinin hakimiyyətini tanıyırıq və biz onun qarşısında vətəndaşlıq borcumuzu yerinə yetirməyə hazırıq. Bu vaxta qədər bizim rayonda qayda-qanun hökm sürüb, Qarabağ general-qubernatoru tərəfindən təyin olunmuş Azərbaycan hakimiyyətinin nümayəndələri - pristav Ter-Akopov və rəis Kabulov, yəni siz varsınız cənab rəis.*** Ona görə də xahiş edirik ki, cənab rəis bizim hüquqlarımızı qoruyun və güclə bizi Qarabağdan ayırmağın qarşısını almaq üçün bütün tədbirləri görün". (f. 894, siy.2, iş 81, vər. 79-87).

1919-cu il dekabr ayının 2-də Daxili İşlər Nazirliyi dəftərxanası direktorunun imzası ilə müvəqqəti Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının dəftərxanasına göndərilmiş məktubda bildirilirdi ki, dəftərxana cənab nazir müavininin göstərişinə əsasən Gəncə qubernatorunun 12601 №-li raportuna, hansı ki, surəti bu il sentyabr ayının 22-də 9161 №-li məktubla və 28 oktyabr tarixli, 10562 №-li məktublarla sizə göndərilmiş Erkeç və digər kəndli cəmiyyətlərinin 10-12 kəndinin Gəncə qəzasına daxil edilməsini təsdiq edən məktublara cavab verilməsini sürətləndirməyi xahiş edir. (yenə orada və. 91).

1919-cu il dekabr ayının 10-da N.Yusifbəyli hökumətində portfelsiz nazir, milliyyətcə erməni X.Amaspur daxili işlər nazirinin ünvanına göndərdiyi məktubda bildirirdi ki, Gəncədən, milli erməni şurasının sədrindən aldığım teleqramın surətini sərəncamınıza göndərirəm. (yenə orada vər. 53).

1919-cu il dekabr ayının 15-də daxili işlər naziri əvəzi general-mayor Ağabəyovun imzası ilə yenidən Şuşa,

Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatoruna məktub göndərilərək, həmin il sentyabr ayının 22-də göndərilmiş 9161 №-li məktuba əlavə olaraq Azərbaycan Cümhuriyyəti hökumətində portfelsiz nazir X.Amaspur tərəfindən alınmış və orada göstərilən kənd icmaları sakinlərinin teleqramlarında Gəncə qəzası və quberniyasının 3-cü polis şöbəsi tərkibində qalması arzusu bildirilir. (yenə orada vər. 92, 93).

1919-cu il dekabr ayının 4-də Gəncə şəhərindən, erməni milli şurası adından portfelsiz nazir X.Amaspurun ünvanına göndərilmiş yuxarıda adı çəkilən teleqramda deyilirdi: "Bu gün Ağcakənd, Qaraçinar [və] Erkeç kənd icmalarının nümayəndələri qubernatora təqdim olundular. Göstərilən kənd icmalarının Qarabağa, yaxud Gəncəyə tabe olması barədə mövcud anlaşılmazlıqlar haqqında izahat verdilər və Gəncə qubernatorunun hakimiyyətini qəbul etdiklərini bildirdilər. Beləliklə də, bu məsələ ilə bağlı anlaşılmazlıqlar sona yetdi. Milli şuranın sədri Melik-Şahnazarov". (yenə orada vər. 54).

1919-cu il dekabr ayının 16-da daxili işlər nazirliyi tərəfindən bu barədə müvəqqəti Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur general-qubernatoruna da məlumat verilir. (yenə orada vər. 53).

Görünür ki, Qarabağ və Gəncə qubernatorları arasında sərhəd məsələləri ilə bağlı narazılıqlar sonra da davam etmişdir. Bunu 1919-cu il yanvar ayının 4-də N.Yusifbəylinin təşkil etdiyi beşinci hökumətdə daxili işlər naziri vzifəsini tutmuş M.H.Hacınskinin eyni vaxtda həm Gəncə qubernatoruna və həm də Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatoruna göndərdiyi məktublar da sübut edir. Həmin məktublarda M.H.Hacınski hər iki qubernatora bildirirdi ki, hazırkı dövrdə Gəncə və Cavanşir qəzaları arasında sərhəd dəyişiklikləri aparmağı məqsədə müvafiq hesab etmirəm,



həmin sərhədlər hələlik olduğu kimi qalmalıdır. Xahiş edirəm bu barədə müvafiq sərəncamlar verəsiniz. (yenə orada vər. 55).

1920-ci il yanvar ayının 27-də Gəncə qubernatoru Xudadat bəy Rəfibəyov daxili işlər nazirinə göndərdiyi yeni məktubunda yuxarıda göstərilən üç kənd icmasına aid məsələnin Gəncə qəzasının xeyrinə həll edildiyi barədə məlumat verirdi. Məktubda deyilirdi: "Keçən ilin noyabrında Erkeç, Qaraçinar və Ağcakənd kənd icmalarından 30 nəfərə yaxın nümayəndə, parlament üzvü A.Ter-Azarevin və Gəncə şəhər başçısının müavini S.Ter-İzraelyanın iştirakı ilə mənim yanıma gələrək bəyan etdilər ki, onların təmsil etdikləri rayonun bütün əhalisi istəyirlər ki, onların rayonu Cavanşir qəzasına deyil, Gəncə qəzasına daxil edilsin. Onların sözünə görə onların həm iqtisadi və həm də digər mənafeləri Gəncə qəzası ilə daha çox əlaqədədir, həm də onların kəndləri həmişə Gəncə qəzasına daxil olmuşdular. Onların bəyanatlarına görə rayonlarının Gəncə qəzasına daxil edilməsinin əleyhinə olanlar yalnız az təminatlı sinfin nümayəndələri və cinayətkar ünsürlərdən olan bir neçə şəxslərdi ki, onlar öz şəxsi mənafeləri üçün istəmirlər ki, Gəncə qəzası inzibati-idarə sisteminə tabe olsunlar. Ona görə də onlar bu rayonun Cavanşir qəzasına daxil edilməsini istəyirlər. Rayonun Cavanşirin mərkəzindən uzaq olması onlara imkan verəcəkdir ki, qəza inzibati-idarə orqanları tərəfindən heç bir nəzarət olmadan öz işlərini qursunlar".

Məktubda sonra deyilirdi ki, göstərilən iki qəza arasında köhnə sərhədləri saxlamaq haqqında siz zati-alilərin sərəncamına əsasən mənim tərəfindən Gəncə qəzası rəisinə müvafiq göstərişlər verilmiş və sizin Şuşa və digər qəzaların müvəqqəti general-qubernatoruna göndərdiyiniz sərəncam haqqında da ona məlumat çatdırılmışdır.

Bu rayonun Gəncə qəzası tərkibinə daxil edilməsinin həmin rayondan su alan, yay aylarında isə öz sürüləri ilə bu

rayonun dağlarına köçən 3-cü polis şöbəsi ərazisinin müsəlmanları üçün də böyük əhəmiyyəti vardır.

Məktubun sonunda deyilirdi: "Beləliklə ermənilərlə məskunlaşmış bu rayonun Gəncə qəzasından ayrılması 3-cü polis şöbəsinə daxil olan müsəlman kəndləri üçün böyük fəlakət olardı". (ARDA: f. 894, siy. 2, iş 81, vər. 94).

Nəhayət 1920-ci il fevral ayının 5-də daxili işlər nazirinin müavini Mustafa bəy Vəkilov bu məsələ ilə bağlı həm Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarının müvəqqəti general-qubernatoru, həm də Gəncə qubernatorunun adına ünvanladığı 1333 və 1334 №-li məktublarda bildirirdi ki, bu il 4 yanvar tarixli 87 və 88 №-li məktublara əlavə olaraq bildiririk ki, Gəncə və Cavanşir qəzalarının ərazisi olduğu kimi saxlanılır və heç bir dəyişiklik edilməyəcəkdir. (f. 894, siy. 2, iş 81, vər. 94, 95).

Beləliklə də, Gəncə qubernatoru Xudadat bəy Rəfibəyovun göstərilən məsələyə münasibətdə tutduğu prinsipial mövqei nəticəsində ermənilərin bir hiyləsi də baş tutmadı və nəticəsiz qaldı. Kaş ki, xalqımızın əlində səlahiyyəti olan nümayəndələri həmişə bu cür prinsipial və qərəzsiz mövqe tutardılar. Elə olsaydı, onda bu gün bizim nə Zəngəzur, nə Qarabağ dərdlərimiz, nə də Xocalı kimi müsibətli faciəmiz olardı.

**"Dirçəliş - XXI əsr" jurnalı,**
**sentyabr 2001-ci il, № 43**



# TARİXDƏN SƏHİFƏLƏR

# XEYİRXAHLIQ MÜCƏSSƏMƏSİ

***(tarixdən səhifələr)***

Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndələri arasında özünün nüfuzuna, xalq arasında hörmətinə, xeyriyyə işlərinin təşkilindəki roluna görə Hacı Zeynalabdin Tağıyev xüsusilə fərqlənirdi. Özü də xeyirxah əməllərinə görə o, təkcə Azərbaycanda, Rusiyada deyil, bütün Şərq aləmində dərin hörmət qazanmış, ad çıxarmışdı. H.Z.Tağıyev öz dövründə baş verən az-çox əhəmiyyətli elə bir hadisə olmamışdır ki, ona öz münasibətini bildirməsin, elə bir təbii hadisə və fəlakət olmamışdır ki, zərərdidələrə kömək əli uzatmasın.

Hacı Zeynalabdin Tağıyev həyatda nə əldə etmişdirsə, yalnız öz zəhmətinin və fitri istedadının bəhrəsi idi.

Bakıda yoxsul başmaqçı ailəsində həyata göz açan Zeynalabdin artıq 10 yaşında bənna yanında köməkçi işləməyə məcbur olur. İlk iş günündə Zeynalabdin altı qəpik əmək haqqı alır və aparıb atasına verir. Oğlunun ilk qazancına pendir-çörək alan atası bütün ailəni Zeynalabdinin qazancına qonaq edir. Oğlunun puluna aldığı pendir-çörəyi fərəhlə yeyən atası deyir: "Pərvərdigara! Çox şükür ki, oğlumun qazancını yeyirəm". Bu söz balaca Zeynalabdinə böyük təsir edir, onu zəhmətə daha da ruhlandırır.

Bütün günü zəhmətlə əlləşən Zeynalabdin bənnalığın bütün sirrlərini yaxşıca mənimsəyir. Sonra podrat işləri ilə məşğul olmağa başlayır. Əlinə bir qədər sərmayə toplayan Zeynalabdin podrat işlərini də buraxaraq neft işləri ilə məşğul olur. Podrat işlərindən əldə etdiyi vəsait neft işində bilmərrə əlindən çıxır. Lakin o, məyus olmur, səylə çalışır, gününü

zəhmətdə keçirir. Minbir əziyyətlə qazdığı quyudan nəhayət ki, neft fantanı vurur. Həmin gündən də H.Z.Tağıyevin işləri günbəgün qabağa gedir. Hacı məhşurlaşır, xalq arasında əsl nüfuz sahibinə çevrilir. Onun müəssisələrində işləyənlər deyirdilər: "Biz bu şəxsin səbrinə və zəhmətinə təəccüb edirik, bilmirik Hacı iyirmi dörd saatda nə vaxt rahat olur".

Zeynalabdin isə atasının bu sözlərini qulaqlarında həmişəlik sırğa etmişdi: "Zəhmətdən qorxmayın uşaqlar!".

Bəli, bü cür zəhmətin nəticəsi idi ki, yoxsul ailədə dünyaya göz açan, uşaqlıqda həyatın bütün ağrı-acılarını dadan Hacı Zeynalabdin Tağıyev bütün Azərbaycan xalqının sevimlisi oldu. Bu zəhmətin nəticəsi idi ki, adını belə yaza bilməyən yoxsul başmaqçı oğlu Zeynalabdin birinci gildiya tacir, Rusiyanın nəslən fəxri vətəndaşı, həqiqi mülki müşavir (çar Rusiyasında bu ad general-mayor rütbəsinə bərabər idi - A.P.), saysız-hesabsız cəmiyyətlərin sədri, fəxri sədri, üzvü, tədris müəssisələrinin fəxri popeçiteli və s. kimi mənsəblərə çatır.

Azərbaycanda XIX əsrin axırlarından başlayaraq az-çox tarixi hadisəyə çevrilən elə bir tədbir olmurdu ki, onun rəyasət heyətində Hacı Zeynalabdin Tağıyev oturmasın, yaxud onun fəxri sədri olmasın. Güclə ad və familiyasının baş hərflərinin şəkilini çəkə bilən bu adam özünün fitri istedadı, dərin zəkası ilə həmin hadisələrə istiqamət verir, yol göstərirdi.

H.Z.Tağıyev dəfələrlə qeyd etmişdir ki, xalqın tərəqqisi və qabağa getməsi üçün elm və maarif başlıca şərtdir. Hacı çox yaxşı başa düşürdü ki, elmsiz, maarifsiz xalq inkişaf və tərəqqi edə bilməz. Ona görə də özünün xeyirxah əməllərini ən çox bu səmtə yönəldirdi. O, xalqın maarifləndirilməsi yolunda heç nə əsirgəmir, məktəblər açmağa, azərbaycanlı uşaqların ali savad alması üçün əlindən gələn köməyi göstərirdi. Bu iş üçün Hacıya müraciət edən heç vaxt naümid qayıtmırdı. Hacının bu xeyirxah əməlləri çar hakimiyyəti orqanları məmurlarının da diqqətini cəlb edir. Bu günlərdə Tbilisidən Gürcüstan Respublikasının Tarix Arxivindən Qafqaz tədris dairəsi



müəssisələrinə kömək sahəsindəki böyük xidmətlərinə görə Qafqaz tədris dairəsi popeçitelinin Hacı Zeynalabdin Tağıyevə həqiqi mülki-müşavir rütbəsi verilməsi məsələsi ilə əlaqədar 1906-cı ilin dekabrında Qafqaz canişininə məktubu və bu məsələ ilə bağlı digər sənədlərin surətlərini almışıq. Burada həmin məktubla yanaşı H.Z.Tağıyevin xalq maarif işləri sahəsindəki xidmətləri barədə məlumat, Bakı orta texniki məktəbinin fəxri popeçiteli Hacı Zeynalabdin Tağıyevin xidmət dəftərçəsi (poslujnoi spisok), Bakı texniki məktəbi direktorunun H.Z.Tağıyevin məktəbə köməyi haqqında rəyi və digər sənədlər vardır.

Bu sənədlərdə deyilir ki, H.Z.Tağıyev 1896-cı ildən 1906-cı ilə qədər Bakıda rus-müsəlman (azərbaycanlı-A.P.) qız Aleksandrinski məktəbinin, Bakı texniki məktəbin, realnı məktəbin, Əhmədli kəndi yaxınlığındakı toxuculuq fabriki yanında ibtidai məktəb üçün bina və sair tikilməsinə 181 min manatdan çox pul xərcləyir.

Bakıda Kommersiya məktəbi, vilayətdə Azərbaycan dilində müxtəlif ibtidai məktəblər açılmasına, Qori və İrəvan müəllimlər seminariyasına, Bakıda müqəddəs Nina məktəbinə və digər orta tədris müəssisələrinə, məscidlər və kilsələr yanındakı dini məktəblərə, Bakıdakı Tağıyev qız məktəbinin ehtiyat kapitalı və s. üçün 228.272 manat ianə edir.

İmperiyanın və Xarici ölkələrin ali və orta ixtisas məktəblərində oxuyan azərbaycanlı tələbələrə təqaüd təyin etmək, onlara paltar və dərs ləvazimatı almaq üçün, Quranın Azərbaycan dilinə tərcüməsi və nəşri, azərbaycanlı müəlliflərin müxtəlif kitablarının nəşri və yayılmasına, habelə Azərbaycan dilində müxtəlif dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasına, tədris müəssisələrində ekskursiyaların təşkili və s. üçün 138.472 manat ianə edir.

Ümumiyyətlə 1896-cı ildən 1906-cı ilin yanvarına qədər olan 10 il müddətində Hacı Zeynalabdin Tağıyevin təkcə maarif işləri üçün ayırdığı vəsaitin məbləği 548 min manat



26.-3510

olmuşdur. O dövr üçün bu çox böyük rəqəm idi. Belə bir məbləği yalnız öz xalqının həqiqi xeyirxahı, onun maariflənməsi yolunda sidqi ürəkdən çalışan bir şəxs edə bilərdi.

Qafqaz canişininin təqdimatı və Rusiya imperatoru II Nikolayın əmri ilə 1907-ci ilin yanvarın 25-də Kommersiya müşaviri Hacı Zeynalabdin Tağıyevə həqiqi mülki müşavir rütbəsi verilir.

Respublikamızın Tarix Arxivində saxlanılan digər bir sənəddə isə 1890-cı ilin aprelindən 1912-ci ilin yanvarına qədər H.Z.Tağıyev tərəfindən xeyriyyə işləri üçün ayrılmış vəsaitin dəqiq uçotu aparılmışdır. Həmin sənəddəki məlumata görə 1890-cı ildən 1912-ci ilin yanvarına qədər Hacının xeyriyyə işlərinə ayırdığı vəsait təxminən bir milyon manata yaxın, daha dəqiqi isə 917.744 manat olmuşdur.

Bütün bunlarla yanaşı, görünür ki, Hacı təmtərağa, şan-şöhrətə aludə adam olmayıb. O dövrdə sahibkarlar arasında təmtəraqlı firma blankları hazırlatmaq, burada müxtəlif yarmarkalarda aldıqları medalların, fabrik-zavodlarının şəkillərini verdirmək dəb idi. Onlar öz firmaları üçün xüsusi firma nişanları da hazırladırdılar. Maraqlıdır ki, azərbaycanlı tacirlər və sahibkarlar arasında da belələrinə rast gəlirik. Hacının blankları isə çox sadə idi. Firma nişanlarına isə demək olar ki, rast gəlmirik. Görünür Hacı başa düşürdü ki, elə blanklar Hacıya şöhrət gətirə bilməz, əksinə Hacının adı hər hansı kağız parçasının qiymətini qat-qat artırırdı. Bir sözlə Hacı öz çəkisini çox yaxşı bilirdi.

Uzun illər arxivlərdə H.Z.Tağıyevə aid sənədlərlə əlaqədar apardığımız müşahidələr bu fikri bir daha sübut edir. Bu sənədlərdə biz həmişə Hacının sadə blanklarına rast gəlmişik. Bu günlərdə isə tamamilə gözlənilmədən Hacının hələ birinci gildiya tacir olduğu vaxt 1898-ci ildə hazırlatdığı firma blankına rast gəldik.

1898-ci il mayın 15-də Hacının özü tərəfindən imza olunmuş və "H.Z.Tağıyevin lifli məlumatlar emalı üzrə Qafqaz



səhmdar cəmiyyəti" yaratmaq haqqında əlahəzrət imperator tərəfindən təsdiq olunmuş Nizamnaməni qeydiyyatdan keçirmək üçün Bakı şəhər idarəsinə göndərdiyi məktubun yazıldığı blank diqqətimizi cəlb etdi. Oxuculara təqdim etdiyimiz həmin blank hələ ki, Hacının bizə məlum olan, onun aldığı medallarda həkk olunmuş yeganə blankıdı.

Görünür ki, sonralar məhşurlaşdıqca təbiətən təvazökar olan Hacı bu cür təmtəraqlı blanklardan imtina etmiş, öz məktublarını daha çox sadə üsullarla hazırlanmış blanklarda yazdırmışdı.

**"Dalğa" qəzeti,**
**2 oktyabr 1991-ci il, № 39**

# AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTLƏRİ

XX əsrin əvvəllərində neft sənayesinin sürətlə inkişafı Bakını təkcə çar Rusiyasının deyil, dünyanın ən iri sənaye şəhərləri sırasına çıxarır. 1900-cü ildə Bakıda bütün dünyada hasil olunan neftin yarıdan çoxu çıxarılırdı. Bu vaxt artıq xarici kapital Bakı neftinə nüfuz etmişdi. XIX əsrin son illərində Azərbaycanda altı ingilis, üç fransız, iki Belçika və bir yunan kompaniyası fəaliyyət göstərirdi.

Sənayenin inkişafı cəmiyyətin həyatında da köklü dəyişikliklər yaradır. Bakı sənaye mərkəzi ilə yanaşı, həm də fəhlə mərkəzinə çevrilir. Rusiyanın mərkəzi və cənub rayonlarından və İrandan (əsasən Cənubi Azərbaycandan) Bakıya çoxlu işsizlər ordusu axır. İş axtarmaq üçün Bakıya gəlmiş və iş tapa bilməyən adamları müvəqqəti yerlə və yeməklə təmin etmək məqsədilə Bakıda müxtəlif təmayüllü xeyriyyə cəmiyyətləri təşkil olunmağa başlayır. Hələ XIX əsrin 80-cı illərində belə xeyriyyə cəmiyyətləri təşkil olunmağa başlamışdır. Bakıda belə xeyriyyə cəmiyyətlərindən birinin nizamnaməsi 1875-ci il mart ayının 15-də təsdiq olunmuşdur. Həmin cəmiyyətin 1905-ci il üçün hesabatında göstərilir ki, onun fəxri sədri Bakı qubernatoru knyaz M.A.Nikaşidzenin arvadı A.Nikaşidze idi. Bakı xeyriyyə cəmiyyətinin 11 nəfərdən ibarət idarə heyəti üzvləri arasında Hacı Zeynalibdin Tağıyev və onun arvadı, kübar cəmiyyətlər arasında Sofiya Vladimirovna adı ilə tanınan Sona xanım da var idi.

Həmin xeyriyyə cəmiyyətinin 1905-ci ildə yetimlər evi, məktəbi ilə bərabər, ucuz yeməkxanası, çayxana, ibadətxana, çörəkxanası olan gecələmə evi də var idi. Bakı xeyriyyə



cəmiyyətinin şəhər yetimlər evində 109 nəfər uşaq var idi ki, onlardan da 51 nəfəri yetimlər evi yanındakı məktəbdə təhsil alırdı. Bu evlərdə xristian dinindən olan yoxsullar və yetimlər olurdu. Müsəlmanlar həmin yataqxana və yetim evlərinə getmirdi.

1896-cı ildən 1916-cı ilə kimi Balaxanıda da belə xeyriyyə cəmiyyəti fəaliyyət göstərmişdi. Bu cəmiyyətlərin nizamnamələrində göstərilirdi ki, onları yaratmaqda məqsəd işsizlərə və yoxsullara kömək edilməsi, yetimlər evi yaratmaq, yetim uşaqları oxutmaq nəzərdə tutulur. Bu cəmiyyətlərin vəsaiti onların üzvlərindən toplanan üzvlük haqqı, xeyriyyə məqsədləri üçün cəmiyyətə verilmiş pul və əşyalar, habelə müxtəlif xarakterli gecələr keçirmək, tamaşalar göstərmək, konsertlər vermək, mühazirələr oxumaq və s. yollarla əldə edilmiş vəsait idi.

Yeni əsrin başlanğıcında Bakıda müxtəlif millətlərə məxsus xeyriyyə cəmiyyətləri də yaranmağa başlayır. Onların arasında Bakı erməni insansevərlər cəmiyyəti (1899), Bakı erməni mədəniyyəti ittifaqı (1907), Bakı gürcü cəmiyyəti (1906), Bakı Roma katolik xeyriyyə cəmiyyəti (1903), Bakıda, onun neft sənayesi və zavodlar rayonunda yaşayan Dağıstan vilayəti dağlılarının qarşılıqlı yardım cəmiyyəti (1907) və s. var idi.

Ucqarlarda yaşayan xalqlara qarşı əsl müstəmləkəçilik siyasəti yeridən Çar Rusiyası yerli xalqların, xüsusilə də müsəlmanların öz xeyriyyə cəmiyyətlərini yaratmasına hər vasitə ilə mane olurdu. Müsəlmanlar isə xristianların təşkil etdiyi gecələmə evləri, yataqxanalar, uşaq evləri və s. istifadə etmirdilər. Belə ki, Bakıda ruslara məxsus xeyriyyə cəmiyyəti 1875-ci ildə, ermənilərə məxsus xeyriyyə cəmiyyəti 1899-cu ildə yaradıldığı halda azərbaycanlılara məxsus ilk xeyriyyə cəmiyyəti yalnız 1905-ci ildə birinci rus inqilabının təsiri ilə yaradıla bilmişdir. Qonşuları ermənilər və gürcülər öz milli məktəbləri, milli mətbuatı, xeyriyyə cəmiyyətləri və başqa milli və ictimai qurumlara malik idilərsə, azərbaycanlılar

tamamilə bu qurumlardan məhrum edilmişdilər, yaxud da o dərəcədə o qurumlara malik idilər ki, o bütün milli-mənəvi əhəmiyyətini itirmişdi. Elə onu demək kifayətdir ki, Azərbaycan dilinin məktəblərdə tədrisi qadağan olunmuş, azərbaycanlı balaları zorla rus məktəblərinə cəlb olunurdu. Bu isə Azərbaycanda ruslaşdırma siyasətinin həyata keçirilməsi proqramının tərkib hissəsi idi.

İctimai təşkilatlara münasibətə gəldikdə onu demək kifayətdir ki, yalnız 1905-ci ildə Rus hökuməti Bakıda xeyriyyə cəmiyyətlərinin təşkilinə imkan verdi. Ana dilində olan mətbuat, nəşriyyat, teatr tamaşaları çar çinovnikləri tərəfindən amansızcasına təqib olunurdu. Bu işdə milliyətcə erməni olan çinovniklər xüsusilə fəallıq göstərir, bütün vasitələrdən istifadə edərək azərbaycanlıların iqtisadi, siyasi və mədəni inkişafına hər cür mane olmağa çalışırdılar.

Lakin katolik dünyasının ən amansız inkiviziyası bəşər ruhunu boğa bilmədiyi kimi nadan çar məmurları da zor gücünə, qadağanlar qoymaqla Azərbaycan xalqının mənəvi inkişafı və siyasi oyanışının qarşısını ala bilmədilər. Rus süngüsü ilə qarşılaşan azadlıq ideyaları çətinliklə də olsa Azərbaycanda özünə yol açırdı. Bakı, Gəncə və digər Azərbaycan şəhərlərində yaradılan xeyriyyə cəmiyyətlərinin başlıca məqsədi müsəlmanlardan ibarət kasıblara kömək idi. Maddi yardımla yanaşı, azərbaycanlılar arasında savadı artırmaq məqsədilə məktəblər və kurslar açan xeyriyyə cəmiyyətləri də yaranır. Bunlar "Nəşri-maarif", "Nicat" və "Səadət" cəmiyyətləri idi. 1905-ci ildən yaranaraq fəaliyyət göstərən bu cəmiyyətlər Azərbaycanda elmin və maarifin yayılmasında, azərbaycanlıların təhsil alması və savadlandırılmasında böyük rol oynamışdır. Belə cəmiyyətlərin yaranması və fəaliyyətində xalqımızın qeyrətli oğlu Hacı Zeynalabdin Tağıyevin rolu xüsusilə diqqətə layiqdir.

İlk rəsmi Azərbaycan xeyriyyə cəmiyyəti 1905-ci ildə təşkil olunmuş və onun nizamnaməsi həmin il oktyabr ayının



10-da Qafqaz Canişini qraf İ.İ.Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdir. Bu xeyriyyə cəmiyyətinin təşkilinin təşəbbüskarları kommersiya müşaviri H.Z.Tağıyev, keçmiş "Əkinçi" qəzetinin redaktoru görkəmli maarifpərvər H.B.Zərdabi, "Kaspi" qəzetinin naşiri və redaktoru Ə.M.Topçubaşov, "Həyat" qəzetinin redaktorları Ə.Ağayev, Ə.Hüseynzadə və başqaları, cəmi 21 nəfər idi.

Nizamnaməyə görə Bakı müsəlman xeyriyyə cəmiyyətinin yaradılmasında məqsəd ibadətə gedən, müalicə olunan qoca və əmək qabiliyyətini itirən, yaşamağa imkanı olmayan yoxsul müsəlmanlara kömək etmək, ali və orta məktəblərdə oxuyan yoxsul azərbaycanlı şagird və tələbələrə kömək etmək, kasıb ailələrin uşaqlarını və yetimləri sənət məktəblərinə düzəltmək, onlara kömək etmək və s. idi. Cəmiyyət yoxsul azərbaycanlılara paltar, ərzaq, mənzil, müalicə işində də kömək edir, onların təhsil haqqını ödəyir, müstəsna hallarda pul köməyi də edirlər.

1906-cı il iyunun 30-da Yelizavetpol qubernatoru Yelizavetpol (Gəncə) şəhərində xeyriyyə cəmiyyəti təşkil etməyə də icazə verir və onun nizamnaməsini təsdiq edir. Gəncə şəhər xeyriyyə cəmiyyətinin nizamnaməsinə görə həmin cəmiyyətin fəaliyyət dairəsi Bakı xeyriyyə cəmiyyətinin fəaliyyət dairəsinə demək olar ki, uyğun idi. Yoxsullara, ibadətə gedənlərə, müalicə olunanlara kömək etmək, habelə kasıb uşaqlara Rusiya və xarici ölkələrin ali və orta məktəblərində oxuması işinə maddi köməklik göstərmək idi.

Birinci Rus inqilabının təsiri ilə Çar hakimiyyət orqanları cəmiyyət üzərindəki sərt nəzarəti nisbətən yumşaldır, bir sıra məsələlərdə xalqa güzəştə getməyə məcbur olurlar. Bu inqilabın təsiri ilə milli ucqarlarda da maarif və mədəniyyətin inkişafına müəyyən qədər imkan yaranır. Bakıda 1906-1907-ci illərdə bir-birinin ardınca Bakı müsəlman əhalisi arasında savad yayan "Nəşri-maarif" cəmiyyəti (1 avqust 1906), Bakı maarifçilik cəmiyyəti "Nicat" (22 avqust 1906), Bakı

müsəlman ruhanilərinin "Səadət" cəmiyyəti (7 iyun 1907) və başqa xeyriyyə cəmiyyətləri təşkil olunur.

Bu cəmiyyətlərin nizamnamələri bir-birinə çox oxşayırdı. Aralarındakı fərq yalnız onda idi ki, əgər "Nəşri-maarif" cəmiyyəti yeni-yeni məktəblər açaraq azərbaycanlı uşaqları təhsilə cəlb edir, Rusiyanın ayrı-ayrı şəhərləri və xaricdə oxuyan tələbələrə maddi yardım göstərirdisə, "Nicat" cəmiyyəti daha çox yaşlı adamları savadlandırmaq üçün gecə məktəbləri və cümə kursları təşkil edir, "Səadət" cəmiyyəti isə azərbaycanlıların daha çox dini təhsil almasına diqqət yetirirdi, həm də "Səadət" məktəbində dünyəvi təhsilə də fikir verilirdi.

Bakı quberniyasından bir qrup müsəlman əhalisi H.Z.Tağıyev, H.B.Zərdabi, Ə.M.Topçubaşov və başqaları Qafqaz canişininə müraciət edərək "Qafqaz Canişinliyi müsəlman əhalisi arasında maarifi yayan Bakı cəmiyyəti" yaratmağa icazə vermək haqqında xahiş edirlər. 1905-ci il oktyabrın 6-da Qafqaz canişini dəftərxanası Bakı qubernatoruna məktubunda bu məsələ ilə əlaqədar yazırdı ki, bir qrup Bakı müsəlmanı Qafqaz canişininə müraciət edərək müsəlman əhalisi arasında maarifi yaymaq üçün cəmiyyət yaratmağa razılıq istəyir. Bu məsələ haqqında Qafqaz tədris dairəsi hamisinin (popeçitelinin) də 18 sentyabr tarixdə müsbət rəyi var və Bakı qubernatorunun da bu məsələ ilə əlaqədar rəyi soruşulurdu.

Birinci Rus inqilabının təsiri ilə 1906-cı il martın 4-də Rusiya imperatoru II Nikolay tərəfindən cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar təsdiq olunur. Həmin qaydalara görə cəmiyyətlərin və ittifaqların yaradılması məsələsində nisbətən sərbəstlik verilir. Həmin qaydalara əsasən hər qubernator öz quberniyası ərazisində ittifaq və cəmiyyətlər yaratmağa icazə verməkdə sərbəst idi. Buna görə də Qafqaz canişini dəftərxanası 1906-cı il iyunun 16-da müsəlmanlar arasında maarifi yayan Bakı cəmiyyətinin nizamnaməsi haqqında Bakı quberniyası rəhbərliyinin 1905-ci



il 15 oktyabr tarixli rəyini, habelə Zaqafqaziya şiyə ruhani idarəsinin bu məsələ ilə Zaqafqaziya müftisi ilə razılaşdırılmış rəyini Bakı qubernatoruna qaytararaq, yeni qaydalara müvafiq olaraq həmin məsələnin həllini Bakı qubernatorunun öz öhtəsinə buraxır. Zaqafqaziya şeyxülislamı A.Axundzadə öz rəyində onun və Zaqafqaziya müftisinin bu cəmiyyətin təşkili və onun yanında məktəb və mədrəsələrin açılması üçün heç bir maniə görmədiklərini bildirirdi.

1906-cı il iyulun 20-də tacirlərdən Əsədulla Əhmədov, Ağahüseyn Tağıyev, fəxri vətəndaş, duma qlasnısı İsmayıl bəy Səfərəliyev, mühəndis Məmmədhəsən Hacınski, neft sənayeçisi Həsən Mustafayev və başqaları, cəmi 8 nəfər Bakı qubernatoruna ərizə ilə müraciət edərək Bakı quberniyası müsəlman əhalisi arasında maarifi yayan cəmiyyət yaratmağa icazə verməyi və onun nizamnaməsini təsdiq etməyi xahiş edirlər. 1906-cı il avqustun 1-də Bakı quberniyası cəmiyyət işləri komissiyasının iclasında bu məsələyə baxılır və cəmiyyətin Nizamnaməsi təsdiq olunur.

Təsdiq olunmuş Nizamnamənin birinci bəndində cəmiyyətin məqsəd və vəzifələrindən bəhs olunur. Cəmiyyətin məqsədi Azərbaycan və rus dillərində maarifi və ibtidai təhsili Bakı quberniyası əhalisi arasında yaymağa kömək etmək idi. Bunun üçün mövcud məktəb və mədrəsələrin işinə kömək etmək, yeni məktəb və mədrəsələr açılmasına yardım göstərmək və cəmiyyətin özü tərəfindən belə məktəblər açmaq, xalq qiraətxanaları açmaq və qiraət işini təşkil etmək, Azərbaycan və Rus dillərində dərsliklər, dərs vəsaitləri və başqa kitablar nəşr etmək, dövri mətbuat orqanı yaratmaq; Məktəb və mədrəsələri təcrübəli müəllim kadrları ilə təmin etmək üçün tədbirlər görmək, pedaqoji kurslar açmaq, müəllimlər qurultayı keçirmək, müxtəlif tapşırıqlar, xalq oxuları, elmi mübahisələr, ədəbi gecələr və s. keçirmək, yoxsul azərbaycanlı uşaqlarının ali və orta məktəblərə daxil olmasına kömək göstərmək və s.

Cəmiyyətin əsas vəsaiti onun üzvlərinin verdikləri üzvlük haqları, cəmiyyət üzvləri və başqaları tərəfindən verilmiş könüllü ianələr, tamaşalar, konsertlər, müsamirələr və s. kütləvi tədbirlər keçirməklə əldə olunan vəsait təşkil edirdi.

Cəmiyyət fəxri üzvlər, həqiqi üzvlər və yarışan üzvlərdən (çlenı sorevnovateli) ibarət idi. Fəxri üzvlər birdəfəlik 500 manat və ya hər il 50 manatdan az olmayaraq üzvlük haqqı verənlər, həqiqi üzvlər ildə 5 manatdan az olmayaraq üzvlük haqqı ödəyənlər, yarışan üzvlər isə ildə 1 manatdan az olmayaraq üzvlük haqqı verən və ya cəmiyyətin işində məccani iştirak edən şəxslər ola bilərdi.

Cəmiyyətin ali orqanı onun üzvlərinin ümumi yığıncağı idi. Ümumi yığıncaq cəmiyyətin idarə heyətini, onun sədrini, sədrin müavinini, cəmiyyətin katibini və xəzinədarını seçirdi.

1906-cı il noyabrın 24-də "Nəşri-maarif" cəmiyyətinin ilk ümumi yığıncağı keçirilir. Yığıncaq Hacı Zeynalabdin Tağıyevi cəmiyyətin idarə heyətinin sədri, Məmmədhəsən Hacınskini onun müavini, Əliisgəndər Cəfərovu, Əhmədbəy Ağayevi və Məmməd Həsən Əfəndiyevi idarə heyətinin katibləri seçir. Murtuza Muxtarov, İsabəy Aşurbəyov, Tağıbəy Səfərəliyev, Qarabəy Qarabəyov və başqaları idarə heyətinin üzvləri seçilirlər. Həsənbəy Məlikov təftiş komissiyasına daxil olur.

Təşkil olunduğu ilk gündən başlayaraq "Nəşri-maarif" cəmiyyəti Bakı şəhəri və onun ətraf kəndlərindəki azərbaycanlı əhali arasında ibtidai təhsil işinin təşkilini öz qarşısında başlıca məqsəd qoyur.

XX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətlə inkişafı, milli burjuaziyanın yaranması, milli kadrların yetişdirilməsinə də ehtiyac yaradır. Çar Rusiyası hakim dairələrinin yeritdiyi müstəmləkəçilik və xristianlarla müsəlmanlar arasında ayrı-seçkilik siyasəti nəticəsində Bakıda və ümumiyyətlə Azərbaycanda milli kadrların tərbiyəsi acınacaqlı vəziyyətdə idi. Şəhər rus-tatar (azərbaycanlı - A.P.) məktəblərindən başqa azərbaycanlı uşaqların az-çox təhsil



alması üçün heç bir məktəb yox idi. Bu məktəblər isə azərbaycanlılara əməli kömək edə bilmirdi. Xristian uşaqları üçün uyğunlaşdırılmış bu məktəblərdəki məişət şəraiti azərbaycanlı uşaqların həyat şəraitinə uyğun deyildi. Azərbaycanlı uşaqlar bu məktəblərə çox həvəzsiz gedirdilər. Rus-Azərbaycan məktəblərindəki siniflər yarı boş qaldığı halda, onlarla yanaşı fəaliyyət göstərən və əsasən dini təhsil verən məhəlli məktəblərdə çox tünlük olurdu. Bu məktəblərin verdiyi xeyir isə hamıya məlum idi. Uşaqlar uzun illər bu məktəblərdə oxumalarına baxmayaraq nəinki ibtidai təhsil səviyyəsində savad ala bilmirdilər, əməlli başlı yazıb-oxumağı və saymağı belə bacarmırdılar.

1907-ci ildə "Nəşri-maarif" cəmiyyəti Bakı şəhərinin üç yerində yeni məktəblər açır. Onlardan biri içəri şəhərdə Hacı Banu məscidi yanında,ikincisi şəhərin aşağı hissəsində Hacı İmaməli məscidi yanında, üçüncüsü isə şəhərin dağlıq hissəsində Hacı İbrahim məscidi yanında açılır. Axırıncı məktəb sonralar Təzə Pir məscidi yanına keçirilir. Əhali məmnuniyyətlə öz uşaqlarını bu məktəblərə verir. "Nəşri-maarif" cəmiyyətinin məktəblərində uşaqlar pulsuz təhsil alırdılar.

Bakının ətraf kəndlərində ibtidai təhsillə əlaqədar işlər daha acınacaqlı vəziyyətdə idi. Əgər şəhərlərdə uşaqlar heç olmazsa, şəhər özünüidarə tərəfindən açılmış məktəblərdə təhsil ala bilərdilərsə, kənd uşaqları belə imkanlardan da məhrum idilər. Cəmiyyətin vəsaitinin azlığı isə bu sahədə idarə heyətinin imkanlarını məhdudlaşdırırdı. Onlar kəndlərdə cəmiyyət hesabına məktəblər aça bilmirdilər. Ona görə onlar başqa üsullardan istifadə etməyə məcbur olurdular. Belə ki, hansı kənddə imkan var idisə, həmin kənd sakinlərinin və cəmiyyətin müştərək səyləri nəticəsində məktəblər açılırdı. Kəndlilər məktəbləri, bina, istilik, su və işıq ilə təmin etməyi, "Nəşri-maarif" cəmiyyəti isə təlim-tərbiyə işlərini öz öhdəsinə götürürdü. Əlbəttə, belə şəraitdə çoxlu məktəblər açmaq

mümkün deyildi. Ona görə də öz fəaliyyətinin ilk illərində "Nəşri-maarif" cəmiyyəti yalnız Balaxanı, Əmircan və Buzovnada belə kənd məktəbləri aça bildi. Lakin Əmircan və Buzovna məktəbləri vəsait çatışmamasına görə uzun müddət fəaliyyət göstərə bilmədi.

1910-cu ilə qədər bütün Azərbaycan xeyriyyə cəmiyyətlərinin, o cümlədən "Nəşri-maarif"in açdığı məktəblər tamamilə cəmiyyətlərin öz xərcləri hesabına saxlanılırdı. Qafqaz tədris dairəsi hamisi, Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğu, Bakı şəhər özünü idarəsi tərəfindən onlara heç bir maddi yardım göstərilmirdi. Hətta Bakı şəhərinin ətraf kəndlərində məktəblər açmaq üçün vəsait ayırmaq haqqında "Nəşri-maarif" cəmiyyəti idarə heyətinin Bakı neft sənayeçilərinin qurultayına dəfələrlə etdiyi xahişləri də nəticəsiz qalmışdı.

Həmin cəmiyyət və Azərbaycanda olan digər cəmiyyətlər "Nicat" və "Səadət" öz nizamnamələrinin ikinci bəndinə uyğun olaraq məktəblər açarkən Qafqaz tədris dairəsi hamisi və onun Bakı quberniyasındakı nümayəndəsindən heç bir razılıq almırdılar. Bu da sonralar Qafqaz tədris dairəsi hamisi və ona tabe olan idarələrlə həmin cəmiyyətlər arasında münaqişəyə səbəb olur.

Hələ 1910-cu il martın 2-də Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktoru Qafqaz tədris dairəsi hamisinə müraciət edərək 1906-cı ildən Bakıda "Nəşri-maarif", "Nicat" və "Səadət" cəmiyyətləri tərəfindən direksiyanın razılığı olmadan məktəblər açıldığını xəbər verir. Bu məktəblərdə tədris prosesinin vəziyyəti, onların proqramı, müəllim heyəti, hətta məktəblilərin sayı haqqında belə məlumatları olmadığını bildirir.

1910-cu il oktyabrın 10-da "Nicat" cəmiyyətinə məxsus Balaxanı məktəbində baş vermiş hadisə ilə əlaqədar olaraq bu məsələ daha kəskin hal alır. Təşkil olunduğu gündən Balaxanıdakı məktəbdə şagirdlərdən heç bir təhsil haqqı alınmırdı. 1910-cu ildə isə məktəbin maddi cəhətdən ağır vəziyyətə düşməsi ilə əlaqədar olaraq hər şagirddən ayda 3 manat təhsil haqqı gətirmək tələb olunur. Məktəbdə oxuyan 300 nəfər şagirddən yalnız 40 nəfəri bu haqqı ödəyir. Haqqı ödəyə bilməyən 260 şagird isə oktyabrın 10-da məktəbə buraxılmır. Bundan həyəcana gəlmiş uşaqlar məktəbi daşa basır və 70-ə yaxın pəncərə şüşəsini sındırırlar. "Qafqaz" qəzetinin 1910-cu il 16 oktyabr tarixli nömrəsində bu haqda məlumat verilir. Bununla əlaqədar Qafqaz tədris dairəsi hamisi Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorundan izahat tələb edir. Direktor isə öz cavabında məlumat verir ki, şuluqluq Bakı "Nicat" xeyriyyə cəmiyyətinin açdığı məktəbdə baş vermiş, bizim həmin məktəblə və ümumiyyətlə Bakı şəhər idarəsinin rəisinin razılığı ilə "Nicat", "Nəşri-maarif", "Səadət" cəmiyyətlərinin açdığı digər məktəblərlə heç bir əlaqəmiz yoxdur. Həmin məsələ ilə əlaqədar Qafqaz tədris dairəsi hamisi Bakı şəhər rəisinə göndərdiyi xüsusi məktubda "Qafqaz" qəzetindəki xəbər haqqında məlumat istəyir. Bakı şəhər rəisi P.İ.Martınov özünün həmin il 14 noyabr tarixli cavabında Balaxanı məktəbində baş vermiş hadisəni ətraflı izah edir. Bundan sonra Qafqaz tədris dairəsi hamisi ilə Bakı şəhər rəisi arasında yuxarıda göstərilən cəmiyyətlərin açdıqları məktəblər haqqında uzun müddət yazışma gedir.

Qafqaz tədris dairəsi hamisi özünün 1911-ci il 5 fevral tarixli məktubu ilə Bakı şəhər rəisinə yazırdı: "Cənabınıza bildirməyi özümə şərəf hesab edirəm ki, hər hansı cür tədris müəssisəsi açmaq, istər ümumi təhsil kursları, istər xüsusi məqsədli və proqramlı təhsil müəssisələri olsun, Qafqaz tədris dairəsi təşkilatları ilə razılaşdırılmadan açıla bilməz. "Nicat", "Səadət" və "Nəşri-maarif" cəmiyyətləri məktəblər açmazdan əvvəl, öz ərazisinin tədris rəhbərliyi ilə əlaqəyə girib müəyyən olunmuş qayda üzrə belə məktəblərin açılması haqqında icazə istəməli idilər".

Qafqaz tədris dairəsinin hamisi elə həmin gün bu məsələ ilə bağlı başqa ünvanlara göndərdiyi məktublarda da göstərirdi ki, Bakı şəhərində "Nicat", "Nəşri-maarif" və "Səadət" cəmiyyətləri tərəfindən 1906 və 1907-ci illərdə yalnız Bakı qubernatoru tərəfindən qeydə alınmış nizamnaməyə görə bir sıra məktəblər açılmışdır ki, onlar da tədris dairəsi tərəfindən qeydiyyata götürülməmişdir.

Öz məktublarında Qafqaz tədris dairəsinin hamisi tələb edirdi ki, həmin məktəblər ya tezliklə bağlanılmalı, yaxud da 1911-ci il may ayının 1-nə qədər müvafiq qanunlara uyğun olaraq həmin məktəblər haqqında dəqiq məlumatlar, o cümlədən onların tədris proqramları, dərs cədvəlləri, ayrı-ayrı fənlər üçün ayrılmış saatların miqdarı, müəllimlərin siyahısı, şagirdlərin sayı və sair haqqında Qafqaz tədris dairəsinə məlumat verilməlidir. Elə edilməlidir ki, tədris dairəsi hamilər şurası dərs ili başlanana qədər bu materiallarla ətraflı surətdə tanış ola bilsinlər. Məktubda xəbərdarlıq edilirdi ki, əgər mayın 1-nə qədər yuxarıda göstərilən məlumatlar təqdim olunmazsa, həmin cəmiyyətlərin bütün məktəbləri bağlanacaqdır.

1911-ci il may ayının 13-də Bakı şəhər rəisi P.İ.Martınov Qafqaz tədris dairəsi hamisinə "Nəşri-maarif", "Nicat" və "Səadət" xeyriyyə cəmiyyətləri tərəfindən açılmış məktəblərin tədris proqramlarını və tələb olunmuş məlumatları göndərir.

Bu sənədlərdəki məlumatlardan görünür ki, 1911-ci ildə "Nəşri-maarif" cəmiyyəti tərəfindən təşkil olunmuş Bakıda Hacı İsmayıl Əli məscidi yanındakı məktəbin dörd sinfində 48 şagird, Hacı Banu məscidi yanındakı məktəbin bir sinfində 34 şagird və Təzə Pir məsçidi yanındakı məktəbin bir sinfində 37 şagird təhsil alırdı. Habelə Balaxanıda 116 şagirdi olan 4 sinifli, Əmircanda 82 şagirdi olan 3 sinifli və Buzovnada 24 şagirdi olan 3 sinifli məktəblər fəaliyyət göstərmişdir.

"Nicat" cəmiyyətinin sədri İsa bəy Aşurbəyli Bakı şəhər rəisi dəftərxanasına məlumatında bildirirdi ki, cəmiyyət tərəfindən Bakıda iki tədris-maarif müəssisəsi açılmışdır. Onlardan birincisi Şamaxıdakı altı sinifli şəhər məktəbində yerləşən gecə kursları, ikincisi isə dördüncü Rus-Azərbaycan məktəbində yerləşən cümə kurslarıdır.

Gecə kurslarına onun yerləşdiyi məktəbin müəllimi, institut təhsilli Abbas bəy Minasazov rəhbərlik edirdi. Kurslarda Abdulla bəy Sübhanverdixanov, Ağabəy İsrafilbəyov, Kərimbəy İsmayılov, Həmidbəy Korçubaşov, Əlibəy Şıxlınski və Əli Hüseynov dərs deyirdilər. Bu müəllimlərin hamısı ya institut, yaxud da müəllimlər seminariyası qurtarmış şəxslər idi.

Axşam kursları müdavimləri üç qrupa bölünürdü: Savadsızlar (34 nəfər müdavim), az savadlılar (35 nəfər müdavim) və savadlılar (24 nəfər müdavim). Həmin kurslarda hər il dərslər oktyabr ayının ortalarında başlayır və növbəti il aprelin axırlarında başa çatırdı. Bütün qruplarda dərslər axşam saat 7-də başlayıb 9-da qutarırdı. Cümə günlərindən başqa bütün günlər dərs keçilirdi. Həftədə 12 saat dərs olurdu. Əsas dərslər rus dili (həftədə 6 saat), azərbaycan dili (həftədə 3 saat) və hesab (həftədə 3 saat) idi.

Dördüncü rus-tatar məktəbində keçirilən cümə kurslarının rəhbəri isə həmin məktəbin müdiri Əli Terequlov idi. Müəllimləri Rəsulbəy Tahirov, Ağabəy İsrafilbəyov və Əli Mustafayev idi. Bu kurslarda dərslər yalnız cümə günləri keçirilirdi. Hər cümə günü dərslər üç saat davam edirdi. Cümə kurslarında oxuyanlar əsasən tacir və sənətkarlar idi.

Dərslik kimi bu kurslarda Mahmudbəy Mahmudbəyovun "Türk əlifbası" kitabı Azərbaycan dilində, Davisin "Rodnoy mir" kitabı isə rus dilində tədris olunurdu.

Arxivdə "Nicat" cəmiyyəti tərəfindən təşkil olunmuş axşam kurslarının fəaliyyəti ilə əlaqədar Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri ikinci rayonunun müfəttişi Sultan Məcid Qənizadənin məlumatı saxlanılır. O, yazırdı ki, 1911-ci il martın 12-də mən "Nicat" cəmiyyətinin yaşlılar

üçün təşkil etdiyi axşam kurslarının məşğələlərində oldum. Bu kurslar artıq bir neçə ildir ki, fəaliyyət göstərir. Kursların müdavimləri əsasən fəhlə zümrəsinə daxil olan şəxslər, o cümlədən günəmuzd fəhlələr, sənətkarlar, dükançılar və başqalarıdır. Kursların məqsədi bu şəxslər üçün həyat və yaşamaq uğrunda mübarizədə məcburi şəkildə lazım olan rus dilini öyrətməkdir. Qısa bir vaxtda "Nicat" cəmiyyətinin təşkil etdiyi gecə kursları hiss olunacaq dərəcədə müvəffəqiyyət qazanıb. S.M.Qənizadə daha sonra yazırdı ki, o, A.İsrafilbəyovun və H.Korçubaşovun rus dili və hesab dərslərində iştirak etmiş və iki illik tədrisin nəticələrini olduqca qənaətbəxş hesab edir.

1910-1911-ci tədris ilində Bakı müsəlman ruhani "Səadət" cəmiyyəti yanında "Şah", "Səmədiyyə" və "Səadət" məktəbləri fəaliyyət göstərirdi. "Şah" məktəbinin bir əlifba sinfində 26 şagird və bir hazırlıq sinfində 19 şagird təhsil alırdı. "Səmədiyyə" məktəbində isə cəmi bir əlifba sinfi var idi ki, orada da 28 şagird oxuyurdu. "Səadət" cəmiyyətinin açdığı ən iri məktəb eyni adlı "Səadət" məktəbi idi ki, orada iki əlifba sinfi, hər sinifdə 27 şagird, üç aşağı hazırlıq sinfi, hər birində müvafiq olaraq 29, 26 və 28 şagird: üç yuxarı hazırlıq sinifi, hər birində müvafiq olaraq 30, 30 və 33 şagird, bir 1-ci sinifdə 39 şagird və bir 2-ci sinifdə 33 şagird təhsil alırdı.

Hər üç məktəbin əlifba siniflərində həftədə 18 saat - ilahiyyət, Azərbaycan əlifbası və hesab dərsləri, aşağı hazırlıq siniflərində həftədə 24 saat - ilahiyyət, Azərbaycan dili, rus dili, hesab və hüsnxətt dərsləri, yuxarı hazırlıq siniflərində həftədə 29 saat - ilahiyyət, Azərbaycan dili, rus dili, fars dili, ərəb dili, hesab, hüsnxətt (Azərbaycan və rus dillərində) və rəsm dərsləri, birinci sinifdə həftədə 30 saat - ilahiyyət, Azərbaycan dili, rus dili, fars dili, ərəb dili, alman dili, coğrafiya, rus tarixi (Böyük Pyotra qədər) hesab, təbiətşünaslıq və rəsm dərsləri, ikinci sinifdə həftədə 30 saat - ilahiyyət, Azərbaycan dili, rus dili, fars dili, ərəb dili, alman



dili, fransız dili, coğrafiya, Rusiya tarixi (Böyük Pyotrdan sonra), hesab, təbiətşünaslıq və rəsm dərsləri tədris olunurdu.

"Səadət" cəmiyyətinin bütün məktəblərinə aid proqramları "Səadət" mədrəsəsinin müfəttişi, Qori seminariyasının məzunu Fərhad Ağazadə imzalamışdır.

1910-1911-ci tədris ilində "Səadət" mədrəsəsinin direktoru Axund Molla Ağa Ağazadə olmuşdur. Həmin məktəbdə Üzeyir və Ceyhun Hacıbəyov qardaşları, molla Qədir İsmayılzadə, Məmməd Hənəfi Terequlov, Əli Hüseynov, Kərimbəy Məlikov və başqaları dərs deyirdi.

1911-ci ildə həmin cəmiyyətlərin açdıqları məktəblər Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğunda qeyd olunduqdan sonra "Nəşri-maarif" cəmiyyəti ilə həmin direktorluq arasında əldə edilmiş razılığa əsasən Bakı şəhər rəisliyi ərazisinə daxil olan kəndlərdə, həmin cəmiyyətin açdığı məktəblərdə təşkil olunmuş hər bir qrup üçün hökumət tərəfindən ildə əvvəlcə 500 manat, sonralar isə 700 manat vəsait ayrılır. Əlbəttə, Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri direktorluğu tərəfindən ayrılan vəsait bu məktəblərin saxlanılmasını tam təmin etmirdi. Ancaq hər halda cəmiyyətin idarə heyətinin hər il həmin məktəblərin saxlanılması üçün daimi olaraq müəyyən miqdarda vəsait alması, çatışmayan vəsait isə cəmiyyət hesabına ödənilməsi, xalq maarifi sahəsində onun fəaliyyətinin genişlənməsinə imkan verir. Həmin razılaşmadan dərhal sonra cəmiyyətin idarə heyəti Bakının yaxın kəndlərində yeni-yeni məktəblər açmağa başlayır. Bu kəndlərin əhalisi yeni açılacaq məktəbləri pulsuz binalarla, içməli su, istilik və işıqla təmin etməyi öz öhtələrinə götürürlər. Təhsilin pulsuz olduğu həmin məktəblərdə qalan bütün xərcləri "Nəşri-maarif" cəmiyyəti ödəyirdi. Cəmiyyət pedaqoji kadrların əmək haqqını və məktəblərin saxlanmasına çəkilən digər xərcləri ödəməklə yanaşı, şagirdləri pulsuz dərsliklər, dəftər, qələm, mürəkkəb və sair yazı ləvazimatı ilə təmin edirdi.



27.-3510

Arxivdə saxlanılan bir sənəd dövlət tərəfindən ayrılan vəsaitlə, "Nəşri-maarif" cəmiyyətinin bu iş üçün çəkdiyi xərclər haqqında ətraflı məlumat verir.

1911-ci ildə dövlət tərəfindən "Nəşri-maarif" cəmiyyətinin açdığı məktəblər üçün 2368 manat vəsait ayrılır. Əslində isə həmin il bu məktəblər üçün 5350 manat vəsait xərclənir. Cəmiyyət tərəfindən bu işə əlavə 2982 manat vəsait xərc olunur. 1912-ci ildə həmin məktəblərə 15,951 manat vəsait xərclənir ki, onun da 6847 manatı dövlət tərəfindən, qalan 9104 manatı isə cəmiyyət tərəfindən ödənilmişdir. 1913-cü ildə bu məktəblər üçün 16.486 manat vəsait xərclənmişdir ki, ilk dəfə onun böyük hissəsi yəni 16310 manatı dövlət tərəfindən və yalnız 176 manatı cəmiyyətin hesabına ödənilmişdir. 1914-cü ildə həmin məktəblər üçün xərclənən 28.230 manat vəsaitdən 19836 manatı dövlət, 8393 manatı isə cəmiyyətin hesabına idi. 1915-ci ildə xərclənməsi nəzərdə tutulmuş 32230 manat vəsaitdən 19836 manatını dövlət, 12393 manatını isə cəmiyyət ayırmışdır. Ümumiyyətlə 1911-ci ildən 1915-ci ilə qədər "Nəşri-maarif" cəmiyyətinin Bakı kəndlərində açdığı məktəblər üçün 98249 manat vəsait sərf olunmuşdur ki, ondan da 65199 manatı dövlət tərəfindən xərclənmişdir.

1913-cü ildə artıq cəmiyyətin nəzdində Bakı kəndlərində fəaliyyət göstərən 13 məktəbin (12 oğlan, 1 qız), 30 qrupunda 887 oğlan və 53 qız təhsil alırdı. 1914-cü ildə Bakının 14 kəndindəki məktəblərin sayı 16-ya çatır. 35 qrupdan ibarət olan bu məktəblərdə 1074 oğlan və 126 qız təhsil alırdı. Təkcə 1914-cü ildə 3 yeni məktəb açılmışdır ki, onlardan ikisi Bilgəhdə və biri isə Qalada idi.

Cəmiyyət idarə heyəti tərəfindən Bakı kəndlərində məktəb binaları tikdirmək üçün dövlət tərəfindən vəsait ayrılması barədə cəmiyyətin xahişi dövlət xəzinəsi tərəfindən müdafiə olunmur. Cəmiyyətin isə bu cür binaları tikdirmək üçün vəsaiti yox idi. Ona görə də cəmiyyət kəndlərdə açdığı məktəbləri



sanitar-gigiyena qaydalarına cavab verməyən binalarda yerləşdirməli olurdu.

Birinci Dünya müharibəsinin başlanması və Çar Rusiyasının orda iştirakı hər yerdə olduğu kimi xalq təhsili sahəsində də öz təsirini göstərir. Belə ki, məktəbə gələn uşaqların sayı azalır. 1917-1918-ci illərdə cəmiyyətin nəzdində 14 Bakı kəndində 32 qrupdan ibarət 16 məktəb fəaliyyət göstərirdi. 1917-ci ildə bu məktəblərdə 723 oğlan və 120 qız, 1918-ci ildə isə 746 oğlan və 128 qız təhsil alırdı.

1917-ci ildə dövlət xəzinəsi "Nəşri-maarif" cəmiyyətinin saxladığı məktəblərin hesabına 21.000 manat, 1918-ci ilin 5 ayı (yanvar-may) üçün isə 8562 manat vəsait ayrılır. Yəni 1917-ci il və 1918-ci ilin 5 ayı üçün dövlət tərəfindən cəmi 29562 manat vəsait ayrılır. Cəmiyyətin nəzdində olan məktəbləri saxlamaq üçün 1917-ci ildə 34.867 manat və 1918-ci ilin 5 ayı üçün 11.437 manat, ümumiyyətlə isə 46.304 manat vəsait xərclənmişdir ki, onun da 16.742 manatı cəmiyyətin öz hesabına ödənilmişdir.

Əlbəttə, xeyriyyə cəmiyyətlərinin açdıqları məktəblərdə işlər həmişə hamar getmirdi. Tədris prosesini müvəffəqiyyətli qurmaq üçün pul və tədris vəsaitinin olması, hələ məsələnin tam həlli demək deyildi. Bu işi yüksək səviyyədə qurmaq üçün hazırlıqlı müəllimlər kollektivinin olması başlıca şərt idi. Bu sahədə Azərbaycan xeyriyyə cəmiyyətləri böyük çətinliklərlə üzləşirlər. Çar Rusiyasının təhsil sahəsində apardığı ayrı-seçkilik siyasəti, müsəlmanları, o cümlədən azərbaycanlıları, hər vasitə ilə təhsil sistemindən uzaqlaşdırması nəticəsində Azərbaycanda institut və seminariya təhsili olan müəllimlərin sayı çox az idi. Onlar da daha yaxşı şəraiti olan şəhər məktəblərində dərs deyirdilər.

"Nəşri-maarif" cəmiyyəti fəaliyyətinin ilk vaxtlarından bu işə ciddi fikir verir və müəllim kadrları hazırlamaq qayğısına qalır. Cəmiyyət tərəfindən "Darül-müəllimin" - müəllimlər seminariyasının proqramı işlənib hazırlanır. 1907-ci ilin

əvvəllərində, hətta cəmiyyət həmin seminariyanı açır, oraya təcrübəli pedaqoq H.Mahmudbəyov dəvət olunur. Proqrama görə seminariya əsas siniflərdən və onun yanında ibtidai hazırlıq məktəbindən ibarət olmalı idi. Əsas siniflərdə mühazirələri dinləməyə qabil hazırlıqlı şagirdlər olmadığı üçün, yalnız ibtidai məktəb açmaq mümkün oldu. "Darül-müəllimin" 3 il fəaliyyət göstərir. Bu müddətdə yalnız 7-8 nəfər onun dördüncü şöbəsinə keçməyə razılıq verir. Cəmiyyətin vəsaiti isə bu qədər az müdavim üçün əsas siniflər açmağa imkan vermirdi. Qərara alınır ki, hələlik müəllimlər seminariyasının açılması təxirə salınsın. Qısa vaxtda fəaliyyət göstərməsinə baxmayaraq seminariyanın hazırlıq kursunda dərslərin nümunəvi şəkildə keçilməsi cəmiyyət üçün öz bəhrəsini verir. Orada çoxlu yaxşı hazırlıqlı uşaqlar yetişir və bu da cəmiyyətə imkan verir ki, müvəqqəti müəllimlər kursu açsın.

1907-ci il dekabrın 20-də "Nəşri-maarif" cəmiyyətinin sədri H.Z.Tağıyev Bakı şəhər rəisinə məlumat verir ki, cəmiyyət nizamnaməsinin 2-ci maddəsinə müvafiq olaraq həmin il dekabrın 21-də, gündüz saat 12-də "İslam" müəllimlər məktəbinin rəsmi açılışı olacaq. Bakı şəhərinin rəisi məktub üzərində dərkənar qoyur: "Necə başa düşək müəllimlər məktəbini?". Bununla əlaqədar olaraq Bakı şəhər rəisi dəftərxanası şəhər polismeystrindən məlumat tələb edir. Lakin görünür H.Z.Tağıyevin nüfuzu onlara müəllimlər kursunun açılmasına mane olmağa imkan vermir.

1908-ci və 1909-cu illərdə "Nəşri-maarif" cəmiyyəti yanında bir illik "İslam" Azərbaycan müəllimlər kursu açılır. Onun müdavimləri əsasən keçmiş hazırlıq məktəbinin şagirdləri və köhnə üsullu məktəb müəllimləri idi. Bu kursun cəmi iki buraxılışını 28 nəfər müdavim bitirmişdi. Hər dəfə kurslar qurtardıqdan sonra H.Z.Tağıyevin sədrliyi ilə "Nəşri-maarif" cəmiyyəti idarə heyəti üzvləri M.Hacınski, İ.Aşurbəyov, Q.Qarabəyov, M.Həsənov və başqalarının



üzvlüyü, Əli İsgəndər Cəfərzadənin katibliyi ilə imtahan keçirilmiş və yuxarıda göstərilən şəxslərin imzası ilə müdavimlərə 1908-ci il mayın 31-də və 1909-cu il iyunun 9-da şəhadətnamələr təqdim edilmişdir. Həmin şəhadətnamələrin hamısının surətləri, Sarabdan olan Ələkbər Hacı Məmmədzadəyə və Quba qəzasından olan Mirzə Əbdülqədir İsmayılzadəyə isə yazılmış şəhadətnamələrin əsilləri də sahibləri tərəfindən götürülmədiyindən bu günə qədər də cəmiyyətin arxivində qorunub saxlanır.

Bir illik müəllimlər məktəbini bitirənlər sonralar "Nəşri-maarif", "Səadət" və başqa cəmiyyətlərin açdıqları məktəblərdə müvəffəqiyyətlə dərs deyirlər.

Xeyriyyə cəmiyyətlərinin əsas vəsaitləri yuxarıda göstərildiyi kimi müxtəlif mənbələrdən ianə və xeyriyyə məqsədləri üçün verilmiş vəsaitlərdən yaranırdı. Bu vəsaitlər onların keçirdikləri müsamirələrdən, tamaşalardan, xüsusi xeyriyyə gecələrindən əldə edilirdi. Məsələn, "Nəşri-maarif" cəmiyyəti tərəfindən 1908-ci ildən başlayaraq 1917-ci ilə qədər ildə bir dəfə xüsusi xeyriyyə gecələri keçirilirdi. H.Z.Tağıyevin rəhbərliyi ilə xüsusi olaraq hazırlanaraq keçirilən bu gecələrdə çoxlu vəsait toplanırdı. Arxivlərimizdə qalmış çoxlu sənədlər göstərir ki, həmin gecələri keçirmək üçün cəmiyyətin sədri H.Z.Tağıyevin imzası ilə Bakı şəhər idarəsinə onu keçirmək üçün xüsusi məktub yazılır və oraya gecənin proqramı da əlavə olunurdu. H.Z.Tağıyevin imzası ilə məktubun yazılması bu gecəyə icazə verilməsi və onun yüksək səviyyədə keçirilməsi üçün bir növ zəmanət olurdu. Cəmiyyət arasında və hakim dairələr yanında böyük nüfuzu olan Hacının bir sözü iki ola bilməzdi. Əgər Hacı bir işə qol qoyurdusa, o iş hökmən müvəffəqiyyətlə nəticələnməli idi.

Bilavasitə Hacının təşəbbüsü və rəhbərliyi ilə keçirilən gecələrə gələnlərin və ya vəsait göndərənlərin çoxu onu məhz Hacının xatirinə etməsinə baxmayaraq, hər dəfə Hacı özü də hamıdan çox ianə verirdi. Məsələn, 1913-cü ildə keçirilən

dördüncü gecədə ən çox pul verənlər H.Z.Tağıyev -1000 manat və İ.M.Lobov - 500 manat, 1914-cü ildə keçirilən 5-ci gecədə H.Z.Tağıyev və Ağa Musa Nağıyev, hərəsi 4000 manat, 1915-ci ildə keçirilən altıncı gecədə H.Z.Tağıyev 3500 manat, Ağa Musa Nağıyev isə 500 manat ianə verir. Bu gecələrdə yığılan vəsait gecələri keçirməyə çəkilmiş bütün xərcləri çıxdıqdan sonra hər il aşağıdakı qədər xalis pul gəliri qalmışdır: 1908-ci il dekabrın 13-də keçirilən birinci gecədə 2000 manat, 1909-cu il dekabrın 12-də keçirilən ikinci gecədə 8197 manat, 1910-cu il dekabrın 4-də keçirilən üçüncü gecədə 10.211 manat, 1913-cü il fevralın 15-də keçirilən dördüncü gecədə 9297 manat, 1914-cü il fevralın 2-də keçirilən beşinci gecədə 14.874 manat, 1915-ci il aprelin 14-də keçirilən altıncı gecədə 15.416 manat vəsait yığılmışdır. Axırıncı səkkizinci müsamirə 1917-ci il fevral ayının 25-də keçirilmişdir. Təəssüflər olsun ki, 7-ci və 8-ci müsamirələrdə yığılmış vəsai haqqında ayrıca məlumat yoxdur.

1918-ci il Bakı xalq komissarlar sovetinin hakimiyyəti vaxt vəziyyətin çətinləşməsi ilə əlaqədar olaraq cəmiyyətin idarə heyəti maarif komissarlığına müraciət edərək cəmiyyət nəzdində olan bütün məktəbləri öz sərəncamına qəbul etməyi xahiş edir. Əks təqdirdə cəmiyyətin onları bağlamağa məcbur olacağı bildirirdi.

1909-cu ildə Çəmbərəkənddəki köhnə qəbiristanlığın ərazisi pulsuz olaraq "Səadət" və "Nəşri-maarif" cəmiyyətləri arasında bərabər şəkildə bölünür. Həmin ərazidə onlara məktəb, məscid və onların yanında xəstəxana tikdirmək icazəsi verilir. "Nəşri-maarif" cəmiyyəti həmin yerdə azərbaycanlılar üçün müəllimlər seminariyası tikdirməyi planlaşdırır. 1920-ci il yanvarın 4-də cəmiyyət idarə heyətinin Bakı şəhər idarəsinə məktubundan görünür ki, "Nəşri-maarif" cəmiyyəti həmin yerdə bina tikdirməyə başlayıb və hadisələrin mürəkkəbləşdiyi dövrdə maddi çətinliklə əlaqədar olaraq binanın tikintisini dayandırıb. Həmin məktubla cəmiyyət göstərilən binanın tikintisini davam etdirmək üçün icazə verməyi Bakı şəhər idarəsindən xahiş edir. Bu məktubdan görünür ki, ingilis orduları Bakıda olarkən "Nəşri-maarif" cəmiyyətinin tikdirməyə başladığı həmin binada qalmış, bina üçün tədarük edilmiş daşları da öz hərəkətlərinin rahatlığı üçün yola döşətmişdilər. Həm də məktubdan görünür ki, cəmiyyət 1920-ci ildə öz fəaliyyətini yenidən bərpa etmək istəyir. Lakin 1920-ci il aprel çevrilişi bu niyyəti yarımçıq qoyur.

Yuxarıda deyilənlərdən göründüyü kimi Azərbaycanın maarifçilik xeyriyyə cəmiyyətlərinin bu sahədəki fəaliyyəti bitərəfli xarakter daşımışdır. Onların nizamnamələrinə görə maarifin yayılması işi məktəblərlə yanaşı mətbuat orqanları vasitəsilə də həyata keçirilməli idi. Təəssüflər olsun ki, həmin dövr ərzində bu cəmiyyətlər tərəfindən nə dövri mətbuat orqanı, nə də yaşlı adamlar və uşaqlar üçün Azərbaycan dilində heç bir tədris vəsaiti hazırlanaraq nəşr olunmamışdır. Məktəb yaşlı uşaqlar üçün mükəmməl şəkildə tədris vəsaiti demək olar ki, yox idi. Bunun da səbəbi bir tərəfdən həmin tədris vəsaitlərini hazırlaya bilən ziyalıların yox dərəcəsində olması idisə, digər tərəfdən olanların da bu işdən imtina etməsi idi.

1916-cı il fevral ayının 29-da Sadıx bəy, Əhməd bəy və Camo bəy Hacınskilərin, Hüseyn Ərəblinski və Hüseynqulu Rzayevin (Sarabskinin) xahişi ilə Bakıda "Müsəlman dram cəmiyyəti", İbrahim bəy Heydərov, Camo bəy Hacınski, Tağı Nağıyev, Mir Yaqub Mehdiyev və Səməd Kazımovun (Mənsurun) xahişi ilə isə "Müsəlman ədəbi-bədii dərnəyinin" yaradılmasına Bakı şəhər rəisi S.S.Mixaylovskinin sədrliyi ilə Bakı quberniyası ittifaqlar və cəmiyyətlərlə iş üzrə komissiyanın iclasında baxılır və həmin cəmiyyətlərin yaradılmasına icazə verilir. Lakin ölkədə baş verən hadisələr nəticəsində bu cəmiyyətlərin ömrü çox qısa oldu və xalqımızın mədəniyyət tarixində elə bir əməlli iz qoya bilmədilər.

Azərbaycan xeyriyyə cəmiyyətlərinin fəaliyyətinə ümumi qiymət versək onu qeyd etməliyik ki, öz dövrləri üçün bu cəmiyyətlər bütün çatışmazlıqlara və mərhumiyyətlərə baxmayaraq xalqımızın mədəniyyət tarixində əvəzsiz rol oynamışlar. Bu o vaxt idi ki, Azərbaycanda qabaqcıl adamlar başa düşürdü ki, xalqı savadlandırmadan millətin inkişafı üçün əməlli-başlı heç bir iş görmək mümkün deyil.

Bu gün xalqımız yenidən tam müstəqillik əldə etdiyi bir zamanda çoxlu xeyriyyə cəmiyyətləri yaranır. Onların çoxu bu sahədə az xeyirli işlər görməyirlər. Ancaq heç kimə sirr deyil ki, elə xeyriyyə cəmiyyətləri də var ki, onların təşkilatçıları ilk növbədə öz maaşları, kabinetləri və xidməti maşınları haqqında fikirləşirlər. Bu cəmiyyətləri öz qohumları və yaxın adamları üçün əsl gəlir mənbəinə çevirməyə çalışırlar. Bu işdə demək olar ki, bir nizamsızlıq və qarışıqlıq hökm sürür. Bəzən bu cəmiyyətlərin işi bir-birini təkrar edir və ya bir-birlərinə mane olurlar. Əsrimizin əvvəllərində yaradılmış xeyriyyə cəmiyyətlərində işləyənlərin demək olar ki, hamısı həmin cəmiyyətlərdə məccani fəaliyyət göstərir, lazım gələndə hətta başqaları kimi onlar da cəmiyyətə maddi yardım göstərirdilər. Həmin cəmiyyətlərin keçirdikləri gecələrdə bu cəmiyyətlərin fəallarının göstərdiyi maddi yardımlar haqqında əlimizdə çoxlu məlumatlar var. Həmin cəmiyyətlərin iş üslubu bu gün yaradılmış cəmiyyətlər üçün bir örnək, həyat məktəbi olmalıdır.

**"Dalğa" qəzeti,**
**3, 10, 17 noyabr 1992-ci il, № 42, 43, 44.**



## ÜZEYİR DÜHASI

***(Anadan olmasının 110 illiyi münasibətilə)***

Çox qədim kökləri olan Azərbaycan musiqi mədəniyyətinin bugünkü professional səviyyəyə qalxmasında dahi bəstəkarımız Üzeyir Hacıbəyovun əvəzsiz xidmətləri olmuşdur. 1908-ci ildə özünün "Leyli və Məcnun" operası ilə Azərbaycanda professional musiqi sənətinin və milli operanın əsasını qoyan Üzeyir bəy bütün ömrünü öz xalqının savadlandırılmasına, musiqi təhsilinin təşkilinə, musiqi nəzəriyyəsinin təşəkkülü, cilalanması və müasir səviyyəyə qaldırılmasına sərf etmişdir. Azərbaycanda yaradılmış müasir bəstəkarlıq məktəbinin beşiyi başında dayanan Üzeyir Hacıbəyov ona əsl övladlıq qayğısı göstərmiş, onu dünyanın qabaqcıl bəstəkarlıq məktəbləri ilə yanaşı dayana biləcək səviyyəyə yüksəldilməsi üçün öz ömrünü şam kimi əritmişdir.

Hələ 1920-ci il sentyabrın 30-da Üzeyir Hacıbəyov Xalq Maarif Komissarlığı qarşısında Azərbaycanda musiqi təhsilinin dövlət səviyyəsində təşkili haqqında məsələ qaldırır. Öz məktubunda Üzeyir bəy Azərbaycandakı mövcud musiqi təhsili müəssisələrini yenidən qurmaq, xalqın ümumi musiqi təhsilini artırması üçün xalq konservatoriyaları, xüsusi ixtisas təhsili vermək üçün isə ali məktəb tipli musiqi akademiyası yaratmağı təklif edir. Bunun üçün bu iki təhsil sistemini özündə birləşdirən xalq musiqisi təhsili və xüsusi musiqi təhsil sistemli şöbələri olan Azərbaycan Dövlət Konservatoriyasını yaratmağı məqsədəmüvafiq hesab edir.

Həmin il oktyabrın 20-də yenidən Xalq Maarif Komissarlığına müraciət edən Üzeyir Hacıbəyov yazırdı ki, "Şərq musiqisinin həqiqi musiqi səviyyəsində inkişafı yalnız o vaxt

mümkündür ki, o, ümumi Avropa musiqi nəzəriyyəsi əsasında qurulsun. Yalnız bu nəzəriyyə əsasında Şərq musiqisinin ümumi qanunlarını, bütün xüsusiyyətlərini müəyyən etmək olar". Həmin müraciətində Üzeyir bəy X.Qaibovanın rəhbərlik etdiyi Şərq musiqi kurslarını Dövlət Konservatoriyasının Şərq şöbəsinə çevirməyi, Şərq musiqisini nəzəri və praktiki cəhətdən öyrənmək istəyən şəxsləri də oraya cəlb etməyi təklif edirdi.

Maraqlıdır ki, bu müraciətlərin hər ikisində üzərində xalq maarif komissarının müavini V. Tomaşevskinin yaxın kollegiya iclaslarında müzakirə etmək haqqında dərkənarı olmasına baxmayaraq, Üzeyir bəyin təklifləri müzakirə edilməmiş qalır.

Bunun da səbəbi var idi. X.Qaibova, S. Oqanezaşvili və başqaları sübut etməyə çalışırdılar ki, Avropa musiqi nəzəriyyəsini heç cür Şərq musiqisinin öyrədilməsi və tədrisində tətbiq etmək olmaz. Ona görə də Şərq musiqi təhsili tamamilə Avropa musiqi təhsili sistemində ayrı aparılmalıdır. Elə həmin vaxtlar Şərq musiqi təhsilini tamamilə müstəqil bölməyə ayırmaq haqqında X.Qaibova da Xalq Maarif Komissarlığına müraciət edir. X.Qaibovanın məktubu 1920-ci il noyabrın 20-də Xalq Maarif Komissarlığının kollegiya iclasında müzakirə olunur. Kollegiyanın qərarında göstərildi ki, müzakirələrdən məlum olur ki, Şərq musiqi təhsili barəsində Şərq musiqi müəllimləri arasında iki müxtəlif cərəyan mövcuddur. Bir cərəyanın tərəfdarları "hesab edir ki, Şərq musiqisini müasir musiqi inkişafı səviyyəsinə yalnız o zaman qaldırmaq mümkün olar ki, ona ümumi Avropa musiqi nəzəriyyəsi tətbiq olunsun". Bu cür baxışı müdafiə edən Üzeyir Hacıbəyov hesab edir ki, Şərq musiqisinin nəzəri cəhətdən inkişafı və praktiki tərəfdən öyrənilməsi yalnız konservatoriya şəraitində mümkündür. Ona görə də o, konservatoriya xaricində Şərq musiqisi şöbəsi yaratmağın tamamilə məqsədəmüvafiq olmadığını bəyan edirdi.



Sənədlərdən də göründüyü kimi, öz fikrinin tamamilə düzgünlüyünə əmin olan Üzeyir bəy heç cür təkliflərindən geri dönmür. Şərq musiqisinin böyük bilicisi dünya musiqi nəzəriyyəsi ilə Sankt-Peterburq Koservatoriyasında yaxından tanış olmuş Üzeyir Hacıbəyov tam əmin idi ki, Avropa musiqi nəzəriyyəsini Şərq musiqisinin tədrisinə tətbiq etməklə Şərq musiqisi tədrisinin nəzəri əsaslarını işləyib hazırlamaq olar. Məhz həmin vaxtlardan bu işlərlə ardıcıl surətdə məşğul olan Üzeyir Hacıbəyov nəhayət, uzun illər gərgin tədqiqatlarının, yaradıcılıq axtarışlarının nəticəsi olaraq 1945-ci ildə özünün monumental "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyasını nəşr etdirir. Özü də bu əsər təkcə Azərbaycan musiqisinin deyil, ümumiyyətlə, Şərq musiqisinin nəzəri əsaslarının öyrənilməsində əvəzsiz mənbədir. Ancaq öz nəzəriyyəsinin düzgünlüyünü təcrübədə sübut edənə qədər Üzeyir bəy gərgin mübarizələr yolu keçmiş, haqsızlıqlara məruz qalmış məhrumiyyətlərlə üzləşməli olmuşdur. Ancaq öz yolundan dönməmişdir.

1921-ci il mayın 25-də Üzeyir Hacıbəyov yenidən Xalq Maarif Komissarlığına müraciət edərək ümumtəhsil proqramı ilə fəaliyyət göstərən konservatoriyanın on aylıq təcrübəsini ümumiləşdirərək göstərir ki, indi musiqi təhsili almaq istəyənlərin sayı **yeddi minə** çatdığı bir vaxtda musiqi pedaqoji işi sahəsində əsaslı dəyişikliklər aparmaq vacibdir. Bunun üçün bütün musiqi-pedaqoji fəaliyyət sahəsi iki hissəyə ayrılmalıdır. Onlardan birincisi xüsusi musiqi təhsili, ikincisi isə ümumi musiqi təhsili verməlidir.

Xüsusi musiqi təhsili sistemi müəssisəsi bütün respublika üçün müxtəlif musiqi alətləri üzrə ifaçı mütəxəssislər, müğənnilər, bəstəkarlar, musiqişünaslar, musiqi müəllimləri və s. hazırlayır. Bu mütəxəssislər musiqi üzrə təhsil müəssisəsi olan konservatoriyada hazırlanırlar. Üzeyir bəy təklif edirdi ki, bunun üçün konservatoriya təhsili üç pilləyə ayrılmalıdır. Birinci pillədə uşaqların xüsusi musiqi təhsilinə hazırlıq işi həyata

keçirilməlidir. Dörd il ərzində 8-12 yaşlı uşaqlar arasında keçirilən bu ilk təhsil pilləsində uşaqların musiqi qabiliyyəti müəyyən olunur və onlar ibtidai musiqi təhsili alırlar. İkinci pillə musiqi məktəbinə şagirdlər yalnız birinci pillə musiqi məktəbində təhsil almış şagirdlər arasından seçilir. İkinci pillə musiqi məktəbləri orta-musiqi təhsili verir və ali musiqi təhsili almaq üçün hazırlıq pilləsidir. Üçüncü pillə isə ali musiqi məktəbidir ki, ali musiqi təhsili verir və musiqi akademiyası adlanır və ona professor elmi adı olan şəxs rəhbərlik edir.

Musiqiyə həvəsi olanlara ümumi musiqi təhsili vermək üçün isə Bakı şəhərinin bütün rayonlarında, habelə Azərbaycanın qəza mərkəzlərində və iri kəndlərində musiqi kursları açmağı təklif edir.

Üzeyir Hacıbəyovun məruzəsi üzərində xalq maarif komissarı D.Bünyadzadənin belə bir dərkənarı var: "Təsdiq edilsin ali musiqi məktəbi haqqında dekret hazırlansın".

Məhz bu məruzənin nəticəsi olaraq 1921-ci il avqustun 26-da respublika Xalq Komissarları Soveti Azərbaycan Dövlət Ali Musiqi Akademiyasının təşkil edilməsi haqqında dekret verir. Dekretdə göstərilirdi ki, Bakı şəhərində ali məktəblər üçün tələb olunan bütün hüquqlara malik Azərbaycan Dövlət Ali Musiqi Akademiyası təsis olunsun. Respublikadakı mövcud musiqi məktəbləri akademiya üçün tələbə kontingenti hazırlayan bir və iki pilləli musiqi məktəblərinə çevrilsinlər.

Azərbaycanlıları musiqi təhsilinə cəlb etmək və onlar arasında musiqi təhsilini genişləndirmək məqsədilə 1922-ci ilin aprelində Azərbaycan Dövlət Konservatoriyasının Şərq musiqisi şöbəsi müstəqil Azərbaycan musiqi məktəbinə çevrilir və Üzeyir Hacıbəyov həmin məktəbə direktor təyin olunur. Üzeyir bəyin özünəməxsus əzmkarlığı və işgüzarlığı musiqi məktəbinə rəhbərlikdə də özünü bir daha bariz şəkildə büruzə verir. Qısa müddətdə bu məktəbdə azərbaycanlıların musiqi təhsilinə cəlb olunması sahəsində böyük işlər görür. Tezliklə həmin məktəb musiqi texnikumuna çevrilir. Bu



texnikumun tədris proqramında Azərbaycan musiqisinin təliminə xüsusi yer verilir. Üzeyir Hacıbəyov özü şəxsən bu texnikumun tar, kamança və xanəndə kadrları hazırlayan siniflərində keçiriləcək musiqi dərslərinin proqramlarını hazırlayır.

1926-cı ilin avqust-sentyabr aylarında Azərbaycan Dövlət Konservatoriyası ilə Dövlət Musiqi Texnikumunun birləşdirilməsi haqqında Xalq Maarif Komissarlığı qərar qəbul edir. Üzeyir Hacıbəyov konservatoriyanın tədris işləri üzrə prorektoru təyin olunur və faktiki olaraq 1930-cu ilə qədər ona rəhbərlik edir. Üzeyir bəy burada da professional musiqi təhsilinin tamamilə yenidən qurulması uğrunda özünəxas olan coşğunluqla fəaliyyətə başlayır.

Həmin illərdə Üzeyir Hacıbəyov Azərbaycan Dövlət Opera Teatrı artistlərinin də musiqi təhsili alması üçün konservatoriyaya qəbul edilmələrinin təşəbbüskarı olmuşdur. Üzeyir Hacıbəyov tərəfindən konservatoriyaya qəbul edilmiş müğənnilər arasında səhnəmizin görkəmli sənətkarları Həqiqət Rzayeva, Məmmədtağı Bağırov, Hüseynağa Hacıbababəyov, Sona Hacıyeva, Xanlar Haqverdiyev, Yavər Kələntərli Xurşud xanım Qacar, Əlövsət Sadıqov, Zülfü Adıgözəlov və başqaları var idi.

Üzeyir Hacıbəyovun hələ 1908-ci ildə tamaşaya qoyulmuş "Leyli və Məcnun" operası ilə Azərbaycanda professional musiqi sənətinin və milli operanın banisi olduğunu inkar etməyə çalışırdılar. Üzeyir Hacıbəyovun əleyhdarları iddia edirdilər ki, bu işi yalnız Avropa musiqisinə dərindən aşina olan və mükəmməl musiqi təhsili görmüş musiqiçilər yerinə yetirə bilər. Ona görə də Xalq Maarif Komissarlığının dəvəti ilə Bakıya gəlmiş R.Qliyer "Aşıq Qərib" dastanı əsasında "Şahsənəm" operası yazmaq haqqında bu komissarlıqla müqavilə bağlayır. Bunun üçün R.Qliyerə hərtərəfli imkanlar yaradılır, köməkliklər göstərilirdi. Qəzetlərdə R.Qliyerin bu opera üzərində işi geniş təbliğ olunurdu. 1925-ci ildə o,

"Şahsənəm" operasını bitirərək teatra təqdim edir və 1927-ci ildə ilk tamaşası olur. Lakin Xalq Maarif Komissarlığı rəhbərliyinin bütün ciddi cəhdlərinə baxmayaraq tamaşa gözlənilən müvəffəqiyyəti qazana bilmir.

Elə həmin vaxtlar Üzeyir bəyə və onun musiqi əsərlərinə qarşı geniş təbliğat işi də aparılırdı. Məsələn, 1924-cü ilin sentyabrında Samit adlı müəllif (Tağı Şahbazi - A. P.) "Kommunist" qəzetində dərc etdirdiyi "Türk teatr səhnəsi" adlı məqaləsində yazırdı: "...əski opera və operettalar bədii və musiqi gözəlliyindən ari olduqlarına görə tamaşaçıların hüsnrəğbətini puç etmiş və aktyorların dişlərini qamaşdırmış birər əsərlərdir. Mövcud opera və operettaları çoxdan bəri xatirat sahəsinə atmaq lazım ikən biz bunları hələ əvəz etməkdə davam edirik".

Həmin ilin oktyabrında Üzeyir Hacıbəyov öz cavabında yazırdı: "...Avropa musiqisi ilə Şərq musiqisi arasında mövcud olan estetik təəssüratı bir-birindən ayırd edəcək qədər təlim və tərbiyeyi-musiqisi olmayan vətəndaş Samit, türk opera və operettalarının səhnədən qaldırılmalarını olduqca qəribə görünən bir inad və cəsarət ilə tələb edir... O ki, qaldı türk teatr və musiqi tərəqqisinin gələcəkdə kimlərdən ümid edilməsi məsələsinə, qoy vətəndaş Samit bu tərəqqini və gələcək həqiqi türk musiqi əsərlərini "dörd gözlə qliyerlərdən gözləsin. ***Bizə qalarsa, bu ümid: bu gün Azərbaycan hökumət türk musiqi məktəbindən kamali-ciddiyyət və müvəffəqiyyətlə təhsili-elm edən cavanlarımızdan gözlənilə bilər və gözləyirik".***

Üzeyir bəyin bu məqaləsi Avropa tipli musiqi əsərləri yazmaq üçün qliyerləri Azərbaycana dəvət etmiş xalq maarif komissarı M.Quliyev tərəfindən hiddətlə qarşılanır. "Kommunist" qəzetinin həmin il 9 oktyabr tarixli sayında dərc etdirdiyi məqaləsində M.Quliyev yazırdı: "...Biz türk operamız yoxdur deyəndə, bəzi yoldaşların keyfinə dəyir. Əcaba oradan-buradan toplanıb quraşdırılan və qayət ibtidai halda olan nəğmələrdən əmələ gətirilən əsəri müstəqil yaradıcılıq əsəri



adlandırmaq olarmı? Təəssüf ki, yoldaşlarımız, yerli musiqişünaslarımız Şərq musiqisinin nəzəriyyəsi haqqında fəlsəfə məsələləri ilə məşğul olurlar, əməli cəhətdən isə indiyə qədər teatrlarımıza heç bir yazılı əsər verməmişlər".

Bu məsələ ilə əlaqədar Böyükağa Talıblı və başqaları da Üzeyir Hacıbəyova qarşı kəskin xarakterli məqalələr yazırlar və "Üzeyirin qulağına bunu pıçıldamaq istəyirlər ki, "dünyanın çox yerində "Arşın mal alan"ın oynanılmasına səbəb onun yüksək musiqiyə və dərin mənaya malik olmasında deyil, "qeyri millətlərin türk aləmi ilə və ələlxüsus Şərq musiqisi ilə maraqlanmasıdır".

Maraqlıdır ki, Xalq Maarif Komissarlığının sifarişi ilə R.Qliyer və B.Karaqiçevin işləyərək nəşr etdirdikləri doqquz Azərbaycan xalq mahnısı ətrafında böyük təbliğat işi aparılır. Maarif komissarı tərəfindən bu hadisə Azərbaycan musiqi incəsənətinin böyük nailiyyəti kimi təqdim olunur. Üzeyir Hacıbəyov bu məsələyə də öz münasibətini bildirərək yazırdı: "Çox təəssüf edirəm ki, Şərq musiqisi ilə heç də aşina olmayan musiqişünasların "Türk nəğmələri" deyə yazmış olduqları səhv və xətalarla dolu olan bəstələr təqdir edildiyi halda, türk musiqi xadimlərinin məhsulu zəhmətləri olan ən lazımlı əsərlərinə heç bir etina edilmir..."

Müslüm Maqomayev isə bununla əlaqədar yazırdı ki, "Azərbaycan xalq mahnılarının öyrənilməsi barədə Qliyer və Karaqiçevin indi gördükləri işi Hacıbəyov on beş il bundan əvvəl görmüşdür. Buna görə də Qliyer və Karaqiçevin doqquz mahnısı bizim üçün nümunə ola bilməz".

1932-ci ilə qədər qəzetlərdə ara-sıra Üzeyir Hacıbəyovun "Dəmirçi Gavə" operası üzərində işlədiyi haqqında məlumat verilir. Həmin ilin iyulunda isə Üzeyir bəyin "Koroğlu" qəhrəmanlıq dastanı əsasında eyni adlı opera yazmaq fikrinə gəldiyi haqqında məlumat verilir. Sənədlərdən də göründüyü kimi "Koroğlu" operasını yazmaq ideyası birdən-birə meydana gəlməmiş, o, Üzeyir bəyin uzun illər inadlı yaradıcılıq

axtarışlarının, Üzeyir dühasının təbii məhsulu idi. Artıq "Koroğlu" yazılan illərdə Üzeyir bəyə münasibətdə müsbət dəyişikliklər də nəzərə çarpır. 1936-cı ilin martında ona Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı verilir. Bu illər "Koroğlu" operası üzərində çox məhsuldar işləyən Üzeyir Hacıbəyov nəhayət, onu 1936-cı ilin axırlarında tamamlayır. "Kommunist" qəzeti özünün həmin il 27 noyabr tarixli nömrəsində yazırdı ki, çoxdan bəri tamaşaçılara vəd olunan "Koroğlu" operası müəllif tərəfindən tamamlanaraq teatra təhvil verilmişdir.

Ü.Hacıbəyovun "Koroğlu" operasını Azərbaycan opera mədəniyyətinin böyük nailiyyəti hesab edərək, ona Azərbaycan Respublikasının xalq artisti fəxri adı verilir və o, böyük məbləğdə pulla mükafatlandırılır. Elə həmin ildə də Üzeyir Hacıbəyov SSRİ Ali Sovetinə deputat seçilir.

Azərbaycan Bəstəkarlar İttifaqına yarandığı gündən başçılıq edən Üzeyir Hacıbəyov 1939-cu ilin yanvarında həm də Azərbaycan Dövlət Konservatoriyasının direktoru təyin edilir. Ömrünün sonuna qədər bu vəzifələrdə qalan Üzeyir bəy Azərbaycanda musiqi sənətinin və musiqi təhsilinin təşkilində, onun müasir səviyyəyə çatdırılmasında əvəzsiz xidmətlər göstərmişdir. Bu illər ərzində musiqi sənəti və musiqi təhsili sahəsində az-çox elə bir yaddaqalan tədbir olmamışdır ki, o, Üzeyir Hacıbəyovun bilavasitə rəhbərliyi və ya iştirakı ilə keçirilməsin. Bu illərdəki fəaliyyəti nəticəsində Azərbaycan musiqi mədəniyyətinin və musiqi təhsilinin inkişafı üçün Üzeyir bəy möhkəm bir təməl yaratmışdır. Məhz bu təməl üzərində Azərbaycan musiqi sənəti bugünkü yüksək səviyyəyə çatmışdır.

**"Azərbaycan" qəzeti,**
**19 sentyabr 1995-ci il, № 177.**



## MİRZƏ CƏLİL HAQQINDA YENİ SƏNƏDLƏR

Azərbaycanın ictimai fikir tarixində "Molla Nəsrəddin" dövrü" adlı ədəbi məktəbin binasını qoymuş Cəlil Məmmədquluzadə və onun ailəsi haqqında aşkar edilən hər yeni sənədin və faktın ədəbiyyatımız, ictimai fikir tariximiz üçün mühüm əhəmiyyəti vardır.

Məlumdur ki, Sovet hakimiyyətinin böyük Mirzə Cəlilə münasibəti birmənalı olmamışdır. 1920-ci ilin may-iyununda baş verən mürəkkəb hadisələr zamanı Mirzə Cəlil qardaşı Mirzə Ələkbərin təkidi ilə Kəhrizlini tərk edərək, ailəsi ilə birlikdə böyük əziyyətlə Təbrizə köçür. Burada o, çox çətinliklə "Molla Nəsrəddin" jurnalının nəşrini davam etdirir. 1921-ci ilin yayında N.Nərimanov tərəfindən Sovet Azərbaycanına dəvət olunan Mirzə Cəlil həmin ilin iyununda Bakıya gəlir. Mirzə Cəlilin Bakıya gəlişi birmənalı qarşılanmır. Çox maneələrdən sonra ona "Molla Nəsrəddin" jurnalını nəşr etməyə icazə verilir. O, Azərbaycanda yeni latın əlifbasına keçid komitəsinin üzvü və onun mətbu orqanı olan "Yeni yol" qəzetinin redaktoru təyin olunur. Yeni əlifba komitəsinin üzvü kimi latın əlifbası ideyalarını yaymaq məqsədilə həmin komitənin sədri S.Ağamalı oğlunun başçılığı ilə müxtəlif türkdilli respublikalara göndərilmiş nümayəndə heyətinə daxil edilmiş, beşinci çağırış Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) üzvlüyünə namizəd seçilmiş, ədəbiyyat və mədəniyyət məsələləri üzrə çoxlu müxtəlif komissiyalara daxil edilmişdir. Digər tərəfdən, "Molla Nəsrəddin" jurnalının nəşri zamanı onun fəaliyyəti üzərində ciddi nəzarət qoyulmuş, jurnalda siyasi xarakterli kəskin yazıların verilməsi qadağan olunmuşdur.



28.-3510

Türk dillərinin saflığı və latın əlifbasına keçid ideyalarının əsas carçılarından biri olan Mirzə Cəlil 1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilmiş Birinci türkoloji qurultaya dəvət belə olunmamışdır. Əsərləri nəşr ediləndə, tamaşaya qoyulanda onların mətnlərinə elə müdaxilələr olunurdu ki, Mirzə Cəlilin təbirincə desək, müəllif çox vaxt özü öz əsərini tanıya bilmirdi. Onun adı Azərbaycan ədəbiyyatının "cığırdaşları" siyahısına salınmışdı. 1931-ci il aprelin 14-də Azərbaycan K(b)P MK Katibliyinin qərarı ilə Mirzə Cəlilin təməlini qoyduğu və 25 il əvəzsiz redaktoru olduğu "Molla Nəsrəddin" jurnalı Azərbaycan Mübariz Allahsızlar Birliyi mərkəzi və Bakı şuralarının orqanına çevrilmiş, Vəli Xuluflu isə jurnalın yeni redaktoru təyin olunmuşdur. Mirzə Cəlil redaksiya heyətinə üzv kimi də daxil edilməmişdir.

Böyük Mirzə Cəlil bu cür haqsızlıqlara dözə bilmir, açıq və ya üstüörtülü şəkildə etirazını bildirirdi. Ona görə də bəzən açıq, bəzən isə gizli təqiblərə məruz qalırdı. Bunun üçün müxtəlif vasitələrdən istifadə olunurdu. Mirzə Cəlilin keçmişinə, yaradıcılığına "qulp" qoymaq üçün tutarlı bəhanə tapa bilməyən bədxahları onun həyat yoldaşının keçmiş mülkədar zümrəsindən olmasını əllərində bayraq edərək, bu yolla ona zərbə vurmağa çalışırdılar. Bu məsələlər böyük ədibin Həmidə xanıma yazdığı məktublarda və Həmidə xanımın xatirələrində özünün geniş əksini tapmışdır. 1923-cü ildən başlayaraq Həmidə xanıma yazdığı məktubların çoxunda Mirzə Cəlil ondan təkidlə xahiş edirdi ki, kənddəki işlərindən əl çəkib Bakıya köçsün. O öz dövrünün mürəkkəb, keşməkeşli şəraitində - Leninin proletar inqilabı ideyalarının tüğyan etdiyi bir zamanda dəyirman işlətməyin, toxucu emalatxanası saxlamağın, kəhrizlərə sahib olmağın nə qədər çətin olduğunu gözəl başa düşürdü.

Həmidə xanımın xatirələrindən, Mirzə Cəlilin ona məktublarından görünür ki, təbiətən çox həssas bir insan olan böyük ədib bu cür hücumlara dözə bilmir, tez-tez əsəbiləşirdi.



Həmidə xanıma göndərdiyi məktubların birində o yazırdı: "Mən hələ Bakıda sənə məsləhət görmürdüm ki, Qarabağa gedəsən. Bilirdim ki, orada cürbəcür xoşagəlməz əhvalatlar sənin qanını qaraldacaqdır. Sən gedəndən sonra burada, Mərkəzi Komitədə keçmiş mülkədarların torpaqlarını əllərindən almaq barədə qərar çıxarılmışdır. Hərçənd mən bilmirəm hansı torpaqlardan söhbət gedir, çünki axı heç kəsdə torpaq-zad yoxdur".

Başqa bir məktubunda isə o arzu edirdi ki, dəyirman da birdəfəlik dayansaydı, biz şəhərdə bir yerdə qalıb, öz uşaqlarımızın tərbiyəsi ilə məşğul olardıq. O yazırdı: "Hələlik Allaha şükür, mənim ədəbiyyat aləmində işləməyə iqtidarım çatır. Dediyim odur ki, sən elə bilmə ki, gərək biz mütləq dəyirman və bəhrənin hesabına dolanaq. Mən görürəm ki, orada başın daim qalmaqaldadır. Hər yandan sənin xətrinə dəyirlər. Bütün cəncəlləri boşla və köç gəl".

Zəhmətkeş kəndlilərin daim xeyirxahı olmuş Həmidə xanım isə haqsızlıq və ədalətsizliklə barışmaq istəmirdi. O öz xatirələrində yazırdı: "Mən heç bir vəchlə Mirzə Cəlilin məsləhətinə əməl edib, şəhərə gedə bilməzdim, çünki kəhrizlərin təmiri barədə mühəndislərlə müqavilə bağlamışdım, fəhlələrlə vaxtlı-vaxtında haqq-hesab çəkməli idim, gözüm dəyirmanın və toxucu emalatxanasının üstündə olmalı idi".

Bununla əlaqədar o, Mirzə Cəlilə belə bir cavab yazmışdı: "Cəlil! Hər şeyi atıb, şəhərə köçməyə ürəyim gəlmir. Burada da mənim üçün dözülməz ağır şərait yaranmışdır. Lap hərcmərclikdi. Bütün ili kəhrizləri icarəyə götürmədim. Nəticədə kəhrizlər sökülüb dağıldı, su kəsildi, kənddə yoluxucu xəstəliklər baş verdi".

Həmidə xanıma qarşı yerli sovet orqanları tərəfindən yerli-yersiz təxribat işi aparılır, qohumları həbs olunur, iş heyvanları, əkin sahələri müsadirə edilir, dəyirmana və toxuculuq emalatxanasına tez-tez yoxlamalar gəlir, bir sözlə,

ona dinclik vermirdilər. Həmidə xanım da bununla əlaqədar olaraq öz məktublarında tez-tez Mirzə Cəlilə şikayətlənir, ondan kömək diləyirdi. Məktublarından birində Mirzə Cəlil yazırdı: "Həmidə! Vallah, mən başımı itirmişəm. Ondan-bundan xahiş etməkdən cana doymuşam. Hər bir xahiş çoxlu yeni dedi-qoduya səbəb olur. Odur ki, mən belə hesab edirəm, bircə çıxış yolumuz vardır: o da birdəfəlik şəhərə köçməkdir. Nəhayət, sənə sakitlik lazımdır, ya yox?"

Həmidə xanımın ətrafında dolaşan qara buludlar 1926-cı ilin payızında daha da sıxlaşır. Keçmiş xanların, bəylərin, qolçomaqların Azərbaycan ərazisindən sürgün edilməsi üçün yaradılmış hökumət komissiyasının 1926-cı il sentyabrın 16-da və oktyabrın 7-də tam gizli şəkildə keçirilmiş iclaslarının protokollarından aydın olur ki, bu iclaslarda Quba, Ağdam, Lənkəran, Göyçay, Kürdüstan, Şamaxı, Bakı, Nuxa, Ağdaş, Şamxor qəzalarında, Naxçıvan MSSR və DQMV-dən çoxlu xan, bəy və mülkədarın sürgün olunması haqqında qərarlar qəbul edilmişdir. İclaslara komissiyanın sədri Əliheydər Qarayev rəhbərlik etmişdir. Gizli iclaslarda sürgün edilənlər barədə Y.Sumbatov məruzə etmişdir. İki protokolda 177 nəfərin sürgün edilməsi haqqında qərar qəbul olunmuşdur. Maraqlıdır ki, 177 nəfərdən yalnız Həmidə xanım Cavanşirin və bir də Qubadan Balabəy Qaibovun əmlaklarının da müsadirə olunması haqqında qərar qəbul edilmişdir.

Bu məsələ ilə bağlı bu günlərdə respublikamızın dövlət arxivlərində Cəlil Məmmədquluzadə və Həmidə xanım Cavanşir barədə aşkar olunmuş yeni sənədlər böyük maraq doğurur. Çox gizli şəkildə qəbul edilmiş qərar haqqında, görünür, Mirzə Cəlilə xəbər çatmışdı. Onun 1926-cı il dekabr ayının 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət heyətinə göndərdiyi ərizəsində deyilirdi: "Əgər mənim övrətim Ağdam qəzası Kəhrizli kəndinin sabiq mülkədarı Həmidə xanım Cavanşir öz köhnə mülklərində torpaq almaqdan və yaşamaqdan məhrum olan sabiq



mülkədarlar siyahısında adlanırsa - mən prezidiumdan iltimas edirəm ki, torpaq qanunnaməsinin 9-cu fəslinin birinci qeydinin məzmununa müvafiq mənim övrətimi haman siyahıdan çıxarıb, onun sabiq mülkündə zəhmətkeşlər sırasında əkin əkmək üçün ona torpaq norması verəsiniz. Cəlil Məmmədquluzadə, Bakı, 9 dekabr 1927-ci il".

Bir vərəqin sağ tərəfində ərəb, sol tərəfində isə latın əlifbası ilə yazılmış bu ərizənin hər iki mətninin altında "9 dekabr 1927-ci il" tarixi göstərilmişdir. Lakin sənədin hökumət dairələrində müzakirəsinin 1927-ci ilin yanvar-fevral aylarında davam etməsi göstərir ki, ərizə 1926-cı ilin dekabrında yazılmışdır. Ərizənin üzərinə 1927-ci il yanvarın 9-da Azərbaycan SSR MİK-in katibi Həmid Sultanov belə bir dərkənar qoymuşdur: "Təcili, tam məxfi. Bu xahişlə əlaqədar Əliheydər Qarayev yoldaşın fikrini öyrənməli".

Bu dərkənar əsasında elə həmin gün Azərbaycan SSR MİK Katibliyinin müdiri Səmədzadənin imzası ilə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi Ə.H.Qarayevə aşağıdakı məzmunda məktub göndərilmişdir: "Azərbaycan SSR MİK-in katibi H.Sultanovun tapşırığı ilə Azərb. SSR MİK Rəyasət heyəti katibliyi bununla "Molla Nəsrəddin" jurnalı müdirinin ərizəsini və orada göstərilən xahişin mahiyyəti haqqında sizin fikrinizi bilməyi rica edir".

Həmin məktubun üzərində Ə.H.Qarayev həmin il yanvarın 17-də belə bir dərkənar qoymuşdur: "Həmidə xanım Cavanşirin Ağdamdan sürgün olunması haqqındakı qərarı ləğv etmək. Ə.H.Qarayev". Sənədin üzərində "Bağırov - lehinə, Bünyadzadə - lehinə" qeydləri də vardır.

1927-ci il yanvarın 18-də Ə.H.Qarayev tərəfindən imzalanıb Həmid Sultanova, surətləri isə M.C.Bağırova, Q.Musabəyova və Əli Məmmədova ünvanlanmış məktubda deyilirdi: "Keçmiş xanları və bəyləri, Azərb. SSR ərazisindən sürgün etmək üzrə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin komissiyası və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin

Katibliyi qərara alır ki, özünün 1926-cı il 20 sentyabr tarixli 50 №-li protkolunun 6-cı paraqrafındakı Həmidə xanım Əhmədbəy qızı Cavanşirin Ağdam qəzasından sürgün edilməsi və əmlakının müsadirə olunması haqqındakı qərarı ləğv edilsin".

1927-ci il yanvarın 26-da Azərb. SSR Xalq Komissarları Soveti özünün 1926-cı il oktyabrın 13-də keçmiş xanların, bəylərin və başqa ünsürlərin sürgün olunması haqqındakı qərarında Həmidə xanım Cavanşirin sürgün edilməsi və əmlakının müsadirə olunması haqqındakı maddəyə yenidən baxır (protokol № 27, maddə 4) və öz keçmiş qərarını ləğv edir. Respublika Xalq Komissarları Sovetinin sədri Q.Musabəyov özünün həmin il 3 fevral tarixli məktubu ilə bu qərarın surətini Azərbaycan K(b)P Mərkəzi Komitəsinə göndərir.

1927-ci il fevralın 19-da Azərb. SSR MİK-də həmin məsələyə yenidən baxır və Ruhulla Axundovun təklifi ilə Azərbaycan K(b)P MK-nın katibliyindən həmin məsələyə öz iclasında yenidən baxmağı və müsbət həll etməyi xahiş edir. Həmin il fevralın 26-da keçirilən Azərbaycan K(b)P MK Katibliyinin iclasında Həmidə xanım Əhmədbəy qızı Cavanşirin sürgün olunması və əmlakının müsadirəsi haqqındakı məsələyə yenidən baxılır. Bu məsələ barədə Ruhulla Axundov və Əliheydər Qarayev məlumat verirlər. Katiblik məsələnin Həmidə xanımın xeyrinə həll edilməsi haqqında qərar qəbul edir. Nəticədə Həmidə xanım sürgün və əmlakının müsadirə olunmaq cəzasından azad olunur. Beləliklə, böyük Mirzə Cəlilin sədaqətli ömür-gün yoldaşı Həmidə xanım yeni bir təhlükədən xilas olur. O da maraqlıdır ki, bu məsələ haqqında nə Mirzə Cəlilin məktublarında, nə də Həmidə xanımın xatirələrində heç bir məlumata rast gəlmirik.

**"Günay" qəzeti,**
**29 aprel 1997-ci il, № 46**



## "ARXİVİMİ TƏMƏNNASIZ SİZƏ BAĞIŞLAYIRAM"

***(Əziz Şərif haqqında sənədli xatirələr )***

Əziz müəllimlə bizim tanışlığımız, uzun illər saxladığımız ünsiyyət 1967-ci ildə ona yazdığım məktubla başlamışdır. 1966-cı ildə Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi yaradıldı. Yaradıldı deyəndə bu arxivin quruca adı var idi. Məni də bu arxivə direktor təyin etdilər. O vaxt arxivin cəmi altı nəfər əməkdaşı var idi. İşimiz ədəbiyyat və incəsənət xadimləri haqqında məlumatlar toplamaq və çox fəal surətdə onların şəxsi sənədlərini qəbul etməklə başladı. İlk illər bütün sənədləri cəmi bir neçə dəmir şkafa yerləşən bu arxivdə bu gün altı yüzə yaxın ədəbiyyat və incəsənət xadiminin yüz mindən yuxarı işi qorunub saxlanılır. Bu arxiv xalqımızın ən zəngin mənəvi sərvət xəzinələrindən biridir. Bu mədəniyyət xəzinəsinin yaranmasında onun az saylı kollektivinin böyük rolu olmuşdur. Bu işdə arxiv əməkdaşlarının sevincləri də olmuşdur, kədərləri də. Onları gülərüzlə qarşılayaraq sənəd verənlər də olub, "Hələ ki, ölməmişik, nə istəyirsiniz?" - deyənlər də ancaq bu fədakar insanları heç nə öz yolundan döndərə bilməyib. İlk illər onlar nə şənbə və nə də bazar günü biliblər. Mərhum xalq artistimiz Fatma Qədrinin obrazlı ifadəsi ilə desək, onlar işlək arılar kimi gecə-gündüz Azərbaycan ədəbiyyatı və incəsənətinin şirəsini yığıb arxivə toplayıblar.

Bu da yaxşı yadımdadır ki, elə arxiv ilk işə başlayanda öyrənirdik ki, kimdə sənədlər ola bilər. Onlara məktublar

yazırdıq. O vaxt öyrəndik ki, Moskva Dövlət Universitetinin professoru, əməkdar elm xadimi Əziz Şərifin yaxşı arxivi var. Ancaq eyni zamanda bizə bildirirdilər ki, çətin o, arxivini sizə versin. Nagüman, Əziz müəllimin adına geniş bir məktub yazdım. Əlbəttə, o vaxt yaxşı tanımadığım Əziz müəllimə yazdığım məktubu bu gün də oxuduqda özüm xəcalət çəkirəm. Ancaq görünür hər bir yaş dövrünün özünəməxsus tələbləri var. Gənclik ehtirası ilə yazılmış bu məktubda, necə deyərlər, hələ arxiv haqqında kitablardan öyrəndiyim bəsit təsəvvür ilə dünya görmüş nurani bir ağsaqqala arxiv, onun mədəniyyətimizin qorunması sahəsindəki rolu haqqında "əməlli-başlı dərs keçmişdim". Əlbəttə, başqası olsaydı bəlkə də inciyib hələ dünyanın hər üzünü görməmiş "nəsihətamiz ibarələrin" müəllifini öz yerində oturdardı. Əziz müəllim isə özünə xas olan mədəniyyətlə həmin il martın 18-də aşağıdakı cavabı yazmışdı: "Hörmətli Ataxan müəlllim! Məktubunuzu aldım. Məni xatırladığınız üçün çox minnətdaram. Sizi maraqlandıran məsələ haqqında deyə bilərəm ki, məndə arxivə verilesi material yox deyildir və mən onu məmnuniyyətlə sizə verməyə hazıram. May ayında əməkdaşınız Moskvaya gəlsə, mənimlə görüşsün və arxiv materiallarını seçməkdə mənə kömək etsin. Hörmətlə Əziz Şərif".

Həqiqətən də Əziz müəllim həmin ilin aprel ayında Moskvaya ezamiyyəyə gedən arxivimizin əməkdaşı Gültəkin Sultanovaya (indi filologiya elmləri doktoru) öz sənədlərinin bir hissəsini vermişdi. İkinci dəfə o sənədlərini 1971-ci ilin martında Moskvaya getmiş bizim başqa əməkdaşlara təqdim etmişdi. Özü də həmin sənədlər arasında M.Ə.Sabirin Qurbanəli Şərifzadəyə yazdığı nadir və çox qiymətli məktubun əsli də var idi.

Maraqlıdır ki, elə həmin il aprel ayının axırlarında Əziz müəllim Bakıya gəlir. Qeydlərim arasında belə bir yazı var: "1971-ci il aprel ayının 29-da professor Əziz Şərif Ədəbiyyat



və İncəsənət Arxivinə gələrək onun işi ilə ətraflı tanış oldu və öz sənədlərini bütünlüklə bu arxivə verəcəyini vəd etdi".

Bu hadisə indiki kimi yadımdadır. Əvvələ onu qeyd edim ki, o vaxtlar yenicə yaradılmış bu arxivə münasibət heç də birmənalı deyildi. Onun yaradılmasından narazı olanlar da vardır. O vaxt rəhmətlik Abbas Zamanov Nizami adına Ədəbiyyat Muzeyinin direktoru idi. Onlar Əziz müəllimlə çox səmimi dost idilər. Demək olar ki, dostdan daha çox sirdaş idilər. Onu da deyim ki, hələ əvvəllər Əziz müəllim Əbdürrəhimbəy Haqverdiyevin məktublarını bu muzeyə vermişdi. Görünür, Əziz müəllim Bakıya gələrkən Abbas müəllim ondan öyrənir ki, sənədlərinin bir hissəsini Ədəbiyyat və İncəsənət Arxivinə verib və onu inandıra bilir ki, həmin sənədləri arxivdən götürüb muzeyə versin. Aprelin 29-da telefon zəng etdi, dəstəyi qaldırdıqda Əziz müəllimin çox həlim səsini eşitdim. Xoş-beşdən sonra o: "Ataxan, bala, verdiyim sənədləri hazırlayın, gəlib götürmək istəyirəm". Əlbəttə, bu xəbərdarlıqdan çox məyus oldum. Dedim ki, "Əziz müəllim, sənədlərin sahibi sizsiniz və nə vaxt istəsəniz onları bizdən geri götürə bilərsiniz. Amma sizdən bir xahişimiz var. Əvvəlcə gəlib arxivinizlə tanış olun, sonra isə istəsəniz sənədlərinizi apara bilərsiniz".

Bir az da fikirləşib dedi "Yaxşı, Ədəbiyyat Muzeyində Abbasın yanındayam, gəlib məni apara bilərsinizmi?" Tez maşın tapıb Ədəbiyyat Muzeyinə getdim. Məni görən kimi Abbas müəllim ərkyana və özünə məxsus çılğınlıqla dedi: "Əə...bala, bura bax, nə istəyirsən bizdən? Qoymazsan işləyək? Hara gedirik sənədləri yığıb aparmısınız. Əşi, maraqlıdır ee, biz pul təklif edirik, sənədləri bizə vermirlər, ancaq pulsuz-pələsiz bu cavan oğlanın arxivinə bağışlayırlar. Gör iş nə yerə gəlib ki, mənim ən yaxın dostumun da saqqızını oğurlayıb, sənədlərini alıblar". Əziz müəllim yenə də çox təmkinlə "Yaxşı, yaxşı Abbas, ta səs-küy salmaq nəyə lazım, gedirəm sənədləri gətirməyə".

Biz Əziz müəllimlə arxivə gəldik. Onu da deyim ki, Əziz müəllimin ardınca getməmişdən əvvəl işçilərə tapşırdım ki, Əziz müəllim haqqında arxivdə olan sənədləri hazırlasınlar. O vaxt qocaman jurnalist, rəhmətlik Qulam Məmmədli də bizim arxivdə işləyirdi. Biz birlikdə sənədlər saxlandığı yerə baxdıq. Əziz müəllim sənədlərin saxlanması şəraiti ilə bağlı hər şeylə maraqlanır və bizim bütün izahatlarımıza səbr və təmkinlə qulaq asırdı. Axırda biz Əziz müəllimi arxivimizdə onun başqalarına yazdığı məktublarla da tanış etdikdə, bundan lap heyrətə gəldi. "Doğrusu, belə məktublarımın olduğunu mən çoxdan unutmuşam. Çox sağ olun ki, o günləri yada saldınız", - dedi.

Mənə belə gəlir ki, müdrik insanın müdrikliyi ondadır ki, o başqalarının görə və duya bilmədiyi şeyi çox tez görür və duyur. Arxivdə sənədlərin saxlanma şəraitini öz gözləri ilə gördükdən sonra Əziz müəllim çox həlim səslə: "Ataxan, bala, mənim bütün arxivim sizinkidir. Öz arxivimi bunran başqa heç yerə verən deyiləm", - dedi. Əziz müəllim ömrünün sonuna qədər sözünün üstündə möhkəm dayandı. Onun Ədəbiyyat və İncəsənət Arxivinə tam təmənnasız verdiyi və xalqımızın ədəbiyyat və mədəniyyət tarixinin təxminən yüzillik bir dövrünü özündə əks etdirən minlərlə sənəd bu arxivin qızıl fonduna daxil oldu.

Sonra Baş Arxiv İdarəsində olan "Raf"la Əziz müəllimlə muzeyə qayıtdıq. Buradan onlar Abbas müəllimlə yazıçıların o zamankı Vaqif küçəsində olan yaşayış evinə qonaq getməli idilər. Maşın gəlib çatanda Abbas müəllim artıq muzeyin qapısında dayanmışdı. O, maşının qapısını açıb oturan kimi: "Hə, Əziz, sənədləri gətirdin?". Əziz müəllim çox təmkinlə: "Abbas, məsləhət görürəm sən də öz sənədlərini o arxivə ver. Ora ən etibarlı yerdi", - dedi. Bir söz demədisə də, hərəkətlərindən görünürdü ki, Abbas müəllim bərk əsəbiləşdi. Keçib maşında oturdu. Üzünü o tərəfə çevirib Vaqif küçəsinə çatıncaya qədər bizimlə danışmadı. Hətta maşından düşəndə də sağollaşmayıb getdi.



Yeri gəlmişkən onu da deyim ki, Abbas müəllim tezliklə, muzeydən universitetə işə keçdi və sonralar o da Əziz dostunun məsləhətini yerinə yetirərək bütün sənədlərini Ədəbiyyat və İncəsənət Arxivinə təhvil verdi. İndi bu arxivdəki ən zəngin şəxsi fondlardan biri də Abbas müəlliminkidir. Həyatda çox mehriban olan bu iki dostun arxivləri də bir yerə düşdü. Bu sənədlər arasında onların bir-birlərinə yazdıqları yüzlərlə məktublar bir-birini necə də tamamlayır.

Onu deyim ki, bu, Əziz müəllimlə şəxsən birinci görüşümüz və tanışlığımız idi. Yuxarıda deyilənlərdən də göründüyü kimi, bu görüş çox xoşagəlməz şəkildə başlasa da, mehriban sonluqla başa çatdı.

Əziz müəllimlə ikinci görüşümüz 1972-ci ilin yayında Moskvada oldu. Həmin il avqustun 22-25-də Moskvada Beynəlxalq Arxiv Şurasının VII konqresi keçirilirdi. Mən də həmin konqresdə nümayəndə kimi iştirak edirdim. O günlərdə bir-neçə dəfə Əziz müəllimin Moskvadakı mənzilində görüşdük. Hər dəfə azı 4-5 saat oturub söhbət edirdik. O, keçmişdən - Mirzə Cəlildən, Caviddən, Sabirdən, Haqverdiyevdən danışır, mənsə həvəslə qulaq asırdım. Söhbətarası Əziz müəllim stolun üstünə qoyduğu kiçik qarınlı elektrik samovarını qızmaq üçün tez-tez şəbəkəyə qoşar və özü çay süzərdi. Mən nə qədər xahiş etsəm də, razı olmazdı ki, çayı mən özüm süzüm. Deyərdi: "Əvvəla sən qonaqsan, sonra da mənim çay süzməkdən xoşum gəlir".

Bu görüşdə Əziz müəllim mənə çox cüzi miqdarda sənəd verdi və söz verdi ki, Hüseyn Ərəblinski haqqında xatirələrimi yazıram, onu qurtaran kimi bütün materialları sizə göndərəcəyəm.

Daimi sözünün ağası olan Əziz müəllim həqiqətən də 1973-cü ilin martında Hüseyn Ərəblinski haqqında xatirələrini yazıb qurtardıqdan sonra, ona aid sənədləri iri bir zərfə qoyub poçt ilə Ədəbiyyat və İncəsənət Arxivinin ünvanına göndərmişdi.

O vaxt hələ arxivin adı tanınmadığı üçün məktub bir neçə qapını döymüş, xoşbəxtlikdən itib-batmayaraq nəhayət ki, gəlib arxivə çatmışdı. Biz zərfin üzərinə yapışdırılmış poçt yarlıqlarını görəndə dəhşətə gəldik. Yaxşı ki, Əziz müəllimin 70 ildən yuxarı qoruyub saxladığı bu nadir sənədlər hansısa nadanın əlinə düşməmişdi. Yoxsa tarix üçün həmişəlik itirilə bilərdi. O vaxt Əziz müəllimə məktub yazaraq xahiş etdim ki, bu cür sənədləri heç vaxt poçt ilə göndərməsin. Onun çağırışı ilə biz həmişə Moskvaya gedib, həmin sənədləri Bakıya gətirə bilərik.

1973-cü ildən 1977-ci ilə qədər Əziz müəllim arxivimizə sənəd verməmişdi. Bu da Əziz müəllimin bu vaxt öz xatirələri üzərində gərgin işlədiyi üçün sənədlərdən istifadə etməsi ilə əlaqədar idi.

1977-ci ildə Əziz müəllimin ilk "Ötən günlər" xatirələr kitabının çapdan çıxması münasibətilə ona təbrik teleqramı göndərmişdim. Həmin il oktyabrın 13-də yazdığı cavab məktubunda Əziz müəllim təbrik üçün təşəkkürünü bildirmiş və mənə yazmışdı: "Əgər yenə arxivdə işləyirsinizsə, orada mənim sənədlərim üçün yer saxlamağı unutmayın. Əvvəl-axır mənim bütün arxivim sizin qapınızı döyəcək".

Əziz müəllimdən arxivə sənədlər bir də 1980-ci ildə götürülmüşdü. Özü də bu vaxt Əziz müəllimin sənədlərinin əsas hissəsi qəbul edilmişdi. Həmin ilin yazında ağır xəstələnmiş Əziz müəllim yaxşılaşan kimi Abbas müəllimə məktub yazmış və zəng etmişdi ki, Ataxana deyin təcili gəlib mənim arxivimi aparsınlar. Abbas müəllim bunu mənə xəbər verən kimi Əziz müəllimlə telefonla əlaqə saxladım. O, Abbas müəllimə yazdığı sözləri mənə də təkrar etdi və xahiş etdi ki, mümkün qədər tez gəlib mənim arxivimi aparın.

Həmin il iyulun 19-da Moskvada XXII Yay Olimpiya oyunlarının açılışı olmalı idi. Bununla əlaqədar Moskvada hazırlıq işləri gedirdi. Moskvaya ezamiyyələr dayandırılmış, kənardan gəlməyə icazə verilmirdi. Bununla əlaqədar olaraq



Əziz müəllimə dedim ki, axı Moskvaya adam buraxmırlar. Qoyun olimpiya qurtarsın, gəlib sizin sənədləri gətirərik. Əziz müəllim heç cür buna razı olmur, çox təkid edirdi ki, xahiş edirəm tez gəlin, yoxsa dünyaya etibar yoxdur. Görünür ağır xəstəlik Əziz müəllimin gözlərini yaman qorxutmuşdu. Uzun illər yığdığı sənədlərini arxivə verib rahat olmaq istəyirdi.

Moskvada SSRİ Baş Arxiv İdarəsi bizim mehmanxanada yer tutmaq barədə zəngimizə və məktubumuza da qəti cavab verə bilmirdi. Ona görə də biz hər ehtimala qarşı Moskvada qalmaq üçün müxtəlif ev və yataqxanaların ünvanlarını da əldə edib, arxivin əməkdaşı Maarif Teymurovla iyunun 24-də Moskvaya uçduq. Oradan Baş Arxiv İdarəsinə telefon açarkən bizim üçün "Rossiya" mehmanxanasında yer sifariş etdiklərini dedikdə çox sevindik. Çünki buradan Əziz müəllimin evinə metro ilə gedib-gəlmək çox rahat idi. Mehmanxanada yerləşən kimi Əziz müəllimə zəng edib görüş üçün şərtləşdik. Elə həmin gün onun evinə getdik. Xəstəlikdən yenicə durmuş Əziz müəllim çox zəif idi. O, bizə verəcəyi sənədləri göstərdi. Bu materiallar o qədər çox idi ki, onları yalnız konteynerlə yola salmaq olardı. Ona görə biz səhərisi gün Baş Arxiv İdarəsinə gedib bu işdə bizə kömək göstərmələrini xahiş etdik. Onlar bildirdilər ki, Moskvada konteyner ən azı 20 gün əvvəlcədən sifariş verilməlidir. Ona görə də onlar bizə heç bir kömək edə bilməyəcəklər. Məsləhət gördülər ki, Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə müraciət edək, bəlkə onlar bir kömək göstərə bildilər. Daimi nümayəndəlikdə biz daimi nümayəndənin müavini Bəhram Rəcəbov adlı bir nəfərin yanında olduq. O, bizi çox soyuq qarşılayıb heç cür kömək edə bilməyəcəyini dedi.

Əlimiz hər yerdən üzüldükdə qərara gəldik ki, karton qutular tapaq, sənədləri onlara qablaşdıraq, kəndir iplərlə möhkəm-möhkəm bağlayıb baqaja verək. Belə də etdik. İp alıb Əziz müəllimin evinin ətrafındakı dükanları gəzib karton qutular yığdıq. İyunun 26-sı və 27-də bütün günü Əziz

müəllimin bizim üçün ayırdığı qovluqları və kitabları, o cümlədən də "Molla Nəsrəddin" jurnalının 1906-1917-ci illərə aid tam komplektlərini karton qutulara qablaşdıraraq nömrələyir və kəndirlə möhkəm-möhkəm bağlayırdıq. Sənədlərin hamısını bir dəfəyə Bakıya gətirmək mümkün olmadığı üçün onları iki dəfəyə gətirməyi qərara aldıq. İyunun 30-na Moskva-Bakı sürət qatarına bilet aldıq və yenə də Baş Arxiv İdarəsinə gedərək heç olmasa maşınla kömək etmələrini xahiş etdik. Həqiqətən də onlar iyunun 30-da bizə mikroavtobus verdilər. Qutulara qablaşdırdığımız sənədləri Kursk dəmir yol vağzalına gətirdik. Burada həmin qutuları qəbul etməkdən imtina etdilər. Uzun danışıqdan sonra onları yalnız təlisdən olan torbalara salıb, lazımi qaydada tikib üstü yazıldıqdan sonra qəbul edə biləcəklərinə söz verdilər. Bu işləri görüncə, bizim nə əziyyətlər çəkdiyimizi bir özümüz, bir də allah bilir. Nəhayət ki, sənədləri baqaja verib nisbətən rahat nəfəs aldıq. Nahaq, heç demə, həmin istiqamətdə böyük bir qəza baş verdiyindən təxminən bir sutkaya yaxın Kursk vağzalında qaldıq. Tez bir zamanda vağzalda o qədər sərnişin yığıldı ki, hətta pilləkənlərdə belə oturmağa yer yox idi. Qatarların nə vaxt hərəkət edəcəyi haqqında isə heç bir məlumat verilmirdi. Çox gərgin bir vəziyyət yaranmışdı. Binanın daxilində oturmağa deyil, durmağa belə yer yox idi. Yaxşıydı ki, hörmətli dramaturqumuz, rəhmətlik Qeybulla Rəsulov da həyat yoldaşı ilə həmin q..tarla Bakıya gəlməli idi və onlar əvvəlcədən gəlib oturmaq üçün yer tutmuşdular. Hər 2-3 saatdan bizə ayaqlarımızın yorğunluğunu almaq üçün on-on beş dəqiqəlik yer verirdilər. Mənim qeyd dəftərçəmdə Maarifin belə bir yazısı var: "Nəhayət 20 saatdan sonra Bakıya!" Deməli bizim qatar düz 20 saat gecikmişdi. Nəhayət ki, biz gəlib Bakıya çıxdıq və üç gündən sonra Maarif Teymurovu arxivin digər əməkdaşı Şamil Vəliyevlə birlikdə sənədlərin qalan hissəsini də yola salmaq üçün yenidən Moskvaya ezam etdik. Mənsə yola saldığımız işləri intizarla gözləməkdə idim. Nəhayət ki,



yüklər sağ-salamat gəlib Bakıya çıxdı. Alıb arxivdə yerbəyer etdik. Artıq birinci dəfənin təcrübəsindən istifadə edən əməkdaşlarımız sənədlərin qalanlarını da yola salmışdılar və onları Bakıda aldıq. Beləliklə də, Əziz müəllimin sənədlərinin əsas hissəsi artıq 1980-cı ilin yayında Ədəbiyyat və İncəsənət Arxivində idi.

Əziz müəllimin arxivini Moskvadan hazırlayıb yola saldığımız günlərdən mənə yadigar olaraq onun 1977-ci ildə nəşr olunmuş "Keçmiş günlərdə" xatirələr kitabının titul vərəqində yazdığı aşağıdakı sözlər hədiyyə qalmışdı: "Mehribanlığı ilə seçilən sədaqətli həmyerlim, dostum Ataxan Paşayevə çəkdiyi zəhmətlərinə görə bu kitabı yadigar verirəm. Qoy Moskvada keçirdiyi və mənim arxivim üçün çalışdığı günləri yadına salsın. Hörmətlə, Əziz Şərif. 24-30 iyun 1980, Moskva".

Onu da qeyd edim ki, o vaxt ayrılarkən Əziz müəllim demişdi: "Arxivimi təmənnasız sizə bağışlayıram. Bunu saxlamaq üçün xalqım mənə etibar etmişdi, indi mən də onu geri, xalqıma qaytarıram".

Əziz müəllimlə bağlı bir məsələyə də aydınlıq gətirmək istəyirəm. Onun arxivini qəbul etməyimizlə əlaqədar söz düşəndə müsahiblərimiz birinci növbədə soruşardılar: "Əziz müəllimin arxivini neçəyə aldınız?" Cavab verəndə ki, heç neçəyə - inanmırdılar. Çünki Əziz müəllim pulunun qədrini bilən və hesabını aparan adam idi. Ola bilsin, bu da onun vaxtilə Moskvada kommersiya institutunda oxuması ilə bağlı idi. Əgər bir yerə getmək üçün trolleybus və ya avtobus olardısa, o heç vaxt taksidən istifadə etməzdi. Bir sözlə, o, hər qəpiyinin qədrini bilər və onu izafi yerə xərcləməzdi. Məhz adamların çoxu da bunu bildiyi üçün bizə belə sual verirdilər. Dəfələrlə mənə demişdilər ki, kişinin elə qiymətli sənədlərini qəbul edirsiniz, yaxşı deyil, heç olmasa pul təklif edin. Heç kim puldan imtina etməz. Düzü, Əziz müəllimlə arxiv barəsində söhbətlərimiz zamanı bir dəfə də olsun o, buna işarə

etməmiş, mən də bu haqda söz açmamışdım. Nəhayət, bizim aramızda belə bir söhbət oldu. Kaş ki, olmayaydı. Əziz müəllim H.Cavid haqqında xatirələrini yazırdı. Ölməz dramaturqumuz Hüseyn Cavidin Qurbanəli Şərifzadəyə və Əziz Şərifə məktubları Bakıya gəlib çıxmışdı və həmin məktubların arxivə verilməsi söhbəti var idi. Yenə də mənə təkidlə təklif etdilər ki, bu cür qiymətli sənədlər üçün kişiyə bir şey verməmək insafdan deyil. Dedim: "Axı bu adam özü istəmirsə, mən necə deyim?" Düzü bu cür xəbərdarlıqlar məni şübhəyə saldı.

Səməd Vurğunun yubileyi münasibətilə Əziz müəllim Bakıya gəlmişdi. Respublika Sarayında görüşdük. Onun kefi çox yaxşı idi. Birlikdə Saraydan çıxdıq və Əziz müəllimi onun üçün ayrılmış qonaq maşınına tərəf yola salırdım. Kefinin yaxşı olduğunu görüb ürəkləndim və dedim: "Əziz müəllim, mən çoxdandı sizə demək istəyirəm, düzü, utanırdım. Bizim sizin sənədləri pulla almağa da imkanımız var. Məsələn, Cavidin məktublarını. Bilirsiniz ki, onlar qiymətsizdir. Biz onları ala da bilərik". Düzü, bir neçə dəfə bu həlim təbiətli insanın acıqlandığının şahidi olmuşdum. Ancaq Əziz müəllimi heç vaxt belə acıqlı və əsəbiləşən görməmişdim. Əziz müəllim ayaq saxladı. Bir an elə qızardı ki, düzü, qorxdum. Hətta əsəbilikdən danışmağa belə söz tapmırdı. Nəhayət, "Ayıb olsun sənə ki, mənə belə bir təklif etdin. Guya mən bilmirəm ki, Cavidin məktublarının necə qiyməti var? Mən bilmirəm ki, siz sənədləri ala da bilərsiniz? Bunların hamısını bilirəm. Ancaq mən gərək nə qədər mənəviyyatsız adam olam ki, Cavidin ya başqasının mənə yazdığı məktublarını satıb pul qazanım. Ondansa mən özümə yalnız ölüm arzulayardım. Kimdən, kimdən, düzü səndən bu təklifi gözləməzdim".

Mənim nə vəziyyətə düşdüyümü təsəvvür etmək çətin deyil. Adətən mən düşünülməmiş söz demərəm. Özü də kimə - Əziz müəllimə. Mən: "Əziz müəllim, məni bağışlayın, üzr istəyirəm, ancaq məni demək olar ki, məcbur etdilər". "Kimsə səni məcbur edirsə, bəs Ataxan, öz ağlın haradaydı?" - deyə maşını açaraq oturub sağollaşmamış belə, getdi. Düzü, mən uzun müddət bu söhbətin mənəvi əzabını çəkdim. 1980-ci ilin iyununda arxivini verən zaman "Arxivimi təmənnasız sizə bağışlayıram - deyəndə Əziz müəllim üstüörtülü bir də mənə yuxarıdakı söhbətimizi xatırlatdı.

Əziz müəllimin səhhəti getdikcə yaxşılaşmış, elə həmin 1980-ci ilin payızında Bakıya gəlmiş, arxivə baş çəkərək sənədlərinin saxlanması vəziyyəti ilə də maraqlanmışdı. Moskvaya qayıtdıqdan sonra dekabrın 2-də mənə aşağıdakı məzmunda məktub yazmışdı: "...Bakıdan qayıtdıqdan sonra yenə öz adəti işlərimlə məşğul oluram. Bu işlər arasında arxivimin uzaqda olması böyük çətinliklər yaradır. Sizin arxivin seyflərində ölü kapital kimi qalan sənədlərdən istifadə edə bilməməyim məni çox incidir. Çox düşünəndən, götür-qoy edəndən sonra sizə zəhmət verməli oldum. Sizə verdiyim arxivdən mənə iki sənəd lazımdır. Belə olmasaydı, inanın ki, sizə zəhmət verməzdim. Birinci sənəd "Dan ulduzu" jurnalının 1928-ci il tarixli 2(14) sayında çap edilmiş məqalədir ki, Bakıda teatr muzeyinə həsr edilmişdir. İkinci sənəd də mənim Səməd Vurğun haqqında rusca yazdığım xatirələrin əlyazmasıdır".

Həmin məktubu alan kimi biz göstərilən məqalə və xatirənin surətlərini çıxararaq Əziz müəllimə göndərdik. Dekabrın 23-də Əziz müəllimdən belə bir cavab aldım: "Göndərdiyiniz materiallar vaxtında gəlib çatdı, məni də çox sevindirdi. Sizin bu diqqətinizə və işgüzarlığınıza qarşı öz dərin minnətdarlığımı bildirirəm. Mən biləsi daha sizə zəhmət vermək məcburiyyətində olmayacağam. İşdir, zəhmət verməli olsam da, yəqin ki, məndən inciməzsiniz".

Əziz müəllimlə ən çox məktublaşmağımız 1981-ci və 1982-ci illərdə olmuşdur ki, bu da təsadüfi deyildir. Əvvələ o, bizim gətirdiyimiz sənədlərinin taleyi ilə ciddi maraqlanırdı. Nə vaxt qaydaya salınıb qurtaracağını səbirsizliklə gözləyirdi. Digər

tərəfdən isə o, bu vaxt həm xatirələri ("Atam və mən", "Keçmiş günlərdən" xatirələrinin ikinci kitabı) üzərində, həm də "Tapıntılar" məqalələr toplusunu nəşrə hazırlamaq üzərində gərgin işləyirdi.

1981-ci ilin yayında Əziz müəllim yenə Bakıya gəlmiş və burada bizdən Üzeyir Hacıbəyov haqqında xatirələrinin surətini çıxararaq ona göndərməyi xahiş etmişdi. Bu vaxt makinaçımız olmadığı üçün biz həmin materialı tezliklə çıxarıb Əziz müəllimə göndərə bilməmişdik. Həmin il iyulun 10-da o, Peredelkinadakı yazıçıların yaradıcılıq evindən göndərdiyi məktubda həmin xatirələri oraya göndərməyi xahiş edirdi ki, istirahət vaxtı tərcümə edərək nəşriyyata göndərsin. Məktub bizə gec çatmış, çatan kimi də biz həmin xatirənin surətini çıxararaq iyulun 27-də Peredelkinaya - Əziz müəllimin yazdığı ünvana göndərmişdik. Görünür məktub ona gec çatdığı üçün avqustun 9-da Əziz müəllim Peredelkinadan aşağıdakı məzmunda çox incik bir məktub yazmışdı: "İki ay bundan əvvəl Bakıda sizdən xahiş etmişdim ki, mənim Üzeyir bəy haqqında xatirələrimin surətini mənə göndərəsiniz. Siz də söz vermişdiniz.

Bir ay bundan əvvəl də sizə göndərdiyim məktubda təkrar xahiş etmişdim ki, həmin xatirəni Peredelkinaya göndərəsiniz ki, burada onun tərcüməsi ilə məşğul olum. Vəd etdiyiniz gəlib çıxmadı. Məktubuma cavab da alınmadı. Bir həftədən sonra artıq Moskvaya qayıdıram. Mənim yay iş planım pozuldu, vəziyyətim da ağırlaşıb.

Yenə sizdən xahiş edirəm istədiyim materialı yubatmayın, çünki onu nəşriyyata verilmiş xatirələr kitabıma əlavə etməliyəm".

Görünür, elə həmin günlər Əziz müəllim bizim göndərdiyimiz materialı Peredelkinada alıbmış ki, avqustun 13-də oradan yazırdı:

"Hörmətli dostum Ataxan! Çoxdan gözlədiyim materialı ancaq bu gün aldım. İki gündən sonra Moskvaya qayıdırıq.



Beləliklə, burada tərcümə etmək niyyətində olduğum xatirələri Moskvaya aparıb orada etməli oluram". Bu məktubdan da görünür ki, Əziz müəllimin incikliyi keçməmişdi. Ancaq bizdə günah yox idi. Bütün günahlar həmişə ləng işləyən poçtda idi.

Çox böyük əzab-əziyyətdən sonra nəhayət ki, 1981-ci ilin mart ayında tarix İnstitutunda müdafiə edəcəyim "İnqilabi-demokratik "Molla Nəsrəddin" jurnalının Şərqdə istibdad quruluşu və müstəmləkəçiliyə qarşı mübarizəsi (1906-1914-cü illər)" mövzusunda namizədlik dissertasiyamın avtoreferatı buraxıldı. Dissertasiyanın müdafiəsi mayın 29-a tə'yin olunmuşdu. Jurnalın və onun banisinin həyat və yaradıcılığının görkəmli tədqiqatçılarından biri kimi avtoreferatdan bir nüsxə də Əziz müəllimə göndərmişdim. Həmin il may ayının 5-də o, Tarix İnstitutuna göndərdiyi müsbət rəyin bir nüsxəsini də mənə göndərərək, oraya qoyduğu açıqlamada bu sözləri yazmışdı: "Əzizim Ataxan! 2 may bayramınız mübarək olsun! Qoy 29 may günü sizin üçün üçüncü may bayramı olsun!"

Dissertasiya müdafiəsindən sonra onun materialları əsasında yazdığım "Molla Nəsrəddin": dostları, düşmənləri" kitabı da 1982-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çapdan çıxdı. Həmin kitabdan bir nüsxə Əziz müəllimə də göndərdim. Həmin il mayın 16-da ondan aşağıdakı məzmunda məktub aldım: "...Kitabınız məni çox sevindirdi. "Molla Nəsrəddin" haqqında nə qədər yazılsa, yenə az olacaqdır, çünki bu jurnal xalqımızın və mədəniyyətimizin tarixində əsl inqilab yaradıb, təzə səhifə açmışdır. Mollanəsrəddinçilik aləmində sizin bu əsəriniz də özünə layiq olan yeri və mövqeyini tutacaqdır. Sağ olun!"

O vaxtlar Əziz müəllimin 1980-ci ildə qəbul edilmiş sənədlərinin qaydaya salınması üzərində qızğın iş gedirdi. Ancaq Əziz müəllim daim nigarançılıq keçirir və arxivə verdiyi sənədlərin siyahısını almağa tələsirdi. Bununla əlaqədar Maarif Teymurova yazdığı məktubda bilavasitə

olmasa da, dolayısı yolla verdiyi sənədlərin siyahısını almadığından nigarançılığını bildirmişdi. Bunu bildikdə siyahının gecikməsinin səbəblərini sənədlərin çoxluğu üzündən onların sistemləşdirilməsi üçün çox vaxt tələb olunduğunu yazmış, sənədlərinin taleyindən tam arxayın olmasını xahiş etmiş və tezliklə siyahını ona çatdıracağımıza da söz vermişdim.

Əziz müəllim 1982-ci il mayın 16-da göndərdiyi cavab məktubunda yazırdı: "Siz yazmasanız da, mən arxayınam. Mənim üçün çox əziz olan materialların dost əlində olduğunu yaxşı bilirəm və bu sahədə heç bir şübhəyə yol vermirəm. Mənim Maarifə verdiyim suallar yalnız adi maraq əlamətidir. Bu barədə heç nigaran olmayın. Mən sizə (arxiv işçilərinə) çox minnətdaram ki, mənim arxivimə bu qədər diqqətlə yanaşır, zəhmət çəkir, tər tökürsünüz. Mənim görə bilmədiyim ağır, çox ağır işi siz öz öhdənizə götürüb görürsünüz. Mən də allaha dua edirəm ki, sizə cansağlığı və tükənməz səbr versin ki, bu işi tamamlaya biləsiniz".

Adətən Əziz müəllimin yadına ən çox o, Peredelkinada istirahətdə olarkən düşürdük. Bu da təbii idi. İnsanın başına yeni-yeni fikirlər daha çox asudə vaxtı və istirahət vaxtı gəlir. 1982-ci il iyunun 29-da Peredelkinadan göndərdiyi məktubda o yazırdı: "Əzizim Ataxan müəllim. Arxivimi sizə verəndə səhv edib bir para kitablarımı da vermişəm. O kitabları ki, həmişə mənə lazım olur. Məsələn, Axundovun, Məmmədquluzadənin, Haqverdiyevin və Sabirin əsərlərini. İndi yazdığım əsər üçün bu kitablara çox ehtiyacım var. Moskvada da bunları tapmaq mümkün deyil. Lenin kitabxanasına getmək də imkan xaricindədir. Heç bilmirəm necə edəcəyəm. Xülasə, işim yaman çətinləşib. Çox-çox salam. Əziz Şərif".

Necə deyərlər, arifə bir işarə. Başa düşdüm ki, Əziz müəllim həmin kitabları istəyir. Ancaq görünür açıq yazmağa üzü gəlmir.

İyulun 13-də ona yazdığım cavabda bildirmişdim ki, hansı kitablar lazımdırsa, onların dəqiq siyahısını yazsın, biz onun



üçün göndərək. Çünki onun arxivində göstərilən müəlliflərin əsərlərinin bir neçə nəşri var idi. İyulun 20-də Əziz müəllim Peredelkinadan yazırdı: "Əziz Ataxan! Məktubuma cavabınızla məni sevindirdiniz, çox minnətdaram. Özümü çıxılmaz bir vəziyyətdə qalmış hesab etdiyim halda, siz mənə çıxış yolu göstərib əlimdən yapışdınız. Çox sağ olun. Sizin məsləhətinizdən istifadə edib arxiv idarəsinə rəsmi məktub göndərirəm. Bu kitabları müvəqqəti olaraq mənə verməyi (Qaytarmağı yox. Hədiyyəni geri qaytarmaq olarmı?...) xahiş edirəm. Kitablardan istifadə edəndən sonra yenə sizə qaytarıb təşəkkür edəcəyəm".

Əziz müəllim arxivin adına yazdığı digər məktubunda ona lazım olan kitabları və nəşr illərini yazmış və müvəqqəti istifadə üçün ona göndərməyi xahiş etmişdi.

Maraqlıdır ki, Əziz müəllimin bu məktubu Bakıya gəlmiş, lakin bizə çatmayaraq yenidən geri - Moskvaya qaytarılmışdı.

Yeni məktubunda yazırdı: "On gündür ki, Peredelkinadan evə qayıdıb sizdən umduğum kitabların yolunu gözləyirəm. Kitab əvəzinə bu gün poçt mənə bu kağızı gətirdi. Üç həftə bundan əvvəl Peredelkinadan sizə göndərdiyim məktub haradasa ləngiyib Bakıda sizə çatmamış mənim özümə qayıdıb. Heç nə başa düşmürəm. Rabitə orqanlarının bu fırıldağını qətiyyən başa düşmürəm. Məktubu açmadan, olduğu kimi təkrar sizə göndərirəm ki, siz də bu barədə götür-qoy edəsiniz."

Bu məktubu aldıqdan sonra mən bizim arxivə xidmət edən poçta getdimsə də, həmişə olduğu kimi, bu geri qayıtmanın səbəbini heç cür aydınlaşdıra bilmədim. Ancaq Əziz müəllimin istədiyi kitabları avqustun 23-də yola saldım.

Sentyabrın 2-də Əziz müəllimdən gəlmiş cavab məktubunun zərfinin onun özü tərəfindən nömrələnmiş 1və 2 saylı məktublar var idi. Birinci məktubda o bildirirdi: "İndi gedib poçtdan kitabları aldım. Sizə ağır zəhmət verdiyim üçün çox üzr istəyirəm. Kitablardan istifadə edəndən sonra yenə

eyni qayda ilə onları ya hissə-hissə, ya da hamısını birdən arxivə qaytararam. Bu barədə lap arxayın ola bilərsiniz".

İkinci məktubunda isə Əziz müəllim yazırdı: "Birinci məktubumu mən poçtdan gələn kimi yazdım. Amma hələ göndərməmişdən, kitabları açıb baxandan sonra bu ikinci məktubu yazmağa başladım... C.Məmmədquluzadənin mənə lazım olan kitabları 1936-cı il çapıdır. Mənə isə 1966-1967-ci il çapı gəlmişdir. Əlbəttə, mən bu çapdan da istifadə edə bilərdim, ancaq belə olduqda mənim işim xeyli çətinləşəcəkdir. Buna görə də sizdən acizanə rica edirəm ki, mümkündürsə, mənə Cəlil Məmmədquluzadənin 1936-cı ildə nəşr edilmiş üç cildliyini göndərəsiniz. Bu nəşri alan kimi 1966-1967-ci illərdə nəşr edilmiş üç cildi sizə geri göndərərəm".

Onu da qeyd edim ki, əslində bu işdə bizim heç bir günahımız yox idi. Əziz müəllim hansı illərin nəşrlərini istəmişdisə, biz də onları göndərmişdik. Yenə də Əziz müəllimin xahişini vaxtında yerinə yetirdik.

Sentyabrın 21-də ondan aşağıdakı məzmunda məktub aldım: "Göndərdiyiniz kitabları aldım. Sizə son dərəcə minnətdaram və artıq zəhmət verdiyim üçün xəcalət çəkirəm. Bağışlayın. Bundan sonra çalışaram ki, sizə zəhmətim dəyməsin... Əlimdəki işi qurtaran kimi sizdən aldığım kitabların hamısını qaytarmağa söz verirəm. Heç nigaran olmayın..."

Yadımdadır, ikinci dəfə kitabları tələsik göndərdiyimiz üçün onun arasına məktub qoymamışdıq. Əziz müəllimin belə şeylərə çox diqqət yetirdiyini bildiyimizdən və tez incidiyindən ona əlavə çox mehriban bir məktub yazdım. Heç demə, mən öz zənnimdə yanılmamışam. Əziz müəllim kitabların arasında məktub görmədikdə bunu bizə "tez-tez əziyyət verdiyi üçün" inciməyimizin əlaməti kimi dəyərləndirib. O, 1982-ci il noyabrın 26-da göndərdiyi məktubunda yazırdı: "Əziz dostum Ataxan! Mehribanlıqla dolu



məktubunu alıb çox məmnum oldum. Göndərdiyiniz kitabların içində heç bir məktub olmadığı üçün mən çox sıxıldım. Dedim, yəqin dostlarıma artıq zəhmət verdiyim üçün məndən inciyiblər, mənim barəmdə "üz verəndə, astarını da istəyir" deyib məzəmmət ediblər. İndiki məktubunuz mənim şübhələrimi dəf etdi. Çox sağ olun, həmişə mənə qarşı belə mehriban və nəzakətli olsanız, sizə zəhmət verməkdə çətinlik çəkmərəm..."

Əziz müəllim bu məktubunda yenə də sözarası öz arxivinin qaydaya salınması ilə maraqlanaraq yazırdı: "Mənim arxivim ətrafında işləriniz qurtardımı? Sizə yenə iki-üç bağlama məktub hazırlamışam. Bəlkə kitablarla bərabər göndərə bildim".

Bu o vaxt idi ki, Baş Arxiv İdarəsində yaradılmış dözülməz şəraitlə əlaqədar məcbur oldum ki, 17 illik gənclik həyatımı həsr etdiyim sevimli işimdən ayrılım. Səbəbi də arxivlərimizdə qeyri millətlərin, xüsusilə ermənilərin at oynatması idi. Düzü, öz vətənimizdə, yerimizdə onların bizə qarşı bu ayrıseçkilik hərəkətlərinə dözə bilmirdim. Ümumiyyətlə, heç bir millət özünün mənəvi sərvəti və xalqının tarixini bizim kimi məmnuniyyətlə özgələrinə etibar etməz və tapşırmazdı... Nə isə...

Hələ 1980-ci ilin iyun və iyulunda Əziz müəllimdən gətirdiyimiz sənədlərin sistemləşdirilərək tutulmuş siyahısının bir nüsxəsini 1982-ci ilin dekabrında işdən getməmiş Əziz müəllimin özünə göndərmiş və bununla bərabər yazdığım məktubda arxivdən getməyim və onun səbəbləri barədə də ağıllı-başlı ürəyimi boşaltmışdım.

Əziz müəllim özünün 1983-cü il 21 yanvar tarixli cavab məktubunda yazırdı: "Siyahı məni sevindirdi, amma məktubunuz kədərləndirdi. Sizin arxivdən getməyiniz arxiv üçün təsirsiz qalmayacaqdır. Çox təəssüf, sizin kimi fəal, təşəbbüsçü mütəxəssis, arxiv patriotu gərək arxivdən kənar edilməyəydi. Axı mənim özüm də zəngin arxivimi ancaq sizin

təbliğatınıza görə və şəxsən siz Ataxana etibar etdiyim üçün arxiv idarəsinə təslim etdim...

Hər halda sizdən xahiş edirəm mənimlə rabitəni kəsməyəsiniz. Bəlkə elə oldu ki, yenə arxivə qayıtdınız. Sizdən bunu xahiş edirəm".

Yəqin allah Əziz müəllimin xahişini eşitdi ki, mən il yarımdan sonra yenidən Baş Arxiv İdarəsinə qayıtdım. Ömrünün sonuna qədər Əziz müəllimlə daim əlaqə saxladıq.

Bu əlaqələrdən yadigar olaraq məktublarla yanaşı, Əziz müəllimin məndə öz avtoqrafları ilə verdiyi "Atam və mən", "Keçmiş günlərdən" xatirələr toplusunun ikinci cildi və "Tapıntılar" kitabları yadigar qalmışdır. Bunlardan ən yaddaqalanı ömrünə altı ay 14 gün qalmış Maarif Teymurovla mənə göndərdiyi "Tapıntılar" kitabının titul vərəqində yazdığı insanı riqqətə gətirən sözlərdi: "Əziz və xeyirxah dostum Ataxan Paşayevə son xatirə. Müəllifdən. Əziz Şərif. 16 noyabr 1987-ci il, Moskva".

Onu deyim ki, Əziz müəllim arxivinin təhlükəsiz şəraitdə qorunub saxlanılması üçün böyük təlaş keçirirdi. Hətta görüşlərimiz zamanı bir neçə dəfə İrakli Andranikovun bağında yanğın nəticəsində onun arxivinin çox hissəsinin məhv olmasından söz açan Əziz müəllim deyərdi: "Mən başa düşə bilmirəm, bu hadisədən sonra İraklinin ürəyi necə də partlamayıb. Mən buna dözə bilməzdim".

Əziz müəllimin sənədləri ilk dəfə 1967-ci ilin aprelində, son dəfə isə 1987-ci ilin noyabrında qəbul olunmuşdur. Əziz müəllim arxivə cəmi səkkiz dəfə sənəd vermişdi. Onu da deyim ki, Əziz müəllim rəhmətə getdikdən sonra ailəsi ilə əlaqə saxladığımıza baxmayaraq, onun qalan sənədlərini arxivə verməkdən imtina etdilər. Görünür ki, o, bu vəziyyəti hiss etdiyi üçün sağ ikən demək olar ki, arxivinin hamısını Ədəbiyyat və İncəsənət Arxivinə verməyə tələsirdi. Sağlığında Əziz müəllimin arxivə verdiyi materialların çəkisi ton yarımdan çox olan 14247 sənəd, 1654 kitab, 641 jurnal və



jurnal komplektləri, 881 avtoreferat olmuşdur. Onun sənədləri 255 saylı şəxsi fond üzrə 2639 işdə rəsmiləşdirilmiş və 7 siyahısı tərtib olunmuşdur.

Əziz müəllimin arxivi haqqında danışarkən onun 75 ildən yuxarı apardığı 45 ümumi dəftərdən ibarət gündəliklərindən danışmamaq olmaz.

Əziz müəllim öz gündəliklərinin son səhifəsinə 1987-ci il noyabr ayının 11-də ölümünə altı ay on doqquz gün qalmış həyəcansız oxumaq mümkün olmayan aşağıdakı sözləri yazaraq çox iri bir nöqtə qoymuşdur: "Mənim həyat yolum sona yaxınlaşır və 75 il müddətində hər gün məşğul olduğum gündəliyimin yekun səhifəsini yazıram. Elə bil ki, gözlərim tor bağlayır. Gözüm yazdıqlarımı seçmir. Soyuqlaşan barmaqlarım çətinliklə qələmi hərəkət etdirir.

Artıq mənə yazmaq üçün elə bir şey də qalmayıb. Hər şey yazılıb, hər şey mənim balalarım - Cavada və Güllüyə deyilib. Mənim çağırışımla sabah fədakar və xeyirxah dostum, Ədəbiyyat və İncəsənət Arxivinin direktoru Maarif Teymurov Moskvaya uçur və mən öz arxivimin qalan hissəsi olan sənədlər və əlyazmaları ilə bərabər 45 cilddən ibarət gündəliklərimi də təhvil verəcəyəm.

Beləliklə, mən ömrümü başa vuraraq gözləyirəm ki, nə vaxt mənim cansız cəsədim Naxçıvandakı biyaban qəbiristanlıqda valideynlərimlə və qardaşımla yanaşı torpağa tapşırılacaq.

Bununla da mən gündəliyimə böyük bir nöqtə qoyuram".

Bu gün Əziz müəllim cismən aramızda yoxdursa da, mənən o, həmişə bizimlədir. Onun qoyub getdiyi zəngin irsə hər dəfə müraciət etdikdə deyirik: "Allah sənə rəhmət eləsin, Əziz müəllim! Allah sənə rəhmət eləsin ki, xalqımıza bu cür əvəzsiz xəzinə qoyub getmisən. Amin!"

**"Ədəbiyyat" qəzeti,**
**31 iyul, 7 avqust 1998-ci il, № 30, 31**

# AZƏRBAYCANDA SOVET TOTALİTAR REJİMİ NECƏ YARANDI?

Azərbaycan Sovet hakimiyyəti qurulduğu ilk günlərdən onun müstəqil Sovet Sosialist Respublikası elan edilməsinə baxmayaraq burada bolşevik totalitar rejiminin əsasları qoyulur. Azərbaycan müstəqil respublika elan olunsa da, Bakı Kommunasının acı "təcrübələrindən dərs alan" V.İ.Lenin Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti rəhbərlərinin əsasən azərbaycanlılardan ibarət təşkil edilməsinə razılıq versə də, respublikada bütün hakimiyyət sükanını öz əlində cəmləşdirən Az.K(b)P MK-nın rəhbər heyəti başqa millətlərdən təşkil olunmuşdu. Respublikada əsas məsələləri də məhz onlar həll edirdilər. Burada həlledici rolu S.M.Kirov, S.Orconikidze, A.Mikoyan, L.Mirzoyan və başqaları oynayırdı. Azərbaycanlıların faciəsi bir də onda idi ki, əgər Gürcüstan və Ermənistanda totalitar rejimin yaradılmasını öz millətlərindən olan şəxslər həyata keçirirdilərsə, Azərbaycanda bu işi əsasən digər millətlərin nümayəndələri, xüsusilə də həmişə azərbaycanlılara qarşı düşmən mövqe tutmuş ermənilər yerinə yetirmişlər.

Azərbaycanda totalitar rejimin yaranması şəraiti və səbəblərini öyrənmək üçün əsas mənbələr arxivlərimizdə ayrı-ayrı partiya, Sovet və idarətetmə orqanlarının fondlarında saxlanılan sənədlərdi.

Sənədlərlə diqqətlə tanış olduqda görürük ki, Azərbaycanda Sovet totalitar rejimi öz ağalığının təməlini başlıca olaraq 3 istiqamətdə quraraq inkişaf etdirmişdir: 1. Dövlət quruculuğu və hakimiyyət uğrunda mübarizə sahəsində; 2. Ölkə iqtisadiyyatı üzərində totalitar idarə rejimini bərqərar etməkdə;



3. Siyasi və ideoloji iş sahəsində bütün vasitələri rejimin əlində cəmləşdirməkdə.

Sovet hakimiyyəti qurulan kimi bolşeviklər partiyası ölkədə siyasi rəhbərlik adı altında bütün yuxarıda göstərilən üç istiqamətdə rəhbərliyi tamamilə öz əlinə alır. Ölkədə hər şey bu partiyaya və onun "demokratik mərkəziyyət prinsipləri əsasında qurulmuş" rəhbər orqanlarına tabe edilir. Bütün hakimiyyət tam şəkildə partiyanın mərkəzi komitəsindən başlayaraq aşağı getdikcə yerli təşkilatlarının əlində cəmləşdirilir.

Azərbaycanda iqtisadiyyat və dövlət quruculuğu sahəsində totalitar rejimin əsasları hələ aprel çevrilişinin ilk günlərindən Azərbaycan İnqilab Komitəsinin qəbul etdiyi dekretlərlə qoyulurdu. 1920-ci il mayın 5-də torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv edilməklə, torpağın milliləşdirilməsi, mayın 12-də meşələrin, suyun və yerin təkinin milliləşdirilməsi, mayın 16-da istehsal üzərində fəhlə nəzarətinin qoyulması, mayın 27-də neft sənayesinin milliləşdirilməsi, iyunun 1-də Xəzər ticarət donanmasının milliləşdirilməsi, iyunun 9-da bankların milliləşdirilməsi, yenə həmin gün balıqçılıq sənayesinin və başqa sənaye sahələrinin milliləşdirilməsi haqqında Azərbaycan İnqilab Komitəsi dalbadal dekretlər verir. Bütün bu dekretlər, milliləşdirmələr Azərbaycan iqtisadiyyatında Sovet totalitar rejiminin əsaslarını bərqərar edirdi.

Azərbaycanda dövlət quruculuğu sahəsində totalitar rejimin yaradılmasında və Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın idarə edilməsində Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının mühüm rolu olmuşdur. Bu işdə Azərbaycan İnqilab Komitəsinin 1920-ci il iyun ayının 9-da Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı (XDİK) haqqındakı dekretinə xüsusi diqqət yetirək. Həmin dekretlə yeni Azərbaycan Konstitusiyası qəbul edilənə qədər Azərb. SSR XDİK-in əsasnaməsi təsdiq edilir. Həmin dekretdə qeyd

olunurdu ki, "Xalq Daxili İşlər Komissarlığı respublikanın ali inzibati orqanıdır və Azərbaycan İnqilab Komitəsi onun vasitəsilə ölkədə inzibati idarə işlərini həyata keçirir".

Bu dekretlə XDİK-in qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur: 1. Yerlərdə hakimiyyət orqanlarının təşkili; 2. Ölkənin bütün idarə aparatının mərkəzləşdirilməsi; 3. Bütün yerli idarə orqanları üzərində inzibati nəzarət.

Göstərilən dekretlə Azərb. SSR-in bütün ərazisində həm qəzalarda, həm də şəhərlərdə (o cümlədən Bakı şəhərində də) bütün yerli inqilab komitələri və icraiyyə komitələri inzibati-idarə nöqteyi nəzərindən XDİK-na tabe edilir. Mərkəzi hakimiyyət orqanlarının qərar və əmrləri ilə nizamlanan qərar və əmrlər istisna olmaqla ölkənin daxili idarəsinə aid inqilab komitələrinin, Sovetlərin, onların icraiyyə komitələrinin qəbul etdikləri bütün qərar və əmrlər Xalq Daxili İşlər Komissarlığı tərəfindən təsdiq olunmalı idi. Sovetlərə seçkilərə qədər XDİK-na Azərbaycan İnqilab Komitəsinin razılığı ilə bütün yerli inqilab komitələrinin rəhbərləri və üzvlərini işə tə'yin etmək və işdən kənarlaşdırmaq səlahiyyətləri verilirdi.

1930-cu ilə qədər XDİK yerli idarə orqanlarının - əvvəlcə inqilab komitələri və yoxsul komitələrinə, 1921-ci ilin mayında keçirilən I Ümumazərbaycan Sovetlər qurultayından sonra isə - yerli Sovetlərə seçkilərin keçirilməsinə rəhbərlik etmiş, onların işini təşkil və fəaliyyətlərinə nəzarət etmişdir.

Yuxarıda göstərildiyi kimi Azərbaycanda dövlət hakimiyyəti orqanlarının tamamilə partiya orqanlarından asılı vəziyyətə salınması burada başqa millətlərdən ibarət rəhbər işçilərin ağalıq etməsi hələ Sovet hakimiyyətinin ilk günlərindən yerli əhalinin narazılığına səbəb olmuşdur.

Azərbaycanda Xalq Cümhuriyyəti hökumətinin bolşeviklər tərəfindən devrilməsindən 11 gün əvvəl, yəni 1920-ci il aprelin 16-da RSFSR Əmək və Müdafiə Şurası sonralar N.Nərimanovun "neft kralı" adlandırdığı A.Serebrovskini "Bakı Neft Komitəsinin" sədri təyin edir və V.İ.Leninin



imzaladığı mandatla ona geniş səlahiyyətlər verilir. A.Serebrovski özünü Azərbaycan Neft Sənayesinin həqiqi sahibi kimi apararaq V.İ.Lenindən başqa heç kimlə razılaşmırdı.

XI Ordu siyasi idarəsinin rəisi V.A.Pankratovun Azərbaycan ərazisində yerli əhaliyə qarşı yeritdiyi repressiya siyasəti, Moskvadan gələn "yekəbaş çinovniklərin" (N.Nərimanov) yeri gəldi-gəlmədi Azərbaycanın daxili işlərinə müdaxiləsi yerli əhalinin səbr kasasını doldurur, haqlı qəzəbinə səbəb olurdu. Buna görə də Bakıda fəhlələrin etiraz tə'tilləri, Azərbaycanın qəzalarında isə tez-tez kəndli çıxış və üsyanları baş verirdi. Ancaq XI Ordu tərəfindən bu hərəkatlar amansızlıqla yatırılır, onlarda iştirak edənlər kütləvi surətdə repressiyalara məruz qalırdılar. Arxivlərimizdə bu narazılıqlar və onlara qarşı tətbiq edilən repressiya tədbirləri haqqında çoxlu tarixi sənədlər qorunub saxlanılır. Onlardan bəziləri ilə tanış olaq.

Yerli əhalinin narazılığı özünün geniş əksini 1921-ci il mayın 6-19-da keçirilmiş I Ümumazərbaycan Sovetlər Qurultayının materiallarında tapmışdır. Qurultay nümayəndələri, xüsusilə qəzalardan gəlmiş nümayəndələr çoxsaylı suallarla N.Nərimanova müraciət edirlər. Onlar soruşurlar ki, əgər Azərbaycan deyildiyi kimi həqiqətən tam müstəqildirsə, Rusiya Federasiyası ilə bərabər hüquqlu respublikadırsa onda nəyə görə Rusiya Azərbaycanın daxili işlərinə istədiyi kimi müdaxilə edir? Niyə Azərbaycan öz neftinin həqiqi sahibi deyil və ondan istədiyi kimi istifadə edə bilmir? Soruşulurdu ki, nəyə görə yaxın vaxtlarda Azərbaycanda xarici işlər və hərbi komissarlıqların ləğv ediləcəyi və Azərbaycanın xarici ticarətinin RSFSR xarici ticarəti ilə birləşdiriləcəyi haqqında söhbətlər gedir? Zaqafqaziya yollarının respublikamızın yolları ilə birləşdirilməsini necə izah etmək olar və s.

N.Nərimanov suallara cavablarında Sovet Respublikalarının bəzi məsələlərdə ümumi bir mərkəzdən idarə olunmasına haqq qazandırır və bunun sosializmin təbiətindən irəli gəldiyini sübut etməyə çalışırdı. Öz cavabında o, bildirirdi ki, bunun

üçün "biz ilk növbədə Sovet hakimiyyətinin mahiyyətini" başa düşməliyik. Biz deyirik ki, nə qədər düşmənlərimiz məhv edilməyib sosialist respublikaları vahid bir küll təşkil edəcək, hər yerdə və həmişə vahid cəbhədə çıxış edəcəklər. Belə bir vaxtda hər hansı Sovet Sosialist Respublikası tam suverendir, ya yox söhbəti ola bilməz. Əgər onlardan hər biri öz küncünə çəkilərsə və hərə öz mühasibat hesabını aparарsa onda biz hamımız məhv olarıq.

Rusiyada Sovet hakimiyyətinin yarandığı ilk günlərdən bolşeviklər partiyasının qarşısında qoyduğu son məqsəd keçmiş çar Rusiyası ərazisində vahid çoxmillətli dövlət yaratmaq idi.

Buna görə də Rusiya Federasiyası ilə yeni yaranmış "Müstəqil" sovet respublikaları arasında hələ vətəndaş müharibəsi illərində federal əlaqələr yaranmağa başlayır. Bununla da gələcəkdə onları vahid dövlətdə birləşdirmək üçün zəmin hazırlanırdı. Bunun üçün əvvəlcə yeni "müstəqil" respublikalarla Rusiya arasında dünya imperializmi və əksinqilabi qüvvələrlə mübarizə üçün dostluq və əməkdaşlıq haqqında ikitərəfli müqavilələr bağlanır. Bu cür ilk müqavilə 1920-ci il sentyabrın 30-da RSFSR ilə Azərbaycan SSR arasında imzalanır. Həmin il dekabrın 28-də RSFSR ilə Ukrayna SSR, 1921-ci il yanvarın 16-da RSFSR ilə Belorusiya SSR, mayın 21-də isə RSFSR ilə Gürcüstan SSR arasında imzalanır.

Sonra bu birliyin yaradılmasının 2-ci mərhələsinə qədəm qoyulur. Burada üç Zaqafqaziya respublikası ərazi, iqtisadi, kommunikasiya cəhətdən bir-biri ilə sıx əlaqədə olduğu və vahid bir dəmir yolu hər üç respublikaya xidmət etdiyi üçün gömrük maniələrini və s. çətinlikləri aradan götürmək məqsədilə Zaqafqaziya federasiyasının yaradılması ideyası ortaya atılır. Arxivlərimizdə saxlanılan çoxlu sənədlərdən də məlum olduğu kimi, eyni mərkəzdən - Ümumrusiya K(B)P MK-sı tərəfindən ortaya atılan bu ideyalar Zaqafqaziyanın və ümumiyyətlə keçmiş Çar Rusiyası məkanında olan xalqların



yeni bir adla, Sovetlər birliyi adı ilə yeni bir boyunduruğa, totalitarizm boyunduruğuna salınması üçün ilkin addımlar idi. 1922-ci il martın 12-də Bakıda üç Zaqafqaziya respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan öz aralarında "razılığa gələrək" ZSFSR-i yaratmaq haqqında müqavilə imzaladılar. Bundan sonra 1922-ci ilin yaz və yayında Rusiya K(b)P MK-sı Ukrayna, Belarusiya və ZSFSR partiya təşkilatlarına müraciət edərək bu respublikalarla RSFSR arasında federativ əsaslarla vahid sosialist dövləti yaratmağı təklif edir. Məlumdur ki, Stalinin rəhbərlik etdiyi komissiyanın hazırladığı layihəyə görə Ukrayna, Belarusiya, Azərbaycan, Gürcüstan və Ermənistan "muxtar" respublika hüququnda RSFSR-in tərkibinə daxil edilməli idi. Görünür ki, bu da, bolşeviklər partiyası tərəfindən düşünülmüş bir taktiki gediş, siyasi oyun idi. Lenin 1922-ci il sentyabrın 26-da Siyasi büro üzvlərinə yazdığı məktubunda bu layihəni kəskin tənqid edir və bütün respublikaların "bərabər ittifaqı" əsasında yeni bir dövlət qurumu - Sovetlər İttifaqı yaratmaq ideyasını ortaya atır. Əlbəttə, zahirdə bu ideya çox cazibəli görünsə də, sonrakı tarix göstərdi ki, o mahiyyətcə İ.Stalinin ideyalarından o qədər də fərqlənmədi.

Həmin ilin oktyabr-dekabr aylarında bu respublikaların kommunist partiyalaranın plenumları keçirilir və onlar "yekdilliklə" SSR İttifaqının yaradılması haqqında qərar qəbul edirlər. Həmin il dekabrın 13-də VII Ümumukrayna və I Zaqafqaziya, dekabrın 18-də Ümumbelarusiya, dekabrın 26-da Ümumrusiya Sovetlər qurultayları SSRİ-nin təşkili haqqında qərar qəbul edirlər. 1922-ci il dekabrın 30-da Moskvada keçirilən I Ümumittifaq Sovetlər qurultayı nəhayət ki, Sovet totalitar rejiminin məhək daşı olan SSR İttifaqının əsasını qoydu.

Arxivlərimizdə saxlanılan sənədlərdən də görünür ki, Azərbaycanda totalitar rejiminin yaradılması təşəbbüsünü və bu işə rəhbərliyi elə ilk günlərdən Azərbaycan K(b)P MK-sı

öz əlində cəmləşdirmişdi. O, bu tədbirləri həyata keçirməkdə əvvəlcə Ümumrusiya və sonra isə Ümumittifaq K(b)P MK-sı və Zaqafqaziya ölkə partiya komitəsinin göstərişlərini qeyri-şərtsiz həyata keçirirdi.

Əlbəttə, Sovet hakimiyyətinin qurulduğu ilk günlərdən Azərbaycan xalqının mübarizlik ruhunu qırmaqda XI Ordunun və V.A.Pankratov başda olmaqla onun siyasi idarəsinin "xüsusi rolunu" ayrıca qeyd etmək lazımdır.

Sovet hakimiyyətinin ilk günlərindən yeni hakimiyyətin həyata keçirdiyi ilk tədbirlər Sovet hakimiyyətinə qarşı yönəldilmiş hər hansı hərəkata görə əhalini qəddarlıqla cəzalandırmaq olmuşdur. Bunu 1920-ci ilin mayında Gəncə üsyanının amansızlıqla yatırılması, həmin ilin iyununda Quba qəzasının Rustov nahiyəsində baş vermiş antisovet çıxışlarda iştirak etmiş 12 nəfərin güllələnməsi, yenə həmin ilin 2-4 oktyabrında Quba qəzasında Sovet hakimiyyətinə qarşı qiyamda günahlandırılaraq Azərbaycan Ali İnqilab Şurası Məhkəməsi tərəfindən 7 nəfərin güllələnməyə, qalanlarının isə uzun müddətli həbs cəzalarına məhkum edilməsi və s. bunlara sübutdur.

1923-cü il fevralın 25-də Fövqəladə Komissiyanın sədri M.C.Bağırovun Az.K(b)P MK-ya verdiyi məlumata görə həmin ay Göyçay qəzasında C.Əfəndinin başçılıq etdiyi Qaraqoyunlu kəndi ətrafındakı kəndlilərin çıxışı 2-ci Qafqaz atıcı diviziyası tərəfindən qəddarlıqla yatırılmışdır. Atışma zamanı 30 nəfər kəndli öldürülmüş, 5 nəfər güllələnmiş, 50 nəfər isə həbs edilmişdir.

Az.K(b)P MK-nın respublikada Sovet hakimiyyəti qurulduqdan sonra həyata keçirdiyi başlıca tədbirlərdən biri də totalitar rejimin bərqərar edilməsi sahəsində əsas maniə olan milli partiyalara və ictimai cəmiyyətlərə qarşı ideoloji mübarizə idi. Bunun üçün ilk növbədə partiya keçmişdə Azərbaycan ərazisində fəaliyyət göstərmiş milli partiya və ictimai təşkilatlara divan tutmaq işinə rəhbərliyi öz əlinə alır.



Bu partiyalara ilk növbədə isə "Müsavat" və "İttihad" partiyalarına qarşı əsl səlib yürüşü elan edilir. 1921-ci il yanvarın 23-də Azərbaycan K(b)P MK katibi Q.Kaminskinin sədrliyi ilə keçirilmiş siyasi büronun iclasında V.A.Pankratovun məruzəsi əsasında antisovet sui-qəsd hazırlamaqda ittiham edilən "İttihad" partiyasına qarşı açıq mübarizə aparmaq haqqında qərar qəbul olunur. Bu partiya ilə mübarizə formaları kimi təşkilatın fəaliyyətinin daim izlənməsi, onun dayaq nöqtələrinin aşkar edilməsi və rəhbərlərinin həbsi kimi tədbirlərdən istifadə olunması tövsiyə edilirdi. Repressiya tədbirlərindən başqa, partiyanı parçalamaq tədbirlərinə də əl atmaq, ən yaxşı ziyalıları ondan kənarlaşdırmaq, partiyanın rəhbərləri Q.Qarabəyov, Həsən Həsənov və Əlibəy Aşurbəyovu Azərbaycandan uzaqlaşdırmaq tövsiyə olunurdu. Bu partiyanın daha fəal və təhlükəli üzvlərini həbs düşərgələrinə göndərmək, qalanlarını isə bir daha "İttihad" partiyasına xidmət etməyəcəyi haqqında izahat almaqla buraxmaq tövsiyə olunurdu.

Maraqlıdır ki, elə həmin il iyunun 21-də Azərbaycan K(b)P MK-nın siyasi bürosu V.A.Pankratov və M.C.Bağırovun məruzələri əsasında yenidən "İttihadi-İslam" partiyasının məsələsini müzakirə edir. 3 nəfərdən ibarət (M.Bağırov, R.Axundov və Freyman) komissiya yaratmaq və ən qısa bir zamanda "İttihadi-İslam" partiyasının bütün fəal üzvlərini zərərsizləşdirmək haqqında qərar qəbul edilir.

Kommunist partiyası və Sovet hökumətinin 1920-ci il aprel çevrilişindən sonra Azərbaycan ərazisində daha ciddi və qətiyyətlə mübarizə apardığı siyasi partiya məhz "Müsavat" partiyası idi.

Aprel çevrilişindən sonra "Müsavat" partiyası tamamilə gizli fəaliyyətə keçərək "İstiqlal Komitəsi" yaradır. Gizli təşkilata Mirzə Bala Məmmədzadə rəhbərlik edirdi. Respublika Dövlət Siyasi Partiyalar Arxivində saxlanılan sənədlərdən də görünür ki, "İstiqlal Komitəsi" 1923-cü ilin



30.-3510

ortalarına qədər gizli şəkildə "İstiqlal" qəzetinin 19 nömrəsini buraxmışdır. Fövqəladə Komissiya tərəfindən uzun müddət təqib olunan qeyri-leqal "Müsavat" partiyasının "İstiqlal" qəzetinin nəşr olunduğu mətbəə aşkar edilərək oradakı bütün işçilər həbs olunur. Həmin mətbəəyə aid sənədlər arasında göstərilən qəzetdən əlavə gizli intibahnamələrin də nəşr olunaraq yayıldığı haqqında məlumatlar aşkar edilir.

Həbs edilmiş müsavatçıların bir qrupuna avqustun 11-də "Müsavatçıların deklarasiyası"na qol çəkdirilir və elə həmin gün Az.K(b)P MK - siyasi bürosu öz iclasında "Müsavat partiyası haqqında" məsələyə baxır. Avqustun 14-də isə deklarasiya respublika mətbuatında elan olunur.

1923-cü ildə müsavat partiyasının gizli mərkəzi aşkar edildikdən və onun rəhbərləri həbs və sürgün olunduqdan sonra bu partiyanın gizli fəaliyyəti zəifləyirsə də tamamilə dayanmır. Tam gizli şəraitdə fəaliyyət göstərən müsavatçılar "Gənclərin partiyadan kənar proqramı" deyilən proqramı həyata keçirməyə başlayır. 1925-1928-ci illərdə onlar gənclər arasında təbliğatı genişləndirirlər. Müsavatçılar Türkiyədə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan "Yeni Qafqaziyyə" jurnalını və digər ədəbiyyatları gizli şəkildə Azərbaycana gətirərək gənclər arasında yayırdılar.

1929-cu ilin yanvar ayında Azərbaycan Dövlət Siyasi İdarəsi (ADSİ) tərəfindən müsavatçıların "Gənc Azər" təşkilatı aşkar edilərək 7 nəfər rəhbər üzvü həbs olunur və təşkilat dağıdılır.

1929-cu ilin sentyabrında ADSİ-i 1929-cu il yanvarın 1-dən sentyabrın 1-nə qədər respublikadakı siyasi vəziyyət haqqında hazırladığı məlumatda deyilirdi ki, Azərbaycan sovetləşəndən sonra may ayından "Müsavat" təşkilatı öz gizli fəaliyyətinə başlamış, nəticədə Gəncədə, Qarabağda və b. yerlərdə əksinqilabi üsyanlar törətmişdir. Müsavatın gizli Mərkəzi Komitəsi, Bakı Komitəsi, qəza və rayon komitələrinin ləğv edilməsinə baxmayaraq "Müsavat" partiyası və onun xaricdəki mərkəzi Azərbaycanda olan həmfikirləri vasitəsilə pozuculuq işlərini və antisovet təbliğatını davam etdirirlər. Sənəddə göstərilirdi ki, məlumat hazırlanan vaxt Azərbaycanda 1142 nəfər müsavat üzvü və 474 ittihadçı fəaliyyət göstərir.



Məlumatda daha sonra Azərbaycan ziyalıları - xüsusilə ali və orta məktəb müəllimləri, tələbə və şagirdləri millətçilik ideyalarını yaymaqda günahlandırılırdı. Siyasi İdarə Azərbaycanda millətçilik ideyalarını baxın nədə görürdü: "...Sovet aparatının, xüsusilə də ali məktəblərin türkləşdirilməsi, (yəni azərbaycanlılaşdırılması - A.P.) Azərbaycanın təbii sərvətlərinin (neftinin) satılmasından əldə edilən gəlirin çox hissəsinin tələb edilməsi, gəlmələrin - yəni Rusiyadan köçürülənlərin Azərbaycanda yerləşdirilməsi" və s. bu kimi təkliflərdi.

Hələ 1926-cı il aprelin 19-da Azərbaycan Fövqəladə Komissiyasının sədri M.C.Bağırov Zaqafqaziya Diyar Partiya Komitəsinin katibi S.Orconikidzeyə göndərdiyi məlumatda Azərbaycan SSR Xalq Maarif Komissarlığı sistemində antisovet əhval-ruhiyənin güclü olduğu haqqında geniş məlumat verirdi. Öz məlumatında o, Azərbaycan ziyalıları ilə əlaqədar məsələlərə ciddi fikir verməyi tövsiyə edir və yazırdı: "tam aydındır ki, bu ziyalıların geniş əhali kütləsinə təsiri danılmazdır. Sovet hakimiyyəti qurulana qədər Azərbaycan əhalisinin çoxu müsavatçılara tərəfdar idi və müəyyən qədər pantürkizmə və Türkiyəyə meyl edirdilər. Sovet hakimiyyəti illərində Azərbaycanda pantürkizm və Türkiyəyə meyl xüsusilə qüvvətlənmişdir".

M.C.Bağırovun məlumatında vaxtilə Türkiyədən dəvət olunmuş və Azərbaycanda qalaraq maarif sistemində fəaliyyət göstərən müəllimlərin çoxunun adları hallandırılaraq onlar az qala Azərbaycanda pantürkizmin dayaqları kimi qələmə verilirdilər. Bu işdə professor B.Çobanzadənin təşəbbüsü ilə həmin ilin fevral-martında Bakıda türkoloji qurultayın keçirilməsini, buraya Türkiyədən Fuad Köpürülzadənin,

Əlibəy Hüseynzadənin dəvət edilməsini antisovet bir tədbir kimi qələmə verir, Azərbaycanı Tədqiq və Tətöbbə Cəmiyyətinin B.Çobanzadə tərəfindən nasional-şovinist bir quruma çevirdiyini qeyd edirdi.

Məlumatın sonunda M.C.Bağırov S.Orconikidzeyə bildirirdi ki, əgər belə gedərsə, Azərbaycanda pantürkizm ideyalarına, Türkiyə ilə yaxınlaşma meyllərinə geniş imkanlar yaranar, Azərbaycanın mədəni həyatı onlar tərəfindən istila olunar və təhlükə altına alınar. Ona görə də o, xalq maarifi sisteminə münasibəti tezliklə kökündən dəyişməyi tövsiyə edirdi.

Maraqlıdır ki, 20-ci illərdə partiya və sovet orqanları ilə yanaşı təhsil müəssisələrində də tez-tez "arzu olunmaz ünsürlərin" təmizlənməsi kompaniyaları keçirilirdi. Bu kompaniyalar zamanı fəhlələrə, kəndlilərə və sıravi vətəndaşlara müraciət edərək "arzu olunmaz" şəxslər haqqında Az.MİK-in yanında Sovet idarələrini təmizləmə komissiyalarına məlumat vermək tövsiyə olunurdu.

Azərbaycan ziyalıları ilə əlaqədar ADSİ Az.K(b)P MK-ya 1929-cu il mayın 15-də göndərdiyi digər məlumatda Bakı şəhərinin orta məktəb və texnikumlarında antisovet ünsürlərin aktiv fəaliyyət göstərdiyi haqqında məlumat verilirdi. Məlumatda həmin ilin yanvarında "Müsavat" yönlü "Gənc Azər" təşkilatının aşkar edilərək ləğv edilməsindən sonra ümumtəhsil məktəblərində və texnikumlarda ADSİ nümayəndələrinin də iştirakı ilə gizli təmizləmə işləri aparmaq, millətçi müəllimləri kütləvi surətdə təmizləmək təsəvvürü yaratmamaq üçün təmizləmə işlərini ayrı-ayrı məktəblərdə müxtəlif vaxtlarda aparmaq təklif edilirdi. Maraqlıdır ki, bu məruzənin üzərində Az.K(b)P MK katibi L.Mirzoyan belə bir dərkənar qoymuşdu: "Təmizləmə yox, düşmən ünsürlərinin tədricən kənarlaşdırılması, Azərbaycan DSİ türk müəllimlərinin siyahısını Az.K(b)P MK-ya təqdim etməlidir".

Sovet hakimiyyəti sənaye müəssisələrini milliləşdirməklə sənaye sahəsində totalitar sosializm quruğulucu siyasətini



tezliklə həyata keçirə bildi. Kənddə isə bu işi tezliklə həyata keçirmək mümkün deyildi. Ona görə də kənddə totalitar sosialist rejimi pillə-pillə həyata keçirilirdi.

Yeni iqtisadi siyasətin tətbiqi kəndlərdə mülkədar və qolçomaq sinfinin nisbətən canlanmasına səbəb oldu. 20-ci illərin ortalarından ölkədə xalq təsərrüfatının bərpası başa çatdıqdan sonra artıq totalitar sosialist istehsalının əsaslarını yaratmaq lazım idi. Kənddə mülkədar mülkiyyətinin qalması bu iş üçün ciddi əngəl hesab olunurdu. Ona görə də bütün ölkədə olduğu kimi, Azərbaycanda da artıq 1926-cı ildən başlayaraq keçmiş mülkədarlara - xan və bəy nəslindən olanlara qarşı sıxışdırma siyasətindən onların bir sinif kimi məhv edilməsi siyasətinə başlanır. Həmin ilin payızında keçmiş xanların, bəylərin və qolçomaqların Azərbaycan ərazisindən sürgün edilməsi üçün Ə.H.Qarayevin sədrliyi ilə yaradılmış hökumət komissiyasının 1926-cı il sentyabrın 16-da və oktyabrın 7-də tam gizli şəkildə keçirilmiş iclaslarının protokollarından aydın olur ki, bu iclaslarda xalqımızın cəlladlarından biri Y.Sumbatov-Topuridzenin məruzəsi əsasında Quba, Ağdam, Lənkəran, Göyçay, Şamaxı, Bakı, Nuxa, Ağdaş, Şamxor, Kürdüstan qəzalarından, Naxçıvan MSSR və DQMV-dən 177 nəfər xan, bəy və mülkədarın Azərbaycan ərazisindən xaricə sürgün edilməsi haqqında qərar qəbul edilmişdir.

1927-ci ildə bu məsələ ilə əlaqədar Az.K(b)P MK bürosunda Az.MİK Rəyasət heyətində və respublika XKS-də dəfələrlə gizli müzakirələr keçirilmişdir. 1928-ci il martın 4-də Az.K(b)P MK katibliyinin iclasında artıq Azərbaycan ərazisindən sürgün olunmuş xan və bəylərin ailələrinin də sürgün olunması məsələlərinə baxılır və Xalq Daxili İşlər Komissarlığına tapşırılır ki, indiyə qədər sürgün olunmuş xan və bəylərin ailə üzvlərini də bir ay müddətində Azərb.SSR ərazisindən kənarlaşdırsınlar.

Həmin il martın 10-da isə keçmiş xan, bəy və mülkədarları Azərb.SSR hüdudlarından kənarlaşdırmaq

məsələsi ilə bağlı Az.K(b)P MK yanında müşavirə keçirilir. Zaqafqaziya Diyar Partiya Komitəsinin bu barədəki qərarı haqqında Ə.H.Qarayev məruzə edir. Müşavirənin qəbul etdiyi qərar mart ayının 12-də Az.K(b)P MK Prezidium iclası tərəfindən təsdiq olunur. Həmin qərarda deyilirdi ki, ADSİ-nə və XDİK-na təklif edilsin ki, Azərb.SSR XKS-in 1926-cı il 13 oktyabr tarixli qərarına əsasən ***iki həftə müddətində*** bütün keçmiş mülkədarları, xanları, bəyləri, habelə əvvəllər ailə başçısı sürgün olunmuş xan və bəylərin ailə üzvlərini də Azərbaycan SSR hüdudlarından kənara sürgün etsinlər. Qərarda qəza icraiyyət komitələrinə tapşırılırdı ki, sürgün edilən mülkədar, bəy və xanların əmlakı hesaba alınsın və müsadirə olunsun.

Göründüyü kimi, artıq 20-ci illərin sonlarında kəndlərdə mülkədarların sıxışdırılması siyasətindən onların bir sinif kimi məhv edilməsi siyasətinə keçilir. Sənədlərdən görünür ki, elliklə kollektivləşdirmə hərəkatı həyata keçirilməyə başladıqda bu siyasətə daha da aqressiv istiqamət verilir. Buna cavab olaraq Azərbaycanın qəzalarında kollektivləşməyə qarşı ciddi müqavimətlər göstərilir, kütləvi surətdə kəndli üsyan və çıxışları baş verirdi. Ancaq bu çıxışlar çox amansızlıqla yatırılırdı.

1930-cu ilin iyununda keçirilən XVI partiya qurultayı elan edir ki, sosialist bölməsinin sənayedə payı 99,3 faiz, kənd təsərrüfatında isə satlıq taxılın yalnız 50 faizini təşkil edir. Bu o demək idi ki, sənayedə "kim-kimi" məsələsi qəti surətdə sosializmin xeyrinə həll olunmuş, kənd təsərrüfatında isə bu məsələ həll edilməmiş qalır. Ona görə də kənddə sosialist ukladının tam bərqərar edilməsi üçün Kommunist Partiyası ciddi mübarizəyə başlayır və 30-cu illərin ortalarına yaxın bu sahədə də bütün məsələləri Sovet totalitar sisteminin xeyrinə həll edir.

Artıq 30-cu illərin ortalarında keçmiş SSRİ ərazisində əhalinin burjua-mülkədar sinfinə aid olan təbəqəsi demək olar



tamamilə məhv edilmişdi. 1936-cı il dekabrın 5-də qəbul edilmiş yeni Sovet Konstitusiyası da ölkədə sosializmin tam qələbə çaldığını elan edir. Maraqlıdır ki, belə bir vaxtda İ.Stalin tərəfindən sosializm quruculuğunda sinfi mübarizənin kəskinləşməsi haqqında uydurma tezislərin irəli sürülməsi və nəzəri cəhətdən "əsaslandırılması" , guya istismarçı siniflərə qarşı yönəldilmiş "kim-kimi" şüarı yüz minlərlə kommunist və bitərəflərin məhvi ilə nəticələndi.

SSRİ-nin başqa respublikalarında olduğu kimi, Azərbaycanda da 20-ci illərdən totalitarizm rejimi yaratmaq üçün başlamış repressiya siyasəti 1937-1938-ci illərdə özünün kulminasiya zirvəsinə çatır. Azərbaycanda bu prosesin daha da qəddarlıqla həyata keçirilməsində bu işə azərbaycanlıların qanına susamış daşnak xislətli ermənilərin - X.Qriqoryan, A.Markaryan, Y.Sumbatov-Topuridze və başqa bu kimi cəlladların daxili işlər və digər hüquq mühafizə orqanlarına rəhbərliyinin rolu xüsusilə böyük olmuşdur.

Respublika Dövlət Arxivində saxlanılan Azərb.SSR Prokurorluğunun fondunda H.Sultanov başda olmaqla bir qrup partiya və dövlət xadimlərinin dövləti cinayəti haqqında ittihamnamə və məhkəmə işində (Şamaxı işi) göründüyü kimi H.Sultanov və b-nı "ifşa etmək üçün" yüzlərlə bu hadisələrdən bixəbər kəndlilər həmin prosesə cəlb olmuş və məhv edilmişlər.

Burada böyük dramaturq H.Cavid, görkəmli yazıçı Y.V.Çəmənzəminli, prof. Ədilə xanım Şahtaxtılı və başqaları haqqında yüzlərlə uydurulmuş cinayət işləri var. Ən maraqlısı odur ki, demək olar respublika prokurorluğu bu işdən tamamilə kənarlaşdırılmışdı. Xalq daxili işlər komissarlığının hər hansı əməkdaşının hazırladığı və daxili işlər komissarının təsdiq etdiyi həbs haqqında qərarın üzərində respublika prokuroru yalnız "Razıyam" dərkənarı qoymaqla işini bitmiş hesab edirdi. Bütün müttəhimlərə aid qərarlar cinayət məcəlləsinin eyni 72-73-cü maddələri, yəni vətənə xəyanət və əksinqilabi çevriliş

hazırlamaqda iştirakda ittiham olunurdular. H.Cavidin həbsi ilə əlaqədar onun həyat yoldaşı Mişkinaz xanım bir neçə dəfə Moskvaya - İ.Stalinin adına göndərdiyi ərizələr böyük maraq doğurur. Mişkinaz xanımın 1940-cı il mayın 19-da göndərdiyi ərizədə oxuyuruq: "Necə ola bilər ki, xalqın son dərəcə hörmətini qazanan bir adam "xalq düşməni" adı ilə həbs olunsun, ömrünün son günlərini xəstə vücudu ilə sürgünlərdə başa vursun... Hüseyn Cavid xalq düşməni olmamış və heç bir zaman da olmayacaq. Çünki 40 illik ədəbi yaradıcılığında xalqı duyaraq, ondan ilham alaraq yazmışdı". Mişkinaz xanımın digər ərizəsində deyilirdi: "O, xalq düşməni deyildi, ola da bilməzdi. Çünki xalqı sevməyən adamı xalq da sevməz və o, xalqın ruhunu oxşayan böyük sənətkar ola bilməz. Bu günə kimi onun həbs olunmasını haqlı sayan bir fikir belə eşitmədim, hamı bu işin səhv olub, tezliklə azad ediləcəyini söyləyir".

30-cu illər repressiyalarından sonra Sovet totalitar rejimi artıq tamamilə bərqərar olaraq özünün demək olar ki, çiçəklənmə dövrünə qədəm qoyur. Yalnız Böyük Vətən Müharibəsi illəri bu rejimin həyata keçirdiyi repressiya siyasətini bir qədər ləngitsə də, müharibədən sonra onun yeni-yeni çalarları təzahür edirdi. Bu dövrdə artıq keçmiş SSRİ ərazisində olan bir çox xalqlara qarşı əsl səlib yürüşü elan edilir. Krım tatarları, çeçenlər, məhsəti türkləri və başqa müsəlman xalqları Sibir və Orta Asiyaya sürgün edildilər. Ermənistanda yaşayan azərbaycanlılar 1948-1953-cü illərdə Azərbaycana deportasiya olunurlar. Bütün bu ədalətsizliklərin nəticəsi idi ki, zülm və əsarət üzərində qurulmuş başqa rejimlər kimi Sovet totalitar rejiminin də ömrü az oldu.

**"Həftə" qəzeti,**
**16, 23 iyul 1999-cu il, № 28, 29.**



## NAXÇIVANDA MUXTARİYYƏT NECƏ YARANDI?

Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 ili tamam olur. Uzun illər Naxçıvana sahiblənməyə çalışan ermənilər 1920-ci ilin dekabrında Ermənistanda daşnak hakimiyyəti devrilib Sovet hakimiyyəti qurulduğu zaman bu niyyətlərinə çox yaxın olmuşlar. Moskvanın diktəsi ilə Azərbaycan Sovet Sosialist Respublikasının rəhbərliyi belə bir güzəştə getdiyini bəyan etmiş, Ermənistan SSR rəsmən Naxçıvanı özünün ayrılmaz hissəsi elan etmişdi. Necə olmuşdur ki, ermənilərin bu arzuları gözlərində qalmış və Naxçıvanda Azərbaycan Respublikasının himayəsi altında Muxtar Respublika yaranmışdır?

Birinci Dünya müharibəsi və Rusiya İnqilabı nəticəsində yaranmış şəraitdən ermənilər maksimum istifadə etmək və fürsət varikən nə qədər mümkünsə öz qonşularından torpaqlar qoparmağa çalışmışdılar. Ermənilərin bu niyyətlərində Naxçıvan torpaqlarının zəbt edilməsi də ilk planda dururdu. 1918-1920-ci illərdə xarici müdaxiləçilərin Naxçıvandakı ağalığı zamanı ermənilər vəziyyətdən istifadə edərək dəfələrlə Naxçıvan torpaqlarını ələ keçirməyə çalışmışlar. Yalnız Naxçıvan əhalisinin apardıqları mərd mübarizə və Türkiyənin köməyi nəticəsində ermənilər bu ərazilərə yiyələnə bilməmişdilər.

XI Ordu 1920-ci ilin aprelində Azərbaycanı işğal etdikdən sonra Azərbaycanda Sovet hakimiyyəti quruldusa da, Azərbaycandan ayrı düşmüş Naxçıvanda yenə də qeyri-müəyyən vəziyyət hökm sürürdü. Lakin Sovet Rusiyasının Güney Qafqaza iddiası birmənalı idi. Necə olursa-olsun Çar Rusiyasının müstəmləkəsi olmuş bu bölgəni yenidən ələ keçirmək.

1920-ci ilin iyulunda XI Ordu hissələri Zəngəzurdan keçərək Naxçıvana doğru hərəkət edir. Gorus və Şahbuzdan keçən XI Ordunun 28-ci atıcı diviziyasının I süvari alayı iyulun 28-də Naxçıvan şəhərinə daxil olur. Elə həmin gün bölgədə Sovet hakimiyyəti elan olunur və M. Bəktaşi, A.Qədimov, F.Mahmudbəyov və b. ibarət Naxçıvan İnqilab Komitəsi yaradılır.

1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bəktaşi Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktubla müraciət edir. Məktubda deyilirdi: "Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir. Həmişə Azərbaycana meyl edən Naxçıvan ölkəsi köhnə hökumət zamanı tamamilə unudulmuş və başsız qoyulmuşdur... İndi Azərbaycan Sovet Respublikası Naxçıvan ölkəsi əhalisi üçün üfüqdə doğan yeni bir Şəfəqdi".

Lakin Naxçıvana böyük iddiaları olan ermənilər bütün vasitələrdən istifadə edərək Naxçıvan ölkəsinin böyük bir hissəsini hələ də öz əllərində saxlayırdılar.

1920-ci il avqustun 28-də Azərbaycan K(b)P MK siyasi bürosu Naxçıvanda vəziyyət haqqında məsələ müzakirə edir. Naxçıvan əhalisi nümayəndələrinin məruzəsini dinləyən siyasi büro Azərbaycan İnqilab Komitəsinə Naxçıvan məsələsini prinsipial cəhətdən aydınlaşdırmaq və Azərbaycan ilə Ermənistan arasında Azərbaycan üçün arzu olunan sərhəd xəttini müəyyənləşdirməyi tapşırır. Habelə siyasi büro Azərbaycan İnqilab Komitəsinə XI Ordunun Hərbi İnqilab Şurası ilə birlikdə Naxçıvan ölkəsində Sovet hakimiyyət orqanlarının yaradılmasını tapşırır. Siyasi büro Naxçıvan ölkəsinin fövqəladə komissarı vəzifəsinə Mərkəzi Komitənin nümayəndəsini təklif etməyi qərara alır. Bu vəzifəyə Mir Cəfər Bağırovun namizədliyi nəzərdə tutulur.



Habelə Siyasi büro Naxçıvan ölkə fövqəladə komissarının sərəncamına 30 milyon manat pul vəsaiti ayırmaq, onun 10 milyonunu nəğdi, yeni təyin olunacaq fövqəladə komissara vermək, 20 milyonunu isə Şuşa bankına keçirməyi tapşırır.

Maraqlıdır ki, bu zaman artıq qərb ölkələrinin öz qonşularının torpaqlarını tutmaq üçün ermənilərə yardımçı olmayacağını görən ermənilər Sovet Rusiyası və V. Leninlə dostluğa can atır və bu yolla da arzusunda olduqları Zəngəzur, Qarabağ və Naxçıvan torpaqlarının öz-özünə Ermənistanla birləşə biləcəyinə şərait yaranacağına ümid edirdilər.

1920-ci ilin yayında əzəli Azərbaycan torpaqlarında Ermənistanla Sovet Rusiyası arasında hərbi əməliyyatlar getdiyi bir vaxtda onların arasında həm də siyasi və diplomatik danışıqlar da davam etdirilirdi. Bu danışıqlarda Azərbaycanın iştirakı olmadan onun torpaqlarının mübahisəsiz Ermənistana verilməsi məsələsi də müzakirə olunurdu.

Bununla əlaqədar N.Nərimanov V.İ.Leninə göndərdiyi məktubunda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..."

Yeri gəlmişkən onu da qeyd edək ki, hələ 1920-ci il noyabrın 9-da Bakıda Az.K(b)P MK və Bakı Komitəsinin birgə plenumundakı İ. Stalinin öz çıxışında bu məsələyə münasibəti çox şeydən xəbər verirdi. O, deyir ki, əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olduğunu bilmək istəyirsinizsə onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hakimiyyəti yarandıqdan sonra isə vermək olar. Azərbaycana münasibətdə isə o, deyir: "Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərlərindən müstəqilliyi ola bilməz".

Onu da qeyd edək ki, bu təkcə Stalinin ideyası deyil, həm də V. Lenin başda olmaqla bolşeviklər partiyasının Azərbaycana qarşı tutduğu mövqe idi. Bunun bariz nümunəsi Ermənistanda Sovet hakimiyyəti elan edildiyi gün, noyabrın 30-da Az.K(b)P MK-nın siyasi və təşkilat bürolarının bu münasibətlə birlikdə keçirdikləri iclasdı. Həmin iclasın qərarında deyilirdi: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyil", Zəngəzur və Naxçıvan Ermənistana keçir. Qarabağın dağlıq hissəsinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Bu qərarın elanı N.Nərimanova tapşırılır.

Həmin günün səhəri dekabrın 1-də Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən Bakı Sovetinin təntənəli iclasında noyabrın 30-da Az.K(b)P MK-nın siyasi və təşkilat bürosu tərəfindən qəbul edilmiş qərar N.Nərimanov tərəfindən elan olunur. Bu vaxt Güney Qafqazda özünü demək olar ki, əsl keçmiş Qafqaz canişini kimi aparan, azərbaycanlılara isə həmişə üzdə bir cür, batində isə həqarətlə yanaşan S.Orconikidze (arvadı erməni idi - A.P.) həmin iclasdakı çıxışında "əzabkeş erməni xalqının" Sovetlərin bayrağı altına gəlməsini alqışlayır, özləri tərəfindən hazırlanaraq məcburən N.Nərimanova oxutdurulmuş Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqındakı bəyanatı: "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" adlandırır. Görün, S.Orconikidze Azərbaycanın Ermənistana vermək istədikləri əraziləri yararsız bir yer kimi necə də həqarətlə təsvir edir: "Hansısa Zəngəzur - məhsulsuz dağlar, nə çörək, nə su var. Orada heç nə yoxdur. Hansısa Naxçıvan - bataqlıq, malyariya və başqa heç nə. Hansısa Dağlıq Qarabağ. Nə var bu Qarabağda? Heç nə yoxdur".

S.Orconikidzenin bu sözlərindən belə çıxır ki, həmin iclasda iştirak edən azərbaycanlılar hələ bir ermənilərə təşəkkür etməliymişlər ki, bu cür torpaqlarda yaşamaqdan onların canını qurtarırlar.



Artıq dekabrın 2-də S.Orconikidze təcili olaraq Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə məlumatı V.İ.Lenin və İ.Stalinə çatdırır. Həmin gün Rusiya Federasiyası ilə Sovet Ermənistanı arasında bağlanan müqavilədə Sovet Rusiyası həmin ərazilərin Ermənistan əraziləri olduğunu ***"mübahisəsiz tanıyır"***. Bütün bunlar onu göstərir ki, əzəli Azərbaycan torpaqlarının Ermənistana verilməsi məsələsi Ermənistanda Sovet hakimiyyəti qurulduqdan çox-çox əvvəl Moskvada həll olunmuşdur. Bu sənədlərlə həmin məsələni de-fakto həll etmək istəyirdilər.

Artıq dekabrın 3-də İ.Stalin "əzab və müsibətlər çəkmiş" erməni xalqına göndərdiyi təbrik teleqramında bildirirdi ki, dekabrın 1-də Sovet Azərbaycanı "mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzurun, Naxçıvanın və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir".

Bu məsələ ilə bağlı yuxarıda gətirdiyimiz faktlar bir daha göstərir ki, Kommunist partiyası başda olmaqla Sovet hakimiyyəti özünün ilk günlərindən Güney Qafqazda olan bu iki respublikaya qarşı necə ikibaşlı siyasət yeritmiş, mübahisəsiz Azərbaycan torpaqlarını ermənilərə vermək üçün mümkün olan bütün vasitələrə əl atmışlar. Lakin Naxçıvan əhalisinin qəti və birmənalı mövqeyi Naxçıvan torpaqlarının Ermənistana birləşdirilməsinə imkan verməmişdi.

Belə ki, 1920-ci il dekabrın 1-də qəbul olunmuş bəyanat haqqında bölgədə məlumat əldə edilən kimi 1918-1920-ci illərdə ermənilərin Naxçıvanı ilhaq etmələrinə qarşı kəskin mübarizəyə qalxmış Naxçıvan bölgəsinin əhalisi bu bəyanata qarşı da kəskin etirazlarını bildirir. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan Respublikasının rəhbərliyi Ədliyyə Komissarı B.Şahtaxtınskini dekabrın 15-də Naxçıvana göndərir. B.Şahtaxtınskinin Naxçıvan şəhəri, Şərur və Ordubad bölgələrində keçirdiyi mitinqlərdə əhali Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil Sovet respublikası yaradılmasına tərəfdar çıxdıqlarını bildirirlər.

Maraqlıdır ki, Ermənistan SSR nümayəndələri də Naxçıvan şəhərində, Şərurun Sədərək, Şahtaxtı, Baş Noraşen, Yeycə kəndlərində keçirdikləri mitinqlərdə də əhali qəti surətdə Naxçıvanın Azərbaycanın tərkibində qalması tələbi ilə çıxış edir.

Bölgənin azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi ermənilərin Naxçıvan barəsindəki planlarını alt-üst edir və Naxçıvana yiyələnmək arzularını gözlərində qoyur. 1921-ci ilin əvvəllərində Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan inqilab komitələrinin bəyanatlarına münasibəti ilə əlaqədar keçirilən rə'y sorğusunda iştirak edənlərin 90 faizi Naxçıvanın Muxtar Respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verir.

Yeri gəlmişkən belə bir danılmaz faktı da qeyd etməliyik ki, Türkiyə tərəfinin Naxçıvanda münasibətdə tutduğu mövqeində bu işdə mühüm əhəmiyyəti olmuşdur. Türkiyə ilə Sovet Rusiyası arasında gedən danışıqlarda Naxçıvanın talei məsələsi daimi Türkiyə nümayəndə heyətinin diqqət mərkəzində olmuşdur. Uzun danışıqlardan sonra 1921-ci il mart ayının 16-da Moskvada Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış dostluq və əməkdaşlıq haqqında müqavilənin 3-cü maddəsinə əsasən həmin müqaviləyə əlavədə göstərilən Naxçıvan vilayəti ərazisində Azərbaycanın himayəsi altında, həmin himayəni Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə Naxçıvan Muxtar qurumu yaradılmalı idi.

Həmin müqavilə əsasında 1921-ci il oktyabrın 13-də isə Kars şəhərində Ermənistan, Azərbaycan, Gürcüstan Respublikaları ilə Türkiyə arasında, Sovet Rusiyasının iştirakı ilə bağlanmış müqavilənin 5-ci maddəsində deyilirdi ki,Türkiyə hökuməti, Sovet Ermənistanı və Sovet Azərbaycanı hökumətləri Naxçıvan vilayətinin bu müqaviləyə 3-cü əlavədə göstərilən sərhədləri daxilində Azərbaycanın himayəsi altında muxtar qurum yaratmasına razıdırlar.



Onu da qeyd edək ki, bu dövrdə Naxçıvana münasibətdə Ermənistan bütün vasitələrdən istifadə edirdi ki, Naxçıvan bölgəsini ələ keçirsin. Məsələn, 1921-ci il iyun ayının 23-də Naxçıvanda Ermənistan Komsomolu MK-dan belə bir məktub alırlar: "Komsomolun MK-sı mə'lum edir ki, Rusiya Kommunist Gənclər İttifaqı MK-nın Qafqaz bürosunun qərarı ilə Naxçıvan vilayətində müvəqqəti olaraq gəncələrlə işi Ermənistan Komsomolu MK-sı aparır. Buna görə də Ermənistan Komsomolu MK-nın bütün qərarları Naxçıvan vilayət komsomol komitəsi üçün məcburidir".

Lakin Naxçıvan əhalisinin əzmkarlığı ermənilərin bu hərəkətlərinə qarşı barışmazlığı buna imkan vermədi. Heç də təsadüfi deyildir ki, Az.K(b)P MK-nın siyasi və təşkilat bürolarında Naxçıvan vilayəti haqqında dəfələrlə məsələ müzakirə olunmuşdur. Naxçıvan ölkəsində vəziyyəti aydınlaşdırmaq və təsirli tədbirlər görmək üçün 1921-ci il yanvar ayının 11-də B.Şahtaxtınski Hərbi İnqilab Şurasının mandatı ilə fövqəladə komissarı kimi Naxçıvana göndərilir. Həmin il mayın 21-də isə yenidən MK-nın siyasi bürosunda Naxçıvan vilayəti haqqında məsələ müzakirə olunaraq Əlicabbar İsmayılov partiya və Sovet işlərində fövqəladə müvəkkil kimi Naxçıvana ezam olunur. Bu vaxt Naxçıvanda yaranmış mürəkkəb vəziyyəti aydınlaşdırmaq üçün elə həmin iclasın qərarı ilə D.Bünyadzadə və Ə.H.Qarayev Naxçıvana göndərilirlər. Mayın 29-da isə Naxçıvandan qayıtmış B.Sultanovun Naxçıvan bölgəsindəki vəziyyət haqqında bəyanatı müzakirə olunur.

Həmin ilin dekabrın 22-də isə Az.K(b)P MK-nın siyasi və təşkilat bürosunun iclasında Naxçıvan vilayəti partiya təşkilatı haqqında məsələ müzakirə olunaraq vilayətdə II üzvdən və 3 namizəddən ibarət vilayət partiya komitəsi yaratmaq və Nadirşinin Naxçıvan vilayət partiya komitəsinə məsul katib təsdiq olunması haqqında qərar qəbul edilir.

Hələ 1921-ci ilin sentyabrında Naxçıvan SSR Xalq Komissarları Soveti təşkil edilmişdir. Onu qeyd edək ki, bütün Naxçıvan ərazisində Sovet hakimiyyəti qurulduqdan sonra yaradılmış inqilab komitələri və yoxsul komitələri 1921-ci ilin axırlarına qədər fəaliyyət göstərmişdir. Artıq həmin ilin sonlarından Naxçıvan Respublikasında Sovetlərə seçkilər keçirilir və bununla əlaqədar olaraq inqilab komitələri və yoxsul komitələri ləğv olunurdu.

1922-ci il yanvarın 25-də Naxçıvan Sovet Sosialist Respublikasının birinci Sovetlər qurultayı keçirilir. Qurultayda Ölkə İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin hesabatları dinlənilərək müzakirə edilir və təsdiq olunur. Qurultay Ölkə İnqilab Komitəsini ləğv edib Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsini yaradır.

Naxçıvan SSR Sovetlər Qurultayı ölkədə ali dövlət hakimiyyəti orqanı idi. Qurultaylar arasında isə bu vəzifəni Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi ifa edirdi. Naxçıvan SSR MİK-i Xalq Komissarları Sovetini formalaşdırır. Xalq Komissarları Soveti həm MİK, həm də Sovetlər Qurultayı qarşısında məsul idi.

Qeyd edək ki, dostluq və əməkdaşlıq haqqında Rusiya ilə Türkiyə arasında Moskva müqaviləsi imzalandıqdan sonra Naxçıvan Azərbaycan Respublikasının Muxtar qurumu kimi idarə olunurdusa da bu iş hüquqi cəhətdən tam rəsmiləşdirilməmişdir. Az.K(b)P MK-nın təşəbbüsü ilə bu məsələnin hüquqi cəhətdən tam rəsmiləşdirilməsi məsələsi 1922-ci ilin noyabrında RK(b)P MK Siyasi Bürosunun iclasında müzakirə olunur və həmin bölgədə Muxtar respublikanın yaradılması haqqında qərar qəbul edilir. Burada bir məsələyə də aydınlıq gətirmək lazımdır ki, Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunurdusa da 30-cu illərin ortalarına qədər o bütün rəsmi sənədlərdə "Naxçıvan SSR" adlandırılmış, "Muxtar" sözü adında öz əksini tapmamışdır.



1922-ci il dekabrın 12-də keçirilən Zaqafqaziya birinci Sovetlər Qurultayının Naxçıvan Muxtariyyatı haqqında qəbul etdiyi xüsusi qərarda göstərilirdi ki, "Naxçıvan Respublikası Muxtariyyat hüquq ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilsin".

Maraqlıdır ki, məsələlərin bu cür müzakirə olunub, qərarlar qəbul edildiyi bir zamanda 1923-cü il yanvarın 18-də RK(b)P Zaqafqaziya ölkə komitəsinin rəyasət heyəti Az.K(b)P MK-ya təklif edir ki, "Naxçıvanı Muxtar vilayətə, Naxçıvan Xalq Komissarları Sovetini və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini isə Naxçıvan ölkəsinin İcraiyyə Komitəsinə çevirsin".

1923-cü il yanvarın 21-də Az.K(b)P MK katibliyi həmin qərarı müzakirə edərək Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini və Xalq Komissarları Sovetini ləğv etmək və Naxçıvan ölkə icraiyyə komitəsini yaratmaq haqqında qərar qəbul edir. Eyni vaxtda katiblik Naxçıvan ölkə Partiya Komitəsini Az.K(b)P Naxçıvan Ölkə Komitəsi adlandırmağı qərara alır.

Artıq Sovet totalitar rejiminin işə saldığı təbliğat maşını göstərməyə çalışırdı ki, guya bütün Naxçıvan ölkəsinin zəhmətkeşləri Naxçıvan Muxtar Respublikası əvəzində, Muxtar ölkənin yaradılmasını ürəkdən bəyənir, bunun üçün partiya və Sovet hökumətinə dərin minnətdarlıqlarını bildirirlər.

Bütün hazırlıq işləri görüldükdən sonra 1923-cü il fevral ayının 27-də 3-cü Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan Respublikasını Naxçıvan ölkəsinə çevirmək haqqında qərarı bəyənərək aşağıdakı bəyannaməni qəbul edir: "Biz yalnız Sovet Azərbaycanı ilə əl-ələ, çiyin-çiyinə verib birlikdə işləməklə öz hakimiyyətimizi - fəhlə kəndli hakimiyyətini möhkəmlədə bilərik, buna görə də Sovet Azərbaycanının ayrılmaz muxtar hissəsi kimi onun tərkibinə daxil olmağı vacib hesab edirik".

Qurultay Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetini buraxaraq 17 üzvdən və 7 namizəddən ibarət Naxçıvan Ölkə İcraiyyə Komitəsini seçir.



31.-3510

1923-cü il iyun ayının 16-da keçirilən Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üçüncü sessiyası Naxçıvan ölkəsini Azərbaycanın Muxtar qurumu kimi onun tərkibinə daxil etmək barədə Naxçıvan Sovetlər qurultayının xahişini qəbul etmək barədə qərar verir. Azərbaycan MİK-in üçüncü sessiyası, həm də Az.MİK İcraiyyə Komitəsinin Rəyasət heyətinə tapşırır ki, "Naxçıvan ölkəsinin mədəni-iqtisadi dirçəlişinə xüsusi fikir versin, onun abadlaşdırılması məsələlərini ön plana keçirsin".

Lakin bu muxtariyyat dövrü uzun sürmür. 1923-cü il dekabrın 11-də Az. K(b)P MK Rəyasət heyətinin iclasında yenidən Naxçıvan ölkəsinin Naxçıvan Respublikasına çevrilməsi haqqında qərar qəbul olunur. Həmin qərarla Az.MİK-ə tapşırılırdı ki, Naxçıvan Respublikasının yaradılması haqqında məsələ işləyib hazırlayaraq Zaqafqaziya MİK-i qarşısında qoysun.

1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK Rəyasət heyəti Q.Musabəyovun məruzəsini, Azərbaycan MİK-in bu məsələ barəsindəki müvafiq qərarını müzakirə edərək Naxçıvan ölkəsini "Azərbaycan SSR tərkibində Muxtar Naxçıvan Respublikası elan etməyi qərara alır".

Zaqafqaziya MİK Rəyasət heyətinin qərarına əsasən 1924-cü il yanvarın 18-də F.Mahmudbəyovun sədrliyi ilə keçən Naxçıvan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumu Naxçıvan ölkəsini, Naxçıvan Sovet Sosialist Respublikasına çevirmək haqqında qərar qəbul edir. Qərarda deyilirdi: "a) Zaqafqaziya MİK-in birinci plenumunun qərarına müvafiq olaraq bu gündən Naxçıvan ölkəsi Azərbaycan SSR-in protektoratında Naxçıvan Respublikasına çevrilsin.

b) Respublikada MİK, Xalq Komissarları Soveti, aşağıdakı xalq komissarlıqları və xalq komissarlıqlarının müvəkkillikləri yaradılsın: Xalq Torpaq Komissarlığı, Xalq Daxili İşlər Komissarlığı, Xalq Ədliyyə Komissarlığı, Xalq Maarif



Komissarlığı, Xalq Səhiyyə Komissarlığı, Xalq Maliyyə Komissarlığının müvəkkilliyi, Xalq Əmək Komissarlığının müvəkkilliyi, Hərbi Komissarlıq.

v) Respublikanı inzibati cəhətdən üç qəzaya bölməli - Naxçıvan, Şərur və Ordubad".

Plenum MİK-i yeddi nəfərdən ibarət Rəyasət Heyətini seçir. B.Talıblı Rəyasət heyətinin sədri seçilir, Seyidbəyli müavin, eyni zamanda Xalq Komissarları Sovetinin sədri, F.Mahmudbəyov isə katib seçilir. Y.Tahirov, K.Babayev, R.Axundov və H.Mahmudov üzv seçilirlər.

Habelə K.Babayev - daxili işlər komissarı, F.Mahmudbəyov - xalq torpaq komissarı, Qurbanov - xalq ədliyyə komissarı, Dadaşov - xalq maliyyə komissarlığının müvəkkili, R.Axundov isə - xalq əmək komissarlığının müvəkkili, K.Babayev - hərbi komissar təyin olunurlar. Xalq Maarif Komissarının yeri boş qalır. Xalq Komissarlıqlarının ştat məsələlərinə baxılması MİK-in Rəyasət heyətinə tapşırılır.

1924-cü il fevralın 9-da Azərbaycan MİK-si Naxçıvan ölkəsini Naxçıvan Sovet Sosialist Respublikasına çevirmək haqqında qərar verir. Qərarda deyilirdi: "1. Naxçıvan ölkəsini Azərb. SSR protektoratlığında Naxçıvan Sovet Sosialist Respublikaına çevrilsin.

2. NSSR haqqında əsasnamənin layihəsini hazırlamaq üçün Vəlibəyov, Bağırov, T.Şahbazi və A.Axundovdan ibarət komissiya yaradılsın və həmin komissiyaya tapşırılsın ki, bu qərar dərc edildikdən sonra bir həftə müddətində həmin layihənin hazırlanması işini başa çatdırsın və baxılmaq üçün Azərbaycan MİK Rəyasət heyətinə təqdim etsin".

Komissiyanın hazırladığı əsasnamə 1924-cü il mart ayının 23-də Az.MİK tərəfindən təsdiq olunur.

Həmin əsasnamənin ümumi müddəalardan ibarət olan birinci bölməsinin birinci və ikinci maddələrində deyilirdi:

"1. Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisində yaşayan bütün zəhmətkeşlərin azad sosialist cəmiyyəti-

dir. NSSR hüdudları daxilində bütün hakimiyyət ölkənin Sovetlərdə birləşmiş zəhmətkeş əhalisinə məxsusdur.

2. NSSR-də Ali Hakimiyyət Naxçıvan Sovetlər Qurultayına, qurultaylar arası müddətdə isə Naxçıvan MİK-nə məxsusdur".

Bu əsasnamədə Naxçıvan Respublikası Sovetlər Qurultayının onun MİK-nin Xalq Komissarları Sovetinin səlahiyyətləri, habelə yerlərdə Sovet Hakimiyyəti orqanlarının yaradılması, onlara seçkilərin keçirilməsi qaydaları və s. öz əksini tapmışdır.

Bu əsasnamənin axırıncı beşinci bölməsində Naxçıvan SSR-in gerbi və bayrağından bəhs olunur. Bu maddələrə görə NSSR-in həm gerbində, həm də bayrağında Naxçıvan Sovet Sosialist Respublikası sözləri yazılmalı idi.

Maraqlıdır ki, bununla əlaqədar NSSR Xalq Daxili İşlər Komissarlığı 1925-ci ilin martında Az.MİK-nə müraciət edərək Naxçıvan Respublikası üçün hazırlanması nəzərdə tutulmuş bayraqlarda "ASSR" yazısını "NSSR" yazısı ilə əvəz etməyi təklif edir.

Bununla əlaqədar Az.MİK-in sədr müavini M.B.Qasımov SSRİ Xalq Xarici İşlər Komissarı G.Çeçerinə məktubla müraciət edərək həmin məsələyə münasibət bildirməyi xahiş edir. G.Çeçerin isə özünün 1925-ci il 7 noyabr tarixli cavabında yazırdı: "Naxçıvan SSR-in Naxçıvan Respublikası üçün nəzərdə tutulmuş bayraqlarda "ASSR" yazısının "NSSR" yazısı ilə əvəz edilməsi haqqındakı xahişlə əlaqədar Xalq Xarici İşlər Komissarlığı bildirir ki, nazirlik Naxçıvan Respublikası üçün xüsusi bayraq verilməsini məqsədəuyğun hesab etmir. Çünki Az.SSR Konstitusiyasında Naxçıvan Respublikası üçün bayraq nəzərdə tutulmayıbdır.

Az.MİK Rəyasət Heyəti özünün 1925-ci il 4 aprel tarixli iclasında göstərilən məsələyə baxaraq həmin təklifi rədd edir.

Bu vaxtlar Muxtar qurum kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanır və 1925-ci il dekabr



ayının 27-də Nax.SSR MİK-in dördüncü çağırış ikinci sessiyasında qəbul olunur və baxılmaq üçün Azərbaycan MİK-nə göndərilir.

1926-cı il aprelin 8-də isə Az.MİK-in katibi T.Şahbazinin sədrliyi ilə yaradılmış komissiya Naxçıvan Respublikasının konstitusiya layihəsinə baxaraq, düzəliş və əlavələrlə birlikdə bəyənir.

Həmin il aprelin 18-də yığılan V Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan Respublikasının ilk konstitusiyasını yekdilliklə qəbul edir. Bundan əvvəl qəbul edilmiş əsasnamədən fərqli olaraq yeni qəbul olunmuş konstitusiyanın əsas müddəalardan ibarət birinci bölməsində Muxtar Respublikada hakimiyyət və Azərbaycanın protektoratlığı məsələsi dəqiq əks olunmuşdur. Orada deyilirdi: "1. Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisindəki bütün zəhmətkeşlərin sosialist dövlətidir. Naxçıvan Sovet Sosialist Respublikası hüdudlarında bütün hakimiyyət ölkənin Sovetlərdə birləşən bütün zəhmətkeş əhalisinə məxsusdur.

2. Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratında olmaqla onun tərkib hissəsidir. Naxçıvan Sovet Sosialist Respublikası ilə Azərbaycan Sovet Sosialist Respublikası arasındakı münasibətləri axırıncının Konstitusiyası müəyyən edir".

Maraqlıdır ki, yeni qəbul olunmuş konstitusiyanın dördüncü bölməsində yenə də Naxçıvanın gerbi və bayrağı haqqında müddəalar saxlanılmışdır. Lakin 1936-cı il iyunun 16-da MİK-in tələbi ilə təqdim edilmiş Naxçıvan SSR Konstitusiyasının dördüncü bölməsində gerb və bayraq haqqında yazılmışdır.

"Naxçıvan Sovet Sosialist Respublikası, Azərbaycan Sovet Sosialist Respublikasının gerbindən və bayrağından istifadə edir".

Naxçıvan Muxtar Respublikasının 75 illiyini keçirmək haqqında Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 fevral tarixli fərmanında deyildiyi kimi Ermənistan Naxçıvan

Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından əl çəkmirdi.

Moskva və Kars müqavilələrinin şərtlərini kobud surətdə pozaraq 1929-cu ildə Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvanın on kənddən ibarət 657 kvadrat kilometr ərazisi Ermənistana verilir. 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri də Ermənistana verilmiş və həmin ərazilərdə Mehri rayonu yaradılmışdır. Ermənilər sonrakı dövrlərdə də Naxçıvanla bağlı ərazi iddialarından əl çəkməmiş və bu gün də onlar bu çirkin niyyətlərindən əl çəkmirlər.

Həmişə yaranmış əlverişli şəraitdən məharətlə istifadə edən ermənilər bu dəfə də 90-cı illərin əvvəllərində SSRİ-nin dağıdılması şəraitindən istifadə edərək, Azərbaycanın başqa əraziləri ilə yanaşı, Naxçıvana qarşı da öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlirlər. Erməni orduları Naxçıvan Muxtar Respublikasına hücumlar etmiş, Kərgi kəndini işğal etmiş, Naxçıvanı blokadaya salmışlar. Yalnız Naxçıvan əhalisinin o vaxt Naxçıvanda yaşayan hörmətli Prezidentimiz başda olmaqla, mərd müqaviməti ermənilərə yenə də bu bölgədə öz niyyətlərini həyata keçirməyə imkan vermədi. 75 il bundan əvvəl rəsmən muxtariyyat əldə etmiş Naxçıvan bu gün də Azərbaycanımızın əzəli və əbədi ayrılmaz bir hissəsi kimi yenə də yaşayır və mübarizə aparır.

**"Azərbaycan" qəzeti,**
**20 sentyabr 1999-cu il, № 212**



## ƏZİZİMİZ, MÜƏLLİMİMİZ

***(Abbas Zamanov haqqında sənədli xatirələr)***

Filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Türkiyə Dil Qurumunun müxbir üzvü, neçə-neçə mötəbər ittifaqların, redaksiya heyətlərinin, elmi şuraların üzvü, hələ öz sağlığında ədəbiyyatşünaslarımızın korifeyləri sırasında adı çəkilən Abbas müəllimi ilk dəfə 1958-ci il avqust ayının 15-də Universitetin tarix fakültəsinə qəbul imtahanı verərkən ədəbiyyatdan şifahi imtahan zamanı görmüşəm. O vaxt dil və ədəbiyyatdan şifahi imtahanı Abbas Zamanov, Fərhad Zeynalov və Ağamusa Axundov götürürdülər (onların hamısının adını sonralar universitetdə oxuyan zaman öyrəndim). Əsas sual verən isə Abbas müəllim idi. Biletimdəki suallara cavab verdikdən sonra Abbas müəllim mənə əlavə olaraq çoxlu sual verdi. Təvazökarlıqdan kənar olsa da, deməliyəm ki, onun hərəkətlərindən görürdüm ki, cavablarımdan razı qaldığı üçün sualları ard-arda qoşur. Nəhayət onun yanında əyləşib əsas yazı-pozu işlərini aparan Ağamusa müəllim dilləndi: "Abbas müəllim, bir insafınız olsun. Axır ki, bu kişi hansısa bir sualda ilişəcək. Görürsünüz ədəbiyyatı yaxşı bilir. Kişinin qiymətini yazın, çıxıb getsin."

Sonra məni dildən imtahan vermək üçün Fərhad müəllimin yanına göndərdilər. Fərhad müəllim də dildən biletimdəki cümləni təhlil etdirib bir neçə sual verib dedi: gedə bilərsən. Onu da qeyd edim ki, o vaxt əlimdə olan kiçicik cib dəftərinə biletimdəki təhlil üçün yazılmış aşağıdakı cümləni köçürüb saxlamışam: "Doğrudan da, şəhər kübarlarının yaşadığı Vorontsov küçəsində, bir çox adamın gözü qabağında Bakı

pristavı Cabbar bəyə düz sinəsindən iki güllə vurmuşdu." Bir azdan sonra çağırıb imtahan vərəqəmi verdilər. Öz fənlərindən əla qiymət yazmışdılar.

Universitetdə oxuduğum ilk illərdə dəhlizlərdə Abbas müəllimə tez-tez rast gəlirdim. Hər dəfə gördükcə bu dolu bədənli, alçaqboy müəllimə yaxşı qiymət yazdıqları üçün xüsusi rəğbətlə baxırdım. Əlbəttə onunsa bundan xəbəri yox idi. Çünki onun üçün mən imtahan götürdüyü yüzlərlə abituriyentlərdən biri idim. Bəlkə, heç məndən imtahan götürdüyü də yadında qalmamışdı.

Lakin Abbas müəllimin adı və çöhrəsi mənim yaddaşımda 1960-cı ilin mayında S.Vurğunun vəfatının ildönümünə həsr olunmuş xatirə gecəsindəki o dövr üçün ağla gəlməz dərəcədə mərdanə və qorxmaz çıxışı ilə əbədilik olaraq həkk olundu. Bu o vaxt idi ki, bütün Bakıda, o cümlədən də tələbələr arasında Naxçıvan Muxtar Respublikasının Ermənistana veriləcəyi haqqında gizli-gizli söhbətlər gedirdi. Söhbət üçün real zəmin də var idi. Ölkəyə rəhbərlik edən Nikita Xruşşov Ukraynanın Rusiyaya birləşməsinin (əslində isə birləşdirilməsinin - A.P.) 300 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq tamamilə Rusiya ərazisindən ayrı, Ukrayna torpaqlarına bitişik Krım vilayətini Ukraynaya vermişdi. Özü də həmin məsələ N.Xruşşovun məruzəsində belə əsaslandırılmışdır ki, Krım istər Rusiyaya daxil olsun, istərsə də Ukraynaya, fərqi yoxdur, vahid və bölünməz, böyük Sovetlər İttifaqının ayrılmaz hissəsidir.

Yaranmış fürsəti heç vaxt əldən qaçırmayan ermənilər N.Xruşşovun bu səxavətindən istifadə edərək 1920-ci ildə Zəngəzur Ermənistana verildikdən sonra süni şəkildə Azərbaycanın əsas torpaqlarından aralı düşmüş Naxçıvan Muxtar Respublikasının Ermənistana verilməsi haqqında məsələ qaldırmışdılar. N.Xruşşov isə sonralar xatirələrində özünün də etiraf etdiyi kimi batində qatı daşnak, üzdə isə kommunist mündirinə bürünmüş A.Mikoyanın olduqca isti münasibətləri də bu işin reallaşdırılması üçün çox əlverişli zəmin yaratmışdı.

O vaxt Elmlər Akademiyasının Kommunist (indiki İstiqlal) küçəsindəki "İsmailiyyə" binasında yerləşən akt zalında keçirilən xatirə gecəsində Abbas müəllimin Dövlət Təhlükəsizliyi Komitəsində kəsilən başın bir damla belə qanı yerə düşmədiyi bir zamanda necə deyərlər "Başını ətəyinə qoyaraq" bu məsələyə kəskin etirazını bildirməsi yalnız öz xalqını və vətənini sözdə deyil, işdə də ürəkdən sevən, onun uğrunda hər dəqiqə ölümə belə hazır olan böyük ürək sahibi edə bilərdi.

Yadımdadır, xatirə gecəsini rəhmətlik akademik, sözün əsl mənasında böyük səbr sahibi Məmməd Arif Dadaşzadə aparırdı.

Gecədə S.Vurğun haqqında çoxlu xatirələr deyildi, şerlər oxundu. Abbas müəllimə də söz verildi. O səhnə indiki kimi gözümün qabağındadır. O, arxa cərgədə oturmuşdu. Xitabət kürsüsünə çıxaraq S.Vurğun haqqında, onun vətənpərvərliyi və vətənə xidməti haqqında danışaraq nəhayət fikrini o yerdə cəmləşdirdi ki, əgər Səməd Vurğun bu gün sağ olsaydı, Azərbaycanın dilbər guşələrindən - ən qədim və ulu torpaqlarından olan Naxçıvanın Ermənistana verilməsi məsələsinə heç cür razı olmazdı. Zalda oturanların əksəriyyəti tələbələr idi. Abbas müəllimin bu sözündən sonra sürəkli əl çalındı. O, keçib öz yerində oturdu. Zalda böyük bir gərginlik yaranmışdı. Belə vəziyyətdə həmişə özünü çox soyuqqanlı və təmkinli aparan Arif müəllim istədi ki, vəziyyətə bir qədər yüngüllük gətirsin. O, zala və Abbas müəllimə müraciətlə dedi: "Mənə belə gəlir ki, Abbas müəllim öz dediyi sözlər haqqında yaxşı-yaxşı fikirləşsə, bizimlə razılaşar ki, bu sözlər ümumiyyətlə lazım deyildi, xüsusilə də belə bir məclisdə".

Arxa cərgədə oturmuş Abbas müəllim yerindən qalxaraq xitabət kürsüsünə gəldi və dedi: "Abbas müəllim heç vaxt

düşünülməmiş söz demir. Öz dediyimdən isə peşman deyiləm". Zalda yenidən sürəkli alqışlar qopdu.

Abbas müəllimin bu etirazına zaldakı universitet tələbələrinin kəskin reaksiyası rəyasət heyətində oturanları əməlli-başlı çaş-baş qoymuşdu. Təsadüfi deyildi ki, elə həmin günün səhərisi universitet auditoriyalarında əsl şeytan ovu başlandı. Universitet Respublika və Bakı şəhəri partiya və komsomol təşkilatları və əlbəttə ki, ilk növbədə hər yerdə gözü və qulaqları olan dövlət təhlükəsizliyi orqanlarının total yoxlanışına məruz qaldı. Xüsusilə komsomol təşkilatlarına ciddi iradlar tutulurdu, çünki zalda oturanların əksəriyyəti universitet tələbələri idi. Özü də deyəsən onlar universitetdə yaradılmış hansısa bir gizli tələbə təşkilatı axtarırdılar. Belə bir təşkilatı aşkar edə bilmədikdə isə Abbas müəllimi partiya sıralarından xaric edib, universitet müəllimliyindən uzaqlaşdırdılar.

Nəticədə ağır-məşəqqətli həyat yolu keçirmiş, uşaq evində böyümüş, öz şüurlu həyatını səxavətlə komsomol və partiya işinə sərf etmiş, uzun illər bü quruluşa sədaqətlə xidmət etmiş, məsul vəzifələrdə çalışmış, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin təbliğini özü üçün həyat ideyası seçmiş bu qorxmaz insan işsiz qalır.

Ancaq o, xeyirxah insanların qayğısı və köməyi ilə Nizami adına Ədəbiyyat İnstitutuna kiçik elmi işçi vəzifəsinə düzəlir. Dostları və yoldaşları Abbas müəllimi naümid qoymurlar. Ailəsini dolandırmaq üçün ona gizlində və aşkarda müxtəlif yollarla tərcümələr verir, kitabların tərtibini tapşırırdılar.

Səriştəli və yorulmaz araşdırıcı və tədqiqatçı olan Abbas müəllim özünün gərgin zəhmətinin bahasına ölməz satirik şairimiz M.Ə.Sabir haqqında onun müasirlərinin dediklərini və yazdıqlarını toplayaraq nəşr etdirir. Orada verilmiş sənəd və materialların çoxunun ilk dəfə işıq üzü gördüyü bu sanballı məcmuə Abbas müəllimə böyük uğur gətirir. Həmin məcmuənin müqəddiməsi əsasında yazdığı namizədlik



dissertasiyasına görə ona filologiya elmləri doktoru elmi dərəcəsi verilir.

Abbas müəllimlə bizim ilk tanışlığımız, yaxın münasibətlərimiz də elə bu vaxtlara təsadüf edir. O vaxt mən yenicə yaradılmış Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru təyin edilmişdim. Vaxtilə Elmlər Akademiyasının gizli arxivindən Arxiv İdarəsinin elmi-məlumat kitabxanasına verilmiş otuzuncu illərin elm və ədəbiyyat sahəsində repressiya qurbanlarının əksəriyyəti ərəb əlifbasında olan sənəd və materiallarını oxuyub siyahılarını tərtib etmək üçün Abbas müəllim və Xeyrulla Məmmədov dəvət edilmişdilər. Bu sənəd və materiallar elə həmin vaxtlar ədəbiyyat və incəsənət arxivinə təhvil verildiyi üçün Abbas müəllimlə bizim müntəzəm əlaqələrimiz yaranmışdı. Bir az sonra Abbas müəllim Nizami muzeyinə direktor təyin edildi. Bundan sonra əlaqələrimiz daha da artmış, demək olar ki, bir növ "rəqibə" çevrilmişdik.

Abbas müəllim muzeyə direktor gələn kimi fəal surətdə onun sənəd və eksponatlarla zənginləşdirilməsi işini genişləndirdi. Onu deyim ki, təmiz ürəkli adamların həmişə ürəyində nə varsa dilində olar. Abbas müəllim də belələrindən idi. O, açıq-açığına bizi günahlandırmağa başladı ki, niyə arxiv intensiv surətdə ədəbiyyat xadimlərinin arxivlərini yığır. Heç yadımdan çıxmaz, bir dəfə bilmirəm hansı məsələ üçünsə onun Nizami muzeyində olan kabinetinə getmişdim. Kabinetində bir neçə nəfər işçi və deyəsən hətta kənar adamlar da var idi. Abbas müəllim məni görən kimi yalnız ona xas olan tərzdə: "Əə.. bala nə istəyirsiniz bizdən? Niyə qoymursunuz işləyək. Hara gedirik sənədləri silib-süpürüb aparmısınız. Belə olmaz axı." Sonra isə yanında oturanlara müraciətlə: "Görürsünüz bü cavan oğlanı? Bunlar adamları necə dilə tutur, necə ovsunlayır bilmirəm. Ancaq mənə o təəccüblü gəlir ki, sənədləri almaq üçün hətta biz pul da təklif edirik, bizə vermirlər. Pulsuz-pələsiz bunların arxivinə bağışlayırlar".

Əlbəttə, o vaxtlar direktor kimi çox gənc olan mən Abbas müəllimlə mübahisəyə girmədim. Bilirdim ki, mübahisəyə girməyin mənası da yoxdur. Çünki Abbas müəllim kimi bir nüfuzlu, dünyagörmüş şəxsin dedikləri qarşısında mənim kimi cavan-təcrübəsiz bir gəncin dediyinin heç bir təsiri olmayacaq. Ancaq onu deyim ki, biz də qabaqdan qaçan deyildik öz işimizdə idik. Ona görədir ki, bu gün Ədəbiyyat və İncəsənət arxivi Respublikamızın mənəvi sərvətlərinin qorunduğu ən zəngin məxəzlərindən birinə çevrilmişdir.

Abbas müəllimlə münasibətlərimizdə iş o yerə çatdı ki, o, ən əziz və sədaqətli dostu Əziz Şərifə belə öz sənədlərini bizim arxivə verdiyi üçün etirazını bildirmişdi. Əziz müəllim haqqında yazdığım və "Ədəbiyyat qəzeti"ndə çap olunmuş xatirəmdə bu haqda ətraflı bəhs etdiyim üçün bir daha onları təkrar etməyə lüzum görmürəm. Təkcə onu qeyd etmək istəyirəm ki, hətta o, Əziz müəllimi inandıra bilmişdi ki, o, öz sənədlərini bizim arxivdən götürərək Nizami muzeyinə versin. Arxivimizə gəlib onun işi və şəraiti ilə ətraflı tanış olan Əziz müəllim isə sənədlərini götürmək əvəzinə, dostuna da məsləhət gördü ki, o da öz sənədlərini yalnız bu arxivə təhvil versin. Çünki belə sənədlərin mühafizəsi üçün arxiv ən etibarlı yerdi.

Sonrakı hadisələr Əziz müəllimin dediklərini tamamilə təsdiq etdi. Əvvəllər ədəbiyyat və incəsənət arxivinə qarşı barışmaz mövqe tutan Abbas müəllim muzeydən getdikdən sonra bu arxivin ən yaxşı təbliğatçısına və yaxın dostuna çevrildi. Ömrünün sonuna qədər biz onunla çox yaxın əlaqə saxladıq. O, demək olar ki, Sovet hökumətinin sərhədləri bərk-bərk bağlı olduğu bir zamanda, o vaxt onun haqqında deyildiyi kimi "dünyada Azərbaycanın səlahiyyətli nümayəndəsi kimi" bütün dünya ilə yazışmalarının məhsulu olan çox qiymətli sənədlərini saxlamağı ədəbiyyat və incəsənət arxivinə etibar etdi.

Bu gün S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivində Abbas müəllimin 526 saylı



fondunda 6930 sənəddən ibarət 1091 iş və avtoqrafla 1391 kitab, jurnal və avtoreferat mühafizə olunur. Bu sənədlər ilk dəfə 1974-cü il fevralın 4-də, son dəfə isə onun ölümündən sonra 1994-cü ilin aprelində qəbul edilmişdir. Bu sənədlərin qəbulu ilə bağlı Abbas müəllimin evində dəfələrlə olmuşam. Bir dəfə də o vaxt bizim arxivdə işləyən Qulam Məmmədli ilə birlikdə olmuşduq. Abbas müəllimin Qulam müəllimlə çox mərhəmanə, dostcasına zarafatları var idi. Həmin gecə onlar necə şit zarafatlar edir, anikdotlar deyir, hündürdən ürək dolusu gülürdülər. O gecə indi də gözümün qabağındadır. Təəssüf edirəm ki, bu gün onların hamısı yalnız şirin yuxu kimi yadda qalıb. Necə də doğru deyiblər: "həyat, sən nə qəribəsən".

Görünür dünyada dərdsiz, kədərsiz insana rast gəlmək çətindir, yaxud ümumiyyətlə belə adam yoxdur. Həyatdakı bütün xoşbəxtliklər nisbidir. Yalnız insanlar bir-birinə nisbətdə xoşbəxt görünə bilərlər. Əslində isə hərənin özünə məxsus dərdi, kədəri var. Bəzən üzdə çox şux və şən görünən bir insanın daxildə nə qədər böyük kədərləri olur. Böyük ürəkli insanların başqalarından üstünlüyü bir də ondadır ki, onlar öz kədərlərini gizlədə bilirlər. Heç demə həmişə şən, zarafatcıl və şux görünən Abbas müəllimin də dərdi, kədəri böyük imiş. Buna səbəb isə oğlu Firuzun əsəb xəstəliyinə tutulması idi. Oğlunu müalicə etdirmək üçün bu başı bəlalı ata dünyanın hansı yerlərindən dərman gətizdirməyib. Öz kədərini bölüşdüyü ürək sirdaşı Əziz Şərifə yazdığı məktublarla tanış olduqca, bu insanda olan iradəyə ancaq qibtə etməli olursan. Uzun illər bu insanın gözləri gülmüş, dərddən, kədərdən, isə ürəyi qan ağlamışdı. Özünün də xəstəlikləri qədərincə idi. Məktublardan görünür ki, bunların heç biri onun gözünə görünmürdü. Onu ancaq nakam ciyərparəsinin sağalmaz dərdi düşündürürdü.

Bütün bunlara baxmayaraq, bir dəfə də olsun Abbas müəllimin şikayətləndiyini eşitməmişəm. Hər dəfə görüşüb

hal-əhval tutarkən "Abbas müəllim necəsiniz?" sualına həmişə onun bir cavabı olardı: "Dəmir kimi." Özü də bu cavabı hamıya verərdi.

Abbas müəllimin əsl kişilərə xas olan bir mərdanə xasiyyətini də qeyd etməyə bilmərəm. Əlbəttə, hamı kimi Abbas müəllimi də istəməyənlər var idi. Bu da təbiidir. Azərbaycanda ürəyindəkilər dilində olan, hər hansı adam haqqında fikrini onun üzünə şəstlə deyən adamı üzdə desələr də, batində heç kəs istəmir. Görünür biz millət daha çox tərifli sözlərə alışmışıq, ona görə də haqqımızda bir balaca tənqidi söz deyən adama əsl düşmən gözü ilə baxırıq. Abbas müəllim də hər kəs haqqında bildiklərini şəstlə onun üzünə dediyi üçün onu istəməyənlər də az deyildi. Yeri gəlmişkən deyim ki, əgər onlardan bəziləri Abbas müəllimin qarasına arxada danışıb qeybət edirdilərsə də hələ bir dəfə də olsun, Abbas müəllimin onların pisliyinə danışdığını, qeybət etdiyini eşitmədim. Həmişə həmin şəxslər haqqında söz düşəndə Abbas müəllim bilə-bilə ki, həmin adamlar onu istəyən insanlar deyil, yeri gəldikcə onun arxasınca danışırlar, onlar haqqında olmadıqları vaxt həmişə ya yalnız yaxşı fikir söyləyər, ya da heç nə deməzdi.

Abbas müəllimin avtoqrafları ilə məndə onun yazdığı və tərtib etdiyi çoxlu kitab saxlanılır. Maraqlıdır ki, yazı və məqalələrində çox hərarətli və özünə məxsus üsublu olan Abbas müəllimin avtoqrafları çox yeknəsək olardı. Demək olar ki, onun avtoqrafla verdiyi kitabların əksəriyyətinin üzərində: "Ataxan Paşayevə" və ya "Əziz Ataxana" "ən xoş niyyətlərlə" və ya "ən xoş diləklərlə" sözləri yazılmışdır. Yeganə olaraq 1979-cu ildə nəşr olunmuş "Əməl dostları" kitabının titul vərəqində Abbas müəllim mənə belə bir avtoqraf yazmışdı: "Bu kitabı nəşrə hazırlayanda mənə əlindən gələn köməyi əsirgəməyən əziz Ataxana - hörmət və minnətdarlıq əlaməti olaraq. Abbas Zamanov. 12.IV-79."



Abbas müəllim bizim Baş Arxiv İdarəsində 1986-cı ildən təşkil etdiyimiz "Maraqlı adamlarla görüş və nadir sənədlərlə tanışlıq" lektoriyasının da fəal iştirakçılarından idi. 1989-cu il aprelin 27-də hələ otuzuncu illərdə çox haqsızlıq və məhrumiyyətlərlə üzləşərək xaricə mühacirət etməyə məcbur olaraq əvvəlcə İranda, sonra isə Türkiyədə yaşayıb-yaratmış unudulmaz şairimiz Almas İldırım haqqında ilk dəfə olaraq Abbas müəllimin təşəbbüsü ilə bizim lektoriyada Yazıçılar İttifaqı ilə birlikdə xatirə yığıncağı keçirildi. Süleyman Rüstəm, Tofiq Bayram, Cabir Novruz, Rafik Zəka, habelə Almas İldırımın qardaşları və yaxın qohumlarının iştirak etdiyi bu məclisi axıra qədər Abbas müəllim apardı. Onu da deyim ki, o zaman hələ dünyanın çalxanıb-bulandığı bir vaxt olduğu, hadisələrin necə qutaracağı bəlli olmadığı üçün bu məclisə də'vət edilənlərin çoxu müxtəlif bəhanələrlə ya gəlməmiş, gələnlər də işləri olduğunu bəhanə edərək çox tez çıxıb getmişdilər.

Abbas müəllimlə bağlı çox hüzünlü bir xatirəni də heç vaxt unutmayacağam. Onun həyat yoldaşı rəhmətlik Asya xanımın yas məclisində yanaşı oturmuşduq. Birdən-birə o, Asya xanımın evin divarında qara çərçivədə asılmış şəklini göstərərk çox hüzünlə dedi: "Altı aydan sonra mənim də şəklim orada qara çərçivədən asılacaq." Çoxları yəqin ki, ilk dəfə Abbas müəllimdən belə bir etirafı eşidikləri üçün təəccüb etsələr də, ona təskinlik vermək istəyənlər də oldu. Ancaq bu dünyayı tam biganə adam kimi o, deyilənlərə demək olar ki, qulaq belə asmırdı. Görünür fikri tamam başqa aləmdə idi. Həmişə özünü şux tutan Abbas müəllimi ilk dəfə idi ki, belə sınıxmış, pəjmürdə görürdüm.

Həqiqətən də, Abbas müəllim Asya xanımdan sonra çox yaşamadı. Demək olar ki, elə özünün dediyi müddətdə dünyasını dəyişdi. 1993-cü il aprel ayının 1-də o, gözlərini əbədi olaraq bu fani dünyaya yumdu. Onun dəfni zamanı mənim ən çox yadımda qalan xatirə isə ikinci fəxri xiyabanda

Abbas müəllimin cənazəsi ilə axırıncı dəfə vidalaşarkən "Varlıq" jurnalının naşiri və baş redaktoru Cavad Heyətin hönkürtülər içərisində dediyi aşağıdakı sözlər oldu: "Abbas müəllim, rahat yat! Sən bütün məhrumiyyətlərə dözərək mümkün olmayan bir zamanda, quş quşluğu ilə uçaraq sərhədləri keçməyə cəsarət etmədiyi bir vaxtda şimallı-cənublu qardaşlar arasında körpü saldın. Onları bir-birləri ilə yaxınlaşdırdın, qovuşdurdun. Buna görə hamımız sənin cənazən qarşısında baş əyirik. İndi sənin cənazən qarşısında biz onunla təskinlik tapır, çox şükür edirik ki, sən qardaşların qovuşduğu günü də gördün. Nisgilli getmədin. Mürşidi-kamilimiz, əziz qardaşımız rahat yat! Qəbrin nurla dolsun!".

Biz də Abbas müəllim haqqında Cavad Heyətin dediklərini təkrar edirik. Öz xalqı qarşısındakı xidmətlərinə görə Abbas müəllim bu deyilənlərdən min dəfə artığına layiqdir.

**"Ədəbiyyat" qəzeti,**
**4 avqust 2001-ci il, № 31**



# AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI RESPUBLİKA ƏLYAZMALARI FONDU NECƏ YARANIB

***(Azərbaycan Respublikası Nazirlər Sovetində bu məsələnin müzakirəsi ilə bağlı sənədlər əsasında[1])***

**1950**-ci il fevral ayının 2-də Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti Akademiyanın prezidenti Yusif Məmmədəliyevin sədrliyi ilə keçirilən iclasında "Respublikada əlyazmaların vahid məxəzini yaratmaq haqqında" məsələ müzakirə edir. Həmin məsələ barədə Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun əlyazmalar şöbəsinin müdiri Məmmədağa Sultanov məruzə edir. Əlyazmalarının vahid məxəzdə cəmləşdirilməsi işinə böyük əhəmiyyət verən Elmlər Akademiyasının Rəyasət Heyəti qərara alır ki, bütün nadir əlyazmalarını və Azərbaycan elm və mədəniyyət xadimlərinin arxivlərini bir yerə yığaraq, onların lazımi mühafizəsini, elmi şəkildə işlənməsini və tədqiqini təşkil etmək məqsədilə vahid respublika məxəzi yaradılsın. Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Kitabxanası, Azərbaycan Tarixi Muzeyi, Nizami Muzeyi və A.Bakıxanov adına Tarix İnstitutunda olan bütün əlyazmaları onun sərəncamına verilsin.

Əlyazmaları məxəzi üzərində rəhbərlik işi Nizami adına Ədəbiyyat İnstitutuna (M.A.Dadaşzadə) tapşırılsın. Nizami adına Ədəbiyyat İnstitutunun əlyazmaları şöbəsinə bütün əlyazma məxəzlərini daxil etməli. Nizami Muzeyinin direktoru İsmayıl

[1]. Azərbacan Respublikası Dövlət Arxivi, fond 411, siy. 28, iş 120, vər. 149-178.



32.-3510

Axundov yoldaşa tapşırılsın ki, EA Rəyasət Heyətinin qərarında göstərilmiş həcmdə otaqların təmiri işini başa çatdırsın;

Nizami adına Ədəbiyyat İnstitutunun direktoru M.A.Dadaşzadə, Nizami Muzeyinin direktoru İ.Axundov və Ədəbiyyat İnstitutu əlyazmalar şöbəsinin müdiri M.A.Sultanov yoldaşlara tapşırılsın ki, 1950-ci il mart ayının 1-nə qədər bütün əlyazmalarını yeni binada cəmləşdirsinlər.

Qərarda M.A.Sultanova tapşırılırdı ki, aprel ayının 25-dən gec olmayaraq bütün əlyazmalarının şifrələnməsi, kataloqlaşdırılması, habelə yazıçıların əlyazmalar şöbəsində saxlanılan arxivlərinin bədii və elmi cəhətdən tərtibi işini başa çatdırsınlar.

Qərarda habelə göstərilirdi ki, Azərb.SSR Nazirlər Sovetindən xahiş edilsin ki, Azərbaycan Dövlət Universiteti, M.F.Axundov adına Mərkəzi Respublika Kitabxanası, İncəsənət Muzeyi və Teatr Muzeyinə göstəriş verilsin ki, onlar özlərində olan bütün əlyazmalarını Azərb.SSR EA Nizami adına Ədəbiyyat İnstitutuna təhvil versinlər. Qərarda həmçinin Nazirlər Sovetindən əlyazmalar şöbəsi üçün 12 nəfərdən ibarət ştatı təsdiq etmək haqqında SSRİ Dövlət Ştat Komissiyası qarşısında məsələ qaldırmaq xahiş edilirdi.

Nəhayət qərarın sonuncu 7-ci maddəsində əlyazmalar məxəzinin açılışını Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 30 illiyi gününə çatdırmaq işi nəzərdə tutulurdu.

Bu qərar qəbul edildiyi günün sabahı yəni fevral ayının 3-də həmin məsələ haqqında Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Yusif Məmmədəliyev Respublika Nazirlər Sovetinin sədri Teymur Quliyevin adına 101 №-li məktub imzalayır. Məktubda deyilirdi: "Bizim Respublikamızda da Ermənistan SSR-in Matenadaran tipli nadir əlyazmalar məxəzi yaratmaq məqsədilə Azərbaycan SSR Elmlər Akademiyası əlyazmalar fondu üçün Nizami Muzeyinin birinci mərtəbəsinin təmiri və müvafiq tərtibatı işi qurtarmaq üzrədir. Təmir edilmiş 14 otaqda daimi havadəyişmək üçün xüsusi havadəyişən qurğusu quraşdırılaraq, XIV əsrdən bu



yana ədəbiyyat, tarix, tibb, fəlsəfə, astronomiyaya dair qiymətli əlyazmaları və Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri - Mirzə Fətəli Axundovun, A.Bakıxanovun, Həsən bəy Zərdabinin, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun və başqalarının arxivləri də cəmləşdiriləcək".

Məktubda göstərilirdi ki, bu əlyazmaların əsas hissəsi yəni 7000-ə yaxın nüsxəsi Azərbaycan SSR Elmlər Akademiyası sistemində saxlanılır. Akademiya sistemində mühafizə olunan əlyazmalarının bilavasitə Akademiyanın Mərkəzi Kitabxanasında, Nizami adına Ədəbiyyat İnstitutunda, Nizami Muzeyində, A.Bakıxanov adına Tarix İnstitutunda və Tarix Muzeyində saxlanıldığı və Akademiyanın Rəyasət Heyətinin onların hamısının yeni yaradılacaq əlyazmaları fondunda cəmləşdirilməsi haqqında qərar qəbul etdiyi də bildirilirdi.

Məktubda daha sonra deyilirdi: "Bununla yanaşı Respublikamızın müxtəlif idarələrində (M.F.Axundov adına Dövlət Kitabxanasında 122 əlyazması və 243 köhnə çap kitabı, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində 90 əlyazması və 3000 köhnə çap kitabı) qiymətli əlyazmaları vardır ki, fikrimizcə respublikada vahid əlyazmalar fondu yaratmaq üçün onların da yeni yaradılacaq əlyazmaları mühafizəxanasına verilməsi məqsədəuyğundur".

Məktubda əlyazmaları fondunun normal işini təmin etmək, oxuculara xidmət, əlyazmalarına xüsusi qayğı göstərmək və əlyazmalar üzərində elmi-tədqiqat aparmaq işlərini təşkil etmək məqsədilə yeni yaradılacaq əlyazmaları üzrə respublika mərkəzi üçün 12 nəfərdən ibarət ştatın təsdiq olunması barədə SSRİ Nazirlər Soveti Dövlət Ştat Komissiyası qarşısında məsələ qaldırmaq xahiş edilir, məktuba əlavədə Azərb.SSR EA Nizami adına Ədəbiyyat İnstitutu yanında əlyazmaları fondu üçün nəzərdə tutulmuş 12 nəfərdən ibarət ştat cədvəli də təqdim edilmişdir.

Məktubda daha sonra əlyazmalar fondunun Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 30 illiyi münasibətilə şənlikləri dövründə açmağın planlaşdırıldığı bildirilir və

Respublika Nazirlər Sovetindən Respublikanın müxtəlif idarələrində saxlanılan bütün əlyazmalarının Azərb.SSR EA əlyazmalar şöbəsinə verilməsi haqqında göstəriş vermək xahiş olunurdu.

Maraqlıdır ki, bu məktuba Y.Məmmədəliyev fevralın 3-də imza etmişdir. Elə həmin tarixdə yəni fevralın 3-də də məktubun üzərində Nazirlər Sovetinin sədri T.Quliyevin belə bir dərkənarı var: "M.Əliyev və M.İbrahimov yoldaşlara. Xahiş edirəm, bu məsələni müzakirə edin, yoldaşlarla məsləhətləşməli, sonra qərar qəbul etməli. T.Quliyev 3II [1950]".

Məktubun imzalanması və onun üzərindəki dərkənar tarixlərindən görünür ki, elə məktubu imzaladığı gün Y.Məmmədəliyev T.Quliyevin yanında olmuş, məktubu onunla tanış etmiş və dərkənar qoydurmuşdu. Məktubun Nazirlər Sovetində qeydə alma tarixində də fevralın 3-ü göstərilmişdi.

Azərb.SSR Nazirlər Sovetinin işlər müdiri N.Həsən-zadə fevralın 9-da həmin məktubu Nazirlər Sovetinin Dövlət Plan Komissiyasına göndərərək, Elmlər Akademiyası ilə birlikdə həmin məsələyə baxaraq təkliflər hazırlayıb Nazirlər Sovetinə təqdim etməyi xahiş edir.

Həmin il martın 17-də bu məsələ ilə bağlı Azərbaycan SSR Dövlət Plan Komissiyası sədrinin müavini N.K.Ağayevin imzası ilə Nazirlər Soveti Sədrinin müavini A.M.Əliyevin adına göndərilmiş məktubda bildirilirdi ki, Azərbaycan SSR Elmlər Akademiyasının nadir əlyazmalarının vahid məxəzinin yaradılması haqqındakı təklifinə baxdı. Bu məsələyə baxılan zaman məlum oldu ki, Azərbaycan Dövlət Universiteti və M.F.Axundov adına Dövlət Kitabxanası onlarda olan əlyazmalar fondunun yeni yaradılacaq əlyazmaları fonduna verilməsinə qəti etirazlarını bildirir və öz etirazlarını bununla əsaslandırırlar ki, həmin əlyazmaları Azərbaycan Dövlət Universiteti pedoqoji persionalının və aspirantların elmi işləri, Dövlət Kitabxanası isə kitablardan istifadə edən elmi işçilərin istifadəsi üçün lazımdır. Universitet və Dövlət Kitabxanası SSRİ-də onlara bənzər təşkilatlarının öz əlyazmaları fondlarına malik olduqlarını və özlərinin də buna nəinki malik olmaq və həm də buna tələbatları olduğunu bildirməkdə tamamilə haqlıdırlar. Lakin Dövlət Plan Komissiyası hesab edir ki, bu məsələnin konkret şəraiti nəzərə almaqla həll etmək lazımdır. Nəzərə almaq lazımdır ki, Universitetdə və Dövlət Kitabxanasında bu əlyazmaları hansı şəraitdə saxlanılır və istifadə edilir. Nadir əlyazmaları təkcə onların mühafizəsini təmin edən şərait yaratmaqla deyil, həm də onların korlanması və məhvi üçün yaranan bütün təsadüflərdən qorunması, onlara daim qulluq edilməsini, yəni lazım olarsa, bərpasını və s. təmin etməlidir. Əgər Universitetdə əlyazmaların mühafizəsi işi nisbətən kafidirsə, Dövlət kütləvi kitabxanasında yerin olmaması üzündən bu əlyazmaları tamamilə qeyri normal şəraitdə saxlanılır. Elmlər Akademiyasında yaradılmış mühafizəxana isə əlyazmalarının saxlanılması üçün daha yaxşı şərait yaradar və onların uzun ömürlülüyünü təmin edər:

Məktubun sonunda deyilirdi: "Şübhəsizdir ki, vahid əlyazmalar fondunun yaradılması elmi işçiyə imkan verəcək ki, onu maraqlandıran məsələ haqqında bütün əlyazmalar fondunda nə saxlanıldığını bilsin, həm də bu əlyazmalarının indiki müxtəlif təşkilatlarda səpələndiyi bir vaxta nisbətən onlar bir yerdə toplanarkən nadir əlyazmalarını tədqiq etməklə öz elmi işini daha müvəffəqiyyətlə başa çatdırsın. Azərbaycan SSR Dövlət Plan Komissiyası yuxarıda izah edilənləri nəzərə alaraq, vahid əlyazmalar fondu yaratmaq haqqında Azərbaycan SSR Elmlər Akademiyasının təklifini müdafiə edir".

Həmin il mart ayının 25-də Nazirlər Soveti sədrinin müavini M.Əliyevin tapşırığı ilə Nazirlər Sovetinin işlər müdiri N.Həsənzadə Azərb. SSR EA-nın məktubunu rəy üçün Respublika maliyyə naziri R.N.Sadıxovun adına göndərir. Burada məqsəd əlyazmalar fondunun ştat vahidləri ilə əlaqədar rəy almaq olmuşdur. Həmin il mayın 5-də maliyyə naziri R.N.Sadıxov, Nazirlər Sovetinə göndərdiyi cavab məktubunda bildirirdi ki, Maliyyə Nazirliyi əlyazmalar mühafizəxanası yaratmaq məqsədilə Azərbaycan SSR Elmlər

Akademiyasının xahiş etdiyi ştatlar haqqında 2 nəfər gözətçi ştatı istisna olmaqla, Akademiyanın sistemində digər ştatların ixtisarı hesabına 10 nəfər ştatın təsdiqi haqqında SSRİ Nazirlər Soveti yanında Ştat Komissiyası qarşısında məsələ qaldırmağı mümkün hesab edir.

Maliyyə Nazirliyinin bu məktubuna cavab olaraq Respublika Elmlər Akademiyasının prezidenti M.M.Əliyev 1950-ci il may ayının 18-də Nazirlər Soveti sədrinin müavini A.M.Əliyevə yazırdı ki, Elmlər Akademiyası tələb olunan ştatları özünün ümumi kontingenti hesabına formalaşdırdığı üçün SSRİ Nazirlər Soveti yanında Ştat Komissiyası qarşısında bu məsələni qaldırmamağı xahiş edirik: O, həm də öz məktubunda bildirirdi ki, əlyazmalar fondunda bizim Respublikanın böyük tarixi və elmi dəyəri olan qiymətli və nadir əlyazmaları toplanacağı üçün onların bütün sutqa ərzində mühafizəsi işi tələb olunur. Bu məqsədlə Elmlər Akademiyasının mühafizəsi üçün limitin 3 ştat vahidi gözətçi hesabına artırılması haqqında göstəriş verməyinizi xahiş edirəm.

Bu məktuba A.M.Əliyev özünün 24 may tarixli cavabında bildirirdi ki, SSRİ Nazirlər Soveti 1950-ci il üçün Azərbaycan SSR üzrə mühafizə ştatının sayını təsdiq edənə qədər Sizin təklif etdiyiniz Elmlər Akademiyası üçün mühafizə ştatı limitinin artırılması məsələsinə baxıla bilməz.

Maraqlıdır ki, yuxarıda göstərilən məktubdan sonra Respublika Nazirlər Sovetində bu məsələyə baxılması işi birdən-birə dayandırılmışdır. Yalnız 1950-ci il avqust ayının 31-də Elmlər Akademiyasının prezidenti M.M.Əliyevin viza etdiyi "Azərbaycan SSR Elmlər Akademiyası yanında Respublika əlyazmaları fondunun yaradılması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin qərar layihəsi ilə bu məsələnin fəal müzakirəsinin ikinci mərhələsi başlayır. Tezliklə çox kiçik düzəlişlərlə bu layihə Nazirlər Sovetinin qərarlar blankına köçürülmüş və sentyabr ayının 6-29 arası Nazirlər Soveti Rəyasət Heyəti üzvləri tərəfindən razılaşdırılmışdır.



Oktyabrın 2-də bu məsələnin Nazirlər Sovetinin müzakirəsinə çıxarılması ilə əlaqədar hazırlanmış arayışda həmin qərar layihəsinin Maliyyə Nazirliyində - R.N.Sadıxov, Dövlət Plan Komissiyasında N.K.Ağayev ilə razılaşdırıldığı qeyd edilərək, bu məsələnin müzakirəsi üçün Elmlər Akademiyasından M.M.Əliyevin, Dövlət Plan Komissiyasından Ə.İ.İbrahimov və N.K.Ağayevin, Maliyyə Nazirliyindən R.N.Sadıxovun, Mədəni Maarif İşlər üzrə Komitədən Süleyman Rəhimovun, Azərbaycan Həmkarlar İttifaqları Şurasından Əsgərovun, Səhiyyə Nazirliyindən M.Əliyevin, İncəsənət İşləri İdarəsindən H.Sultanovanın və Azərbaycan Dövlət Universitetindən M.Cavadovun dəvət olunduğu, məruzəçinin isə Akademiyanın Prezidenti M.M.Əliyev olacağı bildirilirdi.

Oktyabrın 12-də, yəni həmin məsələnin müzakirəsi günü protokol şöbəsinin rəisi S.Qasımovun imzaladığı ikinci arayışda bu məsələnin Dövlət Plan Komissiyasında müzakirəsi zamanı Azərbaycan Dövlət Universiteti və M.F.Axundov adına Dövlət Kitabxanası nümayəndələri onlarda olan əlyazmalarının yeni yaradılacaq əlyazmalar fonduna verilməsinə qəti etirazlarını bildirdikləri qeyd olunurdu.

Nəhayət 1950-ci il oktyabr ayının 12-də T.Quliyevin sədrliyi ilə keçən Respublika Nazirlər Sovetinin iclasında müzakirə olunan 13-cü məsələ "Azərbaycan SSR Elmlər Akademiyası yanında Respublika əlyazmalar fondunun təşkil edilməsi haqqında"kı qərar layihəsi idi.

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan bu məsələnin müzakirəsinə aid stenoqrammadan görünür ki, həmin məsələnin müzakirəsində Elmlər Akademiyasından M.M.Əliyev, Azərbaycan Dövlət Universitetindən C.X.Hacıyev, Maarif Nazirliyindən Ələkbərov, Ticarət Nazirliyindən Məmmədov, AHİŞ-dən Antelepyan, habelə Nazirlər Soveti Rəyasət Heyətinin üzvləri Y.D.Sumbatov və C.M.Maqomayev iştirak etmişlər.

Bu məsələ haqqında Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti M.M.Əliyev məruzə edir. Öz məruzəsində o,

əlyazmalar fondunun yaradılmasının əhəmiyyətindən danışaraq bildirir ki, respublikamızda çoxlu qiymətli əlyazmaları və köhnə çap kitabları saxlanılır və onlar müxtəlif elmi təşkilatlar arasında səpələnmişdir. Belə bir əlyazmaları fondu Ədəbiyyat İnstitutunun nəzdindədə var. Burada 12500-ə qədər əlyazması və 8500-ə yaxın köhnə çap kitabı saxlanılır. Bütün respublikalarda əlyazmaları və köhnə çap kitabları Elmlər Akademiyası yanında yaradılmış əlyazmaları fondlarında toplanmışdı. Onların xüsusi ştatları var və onların mühafizəsi üçün xüsusi şərait yaradılıb. Bizdə əlyazmaları fondunda Cəfər Cabbarlının, M.S.Ordubadinin arxivləri bir çox qiymətli materiallar, o cümlədən XIII əsr "Marağa observatoriyası haqqında" Nəsrəddin Tusinin əlyazması saxlanılır. O qeyd edir ki, Azərbaycanda qiymətli əlyazmaları və köhnə çap kitabları bütün respublikaya səpələnmişdir. Ona görə də təklif edirik, Ədəbiyyat İnstitutu yanında əlyazmaları fondunu onlardan alaraq, onu Elmlər Akademiyası yanında respublika əlyazmaları fondu edək və şərait yaradaq ki, bütün elmi idarələr ondan istifadə edə bilsin. Qiymətli əlyazmaları xəzinəsinin mühafizəsi nöqteyi-nəzərindən də onların bir yerdə cəmləşdirilməsi vacibdir.

Məruzə ətrafında ilk olaraq Azərbaycan Dövlət Universitetindən stenoqrafik yazının bir vərəqində M.Cavadovun, digər vərəqində isə C.X.Hacıyevin çıxış etdiyi göstərilir. Lakin çıxışların mətnindən görünür ki, burada iştirak və çıxış edən C.X.Hacıyev olmuşdur. Çünki bu vaxt o, Universitetin rektoru, M.Cavadov isə tədris işləri üzrə prorektoru idi. Digər tərəfdən C.X.Hacıyev ədəbiyyatçı, M.Cavadov isə riyaziyyatçı olduğu üçün daha çox ehtimal var ki, həmin məsələnin müzakirəsində məhz C.X.Hacıyev iştirak etmişdir. Görünür, stenoqrafistkalar onları şəxsən tanımadıqları üçün arayışda M.Cavadovun familiyası olduğu üçün onun adını stenoqramaya salmışlar.

O, öz çıxışında bildirir ki, Azərbaycan Dövlət Universitetində çox qiymətli əlyazmalar fondu var. Hər gün bizim



tələbələr onlardan istifadə edirlər. Əlyazmalar fondu Elmlər Akademiyası yanında cəmləşdirilərsə, onda onlardan istifadə üçün bizim tələbələrə şərait yaradılacaqmı? Biz özümüz hər gün Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda işləyirik. Əlyazmaları fondu qaranlıq bir otaqda yerləşir. Orada işləmək üçün şərait yoxdur. Son vaxtlar Mirzə İbrahimov yoldaş göstəriş veribdir ki, həmin otaq üçün pəncərə açsınlar, ona da Bakı Soveti icazə vermir. Biz orada əlyazmaları üzərində dəhlizdə işləməyə məcbur oluruq. Tələbələri isə məcbur edirlər ki, 5-ci mərtəbəyə qalxsınlar, orada isə nə stol, nə də stullar var. Mən hesab edirəm, əvvəlcə bunun üçün şərait yaradılsın, sonra bu iş həyata keçirilsin.

Mən qərar layihəsini oxumuşam, orada göstərilir ki, biz əlyazmalarını - əvəzsiz olaraq Elmlər Akademiyasına verək. Universitet SSRİ Ali Təhsil Nazirliyinin sərəncamındadır, ona görə də həmin nazirlik qarşısında məsələ qaldırmaq lazımdır ki, bu əlyazmalar bizim hesabdan silinsin. Çünki əlyazmaların alınması üçün yüz minlərlə manat vəsait xərclənmişdir. Musa Mirzəyeviç deyir ki, Gürcüstanda və başqa ali məktəblərdə əlyazmaları fondu yoxdur. Bu il avqustun 31-də Türkmənistan Universitetinin açılışı olarkən biz onlara Nizaminin əsərlərini göndərmişdik. Tacikistan Universitetindən isə oraya hədiyyə olaraq Nizaminin əlyazmalarını gətirmişdilər. Həmin əlyazmanı onlar bilavasitə universitetin əlyazmalar fondundan gətirmişdilər. Mənə belə gəlir ki, hər bir universitetin kitabxanası yanında əlyazmalar fondu var. Əgər mümkünsə yeni yaradılacaq fonda bizdə olan artıq nüsxələri verək. Bizdə qiymətli kitabların iki-üç nüsxəsi var. Onlardan birini özümüzə saxlayıb, qalanlarını əlyazmalar fonduna verə bilərik. Şərq əlyazmaları və yazıçıların əlyazmaları ilə bağlı onu deyə bilərəm ki, onlar özümüzə də lazımdır. Bizim kitabxananın yanında şərq şöbəsi var. Əgər icazə versəniz, biz onların bir hissəsini orada saxlayar, artıq nüsxələri isə Elmlər Akademiyasına verə bilərik.

Maarif Naziri Ələkbərov isə öz çıxışında bildirir ki, tamamilə düzgün olaraq nadir əlyazmaların bir yerdə toplanılması məsələsi qoyulmuşdur. Köhnə çap kitabları isə olduqca çoxdur və onlar nadir nüsxələr deyillər. Onların hamısını alıb bir yerə yığmaq lazım deyil. Şərq fakültəsinin bu ədəbiyyata hər gün tələbatı var. Respublika fondu hər gün dil və ədəbiyyat öyrənən tələbələrin bu tələbatını ödəmək iqtidarında deyil. Nadir əlyazmaları ilə əlaqədar yenə də onu qeyd etmək istəyirəm ki, nə bizim universitet, nə başqa ali təhsil məktəbləri bu nadir nüsxələri mühafizə etmək üçün lazımi şəraitə malik deyillər. Hazırda Elmlər Akademiyasında da belə bir şərait yoxdur. Görünür, onlar belə bir şərait yaratmaq istəyirlər.

Həmin müzakirədə çıxış edən Ticarət Naziri M.Məmmədov da bütün əlyazmalarının vahid mənbədə toplanması ideyasını müdafiə edərək bildirir ki, onların bir yerdə toplanması onlardan düzgün istifadə üçün də şərait yaratmağa imkan verəcək.

Çıxış edənlərə cavab verən Elmlər Akademiyasının prezidenti M.Əliyev bildirir ki, C.X.Hacıyev yoldaş məsələni düzgün izah etmədi. Ədəbiyyat İnstitutunda ikinci dərəcəli əlyazmaları cəmləşdirilib, nadir əlyazmalar isə birinci mərtəbəyə köçürülüb. Birinci mərtəbədə 12 otaq bu məqsəd üçün lazımi avadanlıqla təmin edilib, xüsusi mühafizəxana və hava təmizləmə sistemi yaradılıb. Burada əlyazmaları ilə işləməyi bacaran xüsusi elmi işçilər işləyirlər. Onlar ərəb, fars, Azərbaycan, rus və digər xarici dilləri bilirlər. Mən çox istəyərdim ki, sabah C.X.Hacıyev yoldaş gəlsin bir yerdə gedib baxaq. Burada stol və stullarla təmin olunmuş xüsusi otaq var ki, istəyənlər orada əlyazmaları üzərində işləyə bilərlər.

Universitetdə olan əlyazma və köhnə çap kitabları barədə M.Əliyev bildirir ki, Elmlər Akademiyası məsələni elə qoymur ki, əgər sizdə dörd köhnə çap kitabı varsa, birini yeni yaradılacaq əlyazmalar fonduna verəsiniz. Burada söhbət nadir kitablardan gedir. Söhbət o əlyazma və köhnə çap



kitablarından gedir ki, onlar yeganə nüsxədir və onların hamısı bir yerdə mühafizə edilməlidir. Bunun üçün xüsusi ştatlar ayrılmış, orada 6 nəfərə yaxın elmi işçi çalışır, fondun müdiri elmlər namizədi M.A.Sultanovdur. Ərəb və fars dillərini bilən M.Əsgərov da burada çalışır. Biz hər kəsin oraya gəlməsi və əlyazmalardan istifadəsinə icazə verməyəcəyik.

Sonra iclasa sədrlik edən T.Quliyev bu məsələ haqqında geniş şəkildə öz fikirlərini bildirir. O, qeyd edir ki, mənə belə gəlir, bu vaxta qədər Zaqafqaziya respublikaları arasında yeganə olaraq biz özümüzdə olan qiymətli şeylərin mühafizəsini təmin edə bilməmişik. Əgər biz bu işə daha ciddi yanaşsaq, görünür, onları yığmaq və mühafizə etmək lazımdır. Əgər M.Əliyev yoldaşın təklif etdiyi kimi bütün qiymətli əlyazma, çap və s. kitabları bir yerə toplasaq, onda elə bir şərait də yaratmaq lazımdır ki, hər kəsin onlardan istifadə etməyə, onlarla tanış olmağa imkanı olsun. Əlyazmalarının nadirlik dərəcəsini müəyyən etmək lazımdır. Elə şeylər var ki, onları çox nadir qiymətli əşya kimi mühafizə etmək lazımdır və hər kəsi onlardan istifadə etməyə buraxmaq olmaz. Özü də onları təkcə adamların deyil, həm də atmosferin dağıdıcı təsirindən də qorumaq lazımdır. Bu nüsxələr xüsusi şəraitdə, əgər belə demək mümkündürsə dəmir qıfıl altında saxlanılmalıdır, istifadə üçün isə onların yalnız çıxarılmış surətləri verilməlidir. O, Gürcüstanda gördüyü əlyazma və nadir sənədlərin saxlanılması şəraiti haqqında geniş məlumat verərək bildirir ki, bu işi həyata keçirməzdən əvvəl biz nə edəcəyimizi dəqiq müəyyənləşdirməliyik. Məsələn, nadir sənədlər dedikdə nəyi nəzərdə tuturuq? Qərar layihəsində köhnə kitabları, Azərbaycanın elm və mədəniyyətinin görkəmli xadimlərinin arxivlərinin də bu fondda cəmləşdirilməsi nəzərdə tutulur. Belə olduqda artıq fondun fəaliyyət çərçivəsi genişlənir. Görkəmli adamların arxivi. Burada artıq nadirlikdən başqa şeyə keçir. M.Əliyev cavab verəndə ki, şəxsi arxivlər də nadirdi, T.Quliyev bildirir ki, "Mən razı, onlar qiymətlidirlər, nadirlik isə başqa şeydi.

Şəxsin qiymətli kitabxanası və ya arxivi olar, onun nadirlik məsələsinə isə yenidən baxmaq lazımdır".

C.Maqomayev də bu məsələ haqqında qərar layihəsinə öz münasibətini bildirir. Nəticədə sədrlik edən T.Quliyev təklif edir ki, gəlin, qərar layihəsini əsasən təsdiq edək və ayrı-ayrı maddələrə, xüsusilə ikinci maddəyə yenidən baxmaq lazımdır. Müzakirənin nəticəsində belə bir qərar qəbul olunur: "Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən təqdim olunmuş Azərbaycan SSR Nazirlər Sovetinin qərar layihəsi əsasən təsdiq edilsin və müzakirə zamanı deyilmiş təkliflər nəzərə alınaraq redaktə edilsin".

Nəticədə "Azərbaycan SSR Elmlər Akademiyası yanında Respublika əlyazmaları fondunun yaradılması haqqında" C.Maqomayevin imzaladığı Azərbaycan SSR Nazirlər Sovetinin 1950-ci il 12 oktyabr tarixli, 1410 №-li qərarında onun layihəsinə yalnız aşağıdakı dəyişikliklər edilmişdir. Qərarın giriş hissəsində "qədim çap kitabları" sözlərinin əvvəlinə "nadir çap kitabları" sözü, qərarın 2-ci maddəsinə yenə də "qədim çap kitabları" ifadəsinin əvvəlinə "nadir çap kitabları" sözü, layihədəki "əvəzsiz olaraq" ifadəsi "müəyyən edilmiş qaydalarla" ifadəsi ilə əvəz olunmuşdur.

Beləliklə də, 1950-ci il fevral ayının 2-dən oktyabr ayının 12-nə qədər bir müddətdə, yəni 7 ay 10 gün davam edən müzakirə nəticəsində bu gün 50 illiyini qeyd etdiyimiz M.Füzuli adına Əlyazmalar İnstitutunun sələfi olan əlyazmalar fondu meydana gəlmişdir. 50 yaşlı və həmişə yaşar mənəvi xəzinəmizi öz şanlı ildönümü və yubileyi münasibətilə təbrik edir, onun əməkdaşlarına öz xeyirxah və xalqımız üçün olduqca gərəkli işlərində yeni-yeni müvəffəqiyyətlər arzu edirik.

**Orta əsr əlyazmaları və Azərbaycan Mədəniyyəti tarixi problemləri. Bakı, 2000-ci il**



# ГЕНЕРАЛ ДЕ ГОЛЛЬ В БАКУ

В Государственном архиве кинофотодокументов Азербайджанской Республики хранится уникальная кинохроника о приезде в Баку славного сына французского народа, выдающегося государственного и политического деятеля генерала Шарля де Голля. Генерал де Голль впервые прибыл в Баку 27 ноября 1944 г. Его торжественно встречали на аэродроме. Вот полный текст сообщения ТАСС от 29 ноября о встрече генерала де Голля:

"27 ноября в 14 часов в Баку прибыли Глава временного правительства Французской Республики генерал де Голль и сопровождающие его лица. На аэродроме генерал де Голль был встречен представителями правительства Азербайджанской ССР и прибывшими из Москвы для встречи представителями НКИД и НКО.

На аэродроме, украшенном французским и советским национальными флагами, был выстроен почетный караул. Оркестр исполнил французский и советский гимны. Вечером генерал де Голль присутствовал на спектакле "Кероглы" в Азербайджанском оперном театре.

Ввиду плохих метеорологических условий генерал де Голль и сопровождающие его лица на следующий день выехали из Баку в Москву специальным поездом".

И одновременно в монтажном листе кинолетописи читаем: "Шарль де Голль выходит из вагона поезда и обменивается рукопожатием со встречающими его лицами на перроне Бакинского вокзала. В сопровождении официальных лиц высокий гость садится в машину...

...Шарль де Голль - на поле аэродрома. Воины строились в почетный караул. Шарль де Голль принимает рапорт начальника почетного караула, выражает ответное приветствие. Шарль де Голль и сопровождающие его лица принимают парад почетного караула.

Французский гость прощается с провожающими, обменивается рукопожатием с советским генералом. Генерал де Голль направляется к самолету".

Таким образом, из сообщения ТАСС и кадров немой кинохроники следует, что генерал де Голль побывал в Баку дважды: по приезде в Советский Союз через Иран и во время отъезда из СССР тем же путем.

Итак, в конце 1944 г., с 27 ноября до 13 декабря, генерал Шарль де Голль 17 дней провел в Советском Союзе. Направляющийся из Баку в Москву генерал де Голль 30 ноября специальным поездом прибыл в Сталинград. Здесь от имени французского народа городу-герою была вручена мемориальная доска. Во время торжественного приема де Голль произнес речь, которая заканчивалась словами: "...Я хочу передать героическому Сталинграду скромный, но искренний подарок французского народа. Да здравствует наша победа над общим врагом!".

Генерал де Голль осмотрел достопримечательности города и посетил Сталинградский тракторный завод. Почетный гость присутствовал при показе фильма "Сталинград". В тот же день генерал и сопровождающие его лица покинули Сталинград, направляясь в Москву.

2 декабря Глава временного правительства Французской Республики генерал де Голль в сопровождении министра иностранных дел г-на Ж.Бидо, начальника штаба национальной обороны генерала Жюэна и других лиц специальным поездом прибыл в Москву. Их также сопровождали встречавшие генерала де Голля в г. Баку представители НКИД и НКО СССР. Вместе с генералом де Голлем прибыл посол СССР во Франции А.Е.Богомолов.



На вокзале генерала де Голля встречали заместитель председателя Совета народных комиссаров и Народный комиссар иностранных дел СССР В.М.Молотов и другие ответственные государственные деятели.

В день приезда в Москву на вокзале генерал де Голль сделал следующее заявление:

"Я счастлив и польщен тем, что нахожусь в столице Советского Союза, принеся сюда дань уважения Франции, союзницы Советского Союза для обеспечения победы и затем для обеспечения мира, который должен стать благодеянием для человечества".

2, 6 и 8 декабря председатель Совета народных комиссаров СССР И.В.Сталин имел беседу с генералом де Голлем.

3 декабря И.В.Сталин дал завтрак и 9 декабря - обед в честь именитого гостя.

10 декабря СССР подписал советско-французский договор о союзе и взаимопощи. В тот же день Глава временного правительства Французской Республики генерал де Голль и сопровождающие его лица выехали из Москвы.

Покидая Москву, генерал де Голль сделал следующее заявление: "Несколько дней, проведенные нами в Советской России, будут, я полагаю, отмечены в истории этой войны, и, думаю, также в тех деяниях, которые будут совершать бок о бок объединенные нации в условиях мира для блага всех людей".

В республиканских газетах от 14 декабря 1944 г. были помещены следующие сообщения ТАСС от 13 декабря:

"Сегодня в Баку специальным поездом прибыли, возвращаясь из СССР во Францию, Глава временного правительства Французской Республики генерал де Голль, министр иностранных дел г-н Ж.Бидо и сопровождающие их лица. На вокзале прибывших встречали представитель правительства Азербайджанской ССР и представители местных властей г.Баку.

В 12 час.30 мин. генерал де Голль и г-н Ж.Бидо с сопровождающими их лицами вылетели на советском самолете в Тегеран. Вместе с генералом де Голлем вылетел посол СССР во Франции А.Е.Богомолов.

На аэродроме отъезжающих провожали представители правительства Азербайджанской ССР и местных властей г.Баку. При проводах был выстроен почетный караул, были исполнены французский и советский гимны. Аэродром был украшен французскими и советскими флагами.

От Москвы до Баку генарала де Голля и г-на Ж.Бидо провожали представители НКИД и НКО СССР".

Как следует из сообщения, эта лента запечатлела отъезд генерала де Голля из Баку. В тот же день в 15 час. он прибыл в Тегеран.

**Газета "Бакинский рабочий",**
**11 января 1997 год, № 6,7**



# НАЦИОНАЛЬНЫЕ АРХИВЫ:
## *новая стратегия*

***27 июля 1999г. Президент Гейдар Алиев подписал Указ "О применении Закона Азербайджанской Республики "О национальном архивном Фонде"", согласно которому Кабинету Министров и другим структурам исполнительной власти были даны конкретные поручения по решению вытекающих из нового закона задач.***

***Этот документ, состоящий из пяти глав и 23 статей, определяет перспективные направления и стратегию архивного строительства в нашей стране, регулирует отношения, связанные с формированием, охраной и использованием Национального архивного Фонда Азербайджанской Республики, координирует всю деятельность архивов в стране.***

Архивное Строительство в нашей стране прошло длительный и очень сложный путь. Азербайджан - край древней истории и культуры, имел важнейшее стратегическое значение во все времена и поэтому на протяжении веков служил объектом внимания иноземных завоевателей, часто становясь ареной их противоборства. В результате войн ценнейшие исторические документы либо уничтожались, либо вывозились. **Доказательством этому могут служить многочисленные редкие, подчас уникальные документы и рукописи, хранящиеся и настоящее время в музеях и архивах различных стран Европы, Азии и Америки.**



33.-3510

Вплоть до начала XX века Азербайджан не имел архивов - важнейших атрибутов государственности, хранилищ духовных ценностей каждого народа. Основы этого дела в нашей сгране были заложены декретом председателя Азербайджанского Ревкома Наримана Нариманова от 6 декабря 1920 г. "О создании единого государственного архивного фонда и организации Центрального государственного архива при Народном комиссариате просвещения". В соответствии с этим документом все существовавшие на территории Азербайджана в прошлом и действовавшие на момент его издания архивы предприятий, учреждений и организаций включались в состав Единого государственного фонда, а все документы по окончании делопроизводства должны были сдаваться в Центральный государственный архив Азербайджанской ССР, открытый в Баку в январе 1921 г., который стал первым государственным учреждением подобного рода в Закавказье.

В первые годы советской власти архивные работники Азербайджана занимались сбором и систематизацией документов из бывших учреждений царской власти в Бакинской и Елизаветпольской губерниях, частных фирм и общественных организаций, действовавших на территории Азербайджана, а также относящихся к периоду Азербайджанской Демократической Республики 1918 - 1920 гг.

В августе 1922 г. руководство Центральным государственным архивом было возложено непосредственно на Президиум Центрального исполнительного комитета Азербайджана, что способствовало подъему авторитета и усилению в целом роли архивных структур, которые в 20-х годах стали создаваться и на местах. В декабре 1925 г. был создан Центральный архив Нахчыванской АССР, а с 1928 г. началось создание уездных архивных бюро.

В 1930 г. с целью расширения сферы деятельности архивов и оживления их работы Президиум ЦИК Азербайджана принял постановление о создании Центрального республиканского управления архивов и утвердил соответствующее Положение, согласно которому новому управлению поручались не только комплектация, систематизация и охрана документов, но и организация их использования в научно-исследовательских целях для содействия политическому, народнохозяйственному и культурному строительству. Постановлением Президиума ЦИК Азербайджанской ССР, принятым в апреле того же года, на базе Центрального архива были созданы Государственный центральный архив Октябрьской революции (с кинофотоотделом) и Государственный центральный исторический архив.



В 30-х годах с целью охраны и использования архивных документов на местах в ряде городов и районов республики были созданы соответствующие бюро, позже преобразованные в городские и районные государственные архивы.

В 1938 г. в Азербайджане, как и во всем СССР, архивные учреждения были переданы в подчинение Наркомата внутренних дел, где оставались до 1960 г. Эта практика превратила архивы по сути в закрытые учреждения, создавая значительные помехи для научно-исследовательской работы в них и использования имеющихся там материалов.

В 1960 г., как и в других союзных республиках, в Азербайджане архивные учреждения были переданы в подчинение Совета Министров республики. В эти годы внимание к архивному делу и использованию архивных материалов вновь усилилось, началась работа по реорганизации и расширению государственной архивной сети. В 1966 г. были созданы Центральный государственный республиканский архив литературы и искусства, а в 1968-1969 гг. - Центральный государственный архив звукозаписи и Центральный государственный архив научных, технических и медицинских документов Азербайджанской ССР, а также филиалы Центрального государственного архива Октябрьской революции в 15 городах и районных центрах; 50 районных государственных архивов были преобразованы в

архивы с непостоянной структурой, занимающиеся временной охраной документов.

После распада СССР бывший партийный архив был передан в распоряжение Главного управления архивов, после чего постановлением Кабинета министров на его базе был создан Архив политических партий и общественных движений Азербайджанской Республики.

**Сегодня архивная система Азербайджанской республики включает 7 государственных архивов республиканского значения, непосредственно подчиняющихся Главному управлению, 15 филиалов Центрального архива, Государственный архив Нахчыванской Автономной Республики, а также 55 городских и районных государственных архивов.**

Следует отметить, что после образования СССР в 1922 г., относительная независимость республик всюду, в том числе и в сфере архивного дела, стала постепенно урезываться. Если, как отмечалось выше, Единый государственный архивный фонд Азербайджанской ССР был создан декретом Н. Нариманова, то позже эти полномочия были изъяты у союзных республик, архивные органы переданы в союзно-республиканское подчинение, а фактически руководство их работой стало осуществляться из Москвы. Отныне архивы отчитывались уже не перед республиканскими органами власти, а союзными - вначале перед Главным управлением архивов Министерства внутренних дел, а затем Главным управлением архивов при Совете Министров СССР, которые и руководили работой этих организаций по всему Союзу. Юридической базой явился ряд постановлений Совета народных комиссаров СССР, принятых в 20-30-е гг., а также "Положение о государственном архивном фонде Советского Союза", утвержденное Советом Министров СССР 13 августа 1958 года. В этом документе указывалось, что "Государственный архивный фонд Советского Союза организован для центрального учета, хранения, научного и



практического использования документальных материалов. С момента создания Государственного архивного фонда Советского Союза и вне зависимости от использованных при этом техники и методов он представляет собрание документальных материалов научного, политического и практического значения, относящихся к Советскому государству".

4 апреля 1980 г. Советом Министров СССР было утверждено новое Положение о Государственном архивном фонде, в котором в добавление к процитированному выше говорится: "Государственный архивный фонд СССР находится в распоряжении Главного управления архивов при Совете Министров СССР". Как видим, все архивы на обширной территории Союза оказались в подчинении у единого центра. Другими словами, союзные республики, в том числе и Азербайджан, не были полноправными хозяевами своего духовного достояния, каковыми являются архивы. **И лишь в 1991 г., с крушением советской империи и обретением нашей страной государственной независимости, отечественные архивы нашли своего подлинного хозяина - народ Азербайджана. Хранившиеся на протяжении десятилетий за семью печатями архивные документы поступили в его распоряжение и стали широко использоваться при исследованиях отечественной истории.** В этот период стали налаживаться связи архивов нашей страны с международными архивными организациями и архивными службами отдельных государств. В 1996 г. Главное управление архивов Азербайджанской Республики было принято в Международный архивный совет при ЮНЕСКО в качестве полноправного члена, наши архивисты наладили тесные связи с коллегами из ряда соседних стран, в первую очередь Турции и Ирана. Сегодня документы по различным отраслям знаний из наших хранилищ активно используются исследователями из США, Франции, Германии, Турции, Ирана, Бельгии, Польши и других стран. В свою очередь, перед

отечественными архивистами открылись широкие возможности сбора документов и материалов по истории нашей страны, хранящихся в архивах этих стран, и лишь материальные трудности мешают нам воспользоваться столь перспективными возможностями. Однако нет сомнения, что в скором времени и эти помехи будут устранены.

**После восстановления государственной независимости Азербайджана возникла необходимость в новом законодательстве и нормативных актах в области архивного дела. Краеугольным камнем в этом вопросе можно назвать Закон Азербайджанской Республики "О национальном архивном фонде". Подчеркнем и то, что в бывшем СССР законов по архивному делу принято не было; вся работа в данной сфере регулировалась "Положением о Государственном архивном фонде СССР", утвержденным Советом Министров СССР и различными нормативными актами. После развала Союза во всех бывших его республиках были приняты законы по архивному делу.**

В Азербайджане работа над проектом закона о Национальном архивном фонде велась длительное время, и готовый законопроект был представлен в Милли меджлис в 1998 году. Доработка и обсуждение этого документа активно проводились в период весенней сессии парламента 1999 г. В июне того же года был принят Закон "О национальном архивном фонде" и завизирован Президентом республики 22 июня 1999 года.

27 июля 1999 г. Гейдар Алиев подписал Указ "О применении Закона Азербайджанской Республики "О национальном архивном фонде", согласно которому Кабинету министров и другим структурам исполнительной власти были даны конкретные поручения по решению вытекающих из нового закона задач. Так, Кабинету министров предписывалось утвердить новое Положение и правила, регулирующие связанные с исполнением закона вопросы, и установить в



указанном порядке заработную плату работникам архивных органов, а также решения в рамках своих полномочий других вопросов, вытекающих из Закона "О национальном архивном фонде".

**Этот документ, состоящий из пяти глав и 23 статей, определяет перспективные направления и стратегию архивного строительства в нашей стране, регулирует отношения, связанные с формированием, охраной и использованием Национального архивного фонда Азербайджанской Республики, координирует всю деятельность архивов в стране.**

В первой главе "Общие положения" изложены главные понятия, связанные с архивами, действующее законодательство о национальном архивном фонде, задачи государства в области архивного дела. Надо отметить, что эти задачи впервые перечислены столь детально: "формирование и осуществление государственной политики в области архивного дела; определение единых принципов оганизации архивного дела; комплектация, учет, охрана документов архивного фонда, контроль за соблюдением порядка их использования; государственные гарантии защиты и развития архивов; подготовка архивных кадров; комплектация, учет, охрана и использование документов архивных фондов и государственного архивного фонда, регулирование связанных с этими документами вопросов собственности, укрепление материально-технической базы архивов; регулирование вопросов, связанных с временным вывозом документов архивного фонда за границу; контроль за доставкой в государственные архивы Азербайджанской Республики, учетом и охраной хранящихся в архивах зарубежных стран документов (их копий) по истории и культуре Азербайджана, отражающих материальную и духовную жизнь народа".

Вторая глава - "Структура Национального архивного фонда и его организация" - включает разделы: "Нацио-

нальный архивный фонд и его структура", "Классификация документов, включенных в Национальный архивный фонд", "Источники создания архивов и формирования Национального архивного фонда", "Порядок включения архивов, архивных фондов и документальных коллекций в состав Национального архивного фонда и исключения из его состава", "Собственность на особую часть государственного архивного фонда и документы архивных фондов".

**Находящиеся на территории Азербайджанской Республики архивные документы включаются в Национальный архивный фонд независимо от источника возникновения, места хранения и формы собственности.** Архивные фонды и архивные документы, находящиеся в государственной форме собственности, составляют принадлежащую государству часть Национального архивного фонда. Другие архивные фонды и документы образуют соответственно негосударственную часть Национального фонда.

В соответствии с Указом Президента Азербайджанской Республики от 27 июля 1999 г. порядок комплектации, охраны и использования Национального архивного фонда определяется Положением, утверждаемым Кабинетом министров республики.

**В Национальный архивный фонд входят: законодательные акты, изданные в Азербайджане в разное время; управленческие документы организаций, действовавших и действующих на территории Азербайджанской Республики; документация органов суда и прокуратуры; статистические, научные, технологические, нормативно-технические, проектные, конструкторские, патентные, картографические и другие документы; кино-, фото-, аудио-, видеоматериалы, дизайнерские разработки и архитектурные проекты; рукописи, книги, брошюры и периодическая печать, имеющие особое значение; произведения искусства, научные труды, литературные и музыкальные**



**произведения; документация партий, общественных и негосударственных организаций; дневники, мемуары, письма и другие документы личного характера.**

Законом "О Национальном архивном фонде" впервые оговаривается право государственных, общественных, религиозных и других организаций, а также граждан в установленном законом порядке создавать архивы. Все эти архивы в совокупности составляют Национальный архивный фонд Азербайджанской Республики.

Национальный архивный фонд Азербайджана комплектуется архивными документами: органов законодательной и исполнительной власти: органов суда и прокуратуры; воинских частей и соединений, военных учебных заведений; органов местного самоуправления, предприятий, учреждений и организаций промышленности, строительства, сельского хозяйства и других отраслей экономики; учреждений науки, культуры, здравоохранения, образования и спорта; средств массовой информации и издательств; совместных предприятий, общественных объединений, политических партий и религиозных организаций, действующих в Азербайджанской Республике в установленном законом порядке; негосударственных предприятий, учреждений и организаций; дипломатических представительств Азербайджанской Республики в зарубежных странах и международных оганизациях; прочих предприятий, учреждений и организаций; граждан Азербайджанской Республики. Архивный фонд государства может формироваться также за счет дарений и завещаний юридических и физических лиц, скупки ценных документов.

В соответствии с Законом "О национальном архивном фонде" порядок включения архивов, архивных фондов и документальных коллекций в состав Национального архивного фонда, исключения из него или уничтожения определяется Главным управлением архивов на основе правил, утвержденных Кабинетом министров. Содержащиеся в

Национальном архивном фонде архивные документы и документальные коллекции, представляющие особую историко-культурную ценность, признаются этим законом уникальными памятниками искусств. Закон запрещает уничтожение хранящихся в Национальном архивном фонде документов без проведения экспертизы их ценности или в случае проведения экспертизы с нарушением ее правил.

В соответствии с новым законом принадлежащая государству часть Национального архивного фонда охраняется как объект государственной собственности. Документы, являющиеся государственной собственностью, не могут быть объектом договоров, предусматривающих их куплю-продажу и изменение формы собственности, и используются только в установленном законом порядке.

**Документальные фонды предприятий, учреждений и организаций, независимо от формы собственности, действующих в Азербайджанской Республике в установленном законом порядке, являются их собственностью.** Документальные фонды физических лиц составляют их личную собственность. В соответствии с названным законом права собственников архивных документов, независимо от формы их собственности, обеспечены государственными гарантиями. Изъятие или конфискация архивных документов государственными органами могут осуществляться в установленном законом порядке.

В соответствии со ст. 8 закона документы органов национальной безопасности, внутренних дел и оборонной сферы включаются в состав Национального архивного фонда, но охрана своих архивных фондов осуществляется самими этими органами.

Третья глава закона - "Учет и охрана документов Национального архивного фонда" - состоит из пунктов: "Обеспечение охраны документов Национального архивного фонда", "Регистрация документов Национального архивного фонда" и "Собрание Национального архивного фонда".



Включаемые в Национальный архивный фонд документы, вплоть до сдачи в государственный архив на постоянное хранение, временно хранятся в архивах, созданных на государственных предприятиях, учреждениях и организациях. Сроки хранения этих документов в ведомственных архивах различны и зависят от степени значимости учреждений, вида документов и др. Например, Законом "О национальном архивном фонде" срок хранения в ведомственных архивах для документов государственных и исполнительных органов установлен в 15 лет, а для властей городского и районного уровней - в 5 лет; для научно-технической документации - до потери практического значения, но не более 15 лет, для кино-, фото-, аудио- и видеоматериалов - 3 года, актов гражданского состояния, а также относящихся к нотариальной деятельности, судебным делам и личному составу документов - 75 лет.

Архивные фонды ликвидированных государственных предприятий, учреждений и организаций, в случае отсутствия их преемников, должны в установленном действующим законодательством порядке сдаваться в государственные архивы.

**В Законе Азербайджанской Республики "О Национальном архивном фонде" указывается, что архивные материалы государственных учреждений, чьи документы находят практическое применение наиболее длительное время - служб геодезии и картографии, геологии и минеральных ресурсов, экологии и контроля за природопользованием, стандартизации, метрологии и гидрометеорологии, Академии наук республики с разрешения соответствующих органов исполнительной власти постоянно хранятся в указанных учреждениях.** Указом Президента Азербайджанской Республики о применении Закона "О Национальном архивном фонде" этим правом наделен Кабинет министров республики.

Закон "О Национальном архивном фонде" исключает возможность приватизации документов архивных фондов, находящихся в государственной собственности, а равно и помещений государственных архивов и их филиалов, городских и районных государственных архивов, прилегающих земельных участков и оборудования этих архивов.

В соответствии с этим законом и Указом Президента по его применению собственники негосударственных архивных фондов должны соблюдать установленные Кабинетом министров Азербайджанской Республики правила по охране архивных фондов. Государственная регистрация включенных в национальный архивный фонд документов, независимо от формы собственности и места их хранения, осуществляется Главным управлением архивов.

Закон "О Национальном архивном фонде" предусматривает выпуск собрания Национального архивного фонда. Оно готовится к выпуску государственными архивами. Необходимая для этого информация ежегодно передается юридическими лицами в установленном порядке в Главное управление архивов. Собрания Национального архивного фонда могут включать в себя также имеющие историко-культурную ценность документальные фонды и коллекции, хранящиеся у граждан.

Глава четвертая закона - "Управление архивным делом" - состоит из разделов:

"Государственное управление архивным делом", "Сдача выявленных или обнаруженных архивных документов и документальных коллекций", "Архивная служба в Азербайджанской Республике", "Правила использования документов Национального архивного фонда", "Финансирование архивов", "Социальная защита работников архивов", "Государственная опека негосударственных архивных фондов" и "Участие общественности в архивном деле".

Регламентированные новым законом функции государственного управления архивным делом осуществляются,



по известному Указу Президента, Главным управлением архивов при Кабинете министров и местными органами исполнительной власти.

В соответствии с Законом "О Национальном архивном фонде" любое лицо, выявившее или обнаружившее архивные документы или документальные коллекции, должно немедленно сообщить об этом в соответствующий орган исполнительной власти. Такие лица премируются в установленном Кабинетом министров Азербайджанской Республики порядке, после чего выявленные либо обнаруженные документы и коллекции проходят государственную регистрацию в установленном законом порядке.

С целью регионального ведения в республике архивного дела, формирования, охраны и использования Национального архивного фонда новый закон предусматривает создание государственной архивной службы, объединяющей в себе собственно архивы и государственную систему делопроизводства.

В соответствии с Законом "О Национальном архивном фонде" все юридические и физические лица Азербайджанской Республики вправе пользоваться документами, хранящимися в государственных архивах. Правила пользования документами государственного архивного фонда, независимо от времени их хранения, определяются Кабинетом министров республики. Использование документов негосударственных архивных фондов может осуществляться с согласия их владельцев.

**Новым законом впервые регламентированы сроки использования документов, содержащих сведения, которые составляют государственную тайну, либо касающиеся личной жизни граждан (здоровье, семейная и интимная жизнь, имущественные вопросы). Использование документов с информацией, имеющей характер государственной тайны, допускается не ранее чем через 30 лет после их составления - если другое не**

**предусмотрено законодательством.** В исключительных случаях этот срок может быть изменен Кабинетом министров республики. Использование документов, содержание которых касается личной жизни граждан, если другое не предусмотрено законодательством, допускается не ранее чем через 75 лет после их составления. Открытие этих документов возможно только с согласия заинтересованных лиц либо их наследников.

При использовании документов Национального архивного фонда следует неуклонно придерживаться требования законодательства об авторских правах. В случае нарушения правил пользования архивными документами и документальными коллекциями физические и юридические лица несут предусмотренную законом ответственность.

В соответствии с новым законом архивы в зависимости от формы собственности могут финансироваться из государственного бюджета, местных бюджетов, средств владельцев, за счет доходов от своей деятельности, а также из других источников, если это не запрещено законодательством .

**Значительное внимание уделяется в новом законе вопросам социальной защиты работников архивов - этот вопрос берется под государственную гарантию.** Социальная защита работников архивов осуществляется на основе ст. 47 Закона Азербайджанской Республики "О культуре". В Законе "О Национальном архивном фонде" заработная плата работников архивов впервые приравнивается к должностным окладам работников головного органа - Главного управления архивов. Это позволило повысить зарплату архивистов, которая до этого была одной из самых низких в стране, в 4-5 раз, что создает предпосылки для привлечения к архивной работе квалифицированных кадров.

**Особое место уделено в законе вопросу государственной опеки негосударственных архивных фондов.** Так, в новом законе оговаривается содействие государства комплектации, охране и использованию фондов негосударственных архивов. Владельцы негосударственных архивов, архивных документов и документальных коллекций, включенных в Национальный архивный фонд и охваченных государственной регистрацией, могут сдавать их на хранение, реставрацию либо для копирования документов в государственном архиве.



Согласно статье об участии общественности в архивном деле, в работе по обогащению архивных фондов, совершенствованию архивного дела, подготовке и осуществлению мероприятий в данной области могут участвовать государственные и негосударственные предприятия, учреждения и организации, граждане, лица без гражданства и иностранцы, в том числе азербайджанцы, являющиеся гражданами других стран.

"Итоговые положения" нового закона посвящены вопросам международного сотрудничества, временного вывоза документов Национального архивного фонда за границу и ответственности за нарушение данного закона.

Закон оговаривает право учреждений государственной архивной службы, а также юридических и физических лиц - владельцев государственных и негосударственных архивных фондов вступать в международные архивные организации, участвовать в международных конференциях и других мероприятиях, налаживать международные связи.

Закон "О Национальном архивном фонде" запрещает вывоз за границу оригиналов документов Национального архивного фонда либо заменяющих их экземпляров. В соответствии с этим законом и Указом Президента о его применении временный вывоз архивных документов или документальных коллекций за рубеж с целью развития международного сотрудничества возможен в рамках правил, установленных Кабинетом министров Азербайджанской Республики.

Наконец, в заключительной статье закона указывается, что юридические и физические лица, повинные в нару-

шении этого закона, несут ответственность в соответствии с законодательством Азербайджанской Республики.

**Итак, Закон "О Национальном архивном фонде", принятый Милли меджлисом и утвержденный Президентом Республики Гейдаром Алиевым - общепризнанным покровителем национального духовного достояния, охватывает все вопросы, связанные с архивным делом в нашей стране и его развитием, определяет главнейшие стратегические направления дальнейшей работы в этой сфере**. Важнейшая задача, стоящая также перед архивными организациями республики, всеми гражданами страны, прежде всего -научной общественностью - это претворение в жизнь требований нового закона, забота об архивах - этом хранилище духовных ценностей нации.

**ЛИТЕРАТУРА**


*1. К 50-летию советского архивного дела. Основные постановления Советского правительства, 1970.*

*2. Государственные архивы Азербайджанской ССР. Проспект-справка (на русском языке). Баку, 1997.*

*3. Положения Главного архивного Управления при Кабинете министров Азербайджанской Республики от 11 марта 1994г.*

*4. Свод Законов Азербайджанской Республики, 1999, №7, стр. 1441-1448; 1538-1539.*


**Журнал "Возрождение-XXI век", 2000 год, № 2**



# Г.С.ГУБАЙДУЛЛИН КАК ВИДНЫЙ ИСТОРИК-АРХИВИСТ

Жизненный и творческий путь славного сына татарского народа Губайдуллина Газиза (Азиза) Салиховича (1887-1937) неразрывно связан с миром исторической науки.

Окончив в 1916 году исторический факультет престижного Казанского университета, он в 1922 году успешно завершает аспирантуру. Знания и профессионализм молодого историка чрезвычайно пригодились в период бурного интереса освободившихся от царской тирании народов к своим историческим корням, к событиям национальной истории. В 1921-1925 годах он увлеченно преподавал историю татар в ряде вузов Казани.

В 1925 году Газиз Салихович связывает свою судьбу с Бакинским государственным университетом. Именно здесь он поднимается на новые ступени своей профессиональной карьеры, становится сначала приват-доцентом, а затем, в 1928 году - профессором, заведующим кафедрой истории тюрко-татарских народов Восточного факультета.

Испробовав силы на журналистском поприще с 1907 года и в педагогической деятельности с 1914 года, он везде добивался заметных успехов, но наиболее преуспел в науке, став видным ученым-историком.

Его опубликованные на русском, татарском, азербайджанском и узбекском языках труды "Положение женщины у тюрко-татарских народов с древнейших времен до Тимура" (1914 г.), "История татар" (1925 г.), "Пугачевщина и татары" (1926 г.), "К вопросу о происхождении хазар" (1927 г.), "Падение империи Тимуридов и



34.-3510

период узбеков" (1928 г.), "Феодальные классы и крестьянство в Азербайджане в XIX веке" (1930 г.) и другие несут на себе печать серьезного, оригинального исследования. Во многих областях истории он был первопроходцем.

Продолжая оставаться одним из лучших университетских преподавателей, Газиз Салихович одновременно начал работать и в Центральном государственном архиве. Это был переломный момент в его биографии. Став ученым-архивистом, он словно приобретает новое качество, становится одним из тех видных историков, кто не мыслит познания прошлого без укрепления источниковой базы исследования, без оказания практической помощи архивному строительству, без опубликования архивных документов.

В личном деле историка сохранилось ходатайство заведующего Азцентргосархива Субханвердиханова перед руководством Наркомпроса республики о назначении Г.Губайдуллина ученым-архивистом архивного ведомства Азербайджана.

Ходатайство было удовлетворено. Приказом наркома просвещения от 17 сентября 1925 года Губайдуллин назначается на должность ученого-архивиста Азцентргосархива.

В хранящемся в Государственном архиве Азербайджанской Республики личном деле Газиза Салиховича имеется и его собственное заявление, датированное 26 апреля 1926 года, о командировании его с мая по август того же года в Ленинград и Казань для изучения там постановки архивного дела. Интересно, что он предлагал в случае, если командировка состоится, сообщать подробную информацию об опыте архивного строительства в этих городах "письмом через каждые 15 дней, что даст возможность сделать некоторые нововведения" еще до его приезда.

Один из самых “любопытных” документов в личном деле Г.Губайдуллина - мандат, выданный ему Азцентргосархивом 1 февраля 1927 года, в нем говорится:



"Заведующий организационно-издательским отд[елом] Азцентргосархива доцент Азиз Салихович Губайдуллин командируется в Москву и Ленинград для ознакомления с постановкой дела в центральных архивах.

Азцентргосархив убедительно просит все архивные учреждения Москвы и Ленинграда не чинить препятствий тов.Губайдуллину при выполнении им возложенных на него задач и оказывать ему всемерное содействие".

Годы работы в Азцентргосархиве стали для Г.Губайдуллина временем плодотворных научных изысканий. В 1925-1926 годах на основе документов архива он подготовил к печати такие оригинальные труды, как "Азербайджанские беки и подвластные им крестьяне", "Феодальные классы и крестьянство в Азербайджане в XIX веке", "Вакуфные имущества Азербайджана".

Работа Г.Губайдуллина "Азербайджанские беки и подвластные им крестьяне" навсегда останется в истории архивного дела в Азербайджане первой публикацией архивных документов, ознакомившей широкую общественность с подлинными текстами ханских грамот и протоколов заседаний парламента Азербайджанской Демократической Республики. При составлении этой публикации автор использовал уникальные документы из фондов Бакинского губернского правления, Бакинской, Шемахинской и Шушинской бекских комиссий, Талышинского временного управления, Кубинского и Ширванского комендатов, а также ряд документов из "Актов, собранных Кавказской археографической комиссией" (т. 7).

Эта публикация Г.Губайдуллина имеет хрестоматийное значение. Каждый ее документ сопровожден пространными комментариями составителя, включающими краткое описание исторической обстановки их конкретного исторического факта, о котором идет речь в тексте документа, а в некоторых случаях приведена характеристика проис-

хождения документов, как, например, в комментариях к ханским грамотам.

Документы большей частью опубликованы без перевода, на языках оригиналов (азербайджанском и русском). Исключение составили ханские грамоты, тексты которых помещены в переводе с фарси на азербайджанский язык. Все комментарии к документам написаны на азербайджанском языке. Значение выхода в свет этой публикации трудно переоценить.

Именно она положила начало археографической деятельности государственной архивной службы Азербайджана.

В другой интересной археографической работе Г.Губайдуллина "Феодальные классы и крестьянство в Азербайджане в XIX веке" приводятся целиком или с незначительными купюрами документы архива, освещающие борьбу крестьян против феодалов-землевладельцев. Материал опубликован на языках подлинников - азербайджанском (с переводом на русский язык) и русском. Стиль оригинала бережно сохранен.

Г.Губайдуллин продолжал совершенствовать свое публикаторское мастерство, расширял круг публикуемых источников. Изданный ценный труд "Вакуфные имущества", принадлежавший его перу периода сотрудничества в Азцентргосархиве, содержит отдельные выдержки из докладов бакинского казия. Тексты документов опубликованы на языке оригинала - азербайджанском, без перевода.

Когда в начале 1927 года был создан организационно-издательский отдел Азцентргосархива в составе заведующего и двух научных сотрудников, то далеко не случайно, что во главе этого подразделения встал именно видный ученый-историк, автор многочисленных научных трудов и публикаций Газиз Салихович.

Однако загруженность работой в университете в конце двадцатых годов все же давала о себе знать. Г.Губайдуллин



на некоторое время покидает Азцентргосархив, но 16 октября 1936 года возвращается вновь, будучи зачисленным на должность старшего научного сотрудника Центрального архивного управления по историческому архиву. Здесь он проработал до февраля 1937 года.

Интересные сведения о биографии Г.Губайдуллина содержит личный листок номенклатурного работника, который он заполнил и подписал 16 октября 1936 года, т.е. по возвращении в архивное ведомство. Этот листок был подшит во вновь заведенное на него личное дело, где имеется также заявление Г.Губайдуллина на имя управляющего Центральным архивным управлением от 14 февраля 1937 года. Ученый явно мечтал продолжить работу в архиве, но не хотел нанести ущерб педагогической деятельности. "В следствии увеличения работы по линии моей основной службы в АГУ после второго семестра, - пишет профессор в своем заявлении, - приходить в архив я ежедневно не в состоянии. На основании этого прошу Вас разрешить мне приходить на работу 4 раза в декаду и соответственно с этим уменьшить мою зарплату (примерно установить 150 руб.)".

Проблема была решена приказом по ЦАУ Азербайджанской ССР от 16 февраля 1937 года, согласно которому старший научный сотрудник Г.Губайдуллин переводился на совместительство с установлением ему при работе через день оклада в размере 200 рублей в месяц.

Однако его работа в ЦАУ по совместительству оказалась недолгой. Уже через неделю, т.е. 20 февраля 1937 года, Г.Губайдуллин без каких бы то ни было оснований освобождается от службы. По-видимому, это было связано с его внезапным арестом...

На основании сведений, составленных из фрагментов следственного дела Г.Губайдуллина и опубликованных академиком Зией Бушятовым (см.: "Елм-Наука", 1990, 31 марта,

№ 12-13), видно, что первый допрос Г.Губайдуллина состоялся 22 марта, а все следствие продолжалось до 7 сентября 1937 года. Наконец, 16 сентября на основе явно сфабрикованных сведений было составлено обвинительное заключение, по которому Г.Губайдуллин обвинялся в том, что он будто бы является членом "Центра Всесоюзной контрреволюционной пантюркистской организации", подготовлявшей вооруженное отторжение национальных республик от СССР и создание единого тюркского государства, а также состоит агентом германской, японской и турецкой разведок.

На закрытом судебном заседании выездной сессии Военной коллегии Верховного суда СССР, продолжавшемся 12 октября 1937 года всего 20 минут (с 11.40 до 12 час.), Г.Губайдуллин был приговорен к высшей мере наказания, расстрелу. На следующий же день, 13 октября 1937 года, приговор был приведен в исполнение...

Через 20 лет, 16 марта 1957 года, Г.Губайдуллина реабилитировали, его честное имя было восстановлено.

Один из первых историков-архивистов Азербайджана, Г.Губайдуллин был и остается первым учителем многих азербайджанских историков и архивистов. Азербайджанский народ и научный мир и сегодня чтут с признательностью светлую память о крупном историке, педагоге и ученом-архивисте Газизе Салиховиче.

**Журнал "ГАСЫРЛАР АВАЗЫ - ЭХО ВЕКОВ"**
**Казань, 1996 год, № 1-2**



**MÜNDƏRİCAT**

Müəllifdən ... 5

**I. Azərbaycan Xalq Cümhuriyyəti tarixindən**

Azərbaycan Xalq Cümhuriyyəti ... 13
Azərbaycan Cümhuriyyətinin Parlamenti ... 31
Azərbaycan Cümhuriyyəti və Xalq Maarifi ... 54
Azərbaycan Cümhuriyyəti tarixini öyrənmək üçün əsas mənbələr ... 66
Azərbaycanda ilk təhlükəsizlik orqanının yaradılması haqqında ... 75
Fövqəladə Təhqiqat Komissiyası ... 89
"Azərbaycan" qəzeti necə yarandı? ... 101
Bakını necə qorudular? ... 111
Fatali xan Xoyskiy - pervıy rukovoditelğ ADR ... 116

**II. Ermənilərin xalqımıza qarşı coyqırımı və deportasiya tarixindən**

Что это было: геноцид или депортация ... 133
Tarixi həqiqətlər və erməni uydurmaları ... 148
Deportasiya ... 161
Bakıda 1918-ci il mart faciəsi ... 207
Şamaxı faciələri ... 226
Zəngəzur faciələri ... 240
Quba qırğınları ... 254
Qarabağ bölgəsində erməni vəhşilikləri ... 269
Bə'zi məqamlər aydınlaşır ... 293
Mart hadiseyi əliməsi (ön söz) ... 301
Ermənilər və İran (ön söz) ... 309

Ermənilər Dağlıq Qarabağa Muxtariyyatı
necə verdiriblər? ........................................................ 315
Ermənilərin ərazi iddiaları necə yaranmışdır? ........... 346
Erməni xisləti. Bu da bir həqiqətdir ......................... 358
Erməni məkri ............................................................ 365

## III. Tarixdən səhifələr

Xeyirxahlıq mücəssəməsi ......................................... 399
Azərbaycan Xeyriyyə Cəmiyyətləri ......................... 404
Üzeyir dühası ............................................................ 425
Mirzə Cəlil haqqında yeni sənədlər ......................... 433
"Arxivimi təmənnasız sizə bağışlayıram" ................ 439
Azərbaycanda Sovet totalitar rejimi necə yarandı? ... 458
Naxçıvan Muxtariyyəti necə yarandı? ...................... 473
Əzizimiz, müəllimimiz ............................................. 487
Azərbaycan Elmlər Akademiyası Respublika
əlyazmalar fondu necə yaranıb ................................ 497
Генерал де Голль в Баку ........................................... 509
Национальные архивы: новая стратегия ................. 513
Г. С. Губайдуллин как видный
историк-архивист ..................................................... 529

*Rəssamı*
**Əliyev Zaur**

*Texniki redaktoru*
**Elmira Tağıyeva**

*Kompüter qrafikası*
**Ağa Allahverdiyev**

---

Çapa imzalanmış 29.14.2001. Kağız formatı 60X90 1/16.
Şərti çap vərəqi 33,5. Uçot nəşr vərəqi 24,3.
Tiraj 500. Sifariş 3510. Qiyməti müqavilə ilə

---

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
370146 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.